AZƏRBAYCAN RESPUBLİKASI
DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTU

# İZAHLI DİNİ TERMİNLƏR LÜĞƏTİ

BAKI -2020

**Baş redaktor:**
**i.f.d. Aqil Şirinov**

**Müəlliflər:**
**dos. Mübariz Camalov, dos. Elnurə Əzizova, dos. Anar Qafarov, dos. Namiq Abuzərov, dos. Ələddin Məlikov, i.f.d. Aqil Şirinov, f.f.d. Mirniyaz Mürsəlov, s.f.d. Asəf Qənbərov, f.f.d. Kövsər Tağıyev, f.f.d. Əhməd Niyazov, f.f.d. Faiq Əhmədzadə, f.f.d. Vüqar Səmədov, i.f.d. Ülkər Abuzərova**

**Elmi redaktorlar:**
**i.f.d. Ceyhun Məmmədov**
**f.f.d. Mirniyaz Mürsəlov**

**Redaktorlar:**
**Rəna Həsrətova**
**Elnarə Ağaoğlu**

**İZAHLI DİNİ TERMİNLƏR LÜĞƏTİ**
Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2020, 320 səh.

ISBN: 978-9952-8370-9-4

©Aİİ, 2020

# ÖN SÖZ

Azərbaycan tarix boyu müxtəlif dinlərin və sivilizasiyaların kəsişmə məkanı olmuşdur. Ölkəmizdə Zərdüştilik, Yəhudilik, Xristianlıq və İslam dininə məxsus çox sayda dini-tarixi abidənin mövcudluğu bunun əyani göstəricisidir. Azərbaycan daim Şərqdə və bütövlükdə dünyada tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun möhkəm zəmin əsasında qurulmasına böyük töhfələr vermişdir.

Yetmişillik sovet hakimiyyəti dövründə dinə kommunist ideologiyası prizmasından yanaşılmış, mənəvi dəyərlərə bir sıra məhdudiyyətlər və qadağalar tətbiq edilmişdir. Müstəqillik qazandıqdan sonra, ölkəmizdə bütün istiqamətlərdə olduğu kimi, din sahəsində də təqiblərə və təzyiqlərə son qoyulmuş, bu sahədə bir sıra irəliləyişlərə nail olunmuşdur. Qeyd etmək lazımdır ki, dini sferadakı boşluqların doldurulmasında Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Qafqaz Müsəlmanları İdarəsinin xüsusi xidmətləri vardır.

Azərbaycan dövlətinin milli-mənəvi dəyərlərimizə qayğısı nəticəsində, dini ədəbiyyatın nəşri sahəsində mühüm nəticələr əldə olunmuşdur. Müasir dövrün tələblərinə uyğun olaraq, yeni dini ədəbiyyatlar nəşr olunmuşdur. Azərbaycan İlahiyyat İnstitutu fəaliyyətə başladığı gündən bu istiqamətdə bir sıra layihələr həyata keçirir. Dini ədəbiyyatın çapı, o cümlədən bu sahədə dərsliklərin və tədqiqat əsərlərinin hazırlanması ali tədris müəssisəsinin prioritetləri sırasındadır. Qeyd etmək lazımdır ki, ölkəmizdə hər il din sahəsində çox sayda əsər nəşr olunur. Dini nəşrlərin elmi və linqvistik keyfiyyətinin artırılması üçün vahid terminologiyanın yaradılması vacibdir. Azərbaycan İlahiyyat İnstitutunun hazırladığı "İzahlı dini terminlər lüğəti" məhz bu zərurətdən irəli gəlmişdir.

Lüğət hazırlanarkən yalnız İslam dini ilə əlaqəli terminlərin deyil, həmçinin digər böyük dünya dinlərində də istifadə olunan əsas ifadələrin izahı verilmişdir. Terminlərin şərhləri və izahında həm yerli, həm də xarici ölkələrdə çap olunmuş elmi-dini ədəbiyyatlardan istifadə olunmuşdur. Həmçinin kitabın hazırlanması zamanı Azərbaycan, ərəb, türk, ingilis, rus və fars dillərində yazılmış müxtəlif lüğətlərdən, ensiklopediyalardan, eləcə də təfsir, hədis, fiqh, kəlam, təsəvvüf, fəlsəfə, tarix, antropologiya, dinlər tarixi, din sosiologiyası, din psixologiyası, din fenomenologiyası və başqa sahələrdəki kitablardan istifadə olunmuşdur.

Terminlər əlifba sırası ilə verilmiş, lüğəvi və terminoloji mənaları izah edilmişdir.

"İzahlı dini terminlər lüğəti"nin dini terminologiya sahəsindəki tədqiqatlara töhfə verəcəyinə inanırıq.

*Müəlliflərdən*

# A

**ABA və ƏBNA (رواية الآباء عن الأبناء):**

Hədis üsulu terminlərindən biri. Ərəb dilində "aba" sözü "əb" kəlməsinin cəmidir və "atalar" deməkdir. "Əbna" kəlməsi isə "ibn" sözünün cəmidir və "oğullar" mənasını ifadə edir. "Aba və əbna", yəni "atalar və oğullar" ifadəsi hədis üsulu termini kimi oğulun atadan nəql etdiyi hədis rəvayətinə deyilir. Hədis ədəbiyyatında ata və oğul arasındakı hədis rəvayəti həm oğulun atadan, həm də atanın oğuldan rəvayəti olaraq iki şəkildə yer alır. Atanın oğuldan rəvayətinə aşağıdakı hədisi nümunə göstərmək olar: Abbas ibn Əbdülmüttəlib oğlu Fəzldən rəvayət edir ki, Həzrət Peyğəmbər Müzdəlifədə iki namazı (şam və xiftən) cəm etmişdir. Bu hədisin isnadında mövcud olan rəvayət qəlibi "ən ibnihi", yəni "oğlundan" şəklindədir. Hədis ravisi olan kimsənin öz atasından, yəni oğulun atasından rəvayəti isə hədis ədəbiyyatında iki şəkildə təqdim edilir. Bunlardan birincisi, "ən əbihi", "atasından", digəri "ən əbihi ən cəddihi", yəni "atası vasitəsilə babasından" formasındadır. Hədis alimləri həm oğulların atalardan, həm də ataların oğullarından rəvayətlərinə dair müxtəlif əsərlər qələmə almışlar. Bu əsərlərdən biri Xətib əl-Bağdadinin atanın oğullardan rəvayətinə həsr edilmiş "Rivayət əl-aba ənil-əbna" adlı əsəridir. Ravi oğulların ravi atalardan rəvayətinə dair əsər isə Übeydullah ibn Səid əs-Sizcinin "Rivayət əl-əbna ənil-aba" adlı əsəridir.

**ABBASİLƏR (العباسيون):**

Məhəmməd peyğəmbərin əmisi Abbas ibn Əbdülmüttəlibin nəslindən Əbülabbas Səffahın qurduğu və 750-1258-ci illərdə hakimiyyətdə olmuş sülalə. Qüreyşin Haşimoğulları qoluna mənsubluğuna görə bəzən "Haşimilər" də adlandırılmışdır. Quruluş illərində Əndəlüs xaric olmaqla, İslam dünyasının böyük bir hissəsini əhatə etsə də, IX əsrin əvvəllərindən etibarən, Abbasilər dövlətinin ərazisində yarımmüstəqil dövlətlər yaranmışdır. 945-ci ildə iranlı Büveyhilər dövlətinin, 1055-ci ildə isə Səlcuq dövlətinin siyasi hakimiyyəti ələ keçirdiyi Abbasilər dövləti 1258-ci ildə Elxanilər dövləti tərəfindən süqut etdirilmişdir. Abbasi xəlifələrinin hakimiyyəti 1261-ci ildən Məmlük sultanlarının himayəsində Qahirədə davam etmişdir. 1517-ci ildə Misir Abbasilərinin hakimiyyətinə Osmanlılar tərəfindən son qoyulmuşdur. Abbasilərin paytaxtı Bağdad İslam mədəniyyəti tarixində elm və incəsənətin inkişafına görə mühüm rol oynamışdır.

**ADABİ-MÜFƏSSİRİN (آداب المفسرين):**

Müfəssirlərə aid ədəb-ərkan qaydaları. Buna görə bir müfəssir Quranı düzgün təfsir etmək üçün müəyyən biliklərə sahib olmalı və təfsir elmi üçün üçün müəyyən qaydalara riayət etməlidir. Bununla yanaşı bir müfəssir Quranı təfsir edərkən nəfsani və dünyəvi arzulardan uzaq durmalı, şan-şöhrət və üstünlük əldə etmək niyyəti daşımamalı, yalnız Allahın razılığını təmənna etməli və təfsir fəaliyyətini ciddiyyət və dəqiqliklə yerinə yetirməlidir.

**ADABİ-MÜHƏDDİSİN (آداب المحدثين):**

Hədis üsulu əsərlərində mövcud olan ən önəmli terminlərdən biri. "Mühəddislərin ədəb qaydaları" mənasına gələn "adabi-mühəddisin" mühəddisin (hədisləri öyrənib nəql etməklə məşğul olan şəxs) riayət etməsi zəruri olan prinsip və əsasları əhatə edir. Bu prinsipləri belə xülasə etmək olar: hədisləri rəvayət etməyə başlayan ravi öncə ixlaslı və yaxşı niyyətlilmalı, şan-şöhrətdən uzaq durmalı, mütəxəssis olmadan hədis rəvayətinə başlamamalı, ahıl çağında hədisləri rəvayət etməməli, bildiyi hədisləri rəvayət etməkdən çəkinməməli, hədisləri mübahisə obyektinə çevirməməli, hədis məclisinə gələnlər arasında fərq qoymamalı, hədis məclisinə Qurani-Kərim oxumaqla başlamalıdır.

**ADİ QRANTH:**

Siqhizmin müqəddəs kitabı Quru Qranth Sahibin bir hissəsi. Siqhizmin qurucusu olan Nanakın ana dilində – pəncabca yazılmış kitabın tərtibində 1605-ci ildə beşinci quru olan Quru Arjanın böyük rolu var. Altı min nəğmədən ibarət kitabın əsas mövzusu Tanrının mədh edilməsidir. Hər səhər bu kitabın giriş hissəsini oxumaq hər bir siqhə vacibdir.

**ADİL (العادل):**

Lüğəvi mənası ədalətli şəxs olan "adil" termini "etiqadı doğru olan, böyük və kiçik günahlardan çəkinən, şəri hökmlərə həssaslıqla əməl edən şəxs" deməkdir. İslam hüququnda xəlifəlik və şahidlik kimi məsələlərdə adil olmaq şərt qoyulmuşdur. Hədis elminə görə, adil və zabit (hafizəsi güclü) olan ravinin hədisləri etibarlı hesab edilir. Hər hansı bir ravinin ədalətli olması onun hədis rəvayəti üçün şərt hesab edilir. Adil ravinin hədisləri digər şərtləri daşıdığı halda dəlil qəbul edilir. Adil termini ilə yanaşı, hədis ravisinin ədalətini göstərən başqa bir kəlmə "üdul"dur. Hədis elmində ravinin ədalətinə işarə edən "ədlün zabitun" və "ədlün hafizun" kimi təbirlər "tədil terminləri" hesab edilir.

**"ADİYAT" SURƏSİ (سورة العاديات):**

Quranın 100-cü surəsi. 11 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surənin adı ilk ayədəki "adiyat" sözündən götürülmüşdür. Mənası "sürətlə qaçan, təngnəfəs olmuş atlar"

deməkdir. İlk beş ayəsi andlardan istifadə olunur. Sonrakı ayələr insanın nankorluğundan bəhs edir.

**ADVAİTA VEDANTA:**

Hinduizmdə Brahmanın mütləq həqiqət və bir olduğuna dair "qeyri-ikililik" və yaxud "nondualism" təlimi. Bu anlayışa görə, həqiqət "mənlik" mənasındakı "Atman" ilə "universal prinsip" olan "Brahman"ın iki ayrı kimliyində deyil, son mərhələdə birləşəcək tək kimlikdədir. Vedantanın iki əsas məktəbindən biri olan Advaita Vedantanın ən məşhur təmsilçisi Şankaradır.

**AFAQİ (آفاقي):**

Hərəm sərhədləri xaricində yaşayan insanlara verilən addır. Bunların həcc və ya ümrə məqsədilə hərəm bölgəsinə gəldikdə miqat sərhədində ehrama girməsi şərtdir.

**AFAQİYYƏ (الآفاقية):**

Həqiqətin insan düşüncəsindən asılı olmayaraq obyektiv aləmdə, müstəqil şəkildə mövcud olduğunu irəli sürən nöqteyi-nəzər. Bu nöqteyi-nəzərin digər adı "obyektivizm"dir. Məsələn, "yalan danışmaq pis adətdir", yaxud "dünya elips formasındadır" kimi mühakimələr afaqi, yəni obyektiv mühakimədir.

**AĞIL (العقل):**

Türk dilində "us", yunanca "nous", ərəb dilində "əql", ingilis dilində "reason", latın dilində "ratio" və "intellectus". "Ağıl" ərəbmənşəli termin olub, insanı başqa canlılardan fərqləndirən və ona məsuliyyət gətirən ayırdetmə, düşünmə və anlama qüvvəsi; varlığın həqiqətini dərk edən, fiziki olmadığı halda fiziki varlığa təsir edən bəsit substansiya; fiziki aləmdə varlıqların formalarını mücərrədləşdirərək, termin və məfhum halına gətirən, terminlər arasında əlaqə quraraq mühakimələr irəli sürən və müqayisə qabiliyyəti olan qüvvədir.

**AHAD XƏBƏR/XƏBƏRİ-VAHİD (خبر الواحد، خبر الآحاد):**

İslam Peyğəmbərinə əqlən yalan istinad etməsi mümkün olmayan bir cəmiyyətin, eyni xüsusiyyəti daşıyan başqa bir cəmiyyətə nəql etdiyi hədisə mütəvatir hədis deyilir. Mütəvatir dərəcəsinə çatmamış rəvayətlər isə "ahad xəbər" adlanır. "Ahad xəbər"ə "xəbəri-vahid" də deyilir. İlk dövrlərdə hər bir ravi nəslindən yalnız bir ravinin rəvayəti xəbəri-vahid sayılırdı. Hicri II əsrdən etibarən isə hədisçilər, üsulçular və fəqihlər ravilərin sayından asılı olmayaraq, mütəvatir dərəcəsinə çatmayan hədisi ahad xəbər kimi qəbul etmişlər. Bu tərifə görə, yalnız bir nəslə aid olan ravinin digər nəsildəki ravidən rəvayəti deyil, iki, üç və ya daha çox ravinin başqa nəsildəki eyni saydakı ravidən nəql etdikləri hədis də ahad xəbər (xəbəri-vahid) hesab edilmişdir. İslam alimlərinin əksəriyyətinə görə, xəbəri-vahid zənni bilik ifadə edir. Əhməd ibn Hənbəl, Malik ibn

Ənəs və digər mühəddislərə görə, ahad xəbərin zəruri bilik kəsb etməsi üçün səhhət (doğruluq) şərtlərini daşıması zəruridir. Mötəzilə və şiə kəlamçılarının əksəriyyətinə görə, xəbəri-vahid inanc məsələlərində dəlil hesab edilmir.

**AHAD QİRAƏT (الآحاد):**

Sənədi səhih olan, lakin yazı baxımından Osman müshəflərinə və ya ərəb dili qrammatikasına uyğun gəlməyən, yaxud da məşhur olmayan qiraətlər.

**AHƏNG (آهنگ):**

Farsmənşəli termin olub, "harmoniya", "uyğunluq" və "nizam" mənasına gəlir. İslam mütəfəkkirləri ahəng terminінə alternativ olaraq "qayə", "nizam", "etidal" kimi terminlərdən də istifadə etmişlər. Onlar kainatdakı ahəngi Allahın lütfünün nəticəsi kimi izah edirlər.

**AHİMSA:**

Hind mənşəli dinlərdə sanskritcə "zərər verməmək" mənasında işlədilən termin. Hind dinləri arasında Caynizmdə daha böyük əhəmiyyət daşıyan ahimsa prinsipinə görə, insanlara və digər canlılara zərər vermək, onları yaralamaq və öldürmək olmaz.

**AXIRZAMAN (آخر الزمان):**

Hərfən ərəb dilində "zamanın sonu" mənasına gələn, dünyanın son günləri və ya sonu ilə əlaqəli istifadə olunan bir termin. Kainatın sonunun olacağını qəbul edən Zərdüştilik, Yəhudilik, Xristianlıq və İslam kimi dinlərə görə, kainatdakı, xüsusilə də dünyadakı nizam nəticədə dağılacaq. Bu, İslamda "qiyamət" termini ilə ifadə olunur. Sözügedən dinlərin mənbələrində Qiyamət günü yaxınlaşanda bir çox fitnə və fəlakətin baş verəcəyinə dair məlumatlar öz əksini tapır.

**AXİR (الآخر):**

Allahın adlarından biri. "Son" mənasını verir. Bu ad Quranda bir dəfə Allaha aid edilir və "varlığının sonu olmayan" mənasına gəlir. "Bəqa" (əbədi olmaq) mənasını da ehtiva edən "axir" Allahın səlbi sifətlərindəndir. "Axir" adı o mənasını verir ki, Allah varlığının başlanğıcı və sonu olmayan mütləq varlıqdır və yaradılmış bütün varlıqlar öldükdən sonra axirətdə hesab vermək üçün ən sonda Onun hüzuruna çıxarılacaq.

**AXİRƏT (الآخرة ):**

Dünya həyatından sonra başlayıb, əbədi olaraq davam edən ikinci həyat. Axirət dünya həyatından sonra gələn əbədi bir həyatdır. Dünya həyatındakı əməllərin, yəni söz və davranışların nəticələrinin qiymətləndiriləcəyi zamandır. Axirət "insanların dünya həyatından sonra daimi qalacaqları yer" mənasında "dar əl-qərar" (qərar yurdu) da adlandırılır.

**AQİBƏT (العاقبة):**

İnsanların davranışlarına görə dünyada və axirətdə görəcəkləri nəticə mənasında işlənən termin. Ərəbcə

عقب "bir işin sonu, nəticəsi, cəza, yaxud mükafat" deməkdir. Quranda otuz iki yerdə keçir. Quranda fərd və millətlərin əvvəlki nəsillərdən Allahın ayələrini təkzib edənlərin, günahkarların, fitnə-fəsad törədənlərin, zalımların və xəbərdarlıqlara əhəmiyyət verməyənlərin aqibətlərindən ibrət almaq təşviq edilir.

**AQİLƏ (العاقلة):**

Cinayət törədən şəxsin diyə və qürrə kimi maddi təzminatları ödəməyə gücü çatmadığı təqdirdə, bu təzminatın məsuliyyətini onun qohum-əqrəbası, yaxud aid olduğu ictimai mühitdəki insanlar daşıyır. Təzminata cavabdeh olan bu insanlara "aqilə" deyilir.

**AQNİ (Agni):**

Hinduizmin Vedik ədəbiyyatına aid Od Tanrısı. Hindu kosmologiyasına görə, Aqni Yer, Su, Hava və Torpaqla birlikdə maddi mövcudiyyəti meydana gətirən beş ünsürdən birini təşkil edir. Vedik ədəbiyyatda Aqni İndra və Soma ilə birlikdə üç mühüm Tanrıdan biridir.

**AQNOSTİSİZM (agnosticism):**

İlahi varlığın və fövqəltəbii qüvvələrin bilinməsinin qeyri-müəyyən olduğunu irəli sürən təlimdir. Aqnostisizm yunanca "a" "inkar" və "gnosis" "bilik" deməkdir. Bu termini elmə ingilis təbiətşünası Haksli gətirmişdir. Bu anlayışın uzlaşdırıcı mövqeyi onun nümayəndələrini idealizmə gətirib çıxarır. Əslində, aqnostisizmə görə, bir ateistin düşüncəsi bir teistin düşüncəsi ilə bu baxımdan eynilik təşkil edir. "Teist" Tanrının varlığına olan biliyini, "ateist" isə Tanrının yoxluğuna olan biliyini iddia edir. Aqnostik isə bu barədə dəqiq qərar vermək üçün uyğun şərait olmadığını düşünür. Qədim yunan fəlsəfəsində skeptisizm formasında meydana gəlmiş (Pirron) aqnostisizm Yum və Kant fəlsəfəsində özünün klassik formasını almışdır. Müasir neopozitivizm, ekzistensializm və digər cərəyanların nümayəndələri dünyanın və insanın dərk edilməsinin mümkün olmadığını sübut etməyə çalışırlar. Aqnostisizm elmi idrakı məhdudlaşdırmaq, məntiqi təfəkkürdən, təbiətin və xüsusilə cəmiyyətin obyektiv qanunlarının dərk olunmasından imtina etmək cəhdindən irəli gəlir.

**ALƏM (العالم):**

Kainat, kosmos. Hisslər və ağıl vasitəsilə qavranılan, varlığı haqqında düşünmənin mümkün olduğu, Allahın xaricindəki bütün varlıq və hadisələri ifadə edən termin. Fəlsəfə tarixində aləmin yaranması ilə bağlı müxtəlif iddia və yanaşmalar irəli sürülmüşdür. Məsələn: İslam Şərqinin ilk filosofu Əbu İshaq əl-Kindi (796-866) aləmin yoxdan var edildiyi fikrini qəbul etmişdir. Aləm (kainat) fiziki bir varlığa malikdir və daim dəyişkəndir. Buna görə aləm əzəli deyildir. Farabi (871-950) və İbn Sina (980-1037) isə aləmin yaranmasını "südur nəzəriyyəsi" (emanasiya) ilə

izah etmişlər. Bu nəzəriyyəyə görə, aləm zəruri varlıqdan (Allahdan) nizamlı bir "daşma" prosesi nəticəsində meydana gəlmişdir. İslam filosoflarına görə, "südur prosesi" adlandırılan bu daşma prosesindən əvvəl yoxluq təsəvvür edilə bilməz. Bu nəzəriyyəyə əsasən, İslam peripatetik (məşşai) filosofları antik yunan filosofu Aristotelin (e.ə. 384-322) düşüncələrinin təsirində qalaraq aləmdə boşluğun (xəla) olmadığını qəbul etmişlər. İslam mütəfəkkiri Qəzali (1058-1111) filosofların bu fikrini qəbul etməyib, əzəli kainat konsepsiyasını şiddətli şəkildə tənqid etmişdir. Aləmin əzəli olduğu fikri Allahla yanaşı ikinci əzəli varlıq olduğu iddiasını ehtiva edir ki, bu da İslamdakı tövhid etiqadı ilə ziddiyyət təşkil edir. Məhz bu səbəbdən, Qəzali İslam filosoflarını aləmin əzəliliyi məsələsində həqiqəti inkar etdikləri iddiası ilə günahlandırır. Qəzaliyə görə, Tanrı aləmi iradəsinin xaricində məcburi şəkildə deyil, istədiyi anda yaratmışdır. İslam aləmində mötəzilə kəlam məktəbinin nümayəndələrindən biri olan Əbul-Hüzeyl əl-Əllaf (752-841) isə aləmin atomlardan meydana gələn dəyişkən bir mahiyyətə malik olduğunu qeyd edir. Buna görə atomlar bəsit varlıq olub, varlığın ibtidai və bölünməyən hissəsidir. Atomların hərəkət və bitişməsindən varolma prosesi (kövn) meydana gəlir.

**ALƏMİ-ƏCSAM (عالم الأجسام):**

Fizikli aləm (hərfən cisimlər aləmi). Bəzi İslam mütəfəkkirlərinə görə, varolma prosesində əvvəlcə ruhlar aləmi (aləmi-ərvah), sonra düşüncələr aləmi (aləmi-misal), ən sonda isə cisimlər aləmi (aləmi-əcsam) meydana gəlmişdir.

**ALƏMİ-ƏRVAH (عالم الارواح):**

Ruhlar aləmi. İnsanın dünyaya gəlməmişdən əvvəl və öldükdən sonra ruhunun olduğu və varlığını hiss orqanlarımızla dərk edə bilmədiyimiz yer.

**ALƏMİ-KÜBRA (العالم الكبرى):**

Böyük aləm – kainat.

**ALƏMİ-QEYB (عالم الغيب):**

Ağıl və hiss yolu ilə haqqında məlumat ala bilmədiyimiz varlıq sahəsi. Lüğəvi mənası "gizli qalmaq, görünməmək, gözdən itmək" və "gizlənən, hazırda mövcud olmayan məkan"dır. "Qeyb" məsələsi, əsasən, varlıq və bilik problemi kimi araşdırılmışdır. Kəlam elmi qeyb məsələsini yalnız vəhy kontekstində izah etmişdir.

**ALƏMİ-SÜĞRA (العالم الصغرى):**

Kiçik aləm – insan. İslam filosoflarının insan haqqındakı təriflərinin birində insanın "kiçik aləm" olduğu qeyd edilir.

**ALƏMİ-ŞƏHADƏT (عالم الشهادة):**

Hiss orqanlarımızla dərk edilən mövcud varlıqlar dünyası. Biri "qeyb" olmaqla, ilahi biliyin iki təcəlli sahəsindən biri. "Şəhadət"in lüğəvi mənası "qətilik dərəcəsində bir xəbər", yaxud "şahidlik etmək, hiss orqanları ilə

dərk edilən”dir. Kəlam elmində bəzi mövzuların izahında “qeyb aləminin şəhadət aləmi ilə müqayisəsi” (qiyas əl-qaib ələş-şahid) prinsipinə müraciət olunur.

**ALİ İSNAD (الإسناد العالي):**

Hədis ədəbiyyatına görə, hədisin sənədindəki ravi sayının azlığını ifadə edən xüsusiyyət. Yəni hədisi rəvayət edən ravi ilə İslam peyğəmbəri arasındakı ravi sayının azlığı həmin sənədin dəyərinin yüksək olduğuna dəlalət edir. İsnadın ali olması ravi ilə Peyğəmbər arasındakı dövrün qısa olmasını, yəni ravinin hədisin mənbəyinə yaxınlığını göstərir. Bu yaxınlıq hədis ədəbiyyatında “ülüvv” adlanır. Əgər ülüvv iki ravidən ibarətdirsə, “sünai”, üç ravidən ibarətdirsə, “sülasi” adlanır. Sünai sənəddə hədisin ravisi ilə Həzrət Peyğəmbər arasında bir tabii və bir səhabə mövcuddur. Ali isnad əsas etibarilə hədis və ya rəvayət sənədi üçün istifadə edilir. Ali isnadla rəvayət edilən hədislərə “ali hədis” deyilir.

**“ALİ-İMRAN” SURƏSİ (سورة آل عمران):**

Quranın 3-cü surəsi. 200 ayədən ibarətdir. Mədinə dövründə nazil olmuşdur. “Əman”, “Kənz”, “Təyyibə” kimi adları da mövcuddur. “Bəqərə” surəsi ilə birlikdə “iki gül” mənasında “Zəhravəyn” adı da verilmişdir. Surənin adı 33-cü ayədə qeyd edilən “Həzrət Məryəmin atası İmranın ailəsi” ifadəsindən götürülmüşdür. Surədə, əsasən peyğəmbərlik mövzusuna və xristianlar haqqında məlumatlara geniş yer verilmişdir. Eyni zamanda, Zəkəriyyə, İsa və Məryəm haqqında rəvayətlər qeyd edilir, Bədr və Uhud döyüşlərinə qısa şəkildə toxunulur.

**ALLAH (الله):**

Kəlmənin mənşəyi haqqında ərəb dilçiləri arasında müxtəlif fikirlər mövcud olsa da, ümumi qəbul edilən fikrə görə, “Allah” kəlməsi heç bir kəlmədən yaranmamışdır. “Allah” kainatı yaradan, idarə edən həqiqi məbuda məxsus xüsusi addır. İslamın üç mühüm inanc əsasından (üsuli-səlasədən) biri və ən mühümü Allahın təkliyinə inamdır.

**ALLEQORİYA:**

Məcazi ifadə olub, hər hansı bir mücərrəd fikrin və anlayışın konkret predmet, yaxud hadisənin köməyi ilə təsvir edilməsidir. Antik yunan fəlsəfi fikrindən etibarən ədəbi və fəlsəfi əsərlərdə alleqoriyadan geniş istifadə olunur. Mütəfəkkirlər müəyyən bir mövzuda öz düşüncə və yanaşmalarının daha aydın şəkildə başa düşülməsi üçün qədim dövr mifologiyalarından əxz etdikləri surət və təmsillərdən istifadə edirdilər. Xüsusən təmsil və nağıllarda, ümumiyyətlə, satirik əsərlərdə geniş istifadə edilən alleqoriya romantizmdə də mühüm yer tutur. Məsələn: belə əsərlərdə Aslan obrazı igid və mərd insanları; Tülkü obrazı – hiyləgər adamları; Qurd obrazı – acgözləri; Ayı obrazı – qan-

maz və nadan adamları təmsil edir. Bu mənada, Məhəmməd Füzulinin "Bəngü Badə", Mirzə Ələkbər Sabirin "Tülkü və Qarğa" əsərlərinin alleqorik olduğunu deyə bilərik.

**ALTRUİST İNTİHAR (altruistic suicide)**. **Bax:** İNTİHAR.

**ALTRUİZM** (**altruism**):

Şəxsi maraqları nəzərə almadan başqasının naminə təmənnasız fəaliyyət göstərmək və ya daim bu fəaliyyətə hazır olmaq; altruizm – eqoizmin əksi olan insani keyfiyyətdir. Altruist davranışlar bütün dinlərdə yüksək qiymətləndirilmiş və təşviq edilmişdir.

**AM HASAQULA:**

Yəhudilikdə İsrailoğullarının seçilmiş xalq olduğuna dair inanc. Yəhudilikdə əsas inanclardan biri olmamaqla yanaşı, İsrailoğullarının bir xalq kimi Tanrı tərəfindən seçildiklərinə və xüsusi bölgənin onlara vəd olunduğuna dair inancın əsasıdır. Qədim Əhddə "Siz Tanrınız Rəbb üçün müqəddəs bir qövmsünüz. Tanrınız Rəbb öz xüsusi qövmü olasınız deyə, Yer üzündəki digər millətlər arasından sizi seçdi" (Qanunun təkrarı, 7/6) ifadələri ilə qeyd edilən bu anlayışın əsasında İsrailoğullarının Tanrı ilə əhdi, digər xalqların isə bunun əksi olan bütpərəstliyi təmsil etməsi dayanır. Tövratda Tanrının İbrahim peyğəmbərlə (Yaradılış, 17/6-8) və Musa peyğəmbərlə (Qanunun təkrarı, 7/12-13; 26/18-19; 28/1-14) bağlanmış əhdindən bəhs edilir.

**AMAN (أمان):**

İslam ölkəsinə daxil olmaq, yaxud İslam ordusuna təslim olmaq istəyən qeyri-müsəlmana verilən yaşamaq və mülkiyyət zəmanəti. Bu termin "əmin olmaq və güvənmək" mənasında islamaqədərki dövrdə də ərəblər arasında istifadə olunurdu. Qəbilələrarası müharibələrdə mümkün qədər qan tökülməsinə imkan verməmək üçün təslim olmaq şərti ilə mal və can təhlükəsizliyinin təmin edilməsi "aman" sayəsində mümkün idi. Sülh şəraitində qəbilələrarası (dövlətlərarası) iqtisadi və ictimai münasibətlər çərçivəsində qəbilənin sərhədləri daxilindəki qeyri-qəbilə üzvünün təhlükəsizliyi üçün nəzərdə tutulmuşdur. Mədinə dövründən etibarən, Məhəmməd peyğəmbər tərəfindən də davam etdirilən aman ənənəsi sonrakı İslam dövlətlərində də tətbiq olunmuşdur.

**AMİDA:**

Yəhudilikdə "Şema İsrael" duasından sonra ikinci mühüm dua. "Şemone esre", yaxud əhəmiyyətinə görə sadəcə "dua" da adlandırılır. Sinaqoqda digər dualar adətən oturaraq oxunsa da, amida bütün ibadətlərdə toplu şəkildə ayaqüstə oxunur. 18-19 duadan ibarət Amida Tanrıya iman etiraf etməklə başlayıb, Qüdsün yenidən abadlaşdırılması və sülh üçün oxunan dualarla bitir.

**AMİL (عامل):**

Ümumilikdə “məmur”, xüsusilə “vergi məmuru” üçün istifadə olunan bir termin. Məhəmməd peyğəmbər dövründə dövlətləşmə prosesinə paralel olaraq zəkat, qənimət, cizyə kimi gəlir və vergilərin toplanmasından və təqsimindən məsul dövlət məmurluğu kimi amillik, Raşidi xəlifələr daxil olmaqla, sonrakı müsəlman dövlətlərində də davam etdirilmişdir.

**AMİN (آمين):**

Sami mənşəli dinlərdə duanın qəbul olunmasını arzulamaq məqsədilə söylənilən son söz. İbricə “həqiqətən” mənasındakı bu terminə Qədim Əhdin Məzmurlar hissəsində rast gəlinir. Terminə Yeni Əhdə də çox rast gəlinir. Qurani-Kərimdə mövcud olmasa da, Məhəmməd peyğəmbərin dualarından sonra “Amin” deməyi tövsiyə etdiyi hədislərdə bildirilir. Namazda “Fatihə” surəsinin ardından “Amin” demək sünnə hesab olunur.

**AMİTABHA:**

Mahayana buddizminin müqəddəs mətnlərinə görə ilahi/səmavi aydınlıq. Səkkizdilimli yolu qurtuluş üçün əsas hesab edən Theravada məzhəbindən fərqli olaraq, Buddizmin mahayana məzhəbinə görə, Nirvanaya çatmazdan əvvəl Amitabhaya iman və dua etməklə cənnətə girmək mümkündür. Mahayana mənsubları Budda və Bodisatva ilə yanaşı, Amitabhaya da gündə bir neçə dəfə ibadət edirlər.

**AMM (العام):**

“Ümumi” mənasına gələn “amm” termin olaraq dəlalət etdiyi fərdlərin hamısını əhatə edən söz deməkdir. Hər hansı bir qeyd və şərt olmadığı təqdirdə, “amm” sözlər mənasına daxil olan hər bir fərdə eyni şəkildə dəlalət edir. Məsələn: insan deyildikdə dinindən, irqindən, dilindən asılı olmayaraq bütün insanlar nəzərdə tutulur.

**AMMƏ (العامة):**

“Əksəriyyətin məzhəbi” mənasında şiə (imamiyyə) mənbələrində sünnilik üçün istifadə olunan termin. “Amməˮ-nin əksi “xassəˮdir. Orta əsrlərdə yaşamış şiə alimləri sünnilik üçün “əksəriyyətin məzhəbi” mənasında “ammə”, şiəlik üçün isə “xüsusi, seçilmiş kütlənin məzhəbi” mənasında “xassə” terminindən istifadə etmişlər.

**AMRİT:**

Siqhizmin dinə daxil olma mərasimində içmək üçün xüsusi hazırlanan müqəddəs məhlul. Amrit şəkər və sudan ibarət bir məhlulun xüsusi duaların müşayiəti ilə ikiuclu qılıncla qarışdırılması nəticəsində hazırlanır.

**AMRİT SANSKAR:**

Siqhizmdə təqdis olunmuş su ilə dinə daxil olma mərasimi. Quru Nanakın dövründən (1469-1539) tətbiq olunmaqla birlikdə, ilk dəfə 1699-cu ildə 10-cu siqh lideri Quru Qobind Sinqin beşnəfəlik mərasimlə bu dini qəbul etməsi ilə amrit sanskar mərasimi rəsmi xüsusiyyət qazanmışdır.

**AMRİTDHARİ:**

Siqhizmdə “amrit sanskar” mərasimi ilə dinə qəbul edilən şəxs.

**AMRİTSAR:**

Siqhlərin dini mərkəzi. Hindistanın şimal-şərqində yerləşən Amritsar XVI əsrin sonlarında siqhlərin müqəddəs mərkəzi kimi inşa olunub, daha sonra siyasi mərkəzə çevrilmişdir. Şəhərin adı, quruluşu, hazırda sahib olduğu dini, ticarət və turistik əhəmiyyəti şəhərin mərkəzindəki Har-mandardakı (Qızıl məbəd) müqəddəs hesab olunan hovuzla – “Amrita-saras”la (Abı-həyat hovuzu) əlaqəlidir.

**AN (الآن):**

Bir-birinin ardınca gəldiyi fərz edilən, zamanı təşkil edən bölünməz və ən kiçik zaman parçası. “Qısa zaman” və “indi” deməkdir. İslam kəlamçılarının hadis (sonradan yaradılmış) qəbul etdikləri an haqqındakı izahları atom nəzəriyyələrinin əsasını təşkil edir.

**ANADANGƏLMƏ GÜNAH:**

Xristian inancına görə, Adəm peyğəmbərlə Həvvanın cənnətdə qoyulmuş qadağanı pozaraq yerinə yetirdikləri günah və bütün bəşəriyyətin bu günahla dünyaya gəlməsi. Xristianlığın memarı hesab olunan Pavelin romalılara məktubunda ilk dəfə öz əksini tapan (Romalılara məktub, 5: 12-21) anadangəlmə günah inancına görə, bir insanın yerinə yetirdiyi bu günah səbəbilə bütün insanlıq günah, ölüm və dünyaya məhkum edilmişdir. Dünyaya gələn hər bir insanın Adəmin bu günahını miras aldığı üçün günahkar doğulur. Akvinalı Fomaya görə isə anadangəlmə günah insanlara Adəmin şəxsi günahını yüklənməsi şəklində deyil, bəşər təbiətinə sahib olması ilə verilmişdir.

**ANALUTİQALULƏ (أنالوطيقا الاولى):**

Antik yunan filosofu Aristotelin (e.ə. 384-322) məntiqə dair üçüncü kitabı olan “Analytica Priora” (The First Analytics) adlı əsərinə ərəb dilində verilən ad. Bu əsər bəzi mənbələrdə “Anulutika”, “Anulutika-əvvəl” və “Əl-qiyas” kimi adlarla qeyd olunur. Aristotel məntiqdə sillogizmi bu əsərində izah edir. Belə ki, əsərdə iki mühakimədən çıxan məntiqə uyğun əqli nəticənin necə əldə edildiyi və doğru müqayisə metodları kimi məsələlər müzakirə olunur.

**ANALUTİQASSANİ (أنالوطيقا الثاني):**

Aristotelin (e.ə. 384-322) məntiqə dair dördüncü kitabı olan “Analytica Posteriora”nın (The Second Analytics) ərəb dilindəki müqabili. Bu əsər bəzi mənbələrdə “Abudiktika”, “Afudiktiki” və “Əl-bürhan” kimi adlarla qeyd olunur.

**ANANDA:**

Buddanın ən sevimli tələbəsi. Buddanın fikirləri və dinin əsas təlimləri onun Ananda ilə dialoqları vasitəsilə Buddizmin müqəddəs kitabında əks olunmuşdur.

**ANATMAN (ANATTA):**

İnsanda ruh adlandırıla biləcək ölümsüz heç bir varlıq qəbul etməyən buddist təlimi. Pali dilində "mən olmayan" və yaxud "ruhsuz" mənasındakı Anatman təliminə görə, insanda onun fəaliyyətinin faili olan daimi bir varlıq yoxdur. Bunun əksinə, insan təbiəti fiziki bədən, hiss, ağıl, iradə və şüur kimi beş fərqli faktorun kombinasiyasından ibarətdir.

**ANİMATİZM (animatism).**

**Bax:** NATURİZM.

**ANİMİZM (animism):**

Ruhlara sitayiş (latınca anima – "ruh"). Təbiətin və onun ayrıca elementlərinin (dağ, ağac, günəş və s.) canlı, yəni insan kimi ruha malik olduğuna dair mifoloji dünyagörüşü. Müasir antropologiyada qəbul olunub ki, dinin ibtidai forması hesab edilən animizm insana xas olan qabiliyyətlərin təbiətə şamil edilməsindən ibarətdir. Animizm ingilis antropoloqu Edvard B.Taylor (v. 1871) tərəfindən dinin mənşəyini izah edən nəzəriyyə kimi irəli sürülmüşdür. Bu nəzəriyyəyə görə, ibtidai insan ictimai şüurun erkən dövrlərində doğum, ölüm, bayılma, yuxu, xəstəlik və bu kimi hadisələri bədəndəki ruhun fəaliyyəti ilə əlaqələndirib, daha sonra belə düşüncəni ətrafındakı heyvan, cansız maddə və təbiət hadisələrinə şamil etmişdir. Azərbaycan ərazisində ilk animistik təsəvvürlər e.ə. V–IV minilliklərdə yaranıb. Animist təsəvvürlərin bəzi elementlərinə həm milli dinlərdə, həm də dünya dinlərində rast gəlinir. Animizmin bəzi nümunələri dünyanın bir çox bölgələrində ibtidai həyat tərzi yaşayan tayfalar arasında bu gün də mövcudluğunu qoruyur.

**ANOMİK İNTİHAR (anomic suicide):**

Anomiya situasiyasının səbəb olduğu intihar forması. **Bax:** İNTİHAR.

**ANOMİYA (anomie):**

İctimai qayda-qanunların mövcud olmaması və ya aradan qalxması. Dəyərlər sistemində kəskin böhranların meydana gəldiyini, məqsədlər və uğur qazanmaq imkanları arasında ziddiyyətlərin kəskinləşməsini, fərdi və ictimai şüurun əxlaqi-psixoloji vəziyyətini səciyyələndirən sosioloji termin. E.Dürkheym "anomiya" halını cəmiyyətdə ictimai funksiyaların uyğunsuzluğu, yaxud böyük sarsıntılar zəminində fərdi tələbat və ehtirasların normativ tənzimlənməsi sisteminin pozulması ilə müşayiət olunan əxlaqi böhran kimi nəzərdən keçirir.

**ANTROPOMORFİZM (anthropomorphism):**

"Antropos" yunanca "insan", "morphe" – "forma" deməkdir. insana xas olan xüsusiyyətlərin xarici təbiət qüvvələrinə və başqa varlıqlara aid edilməsidir. Dində antropomorfizmin əhəmiyyətini Feyerbax ətraflı və daha

dolğun göstərmişdir. Bu ifadə animizm və totemizm ilə bağlı olub, müasir dinlərin əksəriyyəti üçün səciyyəvi və xarakterikdir. İslam və İudaizm dinlərində isə məqbul sayılmır.

**APAVARQA:**

Hinduizmdə "mokşa" üçün istifadə olunan digər termin. **Bax:** MOKŞA.

**APOKALİPTİK:**

Dünyanın sonu, hökm günü və ruhların ölümdənsonrakı vəziyyəti haqqında məlumat verən. İsrail və Misir yəhudiləri e.ə. III əsrdə İkinci məbəd dövründə və İkinci məbədin ləğv edilməsi ilə əlaqəli yazdıqları əsərlər ilk "Apokaliptik ədəbiyyat" hesab edilir. Tanaxdakı Danielin kitabı, Enoxun kitabı, Enoxun sirləri kitabı, İbrahimin vəhyi, Adəmin vəhyi və Baruxun vəhyi apokaliptik ədəbiyyat nümunələrindəndir.

**APOKRİF:**

Dini ədəbiyyatın səhih və əsl hesab olunmayan mətnləri; xüsusilə Tanax kitabına daxil edilməsə də, Qədim Əhdin yunanca nüsxəsinin hissələri hesab olunan I və II Esdras, Tobit, Judith və Süleymanın Hikməti kimi mətnlər Yəhudilikdəki apokrif ədəbiyyatı meydana gətirir. Xristianlıqda isə Əhdi-Cədidlə əlaqəli olub "kanonik" sayılmayan mətnlər, Qnostiq incillər, Uşaqlıq incilləri və digər şifahi İncil ənənəsi hesab olunan mətnlər apokrif hesab edilir.

**APOSTOL:**

Həzrət İsanın özünə köməkçi seçdiyi on iki nəfər. Yunanca bir vəzifəni yerinə yetirmək üzrə göndərilən "apostolos" sözündən gələn termin, ümumilikdə, Allahın peyğəmbərlərinə inanıb onlara kömək edən hər kəs üçün, xüsusilə İsa Məsihin seçdiyi və təbliğ fəaliyyətini yerinə yetirmək üçün seçdiyi onikinəfərlik qrupdan ötrü istifadə olunur.

**APRİORİ/QƏBLİ (القبلي):**

Hissi təcrübəyə əsaslanmayan, yalnız ağlın və əqli fəaliyyətin nəticəsi olan bilik; eksperiment və müşahidələrdən asılı olmayaraq mövcud olan məfhum, bilik və prinsiplər; "zehnin təcrübədən əvvəl malik olduğu bilik" mənasında fəlsəfə və məntiq termini. İslam düşüncəsində bu bilik "əvvəlcədən olan" mənasında "qəbli" termini ilə ifadə olunmuşdur.

**ARHAT:**

Theravada Buddizminə mənsub olanlara görə, əbədi qurtuluşa çatmış hesab olunan şəxs. Arhatlığa aparan yolda nəfsə qalib gəlmək üçün digər təlimləri yerinə yetirməklə birlikdə dilənmək də vacibdir.

**ARXE:**

İlk prinsip, ilk səbəb, idarəedici prinsip. Qədim yunan fəlsəfəsində hər şeyin varlığının fiziki səbəbinə verilən ad. Bütün varlığın mənşəyi; varlığın dəyişməsinə səbəb olan, lakin özü də-

yişməyən mahiyyət və əsas. Bu termin ilk dəfə qədim yunan filosofu Anaksimandr (e.ə. 610-547) tərəfindən əzəli və əbədi mənasında istifadə edilmişdir. Aristotel (e.ə. 384-322) Sokratdan əvvəlki dövrdəki “arxe” (ilk səbəb) axtarışını fiziki səbəb axtarışı kimi qiymətləndirmişdir. Fales, Anaksimen və digərləri Su, Hava, Od və Torpaq kimi dörd fiziki ünsürü ilk səbəb (arxe) kimi qəbul etmişlər. Anaksimandrın arxe anlayışı fiziki keyfiyyətlər daşımayan, maddi varlıqların səbəbi, əvvəli və sonu olmayan, sonsuz “apeyron”dur. Sonrakı dövrlərdə Demokrit (e.ə. 460-370) atomun, Pifaqor məktəbinin nümayəndələri isə rəqəmlərin arxe olduğunu düşünürdü.

**ARXETİP (archetype):**

Mədəniyyətin, mənəvi həyatın dəyişilməz modellərini formalaşdıran əsas baza elementləri; nümunə, ilkin forma. “Arxetip” anlayışını elmə ilk dəfə gətirən İsveç psixoloqu Karl Qustav Yunq (1875-1961) olmuşdur. K.Q.Yunqa görə, arxetiplər kollektiv şüuraltının nəticəsidir və davranışlarımızı stimullaşdıran əsas amillərdəndir. Arxetiplər – insanları hadisələri müəyyən bir tərzdə qəbul etməyə, duymağa və onlara reaksiya verməyə yönəldən anadangəlmə ideya, yaxud xatirələrdir. K.Q.Yunq dini şüuru da kollektiv şüuraltının məhsulu olan arxetip kimi nəzərdən keçirmişdir. Azərbaycanda bu mövzunu fəlsəfi-psixoloji aspektdə professor Həsən Quliyev özünün “Qorqud nəslinin arxetipləri”, “Arxetipik azəri” əsərlərində ətraflı tədqiq etmişdir. Azərbaycan ədəbiyyatında arxetipin bariz nümunələrindən biri “Təpəgöz” obrazıdır. “Kitabi-Dədə Qorqud” dastanında və bir çox nağıllarımızda rast gəlinən bu obraz antik yunan ədəbiyyatındakı oxşar obrazla – Siklopla müqayisə olunur.

**ARİANİZM:**

İsanın tanrılığını inkar edən isgəndəriyyəli rahib Arinin (Arius) davamçılarının mənsub olduğu cərəyan. İsanın təbiəti ilə əlaqəli Xristianlıqda II əsrin əvvəllərindən ortaya çıxan xristoloji müzakirələr IV əsrdən kilsədə dərinləşən ixtilaflara səbəb olmuş və nəticədə, həmin dövrdən kilsənin bütünlüyünü sarsıdan bölünmələr yaranmışdır. Arinin fikirlərinə görə, Məsih Tanrı ilə eyni mənşədən və onun oğlu deyil, sadəcə, bir insan və Tanrı ilə insanlar arasında vasitədir. 325-ci ildə keçirilən I Nikea Şurasında Ari aforoz edildi, fikirləri rədd olundu və Məsihin Tanrı ilə eyni mənşədən olması əsas inanc kimi qəbul edildi.

**ARİYƏ (العارية):**

Bir malı qarşılıqsız olaraq müəyyən müddətə başqasına verməklə bağlanan müqavilə. “Ariyə” mənfəət haqqının bir şəxsdən başqa bir şəxsə keçməsidir. Ariyə İslam hüququnda mülkiyyəti nəql edən müqavilələrdən biri kimi qəbul edilmişdir.

**ARMAGEDON:**

Xristian inancına görə, Axırzamanda Xeyir və Şər arasında baş verəcək son müharibə. Əhdi-Cədidin Vəhy kitabına əsasən, Uca Tanrının böyük gündə baş verəcək bu müharibədə dünyanın və Yer üzünün bütün kralları iştirak edəcəklər.

**ARON-HAKODEŞ:**

Tanrı ilə İsrailoğulları arasındakı əhdin simvolu sayılan və "on əmrin" yazıldığı lövhələrin qorunduğu dolab. Tövratın müxtəlif yerlərində "Əhd sandığı", "Şəhadət sandığı", "Tanrının sandığı" kimi fərqli şəkildə adlandırılan Aron-hakodeşin xam maddəsindən emal şəklinə qədər Tanrı tərəfindən bildirildiyinə inanılır (Çıxış, 25/10-21, 26/1-36, 40/3). İsrailoğulları Tanrının qüdrətinin və onlarla birlikdə olmasının simvolu kimi, Aron-hakodeşi daim özləri ilə daşımış, çətin zamanlarında ondan mədət ummuşlar. Süleyman məbədinin inşasından sonra "qüdsül-əqdəs" bölməsinə yerləşdirilən sandıq Babil hökmdarı II Nəbukadnəzarın məbədi dağıtmasından sonra itmişdir. Hazırda yəhudilər Tövrat rulonlarının qorunduğu dolabı əhd sandığı adlandırır və Tövrata göstərdikləri hörməti ona göstərirlər.

**ARTHA:**

Hinduizmdə insan həyatının məqsədlərindən biri. "Məna", "məqsəd", "hədəf" və s. mənaları olan artha var-dövlət, iş, məişəti təmin etmə yolu, iqtisadi zəmanət kimi maddi vəziyyətin yaxşılaşdırılması sahəsi ilə əlaqədardır. Hinduizmə görə Dharma, Kama və Mokşa ilə birlikdə Artha həyatın dörd məqsədini – Purusarthanı meydana gətirir.

**ARYA SAMAJ:**

XIX əsrdə Vedalardakı həqiqəti ortaya çıxarmaq məqsədilə yaranan reformist Hinduizm cərəyanı. 1875-ci ildə "sanyasi" Dayananda Sarasvati tərəfindən qurulmuş Arya Samajın (Arya camaatı) əsas məqsədi Hinduizmin ən qədim müqəddəs kitabları olan Vedalardakı əbədi həqiqəti aşkara çıxarmaqdır. Bütlərdən imtina edərək monoteist inancı mənimsəyən cərəyanın mənsubları Vedaların yanılmazlığına inanır, Hinduizmin digər dini mətnlərini vəhy olmadığı düşüncəsi ilə inkar edir.

**ASİTA:**

Buddanın doğumu əsnasında Himalay dağlarında tərki-dünya bir həyat yaşadığına inanılan rahib. E.ə. VI əsrdə Hindistanda yaşadığı təxmin edilən "Kaladevala" da adlandırılan bu tərki-dünya rahib, Kapilavatsu krallığının şahzadəsi Siddharta Qautamanın ya bütün dünyanı ümumbəşəri qaydalarla idarə edən bir hökmdar ya da böyük bir dini lider olacağını öncədən xəbər verən şəxs hesab edilir.

**ASKETİZM (ascetism):**

Mənəvi kamilliyi, əxlaqlı və dürüst olmağı təlqin edən dini-etik nəzə-

riyyə. Geniş mənada günahların bağışlanması, mənəvi kamilliyə nail olmaq üçün özünü dünyanın həzz və nemətlərindən məhrum edərək yaşama, özünü tamamilə ibadətə həsr etmə, cəmiyyətdən, insanlardan qaçaraq həyat keçirmə, az yemək, az yatmaq və s. zahidlik xüsusiyyətlərinə malik olma mənalarını ifadə edir. Demək olar ki, bütün dinlərdə ortodoksal inanclardan fərqli, dinin mistik yönünə əhəmiyyət verən asketik hərəkatlar meydana gəlmişdir. Sosioloji baxımdan, asketizm cəmiyyətdə qərarlaşmış ictimai, siyasi və dini struktura qarşı həyata keçirilən etiraz hərəkatı kimi başa düşülür.

**ASSİMİLYASİYA (assimilation):**

Təbiətdə və cəmiyyətdə nəyəsə təsir göstərib uyğunlaşdırmaq, təsir altına salmaq. Etnoqrafiyada – bir xalqın öz dilini, mədəniyyətini, fərqləndirici xüsusiyyətlərini, milli şüurunu itirməklə başqa xalqa qarışması. Bu da son nəticədə assimilyasiya olunan xalqın digər xalqa qovuşmasına, onun içərisində tamamilə əriməsinə gətirib çıxarır. Assimilyasiya həm könüllü, həm də məcburi (zorakı) formada ola bilər. Sonuncusuna "assimilyasiya siyasəti" deyilir. Müasir dövrdə siyasi şüurda plüralizm və multikulturalizm anlayışlarının inkişafı fonunda assimilyasiya siyasəti tərk edilir və azlıqların milli xüsusiyyətləri qorunur, mədəni müxtəlifliklər xalqın milli sərvəti kimi qiymətləndirilir.

**AŞERA:**

Qədim Sami dinlərdə ana tanrıça/ilahə. Qədim Akkad, Hitit və Uqarit dillərində bənzər adlarla rast gəlinən Aşera, ilahi-ümumbəşəri bir ana kimi insanların, heyvanların və s. məhsuldarlığını təmsil edir.

**AŞKENAZ:**

Tövratda keçən (Yaradılış, 10) Nuhun nəvəsi Yafəsin oğlu Aşkenazın adı ilə adlandırılan Mərkəzi və Şərqi Avropa ölkələrində yaşayan yəhudilər. X əsrdə Müqəddəs Roma İmperatorluğunda məskunlaşan aşkenazi yəhudilər danışdıqları idiş dili və adət-ənənələri ilə ispaniyalı və portuqaliyalı Sefardim yəhudilərdən fərqlənirlər.

**AŞRAMA:**

Hinduizmə görə, ideal bir insanın həyatının dörd mərhələsindən biri. Bax: **ASHRAMA DHARMA.**

**AŞRAMA-DHARMA.**

Hinduizmə görə, ideal insan həyatının dörd mərhələsi. Şagirdlik (bharmacarin) mərhələsi brahmindən müqəddəs kitabları öyrənməklə, ailə həyatı (grhasthya) dövrü cəmiyyətinə qarşı faydalı olmaqla, tərki-dünyalıq (vanaprastha) mərhələsi ailəsini tərk edərək, insani problemlərdən uzaq dərgahda təfəkkürlə keçirməklə və dini dilənçilik (sannyasa) dövrü isə yemək və geyim ehtiyacını dilənərək əldə etmək, özünü tamamilə din yoluna həsr etməklə səciyyələnir.

**AŞURA (عاشوراء):**

Ərəb dilində 10-cu mənasına gəlir. Hicri-qəməri təqvimlə məhərrəm ayının 10-cu gününü ifadə edir. Aşura günü İslam tarixində Məhəmməd peyğəmbərin nəvəsi Hüseyn ibn Əlinin və tərəfdarlarının hicri 61-ci ilin məhərrəm ayının 10-da (miladi 10 oktyabr 680) Əməvi xəlifəsi Yezid ibn Müaviyənin ordusu tərəfindən şəhid edilməsi ilə yadda qalmışdır. Sünni mənbələrində Aşura günündə, həmçinin Adəm, Yunus, Nuh, Yəqub və Musa kimi peyğəmbərlərin müxtəlif sıxıntılardan qurtulduğu da qeyd olunur. Sözügedən məzhəbdə bir gün əvvəl və ya bir gün sonrası ilə birlikdə Aşura günündə oruc tutmaq müstəhəb hesab olunur.

**ATEİZM (atheism):**

Yunanca "a" inkar şəkilçisi ilə "theos" ("tanrı") sözünün birləşməsindən əmələ gəlmişdir. Hərfi mənası "allahsız", "Allahın inkarı" deməkdir. Ateizm bütövlükdə dinin və onun əsas etiqad və ehkamlarının, Allaha, peyğəmbərliyə, müqəddəs kitablara, qeyb aləminə və axirətə inamın, hər cür fövqəltəbii qüvvələrə etiqadın əsassızlığını sübut etməyə çalışan materialist baxışlar sistemidir. Ateizm dünya və kainatdakı hadisələri sırf təbii və maddi səbəblərlə izah etmək iddiasındadır. Ateizmin xüsusi bir forması elmi ateizmdir. Elmi ateizm marksist-leninçi fəlsəfəyə və materialist dünyagörüşünə əsaslanır. Elmi ateizmi belə xarakterizə etmək olar: a) Təbiət və cəmiyyət haqqında elmlərin nailiyyətlərinə istinad edir; b) Allaha və digər fövqəltəbii qüvvələrə, ümumiyyətlə, hər cür dini baxış və təsəvvürlərə əsaslanmır; c) Dünyadakı hadisələrin məhz elmi mənzərəsini və izahını verən materialist baxışlar sistemidir.

**ATMAN:**

Hind mənşəli dinlərdə kainatın ruhu, əşyanın əslini ifadə edən nəfəs və yaxud ruh.

**ATOM (الجوهر) :**

Orta əsrlərdə kəlam elmində təkbaşına mövcud olan, dəyişməyən və bölünməyən ən kiçik hissəcik mənasında işlənən termin. İslam dünyasında yunan fəlsəfəsinin təsiri ilə bölünməz cövhər (əl-cüz əlləzi la yətəcəzzəü) anlayışına əsaslanan "atomçuluq" ifadəsini ilk dəfə mötəzilə kəlamçısı Əbül-Hüzeyl əl-Əllaf işlətmişdir.

**ATOM: (ərəbcə)**

Antik yunan materializminə görə, varlığın əsasında duran bölünməyən ən kiçik zərrə.

**ATOMÇULUQ:**

(ərəbcə) Fəlsəfə və kəlam mətnlərində ərəbcə "məzhəb əz-zərrə", "məzhəb əl-cövhər əl-fərd", "əl-cüzz əlləzi la yətəcəzzə", ingiliscə isə "atomizm" kimi qeyd olunur. Varlıqların bölünməyən ən kiçik zərrələr olan

atomlardan ibarət olduğunu iddia edən, varlığı atomlara əsaslanaraq izah edən fəlsəfi cərəyan. Bu cərəyan maddənin çox kiçik, dəyişməz, əzəli, öz aralarında bənzər olub, forma və ağırlıq baxımından fərqli zərrəciklərdən meydana gəldiyini irəli sürür. Bu nəzəriyyəni ilk dəfə Levkipp (e.ə. 500-440) irəli sürmüş, sonra tələbəsi Demokrit (e.ə. 460-370) tərəfindən daha da inkişaf etdirilmişdir. Hələ qədim dövrlərdən etibarən, Platon və Aristotel kimi filosoflar bu nəzəriyyəni tənqid etmişlər. Atomçuluq bəzi İslam mütəfəkkirləri tərəfindən də qəbul edilmişdir. Orta əsrlərdə İslam teoloqları (mütəkəllim) yunan atomçuluğundan fərqli olaraq bu nəzəriyyəni tamamilə Allahın varlığının isbatı kontekstində müzakirə obyektinə çevirmişlər. Beləliklə, atomçuluq nəzəriyyəsi İslam düşüncəsində teoloji və metafizik xarakterə bürünmüşdür. Atomçuluq nəzəriyyəsini qəbul edən ilk İslam mütəfəkkirləri IX əsr mötəzilə məzhəbinin Bəsrə qolunun nümayəndələri olan Əbül-Hüzeyl əl-Əllaf (v. 849), əl-İsqafi (v. 855), Əbu Əli əl-Cübbai (v. 915), Müəmmər ibn Əbbad (v. 850) və Hişam əl-Füvəti (v. 850) kimi alimlərdir. Sonradan mötəzilə atomçuluğu əşəri məktəbində də geniş şəkildə araşdırıldı. Onlar atomçuluğu maddədən əlavə məkan və zaman müstəvisində də müzakirə obyektinə çevirərək bu nəzəriyyəyə tamamilə metafizik bir xarakter verdilər. Sözügedən nəzəriyyə Əbülhəsən əl-Əşəridən sonra Baqillani (942-1013), Cüveyni (1028-1085) və Fəxrəddin Razi (1149-1210) kimi kəlamçılar tərəfindən də mənimsənilmişdir. İslam dünyasında bu nəzəriyyə başda mötəzilə kəlamçısı Nəzzam (v. 838) olmaqla, Kindi (796-866), İbn Sina (980-1037), Qəzali (1058-1111) və İbn Həzm (994-1064) kimi filosof və kəlamçılar tərəfindən tənqid edilmişdir.

**AUM (OM):**

Hinduizmdə və hind mənşəli digər dinlərdə müqəddəs heca, simvol və yaxud mantra. Hinduizmdə müqəddəs heca hesab olunan aum, ruh və mənlik hesab olunan Atmana və mütləq həqiqət hesab olunan Brahmana işarə edir. Vedalar və Upanişadlar başda olmaqla, Hinduizmin müqəddəs mətnlərində fəsillərin giriş və son hissələrində tez-tez rast gəlinir. Hinduizmdə müxtəlif dini ayin və mərasimlərdə müqəddəs mətnlərin oxunmasından əvvəl və oxuma əsnasında, bəzən yoqa və digər meditasiyalarda da oxunur. Aul Buddizm, Caynizm və Siqhizm kimi digər hind mənşəli dinlərdə də istifadə olunur.

**AVALOKİTEŞVARA:**

Mahayana Buddizmində şəfqəti ilə məşhur nəzarətedici və qoruyucu Tanrı.

**AVATAR:**

Hind mənşəli dinlərdə Tanrının, xüsusilə Vişnunun kainatın nizamının pozulmasının qarşısını almaq məqsədilə

Yer üzünə enmək üçün müxtəlif varlıqlarda cisimləşməsi (inkarnasiya). Əsasən, Krişna və qəhrəman Rama Vişnunun avatarları hesab olunmaqla birlikdə, bəzi hindular bu sayı digər din qurucularını əhatə edəcək şəkildə artırırlar.

**AYALTI ALƏM (عالم ما تحت فلك القمر):**

İngilis dilində "sublunary world". Antik yunan filosofu Aristotelin kosmologiyasında kainatın ayaltı və ayüstü olmaqla iki hissədən ibarət olduğu qeyd edilir. Bu anlayışa görə, ayaltı aləm kainatın torpaq, su, hava və oddan meydana gələn hissəsidir. Kainatdakı varlıqlar həssas xarakterlə mövcud olur və sonradan yox olub gedirlər. Ayaltı aləmin fövqündə ayüstü aləm var.

**AYƏ (الآية):**

Bir şeyin varlığını və ya doğruluğunu göstərən dəlil, əlamət, işarə, möcüzə və ibrət. Qurani-Kərimin bəzən bir neçə hərf, bəzən bir söz, bəzən bir cümlə, bəzən də bir neçə cümlədən ibarət olan ən kiçik bölgü vahidi. Bu vahidlər ona görə ayə adlandırılıb ki, əvvəla, onların oxşarını gətirmək mümkün deyildir; ikincisi, onlar Həzrət Məhəmmədin həqiqi peyğəmbər olduğunu təsdiqləyir.

**AYƏTULLAH (آية الله):**

Hərfən "Allahın nişanəsi, işarəsi" mənasına gəlir. Terminoloji mənada isə İran, İraq, Livan və s. ölkələrdə imamiyyə məzhəbinin fiqhdə (İslam hüququnda) yüksək elmi dərəcəyə nail olan alimləri üçün istifadə olunan bir tituldur. İlk dəfə "Ayətullah" titulu "Əllamə Hilli" adı ilə məşhur olmuş fəqih İbn Mütəhhər əl-Hilli (648/1250-726/1325) üçün istifadə olunmuşdur. Bu titulun din alimləri arasında kütləvilik qazanması XIX əsrin sonları, XX əsrin əvvəllərinə təsadüf edir.

**AYƏTÜLKÜRSİ (آية الكرسي):**

"Bəqərə" surəsinin 255-ci ayəsi. Ayə Allahın sifətlərindən (atributlarından) bəhs edir. Tərkibində "kürsi" sözü keçdiyi üçün Həzrət Peyğəmbər tərəfindən belə adlandırılmışdır.

**AYİN (rite):**

Dini mərasim, ritual, ibadət. Fərdi qaydada və yaxud camaatla birlikdə günahdan uzaqlaşmaq, savab qazanmaq, şər qüvvələri qovub, xeyir qüvvələri çağırmaq və s. kimi dini məqsədlərlə yerinə yetirilən ibadətlər. Dinlərin əsas xüsusiyyətlərindən olan ayinlər. Hər bir dinin özünəməxsus olmaqla yanaşı, bir çox dində bənzər ayinlər mövcuddur.Din sosiologiyasında dini təcrübənin ifadə formalarından biri kimi çıxış edir. Belə ki, dini təcrübənin nəzəri ifadəsi etiqadda, praktik ifadəsi ayinlərdə, ictimai ifadəsi isə dini təşkilatda özünü göstərir. Dini ayinlərə bütün dinlərdə rast gəlmək mümkündür. Görkəmli fransız sosioloqu Emil Dürkheym (1858-1917) hesab edir ki, ayin fövqəltəbii varlığa münasibətdə in-

sanın davranış və fəaliyyətinin məcmusundan ibarətdir. Ayinlər forma və məzmun baxımından müxtəlif dinlərdə bir-birindən fərqlənir: ibadətlər, qurbanlar, mərasimlər, dini rituallar ayinlərin müxtəlif növlərini təşkil edir.

**AYÜSTÜ ALƏM (عالم ما فوق فلك القمر):**

İngilis dilində "supralunary world". Aristotel kosmologiyası, eləcə də İslam peripatetizminə görə, ayüstü aləm ayaltı aləmin fövqündə yerləşən və "efir" (aeter, aither) adı verilən beşinci ünsürdən (guinta essentia) meydana gələn varlıq sferasıdır. Ayüstü aləm Günəş, Ay, ulduzlar və planetlər şəklindəki səmavi cisimlərdən təşkil olunur. Aristotel hesab edirdi ki, səmavi cisimlər yox edilməsi mümkün olmayan ilahi varlıqlardır. Buna görə də Platon (e.ə. 427-347) kimi Aristotel də onların ən mükəmməl hərəkət tərzi olan dairəvi hərəkətə malik olduğunu qeyd etmişdir.

**AZAN (الأذان):**

Müəyyən sözlərlə və üslubla müsəlmanlara namaz vaxtının başladığını bildirmə və onları namaza çağırma. Azan oxuyana "müəzzin" deyilir.

**AZİFƏ (الآزفة):**

Qiyamətin qopacağı günün, yaxud qiyamətin adlarından biri. "Azifə" "bir hadisənin vaxtının yaxınlaşması" və "tələsmək" deməkdir. Quranda "yəvm əl-azifə" (yaxın gün) və "əzifət əl-azifə" (hərfən yaxınlaşan yaxınlaşdı) şəklində iki yerdə keçir. Ümumi qəbul edilən nöqteyi-nəzərə görə, bu ayələrdəki ifadələr qiyamət gününü, yaxud qiyaməti, onun gəlib-çatdığını bildirir. Təfsir alimləri qiyamətin gəlib-çatdığını bildirən bu mənadakı ayələrin insanları hərəkətlərində diqqətli olmağa sövq etdiyini bildirirlər.

# B

**BAB (الباب):**

Ərəb dilində hərfən “qapı” mənasına gəlir. Bəzi məzhəblərdə “Allaha və ya müqəddəs qəbul edilən şəxslərə açılan qapı” mənasında müxtəlif insanlar üçün istifadə olunan bir tituldur. Məsələn: nüseyriliyin qurucusu Məhəmməd ibn Nüseyr (v. 270/883) imamiliyin 11-ci İmamı Həsən əl-Əskərinin (232/846-260/874) babı olduğunu iddia etmişdir. Babiliyin qurucusu Əli Məhəmməd Şirazi (1236/1820-1266/1849) isə 12-ci İmam Məhəmməd ibn Həsənin babı, yəni onun biliyindən istifadə etmək üçün bir vasitə olduğunu irəli sürmüş və beləcə, tərəfdarları arasında “Bab” təxəllüsü ilə məşhur olmuşdur.

**BABƏKİLİK (البابكية):**

Babək Xürrəmiyə (v. 223/838) aid edilən məzhəb. Babək Abbasi xilafətinə qarşı Azərbaycanda üsyan etmiş, Bəzz qalasını özünə mərkəz seçmiş, ona qarşı göndərilmiş xilafət qoşunlarını bir neçə dəfə məğlub etməyə müvəffəq olmuşdur. Nəhayət, 837-ci ildə xəlifə Mötəsimin sərkərdəsi Afşin Bəzz qalasını ələ keçirmiş, 838-ci ildə Babəki əsir alaraq Bağdada gətirmişdir. 838-ci ilin yanvar ayının 4-də Babək xəlifənin əmri ilə qolları və ayaqları kəsilərək edam edilmişdir. Orta əsr ərəbdilli mənbələrdə Babəkə aid edilən məzhəbin məzdəkilik, zərdüştilik və İslamın sintezindən ibarət olduğu irəli sürülür. Bu mənbələrə görə, babəkilər Yer üzünə daim peyğəmbərlərin göndəriləcəyini iddia edir, reinkarnasiyaya və mülkiyyətin bərabərliyinə inanır, spirtli içkiləri qəbul etməyin haram olmadığını irəli sürürdülər. Babəkilik (babəkiyyə) adlı müstəqil bir məzhəbin mövcud olub-olmadığı hələ də tədqiqatçılar arasında mübahisə obyektidir.

**BABİLİK (البابية):**

XIX əsrdə İranda Əli Məhəmməd Şirazinin(1236/1820-1266/1849) başlatdığı dini-siyasi hərəkat. Şirazi əvvəlcə imamiliyin 12-ci İmamına (Mehdi) açılan qapı (Bab) olduğunu, daha sonra “Mehdi” olduğunu, ən sonda isə Allahdan ona “əl-Bəyan” adlı kitab verildiyini iddia etmişdir. Bu iddialardan sonra ətrafına xeyli tərəfdar kütləsi toplaşmış və beləcə, babilik hərəkatının əsası qoyulmuşdur. Şirazi 1849-cu ildə Təbrizdə edam olunmuşdur. Babilik XX əsrdə Mirzə Hüseyn Əli Mazandarani Nurinin (1233/1817-1309/1892) bu cərəyanın əsasında inkişaf etdirdiyi bəhailiyin içərisində, demək olar ki, ərimişdir.

**BABUR İMPERİYASI:**

Teymurilər sülaləsindən Baburun 1526-cı ildə qurduğu, Böyük Moğol İmperiyası adlanan türk dövləti. Baburun nəvəsi Əkbər şahın (1556-1605) islahatları nəticəsində siyasi və iqtisadi cəhətdən möhkəmlənən imperatorluq Sultan Övrəngzibin (Aləmgir) dövründə (1658-1707) ən geniş sərhədlərinə çatmış və bütün Hindistanı əhatə etmişdir. XVIII əsrin ortalarından idari və iqtisadi cəhətdən zəifləyən imperatorluq 1857-ci ildə Böyük Britaniya İmperatorluğuna tabe edilmişdir.

**BAC (باج):**

"Hissə, pay" mənasına gələn bu termin, ümumi mənada, "vergi" deməkdir. Tarixin müxtəlif dövrlərində üşr və xərac kimi vergi növlərini əhatə edən bac bütün növ vergiləri ifadə etmək üçün istifadə olunmuşdur.

**BAİN TALAQ (الطلاق البائن):**

Tərəflərin yenidən evli sayılmaları üçün yeni nikah müqaviləsinin tələb edildiyi boşanma növü. Əsasən, üçüncü boşanmadan sonra bain talaq meydana gəlir. Bain talaqla boşanan ər-arvadın təkrar evlənmələri qadının başqa kişi ilə evlənib-boşanmasından sonra mümkündür. Bu şərt boşanma hallarının qarşısının alınması üçün qoyulmuşdur.

**BAİS (الباعث) :**

Allahın adlarından (əsmai-hüsna) biri olaraq daha çox "ölüləri dirildən" mənasında işlədilir. Allahın feili sifətlərindən hesab olunur. "Əşyaların, cinslərin və növlərin yoxdan var edilməsi" mənasında "bais" ilə yaratma mənasına gələn "xaliq" arasında məna yaxınlığının olduğu qəbul edilir. İlk və son yaradılışdan başqa yaradılışların da mövcud olduğuna diqqət çəkən ayəyə ("Vaqeə", 56/61) əsasən, "bais" təkcə axirətdə deyil, bu dünyada da insanın və digər canlıların yaradılış mərhələlərini idarə edən ilahi qüdrəti ifadə edir.

**BAİSAKXİ/Vaisakxi:**

Hinduizmdə və siqhizmdə aprel ayında qeyd edilən məhsul bayramı kimi ortaq xüsusiyyəti ilə yanaşı, Hinduizmdə günəş ilinin başlanğıcı, Siqhizmdə isə Khalsa təşkilatının quruluşunun qeyd edildiyi gün olaraq tarixi və dini əhəmiyyət daşıyır.

**BAQİ (الباقي):**

Allahın adlarından (əsmai-hüsna) biri. Lüğəvi mənada "bəsirətli və fasiləsiz şəkildə davam etmək" deməkdir. Terminoloji mənada isə "Varlığının sona çatması təsəvvür edilməyən" deməkdir. Baqi "Allahdan başqa hər şeyin gəlib-keçici olduğu" mənasına gələn "fani"nin ziddidir. Kəlam mənbələrində Allahın zati-səlbi sifətlərindən biri kimi, "varlığının sonu olmayan" mənasında işldilir. İslam teoloqları (mütəkəllim, kəlamçı) varlığı özündən (Vacib əl-vücud bizatihi) olduğu üçün zamandan asılı olmayan Allahın sonsuzluğunu keç-

miş zaman baxımından "qədim" və "əzəli", gələcək zaman baxımından isə "baqi" və "əbədi" məfhumları ilə ifadə ediblər.

**BAQİRİLİK (الباقرية):**

İmamətin isnəəşərilikdə 5-ci, ismaililikdə isə 4-cü imam sayılan Məhəmmədəl-Baqirdə (57/677-114/733) sona çatdığını və onun "Mehdi" olduğunu iddia edən, VIII əsrdə mövcud olmuş məzhəb. İmamiliyin daxilində qrup olan şeyxiliyin qollarından biri də "baqirilik" adlandırılmışdır. Qurucusu Mirzə Məhəmmədbaqir əl-Həmədanidir (1823-1901). Həmədanda fəaliyyət göstərmiş əl-Həmədaninin tərəfdarlarına "şeyxiyyə-baqiriyyə" deyilmişdir.

**BALASƏRİLİK (البالاسرية):**

İmamiliyə mənsub olan bir qrup. Balasəriliyin əsas məqsədi imamiliyə mənsub olan başqa bir dini qrupun – şeyxiliyin tənqididir. Şeyxilər Məhəmməd peyğəmbərin və ya Əhlibeyt imamlarının türbələrində hörmət məqsədilə namazı elə qılırlar ki, onların qəbri qiblə ilə öz aralarında qalır. Balasərilər isə bunun qəbuledilməz və hətta bir növ, şirk olduğunu iddia edirlər.

**BARİ (البارئ):**

Allahın adlarından (əsmai-hüsna) biri. Bari "xəstəlik, qüsur və ayıb kimi insana xoş gəlməyən işlərdən uzaq olmaq, "yaradan, maddəsi və nümunəsi olmadan yaradan, xüsusiyyətlərində yaradılmışlara bənzəməkdən uzaq olan, kainatın bütün hissələrini ahəngsizlikdən və nizamsızlıqdan uzaq şəkildə meydana gətirən, bütün nemətləri bir lütf olaraq verən, yaradılanları sağlam və ən gözəl biçimdə yaradan" deməkdir. Quranda iki yerdə keçir.

**BASİT (الباسط):**

Allahın adlarından (əsmai-hüsna) biri. Lüğəvi mənası "yaymaq, genişlətmək, uzatmaq" olan kəlmə Allaha nisbət edildikdə "ruzini artıran, lütfünü əsirgəməyən, ruhları bədənlərə yayan" mənasını ifadə edir. Allahın sifətlərindən biri olaraq "basit" şəklində Quranda keçmir. On beş yerdə "bəst" şəklində Allaha nisbət edilən bu kəlmə müxtəlif mənaları ifadə etməklə yanaşı, on bir ayədə və hədis mənbələrində "ruzini genişlədən" şəklində keçir. Bu mənada, ruzinin bolluğu və ya darlığının daimi, sabit və mütləq bir qanun olmadığı, Allahın iradəsinə bağlı olaraq canlıların bəzən ruzi darlığı, bəzən də bolluq içərisində ola biləcəyi ifadə edilmişdir.

**BAŞ MƏCMU (population):**

Empirik tədqiqatlarda müşahidə və ya sosioloji sorğu aparılması nəzərdə tutulan obyektin elementlərinin məcmusu; əsas kütlə. Baş məcmunun tədqiqata daxil edilməsinin çətinliyi və ya imkansızlığı səbəbindən tədqiqatçılar seçmə metodundan istifadə edirlər, yəni əsas kütləni tam təmsil edən kiçik bir qrup seçilir

və bu qrupdan əldə edilən nəticələr ümumiləşdirilir. Tədqiqatın obyektini təmsil edən bu qrupa “seçmə məcmu” deyilir. Empirik tədqiqatlarda əldə edilən məlumatların etibarlılıq və tutarlılığı seçmə məcmunun reprezentativlik dərəcəsi ilə birbaşa bağlıdır.

**BATİL (الباطل):**

Bir ibadətin və ya hüquqi müamilənin əsas ünsürlərindəki nöqsana görə müqavilənin və ya ibadətin əsassız sayılmasını ifadə edən fiqhi termin. Məsələn: namazın rüknlərindən biri yerinə yetirilmədiyi təqdirdə, namaz batil olar, yəni pozular və yenidən qılınmalıdır. Hüquqi müamilədə isə ünsürlərdən birinin əsl və ya vəsf etibarilə mövcud olmamasına “batil” deyilir.

**BATİN (الباطن):**

Allahın adlarından (əsmai-hüsna) biri. Kəlmənin “gizli olmaq, bilmək, bir şeyin daxilini və ya bir insanın sirrini bilmək” kimi mənaları var. Batin adı “hər baxımdan tək olan” mənasında Allahın zati-səlbi, “bütün gizli olanları bilən” mənasında zati-sübuti, “yaratdıqlarına hər cür nemət verən” mənasında qəbul edilərsə, feili sifətlər (atributlar) qrupuna daxil edilir. “Batin” kəlməsi əsmai-hüsnadan biri kimi həm hədislərdə, həm də “Hədid” (57/3) surəsində “zahir-batin” şəklində keçir.

**BATİNİLİK (الباطنية):**

Orta əsrlərdə şiəlik daxilində yaranan və dinin zahiri deyil, batini mənalarına əhəmiyyət verən qrupların müştərək adı. İslam məzhəbləri tarixində bu termin, böyük ehtimalla, ilk dəfə Mütəhhər ibn Tahir əl-Məqdisinin (v. 355/966-dən sonra) “əl-Bəd vət-tarix” əsərində istifadə olunmuşdur. İslam tarixində özünü şiəliyə aid edən, lakin tanrılıq və peyğəmbərlik isnadı daxil olmaqla, imamlar haqqında ifrat iddiaları olan və “qülat” (الغلاة) adı verilən qruplar üçün istifadə olunmuş “batiniyyə” termini, zamanla dini hökmlərin izahında batini şərhləri sistemli şəkildə önə çəkən ismaililik, xüsusilə də bu məzhəbin nizarilik qolunun adlarından biri kimi istifadə olunmuşdur. Batiniliyi qəbul edən müxtəlif qruplara görə, İslam dininin ehkamlarının həm zahiri, həm də batini mənası vardır. Zahiri məna atılmalı olan lüzumsuz bir qabıq kimidir. Dinin əsası onun batini mənasıdır. Batini mənanı isə ancaq ilahi biliklərə malik olan məsum imam bilir. Bu qruplar batini şərh (batini-təvil) metodunu ifrat şəkildə istifadə etmiş, hətta bunu ibadətlərə də tətbiq etmişlər. Onlara görə, məsələn, namaz qılmaq, əslində, məsum imama kömək etmək, oruc tutmaq İmamın sirlərini qorumaq, zəkat vermək məzhəb mənsublarına elm öyrətmək, həccə getmək isə İmamı ziyarət etməkdir.

**BAYRAM NAMAZI (صلاة العيد):**

Ramazan və Qurban bayramları münasibətilə camaatla qılınan namaza “Bayram namazı” deyilir. İki rükət

olaraq qılınan Bayram namazının digər namazlardan fərqi ondadır ki, bu namazın hər bir rükətində əlavə təkbirlər icra edilir.

**BESƏT (بعثة):**

Ümumi mənada peyğəmbərlik vəzifəsinin verilməsi, xüsusi olaraq Məhəmməd peyğəmbərə risalət vəzifəsinin verilməsi.

**BEŞ ƏZƏLİ PRİNSİP (القدماء الخمسة):**

Ərəbdilli fəlsəfə mətnlərində “əl-qüdəma əl-xəmsə” kimi qeyd olunan beş əzəli prinsip “Allah, nəfs, mütləq zaman (dəhr), mütləq məkan (xəla) və heyula (formasız ilk materiya)” kimi beş məfhuma birlikdə verilən addır. Sözügedən beş əzəli prinsip İslam fəlsəfəsində Əbu Bəkr Məhəmməd ibn Zəkəriyyə ər-Razi (865-925) tərəfindən irəli sürülmüşdür.

**BEŞ HİSS (الحواس الخمس):**

Toxunma (ləms/touch), dadbilmə (zövq/taste), iybilmə (şəmm/smell), eşitmə (səm/hearing) və görmə (bəsr sight) hissini ehtiva edir.

**BEŞ SƏNƏT (الصناعات الخمس):**

Əsası Aristotelin (e.ə. 384-322) “Orqanon” adlı məntiq kitabının son fəslinə əsaslanır. Həmin sənətlərin adları belədir: 1) Analytica Posteriora (əl-bürhan); 2) Topica (əl-cədəl); 3) De Sophisticis Elenchis (əs-səfsətə); 4) Rhetorica (kitab əl-xətabə); 5) De Poetica (kitab əş-şiir).

**BEŞ UNİVERSAL (الألفاظ الخمس):**

“Cins, növ, fəsil, xassə və ərəzi-am” adlandırılan universal məfhumları və bunlar arasındakı əlaqəni ifadə edən məntiq termini. İlk dəfə Aristotel (e. ə. 384-322) tərəfindən istifadə edilən bu beş universalın hər biri Porfiriusun (232-304) Aristotelin “Kateqoriyalar” əsərinə giriş olaraq yazdığı “İsaquci” kitabında təfsilatlı şəkildə izah olunur. Həmin açıqlamalara görə, 1) “Cins” növləri ehtiva edən universaldır. Məsələn: “insan”, “heyvan” və “bitki” növləri “canlı” cinsinə daxildir. “Cins” varlıqlar haqqında daha çox “Nədir?” sualına cavab verir; 2) “Növ” cinsin altında olan və ona bağlı olan universala deyilir. Məsələn: cins olan “canlı” məfhumunun altında növ olan “insan” yer alır. Deməli, insan canlının bir növüdür. “Növ” varlıqlar haqqında daha çox “Mahiyyəti etibarilə nədir?” sualının cavabıdır. Məsələn: “Anar, Nigar və ya başqası nədir?”– deyə sual verilsə, cavabı “İnsan növüdür” olar; 3) “Fəsil” bir varlığı başqa varlıqdan ayıran və o varlıqda daimi olan məziyyət və keyfiyyətdir. Məsələn: ağıl fəsildir, çünki insanı digər varlıqlardan ayıran məxsusi bir keyfiyyətdir; 4) “Xassə” bir növün mahiyyəti ilə əlaqədar olmayan, lakin sadəcə o növə xas bir keyfiyyət və ya məziyyətdir. Məsələn: insanın “gülə bilən varlıq olması” insana məxsus bir keyfiyyət və xüsusiyyətdir (xassə); 5) “Ərəzi-am” (aksidensiyalar) müxtəlif növləri ehtiva edən, an-

caq hər vaxt varlığın xüsusiyyəti olmayan mənalardır. Məsələn: hərəkət varlıqla əlaqədar bir xüsusiyyətdir. Varlıq hər zaman hərəkətdə olmadığı üçün hərəkət həmişə varlığa aid edilə bilməz. Ona görə də hərəkət varlığın aksidensiyasıdır. Hərəkətin varlığı varlığın hərəkətinə bağlıdır. İslam fəlsəfəsində Əbu İshaq əl-Kindidən (796-866) etibarən, digər filosoflar Stoa məntiqçilərinin təsiri altında qalaraq, Porfiriusun beş universalına "şəxs" adlı altıncı universalı da əlavə etmişlər. Buna görə "şəxs" termini başqa varlıqlardan ayrılmış, seçilmiş və hisslər vasitəsilə idrak edilən varlığı ifadə edir.

**BEYƏT (البيعة):**

İslam tarixində dövlət başçısının hakimiyyətini qəbul edərək ona sədaqət sözü verməyi ifadə edən termin. Məhəmməd peyğəmbərin dövründə Əqəbə beyətində olduğu kimi, həm İslam hökmlərinə sədaqəti bildirmək kimi dini, həm də Beyəti-Rizvanda olduğu kimi peyğəmbərə siyasi lider kimi itaəti ifadə etmək məqsədilə istifadə olunmuşdur. I xəlifə Əbu Bəkrin hakimiyyətinin qəbul edilməsi ilə birlikdə idarə edənlə idarə olunan arasında seçim və sədaqət xarakteri daşıyan sosial-siyasi anlaşma xüsusiyyəti qazanmışdır. Dörd xəlifə dövründən sonra xəlifələrin əksəriyyətinin varislik üsulu ilə hakimiyyətə gəlməsi səbəbindən, əsasən, təbəənin dövlət başçısına sədaqətini göstərmək məqsədilə tətbiq olunmuşdur.

**BEYƏTİ-RİZVAN (بيعة الرضوان):**

Məhəmməd peyğəmbərin 628-ci ildə Məkkə yaxınlığında qüreyşlilərə qarşı səhabələrdən aldığı biət. Ümrə ziyarəti üçün Məhəmməd peyğəmbərin başçılığı ilə Mədinədən Məkkəyə gəlmiş müsəlmanlara mane olan və elçi vəsfi ilə Məkkəyə göndərilən Osman ibn Əffanı həbs edən Qüreyşə qarşı lazım gələrsə, mübarizə aparacaqlarına dair Məhəmməd peyğəmbər səhabədən sədaqət vədi almışdır. Qurani-Kərimdə "Ey Məhəmməd! And olsun ki, Allah səninlə ağac altında biət edən möminlərdən razı olmuşdur" ("Fəth", 48/18) şəklində bəhs olunduğu üçün "Beyəti-rizvan" (razı olma biəti) adlandırılmışdır.

**BEYHƏSİLİK (البيهسية):**

Orta əsrlərdə xaricilik məzhəbinin Əbu Beyhəs Heysəm ibn Cabirə (v. 94/173) aid edilən qollarından biri. Beyhəsiyyəyə görə, iman bilik, iqrar və əməldən ibarətdir. Allahı, peyğəmbərləri, Məhəmməd peyğəmbərin təbliğatını bilib dillə iqrar etməyən, ilahi əmr və qadağalara riayət etməyən, Allahın dostlarını sevib, düşmənlərindən üz döndərməyən şəxs müsəlman deyildir. Onlar, həmçinin iddia edirdilər ki, böyük günah işləyən şəxs imamın və ya valinin əmri ilə cəzalandırılmadıqca "mömin" və ya "kafir" adlandırılmaz. Bu məzhəbin bəzi mənsublarına görə, donuz əti, ölü heyvanın əti, axan qan və Allahdan başqasının adına kəsilmiş heyvanın əti istisna olmaqla, qalan

heyvanların ətinin yeyilməsi dini baxımdan icazəlidir. Beyhəsiyyəyə görə, əgər dövlət başçısı kafirdirsə, onun hakimiyyəti altında yaşayan insanlar da kafirdir. Əbu Beyhəs Əməvi xəlifəsi I Vəlidin (672-715) əmri ilə öldürülmüşdür.

**BEYNİYYƏ (البينية):**

Lüğəvi baxımdan “bir şeyin arasında, ortasında olmaq” mənalarını verir. Termin olaraq hərflərin orta ölçüdə tələffüz edilməsinə “beyniyyə” deyilir. Bu xüsusiyyət ن ،م ،ل ،ع ،ر hərflərinə məxsusdur. Qiraət alimləri bu hərflərin daha asan yadda qalması üçün onları aşağıdakı kəlmələrdə toplamışlar: لَنْ عُمَرْ.

**BEYTÜLHİKMƏ (بيت الحكمة):**

Orta əsrlərdə İslam dünyasında tərcümə və elmi tədqiqat fəaliyyətinin icra edildiyi elm mərkəzlərinə verilən ad. Bu ad ilk dəfə Abbasi xəlifəsi Məmun tərəfindən 830-cu ildə Bağdadda təsis edilmiş elm mərkəzinə verilmişdir. Burada, xüsusilə Bizans, İran, Hindistan, Kipr və digər müxtəlif yerlərdən gətirilən fəlsəfə, tibb və təbiət elmləri sahəsindəki kitablar qədim yunan dilindən süryani və ərəb dilinə tərcümə edilirdi. Bu və ya bunun kimi elm və tərcümə mərkəzlərindəki fəaliyyət sayəsində İslam dünyasında dahi elm adamları, böyük filosoflar və onların bir sıra mühüm elmi kəşfləri ortaya çıxmışdır.

**BEYTÜLİZZƏT (بيت العزة):**

Lüğəvi mənada “izzət və şərəf evi” mənasını verir. Terminoloji baxımdan isə dünya səması, göyün birinci qatı, Quranın endirildiyi ən yaxın dünya səması mənalarını ifadə edir. Quran tarixi ilə bağlı mənbələrdəki bəzi rəvayətlərə görə, Quran Peyğəmbərə nazil olmazdan əvvəl, bütöv halda Beytülizzətə endirilmiş, daha sonra oradan mələk Cəbrail tərəfindən müxtəlif zamanlarda hissə-hissə Peyğəmbərin qəlbinə nazil edilmişdir. Mənbələrdə Beytülizzətin mahiyyətinə dair kifayət qədər məlumata rast gəlinmir.

**BEYTÜLMAL (بيت المال):**

Dövlət xəzinəsi və dövlətə aid bütün mülkü ifadə edən fiqhi termin. Beytülmal həm mal-mülkün mühafizə edildiyi məkan, həm də onun idarə edilməsi mənasında işlədilir. Dövlətə aid bütün gəlirlər beytülmalda toplanır və buradan lazım olan yerlərə xərclənir.

**BEYTÜLMƏQDİS (بيت المقدس):**

Əsli aramicə “Beth makdeşa”, ibri dilində isə “Beth ha-mikdaş” şəklində tələffüz olan Qüdsdəki Süleyman məbədinə ilk dövr İslam mənbələrində verilən ad. Tədricən Beytülməqdis bütünlükdə Qüds şəhəri üçün istifadə olunmuş, məbəd isə hərəm olaraq ifadə edilmişdir.

**BƏDA (البداء):**

Şiəlikdə mövcud olan bir inanc məfhumu. “Gizli bir şeyin aşkara

çıxması, insanın müəyyən mövzudakı görüşlərdən birini seçməsi" mənalarına gələn "bəda" şiəlik daxilindəki müxtəlif qrupların bölüşdüyü bir inancdır. İstilahi mənada bəda Allahın müəyyən şəkildə baş verəcəyini bildirdiyi bir hadisənin, daha sonra fərqli şəkildə ortaya çıxması, yaxud bir ilahi hökmün başqa ilahi hökmlə əvəzlənməsidir. Bəda inancının məzmunu ifrat qruplarla (qülat) imamilikdə (imamiyyə) bir-birindən fərqlidir. Qülata görə, Allah hər hansı bir hadisə haqqında hökm verə, daha sonra onun haqqında yeni məlumat əldə edərək hökmünü dəyişə bilər. İmamilik Allaha biliksizlik isnadı mənasına gələn belə bəda anlayışını qəbul etmir. Bu məzhəb bədanı, bir növ, nəsx mənasında qəbul edir. İmamiliyə görə, necə ki, şəriətdə nəsx mümkündür, eləcə də Allahın dünyada baş verəcək bir hadisə haqqında hökm verib, sonra o hökmü başqa bir göstərişlə əvəz etməsi də mümkündür.

**BƏDƏL (البدل):**

Hədis elmində ali isnadın növlərindən biri. Mühəddislər səhvetmə ehtimalını minimuma endirmək məqsədilə hədisin mənbəyinə ən qısa şəkildə çatmağı əhəmiyyətli hesab etmişlər. Bədəl də bu üsullardan biridir. Hədisşünaslıqda "Kütübi-sittə" müəlliflərindən hər hansı birinin hədisini şeyxlərindən deyil, şeyxlərinin şeyxlərindən rəvayət etmək məqsədilə hədisin isnadının qısalması "bədəl" adlanır. Bu mövzuda ən məşhur əsər Əbürrəbi əl-Kəlainin dörd cilddən ibarət "Əbdal" əsəridir.

**BƏDƏL/ƏVƏZ (البدل/العوض):**

Dünyada yaşanan kədər və izdirabların əvəzinin axirətdə ödəniləcəyini ifadə edən kəlam termini. Müqavilənin tərəflərindən hər birinin yerinə yetirməli olduğu məsuliyyəti bildirən fiqhi termin. Satış müqaviləsində satılan mal, kirayə müqaviləsində mənfəət bədəlin nümunələridir.

**BƏDƏVİ (البدوي):**

İslamın yarandığı dövrdə şəhər, kənd və qəsəbələrdə yaşayan oturaq əhalinin (həzəri) əksinə səhrada və çöldə yaşayan insanlar üçün ərəb dilində istifadə olunan termin. Ərəbistan yarımadasında yaşayan bədəviləri digər köçəri xalqlardan ayıran ən mühüm cəhət, xüsusilə Orta Ərəbistanın quraq iqliminə ən yaxşı uyğunlaşan dəvə yetişdirmələridir. İslamın yarandığı dövrdə heyvandarlıq, ovçuluq və ticarətlə yanaşı, digər qəbilələri talan etmək vasitəsilə məişətini təmin edən bədəvilər bu adətlərini XX əsrədək həcc karvanlarına qarşı tətbiq etmişlər.

**BƏDİ (البديع):**

Bəlağət elminin üç əsas istiqamətindən (bəyan, bədi, məani) biri. Sözün həm forma, həm də məna baxımından gözəlləşdirilməsi ilə bağlı üsul və qaydaları müəyyən edən elm sahəsi. Həmçinin, İslam əqidəsində Allahın adlarından (əsmai-hüsna) biri də "bədi"dir. "Tayıbərabəri olmayan, yoxdan var edən,

bir sənətkar kimi yaradan" deməkdir. Bədi Quranda "göylərin və yerin yaradıcısı" mənasında Allaha nisbət edilir ("Bəqərə" 2/117; "Ənam" 6/101). Hədislərdə də bu ad Allahın adları arasında qeyd edilir.

**BƏDİHİ/ BƏDİHİYYAT (البديهيات):**

"Ağlın heç bir dəlilə ehtiyac duymadan açıq və dəqiq şəkildə qəbul etdiyi hökm (propozisiya)" mənasında məntiq termini. "Dəqiq və bariz bilik, anidən ortaya çıxma, meydana gəlmə" kimi mənalar ehtiva edən bədihi və ya bədihiyyat. Düşüncə tarixinin ilk dövrlərində bədihi yerinə "zəruri" və "əvvəli" kimi terminlərdən istifadə olunsa da, İslam mütəfəkkiri Fəxrəddin Razidən (1149-1210) sonra "bədihi" temininin istifadəsinə daha çox yer verilmişdir. Biliklərimizin bir qismi zehnimizdə hər hansı bir fikri və praktiki cəhd göstərmədən, özözünə meydana gəlir. Bu biliklərdən birincisi nəzəri, ikincisi isə bədihi və zəruri bilikdir.

**BƏDİİYYAT (البديعيات):**

Başda gözəllik məfhumu olmaqla, bu mövzuya daxil olan hər növ varlıq haqqında həm doğru düşünmənin, həm də doğru hiss etmənin kafi şərt və meyarlarını tədqiq edən fəlsəfə sahəsi.

**BƏĞY (البغي):**

"Dövlətə qarşı üsyan" mənasına gələn fiqhi termin. Üsyan edənə "baği" deyilir. İslam hüququnda dövlətə qarşı üsyana mənfi yanaşılmışdır.

**BƏHİRA (الراهب بحيرا):**

Bəzi rəvayətlərə görə, Məhəmməd peyğəmbərin uşaqlıq dövründə Suriyada görüşdüyü xristian rahib. Bəhiranın Məhəmməd peyğəmbərlə görüşməsi ilə əlaqəli rəvayətlər, Orta əsrlər Xristian dünyasında Məhəmməd peyğəmbərin həqiqi peyğəmbər olmayıb, təlimlərini Xristianlıqdan aldığı iddiası üzrə istifadə olunmuşdur. Məhəmməd peyğəmbərin həmin dövrdə yaşının az olması və qısamüddətli görüş nəticəsində İslam dininin təlimlərini öyrənməsinin qeyrimümkünlüyünə görə İslam alimləri bu iddialara qarşı çıxmış, bəzi alimlər isə aidiyyəti ravi silsiləsindəki nöqsanlara görə bu rəvayətlərin səhih olmadığını bildirmişlər.

**BƏHŞƏMİLİK (البهشمية):**

Orta əsrlərdə mötəzilə məzhəbinin Bəsrə qolunun məşhur alimlərindən olan Əbu Haşim əl-Cübbainin (v. 321/933) tərəfdarlarına verilən ad. Əbu Haşim varlıqla yoxluq arasında "hal" (əhval) adını verdiyi üçüncü bir kateqoriyanın olduğunu irəli sürmüş, Allahın sifətlərinin nə var, nə də yox olan "hallar" olduğunu iddia etmişdir. O, bununla Aristotel məntiqinin əsas prinsiplərindən biri olan "üçüncü istisna qanunu"nu da inkar etmişdir.

**BƏKRİLİK (البكرية):**

Hicri II əsrin sonu III əsrin əvvəllərində yaşadığı güman edilən Bəkr ibn üxt Əbdülvahid ibn Zeydin görüşlərini müdafiə edən məzhəb. Bəkriliyin

əsas müzakirə obyektinə çevirdiyi məsələlərdən biri "böyük günah" olmuşdur. Onlar böyük günah işləyənin (mürtəkibi-kəbirə) münafiq olduğuna və cəhənnəmə gedəcəyinə inanırdılar. Həmçinin onlara görə, davamlı şəkildə kiçik günah işləyənlər də böyük günah işləyənlərlə eyni hala düçar olacaqlar. Bəkrilər iddia edirdilər ki, insan öldürənin Allah tərəfindən bağışlaması mümkün deyil, lakin Əli ibn Əbu Talib, Təlhə ibn Übeydullah və Zübeyr ibn əl-Əvvamın Cəməl döyüşündəki hərəkətləri İslama zidd olsa da, Bədr döyüşündə iştirak etdikləri üçün onlar bağışlanmışlar. Qəzavü-qədər məsələsində bəkriliyin görüşləri mötəzilə məzhəbinə yaxındır. Qiyamət günündə möminlərin Allahı görəcəyinə dair inancları isə sünniliklə eynidir.

**BƏQA (البقاء):**

Allahın varlığının sonsuzluğunu ifadə edən kəlam termini. "Fəna" məfhumunun ziddidir. Bəqa aləmin yaradıcısı olan Allahın əzəldən bəri var olması, yəni qidəm sifəti (atribut) ilə əlaqəlidir. Əzəli olan Allahın əbədi olacağını qəbul etmək məntiqi cəhətdən zəruridir. "Yol olmaz, ölməz" mənalarındakı "la yəzəl" va "la yəmut" kəlmələri Allahın bəqa sifətini ifadə etmək üçün işlənir. Allaha aid edilən bəqanın hansı sifət qrupuna aid olduğu məsələsi kəlam alimləri arasında müzakirə mövzusu olmuş, bu məsələ barəsində müxtəlif görüşlər irəli sürülmüşdür.

**"BƏQƏRƏ" SURƏSİ (سورة البقَرة):**

Quranın 2-ci surəsi. 286 ayədən ibarətdir. Mədinə dövründə nazil olmuşdur. Surənin adının mənası "inək" olub, 67-71-ci ayələrdəki hadisədən əxz edilmişdir. Bu söz Həzrət Musa dövründə bilinməyən qatili tapmaq üçün inək qurban edilməsi haqqındakı rəvayətdən alınmışdır. Quranın ən böyük ayəsi (282) və Quranda çox əhəmiyyətli ayə sayılan "Ayətülkürsi" (255) bu surədə yer alır. Surənin əsas mövzuları hüquqi ayələri, Adəm, Musa, İbrahim, Süleyman haqqındakı qissələri və İsrailoğulları ilə olan münasibətləri əhatə edir. Surədə qiblənin istiqaməti, borclar hüququ, namaz, oruc və həcc ibadətləri, cihad haqqında ayələr və hökmlər mövcuddur.

**BƏQLİLİK (البقلية):**

İslam məzhəbləri tarixində "bəqlilik" (əl-bəqliyyə) adı ilə iki qrup mövcud olmuşdur. Cəfəri-Təyyarın oğlunun nəvəsi olan Abdullah ibn Müaviyənin (v. 129/746-47) dostu olmuş, həyatı və adı haqqında mənbələrdə məlumat verilməyən "Bəqli" ləqəbli şəxsə aid edilən birinci qrupa görə, insanlar paxla kimidir, öldükdən sonra dirilməyəcəklər. Abbasi xəlifəsi Mənsur (714-775) Bəqlinin öldürülməsini əmr etmişdir. "Bəqlilik" adı verilən ikinci qrup isə ismailiyyənin qollarından hesab olunan qərmətiliyə mənsub qruplardan biridir. Vegetarianlığı önə çəkən bu qrupun lideri fəaliyyətlərini daha çox 295/907-ci ildə artıran hindəsilli

Əbu Hatim əz-Zütti olmuşdur. Səvad qərmətilərinin əksəriyyəti bəqliliyə mənsub idi. Əbu Hatim öz tərəfdarlarına ət yeməyi haram etmiş, vəzəri və şalğam istisna olmaqla, tərəvəzlərlə qidalanmalarını əmr etmişdi. Bəqlilər, həmçinin heyvanları da öldürmürdülər. Bədəvilərə qoşularaq Kufə şəhərinin ətrafında soyğunçuluqla məşğul olan bəqlilərə qarşı Abbasi xəlifəsi Müqtədir Billah (895-932) 928-ci ildə Harun ibn Qüreybin başçılığı altında qoşun göndərmiş və onların əksəriyyəti öldürülmüşdür.

**BƏLAĞ (البلاغ):**

Hədis elmində rəvayət terminlərindən biri. Ərəb dilində "çatmaq" mənasını verir. Hədis termini kimi "bəlağ" daha çox "bələğəna" (bizə çatdı) və ya "bələğəni" (mənə çatdı) şəklində işlədilir. Hədis üsuluna görə, "bələğəna" rəvayət termini isnadsız olaraq nəql edilən hədislərə dəlalət edir. Bəzi mühəddislər öz əsərlərində onlara səhih olaraq rəvayət edilən hədisləri isnadsız surətdə "bələğəna" və ya "bələğəni" formasında qeyd etmişlər. Məsələn: Malik ibn Ənəsin "əl-Müvəttə" adlı əsərində bu növ rəvayətlərin sayı 61-dir. Bu hədislərin 4-ü xaric, digərləri müttəsil isnadla başqa hədis əsərlərində mövcuddur. Bununla yanaşı, İbn Salaha görə, "bəlağ" zəif ravilərin çox müraciət etdikləri bir rəvayət terminidir və onların isnadı başqa isnadlarla təsdiq olunmadığı müddətdə zəif hesab edilir.

**BƏLAĞƏT (البلاغة):**

Ritorika. Dinləyicilərə təsir edəcək söz söyləmək. Lüğəvi mənası "sözün fəsahətli və açıq-aydın olması" deməkdir. Termin kimi "qabiliyyət" və "elm" mənalarında istifadə olunur. Qabiliyyət mənasında "bəlağət" sözün açıq-aydın olmaqla yanaşı, istifadə edildiyi yerə, zamana və hədəf kütləyə uyğun olmasıdır. Elm mənasında isə düzgün və yerində söz söyləməklə bağlı üsul və qaydaları araşdıran elmin adıdır. Bəlağət elmi məani, bəyan və bədi olmaqla üç hissədən ibarətdir. **Bax: MƏANİ, BƏYAN, BƏDİ.**

**"BƏLƏD" SURƏSİ (سورة البلد):**

Quranın 90-cı surəsi. 20 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surə öz adını ilk iki ayədə keçən "bələd" (şəhər) sözündən almış və bu sözlə Məkkəyə işarə edilmişdir. Surənin ilk ayələrində şəhərə, yəni Məkkəyə and içilir, sonra insanın çətin vəziyyətdə ikən dünyaya gətirilməsindən, buna görə həmin sıxıntıların öhdəsindən gəlmək üçün uca hədəflərə sahib bir şəxs olmasının əhəmiyyətindən bəhs edilir.

**BƏRAƏT (البرائة):**

Əksi isbat olunanadək bir insanın borcsuz və günahsız olduğunu bildirən fiqhi termin. Bir insanın borclu olduğunu və ya cinayət törətdiyini iddia edən şəxs bunu isbat etməlidir.

**BƏRAHİMƏ (البراهمة):**

Sanskritcədə "demək, danışmaq, qışqırmaq, çığırmaq, kükrəmək; güclü olmaq" mənasındakı "brh" kökündən törəyən "brahma" "müqəddəs qüdrət, uca həqiqət" mənasına gəlir. Bu qüdrətə sahib olan insana isə "brahman" deyilir. Brahman zaman keçdikcə məna dəyişikliyinə uğrayaraq, "dünyanı formalaşdıran və ona nizam verən ilah" mənasında istifadə edilməyə başlandı. Şəhristani "bərahimə" kəlməsini peyğəmbərliyi inkar edən Bərahim adlı bir nəfərdən və ya Həzrət İbrahimlə olan münasibətlərinə görə bu adı aldıqlarını qeyd edir. Brahmanizm Hindistanın şimal ərazilərində vedalardan sonra meydana çıxan dini sistemdir. İslam mənbələrində brahmanizm "Bərahimə" və ya "Bərhəmiyyə" şəklində keçir. Onlar insan həyatı üçün ağlı yetərli qəbul edir, peyğəmbərliyi lüzumsuz sayırdılar. İslam kəlamçıları II (VIII) əsrin əvvəllərindən etibarən, Bərahiməyə rəddiyyələr yazmağa başlamışlar.

**BƏRAT (ليلة البراءة):**

İslam dünyasında, xüsusilə Osmanlı dövlətində üzərində hökmdarın şəxsi imzası və yaxud möhrü hesab olunan tuğrası olan, əlaqədar şəxsə hər hansı bir vəzifə, istifadə hüququ və yaxud imtiyazın verildiyini göstərən sənəd. Etibarlılıq müddəti tuğranın sahibi hökmdarın hakimiyyət dövrü qədər olan bərat, hakimiyyət dəyişikliyi zamanı qüvvəsini qoruması üçün yeni hökmdar tərəfindən də yenilənirdi.

**BƏRBƏRİ XANƏDANLARI:**

Abbasilər dövlətinin yaranmasından etibarən, Şimali Afrikada mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində yaranan, bəzilərinin qurucusu ərəb olmaqla yanaşı, həm qurucularının, həm də əhalinin böyük əksəriyyətini bərbərilərin təşkil etdiyi sülalə dövlətlər. Rüstəmilər (777-909), Midrarilər (772-977), İdrisilər (788-985), Əğləbilər (800-909), Zirilər (972-1148), Həmmadilər (1015-1152), Fatimilər (909-1171), Murabıtlar (1056-1147), Muvahhidlər (1130-1269), Mərinilər (1196-1465), Vəttasilər (1428-1549), Əbdülvadilər (1235-1550) və Həfsilər (1228-1574) əsas bərbəri xanədanlıqları sayılır.

**BƏRZƏX (البرزخ):**

Kəlam, təsəvvüf və fəlsəfədə müxtəlif mənalarda işlənən termin. Lüğəvi mənada "iki şey arasındakı maneə" deməkdir. Dini termin olaraq ölümlə başlayıb yenidən dirilişə (bəs) qədər davam edən ara, keçid dövrü, dünya ilə axirət arasındakı aləm və qəbir həyatı mənasında işlənir. Quranda üç yerdə keçir və bunların yalnız birində terminoloji mənada işlənir. Quranda məsələ ilə əlaqəli kifayət qədər aydın məlumat olmadığına görə, kəlam elmində bu məsələ etiqadi məzhəblər arasında fikri münaqişələrə səbəb olmuşdur.

**BƏS (البعث):**

Lüğəvi baxımdan "oyatmaq, diriltmək" kimi mənaları ilə yanaşı, müxtəlif termin mənaları da olan "bəs" İslam

mənbələrində qiyamətin qopmasından sonra ölən insanların Allah tərəfindən dirildilməsi hadisəsinə verilən addır. "Bəs bədəl-mövt" (ölümdən sonra diriliş) əqidəsindən İslam teologiyasına (kəlam) dair əsərlərdə bəhs edilir. İslam peripatetikləri (məşşailər) həşrin (ölümdən sonra yenidən dirildilmə) ruhani olacağını müdafiə etmiş, kəlam alimləri isə Quran və hədislərdən çıxış edərək cismani dirilişi müdafiə etmişlər. İslamın əsas əqidə məzhəblərinin hamısı yenidəndirilişin cismaniliyini qəbul edir.

**BƏSAİTİ-ƏQLİYYƏ (البسائط العقلية):**

Bəsit məfhumlar və terminlər (conceptually simple). Zehni olaraq bilinməməsi mümkün olmayanlar; həndəsədəki nöqtə anlayışı buna misal verilə bilər.

**BƏSAİTİ-MÜCƏRRƏDƏ (البسائط المجرّدة):**

Bəsit mücərrədlər (the abstract simples). Bu termin Molla Sədra (v. 1640) tərəfindən göy cisimlərinin ağıl və ruhlarını tərif etmək üçün istifadə edilmişdir.

**BƏSƏR (البصر):**

Allahın görmə atributunu (sifət) ifadə edən kəlam termini. "Bəsər"in lüğəvi mənası "görmək, bilmək, sezmək" deməkdir. Mötəzilə kəlamçıları və İslam peripatetikləri Allahın müstəqil bəsər sifətinin olmadığını, bəsərin onun elm sifətinin bir ifadəsi olduğunu qəbul ediblər. Vəhdəti-vücud düşüncəsini qəbul edən sufilər kiçik bir fərqlə mötəzilənin nöqteyi-nəzərini mənimsəyiblər. Sünni kəlamçıların əksəriyyətinə görə, bəsər digər əzəli (qədim) sübuti sifətlər kimi Allahın qədim atributlarındandır.

**BƏSİR (البصير):**

Allahın adlarından (əsmai-hüsna) biri. "Bəsir" "görmək, bilmək və sezmək" deməkdir. Quranda əlli bir yerdə keçən "bəsir" kəlməsi qırx bir dəfə Allahın atributlarından (sifət) biri kimi işlənmişdir. "Bəsir" kəlam kitablarında sübuti sifətlər içərisində qeyd edilir. Mötəzilə məzhəbinin Bağdad məktəbinə mənsub alimlərindən bir qismi "bəsir"in müstəqil sifət deyil, "əlim" sifətinin fərqli ifadəsi olduğunu qəbul edir. Bəsrə mötəzilə məktəbi də daxil olmaqla, İslam alimlərinin çoxu görmə sifətinin elm sifəti ilə əlaqəsini qəbul etməklə yanaşı, müstəqil bir sifət olduğunu söyləyirlər.

**BƏSMƏLƏ (البسملة):**

"Mərhəmətli və Rəhmli Allahın adı ilə" mənasına gələn "Bismillahir-Rəhmanir-Rəhim" cümləsinin adı. Qurani-Kərimdə 114 dəfə işlədilmişdir. "Tövbə" surəsindən başqa bütün surələr bəsmələ ilə başlayır. "Nəml" surəsində isə biri başlanğıcda, digəri 30-cu ayədə olmaqla iki dəfə işlədilmişdir.

**BƏŞAİRİ-NÜBÜVVƏT (بشائر النبوة):**

Ümumilikdə, Həzrət Məhəmmədin peyğəmbərliyini təsdiqləyən məlumat-

lar, xüsusi olaraq əvvəlki müqəddəs kitablarda onun peyğəmbərliyini xəbər verən mətnlər mənasında istifadə edilən termin. "Bəşairi-nübüvvət" ifadəsindəki "nübüvvət" kəlməsi ilə nəzərdə tutulan, əsasən, Həzrət Məhəmmədin peyğəmbərliyidir. Bu mənada, bəşairi-nübüvvət "Həzrət Məhəmmədin peyğəmbərliyini xəbər verən, onun haqq peyğəmbər olduğunu təsdiqləyib sübut edən müxtəlif hadisələr, möcüzələr və xəbərlər" deməkdir. "Əlam ən-nübüvvə", "dəlail ən-nübüvvə" ifadələri bu mənanı ifadə etsə də, bəşairi-nübüvvət, əsasən, başdan etibarən Həzrət Məhəmmədin nübüvvətini qəbul etməyən əhli-kitaba qarşı müsəlman alimlərin təqdim etdiyi dəlillərdən ən önəmlisi hesab edilən və Həzrət Məhəmmədin peyğəmbərliyinin əvvəlki ilahi kitablarda keçdiyini xəbər verib təsdiqləyən mətnlər üçün istifadə olunmuşdur.

**BƏŞİR VƏ NƏZİR (البشير و النذير):**

"Bəşir" - möminləri cənnətlə müjdələyən, "nəzir" isə ilahi əmrlərə tabe olmayanları gözləyən, pis aqibəti xəbər verib onları xəbərdar edən" mənasında Həzrət Peyğəmbər haqqında işlənən adlar və yaxud sifətlərdən biri.

**BƏYAN (البيان):**

Bəlağət elminin üç əsas istiqamətindən (bəyan, bədi, məani) biri. Bir mənanı müxtəlif yollarla ifadə etməklə əlaqəli üsul və qaydaları müəyyən edən elm sahəsi.

**BƏYANİLİK (البيانية):**

Şiəliyin Bəyan ibn Səman (v. 119/737) tərəfindən qurulmuş ifrat qollarından (qülat) biri. Əslən yəmənli olan Bəyan Kufədə saman ticarəti ilə məşğul olan bir şəxs idi. Əvvəlcə Məhəmməd Baqirin deyil, Məhəmməd ibn əl-Hənəfiyyənin imamətini müdafiə edən Bəyan İmamətin ibn əl-Hənəfiyyənin oğlu Əbu Haşimə, ondan isə özünə keçdiyini iddia etmişdir. O, daha sonra peyğəmbər olduğunu irəli sürmüş, reinkarnasiya (tənasüx) və ricətə inanmış, ən sonda isə Əli ibn Əbu Talibin Tanrı olduğunu iddia etmişdir. Bəyan İraq valisi Xalid ibn Abdullah əl-Qəsrinin əmri ilə həbs olunaraq, 119/737-ci ildə öldürülmüşdür.

**BƏYYİNƏ (البينة):**

Tamamilə, yaxud qismən məchul olan bir mövzunun ona bənzər mövzular içərisindən seçilərək, açıq-aydın hala gətirilməsi. Bu mənada, "doğrunu-yanlışdan, haqqı-batildən ayıran sənəd" "beyyinə" adlanır.

**"BƏYYİNƏ" SURƏSİ (سورة البينة):**

Quranın 98-ci surəsi. 8 ayədən ibarətdir. Məkkə dövründə nazil olduğunu bildirən rəvayətlərlə yanaşı, bəzi rəvayətlərə və üslubuna əsasən Mədinə dövründə nazil olduğunu da iddia etmək mümkündür. Surənin adı bir və üçüncü ayələrdəki "bəyyinə" (açıq-aydın dəlil) sözündən götürülmüşdür. Surənin əsas mövzusu əhlikitabın açıq dəlil kimi Qurana inan-

maması, inkar etməsidir. Bununla yanaşı, dini inkar edən insanlarla inananların fərqi və əməllərinin qarşılığı haqqında məlumat verilir.

**BƏZMİ-ƏLƏST (بزم ألست):**

Söhbət məclisi. Ruhlar aləmində Allahla insanlar arasında baş verdiyi qəbul edilən sözləşmə. Buna "Qalu bəla" da deyilir. "Əraf" surəsinin 172-ci ayəsində bildirildiyinə görə, Allah ruhları yaratdığı zaman "Mən sizin Rəbbiniz deyiləmmi?" – soruşmuş, onlar da "Bəli, Sən bizim Rəbbimizsən", – demişlər. Beləliklə, Allah əzəldə bütün insanlardan söz almışdır.

**BHAKTİ:**

Sanskritcə "Tanrıya təslim olma" mənasında istifadə edilən termin. Hinduizmə görə qurtuluşun yollarından biri olaraq bhaktinin məqsədi insanın Tanrının sevgisini qazanmaq üçün özünü ona təslim etməsidir.

**BİDƏT (البدعة):**

Həzrət Peyğəmbərdən sonra meydana çıxan, dinə əlavə, yaxud dindən əskiltmə mahiyyətindəki bir davranış, inanc, fikir mənasında işlədilən fiqhi termin. Bidət sünnənin əksi kimi qəbul edilir. Belə ki, sünnə dinin əsaslarına uyğun olan yol mənasına gəldiyi halda, bidət dinə əlavə olunan batil ünsürlərdir.

**BİDƏTİ-RAVİ (بدعة الراوي):**

Hədis elminə aid terminlərdən biri. "Bidət" Məhəmməd peyğəmbərdən sonra ortaya çıxan və şərii dəlilə istinad etməyən ibadət, fikir və davranışlara verilən addır. "Bidəti-ravi" ifadəsi isə hədis elmində ravinin əqidəsi ilə əlaqədar "cərh" (tənqid) terminlərindən biridir. "Cərh və Tədil"ə həsr edilmiş əsərlərdə hər hansı bir hədis ravisi haqqında "bidəti-ravi" termininin istifadə edilməsi onun bidət əhli olduğuna işarə edir. Ravilərin tənqidi üçün istifadə edilən "bidəti-ravi" termini ravinin ədaləti ilə əlaqədar irəli sürülən beş tənqid prinsipindən biridir. Bu təbir vasitəsilə tənqid edilən ravinin rəvayətləri hədis elminə görə etibarsız hesab edilir.

**BİHEVİORİZM (behaviorism):**

İnsan psixikasının öyrənilməsində müşahidə olunan obyektiv davranışları nəzərdə tutan əsas psixoloji cərəyanlarından biri. "Biheviorizm" termini ingilis dilində "behavior" (davranış) sözündən əmələ gəlmişdir. Psixologiya tarixində biheviorizm cərəyanının yaradıcısı Con Uotson (1878-1958) hesab olunur. Bihevioristlərə görə, davranış, ancaq xarici stimullarla (S) şərtlənən sekretor və əzələ reaksiyalarından (R) təşkil olunmuşdur. Onların fikrincə, davranışın təhlili ciddi surətdə obyektiv xarakter daşımalıdır. Biheviorizm insan davranışını mexaniki determinist prinsiplər çərçivəsində izah edir. Onlar hesab edir ki, psixoloq məhz davranışı öyrənməlidir. Belə ki, davranış bizim bilavasitə müşahidə edə biləcəyimiz yeganə

amildir. Bununla da biheivoristlər özünümüşahidə metodunu tənqid edir və insan psixikasının öyrənilməsində özünümüşahidənin obyektiv metod kimi çıxış etmədiyini vurğulayırdılar.

**BİLFEL (بالفعل):**

Bir obyektin mövcud olmasından sonrakı halı. Bu məfhum "bilqüvvə"nin sinonimi kimi də istifadə olunur.

**BİLİK (العلم/المعرفة):**

Doğruluğu lazımi və kafi dəlillərlə əsaslandırılmış şüuru ehtiva edir. Bilik subyekt ilə obyektin əlaqəsinin müəyyən bir ifadə şəklinə bürünmüş nəticəsidir. İslam filosoflarından Əbu İshaq əl-Kindiyə (796-866) görə, bilik "əşyanın həqiqətinin dərk edilməsi", Farabiyə (871-950) görə, "varlığı və davamlılığı insanın davranış və hərəkətlərinə bağlı olmayan varlıqların mövcudluğu ilə əlaqədar ağılda dəqiq hökmün hasil olması"; İxvani-Səfaya (X əsr) görə, isə bilənin zehnində dərk olunanın (obyektin) formasının meydana gəlməsidir (mücərrədləşmə). Bu mənada, diqqətəlayiq təriflərdən biri də Seyyid Şərif Cürcani (1340-1413) tərəfindən irəli sürülür. Onun irəli sürdüyü tərifə görə, bilik düşüncənin reallığa tam uyğun olmasıdır. Ümumiyyətlə, filosoflar biliyi "bir şeyin surətinin zehində meydana gəlməsi" şəklində tərif edir. İslam fəlsəfəsində biliyin tərifi ilə yanaşı, onun mənbəyi məsələsi də müzakirə obyektinə çevrilir. Ağıl, hiss orqanları, vəhy və qəlbə əsaslanan intiusiya İslam filosofları tərəfindən biliyin mənbəyi kimi qəbul edilmişdir. Bu mənbələr arasında ağıl, insanı digər varlıqlardan ayıran düşünmə qüvvəsi olub, biliyi meydana gətirən əsas qabiliyyətdir.

**BİLQÜVVƏ (بالقوة):**

Bir şeyin var olmazdan əvvəlki mümkünlük və ya potensial halı. Məsələn: ağacın toxumun içində potensial olaraq mövcudluğu; burada ağac toxumun daxilində qüvvə halındadır. Toxumun böyüyüb ağac halına gəlməsi isə ağacın qüvvə halından feil halına keçdiyini ifadə edir.
Bir müsəlmanın Allah yolundakı mübarizəsində öldürülməsinə "şəhadət" deyilir. **Bax: ŞƏHİD**.

**BİRİ-MƏUNƏ (بئرمعونة):**

İslam tarixində 625-ci ildə yetmişə yaxın səhabənin şəhid edildiyi yer ilə nisbətlə adlandırılan hadisə. Mədinəyə gələn Amir ibn Səsə qəbiləsinin rəisi Amir ibn Malikin təklifi ilə Məhəmməd peyğəmbər əksəriyyəti mədinəli müsəlmanlardan olan yetmişə yaxın Quran qaresini İslamı təbliğ etmək məqsədilə həmin qəbiləyə göndərmişdir. Bir neçə nəfər xaric olmaqla heyətin bütün üzvləri Biri-məunə adlı yerdə Amir ibn Səsə qəbiləsindən Amir ibn Tüfeylin təşviqi ilə Süleym qəbiləsinin müxtəlif qolları tərəfindən qətlə yetirilmişdir.

**BİŞRİLİK (البشرية):**

Mötəzilə məzhəbinin Bağdad məktəbinin qurucusu olan Bişr ibn Mötəmirin (v. 210/825) fikirlərini mənimsəyənlərə verilən ad. Bişr həm kəlamçı (mütəkəllim), həm də şair idi. O, həmçinin mötəzililik tarixində ilk dəfə "təvəllüd" nəzəriyyəsini irəli sürən şəxs olmuşdur. Bu nəzəriyyəyə görə, insanın öz iradəsi ilə etdiyi hərəkətlər başqa hərəkətlərin yaranmasına səbəb olur ki, buna "təvəllüd" (hərfən "doğulmaq", "meydana gəlmək") deyilir. Məsələn: qapını açmaq istəyən insanın açarı qıfıla salması və döndərməsi öz iradəsi ilə etdiyi hərəkətdir, lakin açarın dili vasitəsilə qapının açılması birbaşa insanın iradi hərəkəti deyildir. Bu, təvəllüddür, yəni insanın iradi hərəkətindən yaranan hərəkətdir. Bişrə görə, açarın hərəkətinə səbəb olan insan öz hərəkətinin nəticəsini bildiyi üçün məsuliyyət daşıyır, yəni insan öz iradi hərəkəti nəticəsində yaranan hərəkətin də məsuliyyətini daşıyır. Bişr ibn Mötəmir kəlam elmi ilə yanaşı, ədəbiyyatla da məşğul olmuşdur. Məşhur ədib Cahiz onun bəlağət elminin qurucusu olduğunu irəli sürmüşdür.

**BODHİ AĞACI:**

Buddizmə görə, Sidharta Qautamanın altında etdiyi meditasiya əsnasında Budda olduğu ağac. E.ə. III əsrdən etibarən buddistlərin həmin ağacdan əldə etdikləri fidanları Buddizmin yayıldığı bölgələrin dini mərkəzlərində əkdiklərinə inanılır.

**BODHİSATTVA:**

Buddizmə görə, insanlığın ümumi mənfəəti naminə, başqalarını əzabəziyyətdən xilas etmək, qurtuluşa çatmaq istəyənlərə rəhbər olmaq məqsədilə hikmət və mərhəmətə çatmağa and içən buddist rahib.

**BOHRALAR (البهرة):**

Əsasən, Hindistanın qərbində yaşayan hindəsilli və qismən yəmənli ərəblərlə qarışmış müstəli ismaililərinə verilən ad. Hindistanda müstəli ismaililər "bohra" adı ilə tanınırlar.

**BORC/DEYN (الدين):**

Şəxslərin bir-birlərinə qarşı etmə və ya vermə məcburiyyətini yaradan hüquqi münasibət və onun meydana gətirdiyi məsuliyyəti ifadə edən fiqhi termin. Borc müqavilədən meydana gələ biləcəyi kimi, haqsız feil, haqsız qazanc və ya qanundan da yarana bilər.

**BOYKOT İLLƏRİ (سنوات القاطعة):**

616-619-cu illərdə məkkəli müşriklərin Məhəmməd peyğəmbəri və onu himayə edənləri təzyiqlə zəiflətmək məqsədilə Haşimoğulları və Müttəliboğullarını düşmən elan edərək onlarla qohumluq və ticarət başda olmaqla, iqtisadi-sosial əlaqələri kəsməsi. Peyğəmbərin əmisi Əbu Talib qardaşı oğlunu və qəbilə üzvlərini qorumaq məqsədilə onları öz məhəlləsinə köçürmüşdür. Üç il davam edən boykot Haşimoğulları ilə qohumluğu olan bəzi qüreyşlilərin təsiri ilə ləğv edilmişdir.

**BÖD (البعد):**

Cismin ölçülərini müəyyən edən termin. Əşyanın uzunluğu, eni və dərinliyi. İki cisim arasında ən qısa məsafə. Orta əsrlərdən etibarən ölçünü ifadə etmək üçün istifadə olunan “böd” termininə, Albert Eynşteyn (1879-1955) dördüncü ölçü ünsürü olan “zaman”ı da əlavə etmişdir.

**BRAHMA SAMAJ:**

Ram Mohan Royun 1828-ci ildə Hindistanın Kəlkətə şəhərində qurduğu “Bir Tanrı camaatı” adlı reformist hindu hərəkatı. Hinduizmin “sati” ənənəsi, poliqamiyan kimi dini-sosial reformları müdafiə edən hərəkat, həmçinin heykəllərə sitayişin ləğv edilərək politeist görünüşlü Hinduizmin yerinə rasional bir teizmin qurulmasını müdafiə edirdi. Ram Mohayın 1833-cü ildə vəfatından sonra, xalqın yeni lideri Debendranad Taqor dövründə də hərəkat inkişaf etmiş, XIX əsrin ikinci yarısından etibarən, tərkibində müxtəlif bölünmə və ayrılmalar baş vermiş və əvvəlki gücünü itirmişdir.

**BRAHMACARYA:**

Hinduizm, Caynizm və Buddizm kimi hind mənşəli dinlərdə yemək, danışmaq, cinsi münasibət və s. kimi davranışlarda fərdin özünənəzarəti.

**BRAHMAN:**

Hərfi mənası müqəddəs güc, ali həqiqət olub, Hinduizmdə yaradıcı prinsip, kainata hakim olan mütləq gücə verilən ad. Tarixi inkişaf prosesində Brahman dünyaya forma və nizam verən yaradıcı Tanrı sayılmışdır.

**BRAHMANA:**

Hinduizmin birincidərəcəli müqəddəs kitabı hesab olunan Vedaların ən erkən və şərhi hesab olunan kitablara verilən ad. E.ə. I minillikdə yazıldığına inanılan və Vedalar kimi vəhy hesab olunan “şruti” ədəbiyyatına aid edilən Brahmanaların əsas mövzularını brahmanların vəzifələri və qurbanın əhəmiyyəti təşkil edir.

**BRAHMİN:**

Ənənəvi Hinduizmdə kast sisteminin ən üst təbəqəsini meydana gətirən rahib sinfi. Ənənəvi hindu düşüncəsinə görə, Tanrı Brahmanın ağzından yaradılmış brahminlərin əsas vəzifələri Vedaları qorumaq və elmi-fəlsəfi yolla onları şərh etmək, qurban ayini başda olmaqla dini mərasimlərə rəhbərlik etməkdir. Hinduizmin müqəddəs kitablarından olan Brahmanalar brahminlərin Vedalara yazdıqları şərhlərdir.

**BUDDA:**

Sanskritcə hərfi mənası “oyanmış”, “nurlanmış”, “dərk etmiş” olan Budda, xüsusi mənada, Buddizmin qurucusu Siddharta Qautama, ümumilikdə isə nurlanma yolunda olan şəxslər üçün istifadə olunan bir termindir. Buddizmin Teravada (Hinayana) məktəbi mövcud aləmdə tək budda kimi Siddharta Qautamanı qəbul edir, Mahayana məktəbinə görə isə budda və bodhisattvaların sayı çoxdur.

**BUDDHA-DHARMA:**

Sanskritcə hərfi mənası "Buddanın yolu, şəriəti" olub, buddistlərin Buddizmə verdikləri ad.

**BUDDHA-SASANA:**

Sanskritcə hərfi mənası "Buddanın təlimi, doktrinası və təcrübəsi" olub, buddistlərin öz dinlərinə verdikləri ad.

**BUDDİZM:**

Siddharta Qautamanın təlimləri əsasında e.ə. VI-V əsrlərdə yaranmış ümumbəşəri dinlərdən biri. Hinduizmin kast sisteminə, rahib sinfinə və Tanrı anlayışına qarşı bir reform hərəkəti olaraq, ortaya çıxan Buddizmin əsas təlimi, yaradılış xüsusiyyətinə görə, əzab-əziyyətə məhkum olmuş insanın qurtuluşu üçün lazım olan dörd müqəddəs həqiqəti əsas götürür: 1) həyatın həqiqətən əzab-əziyyətlə dolu olması; 2) dünyəvi arzu və ehtirasların canlıların reinkarnasiya çənbərindən qurtulmasına mane olması; 3) əzab-əziyyətin sona çatdırılmasının vacibliyi; 4) əzab-əziyyətdən qurtulmağın yolunu tanımaq.
Buddizmə görə qurtuluş yolunun bilinməsi səkkizdilimli yol vasitəsilə mümkündür: doğru təsəvvür, doğru düşüncə, doğru niyyət, doğru söz, doğru davranış, doğru məişət yolu, doğru mühakimə, doğru təlim. Hindistanın Bihar əyalətində yaranmış Buddizm tədricən ana vətənində zəifləmiş, Butan, Çin, Koreya, Kamboca, Şri-Lanka, Yaponiya, Nepal, Monqolustan, Myanma, Tailand və digər Asiya ölkələrində yayılmışdır. Tarixi dövr ərzində iki əsas qola ayrılmış Buddizmin Mahayana məktəbinin 350 milyona, Teravada məktəbinin 150 milyona yaxın, bundan başqa, Tibet buddizmi də adlandırılan Vajrayana məktəbinin isə 20 milyona yaxın mənsubu vardır.

**BUXARA XANLIĞI:**

XVI-XVIII əsrlərdə Orta Asiyada hakimiyyətdə olmuş türk dövləti. XVI əsrdə Şeybanilərin hakimiyyətində olan xanlıq, daha sonra Canıoğulları və Manqıtlar sülalələri tərəfindən idarə olunmuşdur.

**BURCİ XANƏDANI (البرجية):**

XIV əsrin sonunda XVI əsrin əvvəlinədək Misirdə hakimiyyətdə olmuş Məmlük xanədanı. Məmlük sultanı Qalavunun XIII əsrin sonu Misirdə qurduğu Məmlük dövlətində Qafqazdan aparılan çərkəz əsirlərin qala bürclərində yerləşdirilmələri səbəbindən "burci məmlükləri" adlandırılan məmlüklərin sayı tədricən yeni çərkəz qrupların da cəlb olunması ilə artmışdır. 1382-ci ildə Sultan Bərküklə birlikdə qurulan xanədan 1517-ci ildə Sultan Səlimin Misiri ələ keçirməsinə qədər davam etmişdir.

**"BURUC" SURƏSİ (سورة البروج):**

Quranın 85-ci surəsi. 22 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surə adını birinci ayədəki açıq-aydın şeylər mənasındakı "buruc" sözündən götürülmüşdür. "Bu-

ruc" sözü həm də "bürc" sözünün cəmi olub, "qala", "ulduzların mövqeyi olan bürclər" mənasına gəlir. Surədə ilk üç ayə and içməklə başlayır. Daha sonra inanan insanları alov xəndəyində yandıran zalım insanların davranışlarından və düçar olacaqları əzabdan bəhs edilir. Eyni şəkildə Firon və Səmud ölkəsinin adı çəkilmiş, onları da eyni aqibətin gözlədiyi vurğulanmışdır.

**BÜRDƏ (البردة):**

"Müəlləqeyi-səbə" şairlərindən Züheyr ibn Əbu Sülmanın oğlu Kəb Məhəmməd peyğəmbərin hüzurunda müsəlman olarkən oxuduğu qəsidəyə görə peyğəmbərin şairə geyindirdiyi xirqəsi. Həmin xirqəyə görə adıkeçən qəsidə İslam dünyasında "qəsidei-bürdə" kimi məşhur olmuşdur. Hazırda Topqapı Sarayı Muzeyində Məhəmməd peyğəmbərə aid "müqəddəs əmanətlər" qismində nümayiş etdirilən xirqənin həmin "bürdə" olduğuna inanılır.

**BÜRHAN (البرهان):**

Doğruluğunda heç bir şübhə olmayan və zəruri bilik ifadə edən qəti dəlil. Ərəb dilindən tərcümədə "şəffaflaşdırmaq, açıqlamaq və dəlil gətirmək" mənalarına gəlir. Bürhan əqli mühakimənin əsaslandığı prinsipdir. Bir düşüncənin doğruluğunu və yanlışlığını təfsilatlı şəkildə ortaya qoymaq da bürhandır. Bürhan qəti biliklər vasitəsilə meydana gələn sillogizmdir. Bürhan həm empirik, həm də məntiqi ola bilər. Aristotel tərəfindən irəli sürülən "eyniyyət", "ziddiyyətsizlik" və "üçüncünü istisna qanunu" kimi prinsiplər məntiqi bürhanla əlaqədardır. Məntiqi bürhan zənn deyil, qəti sillogizmdir. Bürhanda verilmiş hökmlər doğru, ağlabatan və nəticələrin səbəbləri olmalıdır. Aristotelin "Orqanon" adlı əsərinin dördüncü kitabı "II analitiklər"in Bürhan adı altında X əsrdə ərəb dilinə tərcümə edilməsi ilə İslam dünyasında bürhan bir sillogizm növü və isbat metodu kimi fəlsəfə və məntiqdə istifadə edilməyə başlanmışdır. "İkinci müəllim" ləqəbi ilə məşhur olan Farabi (871-950) qəti biliklə nəticələndiyi üçün bürhanı "elmlərin elmi", "hikmətlərin hikməti" adlandırmışdır. İbn Sinaya (980-1037) görə, bürhan qəti biliklər (yəqiniyyət), aksiomalar (əvvəliyyat), empirik nəticələr (təcrübiyyat) və hissi idrak sayəsində əldə olunan nəticələrdən (məhsusat) ibarətdir. O, bu mənada bürhanı da müqəddimələri qəti biliklərdən meydana gələn sillogizmin növü olaraq tərif etmişdir. Qəzaliyə (1058-1111) görə, həqiqi bürhan daim doğru olan, dəyişməsi mümkünsüz və qəti bilik meydana gətirən dəlildir.

**BÜRHANİ-İNNİ (البرهان الإنى):**

Bir sillogizm nümunəsində orta termin nəticənin reallıqda varlığının səbəbi olmayıb, sadəcə, zehni mühakimə irəli sürülməsinə əsas təşkil edirsə, buna "burhani–inni" adı verilir. Məsələn: "Vərəm xəstəsi olan hər

kəs öskürür"; "Bu adam vərəmdir"; "O halda bu adam da öskürür", – şəklindəki sillogizmlərdə adamın öskürüb-öskürmədiyi bariz şəkildə görünmür. Yəni burada orta termin (vərəmli olma) nəticəni həqiqi bir hadisə kimi doğurmur, sadəcə, zehni baxımdan nəticəyə dəlalət edir.

**BÜRHANİ-LİMMİ (البرهان اللمي):**

İslam dünyasında məntiq elmi ilə məşğul olan alimlər bürhanı dəlildən ayıraraq, onu xüsusi mənada istifadə etmişlər. Bu yanaşmaya görə, mütləq bürhanda orta termin böyük müqəddimə ilə kiçik müqəddimə arasındakı əlaqənin, yəni nəticə qismindəki son hökmün səbəbi olmalıdır. Bununla yanaşı, əgər orta termin sözügedən əlaqənin həm zehində, həm də reallıqda səbəbi olarsa, buna "bürhanilimmi" deyilir. Məsələn: "Bu adamın hərarəti var"; "Hərarəti olan hər kəs xəstədir"; "O halda bu adam da xəstədir" şəklindəki sillogizm nümunəsində "hərarəti var" sözü ilə ifadə olunan orta termin nəticə qismindəki mühakimənin həm zehində, həm də reallıqda səbəbidir. Yəni "hərarəti olma" həm zehin dünyamızda, həm də reallıqda adamın xəstə olduğuna dəlalət edir.

**BÜTLAN. Bax: BATİL.**

**BÜTPƏRƏST:**

Çoxtanrılı dinlərdə simvolik olaraq ilahi varlıqları xarakterizə edən obyektlərə inananlar üçün istifadə olunan termin. Yunanca "büt" mənasındakı "eidolon"dan "idolatry" və latınca "kəndli" mənasındakı "pagan"dan "paganizm" şəklində Qərb ədəbiyyatında keçən bütpərəstlik, klassik İslam mənbələrində büt mənasındakı "vəsən" kökündən törəmiş "vəsəniyyə" olaraq keçmiş, bütpərəstlərə "əbədətül-əvsan" (bütlərə sitayiş edənlər) deyilmişdir.

**BÜTRİLİK/ƏBTƏRİLİK (الابترية / البترية):**

Zeydiyyə məzhəbinin Orta əsrlərdə mövcud olmuş qollarından biri. Kəsirünnəva əl-Əbtərin (v. 169/785-86) görüşlərini mənimsəyən bu məzhəb, həmçinin Həsən ibn Salehin (v. 168/784-85) təlimindən təsirləndiyi üçün "salehiyyə" adı ilə də tanınır. Bütriyyəyə görə, Əli ibn Əbu Talib xəlifəliyə ən layiq şəxs olsa da, Əbubəkr ibn Əbu Qühafə və Ömər ibn Xəttabın da xəlifəliyi qanunidir, çünki Əli özü də onların xəlifəliyini təsdiq etmişdir. Bütriyyə Osman ibn Əffanın xəlifəliyi barəsində isə fikir bildirməmişdir. Bütriyyənin qurucularndan sayılan Həsən ibn Saleh zeydiyyə fiqhinə dair məşhur "Kitabülcami fil-fiqh" əsərinin müəllifidir.

**BÜVEYHİLƏR (آل بويه):**

İranın şimalındakı Deyləm bölgəsindəki eyniadlı qövmə mənsub Büveyhoğullarının 932-1062-ci illərdə İran və İraqda qurduğu xanədan. Müsəlman olduqdan sonra Abbasilər dövləti başda olmaqla, müsəlman xanədanlıqların ordusunda

göstərdikləri fəaliyyət ilə yüksələn Deyləmlilərdən sülalənin adını aldığı Büveyhin Əbül-Həsən, Əbu Əli Həsən və Əhməd adlı oğullarının hərbi-siyasi fəaliyyəti nəticəsində Xəzər dənizi sahillərində böyük əraziləri hakimiyyət altına keçirmişlər. Büveyhilərin İslam dünyasındakı nüfuzu Büveyhin oğlu Əhmədin 945-ci ildə Bağdadı ələ keçirməsi ilə artmışdır. Büveyhilərin Abbasilər dövləti üzərindəki hakimiyyəti Səlcuqlu hökmdarı Toğrul bəyin 1055-ci ildə Bağdada girməsinədək davam etmişdir.

# C

**CABBAR (الجبار):**

Allahın adlarından (əsmai-hüsna) biri. Cabbar "qırılanı, xarab olanı düzəldən, kainat və içərisində mövcud olanları öz iradəsi ilə idarəsi altına alan" deməkdir. Cabbar "ən hündür xurma ağacı" olan "nəxlətun cəbbarə" ifadəsinə uyğun olaraq "əlçatmaz dərəcədə əzəmət (cəbərut) sahibi" deməkdir. Quranda on ayədə yer alan "cabbar" hədislərdə Allahın adlarından biri olaraq keçir. Cabbar ayə və hədislərdə "əziz" və "mütəkəbbir" adları arasında qeyd edilir. Lüğəvi olaraq "məcbur edən" mənasına gəlsə də, buradakı məcburetmə haqsızlıq və zülm kimi bəşəri keyfiyyətdə olmayıb, əksinə, haqsızlıqları, zülmü və ədalətsizlikləri yox etmək məqsədi güdən bir keyfiyyətdir. "Cabbar" adı bu mənada, Allahın kainat və insanla əlaqəli adlarından və feili sifətlərindən (atribut) biri kimi qəbul edilir..

**CADU (السحر):**

Fövqəltəbii və gizli gücləri olduğuna inanılan bəzi varlıqların köməyindən, yaxud təbii əşyalardan istifadə edərək zərər və ya fayda vermək, yaxud müdafiə olunmaq məqsədilə fövqəladə nəticələr əldə etməyə əsaslanan fəaliyyətlər". Müqəddəsatla heç bir əlaqəsinin olmaması və əxlaqi heç bir məqsəd güdməməsi cadunun ən xarakterik xüsusiyyətidir. İbrahimi dinlər böyük günahlar arasında yer alan caduya tamamilə qarşıdır.

**CAHİLİYYƏT (الجاهلية):**

Xüsusi mənada ərəblərin islamaqədərki dini-ictimai düşüncə tərzini, ümumilikdə isə fərd və cəmiyyətlərin zülm üzərində qurduğu nizam üçün istifadə olunan termin. Cahiliyyət termini İslam cəmiyyətinin ilk dövrlərində müsəlmanların islamaqədərki inanc, düşüncə və davranışlarını islamdansonrakılarla fərqləndirmək məqsədilə istifadə edilmişdir. Qurani-Kərimdə Mədinədə nazil olmuş ayələrin dördündə islamaqədərki ərəblərin yanlış Tanrı təsəvvürü, kor-koranə qəbilə təəssübü, zülm və zorakılıqla idarəetmə şəkli üçün keçir ("Ali-İmran", 3/154; "Əhzab", 33/33; "Fəth", 48/26; "Maidə", 5/50). Yaşadıqları bədəvi həyat tərzi, qonşu mədəniyyətlərə görə geridəqalmışlıq, elmi cəhətdən gerilik, köçəri və yarıköçəri həyat tərzi sürən qəbilə quruluşu, müsbət əxlaqi keyfiyyətləri təşviq edən dindən məhrum olmaq kimi xüsusiyyətlər islamaqədərki ərəb tarixinə bir qayda olaraq "Cahiliyyət dövrü" deyilməsinin səbəbləri arasın-

dadır. Buna görə maariflənmə və bilik dövrü kimi səciyyələnən İslam dövrü bilikdən məhrum olma dövrü hesab edilən cahiliyyət mərhələsinin ziddi sayılırdı.

**CAHİZİLİK (الجاحزية):**

Mötəzilənin məşhur alimlərindən Əbu Osman Əmr ibn Bəhr Cahizin (v. 255/869) tərəfdarlarına verilən ad. Mötəzilə məzhəbinin Bəsrə məktəbinə mənsub olmuş Cahiz, həmçinin ərəb ədəbiyyatının inkişafında xidmətləri olan məşhur şəxslərdən biridir. Onun ərəb dilinin xüsusiyyətlərindən və ərəblərin xitabət və şeir bacarıqlarından bəhs edən "əl-Bəyan vət-təbyin" adlı kitabı bu sahənin mühüm əsərlərindən hesab edilir. Cahizin zoologiyanın müxtəlif sahələrinə, heyvanların təkamülünə və sair mövzulara həsr etdiyi "Kitab əl-həyəvan", kəlam və məzhəblər tarixi sahəsində yazdığı "Osmaniyyə", "Təsvib Əli fi təhkim əl-həkəmeyn", "Fəzilət əl-mötəzilə", İslam dünyasında türklərə və onların fəzilətlərinə dair yazılmış ən qədim kitab olan "Fəzail əl-ətrak" və çox sayda başqa əsəri də mövcuddur.

**CAİZ (الجائز):**

"Əqli hökm baxımından zatına nisbətdə varlığı ilə yoxluğu eyni dərəcədə olan" mənasında kəlam və İslam fəlsəfəsi termini. Bir söz və ya davranışın dini əsaslara uyğun olduğunu ifadə edən fiqhi termin. Caiz feillərin insanlar tərəfindən edilib-edilməməsində sərbəstlik var. Mübahla eyni mənada işlədilən "caiz" termini, əsasən, bir hərəkətin günah olmadığını bildirir.

**CAMAAT (الجماعة):**

Namazda imama tabe olaraq birlikdə namaz qılan topluluq mənasında işlədilən fiqhi termin. Cümə və Bayram namazı kimi bəzi namazların camaatla qılınması məcburidir. İslama görə, camaatla namaz qılmaq əhəmiyyətli və savabdır.

**CAME (الجامع):**

İslam əqidəsində Allahın adlarından (əsmai-hüsna) biri. Allahın zatına aid edilən came adı, yaxud sifəti Onun həm dünyada, həm də axirətdə məxluqatı cəm etməsini ifadə edir. Quranda bu adı ifadə edən ayələrin çoxu bu işin axirət həyatında baş verəcəyini ifadə edir. Bu ad, həmçinin "bütün tərifləri və mükəmməllikləri öz zatında toplayan" mənasında da Allaha aid edilmişdir. Came, həmçinin Cümə namazı qılınan böyük məscidlər üçün toplayan, cəm edən məscid mənasında istifadə olunan "əl-məscidül-cami" ifadəsinin qısaldılmış formasıdır. Məhəmməd peyğəmbər dövründə istifadə olunmayan "came" sözü X əsrdən etibarən, içində minbər olan və Cümə namazının qılınan məscidləri digərlərindən ayırmaq üçün istifadə olunmuşdur. **Bax: MƏSCİD.** İslam peyğəmbərinin müxtəlif mövzulardakı hədislərini cəm edən əsərlərə də "came" deyilir. Came əsərlər əsas

etibarilə səkkiz mövzunu əhatə edir: 1 Əqidə; 2. Ehkam; 3. Riqaq; 4. Ədəb; 5. Təfsir və siyər; 6. Şəmail; 7. Fitən; 8. Mənaqib. Buxari və Müslimin "əl-Cami əs-səhih" və Tirmizinin "Sünəni-Tirmizi" adlı əsərləri came növündə yazılmış ən məşhur əsərlərdir. Came əsərlərdə mövcud olan hər bir mövzu "kitab" adlanır. Sünənlərdən fərqli olaraq "came" adlanan hədis əsərlərində yalnız ehkam hədislər deyil, Həzrət Peyğəmbərin həyatının hər sahəsi ilə əlaqədar hədislər cəm edilir.

**CAMİİ-TİRMİZİ (جامع الترمذي):**

Sünniliyin altı əsas hədis mənbəsindən biri. Əbu Musa Məhəmməd ibn İsa ibn Səvrə ət-Tirmizinin "Cami" adlı hədis əsərinə verilən addır. "Sünəni-Tirmizi", "Camii-Tirmizi", "Səhihi-Tirmizi", "Camii-Səhih", "Müsnədi-Səhih", "Camii-Kəbir" kimi müxtəlif adlarla mənbələrdə qeyd edilən əsər ən çox "Sünəni-Tirmizi" adı ilə məşhurdur. Yalnız ehkam hədislərini deyil, "cami" tipli kitablardakı kimi digər mövzularla bağlı hədisləri də ehtiva etdiyi üçün əsərin "Camii-Səhih" və yaxud "Camii-Tirmizi" adları da geniş yayılmışdır. Tirmizinin 883-cü ildə tamamladığı əsərə "səhih" deyilməsinin səbəbi, əsərdəki əksər hədislərinin səhihliyindən qaynaqlanır. "Səhihi-Tirmizi" və "Camii-Səhih" adlarının hədis kitabları haqqında yetərli məlumatı olmayanlarda yanlış bir anlayış yarada biləcəyi üçün doğru hesab etməyənlər var. Tirmizi əsərini yazdıqdan sonra, kitabı Hicaz, İraq və Xorasandakı hədis alimlərinə göndərmiş və onlardan oxuyub rəylərini bildirmələrini istəmişdir. Əsər yekdilliklə rəğbət qazanmışdır. Tirmizi bu kitab haqqında "Kimin evində bu kitab varsa, orada danışan bir peyğəmbər var", – demişdir. Qeyd etmək lazımdır ki, Buxari və Müslimin "Səhiheyn"indən fərqli olaraq, bu əsər yazıldığı illərdə məşhur olmamışdır. XI əsrdən sonra rəğbət qazanaraq, "Kütübi-Sittə" arasında öz mövqeyinə sahib olmuşdur. Əsas qənaətə görə, Camii-Tirmizi "Kütübi-Sittə" kitabları arasında Əbu Davudun "əs-Sünən"indən sonra dördüncü sıradadır. Əbu Bəkr ibnül-Ərəbi və Katib Çələbi, eləcə də camini şərh edən Mübarəkfuri və Nurəddin İtr kimi alimlər onun üçüncü yerdə olması qənaətindədirlər. Bunun əsas səbəbi Tirmizinin hədisi qəbul etmə şərtlərində daha dəqiq davranması, əsərin bütün dini mövzulardan bəhs etmə kimi xüsusiyyətləridir

**CARİH (الجارح):**

Ərəb dilində "yaralamaq" mənasına gələn "cərəhə" feilindən düzəldilən sözdür. "Yaralayan şəxs" deməkdir. İslam alimləri İslam dinini qorumaq, onu yalan-yanlış rəvayətlərdən uzaq tutmaq məqsədilə hədis ravilərini sağlam tənqid süzgəcindən keçirmişlər. Ravi haqqında cərh hökmü verərək, rəvayətinin güvənilməz olduğunu açıqlayan cərh və tədil aliminə "carih" deyilmişdir. Carih bəzi xüsusiyyətlərə

malik olmalıdır. Bunların birincisi onun hədis ravilərini yaxşı tanımasıdır. Carih ravi haqqında cərh hökmünü, ancaq elmi prinsipə əsaslanaraq verə bilər. Hədis elminə görə, elmi prinsiplərə dayanmadan verilən hökmün dedi-qodu, qeybətdən başqa heç bir dəyəri yoxdur. Həmçinin cərh edən alim tənqidini açıqlamaq məcburiyyətindədir. Carihin ravini cərhinə səbəb olan halları yaxşı təhlil etməsi və ədalətli hökm verməsi lazımdır. Ədalət vəsfinə sahib olmayan carihin bir ravi haqqında verəcəyi hökm şübhəlidir.

**CARİYƏ (الجارية):**

"Qadın kölə" mənasında fiqhi termin. İslam dini insanın kölələşdirilməsinə qarşı olsa da, dövrün reallığı olaraq kölələr haqqında müxtəlif hökmlər qoymuşdur. Kölələrin hüquqlarının qorunmasına xüsusi diqqət yetirilmiş və kəffarə olaraq kölə azad etməklə insanların azadlığa qovuşması təmin edilmişdir.

**CARUDİLİK (الجارودية):**

Zeydiyyə məzhəbinin Orta əsrlərdə mövcud olmuş qollarından biri. Əbülcarud Ziyad ibn Münzirin (v. 150/767?) fikirlərini mənimsəyən bu məzhəb "sürhubiyyə" adı ilə də tanınmışdır. Zeydiyyənin digər qollarından fərqli olaraq, carudilik (carudiyyə) imamətə ilahi əmrlə Əli ibn Əbu Talibin təyin edildiyini və digər xəlifələrin hakimiyyətinin qeyri-qanuni olduğunu irəli sürürdü. Bu məzhəbin nümayəndələri belə hesab edirdilər ki, Məhəmməd peyğəmbər birbaşa adını çəkməsə də, xüsusiyyətlərini bildirərək Əli ibn Əbu Talibi imam təyin etmiş, camaat isə Əlidən başqasına beyət etdiyi üçün kafir olmuşdur.

**"CASİYƏ" SURƏSİ (سورة الجاثية):**

Quranın 45-ci surəsi. 37 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surənin adı 28-ci ayədə keçən "diz çökənlər" mənasındakı "casiyə" sözündən götürülmüşdür. On səkkizinci ayədəki "şəriət" və 24-cü ayədəki "dəhr" sözlərinə istinadən bəzən surəyə bu adlar da verilir. Surə məzmun baxımından iman, etiqad, vəhyə iman, axirətə iman, əməli-saleh insanların mükafatları məsələlərini əhatə edir.

**CAVİDANİ-XİRƏD (جاودان خرد):**

"Əbədi ağıl" və "əbədi hikmət" mənasına gələn termin. İbn Miskəveyhin (v. 421/1030) İran, hind, yunan və ərəb-İslam mədəniyyətindəki ədəb və əxlaqa dair hikmətli söz və fikirlərə yer verdiyi ərəbcə yazılmış əsərinin adı. Əsər ərəbcə yazılsa da, adı farscadır. "Cavidani-xirəd"in əlyazma nüsxələrindəki digər adı isə "ədəb əl-ərəb" şəklindədir. Qeyd edilməlidir ki, "əbədi ağıl" mənasına gələn "Cavidanı-xirəd" termini ilk dəfə İbn Miskəveyh tərəfindən istifadə edilməmişdir. Onun da qeyd etdiyi kimi, bu adda ilk əsər Zərdüştdən əvvəl yaşamış din qurucusu və ədalət timsalı kimi tanınan Xoşəng

(ərəblərdə “Uşxənc”) adlı İran hökmdarı və müdrikə aid edilmişdir. İbn Miskəveyhin də Cahizə aid etdiyi və haqqında başqa məlumat olmayan “İstitalət əl-fəhm” adlı əsərdən nəql etdiyi rəvayətə görə, Xoşəng bu əsəri xələfinə nəsihətnamə olaraq qələmə almış, sonradan əsər İran hökmdarı olması xaricində haqqında hər hansı bir məlumata rast gəlinməyən Kəncur ibn İsfəndiyar tərəfindən qədim fars (Pəhləvi) dilindən müasir fars dilinə uyğunlaşdırılmışdır.

**CAYNİZM:**

E.ə. VI əsrdə yaşamış Vardamani (Mahavira) tərəfindən qurulmuş hind mənşəli din. Birincisi, milyonlarla il əvvəl yaşadığına inanılan Rishabhanatha, sonuncusu isə Mahavira olmaqla, 24 Cina (fateh) Caynizmin təlimçisi olduğu üçün mühüm sayılır. Müqəddəs kitabları Mahaviranın moizələrindən ibarət Sidhantadır. Caynizmdə karmadan qurtulmaq və Nirvanaya çatmaq üçün münzəvi həyat zəruri sayılır. Heç bir canlıya zərər verməmək (ahimsa) prinsipinə qatı şəkildə riayət edən caynistlər üçün sadəcə, ət məhsulları deyil, ovçuluq və əkinçilik kimi canlıların ölümünə səbəb olan peşələr də qadağandır. Asketizmə böyük əhəmiyyət verən Caynizmin iki mühüm məzhəbindən Diqambara (Səmageyimlilər) rahibləri geyimdən tamamilə imtina edir, Svetambara (Ağgeyimlilər) rahibləri isə tək bir ağ geyimlə kifayətlənirlər.

**CEYYİD (الجيد):**

Hədis növlərindən biri. Lüğəvi baxımdan “yaxşı və gözəl” mənasına gəlir və bir hədis növüdür. Hədis termini olaraq “ceyyid”i bəzi mühəddislər həsən hədisdən üstün və səhih hədisə yaxın mənada işlətmişlər. Buxarinin müəllimi Əli ibnül-Mədini, Yəhya bin Məin, Əhməd bin Hənbəl, Hakim ən-Neysaburi, İbnüs-Salah kimi alimlər “səhih” ilə “ceyyid” arasında fərq görməmişlər. Tirmizinin hədisləri xarakterizə edərkən, “səhih həsən” yerinə nadir də olsa, “ceyyid həsən” terminini işlətməsi onun bu iki termin arasında fərq görmədiyini söyləməyimizə imkan verir. Hədislərin dərəcəsini izah edərkən ceyyidi səhih mənasında işlədən mühəddislərin bu termini “həsən lizatihi” dərəcəsindən üstün saymaqla yanaşı, həmçinin səhih dərəcəsinə çatmamış hədislər üçün işlətdikləri aydın olur. Məsələn: İbn Həcər əl-Əsqəlani, Əhməd bin Hənbəlin müsnədini ümumi olaraq nəzərdən keçirərkən bəzilərinin müsnəddə mövcud olan bütün hədisləri səhih qəbul etməkdə xəta etdiklərini, bu hədislərin əksəriyyətini ceyyid qəbul edilməsinin daha məqsədəuyğun olduğunu söyləmişdir.

**CƏBRAİL (جبرائيل):**

İslam inancında ilahi əmrləri peyğəmbərlərə və mələklərə çatdıran mələyin adı. İvritmənşəli “Allahın qulu” və ərəbmənşəli “Allahın gücü” kimi mənalarının olduğu iddia edilir.

Yəhudilik və Xristianlıqda da Cəbrail böyük mələklərdən sayılır. İslama görə, vəhy mələyi olan Cəbrail dörd böyük mələkdən biridir. Quranda Cibril, Ruhulqüds, Ruhuləmin, Ruh və Rəsul olmaqla, beş müxtəlif adla ifadə edilmişdir.

**CƏBRİLİK (الجبرية):**

"Zor gücünə iş gördürmək" mənasına gələn "cəbr" sözündən törəmiş cəbrilik (cəbriyyə) İslam tarixində insanın iradə azadlığının olmadığını, əməllərini məcburiyyət altında həyata keçirdiyini irəli sürən qruplara verilən addır. Bu görüşü müdafiə edənlər belə düşünürdülər ki, insanlar hərəkətlərini əvvəlcədən müəyyənləşdirilmiş ilahi plana görə, heç bir iradəyə malik olmadan həyata keçirirlər. Mənbələrdə bu fikri ilk dəfə sistemli şəkildə müdafiə edən şəxs kimi əslən səmərqəndli olan Cəhm ibn Səfvanın (v. 128/745-46) adı çəkilir.

**CƏDƏL (الجدل):**

Məşhur olan və doğruluğu hər kəs tərəfindən qəbul edilən mülahizələrə əsaslanan dialektik mühakimə, həmçinin mübahisəli məsələlərdə rəqibi susdurma metodu mənasında işlənən termin. Fəlsəfə və kəlamda fərqli tərifləri olmaqla yanaşı, ümumiyyətlə, "bir düşüncədəki ziddiyyətləri müzakirə edərək göstərmə sənəti" kimi izah edilir. Cədəl bir tezisin doğruluq, yaxud yanlışlığını göstərmək məqsədilə aparılan müzakirə qaydalarından bəhs edən elmin adı olaraq da işlənir.

**CƏFƏRİLİK (الجعفرية):**

Şiə (imamilik) məzhəbinin adlarından biri. Orta əsrlərdə 12 imamı qəbul etdiyinə görə, bu məzhəbin mənsubları üçün "imamiyyə" və yaxud "isnəəşəriyyə" adından daha çox istifadə olunurdu. Son bir neçə əsrdə sözügedən məzhəbin əməli (fiqhi) yönünü ifadə etmək üçün "cəfərilik" (cəfəriyyə) termininindən də istifadə olunur. Bu terminin istifadə edilməsinin əsas səbəbi imamiliyin mənbələrində fiqhə dair fikirlərin əksəriyyətinin 6-cı imam Cəfəri-Sadiqə isnad edilməsidir. Bu baxımdan, Cəfəri-Sadiq imamiyyə fiqhinin sistemləşdiricisi hesab olunur. "Cəfərilik" termini Orta əsrlərdə mötəzililiyin Bağdad məktəbinə mənsub olmuş Cəfər ibn Hərb (v. 236/850-51 [?]) və Cəfər ibn Mübəşşirin (v. 234/848-49) tərəfdarları üçün də istifadə olunmuşdur.

**CƏHALƏT (الجهالة):**

Avamlıq, nadanlıq, cahillik, mədəni gerilik, mədəniyyətsizlik, elm və mərifətin olmadığı hal. Hədis termini kimi isə "Mətaini-əşərə" deyilən və ravilərin tənqidində diqqətə alınan on əsasdan biridir. Lüğəvi baxımdan "cəhl" kəlməsi ilə eyni mənada işlədilir. Ravinin ədaləti ilə əlaqədardır. Hədis üsulu mənbələrində "cəhalətür-ravi" kimi də qeyd olunan "cəhalət" məfhumu ravinin tanınmamasıdır. Bir ravinin tanınmaması iki formada olur. Birincisi, ravinin kim olduğunun bilinməməsidir.

Buna “cəhaləti-eyniyyə” və yaxud “cəhalətül-eyn” deyilir. İkincisi isə ravi haqqında verilən cərh və tədil hökmünün bilinməməsidir. Buna “cəhalətül-vəsf” də deyilmişdir. Kim olduğu və haqqında cərh və tədil hökmünün verildiyi bilinməyən raviyə “məchul” deyilir. Məchul ravinin əgər kim olduğu bilinmirsə, “məchulül-eyn”, ədaləti bilinmirsə, “məchulül-ədalət” deyilir. Hədis termini olaraq “cəhalət”, həmçinin ravinin ədalət və hafizəsi ilə əlaqədar irəli sürülən on tənqid prinsipindən biri. Hədis elminə görə, cəhalət hədisin isnadında mövcud olan hər hansı bir ravinin sifəti (xüsusiyyəti) ilə əlaqəlidir. Belə ki, hədis üsulu əsərlərində mövcud olan “cəhalət ər-ravi” ifadəsi ravinin məchulluğunu ifadə edir. Ravinin bilinməməsi və ya tanınmaması iki şəkildə təzahür edir: ravinin kim olduğunun bilinməməsi (cəhalətül-eyn) və ravi haqqında verilən cərh və tədil hökmünün bilinməməsi (cəhalətül-vəsf). Həm kim olduğu, həm də haqqında verilən cərh və tədil hökmü bilinmədikdə, ravi “məchul” sayılır. Hədis elminə görə, ravisi məchul olan hədis məqbul və etibarlı hesab edilmir. Söz və davranışlardakı məchulluğu ifadə edən fiqh termini kimi cəhalət aşağıdakı mənaları ehtiva edir. 1) Satılan mal (məbi), yaxud veriləcək pulla (səmən) bağlı məchul hallar. Fəsada yol açması, əqdin tərəfləri arasında narazılığa səbəb olması baxımından əqdi fasid edən (pozan) ünsür. İfrat dərəcəsi ilə əqdin batil olduğu hal. Cəhli-bəsit və cəhli-mürəkkəb növləri mövcuddur. 2) Dinin ehkamından xəbərsiz olmaq.

**CƏHƏNNƏM (جهنم):**

İnkarçıların və günahkarların axirətdə cəzalandırılacaqları yer. Quranın yetmiş yeddi ayəsində yer alan cəhənnəm kafirlərin, münafiqlərin, zalımların, inadkarların əzab görəcəkləri yer olaraq təsvir edilir.

**CƏHƏTİ-VƏHDƏT (جهة الوحدة):**

Birlik cəhəti, birlik yönü.

**CƏHMİLİK (الجهمية).**

**Bax: CƏBRİLİK.**

**CƏHR (الجهر):**

Lüğəvi baxımdan “ortaya çıxarmaq, elan etmək və yüksək səslə danışmaq” mənalarını verir. Termin olaraq cəhr hərfləri hərəkəli olaraq tələffüz edərkən nəfəsi tutmaqdır. Həms xüsusiyyətinin ziddidir. 19 hərfin cəhr xüsusiyyəti var: ط، ظ، ع، غ ، ق، ل، م، ن، و ، ي أ، ب، ج، د، ذ، ر، ز، ض،.

**CƏLİL (الجليل):**

Allahın adlarından (əsmai-hüsna) biri. Allaha nisbət edildikdə “Mütləq əzəmət sahibi, qədir-qiyməti və mərtəbəsi ən uca olan” mənalarına gəlir. Quranda eyni mənanı verən “zülcəlal” ifadəsi iki ayədə keçir (“Rəhman” 55/27, 78). Hədislərdə isə Allahın doxsan doqquz adı içərisində qeyd olunur.

**CƏM (الجمع):**

Lüğəvi mənası "toplamaq, cəmləşdirmək" mənalarında istifadə edilən cəm müxtəlif kəlmələrlə birləşərək, fərqli mənalarda terminlər əmələ gətirir: a) Leylayi-cəm – Həcc mövsümündə zəvvarların Müzdəlifədə cəm olmaları; b) Yövmi-cəm – Qurban bayramının ərəfə günü; c) Yövmil-cəm – Qiyamətdə məhşər günü; ç) Əyyami-cəm – Zəvvarın Mina günlərində cəm olması; ç) Cəmi-səlateyn – iki namazı cəm etmək, iki vaxt namazını eyni vaxtda arxa-arxaya qılmaq; 1) Günorta (zöhr) namazı ilə ikindi (əsr) namazının günorta namazı vaxtı qılınmasına "cəmi-təqdim", bu iki namazın ikindi vaxtı qılınmasına "cəmi-təxir" deyilir. Həmçinin bu üsulla axşam (məğrib) ilə işa namazlarını da birləşdirmək olar.

**CƏMƏL DÖYÜŞÜ (وقعة الجمل):**

656-cı ildə IV xəlifə Əli ibn Əbu Taliblə Məhəmməd peyğəmbərin həyat yoldaşı Aişə bint Əbu Bəkrin orduları arasında baş vermiş İslam tarixinin ilk vətəndaş müharibəsi. 656-cı ildə III xəlifə Osman ibn Əffanın Mədinədə üsyançılar tərəfindən qətlə yetirilməsindən sonra, hakimiyyətə gətirilən Əli ibn Əbu Talibin qarşısına qoyulan ilk tələb sələfi Osman ibn Əffanın qatillərinin cəzalandırılması idi. Digər tərəfdən, xəlifə Mədinədən kənardakı əyalətlərin biət etməyən valilər problemini də həll etməli idi. Osman ibn Əffan günahsız yerə öldürüldüyü üçün qatillərinin cəzalandırılması tələbi ilə Məhəmməd peyğəmbərin yoldaşı Aişə bint Əbu Bəkrin rəhbərlik etdiyi müxalifət qrupuna Osman ibn Əffanın qanının yerdə qalmamasını tələb edən qəbiləsi Ümeyyəoğulları, onun təyin etdiyi Bəsrə və Yəmən valiləri, xəlifədən Bəsrə və Kufə valiliyini istədikləri halda qəbul edilməyən Təlhə və Zübeyr də qoşuldu. Bəsrə yaxınlığında baş verən və Aişə bint Əbu Bəkrin müxalifət ordusunu öz dəvəsi üzərindən idarə etdiyi üçün "Cəməl vəqəsi" (Dəvə hadisəsi) adlandırılan döyüşdə xəlifənin orduları qalib gəldi, Təlhə və Zübeyr döyüş əsnasında öldürüldü, Aişə bint Əbu Bəkr isə bağışlanaraq Mədinəyə göndərildi. İslam tarixinin ilk vətəndaş müharibəsi hesab olunan bu döyüş müsəlmanlar arasında hərbi yolla həll edilməyə çalışılan ilk ciddi siyasi bölünmənin başlanğıcı olmuşdur.

**CƏMİYYƏT (society):**

Eyni coğrafi, sosial və mədəni mühiti bölüşən, qərarlaşmış ictimai münasibətlərə və sosial sistemə malik olan insan birliyi; toplum. Cəmiyyət onu meydana gətirən fərdlərin, sadəcə, məcmusundan ibarət deyildir, müəyyən qayda üzrə qurulmuş struktura malik olan bütöv sosial-mədəni sistemdir. Bütöv orqanizm kimi götürülən cəmiyyət bir sıra xassələrə malikdir: özfəaliyyət, özözünü təşkiletmə, özünüinkişaf və öz-özünə yetərli olma. Birinci üç

əlamət həm bütövlükdə cəmiyyətə, həm də ayrılıqda onun hər sferasına və qruplarına aiddir. Dördüncü xassə isə yalnız bütöv bir tam kimi götürülən cəmiyyəti səciyyələndirir. Cəmiyyətin öz-özünə yetərlik xassəsi o deməkdir ki, sistem fəaliyyəti ilə onun mövcudluğu üçün lazım olan şəraiti yarada və tələbatlarını ödəyə bilir. Hər cəmiyyətin özünəməxsus ictimai institutları, müəyyən strukturu, qərarlaşmış adət-ənənələri, qanun-qaydaları mövcuddur. Bunlar cəmiyyətin nisbətən sabit olan yönünü təşkil edir. Digər tərəfdən, cəmiyyət daimi dəyişikliklərə məruz qalır. İlk növbədə, cəmiyyəti meydana gətirən fərdlər mütəmadi olaraq dəyişir. Cəmiyyətin quruluşu, təşkilatı, adət-ənənələri zamanla dəyişikliyə məruz qalır. Buna görə də cəmiyyət daimi olaraq inkişaf edən, dinamik sosial sistem kimi nəzərdən keçirilir.

**CƏMRƏ (الجمرة):**

“Od parçası, qor, köz, yaxud çınqıldaşı” mənalarında işlənilir. Terminologiyada isə zəvvarların Həccdə şeytan daşlayanda atdıqları daş və bu daşların atıldığı yerlər, yaxud daş sütunlarına deyilir.

**CƏNABƏT (الجنابة):**

Cünüblük, ya da qüslsüzlük halı. Cinsi münasibət, yaxud hər hansı səbəbdən sperm axıntısı, adət görmə və zahılıq hallarında meydana gələn kirlilik.

**CƏNAHİLİK (الجناحيّة):**

Məhəmməd peyğəmbərin “zülcənaheyn” (ikiqanadlı) adı verdiyi Cəfər ibn Əbu Talibin oğlunun nəvəsi Abdullah ibn Müaviyəni (v. 129/746-47) imam qəbul edənlərə verilən ad. İfrat qruplardan (qülat) sayılan cənahiyyəyə görə, Adəmdən etibarən, bütün peyğəmbərlərə keçən ilahi ruh Məhəmməd peyğəmbərə, ondan Əli ibn Əbu Talibə və üç oğluna – Həsən, Hüseyn və Məhəmməd ibn əl-Hənəfiyyə, ən sonda isə Abdullah ibn Müaviyəyə keçmiş, beləcə, Abdullahda həm tanrılıq, həm də peyğəmbərlik gücü toplanmışdır. Bəzi mənbələrdə cənahiyyə mənsublarının reinkarnasiyaya inandığı, cənnət və cəhənnəmi inkar etdiyi, haramları halal qəbul etdiyi qeyd olunur. Mənbələrdə, həmçinin qeyd olunur ki, Abdullah ibn Müaviyə öz adına yaradılmış bu məzhəbin görüşlərindən uzaq durmuşdur.

**CƏNAZƏ DUASI (صلاة الميت):**

Cənazə namazının tərkib hissəsi. Əhli-sünnədə üçüncü təkbirdən sonra xüsusi olaraq meyit üçün oxunan dua. Cəfəri məzhəbində bu dua dördüncü təkbirdən sonra oxunur. Meyidin qadın, kişi, oğlan, yaxud qız uşağı olması baxımından, müəyyən dəyişikliklərlə oxunması vacib olan duadır.

**CƏNAZƏ NAMAZI (صلاة الميت):**

Meyit namazı – ölən bir müsəlman üçün torpağa tapşırmazdan əvvəl

xüsusi qayda ilə yerinə yetirilən duadır. Bu, rükü və səcdəsi olmayan, qiyam və təkbirlərdən ibarət fərzi-kifayə bir namazdan ibarətdir. Həzrət Peyğəmbər əleyhissalam tərəfindən, xüsusilə tətbiq edilmiş və bizə kimi gəlmişdir.

**CƏNAZƏ (الميت):**

Meyit, ölmüş insan. Maddi aləmin əhatə dairəsindən çıxıb, əbədi aləmə qovuşmaq üçün gözləyən insan. Ruhun bədəndən ayrıldıqdan sonra torpağa verilənədək keçən ölüm halı. Cənazə halına "mühtəzər", hazırlıq işlərinə "təchiz", yuyulmasına "meyit qüslü", kəfənlənməsinə "təkfin", torpağa tapşırılmasına "dəfn" deyilir.

**CƏNİN (الجنين):**

Ana rəhmində olub, hələ doğulmamış uşaq. Ana bətnində müəyyən mərhələlər keçirdikdən sonra, yaradılması tamamlanan və dünyaya gələn uşaq. İslam hüququnda şəxsiyyətin hüquqları cənin dövründən başlayır. Belə ki, uşaq hələ cənin ikən lehinə edilən vəsiyyətə, vəqf edilən mala vərəsəlik hüququ və soy/nəsəb haqqına sahib olur.

**CƏNNƏT (الجنة):**

Cənnət "örtmək, gizləmək" mənasındakı "cənn" sözündəndir. "Bitki və ağacları ilə torpağı örtən bağça" deməkdir. Quranda Adəm ilə Həvvanın məskunlaşdığı məkan, bir yerdə Həzrət Peyğəmbərin Sidrətül-müntəhada gördüyü Məva cənnəti ("Nəcm" 53/13-15), digər yerlərdə axirət cənnəti mənasında işlənmişdir. İslam ənənəsində Cənnətin səkkiz qapısının olduğu ilk dövrlərdən bəri qəbul edilmişdir. Cəhənnəmin yeddi qapısının olduğu Quranda açıq şəkildə keçdiyi halda ("Hicr" 15/44) cənnətin yalnız qapılarının olduğu ifadə edilir və sayları haqqında məlumat verilmir.

**CƏRH (الجرح):**

Hədis üsulunda qüvvətli bir alim tərəfindən zəif ravilərin hafizə və şəxsiyyətlərindəki qüsurların aşkarlanması hadisəsidir. "Cərh" kəlməsi lüğəvi mənada "maddi və mənəvi yaralamaq" deməkdir. Raviyə belə bir qüsuru söyləyənə "carih", qüsurlu olana "məcruh" deyilir. Bu hadisəyə isə "cərh" deyilir. Cərh İslam şəriətini qorumaq, onu xətadan, yalan-yanlış rəvayətlərdən uzaq tutmaq məqsədilə yaradılmışdır. Dini hökmlərə dəlil təşkil edən hədislərin səhihliyi, hər şeydən əvvəl, onu rəvayət edən ravinin ədalət və zəbtinə, dürüstlüyünə və əminliyinə bağlıdır. Cərh məqsədilə mühəddislər raviləri araşdırarkən onların şəxsiyyət və hafizə vəziyyətlərini əsas götürmüşlər. Şəxsiyyətlə əlaqəli problemlər ədalət, hafizə ilə əlaqəli problemlər isə zəbt başlığı altında araşdırılmışdır. Ədalətlə əlaqəli qüsurlar əsas etibarilə yalançılıq, yalançılıqda ittiham, fisq, bidət və cəhalət olaraq təsbit edilmişdir. Ədalət Allahın əmrlərinə tabe olmaq, qadağalarından uzaq durmaq, şəxsiyyətə zərər verən sözlərdən və davranışlardan çəkinməkdir. Alimlər ədalət

vəsfinin tam olması üçün bəzi şərtlər irəli sürmüşlər. Bunlar – müsəlman olmaq; həddi-büluğa çatmaq; ağıllı olmaq; təqva sahibi olmaq və ağırbaşlılıqdır. Zəbt ravinin eşitdiyi bir hədisi istədiyi zaman xatırlayıb, səhvsiz şəkildə rəvayət edə biləcək halda əzbərləməsidir. Yəni ravi hədisləri əzbərlədiyi kitabdan rəvayət edirsə, onu hər cür nöqsandan qorumalıdır. Həmçinin ravi hədisi məna olaraq rəvayət edirsə, işlətdiyi ləfzlərin mənanı əks etdirib-etdirməməsini yaxşı bilməlidir. Zəbt ilə əlaqəli qüsurlar çox yanılma, qəflət, vəhm, güvənilən (siqə) raviyə müxalifət və hafizənin zəifliyi olaraq təsbit edilmişdir.

**CƏVAMİÜLKƏLİM (جوامع الكلم):**

Söylənilənі məna baxımından gözəl olan sözlərlə ifadə etmək. “Bir yerə toplayan” cami ilə “söz” mənasına gələn kəlmələrin cəm formalarının birləşməsindən meydana gəlmişdir. Bu, hədis elmində Həzrət Peyğəmbərin az sözlə çox məna ifadə etmə xüsusiyyətini bildirir. Az da olsa, “camiülkəlam”, “camiülkəlim” şəkillərində də işlədilir. Həzrət Məhəmməd digər peyğəmbərlərdən fərqli olaraq, yalnız özünəməxsus xüsusiyyətləri qeyd etdiyi bir hədisdə “Mən cəvamiülkəlim ilə göndərildim” (Buxari, Cihad, 122; Təbir, 22; Etisam, 1; Müslim Məsacid, 6), “Mənə cəvamiulkəlim verildi” (Müslim Məsacid, 5,7-8; Əşribə, 71) – demişdir. Bəzi alimlər bu hədislərdən birinin mətnindəki “göndərildim” sözünə əsaslanaraq, cəvamiülkəlimin Qurani-Kərim olduğunu, bəzi alimlər isə həm Quran, həm də hədisin birlikdə nəzərdə tutulduğunu söyləmişlər. İbn Şihab əz-Zöhri başda olmaqla, bir çox alim isə cəvamiülkəlimin hədis olduğunu iddia etmişdir. Buna görə Həzrət Peyğəmbər ona verilən fəsahət və bəlağət qabiliyyəti sayəsində mənaların dərinliyini asanlıqla idrak etmişdir.

**CƏVAZ/CAİZ (الجائز / الجواز):**

Lüğətdə “icazə, rüxsət” kimi mənaları ifadə edən caiz, dində haqqında hər hansı bir qadağa olmayan, yaxud işlənməsi mümkün olan nəsnələrə deyilir. “Mübah”, “məndub” kimi sinonimləri olan caiz, bəzən də haqqında qadağa olmayan feillərin mükəlləfin işləməkdə ixtiyar sahibi olduğu işlərə də deyilir.

**CƏZA (الجزاء):**

Kəlmə olaraq bir nəsnənin “müqabili, əvəzi, yaxud qarşılığı” mənasında cəza, günah işləyən, yaxud qadağalara (haramlara) məhəl qoymayan müqəssirlər üçün təyin edilmiş təsirli tədbirlərdir. Kəffarə, kölə azad etmə, oruc tutma, kasıbları doyuzdurma (kəffarə) növündən dünyəvi olduğu kimi, şəfaətdən məhrum olma, cəhənnəm əzabı kimi axirətlə bağlı cəzalar da mövcuddur.

**CƏZM ( الجزم):**

Hədis elmində sənədi tam olaraq qeyd edilmək istənilməyən bir hədisin

Həzrət Peyğəmbərdən rəvayət edildiyini ifadə etmək üçün işlədilən termin. Lüğəvi baxımdan “kəsmək”, qəti bir şəkildə “and içmək” və “bir işi heç bir əlaqəsi qalmadan bitirmək” mənalarına gəlir. “Qalə Rəsulullah”, “əmərə”, “fəalə”, “nəha Rəsulullah” kimi ifadələr mövzuya nümunə olaraq verilə bilər. Bir hədisin sənədindəki raviləri qeyd etməyərək birbaşa qaynağına istinad etmək, başqa sözlə hədisin müəlləq olaraq rəvayət edilməsi onun səhih olmadığı qənaətini yaradır. Bunu ortadan qaldırmaq, sözün sahibinə aid olduğunu göstərmək üçün cəzm ləfzləri işlədilir. Cəzm ləfzləri ravi ilə müəlliminin görüşdüklərini qətiliklə bildirdiyinə görə, sənədsiz olaraq rəvayət edilən səhih və yaxud dəlil olma baxımından səhihə bərabər olan hədislər bu kəlmələrlə rəvayət edilə bilər. Hədis alimlərinə görə, cəzm ləfzləri səhih hədislərin haqqıdır.

**CHÜN-TZU:**

Konfutsinin təlimlərində hərislikdən uzaq, mehribanlıq, düzgünlük, ədəb, müdriklik və səmimiyyət kimi keyfiyyətlərlə səciyyələnən ideal insan.

**CİBT (الجبت):**

Quranda həqiqəti qəbul etməyən kobud ruhlu insanlar üçün, yaxud küfrün və şərin təmsilçisi olan hər şey üçün işlənən kəlmə. Hərfi mənası “həqiqətə qarşı gələn, kobud və zəif zəkalı insan” deməkdir.

**CİFR (الجفر):**

Gələcəkdə baş verəcək hadisələri müxtəlif yollarla öyrətdiyinə inanılan elmin, yaxud bu barədə yazılmış əsərlərin adıdır. Şiəlik daxilindəki bəzi dini qruplara görə, Məhəmməd peyğəmbər digər insanlara öyrətmədiyi qeybə dair xüsusi məlumatları Əli ibn Əbu Talibə öyrətmiş və bu məlumatlar onun vasitəsilə digər imamlara keçmişdir. Sünni alimlərin əksəriyyəti isə Cifri qəbul etməmişdir.

**CİHAD (الجهاد):**

Lüğətdə “çalışmaq”, “mübarizə aparmaq”, “cəhd etmək” mənalarında işlənir. Termin kimi isə yaxşılığı əmr edib, pislikdən çəkindirməklə haqq və həqiqətin çatdırılması üçün göstərilən təşəbbüs, nəfsin pis cəhətləri ilə mübarizə aparmaq, həmçinin dinin və vətənin keşiyində duraraq düşmənə qarşı ayıq-sayıq olmaqdır. Haqqın yolunda canla və malla çalışmaq, bilik və bacarıq kimi bütün vasitələrdən istifadə edərək bu yolda var gücünü sərf etməkdir.

**CİN (الجن):**

Lüğəvi mənası “örtmək, örtünmək, gizli qalmaq” deməkdir. Termin mənası “hiss orqanları ilə dərk edilə bilməyən və insanlar kimi ilahi əmrləri yerinə yetirməklə vəzifələndirilmiş varlıq növü”nü bildirir.

**“CİN” SURƏSİ (سورة الجن):**

Quranın 72-ci surəsi. 28 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surənin adı metafizik varlıqlar hesab edilən cinlərin Quranı dinləməsindən bəhs edən ilk ayədəki “cin” sözündən götürülmüşdür. Surədə iman mövzusuna toxunulur, cinlərin Quranı dinləyib-təsirlənməsi və inanmayanların ziddiyyətlərindən bəhs edilir.

**CİNA:**

Caynizmin qurucusuna “qalib” mənasında verilən bir titul.

**CİNS (الجنس):**

Müştərək keyfiyyətləri olan terminləri ehtiva edən ümumi termin. “Varlığın növlərini ifadə edən mahiyyət” mənasındakı cins termini məntiqdə universal (külli) varlıq, yaxud məfhumları, bunlar arasındakı əlaqəni ifadə edən “beş universal”ın ilki və ən əhatəli olanıdır. Aristotelə görə, cins termininin dörd mənası vardır: 1. Cins hər şeydən əvvəl eyni formaya malik varlıqların davamlı olaraq meydana gəlməsi; 2. Varlıqları meydana gətirən ilk əsas. 3. Müstəvi düzformalı şəkillərin, həndəsi əşyada müxtəlif növ həndəsi əşyaların cinsi. 4. Bütün universalları ehtiva edən ilk universal. İslam filosoflarından Farabiyə (871-950) görə isə cins növ etibarilə fərqli olub, “Bu nədir?” sualına cavab təşkil edən bir çox varlıq üçün istifadə olunan universaldır. Cins ilə əlaqədar belə bir tərif İslam peripatetik filosofları tərəfindən də qəbul edilmişdir. Onlar bütün universallar kimi, cins universalının da zehin xaricində var olmayıb, zehnin mücərrədləşdirmələr vasitəsilə formalaşdırdığı biliklər olduğunu düşünürlər.

**CİNSİ-ƏCNAS (جنس الأجناس):**

Özündən daha yüksək və daha əhatəli bir cinsin olmadığı cinslər.

**CİNSİ-MƏNTİQİ (الجنس المنطقي):**

İnsan zehnində fikir şəklində mövcud olan cinslərin forması. Məsələn: ilk substansiyalar (cövhər), ulduzlar, Yer, planetlər, bitkilər və heyvanlar kimi müşahidə aləmindəki bütün fərdi varlıqlar.

**CİRM (الجرم):**

Cisim və səmavi cisim mənasında istifadə edilən fəlsəfi termin. Əvvəllər cismin sinonimi olaraq istifadə edilən “cirm” termini sonralar xüsusi mənada istifadə edilmişdir. Məsələn: Platon (v. e.ə. 427-347) göy fələyini “cirm”, dünyadakı fiziki varlıqları isə “cisim” adlandırmışdır. Buna görə də peripatetik filosoflar da ayüstü aləmdə mövcud olan varlıq və fələkləri “cirm”, ayaltı aləmdəkiləri isə “cisim” adlandırmışlar.

**CİSİM (الجسم ):**

Şüurumuzun xaricində olan və hiss orqanlarımız ilə hiss edilən hər bir amil. Hündürlüyü, eni və dərinliyi olan üçölçülü varlıq; ruh və nəfs kimi mənəvi varlıqların ziddi olan varlıq.

Farabiyə (871-950) görə, cisim maddə və formanın əsasıdır. Yəni maddə və formanın meydana gəlməsi üçün konkret bir əsasa ehtiyac vardır ki, bu da cisimdir. İbn Sinaya (980-1037) görə, cisim hündürlük, en və uzunluq kimi ölçülərinin olduğunu fərz etdiyimiz məhdudölçülü hər hansı bir forma, yaxud heyula və formadan ibarət olan substansiyadır (cövhər).

**CİZYƏ (الجزية):**

İslam dövlətində qeyri-müsəlman əhalinin kişi fərdlərindən alınan vergi. Qurani-Kərimin "Tövbə" surəsinin 29-cu ayəsinin hökmünə bağlı olaraq öz dinində qalmaq şərtilə İslam dövlətində yaşamağa razılıq verən qeyri-müsəlmanların hərbi mükəlləfiyyətdən azad olunduqları, can və mal təhlükəsizliyinin təmin edilməsi məqsədilə ödədikəri bu vergi 630-cu ildən etibarən müsəlmanların hakimiyyətinə keçən Əylə, Əzruh, Cərba, Dümətülcəndəl, Nəcrən, Yəmən, Bəhreyn, Məqna və s. bölgələrin əhalisi ilə bağlanmış sülh müqavilələri ilə tətbiq olunmuşdur.

**CONCURSUS DEİ:**

"Concurcus divinus" da adlandırılan və latınca "ilahi müvafiqlik" mənasını ifadə edən, insan davranışları ilə Tanrının qərarının üst-üstə düşdüyünü ifadə edən dini-fəlsəfi təlim.

**CÖVHƏR (الجوهر):**

Aristotelin (e.ə. 384-322) "On kateqoriya"sından (Əl-məqulat əl-əşərə) biri olub, varlığını davam etdirmək üçün başqa bir şeyə ehtiyacı olmayan nəsnədir. Məsələn: insan əlamətlərindən ayrı olaraq özbaşına bir cövhərdir. İnsanın rəngi, forması, çəkisi və digər əlamətləri olub əsasını təşkil etmir. Bu mənada, bal mumu nümunə kimi qeyd edilə bilər. Belə ki, bal mumuna müxtəlif formalar verilməsinə baxmayaraq, yenə mahiyyətini itirmir və bal mumu olaraq qalır. Sifətlər dəyişsə də, cövhər dəyişməz. İxvani-Səfa məktəbinin nümayəndələri iddia edirdilər ki, cövhərin dəqiq tərifini vermək mümkün deyildir, onu ancaq təsvir etmək mümkündür. İxvani-Səfa cövhəri "zidd aksidensiyaları (ərəzlər) qəbul edən və varlığını özbaşına davam etdirən şey" kimi tərif etmişdir. İbn Sina (980-1037) cövhəri "cismani" və "qeyri-cismani" olmaqla iki növə ayırır. Farabi, "müstəqil mövcud olan və varlığı başqa şeylərdən asılı olmayan" tərifinə əsasən, Tanrıya cövhər desə də, İbn Sina bunu qəbul etmir. Onun nəzərində Tanrı cövhər deyil.

**CÖVHƏRÇİLİK: (الجوهرية)**

Fenomenlərin əsasında substantiv reallığın durduğunu irəli sürən təlim. Metafizikada fenomenalizmin ziddi hesab edilən bu təlim fenomenləri bir və ya bir neçə cövhərin meydana gətirdiyini, onların əlamət və xüsusiyyətlərinin aksidensiya olduğunu və xarektercə dəyişkən olan bu aksidensiyaların sabit bir reallıq olan substansiya (cövhər) əsasında meyda-

na gəldiyini qəbul edir. Bu mənada, ilk cövhərçi filosof Aristoteldir (e.ə. 384-322). Ona görə, dəyişməyən ilk və əsas cövhər "ilk mühərrik"dir (ilk hərəkətetdirici). Bu fikir bəzi İslam filosofları tərəfindən qəbul edilsə də, başda Qəzali (1058-1111) olmaqla, müsəlman filosof və kəlamçılarının əksəriyyəti Tanrıya "cövhər" deyilməsi fikrinə qarşı çıxmışdır.

**CÖVHƏRİ-FƏRD (الجوهر الفرد):**

İslam teoloqları (kəlamçılar) atom mənasındakı cövhəri ifadə etmək üçün "cövhəri-fərd" sözünü istifadə etmişlər ki, bu söz məna etibarilə İslam peripatetik filosoflarının cövhər anlayışına ziddir. İslam dünyasında "bölünməyən hissəcik" (الجزء الذى لا يتجزأ) anlayışına əsaslanan atomçuluq nəzəriyyəsini ilk dəfə mötəzilə kəlam məktəbinin nümayəndəsi Əbül-Hüzeyl əl-Əllaf (752-841) müzakirə obyektinə çevirmişdir. Qeyd edilməlidir ki, bu nəzəriyyə çərçivəsindəki cövhər anlayışında hind və yunan düşüncəsinin təsiri olmuşdur.

**CÖVHƏRİ-SANİ (الجوهر الثاني ):**

Hərfən ikinci cövhər. Kainatda konkret fərdi amillər. Cövhəri-fərdin antonimi olaraq növlər və ümumi nəsnələr.

**CÖVŞƏN (الجوشن ):**

Farsca kəlmədir. Mənası "zireh, döyüş paltarı" deməkdir. Termin olaraq Əhli-beyt yolu ilə Həzrət Peyğəmbərə istinad edilən "Cövşəni-kəbir" və "Cövşəni-səğir" mətnləri bir-birindən fərqli olan iki duanın ortaq adıdır. "Cövşəni-kəbir" digərinə nisbətən daha çox məşhurdur. "Cövşən" deyildikdə ilk ağla gələn də elə bu duadır. Musa əl-Kazım, Cəfəri Sadiq, Məhəmməd əl-Baqir, Zeynülabidin, Həzrət Hüseyn və Həzrət Əli təriqi ilə Həzrət Peyğəmbərə istinad edilir. Rəvayətə görə, Həzrət Peyğəmbərin zamanında olan savaşların birində (bir hədisə görə Uhud döyüşündə) müharibənin qızışdığı əsnada Həzrət Peyğəmbər əllərini açaraq Allaha dua etmişdir. Cəbrail: "Ey Məhəmməd! Rəbbin sənə salam söyləyir və üstündəki zirehi çıxarıb bu duanı oxumasını istəyir. Bu dua həm səni, həm də ümmətini zirehdən daha yaxşı qoruyacaqdır", – demişdir. Şiə məzhəbində bu duanın əhəmiyyəti və fəziləti ilə bağlı geniş məlumat mövcuddur. Məzmunun gözəlliyi, ifadələrinin açıqlığı və oxunduğu zaman dünyəvi və üxrəvi baxımdan müsəlmanlara faydalı olduğundan "Cövşəni-kəbir" müsəlman dünyasında rəğbət qazanmışdır. Xüsusilə şiə aləmində həm müstəqil surətdə, həm də müxtəlif dua kitablarının tərkibində dəfələrlə dərc edilmişdir. Məhəmməd Baqir əl-Məclisi, Hadi Səbzəvari, Məhəmməd Nəcəf əl-Kirmani əl-Məşhədi və Həbibullah ibn Əli Mədəd əs-Savəçi əl-Kəşani kimi müəlliflər tərəfindən şərh edilmişdir. Hadi Səbzəvarinin "Şərhüləsma" adlı əsəri dəfələrlə nəşr edilmişdir. "Cövşəni-kəbir" Ramazanın son günlərində Qədr gecəsi ümidi ilə keçirilən əhya gecələrində qrup halında məscidlərdə oxunur.

**CÖVŞƏNİ-SƏĞİR (الجوشن الصغير):**

Hər biri "Allahümmə kəm min (اللهم كم من)" ifadəsi ilə başlayan "vəcəlni liənumikə minəş-şakirin və li alaikə minəz-zakirin (واجعلني لأنعمك من الشاكرين ولآلائك من الذاكرين)" şəklində on doqquz bölmədən ibarət olan dua. Bölmələr on ilə iyirmi beş arasında dəyişən beytdən meydana gəlir. Beytlərdə əsas hakim məna isə belədir: "Çətinlik, vətən həsrəti, fəqirlik, acizlik, aclıq, xəstəlik, həbs, sürgün, düşmən qorxusu, ölüm həyəcanı və digər təhlükələr içində ikən məni qoruyan Uca Allaha həmd olsun! Ondan doğruluğu, müsəlman kimi ölməyi, dünya və axirət səadətini əldə etməyi diləyirəm".

**CREATİO EX NİHİLO:**

Latınmənşəli olub, "bir şeyi yoxdan var etmə", "heçdən yaratma" kimi mənalara gəlir. Bu termin Orta əsr xristian fəlsəfəsində Tanrının mövcud olanı yoxdan yaratması mənasında istifadə edilmişdir. Sonrakı dövrlərdə Plotinin (203-270) düşüncələrinin təsiri altında qalan Nissalı Qreqorios kimi mütəfəkkirlər bu termini "Tanrıdan yaranan və ya çıxan (südur)" mənasında istifadə etmişlər. Bu anlayışa görə, yaradılmış olanların hamısı yoxdan deyil, yox ikən, yəni Tanrının özündən meydana gəlmişdir.

**CREDO GUİA İMPOSSİBLE EST:**

"Mümkünsüz olduğu üçün inanıram" mənasına gələn ifadə. Bu fikir patristik xristian fəlsəfəsinin məşhur nümayəndələrindən olan Tertullianın (155-220) "Absurd olduğu üçün inanıram" sözünü ifadə etmək üçün istifadə olunmuşdur.

**CÜBBAİLİK (الجبائية):**

Bəsrə mötəziləsinin liderlərindən olan Əbu Əli əl-Cübbainin (v. 303/916) fikirlərini mənimsəyənlərə verilən ad. Cübbai kəlam, fiqh və təfsir kimi elmlərdə dərin biliyi olan alimlərdən hesab olunurdu. Onun Quranın təfsirinə dair qələmə aldığı 100 cildlik "Təfsir əl-Quran" adlı əsəri, həmçinin müxtəlif İslam elmlərində "Mütəşabih əl-Quran", "Nəqz əl-mərifət", "Kitab əl-lətif" və sair kitabları mövcuddur.

**CÜMƏ NAMAZI (صلاة الجمعة):**

Müsəlmanların həftədə bir dəfə cəm halda yerinə yetirdikləri ibadət. Bu namaz həftənin hər beşinci günü icra edildiyinə görə, həmin günə "toplaşmaq" mənasınını verən "cümə günü" deyilmişdir. Qurani-Kərimdə "Cümə" adında surə mövcud olub, həmin surənin doqquzuncu ayəsi məhz bu ibadətlə bağlıdır. Cümə günləri günorta (zöhr) namazının yerinə qılınır. İki rükət fərz (vacib) namazı olmaqla yanaşı, əlavə namazdan əvvəl xütbəsi olan bir ibadətdir. Məzhəblərə görə, fərz namazdan əvvəl və sonra fərqli saylarda nafilə (sünnət) namazları da mövcudur. Ən geniş yayılmış şəkli fərzdən həm əvvəl, həm də sonra dörd rükət sünnə namazı qılındığı forması-

dır. Bu namaz qadınlara, səfərdə olanlara, camaat iştirak edə bilməyən üzr sahiblərinə fərz deyil. Bunlardan hər hansı biri bu namazda iştirak edərsə, günorta namazını qılmaz. Namazın fərz olması üçün kişi olmaq, həbsdə olmamaq, kor olmamaq, ayaqdan sağlam olmaq və kəskin pis hava şəraiti, can təhlükəsi kimi halların olmaması şərtdir. Camaat sayının da məzhəblərə görə kifayət sayda olması şərtdir. Cəfəri məzhəbində İmamın zühuruna kimi təxyiri vacib olan bir namazdır.

**"CÜMƏ" SURƏSİ (سورة الجمعة):**

Quranın 62-ci surəsi. 11 ayədən ibarətdir. Mədinə dövründə nazil olmuşdur. Surənin adı 9-cu ayədəki "cümə" sözündən götürülmüşdür. Surədə peyğəmbər göndərmənin ilahi hikməti və faydaları, vəhyin yolgöstərici təsiri və Cümə namazından bəhs edilir.

**CÜRM (الجرم):**

Ərəb dilində günah mənasını verir. Günah ilahi əmr və qadağalara zidd hərəkət etmək, yaxud onların yerinə yetirilməməsi nəticəsində meydana çıxan, dini, əxlaqi və vicdani baxımdan məsuliyyətə səbəb olan məfhumdur. Bəşəri qanun və qaydaların pozulması "cinayət", din sahəsindəki yanlış davranışlar isə "günah" adlandırılır.

**CÜZ (الجزء):**

Qurani-Kərimin iyirmisəhifəlik bölümləri. Quran hər biri iyirmi səhifə olan 30 cüzdən ibarətdir.

**ÇALAB/İLAH (الإله):**

Müsəlman türklərin Allah üçün istifadə etdikləri adlardan biri. "İlah" isə ibadət edilməyə layiq görülən varlıq deməkdir. İlah tapınılan varlığa verilən ümumi addır.

# D

**DABBƏTÜLƏRZ (دابّة الأرض):**

Qiyamətin əlamətlərindən biri olaraq qəbul edilən məxluq. Lüğəvi mənası "yer üzündə yeriyən hər cür canlı" deməkdir. Dabbətülərzin nədən ibarət olduğu barədə Quran və səhih hədislərdə açıq-aydın məlumat mövcud deyildir.

**DAİ (الداعي):**

"Səslənmək, çağırmaq, dəvət etmək" mənalarına gələn "dəvət" və ya "dua" sözünün sifəti olan "dai" kəlməsi terminoloji mənada İslam dünyasında meydana çıxmış bəzi qruplarda öz məzhəblərini yayan şəxslərə verilən addır. "Dai" termini ən çox ismailiyyə məzhəbində istifadə olunmuşdur. Orta əsrlərdə bu məzhəbin daxilində xüsusi dailik institutu mövcud idi. Bilik, siyasi yetkinlik və digər xüsusiyyətlərinə görə müxtəlif təbəqələrə bölünən dailərin hər birinin məzhəbi yaymaq üçün fərqli vəzifələri var idi. Dailərin ən üstün mövqeyə malik olanı məsum imamın təmsilçisi sayılan "dai-düat" (dailərin daisi) idi. Ondan daha aşağı mərtəbələrdə isə "dai-bəlağ", "dai-mütləq", "dai-məzun, "dai-məhdud", "cənah" və sair dailər fəaliyyət göstərirdilər. Səlcuqilər dövründə müxtəlif təbliğat metodlarından istifadə edən ismaili dailər xeyli insanı sözügedən məzhəbə çəkməyə müvəffəq olmuşlar.

**DAİMON/DAİMONON:**

Qədim dövr yunan fəlsəfəsində insanın qəzavü-qədərinə təsiretmə gücünə malik olduğu təsəvvür edilən ruhi varlıq; fövqəltəbii gücləri olan, Tanrı ilə insan arasında mövcud olan yarıilahi gücə verilən addır. Platonun (e.ə. 427-347) "Simpozium" adlı əsərində daimon insanlarla Tanrı arasında körpü vəzifəsi görən, insanlara tanrıların buyurduqlarını, tanrılara isə insanların arzu və istəklərini çatdıran yarıilahi varlıq olaraq izah edilir. Sokratın (e.ə. 469-399) əsərlərində isə daimon "fəzilətin yolunu göstərən daxili səs" kimi izah edilir.

**DAOSİZM:**

E.ə. VI əsrdə Çində Lao-tzu tərəfindən yaradılmış dini-fəlsəfi təlim. Çincə "yolun nəsli" mənasını verən "Dao-cia" təbiətlə harmoniya və sadəlik prinsipi üzərində qurulmuş, bilik və hikməti ön plana çıxaran düşüncə sistemidir. Yarandığı dövrdən etibarən konfutsianizmlə birlikdə Çində dünyagörüşünə təsir edən iki mühüm fəlsəfi sistemlərdən biri olan Daosizmin əsas təlimləri Lao-tzu və Zhuangziyə aid edilən Tao-te Ching (e.ə. VI-III əsrlər) və Zhuangzidə (IV əsr) öz əksini tap-

mışdır. Kainatdakı balans və nizamın bağlı olduğu prinsipi ifadə edən "tao", Taonun təbiətdəki hər bir şeydə təzahürü olub fəzilət və güc hesab olunan "te", əşyaların həqiqi mahiyyətini dərk etdiyi üçün arzularının köləsi olmaqdan qurtulmağı, "fəaliyyətsizliyi" ifadə edən "vu-vei", ümumbəşəri enerji mənasındakı "ki/çi" Daosizm təlimlərinin əsasını meydana gətirən anlayışlardır.

**DARÜLHƏDİS (دار الحديث):**

Hədis elmlərinin tədris edildiyi xüsusi məktəblərə verilən ad. "Yer, məkan, ev" kimi mənalara gələn "dar" ilə "hədis" kəlmələrindən yaranmışdır. Hədis evi, hədis məktəbi, hədis oxudulan yer mənasına gəlir. Hədis tarixinin ilk dövrlərindən başlayaraq, hədis dərsləri "məcalis" deyilən hədis məclislərində tədris edilmişdir. Zaman keçdikcə hədis dərslərini daha ciddi və sistemli hala gətirmək zərurəti yarandıqda, Qurani-Kərimin tədrisinə ayrılmış xüsusi tədris məktəblərinin yanında darülhədislər tikilmişdir. İslam aləmində ilk darülhədis hicri VI əsrdə Şamda (Dəməşq) Sultan Nurəddin Mahmud tərəfindən inşa edilmişdir. Qurucusunun adı ilə əlaqələndirilərək, "ən-Nuriyyə" mədrəsəsi adlanan bu darülhədisin ilk müdiri məşhur alim İbn Əsakirdir.

**DARÜLİSLAM (دار الإسلام):**

İslam diyarı. Orta əsrlərdə müsəlman əhalinin əmin-əmanlıq və sülh şəraitində müsəlman üsul-idarəsi altında yaşadığı yerə verilən ad. İlk darülislam ölkəsi Həzrət Məhəmmədin Məkkə şəhərindən Mədinəyə hicrət edərək qurduğu İslam diyarı hesab olunur.

**DARÜLQƏRAR (دار القرار)**
**Bax: AXİRƏT.**

**DARÜNNƏDVƏ (دار الندوة):**

İslamaqədərki dövrdə "mələ" adlandırılan Qüreyşin nüfuzlu şəxslərinin mühüm qərarlar vermək üçün toplaşdığı yer. Qüreyşin əcdadı hesab olunan Qüsey V əsrin ortalarında Xüzaə qəbiləsinə qalib gəldikdən sonra, qəbiləsinin müxtəlif qollarını Məkkədə məskunlaşdırdı, Kəbə ziyarəti və Məkkənin idarə olunması ilə əlaqəli vəzifələri öz öhdəsinə götürdü. Qüseyin hərb və sülh qərarının verilməsi, ticarət karvanlarının göndərilməsi, nikah və yetkinlik yaşı mərasimləri başda olmaqla, mühüm hadisələrin qeyd edilməsi üçün inşa etdirdiyi Darünnədvə İslamın ilk dövrlərinədək fəaliyyətini davam etdirdi. Hicrətdən əvvəl məkkəlilər Qüreyşin hər qolundan bir nəfərin iştirakı ilə Məhəmməd peyğəmbərə sui-qəsd təşkil etmə qərarını da Darünnədvədə verdilər. Məkkənin fəthindən sonra Darünnədvə əvvəlki funksiyasını itirdi, Abbasilər dövründə Məscidi-Həramın sahəsinə daxil edildi.

**DARÜSSƏLAM (دار السلام):**

Maddi və mənəvi fəlakətlərdən qorunmuş rifah və əmin-amanlıq yurdu mənasında Quranda cənnətin adlarından biri olaraq qeyd edilir.

**DARÜTTƏQİYYƏ (دار التقية):**

Hərfən "təqiyyə yurdu" mənasına gələn "darüttəqiyyə" termin kimi "təqiyyənin tətbiq olunduğu yer" mənasına gəlir. İlk dəfə bu termin xaricilik daxilində istifadə olunmuşdur. Xariciliyin ilk hicri əsrlərdə mövcud olmuş qolları xariciliyə mənsub olmayanlarla birlikdə yaşamağa məcbur qaldıqları yerlərə "darüttəqiyyə" adı verirdilər. Ən radikal xarici qrup olan əzrəqilər isə təqiyyəni qəbul etmədikləri üçün digər müsəlmanlarla bir yerdə yaşamağı, eləcə də "darüttəqiyyə" anlayışını qəbul etmirdilər. Nəcədat və ibazilik kimi daha mötədil qruplar məcburiyyət olduqda təqiyyəyə müraciət etməyi qəbul edir, təqiyyənin tətbiq olunduğu yerləri "darüttəqiyyə" adlandırırdılar.

**DARVİNİZM (darvinism):**

Təkamül nəzəriyyəsi. İngilis bioloqu Çarlz Darvin (1809-1882) tərəfindən irəli sürülən, canlı növlərinin ibtidai formadan mürəkkəb formaya doğru təkamül etdiyinə əsaslanan, beləcə, insan və digər canlıların əmələ gəlməsini təbii seçmə ilə, yəni təbiətdə daim davam edən yaşamaq uğrunda mübarizədə əlverişli fərdlərin saxlanması ilə izah edən nəzəriyyə. Müasir dövrdə biologiya elmində daha çox təkamül nəzəriyyəsi kimi tanınır. Ç.Darvin "Növlərin mənşəyi" (1859) əsərində canlılar aləminin yaranması və inkişafını təkamülçü bir nəzəriyyə çərçivəsində izah etmişdir. Ç.Darvindən sonra təkamül nəzəriyyəsi genetika, paleontologiya, müqayisəli anatomiya elmində əldə edilən kəşflərlə daha da inkişaf etdirilmişdir. Təkamül nəzəriyyəsi yarandığı ilk günlərdən etibarən ciddi mübahisələrə səbəb olmuşdur. Bu nəzəriyyə müasir dövrdə dünyanın aparıcı elm mərkəzləri, universitetləri tərəfindən canlı növlərinin yaranması və müxtəlifliyini izah edən başlıca elmi nəzəriyyə kimi qəbul olunur. Bununla belə, təkamül nəzəriyyəsinə bəzi alim və dini cərəyanlar öz etirazını bildirilmişlər.

**DEHLİ SULTANLIĞI:**

1206-1526-cı illərdə Hindistanda mərkəzi Dehli olan və əksəriyyəti türk mənşəli xanədanların idarə etdiyi sultanlıq. Türk komandir Qütbüddin Aybəgin hakimiyyətə gəlməsi ilə əsası qoyulan sultanlıq 1206-1290-cı illərdə Məmlüklər, 1320-ci illədək Həlacilər, 1414-cü ilədək Tuğluqlular, 1454-cü ilədək Seyyidlər, 1526-cı ilədək Ludilər tərəfindən idarə olunmuşdur. Üç əsrdən çox hakimiyyətdə olan Dehli Sultanlığı Hindistandakı kiçik dövlətləri tədricən idarəsində birləşdirərək, mərkəzi hakimiyyəti gücləndirməsi, şəhərlərin kosmopolit strukturda inkişafı, beynəlxalq ticarəti gücləndirməsi və digər fəaliyyəti ilə siyasi, ictimai və iqtisadi həyatında böyük dəyişikliyə səbəb olmuşdur. Sultanlığın varlığına 1526-cı ildə Böyük Moğol İmperiyasının qurucusu Babür son qoymuşdur.

**DEİZM (deism):**

Latın sözündən götürülən "deus" "Allah" mənasına gəlir. Deizm təliminə görə, Tanrı kainatın əzəli səbəbkarı olsa da, təbiət və cəmiyyətə müdaxilə etmir, inkişafına qarışmır. Deizmin rüşeymləri orta əsrlər fəlsəfəsində müşahidə edilir. Kilsənin mənəvi diktaturası dövründə deist təlimlər, yəni təbiətin tanrı iradəsindən asılı olmaması, insanın fəallığı, onun dünyanı dərk etməsinin qeyri-məhdud imkanları haqqında ateist ideyalar ifadəsi təşəkkül tapmışdır. Deizm fəlsəfi cərəyan kimi XVII əsrdə formalaşmışdır. Onun ilk banisi Çerberi hesab olunur. Ümumiyyətlə, deizm fəlsəfi müstəvidə yekcins cərəyan olmamışdır. Həm materialistlər, həm maarifçilər (məs.: Toland, Kollinz, Lokk, Volter, Russo, Lessinq, Lomonosov, Radişşev) bu cərəyana qoşulmuşlar. Deistlər ənənəvi dini rədd edir, "təbii zəka dini"ni ona qarşı qoyurlar. Əsas düşüncə sistemlərindən biri budur: "Allah mövcuddur, O yüksək varlığa inanırıq, lakin dinlər cəfəngiyyatdır". Onlar ilahi vəhyi, nəticə etibarilə peyğəmbərləri, onların göstərişlərini və dini ayinləri inkar edirlər. Deistlərin əsl hədəfi elm və fəlsəfəni kilsənin təsirindən və zəkanı inancdan azad etməkdir. Materialistlər dindən yaxa qurtarmaq üçün deizmdən əlverişli vasitə kimi istifadə etmişlər.

**DEMİURQOS:**

Nizamlayıcı, memar və işçi. Platon kainatın yaradıcısını belə adlandırır. Ona görə, nizamlayıcı "xaliq" ("yaradan") demək deyildir. Demiurqos kainatı yaradan deyil, onu nizamlayan, formalaşdıran, kainatın memarı olan bir tanrı anlayışını ifadə edir. Plotin (203-270) isə bu termini "aləmin ruhu" mənasında istifadə etmişdir.

**DETERMİNİZM (determinism):**

Bütün hadisələrin ən ümumi, qanunauyğun əlaqəsi, səbəbiyyət asılılığı haqqında təlim. Latınca "müəyyən etmək" mənası verir. Bu təlim hər bir hadisənin müəyyən maddi və yaxud mənəvi bir amil nəticəsində meydana çıxdığını irəli sürür və müdafiə edir. Determinizmdə ruhi, fiziki və əxlaqi olan bütün hadisələr səbəbiyyət qanununa görə izah olunur. Bu nəzəriyyə, xüsusilə təbiət elmlərində əsas qanun kimi qəbul olunaraq, təbiətdəki bütün hadisələri səbəb-nəticə prinsipinə görə açıqlayır. Determinizmin ifrat dərəcəsi, imkan, möcüzə, kəramət və hətta iradə azadlığı kimi anlayışları inkar edir.

**DEYN (الدين):**

Borc. Şəxsin öhdəsində sabit olan mali borclar, yaxud mükəlləfin yerinə yetirməli olduğu namaz, oruc, həcc, zəkat və digər ibadətlər. Mali borclar mənasında "deyn" "eyn"in (العين) ziddidir. "Deyn"in qiyəmi deyil, bazarda ticarət həyatında bənzərinin mövcud olması baxımından misli mallardan olması onun əsas xüsusiyyətidir. Əgər borcun qaytarılması üçün müəyyən müddət təyin edilərsə, buna "təcilid-deyn" deyilir. Belə bir borc "deyni-

müəccəl" adlanır. Möhlətsiz, dərhal qaytarılması planlaşdırılan borca isə "deyni-müaccəl" deyilir.

**DƏBBABƏ (دبابة):**

İslamaqədərki dövrdə ərəblərin mühasirə məqsədilə istifadə etdiyi, müasir dövrdəki tankın funksiyasını dövrün texnologiyası çərçivəsində yerinə yetirən silah. Qalın və möhkəm taxtalardan düzəldilən dəbbabənin üstü, içindəki əsgərləri zərbə və oddan qorumaq üçün xüsusi texnologiya ilə işlənmiş dəri ilə örtülürdü. Taif mühasirəsi zamanı müsəlmanların dəbbabə istifadə etdiyi rəvayət olunur.

**DƏCCAL (الدجال):**

Lüğəvi mənası "bir şeyi örtmək, bəzək vurmaq, yaxud boyamaq"dır. Termin olaraq klassik mənbələrdə "qiyamətdən əvvəl ortaya çıxıb göstərəcəyi xariqülədə hadisələr sayəsində bəzi insanları zəlalətə sövq edəcəyinə inanılan şəxs" kimi tərif edilir. "Dəccal" kəlməsi Quranda keçmir. Hədislərdə isə Dəccal qiyamətin əlamətlərindən biri olaraq qeyd edilir.

**DƏHR (الدهر):**

Davamlı və sonsuz zaman. İslam peripatetik filosofları və sufilər dəhri "ilahi südurun (emanasiya) yayılmasından ibarət daimi an, zamanın əvvəli və sonrasını birləşdirən iç üzü" kimi izah edir.

**"DƏHR" SURƏSİ (سورة دهر)**

**BAX: "İnsan" surəsi.**

**DƏHRİLİK (الدهرية):**

Biliyin mənbəyinin hisslər olduğunu qəbul edən, zamanın (dəhr) və aləmin yaradılmayıb, əzəli olduğu fikrini mənimsəyən və Tanrının varlığını qəbul etməyən düşüncə cərəyanı. Fəlsəfə tarixində "dəhriyyun, müattilə, maddiyyun, mülhid, hissiyyun" kimi adlarla qeyd olunur. Bütün bu adlar materialist fəlsəfə cərəyanını ifadə edir. Ən məşhur nümayəndəsinin İbn ər-Ravəndi (834-914) olduğu iddia edilən və İslam fəlsəfəsi tarixində müstəqil məktəb qura bilməyən dəhriliyin əsas konsepsiyası belədir: a) Hər varlıq maddədir və maddədən ayrı, müstəqil ruh yoxdur; b) Kainat və Tanrı birdir və eynidir. Kainatın xaricində şüurlu və iradə sahibi yaradıcı yoxdur. Bu yanaşma ilk baxışda Tanrı ilə kainatı eyniləşdirən panteist bir yanaşma kimi görünsə də, burada ümumiyyətlə Tanrının kainatda mövcudluğundan bəhs edilmir. Bu düşüncə cərəyanına görə, yeganə həqiqət kainatın özüdür, maddədir; c) İnsanın varlığı universal (külli) varlığın məhsuludur. Buna görə də insan psixoloji şəxsiyyət deyildir. İnsan ruhu ölümdən sonra müstəqil şəkildə həyata davam edə bilməz. Yəni ruh ölümdən sonra fərdi varlıq kimi mövcud olmayıb, universal varlığa qarışır.

**DƏLAİLİ-NÜBÜVVƏT (دلائل النبوة):**

Peyğəmbərlərin möcüzələrini və onların ilahimənşəli olduğunu isbat etmə məqsədini daşıyan əsərlərin adıdır. Peyğəmbərlərin göstərdiyi fövqəladə

hadisələr insanlar baxımından "möcüzə", nübüvvəti (peyğəmbərliyi) isbat etmək baxımından isə "dəlail" (dəlillər) adlandırılır. Peyğəmbərlik veriləcək insanın dünyaya gəlişi əsnasında, yaxud peyğəmbərlik verildiyi ərəfədə meydana gələn fövqəladə hadisələr nübüvvətin dəlillərindən sayılsa da, möcüzə adlandırılmır. İslam alimlərinə görə, bunlara "işarələr və əlamətlər" mənasını verən "əlam" deyilir. Məhəmməd peyğəmbərin nübüvvətini isbat etmək məqsədilə yazılan bu növ əsərlərə "dəlaili-nübüvvə", yaxud "əlami-nübüvvə" adı verilir.

**DƏLALƏT (الدلالة):**

Məntiq termini olub, zehnin bildiklərinə əsaslanaraq bilinməyənlər haqqında məlumat əldə etməsini ifadə edir. "Dəlalət"in sözlü (ləfzi) və sözsüz (qeyri-ləfzi) olmaqla iki növü vardır. Məsələn: "kitab" sözünün iki qapaq arasındakı yazılmış mətnə dəlalət etməsi sözlü (ləfzi) dəlalət, tüstünün alova dəlalət etməsi isə sözsüz (qeyriləfzi) dəlalətdir.

**DƏLİL (الدليل):**

"Yol göstərən, rəhbərlik edən, işarə, iz" deməkdir. Kəlam termini olaraq "bir şeyi sübut etməyi təmin edən əsas" deməkdir. Kəlam alimləri dəlili "hər hansı bir mövzuda həqiqətə və isbatlanması nəzərdə tutulan məsələyə aparan şey" kimi tərif edirlər. Dəlil, həmçinin İslam hüququnda iddiaçı, yaxud müttəhimin hakimin qənaətinə təsir etmək üçün əsaslandırdığı isbat vasitələrindəndir. Əqli və şəri olmaqla yanaşı, qəti və zənni növlərinə ayrılır. Dəlalət etdiyi mənada qətilik meydana gətirib, hər hansı bir ehtimalı ehtiva etməyən, yaxud zənn ehtimallarını aradan qaldıran dəlilə "qəti dəlil" deyilir. Dəlalət etdiyi mənada müəyyən ehtimalları da ehtiva edən dəlilə "zənni dəlil" deyilir. Dəlilin qüvvətli olub-olmaması baxımından mənanın bu xüsusiyyətinə görə hənəfilik fərz və vacib hökmlərini bir-birindən ayırır. Buna görə hənəfilər Quran və sünnədə yerinə yetirilməsi (dəlalət baxımından) qəti tərzdə tələb edilən əmrə "fərz", Quran və sünnədə yerinə yetirilməsi dəlalət baxımından zənni olaraq tələb edilən əmrə isə "vacib" demişlər. Qalan digər məzhəblərə görə isə hər iki məna dəlalət baxımından vacib hesab edilir.

**DƏM (الدم):**

Dini terminologiyada "dəm" sözünün iki mənası var: 1) Qurbanlıq heyvanlardan xırdabuynuzluları (qoyun və keçi cinsini) ifadə edən fiqh termini; 2) Sufinin (salikin) yaşadığı anı və zamanı ifadə edən təsəvvüf termini. Sufi keçmişin şübhələri və gələcək haqqında güman və tərəddüdlərini bir kənara qoyaraq anı yaşamalıdır. Həmin an "dəm" adlanır. Nəqşbəndilikdə salikin, aldığı hər nəfəsdə qəflətdən uzaq olması və Xaliqi unutmaması mənasında "xuş dər dəm" deyilir.

**DƏSTƏMAZ (الوضوء):**

İbadətləri yerinə yetirmək üçün şərt olan təmizlik. Dəstəmaz üzün, qol-

ların, başın və ayaqların yuyulması və ya məsh edilməsidir. Namaz qılmaq, Kəbəni təvaf etmək, Quran oxumaq və tilavət səcdəsi etmək üçün dəstəmaz almaq lazımdır. Dəstəmaz Quran tərəfindən əmr olunmuş mənəvi təmizlik vasitəsidir.

**DƏVƏRAN/DÖVRAN (الدوران):**

Dövr etmək, fırlanmaq, dairəvi şəkildə hərəkət etmək.

**DƏVƏT (الدعوة):**

İslam dinini yaymaq və müsəlmanları dini vəzifələrini yerinə yetirməyə cəlb etmək üçün istifadə olunan termin. Məhəmməd peyğəmbər bütün Ərəbistan yarımadasını əhatə etməklə 22 il boyunca məntiqli, sistemli və mövcud şəraitə uyğun dəvət metodu tətbiq etmişdir. Bu metod hazırlıq, müvafiq kadrların yetişdirilməsi, kütlələrə xitab etmə və dövlətləşmə proseslərini əhatə etmişdir. Məhəmməd peyğəmbərin dəvət metodunun uğurunun əsl səbəbləri arasında onun dəvət etdiyi dinə səmimi inancı, onu, ilk növbədə, öz həyatında tətbiq etməsi, dəvət etdiyi insanların xüsusiyyətlərini diqqətə alması, şəxsi mənfəət güdməməsi kimi faktorlar mühüm rol oynamışdır.

**DHARMA.**
**Bax: KARMA.**

**DİALOQ (dialogue):**

İki və ya daha çox şəxs arasında aparılan danışıq, mükalimə. Dinlərarası dialoq geniş mənada müxtəlif dinlərə mənsub insanlar arasında əməkdaşlıq, dözümlülük və konstruktiv münasibətlərin inkişafına çağırış edən mütərəqqi ideya kimi nəzərdən keçirilir. Dinlərarası dialoqun məqsədi dində ortaq cəhətləri əsas götürərək alternativ, sinkretik din yaratmaq deyil, daha çox fərqli dinlər və inanclar arasında qarşılıqlı anlaşma və tolerantlığın artırılması, din sahəsindəki problemlərin sülh şəraitində müzakirəsinə nail olmaqdır. Dinlərarası dialoq anlayışı ilk dəfə II Vatikan Kilsə Məclisi (1962-1965) çərçivəsində katolikliyin başqa dinlərə qarşı münasibətdə yeni missiyası kimi müəyyənləşdirilmişdir. Dinlərarası dialoq məsələsi digər dini ənənələrdə də müsbət qarşılanmış və dinlərarası münasibətlərin qarşılıqlı anlaşma istiqamətində inkişafı yüksək qiymətləndirilmişdir.

**DİFERENSİASİYA (differentation):**

Bir nəsnənin ayrı-ayrı müxtəlif ünsürlərə ayrılması, parçalanması. Sosiologiyanın əsas anlayışlarından biri olan diferensiasiya (yaxud institusional diferensiasiya) əmək bölgüsü, ictimai institutların fərqliləşməsi və hər birinin ayrı, ixtisaslaşmış funksiyaları yerinə yetirməsini nəzərdə tutur. Bu prosesə "institusional diferensiasiya" da deyilmişdir. İnstitusional diferensiasiya müasir cəmiyyətin səciyyəvi cəhətlərindən birini təşkil edir.

**DİQAMBARA:**

Sanskritcə "göyə bürünmüş", "çılpaq" mənasını verir. Caynizmin "Svetam-

bara" (Ağgeyimlilər) məzhəbindən fərqli olaraq, "Diqambara" (səmageyimlilər) məzhəbinin kişi rahibləri, dünyaya dəyər verməməyin göstəricisi olaraq geyimdən imtina edir.

**DİN (religion):**

Sosiologiya elmində dinin mahiyyətinə dair nəzəriyyələr din fenomenini, əsasən, iki baxımdan – din strukturunun əsas elementləri və dinin cəmiyyətdəki rolu və funksiyası əsasında izah etməyə çalışır. Dinin strukturu üç formada təzahür edir: 1) fövqəltəbii varlığa inam; 2) dini fəaliyyət; 3) dini təşkilatlar. Başqa sözlə, din fövqəltəbii qüvvələr və ya varlığa etiqad etmək, bu fövqəltəbii varlığa sitayiş etməkdən ibarət olan ayinləri yerinə yetirmək, dini mərasimlərdə iştirak etmək, nəhayət, dini birliklər və dini qruplar meydana gətirməklə özünü ifadə edir. Dinin mahiyyətinə dair sosioloji təriflərin bəzi nümunələrini nəzərdən keçirək. İngilis antropoloqu E.B.Teylor (1832-1917) dinin mahiyyətini "ruhani varlıqlara inanmaq" kimi xarakterizə etmişdir. Burada "ruhani varlıqlar" ifadəsi insanların idrakının fövqündə duran, fövqəltəbii güclərə malik olan ruhani varlıqlar (tanrı, mələk və s.) kimi başa düşülür. İngilis antropoloqu Rudolf Otto (1869-1937) dini "müqəddəs (sacred) olanın təcrübə edilməsi" şəklində xarakterizə edir. Ona görə, din insanın müqəddəs qəbul edilən varlıqla qarşılıqlı əlaqəsindən ibarətdir. Dinin sosioloji nəzəriyyəsini hazırlamaqda böyük xidmətləri olmuş görkəmli fransız sosioloqu Emil Dürkheym (1858-1917) hesab edir ki, "din müqəddəs varlıqla bağlı inamlar və ayinlərdən ibarət olan, inananları mənəvi birlik və ya dini qrupda birləşdirən, beləliklə, ictimai həmrəylik yaradan sistemdir". Bu tərifdə dinin mahiyyəti izah olunmaqla yanaşı, onun insanları mənəvi bağlarla birləşdirmə funksiyası da qeyd edilir. Beləliklə, Emil Dürkheym öz din tərifində dinin mahiyyəti ilə əlaqəli substantiv və dinin ictimai rolunu əks etdirən funksional xüsusiyyətləri birləşdirmişdir.

**DİN FƏLSƏFƏSİ (philosophy of religion):**

Dinə fəlsəfi baxışdır. Din fəlsəfəsinin əsas vəzifəsi teologiya və dinə fəlsəfi yanaşmadır. Din fəlsəfəsi din haqqında fəlsəfi düşüncə deməkdir. Dini fəlsəfə isə din çərçivəsində meydana gəlmiş fəlsəfəyə deyilir.

Din fəlsəfəsi dini etiqad və inancları fəlsəfi şəkildə araşdırır. Başqa sözlə, din fəlsəfəsi rasional ilahiyyatın davamıdır. Fəlsəfənin bu sahəsi vəhyə əsaslanan ilahiyyatdan fərqli olaraq, dinə əqli baxımdan yanaşır. Din fəlsəfəsi din və fəlsəfənin inteqrasiyasından yaranır. Din fəlsəfəsi, həmçinin hər hansı bir dinə aid olan mövzuların arxasında dayanan düşüncə və arqumentləri də araşdırır.

**DİN PSİXOLOGİYASI (psychology of religion):**

Dini inanc və dini fəaliyyətin insan psixikasına təsirini öyrənən elm

sahəsi. Din psixologiyasının predmetini dini inancların psixoloji funksiyaları, dini inancı şərtləndirən amillərin müəyyənləşdirilməsi, dini təcrübənin mahiyyəti, din dəyişdirmənin sosial-psixoloji səbəbləri, ruhi sağlamlıqla din arasındakı əlaqə və s. mövzular təşkil edir. Din psixologiyasının müstəqil elm kimi formalaşmasında U.Ceyms, Z.Freyd, K.Q.Yunq kimi psixoloqlar mühüm rol oynamışlar. Onların din və psixi proseslər haqqındakı nəzəri və metodoloji mülahizələri Din psixologiyasının əsasını meydana gətirmişdir.

**DİN SOSİOLOGİYASI (sociology of religion):**

Din və cəmiyyət münasibətlərini sosiologiyanın metodologiyası əsasında öyrənən elm sahəsi. Din sosiologiyası dinşünaslığın sahələrindən biri olub, din-cəmiyyət münasibətlərini, müasir cəmiyyətdə dinin yeri və funksiyasını, dinin ictimai institutlarla qarşılıqlı əlaqələrini, habelə dini qrupların fəaliyyətini və strukturunu tədqiq edir.
Din sosiologiyası XIX əsrdə Avropada yaşamış O.Kont, E.Dürkheym, K.Marks və M.Veber kimi dinşünaslığa maraq göstərən alimlərin din və cəmiyyət münasibətlərinə dair apardıqları tədqiqatlar nəticəsində yaranmışdır. Müasir dövrdə din sosiologiyası dinşünaslığın aparıcı sahələrindən biridir. Belə ki, din sosiologiyası sahəsində müxtəlif tədqiqatlar aparılır, dünyanın qabaqcıl universitetlərində dinşünaslıq istiqamətində müstəqil fənn kimi tədris edilir.

**DİN (الدين):**

Latınca “religio”/“religion”, sanskritə “dharma”, palicə “dhamma”, çincə “chung chiao”, yaponca “şinto” kimi fərqli mədəniyyətlərdə müxtəlif sözlərlə ifadə olunan “din” Qurani-Kərimdə yaradan və yaradılmış arasındakı münasibətləri tənzimləyən qanun, nizam və yol üçün istifadə olunmuşdur. Dinlər tarixində dinə Tanrı məfhumu, ruhi təcrübə, metafizik varlıqla münasibət, ibadət və inanc kimi müxtəlif faktorların önə çıxarıldığı çoxsaylı təriflər verilmişdir. Bu təriflərdə üzərində durulan ortaq cəhətlərə görə, din insanın Tanrı, metafizik aləm və yaxud müqəddəsə dair hiss, düşüncə və davranışlarının məcmusudur.

**DİNAR (الدينار):**

İslam dünyasında qızıl pul vahidi üçün istifadə olunan termin. Latınca “denarius” kökündən gələn dinar Bizans imperatorluğunda pul vahidi kimi istifadə olunmuş, islamaqədərki dövrdə Suriya ilə iqtisadi münasibətlər vasitəsilə Qüreyş qəbiləsi tərəfindən də istifadə edilmişdir. İslam dövlətinin pul vahidi kimi ilk orijinal dinar Əməvi xəlifəsi Əbdülməlik ibn Mərvanın hakimiyyəti dövründə 696-cı ildə zərb edilmişdir. Müasir dövrdə də dinar Əlcəzair, Tunis, İordaniya, Liviya, İraq, İordaniya, Yəmən və Küveyt kimi ölkələrin pul vahidinin adı kimi qalır.

**DİNGİR:**

Şumer dilində “ilah”, “ilahi” və yaxud “səmavi” mənasında istifadə olunan termin.

**DİNİ QRUP (religious group):**

Dini qruplar sosial qrupların elə bir növüdür ki, orada qrup üzvləri, sadəcə, dini məqsədlərə görə birlik yaradırlar. Sosioloqlar dini qrup tiplərini iki qismə ayırırlar – bunlar təbii dini qruplar və sırf dini qruplardır. Təbii dini qruplara evlilik, qohumluq, qonşuluq və digər təbii əlaqələrlə bir-birlərinə bağlı olan və eyni zamanda, dini cəhətləri də mövcud olan ailə, klan, qəbilə, kənd və şəhər kimi ictimai birliklər daxil edilir. Üzvləri bir-birinə bağlayan əlaqələrin, sadəcə, din olduğu birliklərə isə sırf dini qruplar deyilir. Sırf dini qruplara bunlar daxildir: gizli dini təşkilatlar, dini konfessiyalar, məzhəblər, sektalar, kultlar, dini qardaşlıqlar, asketik hərəkatlar, sufi ordenləri. Dini qruplar, ümumilikdə, sosial qrupların bütün xüsusiyyətlərini özündə əks etdirir. Dini qrupların əsas növlərindən birini məzhəblər təşkil edir. M.Veber və E.Troltç məzhəbi (denomination, sect) təşkilatlanmış dini birlikdən (kilsədən) fərqli, müqaviləyə əsaslanan dini qrup kimi xarakterizə etmişdir. Bununla belə, kilsə ilə məzhəb arasında kəskin fərqlər mövcud deyil və başlanğıcda məzhəbçi olan bəzi dini birliklər kilsəyə çevrilə bilər. Sosioloji baxımdan məzhəblər əsas dini cərəyandan ayrı olmayan – “ortodoks” və əsas cərəyandan ayrılan – “heterodoks” olmaqla iki qismə bölünür. Məsələn: Xristianlıqda əsas dini cərəyan sayılan kilsədən qopmuş dini qruplar “denominasiyalar” (denominations) və “sektalar” (sects) terminləri ilə ifadə edilir. Dini qrupların digər növünü təşkil edən kultlar sektalara bənzər surətdə cəmiyyətin inanc və dəyərləri ilə uzlaşmayan kiçik qruplara deyilir, lakin bunlar təşkilati bir formanın olmaması, müvəqqəti, mistik və fərdiyyətçilik baxımından əvvəlkilərdən fərqlənir. Kulttipli dini qruplar yeni dini hərəkatların meydana çıxmasının ilk nümunəsi hesab edilir. Kultlar ezoterik və sinkretik xüsusiyyətlərə malik olduqlarına görə, cəmiyyətin əksəriyyəti tərəfindən qəbul edilməyən, amma yüksək fəallığı ilə seçilən dini qruplardır.

**DİNİ PLÜRALİZM:**

Dinlərin çoxluğuna müsbət yanaşan və həqiqətin yalnız bir dinə məxsus olmadığını irəli sürən nəzəriyyədir. Plüralizmə görə, din sahəsində yaranan çoxluq təbii bir hadisədir. Bu, insanın idrak mexanizminin tələbidir. Həqiqətin çox cəhətli anlayışdır. Allahın hidayət bəxş etmə xüsusuiyyəti ilə insanların səadət axtarma xüsusiyyəti üst-üstə düşür. Əsas məsələ həqiqət və həqiqətin dərki ilə bağlıdır. Dini plüralistlərə görə, vahid həqiqət yoxdur, əksinə, çoxlu həqiqətlər mövcuddur. Bu da reallığın çoxprizmalı, çoxdərəcəli olmasından irəli gəlir. Məhz bu səbəbdəndir ki, doğruluğu

və yanlışlığı mümkün olan çoxsaylı və fərqli inanclar yaranıb. Burada həqiqət mütləq haqq deyil, əksinə, "nisbi həqiqət" kateqoriyasındandır. "Haqlılıq iki əsasa – "doğruluq" və "zəka"ya bağlıdır. Yəni, hər hansı bir müddəa bir nəfər tərəfindən haqq sayılırsa, mənası budur: 1) müddəanı doğru bilir; 2) obyektiv metodla kəşf edib, yaxud müddəanın doğruluğu ilə inamını obyektiv surətdə müdafiə edə bilir. Nəticədə, bu etiqad rasional və məqbuldur. Dini plüralizmin banisi Con Hikdir (1922-2012). O, Kantın "noumen" və "fenomen", yəni "həqiqətin özü" və "bizə görünən forması" təsnifatından çıxış edərək, "özündə həqiqət" və "fərdlərin qavradığı həqiqət" anlayışlarını irəli sürmüşdür. Ona görə, həqiqət məfhumu haqqında müxtəlif dünyagörüşlərində bir-birindən fərqli fikirlərin mövcud olması, həqiqətə heç kimin tam mənada çata bilmədiyini göstərir. Deməli, "özündə həqiqət noumendir və onu dərk etmək mümkün deyildir. İnsanlar ancaq fenomeni, yəni həqiqətin təzahür formalarını qavraya bilər. Bu baxımdan, Yahvə, Səmavi Ata və Allah anlayışları ilahi həqiqətin tarixdəki müxtəlif təcəlliləridir və hamısı da doğrudur, çünki eyni həqiqətin təzahür formalarıdır".

**DİNİ RASİONALİZM (religious rationalism):**

Dinin yalnız məntiqin və zəkanın arqumentləri ilə uyğun olan ehkamlarını məqbul hesab edən cərəyan. Dini rasionalizmə əsasən, yalnız o müddəanı ağılla qəbul etmək olar ki, onun doğruluğu bütün zaman və məkanlarda bütün ağıl sahibləri üçün isbat olunsun. Bu cərəyana görə, məhz bu meyar əsasında dini inanclar sisteminin qəbulu ağlabatandır. Nə mömin şəxsin qərarı, nə hiss və emosiyaları, nə də başqa bir şey imana bəraət qazandırır. İmanı əsaslandırmanın yeganə yolu onun maksimum (yəni bütün ağıl sahibləri üçün bütün zaman və məkanlarda) isbatıdır.

**DİNİ TƏCRÜBƏ (religious experience):**

Dini təcrübə dedikdə, yalnız qeybə aid sahələr yox, həm də insanın dünyaya aid etiqadla bağlı düşüncə və əməlləri nəzərdə tutulur. Peyğəmbərlərin həyatına nəzər saldıqda, dini təcrübədə faydalı ola biləcək nöqtələr müşahidə olunur. Dini təcrübənin bir neçə növü fərqləndirilir: 1. Bütün etiqadlı insanların təcrübələri: dua, münacat, tövbə və s. 2. Bəzi təcrübələri isə yalnız "seyrü süluk", "nəfsin tərbiyəsi" kimi yollarla əldə etmək olur. Bu təcrübələr etiqad yolu ilə qazanılmır. Uilyam Ceyms kimi mütəfəkkirlər isə dini təcrübənin daha geniş mənaya malik olduğunu düşünürlər. Onların nəzərincə, dini təcrübənin beş xüsusiyyəti var: 1. Hadisəni canlı dərk etmək. 2. Hadisəni dərindən hiss etmək. 3. Onun əqli arqumentlərdən asılı olmaması. 4. Vasitə ilə ötürülməməsi. 5. Dini təcrübənin xüsusi olması. Bu mənada,

"dini təcrübə" dedikdə, hadisəni ruhən dərk etmək başa düşülür. Əslində, təcrübə o zaman dini olur ki, təbiətüstü tərəfə bağlı olsun. Təcrübədə hiss olunan fövqəltəbii qüvvədirsə, bunu dini təcrübə saymaq mümkündür. Digər tərəfdən, dini təcrübəni yaşayan insan onun vəsfində, əsasən, dini terminlərdən istifadə edir. "Dini təcrübə" deyəndə, insanın dini və mənəvi həyatındakı təcrübələr nəzərdə tutulsa da, günah hissi, mərhəmət, şükür kimi hallar da dini təcrübədəndir. Fəlsəfənin dini təcrübəyə baxışı məhduddur. Bu məfhumu araşdıranların nəzərincə, ibadət edən hər insan dini təcrübə yaşayır.

**DİNŞÜNASLIQ (religious studies):**

Müasir sosial elmlərin bir sahəsi kimi, dinşünaslıq dini obyektiv elmi əsaslara görə öyrənən dünyəvi elmdir. Dinşünaslıq dini inancları, dini fəaliyyəti və dini birlikləri tarixi-müqayisəli, interpetativ və analitik metodlarla araşdıran elm sahəsidir. Dinşünaslıq dini sosial bir institut kimi çoxyönlü tədqiqat etməsi ilə səciyyələnir: din sosiologiyası, din antropologiyası, din psixologiyası, din fenomenologiyası, dinlər tarixi və s. dinşünaslığın əsas istiqamətlərini təşkil edir.

**DİRAYƏT TƏFSİRİ (التفسير بالدراية):**

Təkcə rəvayətlərə deyil, həm də ərəb dili və ədəbiyyatına, dini, fəlsəfi və digər elmlərə aid biliklərin sintezinə, rəy üsuluna əsaslanan təfsir növü. Burada "rəy" sözü ilə əqli mühakimə, ictihad nəzərdə tutulur. Bu metodla edilmiş təfsirə "rəy təfsiri" də deyilir. Bu təfsir növünü rəvayət təfsirindən fərqləndirən ən mühüm xüsusiyyət müfəssirin Quran ayələrini təfsir edərkən özünün subyektiv iddialarına istinad etməsidir.

**DİVALİ (DİPALİ):**

Hinduizmdə işıq festivalı kimi qeyd olunan bayram. Hindistan və Nepalda bütün hindu kastalarının iştirakı ilə qeyd olunan bayram altı gün davam edir. Bayram boyu xoşbəxtlik ilahəsi Lakşminin şərəfinə evlər və küçələr işıqlarla bəzədilir.

**DİVAN (ديوان):**

İslam dövlətlərində rəsmi qərarların verildiyi dövlət qurumu üçün istifadə olunan termin. İslam dünyasında ilk dəfə Raşidi xəlifələr dövründə fəaliyyətə başlayan divan təşkilatı, II xəlifə Ömər ibn Xəttabın vergi gəlirlərinə, xəzinənin fəaliyyətinə və ordunun qeydiyyatına nəzarət etmək məqsədilə qurulmuşdur. Əməvilər dövründə vergi, arxivləşdirmə, poçt daxil olmaqla divan təşkilatının müxtəlif sahələri təsis və inkişaf etdirildi. Xüsusilə Abbasilər dövründə hərbi və maliyyə başda olmaqla, idarəetmənin müxtəlif istiqamətlərinin divan təşkilatı genişləndirildi və vəzirlik qurumu vasitəsilə mərkəzi idarəetmədə mühüm rol oynadı. Divan təşkilatı Abbasilərdən sonra qurulmuş İslam dövlətlərində də mühüm idarəetmə qurumu olaraq fəaliyyət göstərdi.

**DİYƏ (دية):**

İslam cinayət hüququnda öldürmə, yaxud yaralama nəticəsində zərərçəkənə, yaxud onun varislərinə, bir növ, təzminat mahiyyətində ödənilməli olan mal və pul. Diyənin miqdarı öldürmənin xüsusiyyətinə və ya yaralanan üzvə görə müxtəlifdir.

**DOQMA (dogma):**

"Doqma" – "ehkam" (yunanca "dogma" – "fikir, təlim, qərar"); bütün vəziyyətlərdə dəyişməyən, həqiqətin pozulmazlığı üçün qəbul edilmiş müddəa və anlayış. Prinsiplərin dəyişilməzliyini müdafiə edir.

**DOQMATİZM (dogmatism):**

Doqmalara, ehkamlara əsaslanan qeyri-tənqidi təfəkkür; ehkamçılıq. Fəlsəfi doqmatizm doqmaları dəyişməyən dəqiq biliklər və apriori həqiqətlər kimi qəbul edərək, ağlın mütləq həqiqətə çatmasının mümkün olduğunu müdafiə edir. Doqmatizm septisizmin əksidir. Öz fikir və iddiasının mütləq həqiqət olduğunu irəli sürən hər insan və hər sistem doqmatikdir.

**DÖRD SƏBƏB NƏZƏRİYYƏSİ (العلل الاربعة):**

Aristotelin (e.ə. 384-322) varlıqların mövcud olma səbəblərini açıqlayan "determinizm" anlayışının adı. Bu anlayışa görə, varlıqları ortaya çıxaran dörd səbəb mövcuddur. Bunlar maddi, formaverici, hərəkətetdirici və qayə səbəbləridir. Bu səbəblərin hər birinə dair izah isə belədir: a) Maddi səbəb (əl-illət əl-heyulaniyyə/the material cause): Hər hadisənin maddi bir səbəbi var. Məsələn: bir bitkinin böyüməsinə səbəb olan maddi səbəblər hava, istilik, işıq kimi predmetlərdir; b) Formaverici səbəb (əl-illət əs-suriyyə/the formal cause): Bir nəsnənin dəyişmə prosesində aldığı şəkil və qazandığı formadır. Yuxarıdakı misala görə, həmin səbəb bitkinin toxumunda gizli olandır; c) Hərəkətetdirici səbəb (əl-illət əl-failiyyə/efficent cause): Meydana gələn hər bir hadisəni ortaya çıxaran, yəni onu mümkün haldan reallığa daşıyan hərəkət vardır. Bitkinin meydana gəlməsi misalını nəzərə alsaq, burada hərəkətverici səbəb reallıqda toxumu meydana gətirən daha əvvəlki bitkidir; d) Qayə səbəbi (əl-illət əl-qaiyyə/the final cause): Nəhayət, hər hadisənin nail olmaq istədiyi bir hədəfi vardır. Bu qayə də bir səbəbdir. Aristotelin bitki nümunəsində gördüyümüz kimi, o, aləmi davamlı bir meydana gəlmə və inkişaf halında qəbul etmişdir. Bu meydana gəlmə hadisəsinin bünövrəsində əvvəlcə maddə var. Saf maddəni tapmaq mümkünsüzdür. Bizim qarşılaşdığımız nəsnə daim formaya malik bir maddədir. İlk maddə (saf maddə) hər növ keyfiyyətdən uzaqdır. Maddənin qarşısında aləmə şəkil verən güc vardır. Həmin güc həm də aləmin meydana gəlməsinə səbəb olan gücdür. Aləmə forma verən və onu hərəkətə gətirən güc Tanrıdır. Yaradılışın başlanğıcında olan Tanrı sonunda

da mövcuddur. Aləmdəki meydana gəlmənin, yəni hər obyektin hədəfi Tanrıya qovuşmaqdır.

**DÖVR (الدور):**

Lüğəvi mənası "Dairəvi hərəkətlə dönmək, dolanmaq" deməkdir. Terminoloji mənada isə "iki mümkün varlıqdan hər birinin digərinin mövcudluğunun səbəbi olması"dır. Allahın varlığını isbat etmək üçün kəlam elmində işlədilən hüdus və İslam fəlsəfəsində işlədilən imkan dəlilinə dair müzakirələrdə dövr məsələsinə toxunulur. Kəlam alimləri dövrün mümkünsüzlüyünü isbat etməyə çalışıblar.

**DRAVİDYEN:**

Cənubi Hindistanın arilərdən əvvəlki yerli xalqı və mədəniyyəti üçün istifadə olunan termin.

**DUALİZM (dualism):**

"İkilik". Təbiətdə, yaxud hər hansı sistemin əsasında mütləq mənada bir-birindən fərqli iki prinsipin olduğunu qəbul edən nöqteyi-nəzər. Məsələn: xeyir və şər, materiya və ruh, ruh və bədən. Platonun maddə və xəyal aləmi nəzəriyyəsi, Kantın numen və fenomen anlayışı, Aristotelin qüvvə və feil fikirləri dualist nəzəriyyələr sırasındadır. Zərdüştilikdəki Hürmüz və Əhrimən dindəki dualizmin açıq nümunəsidir. Dualizmin ziddini monizm – varlığın bir şeydən meydana gəldiyini qəbul edən fəlsəfi nəzəriyyə təşkil edir.

**"DUXAN" SURƏSİ (سورة الدخان):**

Quranın 44-cü surəsi. 59 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surənin adı 10-cu ayədə keçən və "duman" mənasına gələn "duxan" sözündən götürülmüşdür. Surədə Kitaba və peyğəmbərə inanmanın əhəmiyyəti, inanmayanların dünya və axirətdə qarşılaşacaqları sıxıntılar, iman edib pis işlərdən uzaq duranların əbədi səadətə qovuşacaqlarından bəhs edilir.

**DÜNYƏVİLƏŞMƏ (secularization). Bax: SEKULYARİZASİYA.**

**DÜNYƏVİLİK (secularism):**

"Dünyəvilik" hüquqi bir termin kimi, hökumət və qanunvericiliyin dini təlimlərə söykənməməsi ideyasına əsaslanan konsepsiyanı nəzərdə tutur. Geniş mənada isə dünyəvilik, həmçinin cəmiyyətin və dövlət institutlarının dinin təsirindən azad edilməsi kimi başa düşülür. Dünyəviliyin sonuncu, yəni geniş mənada işlənməsini sekulyarizasiya (dünyəviləşmə) kimi ifadə etmək daha məqsədəuyğundur. Ümumiyyətlə, dünyəvilik normativ bir termin olub, siyasi-hüquqi mənaları ehtiva edir. Bu termin dövlət və din münasibətlərinin tənzimlənməsində mühüm bir prinsip kimi çıxış edir. Dünyəvilik konsepsiyasının mühüm elementlərini dövlətin dindən ayrılığı, qanunvericiliyin dindən asılı olmaması, dini etiqad azadlıqlarının təminatı, dövlətin bütün dinlərə bərabər münasibəti

təşkil edir. Həmçinin qeyd edilməlidir ki, dünyada dünyəviliyin müxtəlif modelləri mövcuddur. Dünyəviliyin təsnifatında ictimai sferada dinin fəaliyyətinə geniş imkan verən “passiv dünyəvilik” modeli və dinin cəmiyyətdə fəaliyyətinə mənfi münasibət bəsləyən, buna görə də ictimai sferada dinin fəaliyyətini məhdudlaşdıran “eksklüzivist dünyəvilik” modeli bir-birindən fərqləndirilir. Digər tərəfdən, dini etiqad azadlığını təmin edən dünyəvilik modeli “liberal dünyəvilik”, dini etiqad azadlığını təmin etməyən dünyəvilik modeli isə “marksist dünyəvilik” kimi xarakterizə edilir.

**DÜRZİLİK (الدرزية):**

Fatimi xəlifəsi Hakim Biəmrillahın dövründə (996-1021) vəzir Həmzə ibn Əlinin formalaşdırdığı din. Dürzilik ismaililikdən ayrılaraq müstəqil din halına gəlmişdir. “Dürzi” adı, böyük ehtimalla, bu dinin formalaşmasında mühüm rol oynayan Anuştəgin (Neştəkin) əd-Dərəzinin nisbəsindən gəlir. Bəzi tədqiqatçılar türkəsilli Anuştəginin dərziliklə məşğul olduğunu və nisbəsindəki “dərəzi” sözünün də “dərzi” kəlməsinin təhrif olunmuş variantı olduğunu iddia edirlər. Dürziliyin əqidə və əmələ dair əsasları 4 qrupa ayrılır: Fatimi xəlifəsi Hakim Biəmrillahın (985-1021) tanrı olduğunu qəbul etmək. Hülulu (inkarnasiya) qəbul edən dürzilərə görə, tanrı müxtəlif varlıqlarda təcəssüm edə bilər. Onlara görə, Hakim Tanrının təcəssüm etdiyi şəxs olmaqla, həm insan, həm də tanrıdır. 1. Əşyanın ilk səbəbi (illət), yaradılışın əsli olan “əmr”i, yəni Həmzə ibn Əlini bilmək. 2. Həmzə ibn Əlinin köməkçiləri olmuş “hüdud” və ya “vəzir” adı verilən şəxsləri tanımaq. 3. “Yeddi əsası” (“əl-vəsaya əs-səb” və ya “əl-xisal əs-səb”) bilmək. Bu əsaslar belədir: 1. Doğru danışmaq (sidq əl-lisan - صدق اللسان). 2. Din qardaşını qorumaq (hifz əl-ixvan – حفظ الإخوان). 3. Var olmayana ibadət etməmək (tərk ibadət əl-ədəm vəl-bühtan – ترك عبادة العدَم والبهتان). 4. İblislərdən və azğınlardan uzaq durmaq (əl-bəraət min əl-əbalisə vət-tüğyan – البراءة من الأبالسة والطغيان). 5. Bütün dövrlərdə “ağamız”ın (Hakim Biəmrillahın) vahidliyini (tanrılığını) mənimsəmək (ət-tövhid li-mövlana fi küll əsr və zəman –التوحيد لمولانا في كل عصر وزمان). 6. Necə olmasından asılı olmayaraq, Hakimin hərəkətləri ilə razılaşmaq (ər-riza bi-fe`l mövlana keyfə ma kan -الرضى بفعل مولانا كيف ما كان). 7. Bütün hallarda Hakimin əmrinə təslim olmaq (ət-təslim li-mövlana fis-sirr vəl-hidsan - التسليم لأمر مولانا في السر والحدثان). Hazırda dünyada dürzilərin sayı 1 milyondan çoxdur. Bunlardan, təqribən, 700 mini Suriyada, 250 mini Livanda, 143 mini isə İsraildə yaşayır. Dürzilərin siyasi baxımdan ən güclü olduğu ölkə Livandır. Dürzilik dininin mənsubları etnik baxımdan ərəbdirlər.

# E

**ECAZİ-XİTABİ (الإعجاز الخطابي):**

Qurani-Kərimin eyni anda müxtəlif təbəqələrdən olan insanlara xitab etməsi. Belə ki, istənilən şəxsin Qurani-Kərimi oxuyub-anlaması üçün din elmləri üzrə mütəxəssis olmasına ehtiyac yoxdur. İstər alim olsun, istər olmasın, hər kəs Qurani-Kərimi oxuyub onun əsas tələblərini başa düşə bilər. Quranın bu xüsusiyyətindəki ecazkarlıq ondan ibarətdir ki, hər kəs ondan öz səviyyəsinə uyğun olaraq bilik, öyüd-nəsihət və ibrət götürə bilər.

**ECAZİ-QEYBİ (الإعجاز الغيبي):**

Qurani-Kərimin insanlar tərəfindən bilinməsi mümkün olmayan xəbərləri ehtiva etməsi. Qurani-Kərim insanlara həm keçmişə aid, həm nazil olduğu dövrə aid, həm də gələcəyə aid qeyb xəbərlərini çatdırmışdır. Məsələn: peyğəmbərliyin ilk illərində Sasanilər tərəfindən məğlub edilən Bizansın yaxın zamanlarda qələbə qazanacağı "Rum" surəsinin 1-5-ci ayələrində bildirilmiş və ayələrin nazil olmasından yeddi il sonra Sasanilər Bizansa məğlub olmuşlar.

**ECAZİ-QURAN (اعجاز القرآن):**

Qurani-Kərimin misilsiz üstünlüyünü ifadə edən termin. Bu sahədə yazılmış əsərlərin ortaq adı. Oxşarını gətirə bilməmək barəsində Quranın insanları aciz qoyması, möcüzə olması. Lüğəvi mənası "gücü çatmamaq" olan "əcz" kökündən törəmiş "ecaz" sözü "aciz qoymaq" deməkdir. Quranın sahib olduğu ədəbi üstünlük və məna zənginliyi baxımından bənzərinin meydana gətirilə bilməməsini ifadə edir. Quranın bu xüsusiyyəti, eyni zamanda, Həzrət Məhəmmədin həqiqi peyğəmbər olduğunu sübut edir. Həzrət Peyğəmbərin peyğəmbərliyini inkar edənlər istədikləri təqdirdə, Qurana bənzər sözlər söyləyə biləcəklərini iddia etmiş ("Ənfal" 8/31) və Peyğəmbərdən öz doğruluğunu isbat edəcək möcüzə istəmişlər. Onlara Quranın yetərli bir möcüzə olduğu bildirilmiş ("Ənkəbut" 29/50-51) və əgər gücləri çatırsa, Quran kimi bir əsər meydana gətirmələri istənilərək onlara meydan oxunmuşdur ("Bəqərə" 2/23-24; "Yunus" 10/37-39; "Hud" 11/13; "İsra" 17/86-88).

**ECAZİ-NƏZMİ (الإعجاز النظمي):**

Qurani-Kərimin nəzm baxımından ecazkarlığı. Qurani-Kərimin 23 il ərzində nazil olmasına baxmayaraq, onun nəzmində böyük bir ecazkarlıq diqqəti cəlb edir. Hərflərin, sözlərin, ayələrin və surələrin düzülüşü baxımından, Qurani-Kərimdə mükəmməl

bütünlüyün olması, ilk enən ayələrlə son enən ayələrin üslub etibarilə bir-birinə uyğunluğu onun nəzm yönündən ecazkarlığını göstərir.

**EKUMENİZM (ecumenism):**

Xristian kilsələri və müxtəlif məzhəblər arasında ümumdünya xristian birliyi və yaxın əməkdaşlığa təşəbbüs göstərən dini hərəkatlar və tendensiyaları ifadə edən termin. Daha geniş mənada, müxtəlif dinlər arasında əməkdaşlıq və dialoq mənasında işlədilir.

**ERABİ-QURAN (إعراب القرآن):**

Quran ayələrini sintaktik quruluş baxımından tədqiq edən elm sahəsi və bu sahədə yazılan əsərlərin ortaq adı. Lüğətdə "bir şeyin əslini və həqiqətini meydana çıxarmaq, açıqlamaq" mənasına gələn "erab" kəlməsi termin olaraq, "ərəb dilinin sintaktik xüsusiyyətlərini araşdırmaq" deməkdir. Erabi-Quran ifadəsi ilə Quranın sonrakı nəsillər tərəfindən düzgün şəkildə başa düşülməsi və onlara xətasız şəkildə çatdırılması məqsədilə həyata keçirilən nöqtələmə və hərəkələmə fəaliyyəti kimi, Quranın qorunması ilə əlaqəli qaydalar toplusu nəzərdə tutulur.

**ESXATOLOGİYA (eschatology):**

Dünyanın sonu, axirət həyatı və insanın aqibəti haqqında dini təlimlərin məcmusu. Esxatoloji təlimlər ibrahimi dinlərin (İuadizm, Xristianlıq və İslam) mühüm tərkib hissəsini təşkil edir. Müasir dövrdə fundamentalist və millenarist dini cərəyanlarda bu təlimlərə xüsusi yer verilir. Xristianlıqda İsanın gəlişi, islamda mehdilik, qiyamət, məhşər və axirət həyatı ilə bağlı mövzular esxatoloji təlimlərin bəzi nümunələrini təşkil edir.

**EYN (العين):**

Hərfən Göz, çeşmə və bulaq mənalarını verir. Fiqh elmində "mövcud, hazır və müəyyən olan mal"a deyilir. Fiqh ədəbiyyatında, adətən, "deyn", yəni "borc" sözünün əksi olaraq, həqiqətən mövcud olub, "sahibinin əlindəki mal" mənasında işlədilir. Sufi ədəbiyyatında "bir nəsnənin Allahın elmindəki surəti"nə də "eyn" deyilir.

**EYNƏLYƏQİN (عين اليقين):**

Müşahidə yolu ilə qəlbin həqiqi vəhdəti görməsi. Göz vasitəsilə əyani görməklə hasil olan həqiqət. "Elməlyəqin", "eynəlyəqin" və "həqqəlyəqin" adları verilən üç "yəqin" mərtəbəsinin ikincisi. Şübhə ehtimalı olmayan bir həqiqətin gözlə görünməsi halıdır.

**EYNİLİK (العينية):**

Əli bin Əbu Talibi Allahdan və Məhəmməd peyğəmbərdən üstün qəbul edən qülat qrupuna verilən ad. Bu qrupun adı "Əli" adının ilk hərfi olan "eyn"dən götürülmüşdür.

# Ə

## "ƏBƏSƏ" SURƏSİ (سورة عبس):

Quranın 80-ci surəsi. 42 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surənin adı ilk ayədəki "üzünü turşutdu, qaşqabaq salladı" mənasını verən "əbəsə" sözündən götürülmüşdür. Rəvayətə görə, İbn Ümmü Məktum adlı gözləri görməyən bir səhabə Həzrət Peyğəmbərin digər insanlarla söhbəti zamanı ondan dinlə bağlı suallar soruşmuşdur. Həzrət Peyğəmbər sözü kəsildiyi üçün narahat olub üzünü turşudunca bu surə nazil olmuşdur. Bəzi mənbələrdə bu ayələrin Həzrət Peyğəmbərin deyil, İbn Ümmü Məktuma üzünü turşudan başqa bir şəxs haqqında nazil olduğu deyilir. Beləcə, surənin ilk 16 ayəsi bu hadisə haqqında nazil olmuşdur. Daha sonra Quranın həqiqəti əks etdirdiyi bildirilir.

## "ƏHQAF" SURƏSİ (سورة الأحقاف):

Quranın 46-cı surəsi. 35 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surənin adının mənası "qum yığınları" deməkdir. Hud Peyğəmbərin dini təbliğ etdiyi sırada Ad qövmünün yaşadığı ərazidir. Surədə Quranın Allah tərəfindən göndərilməsi, Məhəmməd Peyğəmbərin haqq üzrə göndərilməsi, məkkəli müşriklərin Ad qövmündən nəsihət götürmələrindən bəhs edilmişdir.

## ƏHLİ-HƏQQ (أهل حق):

Qərbi İran və İraqın bəzi bölgələrində mövcud olan dini qrup. "Əhli-həqq" sözü "haqq əhli, haqq tərəfdarı" mənasına gəlir. "Əliilahilər", "əliallahilər", "yarsane əhli-həqq" və "goran" da adlandırılan bu qrupun inancları ifrat şiəliklə (qülat) maniheizm, zərdüştilik və hinduizm kimi dinlərin sintezindən ibarətdir. Əhli-həqq məzhəbinə görə, Allah müxtəlif dövrlərdə "həft tən" (yeddi şəxs) adı verilən yeddi müxtəlif şəxs şəklində təcəlli etmişdir. Bu şəxslərdən birincisi, aləmin yaradıcısı kimi qəbul olunan Xavəndeqardır. İkinci şəxs Əli ibn Əbu Talibdir. Ondan sonrakılar isə sıra ilə Şah Xoşin və məzhəbin qurucusu hesab olunan Sultan Sohakdır. Sultan Sohakdan sonrakıların kimliyi barədə məzhəb içərisində ittifaq olmasa da, ən çox qəbul olunan nöqteyi-nəzərə görə, onlar Şah Veyisqulu, Məhəmməd bəy və Şah Atəşdir. Əhli-həqq inancına görə, Tanrının təzahürləri olan bu yeddi şəxsi müxtəlif dövrlərdə fərqli formalarda təzahür edən dörd kişi (yarane çar mələk) və bir qadın mələk müşayiət etmişdir. Məsələn: Əli ibn Əbu Talibi müşayiət edən mələklər Salman Farsi, Qənbər, Həzrət Məhəmməd, Nüseyr və qadın mələk olan Fatimədir.

Əhli-həqq mənsubları, həmçinin reinkarnasiyaya da inanır və buna "libasdəyişdirmə" deyirlər. İslam şəriətindəki namaz əvəzinə, həftədə bir dəfə "niyaz" adı verdikləri ayini icra edirlər. Əhli-həqqin əksəriyyəti İranın Kirmanşah bölgəsində yaşayan qoranı kürdlərindən ibarətdir. Azərbaycanlılar arasında da bu məzhəbin mənsubları vardır. Məsələn: Şərqi Azərbaycan ostanının Üskü şəhristanında yerləşən və on dörd min nəfər əhalisi olan İlxıçı şəhərində yaşayanlar əhli-həqq məzhəbinə mənsubdurlar. İraqda sözügedən məzhəbin mənsublarına "kakai" deyilir.

**ƏHLİ-QURAN MƏKTƏBİ (مدرسة اهل القرآن):**

İslam dünyasının keşməkeşli dövrlərdən keçdiyi XIX əsrdə İngiltərə müstəmləkəsi olan Hindistanda meydana çıxan, daha sonra Abdullah Çekralevi tərəfindən 1902-ci ildə Lahorda "Əhliz-zikr vəl-Quran" adı ilə təsis olunan Quran təfsir məktəbi. Həmin məktəbə "quraniyyun" da deyilir. Məktəbin əsas təmsilçiləri arasında Seyyid Əhməd Xan, Abdullah Çekralevi, Qulam Əhməd Pərviz və İnayətullah Xan əl-Məşriqi kimi şəxsiyyətlər var.

**ƏHLİ-SÜNNƏT (أهل السنّة):**

Mənsublarının sayına görə ən böyük İslam məzhəbi. Hərfən "sünnə əhli" mənasına gəlir. Sünnilik mənbələrdə daha çox "əhli-sünnət" və "əhlisünnət vəl-cəmaət" adlandırılır və Məhəmməd peyğəmbərin sünnəsinə, yəni yoluna tabe olanlar mənasına gəlir. Tədqiqatçılar sünniliyi ən qısa şəkildə "dinin əsas mövzularında Məhəmməd peyğəmbərin və onun səhabəsinin izlədikləri yolu mənimsəyənlər" kimi xarakterizə edirlər. Sünnilik öz daxilində dinin təfərrüat məsələlərində müxtəlif etiqadi və fiqhi məzhəblərə bölünmüşdür. İslam dünyasında məzhəb demoqrafiyası haqqında dəqiq statistik məlumatlar olmasa da, müxtəlif tədqiqatlar nəticəsində müsəlmanların 80-90%-nin sünniliyə mənsub olduğu güman edilir. Sünniliyin 6 etiqad əsası mövcuddur. Bu əsaslar Allaha, onun mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirət gününə və qəzavü-qədərə inamdır. Məzhəbin, əsasən, ibadətlərlə əlaqəli olan və "İslamın şərtləri" adı ilə məşhur olan əsasları isə bunlardır: kəlmeyi-şəhadət, namaz, oruc, zəkat, həcc. Sünniliyin bütün qolları bu etiqad və ibadət əsaslarını qəbul edirlər. Onlar arasındakı fərqlilik daha çox təfərrüat məsələlərindədir. Tarix boyu sünnilik içərisində çox sayda fiqhi məzhəblər təşəkkül tapsa da, bunlardan yalnız dördü dövrümüzə qədər gəlib çıxmışdır. Bunlar Əbu Hənifə Nöman ibn Sabitə (v. 150/767) isnad olunan hənəfilik, Məhəmməd ibn İdris ibn Abbas əş-Şafiinin (v. 204/820) adı ilə anılan şafiilik, Malik ibn Ənəsə (v. 179/795) aid edilən malikilik və Əhməd ibn Hənbəlin (v. 241/855) adı ilə bağlı olan hənbəlilikdir. Hənəfilik daha çox Pakistan, Hindistan,

Banqladeş, Türkiyə və Orta Asiya ölkələrində; şafiilik İndoneziya, Malayziya, Misir, Somali, Yaxın Şərq ölkələrinin bir çoxunda; malikilik, Misir istisna olmaqla, Şimali Afrika və Qərbi Afrika ölkələrində, həmçinin Sudan və Çadda yayılmışdır. Hənbəlilik isə tarixən daha çox Ərəbistan yarımadasında yayılmış, lakin zaman keçdikcə öz yerini XVIII əsrdə yaranmış vəhhabiliyə vermişdir. Bu gün ənənəvi hənbəliliyi mənimsəyən çox az sayda insan qalmışdır. Sünnilik öz daxilində əşərilik, maturidilik və sələfilik olmaqla, üç əsas etiqadi məktəbə bölünmüşdür. Əşəriliyin qurucusu Əbülhəsən Musa ibn İsmayıl əl-Əşəri (260-324/837-935), maturidiliyin qurucusu Əbu Mənsur Məhəmməd ibn Məhəmməd əl-Maturididir (v. 333/944). Hərfi mənada "əvvəl gələnlərin görüşü" mənasını ifadə edən sələfilik isə əşərilik və maturidilikdən əvvəlki sünni alimlərinin etiqadi sahədə mənimsədiyi görüşün adıdır.

**ƏHMƏDİLİK (الأحمدية):**

Dövrümüzdə mövcud olan İslam məzhəbi. Əhmədilik qadiyanilik adı ilə də tanınır. Bəzi tədqiqatçılar tərəfindən məzhəb deyil, hərəkat kimi və hətta Pakistan Parlamentinin 1974-cü ildəki müvafiq qərarı ilə qeyri-islami dini azlıq kimi də qəbul olunan əhmədiliyin qurucusu hindistanlı Mirzə Qulam Əhməddir (1839-1908). Sünnilikdən ayrılan bir məzhəb kimi əhmədiliyin peyğəmbərlik, mehdilik və cihad kimi məsələlər xaricindəki görüşləri qeyd olunan məzhəbə uyğundur. Əhmədilik öz daxilində "qadiyan" və "lahor" qollarına ayrılır. Hazırda dünyadakı əhmədilərin böyük əksəriyyəti qadiyan qoluna mənsubdur. Qadiyan əhmədiləri Quranın son ilahi kitab olduğuna inansalar da, peyğəmbərliyin bir mənada davam etdiyini irəli sürürlər. Onlara görə, Tanrı insanlarla əlaqə qurmağa davam edir və peyğəmbərlər göndərir. Mirzə Qulam Əhmədi də peyğəmbər kimi qəbul edən qadiyan qoluna görə, "kölgə peyğəmbərlik" adlanan bu peyğəmbərlik, bir növ, Məhəmməd peyğəmbərin peyğəmbərliyinin bir inikasıdır. Onlara görə, Qulam Əhmədin əsas məqsədi Məhəmməd peyğəmbərin gətirdiyi dini doğru şəkildə insanlara çatdırmaqdır. Əhmədilər Mirzə Qulam Əhmədin həm də mehdi və məsihliyinə etiqad bəsləyir, cihadın yalnız insanları İslama dəvət etməkdən və təbliğdən ibarət olduğuna inanırlar. Qadiyan qolundan fərqli olaraq, Lahor əhmədiləri Mirzə Qulam Əhmədin peyğəmbər deyil, mehdi, məsih və dini yeniləyən (mücəddid) bir şəxs olduğunu irəli sürürlər. Əhmədilərin sayı haqqında dəqiq məlumat yoxdur. Başda Pakistan, Hindistan və Banqladeş olmaqla, dünyada, təqribən, 10 milyon əhmədinin yaşadığı təxmin edilir.

**ƏHRÜFİ-SƏBƏ (الأحرف السّبعة):**

"Əl-Əhrüfüs-səbə" təyini söz birləşməsi olub, "yeddi hərf" deməkdir. Bu birləşmədəki "əhrüf" kəlməsi "hərf"

sözünün cəm şəklidir və “bir şeyin ucu, kənarı, kəskin tərəfi” mənasını verir. Bundan başqa, bu kəlmənin “tərz, üslub, qiraət və ləhcə” mənaları da mövcuddur. Bu birləşmədəki “yeddi” mənasını verən “səbə” kəlməsi haqqında iki fikir vardır. 1) Buradakı “səbə” sözü öz həqiqi mənasında işlədilərək bilinən yeddi rəqəmini ifadə edir. Yəni burada o, ədədi məna daşıyır. 2) Sözügedən birləşmədə “səbə” kəlməsi məcazi məna daşıyaraq, bilinən “yeddi” rəqəmini deyil, “genişlik və asanlıq” mənasını bildirir.

**ƏHRÜFİ-SƏBƏ (الاحرف السبعة):**

Yeddi hərf. Buradakı “hərf” sözü oxumaq mənasını ifadə edir. Yeddi rəqəmi isə məcazi mənada olub çoxluq bildirir. Yeddi hərf, termin olaraq, Quran ayələrinin oxunuşunda genişlik və asanlığı ifadə edir. Yeddi hərfin mahiyyəti ilə bağlı çoxsaylı mülahizələr səsləndirilmişdir. Təfsir üsulçuları tərəfindən ən mötəbər hesab olunan nöqteyi-nəzərə görə isə yeddi hərf Quranın kitablaşmasından əvvəl müxtəlif ərəb ləhcələrində danışan insanlara bəzi Quran sözlərini mənaları dəyişməmək şərti ilə öz ləhcələrindəki sözlərlə əvəzləyib oxumaları barəsində verilən sərbəstlikdir. Peyğəmbərdən gələn rəvayətlər arasında Quranın yeddi hərf üzrə nazil olması ilə bağlı çox sayda hədis olmasına baxmayaraq, yeddi hərfin mahiyyəti barəsində yetərli məlumat yoxdur.

**“ƏHZAB” SURƏSİ (سورة الأحزاب):**

Quranın 33-cü surəsi. 73 ayədən ibarətdir. Mədinə dövründə nazil olmuşdur. Surənin adı 20 və 22-ci ayələrdə qeyd edilən “əhzab” (qruplar, cəmiyyətin bir hissəsi) sözündən götürülmüşdür. Surədə, əsasən, Xəndək döyüşündəki hadisələrdən bəhs edilir. Bununla yanaşı, qadınlarla bağlı bəzi hökmlərə, müsəlmanların onları düşmən hesab edən qrup və şəxslərə qarşı diqqətli olmaları, mücadilə ruhuna sahib olmaları və mücadilənin yolları haqqında məsələlərə toxunulmuşdur.

**ƏXBARİLİK (الأخبارية):**

Səfəvilər dövründə imamilik daxilində yaranmış fiqhi məktəb. Ərəb dilində “xəbərlər” mənasına gələn “əxbar” kəlməsi terminoloji mənada “hədis” mənasında da istifadə olunur. Dini hökmləri daha çox Məhəmməd peyğəmbərin və 12 İmamın hədislərinə əsaslandırdığı üçün Şeyx Müfiddən əvvəlki şiə ənənəsinə “əxbarilik” deyilsə də, bu məktəbin sistematik şəkildə qurulması Səfəvilər dövründə yaşamış Məhəmmədəmin Əstərabadinin (v. 1033/1624) adı ilə bağlıdır. O, özünün “əl-Fəvaid əl-mədəniyyə” adlı əsərində əxbarilik düşüncəsini əsaslandırmış və onu “üsulilik” məktəbinə qarşı olan müstəqil bir məktəbə çevirməyə nail olmuşdur. Fiqhin dörd əsas mənbəyi (Quran, sünnə, icma və ağıl) olduğunu qəbul edən üsuliliyin əksinə əxbariliyə görə, dini hökmlərin iki mənbəyi

vardır: Quran və sünnə (hədislər). Bəzi ifrat əxbarilər hədisləri dini hökmlərin yeganə mənbəyi hesab edir, hökm əldə etmək baxımından Qurandan da üstün tuturdular, çünki onlara görə, Quran müfəssər (açıq) deyildir və onu şərh etmək vəzifəsi məsum imamlara aiddir. Əxbariliyin ifrat qolu imamlardan gələn bütün hədislərin səhih olduğunu və dində əqli mühakiməyə və ictihada yer olmadığını iddia edirdi. Öz içində ifrat və mötədil qollara bölünən əxbariliyi Səfəvilər dövründə çox sayda alim mənimsəmişdir. Bunların arasında Məhəmməd Təqi Məclisi, Feyz Kaşani, Hürr əl-Amili, Yusif (İbn Üsfur) Bəhrani kimi alimlərin adlarını çəkmək mümkündür. Üsuliliyin güclənməsi nəticəsində, xüsusilə məşhur üsuli alimi Məhəmmədbaqir Bəhbəhaninin (v. 1206/1791-92) səyləri ilə əxbarilik zamanla zəifləmiş və XIX əsrin əvvəllərində, demək olar ki, tarix səhnəsindən silinmişdir. Əxbariliyin son nümayəndəsi Mirzə Məhəmməd Nişapuri (v. 1233/1818) hesab olunur.

**“ƏLA” SURƏSİ (سورة الأعلى):**

Quranın 87-ci surəsi. 19 ayədən ibarətdir. Məkkə dövründə nazil olan ilk surələrdəndir. Surənin adı ilk ayədə keçən “əla” sözündən əmələ gəlmişdir. Mənası “ən uca, ən üstün” deməkdir. İlk sözünə əsasən, surəyə “Səbbih” surəsi də deyilmişdir. İlk beş ayədə Allahın nemətləri xatırlanır, Onu ucaltmanın yolu göstərilir. Daha sonra təbliğ metodu olaraq öyüd verməkdən və Allaha tabe olmanın faydalılığından bəhs edilir.

**ƏLAMİ-NÜBÜVVƏT. (أعلام النبوة) Bax: DƏLAİLİ-NÜBÜVVƏT.**

**“ƏLƏQ” SURƏSİ (سورة العلق):**

Quranın 96-cı surəsi. 19 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. İlk beş ayəsi Quranın ilk nazil olan ayələridir. İkinci ayədə insanın laxtalanmış qandan (ələq) yaradılması qeyd edildiyi üçün surəyə bu ad verilmişdir. Surədə, əsasən, insanın yaradılışı, dinə etiraz edənlərin axirətdə qarşılaşacaqları aqibətdən bəhs edilir.

**ƏLƏVİLİK (العلوية):**

Əli ibn Əbu Talibə bağlılıqda birləşən müxtəlif dini və siyasi qruplara verilən ad. Ərəb dilində “Əliyə aid, Əliyə mənsub” mənasına gələn “ələvilik” kəlməsi İslam tarixində bir neçə qrup üçün istifadə olunmuşdur. Silsiləsi Əli bin Əbu Talib vasitəsilə Məhəmməd peyğəmbərə çatan sufi təriqətlərinə “ələvi təriqətlər” deyilir. İslam tarixində Əli ibn Əbu Talibin nəslinə mənsub olanlar tərəfindən qurulan dövlətlər də “ələvi dövlətlər” adlandırılmışdır. Dövrümüzdə “ələvi” adlanan iki etiqadi İslam məzhəbi mövcuddur. Bunlardan biri XIII əsrdən Türkiyə ərazisində formalaşmağa başlayan, XVI əsrdə isə Səfəvilərin təsiri ilə şiəliyin müəyyən etiqadi ünsürlərini qəbul edən ələvilik məzhəbidir. Qədim türk inancları ilə Anadoluda mövcud olmuş müxtəlif

dinlərə məxsus elementlər və şiəliyin sintezindən ibarət olan, "qızılbaşlıq" və "türk ələviliyi" də deyilən bu məzhəbin mənsublarının əksəriyyəti Türkiyədə, qismən Balkan yarımadasındakı ölkələrdə yaşayır. Sözügedən məzhəbin mənsublarının sayı haqqında dəqiq məlumat olmasa da, dünyada 10 milyondan çox türk ələvisinin olduğu güman edilir. Müasir dövrdə "ələvilik" adı ilə tanınan başqa bir məzhəb isə nüseyrilikdir. **Bax: NÜSEYRİLİK.**

**ƏLİM (العليم):**

Elm kökündən "hər şeyi haqqı ilə bilən" mənasını verir. Allahın adlarından biri kimi, "zaman və məkan məhdudiyyəti olmadan, böyük-kiçik, gizli-aşkar hər şeyi, hər hadisəni bilən" deməkdir.

**"ƏNAM" SURƏSİ (سورة الأنعام):**

Quranın 6-cı surəsi. 165 ayədən ibarətdir. Bəzi ayələrinin Mədinə dövründə nazil olduğu haqqında rəvayətlərlə yanaşı, surənin böyük qisminin Məkkə dövründə nazil edildiyi bildirilir. Surədə təkallahlılığın, peyğəmbərlik inancının, yaradılışın, yenidən dirilmənin dəlilləri, batil inanclar, Allaha şərik qoşmanın rədd edilməsi haqqında bəhs edilmişdir. Bununla yanaşı, əti yeyilən və yeyilməyən heyvanların müəyyən edilməsi, bəzi halal və haram olan hökmlər haqqında da məlumatlar verilmiş, xüsusilə də əxlaqi prinsiplərə toxunulmuşdur.

**"ƏNBİYA" SURƏSİ (سورة الأنبياء):**

Quranın 21-ci surəsi. 112 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surə 18 peyğəmbərin həyatından qısaca bəhs etdiyi üçün "peyğəmbərlər" mənasında "Ənbiya" kimi adlandırılmışdır. Surənin ilk ayələrində Allaha qarşı çıxan, İslamı qəbul etməyən məkkəli müşriklərin hesaba çəkiləcəkləri, sorğu-suala tutulacaqları xəbərdar edilir. Daha sonra haqq və batil arasında mücadilələrdən nümunələr göstərilmiş, digər peyğəmbərlərin həyatlarından nümunələr verilmiş və batilin necə məğlub olmasından bəhs edilmişdir. Surədə Musa, Harun, İbrahim, Lut, İshaq, Yaqub, Nuh, Davud, Süleyman, Əyyub, İsmayıl, İdris, Zülkifl, Yunus, Zəkəriyyə, Yəhya və İsa peyğəmbərlərin adları çəkilərək, onların mübarizəsi haqqında mövzulara qısaca toxunulmuşdur. Sonda Məhəmməd peyğəmbərin ümumbəşəri mesajından bəhs edilir.

**"ƏNFAL" SURƏSİ (سورة الأنفال):**

Quranın 8-ci surəsi. 75 ayədən ibarətdir. 30-36-cı ayələrinin Məkkə, digər hissəsinin isə Mədinə dövründə nazil olduğu rəvayət edilmişdir. Surənin adı birinci ayədəki "ənfal" sözündən götürülmüşdür. Mənası "çoxluq" və ya "müharibədə əldə edilən qənimət" olaraq bilinir. Surənin əsas mövzusu Bədr müharibəsi və qənimət məsələlərindən ibarətdir. Bu səbəbdən, bəzən "Bədr" adı da verilmişdir. Bununla yanaşı, əsl zəifliyin səbəbi ola-

raq inancsızlıq, riyakarlıq, dünya malına hərisliyin olması qeyd edilmişdir.

**"ƏNKƏBUT" SURƏSİ (سورة العنكبوت):**

Quranın 29-cu surəsi. 69 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surənin adı 41-ci ayədə keçən "ənkəbut"–"hörümçək" sözündən götürülmüşdür. Surədə səmimi olaraq inanmayanların ifşası, möminlərin çəkdikləri əziyyət, peyğəmbərlərə inanmayanların aqibətindən söhbət açılmışdır. Eyni zamanda, Nuh, İbrahim və Lut peyğəmbərlərin həyatlarından da nümunələr gətirilmişdir.

**"ƏRAF" SURƏSİ (سورة الأعراف):**

Quranın 7-ci surəsi. 206 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surənin adı 46 və 48-ci ayələrdə keçən "əraf" sözündən götürülmüşdür. Bu söz cənnətlə-cəhənnəm arasında yerləşdiyi bildirilən məkanı ifadə edir. Surənin mövzusu, əsasən, peyğəmbərə imandan və onların gətirdiyi axirət inancından ibarətdir. Surədə Adəm, Nuh, Hud, Şüeyb və Musa peyğəmbərlərin qissələri var.

**ƏSBABİ-NÜZUL (أسباب النزول):**

Ayələrin nazil olma səbəbləri. Həzrət Peyğəmbərin zamanında meydana gələn və Quranın bir və ya bir neçə ayəsinin, yaxud bir surəsinin nazil olmasına səbəb olan hadisə, vəziyyət və ya Peyğəmbərə verilən bir sual. Həmin hadisə və vəziyyətləri çatdıran rəvayətlərə "əsbabi-nüzul rəvayəti" deyilir.

**ƏSƏBİYYƏT (solidarity):**

Görkəmli müsəlman tarixçisi, mütəfəkkir və sosioloqu İbn Xəldunun (1332-1406) ictimai həmrəyliyə dair sosial nəzəriyyəsi. İbn Xəlduna görə, ictimai həyatın təməlini fərdlərarası "əsəbiyyət" duyğusu meydana gətirir. "Əsəbiyyət" termini "qarşılıqlı həmrəylik", "sosial bağlılıq", "kollektiv şüur" mənalarını ifadə edir. İbn Xəldun hesab edirdi ki, bir qrup insanı cəmiyyət halına gətirən məhz fərdlər arasındakı qarşılıqlı həmrəylik və ya sosial bağlılıqdır. Başqa sözlə, "həmrəylik" adlandıra biləcəyimiz bu anlayış kollektiv şüurdan və insanın sağqalma instinktindən irəli gələn davranış şəklidir. Məhz ictimai həmrəylik sayəsində qəbilə kimi kiçik cəmiyyətlərdə fərdlər arasında möhkəm birlik, qarşılıqlı fədakarlıq və əməkdaşlıq şəraiti bərqərar olur.

**ƏSLİ MƏD, TƏBİİ MƏD (ألمدّ الأصليّ / ألمدّ الطّبيعيّ):**

Məd hərflərinin özlərindən əvvəlki hərfi bir əlif miqdarı uzadaraq oxutmasına "əsli", yaxud "təbii məd" deyilir.

**"ƏSR" SURƏSİ (سورة العصر):**

Quranın 103-cü surəsi. 3 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Adı ilk ayədə and içilən "əsr" sözündən alınmışdır. Mənası "zaman", "əsr", "dövr", "axşamtərəfi" deməkdir. Surənin mövzusu insanın ziyan içində qalmasından, bundan

çıxış yolunun iman edib əməli-saleh davranmaq, haqqı və səbri tövsiyə etməkdən ibarət olduğunun vurğulanmasından ibarətdir.

**ƏŞƏRİLİK (الأشعرية):**

Sünniliyin üç əsas əqidə məzhəbindən biri. Məzhəbin banisi Əbülhəsən Musa ibn İsmayıl əl-Əşəridir (837-935). Əşəri Əbu Mənsur əl-Maturidi ilə birlikdə sünniliyin iki əsas kəlam məktəbinin birinin qurucusudur. Əşərilər və maturidilər sünniliyin əsas əqidə əsaslarını bölüşməklə yanaşı, bəzi təfərrüat məsələlərində fərqli düşünürlər. Əşərilik, xüsusən, qəzavüqədər məsələsində maturidiliyə nisbətlə qədərçiliyə yaxın düşünür. Bu etiqadi məzhəbin "kəsb" adlanan nəzəriyyəsinə görə, bəşər övladının bütün əməlləri Allah tərəfindən yaradılmışdır. İnsan yalnız bu xəlq edilmiş hərəkətləri öz istək və səyinə uyğun olaraq mənimsəyir. Həmçinin onlar qadın peyğəmbərlərin göndərildiyinə, qəlbdəki imanın artıb-azala biləcəyinə inanırlar. Şafiilik və malikilik hüquqi məktəblərinin ardıcıllarının əksər hissəsi etiqadi baxımından əşərilik məzhəbinə mənsubdur.

**ƏYYAMÜLƏRƏB (أيّام العرب):**

Cahiliyyət və İslamın ilk dövrlərində ərəb qəbilələri arasında baş verən məşhur döyüşlər üçün istifadə olunan termin. Mənbələrə görə, sayı 1000-i keçən bu döyüşlərin ən məşhurları Büas, Züqar, Dahis, Bəsus və Ficardır. Ümumilikdə ərəb qəbilələri, bəzən də ərəblərlə qonşu Bizans və Sasani dövləti arasında baş verən bu savaşlar at yarışı, şəxsi ədavət kimi sadə səbəblərlə yanaşı, daha mürəkkəb siyasi, iqtisadi və ictimai səbəblərdən də baş verirdi. Qəbiləçilik ruhunun güclü olduğu ərəblərin şifahi ədəbiyyatında əyyəmülərəb mühüm yer tutmuş, islamaqədərki dövrün məşhur şairlərinin yaradıcılığında böyük rol oynamışdır. Bəzi müəlliflər Məhəmməd peyğəmbərin qəzvə və səriyyələri ilə birlikdə digər ilk İslam fəthlərini də əyyamülərəbə aid etmişlər.

**ƏYYUBİLƏR (الأيّوبيّون):**

1171-1462-ci illərdə Şimali Afrika, Misir, Hicaz, Yəmən və Orta Şərqdə mövcud olmuş müsəlman dövləti. Dövlətin qurucusu Səlahəddin Yusif ibn Nəcməddin Əyyubun atasının adı ilə adlandırılan Əyyubi sülaləsinin etnik mənşəyinin ərəb, kürd və türk olduğuna dair rəvayətlər müxtəlifdir. XII əsrin əvvəllərində Mosul Atabəyi İmadəddin Zənginin səlibçilərə qarşı apardığı döyüşlərdə yaxından iştirak edən Əyyubi ailəsinin tarix səhnəsindəki əsl yüksəlişi 1164-1169-cu ildə Misirə yürüşüylə başladı. Qısa bir müddət Fatımi vəziri kimi fəaliyyət göstərən əmisi Şirkuhun vəfatından sonra 1169-cu ildə onun yerinə keçən Səlahəddin 1171-ci ildə Fatimilər dövlətini süqut etdirib Zəngi dövlətinə tabe etdirdi. Səlahəddin iqtisadi, siyasi və hərbi islahatlarıyla Misiri inkişaf etdir-

di. 1174-cü ildə Nurəddinin vəfatından sonra Əyyubilər dövlətinin müstəqilliyini elan edən Səlahəddin qısa müddət sonra Suriyanın böyük hissəsini ələ keçirib dövlətin Həma, Hüms və Bəəlbək qollarının əsasını qoydu. 1187-ci ildə Hittin döyüşü ilə Qüdsü və qısa müddət ərzində Yerusəlim Krallığının böyük ərazisini səlibçilərdən alan Səlahəddin, 1192-ci ildə müttəfiq səlib orduları ilə müqavilə bağlayanadək İslam dünyasının səlibçilərə qarşı mübarizədə ən mühüm siyasi siması kimi fəaliyyət göstərdi. 1193-cü ildə Səlahəddinin vəfatından sonra, oğulları və qardaşları arasında parçalanan Əyyubilər dövləti əvvəlki qüdrətini itirdi. 1229-cu ildə Yəmən, 1252-ci ildə Misir, 1260-cı ildə Dəməşq və Hələbdə süqut edən Əyyubilərin Hasankeyf və Amid qolları 1462-ci ildə Ağqoyunlu Uzun Həsən tərəfindən ortadan qaldırıldı.

**ƏZARİQƏ/ƏZRƏQİLİK (الأزارقة):**

Xaricilik daxilindəki ifrat qruplardan birinin adı. Xarici qruplardan biri olan və Nafe ibn əl-Əzrəqə (v. 65/685) aid edilən Əzariqə öz məzhəblərindən olmayanları müşrik kimi qəbul edərək, onların və uşaqlarının əbədi olaraq cəhənnəmdə qalacaqlarını bildirirdilər. Onlara görə, digər məzhəblərin nümayəndələrinin yaşadıqları bölgələr “darülküfr (küfr diyarı -دار الكفر)” olub, orada yaşayanların, qadınlar və uşaqlar da daxil olmaqla, öldürülməsi, qul halına salınması və mallarının qəsb edilməsi caizdir. Əzrəqilər, həmçinin Cəməl və Siffin döyüşlərində iştirak etdikləri üçün Aişə bint Əbubəkr, Zübeyr ibn əl-Əvvam, Təlhə ibn Übeydullah və Əli ibn Əbu Talibin və hətta kafirlərin (xarici olmayanların) diyarından hicrət etməyən xaricilərin (qəədə) də kafir olduğunu irəli sürürdülər. Əzrəqilər Qurani-Kərimdə keçmədiyi üçün İslamda rəcm cəzasının olmadığını iddia edirdilər. Hicri I əsrin (miladi VII əsr) sonlarında bu məzhəb tamamilə tarix səhnəsindən silinmişdir.

**ƏZAZİL (العزازيل):**

İbranicə “azazel”, “hazazel” şəklində tələffüz edilir və “Tanrının qüvvətləndirdiyi” mənasındadır. Quranda və hədislərdə bu kəlməyə rast gəlinmir. İslam ədəbiyyatında “şeytan”, yaxud “iblisin adlarından biri” olaraq keçir. Cahiliyyət ərəbləri qaranlıq gecələrdə yolçulara əziyyət etdiyinə inandıqları çöl cinlərindən birini “Azazel” adlandırırdılar.

**ƏZHƏR (الأزهر):**

Fatimi xəlifəsi Müiz Lidinillahın 970-972-ci illərdə Cümə məscidi kimi inşa etdirdiyi və İslam dünyasının müasir dövrə çatmış ən qədim dini tədris qurumu sayılan Qahirədəki məscid və külliyə. Fatimi dövründə əsas fəaliyyət istiqaməti məscid və tədris qurumu olmaqla yanaşı, Əzhərdə həm də mövlud, aşura və digər dini mahiyyətli mərasimlər dövlət xadimlərinin iştirakı ilə xüsusi qaydada həyata keçirilirdi. Səlahəddin

Əyyubinin əmri ilə Cümə məscidi kimi fəaliyyəti dayandırılan, yalnız tədris qurumu kimi fəaliyyət göstərən Əzhərdə Məmlük dövləti zamanı yenidən Cümə namazları qılınmağa başlandı və o, hökmdarların xüsusi diqqəti sayəsində əvvəlki şöhrətinə qovuşdu. Şərqdə monqol işğalından, Qərbdə xristian dövlətlərin təzyiqindən Misirə sığınan İslam alimləri Əzhərin şöhrətinin artmasında rol oynadılar. Fransız və ingilis işğalları xaric, Əzhər Osmanlılar dövründə də dini tədris qurumu kimi əhəmiyyətini qorudu. XX əsrin əvvəllərindən başlayan, 1960-cı illərdə aparılan təhsil islahatları nəticəsində Əzhər yalnız dini və filoloji elmlərin deyil, tibb, mühəndislik, kənd təsərrüfatı, əczaçılıq, təhsil və digər fakültələrin fəaliyyət göstərdiyi müasir tədris qurumuna çevrildi.

**ƏZİM (العظيم):**

Allahın adlarından (əsmai-hüsna) biri. Əzim “əmrlərinə etiraz edilməyən, zatının və sifətlərinin mahiyyəti başa düşülməyəcək qədər uca olan varlıq” mənasını ifadə edir.

**ƏZİMƏT (العزيمة):**

Hər hansı bir səbəbə görə dəyişməyən, əvvəlcədən qoyulmuş hökm. Vacib, haram və məkruhu buna misal göstərmək olar. Zərurət halı yarandıqda, bu hökmləri yerinə yetirməməyə icazə verilir. Zərurət halı aradan qalxdıqdan sonra isə əsl hökm, yəni əzimət yenidən bərqərar olar.

**ƏZİZ (العزيز):**

İslam əqidəsində Allahın “tayı-bərabəri olmayan” mənasında tənzihi, “güclü və daim qalib gələn” mənası ilə zati sifətlərdən biri. Hədis elmində hər təbəqədə iki ravisi olan hədis. “Qüvvətli, güclü, qiymətli” mənasına gəlir. Başqa tərifə görə, bir hədis müəllimindən iki və ya üç ravinin rəvayət etdiyi hədisə deyilir. Həmçinin qərib ikən başqa bir istinad ilə rəvayət edilərək qüvvətlənən hədisə də “əziz” deyilir. İbn Həcərin tərcih etdiyi, daha sonra bir çox alimin doğru saydığı tərifə görə sənədin bütün təbəqələrində ravi sayı iki nəfərdən az olmayan hədisdir. Məsələn: “Sizdən biri məni ata-anasından, oğul-uşağından və bütün insanlardan daha çox sevmədikcə, həqiqi mənada iman gətirmiş sayılmaz” hədisini Həzrət Peyğəmbərdən Ənəs və Əbu Hüreyrə, Ənəsdən Qətadə və Əbdüləziz ibn Süheyb, Qətadədən Şöbə və Səid, Əbdüləzizdən İsmail bin Üleyyə və Əbdülvaris rəvayət etmişdir.

**ƏZKAR (اذكار):**

“Xatırlamaq”, “anmaq” mənasındakı “zikr” kəlməsinin cəm formasıdır. Termin kimi, “Allahı anmaq, ondan qafil olmamaq və onu unutmamaq” mənalarında istifadə edilir. Bu zikrlər dil və qəlb ilə yerinə yetirilir. Allahı anmaq müxtəlif söz və cümlələrlə olur; məsələn: “Bismillahir-Rəhmanir-Rəhim”, “Sübhanəllah”, “Əlhəmdülillah”, “Allahu əkbər”, “La ilahə

illallah", "Lə həvlə və lə qüvvətə illə billah", "Əstəğfürullah", "Allahümmə səlli alə Muhamməd" və sair zikr növləri mövcuddur. Bu zikrlərin sayı, yaxud onların səsli, gizli, gecə və ya gündüz oxunması sufi təriqətlərinə görə fərqlənir.

**ƏZL (العزل):**

Bir məmur və idarəçinin, yaxud hüquqi təmsilçinin işinə son vermək mənasında işlənən fiqhi termin. Xəlifənin, idarəçinin və ya məmurun əzl edilməsinin xüsusi şərtləri mövcuddur.

**ƏZLAM (الأزلام):**

Cahiliyyət ərəblərinin səfər, döyüş, ticarət, su quyusu qazdırmaq, evlənmək, nəsəbi şübhəli uşaqların nəsəbini təyin etmək və digər məqsədlərlə çəkdikləri, üzərinə "bəli"/"xeyr", "et"/"etmə" kimi alternativlər yazılmış taxta oxlar üçün istifadə olunan termin. Cahiliyyət ərəblərinin qeybdən xəbər almaq, bütlərin ilahlığını qəbul etmək düşüncəsindən qaynaqlanan bu adəti məntiqi və elmi heç bir əsası olmadığı üçün Qurani-Kərimdə qadağan olunmuşdur ("əl-Maidə", 5/3, 90).

**ƏZRAİL (عزرائيل):**

Dörd böyük mələkdən biri. Can almaqla vəzifələndirilmiş mələk. "Əzrail" sözünün ibrani dilindən keçdiyi qəbul edilir. Qurani-Kərimdə və səhih hədislərdə bu kəlmə işlənmir. "Səcdə" surəsində (32/11) insanların canını almaqla vəzifələndirilmiş mələk "mələk əl-mövt" (ölüm mələyi) olaraq qeyd edilir. Quranda ölüm mələyinin can almaqla vəzifələndirildiyi qeyd edilsə də, bu işin, əslində, Allaha aid olduğu da vurğulanır. Hədislərdə də "mələk əl-mövt" ifadəsi işlənir.

# F

**FAHİŞİ-QƏLƏT (فاحش الغلط):**

"Xətası çox" mənasında deyim olub, "mətaini-əşərə" adlanan on tənqid əsasından zəbtlə əlaqəli tənqid ləfzidir. Rəvayət etdiyi hədislərdə ifrat dərəcədə xəta edən raviyə deyilmişdir. Belə ki, onun xətalı surətdə rəvayət etdiklərinin sayı doğru olaraq rəvayət etdiklərindən çox olmasıdır. Xətalı rəvayətləri doğru rəvayətlərə bərabər olan ravilər də "fahişi-qələt" sayılmışdır. Digər adı "kəsrətül-qələt"dir. Rəvayətlərində çox xəta edən ravinin hədislərinə güvənilməz, yerinə görə "münkər, müəlləl" kimi adlar verilir.

**FAİLİ-MUXTAR/İRADƏ (الإرادة):**

Allahın bütün məxluqatı öz iradəsinə uyğun olaraq, məcburiyyət olmadan yaratdığını ifadə edən termin.

**FAİZ (الربا):**

Borc, girov və alış-verişdə tərəflərdən birinin digərinə qarşılıqsız olaraq verməsi şərt qoyulan mal və ya mənfəət. Bəşəri, ictimai və iqtisadi baxımdan zərərləri üçün İslam dinində qəti qadağan edilmişdir.

**FAL (الفال):**

Elmə əsaslanmayan müxtəlif üsullarla gələcəyə və qeybə dair xəbər vermə və ya gizli xüsusiyyətləri aşkara çıxarma sənəti. Fal baxıcılıq və kahinliklə bəzi müştərək xüsusiyyətlərə malik olsa da, hər ikisindən fərqlidir. Etnoloji termin olaraq xüsusən qeyb, gələcək və insan xarakteri haqqında məlumat vermə xüsusiyyəti daşıyan bütün qeyri-adi fəaliyyətləri ifadə edir. Kainatı qeyb aləmi (aləm əl-qeyb) və maddi aləm (aləm əş-şəhadə) olaraq iki hissəyə ayıran və hər ikisinin də mütləq hakimiyyətinin Allaha aid olduğunu xəbər verən ("Zümər" 39/44; "Təlaq" 65/12), hiss orqanlarımızın dərketmə sahəsindən kənarda qalan hər cür qeybi məlumatın da yalnız Allah tərəfindən bilindiyini, Onun bu məlumatların bir qismini ancaq istədiyi insana bildirəcəyini vurğulayan ("Ali-İmran", 3/179; "Ənam", 6/50; "Nəxl", 16/77; "Cin", 72/26-27) Qurani-Kərimdə "fal" kəlməsi işlənmir. Cahiliyyət dövrünün adətlərindən biri olan "fal oxları" (əzlam) ilə fala baxma İslamda qadağan edilmişdir ("Maidə", 5/3, 90). İnsanı sağlam məlumat mənbələrinə müraciət etməkdən uzaqlaşdıran fal və falçılıq fəaliyyəti İslam dinində qadağan edilmişdir.

**FASİQ (الفاسق):**

İlahi əmrlərə itaətdən ayrılıb üsyankar olan mömin, yaxud kafir mənasında işlənən "kəlam" və "fiqh" termini.

Lüğəvi mənada "xurma və bunabənzər meyvələrin qabığını çatladıb-çıxması; müəyyən bir həddi aşmaq" olan "fisq", yaxud "füsuq" kökündən törəmiş fasiqin müxtəlif məzhəblərə mənsub alimlər tərəfindən verilmiş fərqli tərifləri mövcuddur. Bununla yanaşı, termin olaraq "haqdan ayrılan, Allahın əmrlərinə itaətdən ayrılan üsyankar mömin yaxud kafir" də adlandırmaq mümkündür. Quranda sözün kökü şəklində yeddi, feil bablarında on, fasiq şəklində isə otuz yeddi yerdə keçir. "Fisq" və "fasiq" kəlmələri hədislərdə və səhabə sözlərində də işlənir. Kəlam elmində "fasiq" termini ilə əlaqəli müzakirələr II (VIII) əsrin əvvəllərinə qədər gedib çıxır. "Fasiq" məfhumu ilə əlaqəli müzakirələr müsəlmanlar arasında ixtilafa səbəb olan məsələlərdəndir.

**FATALİZM (fatalism):**

Təbiətdə, cəmiyyətdə, yaxud hər bir fərdin həyatında hadisələrin əvvəlcədən müəyyənlədirilməsi haqqında konsepsiya. "Fatalizm" latınca "fatalis" sözündən olub, "öncədən müəyyən edilmiş və qarşısıalınmaz" mənasınadır. Bu konsepsiya bir çox idealist fəlsəfi təlimlərdə mövcud olmuşdur. Fatalizm bir çox dinin dünyagörüşlərində mühüm yer tutur.

**"FATİHƏ" SURƏSİ (سورة الفاتحة):**

Quranın ilk surəsi. 7 ayədən ibarətdir. Məkkə dövründə ilk nazil olan surələrdəndir. Surənin adının mənası "açmaq", "başlamaq", "sıxıntını aradan götürmək" deməkdir. Namazda ilk oxunan surədir. Bir çox adı mövcuddur. Təkrarlanan yeddi mənasında "səbi-məsani", ikinci ayədə keçən "şükür etmək" mənasında olan "əl-həmd", Quranın əsası mənasında "ümmül-Quran", kifayət mənasında "əl-kafiyə", tam bütün mənasında "əl-vafiyə" adları bunlardan bəziləridir. Surənin əsas mövzusu Allaha, aləmlərin Rəbbinə şükür etməklə başlayıb, daha sonra sadəcə, Allahdan kömək istəmənin vacibliyindən ibarətdir. Bununla yanaşı, Allahdan doğru yola yönləndirilmək, yolunu azmış insanların yolundan kənarlaşdırmaq dua şəklində qeyd edilir.

**FATİR (الفاطر):**

"Göylərin və yerin yaradıcısı" mənasında Allahın adlarından (əsmai-hüsna) biri. **Bax: XALİQ.**

**"FATİR" SURƏSİ (سورة فاطر):**

Quranın 35-ci surəsidir. 45 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı "qabığını yarıb-çıxmaq" mənasında ilk ayədə keçən "fatir" sözündən götürülmüşdür. Surədə Allahın yaratma sifəti, kainatla bağlı məsələlər, Allahın təkliyi və peyğəmbərlik barəsində bəhs edilir.

**FEİLİ SÜNNƏ (السنة الفعلية):**

Həzrət Peyğəmbərin gördüyü işlər, hərəkətlər və davranışlar. Allah Rəsuluna aid hər hərəkət və davranış feili sünnənin mövzusuna daxildir. Bu feil və davranışlar bir neçə qrupda araş-

dırılır. Birincisi, Həzrət Peyğəmbərin insan olması səbəbi ilə etdiyi davranış və hərəkətlərdir. Oturması, ayağa qalxması, yeməsi, içməsi, geyinməsi, gəzib-dolanması, yatıb-qalxması kimi təbii ehtiyaclarını qarşılamaq üçün etdiyi davranışlardır. İkincisi, peyğəmbərliyinə aid olan hərəkət və davranışlardır.

**FERİSİLİK:**

"İkinci məbəd dövrü"nün (e.ə. V – I əsrlər) üç böyük yəhudi məzhəbindən biri. Aramicə və ibricə "prş" kökündən "perishayya" "ayrılmaq", "təmiz olmayan insan və əşyalardan ayrı olmaq" ilə yanaşı "şərh və təfsir etmək" mənasına da gəlir. Dövrün digər iki məzhəbi olan aristokrat-mühafizəkar Saduqilərdən və münzəvi xüsusiyyətli Essenilərdən fərqli olaraq, Ferisilər yazılı Tövratın ilk şərhçiləri kimi ruhun ölümsüzlüyünü və yenidən dirilmə inancını doktrina kimi qəbul etmişlər. Saduqilərdən fərqli olaraq Süleyman Məbədindən kənarda da Tanrıya ibadəti mümkün hesab edən Ferisilər, bir ibadət və dua yeri kimi sinaqoqa cəmiyyətdə nüfuz qazandırmışlar. Digər məzhəblərdən fərqli olaraq e.ə. I əsrdən özlərinəməxsus dini tədqiqat mərkəzləri olan Ferisilərin bu ənənəsi Süleyman Məbədinin dağıdılmasından sonra da davam etdirildi.

**FETİŞİZM (fetishism):**

Fövqəltəbii xüsusiyyətlərə malik olduğu güman edilən cansız maddi əşyalara (fetişlərə) dini pərəstiş. Fetişizm müəyyən qeyri-adi formaya malik olan predmetlərin müqəddəsləşdirilməsi və onlara sitayişə əsaslanan dünyagörüşüdür. Fetişizm animist (animizm) dünyagörüşünün xüsusi formasıdır. Fetişizm ibtidai inkişaf mərhələsində olan bütün xalqlar arasında geniş yayılıb. Fetişizmin ilkin mərhələsində insan təxəyyülünü heyran edən istənilən əşya – qeyri-adi formalı daş, ağac parçası, heyvan bədəninin hissələri pərəstiş obyektinə çevrilib. Daha sonralar müxtəlif materiallardan xüsusi olaraq hazırlanan fiqurlar – fetişlər əmələ gəlib. Fetişizmin qalıqları dünya dinlərində bu gün də özünü büruzə verir. Buna görə də bəzi antropoloqlar fetişizmi dinin meydana gəlməsinin ilk mərhələsi hesab edirlər.

**FEY (الفئ):**

İslam dövlətlərində qeyri-müsəlman əhalidən alınan cizyə, xərac, üşr və digər vergilər üçün istifadə olunan ümumi ad. Qeyri-müsəlmanlardan alınan qənimətlərlə əlaqəli Qurani-Kərimin əlaqədar ayələrinin ("Ənfal", 8/1, 41; "Həşr", 59/6-10) Məhəmməd peyğəmbər dövründəki tətbiqi, bundan əlavə, ikinci xəlifə Ömər ibn Xəttab dövründə xilafət ərazisinin genişlənməsi nəticəsində qeyri-müsəlmanlardan alınan vergilərlə əlaqəli yeni islahatlar İslam tarixinin ilk dövrlərindən feyin əhatə və istifadə çərçivəsini formalaşdırmışdır.

**FEYZ (الفيض):**

"Coşub-daşmaq" demək olub, cəmi "füyuzat"dır. Sufilkdə Allah tərəfin-

dən salikin qəlbinə gələn, könlünə dolan hissiyyat. Salikin hüzur ilə hiss etdiyi bu duyğular onun hər hansı bir cəhdi ilə əldə edilmir. Elməlyəqindən sonra eynəlyəqin mərtəbəsindəki istedadların varlıq zərurətini meydana gətirən “zati-hübbi” təcəlliyə “feyzi-əqdəs”, bu istedadların zahirdəki təzahürləri “ismi” təcəllilərlə olur ki, buna da “feyzi-müqəddəs” deyilir. Şeyx və müridə sənəd və silsilə vasitəsilə gələn feyzə “feyzi-isnadi”, yaxud “irfani”; bilavasitə Allahdan gələn feyzə isə “feyzi-ilahi” və ya “feyzullah” deyilir. Feyz, həmçinin İslam peripatetik (məşşai) fəlsəfəsində kainatın yaradılışını izah etmək üçün neoplatonizmin təsiri ilə irəli sürülən südur/daşma (emanasiya) nəzəriyyəsinə də deyilir. Bu nəzəriyyəyə görə, bütün varlıqlar daimi şəkildə Tanrıdan çıxıb-daşaraq meydana gəlir. Belə bir yanaşma südur, zühur, xüruc və nüzul kimi terminlərlə açıqlanmışdır. Feyz, təsəvvüf fəlsəfəsinə görə, hər hansı bir cəhd olmadan insanın qəlbinə Tanrı tərəfindən verilən bilikdir.

**FƏAL AĞIL (العقل الفعال):**

İslam peripatetizmində mücərrəd ağıllardan birinin adı. “Ağıl” termini ilə maddədən mücərrəd olan bütün mahiyyətlər nəzərdə tutulur. Ağıl olduğu üçün fəal ağıl cisimsiz və ya maddəsiz bir substansiyadır (cövhər). Bu substansiyanın əsas xüsusiyyəti heyulani ağlı aydınladaraq, potensial haldan aktiv hala gətirməkdir. Fəal ağlın ağıl vasitəsilə dərk edilənlərə və düşünən qüvvəyə nisbəti günəşin müşahidə edilən əşyalara və görmə orqanına nisbəti kimidir. Yəni eyni ilə günəş kimi fəal ağıl da görünənləri potensial haldan aktiv hala gətirir. Filosoflar bəzən bu ağlı “mələk” adlandırmışlar. Farabiyə (871-950) görə, ağlın dörd dərəcəsi mövcuddur. Belə ki, ağıl əvvəlcə potensiya dərəcəsində olur, sonra aktiv hala gəlir, əşyaları müşahidə edərək, məlumatlar toplayaraq nəhayət, fəal ağıl dərəcəsinə yüksəlir. Ağlın yüksəldiyi bu son mərhələ və ya dərəcə bütün kainatı qavrasa da, Tanrını qavraya bilmir. Buna görə də fəal ağıl Tanrı deyil, insana xas ağıldır. Farabiyə görə, Allahın qavranılması dərki ağıl ilə deyil, intuisiya ilə mümkündür.

**FƏCR NAMAZI (صلاة الفجر):**

“Sübh namazı” deməkdir. Fəcr namazının vaxtı dan yerinin ağarmasından günəşin doğulmasınadək olan müddətdir.

**“FƏCR” SURƏSİ (سورة الفجر):**

Quranın 89-cu surəsi. 30 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədə and içilən “səhərçağı” mənasındakı “fəcr” sözündən alınmışdır. Surə andlarla başlayıb, əsasən, iman və saleh əməli tərk edənlərin dünya və axirətdə qarşılaşacaqları pis aqibəti, iman əhlinin isə hər iki dünyada xoşbəxtliyi haqqında mövzulardan bəhs edir.

**FƏQİH (الفقيه):**

“Fiqh alimi” deməkdir. Fiqh dinin əməli hökmlərini əhatə edən elmdir. “Fəqih” sözü “müctəhid” mənasında da işlənmişdir. Fəqihlər sahib olduqları biliyə görə müxtəlif təbəqələrə bölünürlər. Bunlara müstəqil müctəhidi, məzhəb müctəhidini və məsələ müctəhidini misal göstərmək olar.

**FƏLAH (الفلاح):**

“Dünya və axirət səadəti” mənasında işlənən termin. Ərəb dilində “yarmaq, tarlanı şumlamaq” mənasındakı fəlhdən yaranmış “fəlah” “zəfər”, “nicat”, “xilas” və “fövz” kəlmələri ilə sinonimdir. Lüğəvi baxımdan “arzu edilən şeyləri əldə etmək, arzu edilməyənlərdən xilas olmaq, xeyir, nemət, rifah və səadət içərisində olmaq” mənaları var. “Fəlah” termin olaraq insanın dini və əxlaqi vəzifələrini yerinə yetirməsi nəticəsində dünyada qazanacağı müvəffəqiyyət və səadətlə axirətdə əldə edəcəyi əbədi nicat və səadəti bildirir.

**FƏLƏK (الفلك):**

Planetlərin orbiti. Orta əsr İslam kosmologiyasında ulduzları daşıdığına və hərəkət etdirdiyinə inanılan şəffaf göy kürəsinə verilən addır. Bu termin İslam fəlsəfəsində, xüsusilə Farabinin (871-950) sistemləşdirdiyi südur nəzəriyyəsində böyük əhəmiyyət kəsb edən məfhumdur. Belə ki, bu nəzəriyyədə kürə, yaxud göy cisimləri adı ilə qeyd olunan fələklər fiziki varlıqları ilə yanaşı, ağlı və ruhu olan, dairəvi hərəkət edən varlıqlar olaraq açıqlanır. Farabiyə görə, fələklər Yer üzərindəki bütün dəyişikliklərin fiziki səbəbini təşkil edir. Bütün bu səbəblər isə “ilk səbəb”ə bağlıdır. İbn Sina (980-1037) də bu mənada, Farabi ilə eyni fikirdədir. İbn Sinaya görə, fələklər ayaltı aləmdə mövcud olan dörd ünsürdən (Hava, Od, Su, Torpaq) meydana gələn cisimlərə müqabil olaraq beşinci ünsürdən (guinta essentia) meydana gəlmişdir. “Fələk” termini İslam düşüncəsində astronomiya sahəsində də “elmi-fələk” (fələk elmi) adı altında müzakirə obyektinə çevrilmişdir. Bundan əlavə, Yer üzü nəzər nöqtəsinə alınaraq, dünyanın ətrafında dövr etdiyi düşünülən səmavi kürələrə də fələk adı verilmişdir. Göy üzündə bütün ulduz və planetlərin özünəməxsus qatları vardır. Orta əsrlərdəki İslam peripatetik fəlsəfəsinin kosmoloji təsəvvürünə görə, həmin qatlar doqquz ədəddir. Bunlardan birincisi, ilkhərəkətli fələkdir (fələki-əqsa, fələki-əflak); ikincisi, sabit ulduzlar kürəsi (əl-kəvakib əs-sabitə); üçüncüsü, Saturn/Zühal kürəsi; dördüncüsü, Yupiter kürəsi; beşincisi, Mars; altıncısı, Günəş (şəms); yeddincisi, Venera (zöhrə); səkkinzincisi, Merkuri və doqquzuncusu, Ay (qəmər) kürəsidir. Müasir kosmologiyaya görə, Günəşin ətrafında doqquz əsas Planet dövr etməkdədir. XVI əsrdə Kopernikdən (1473-1543) sonra Kepler (1571-1630) planetlərin Günəş ətrafında fırlanmaları ilə əlaqədar qanunları empirik təcrübələrlə əsaslandırmışdır.

**“FƏLƏQ” SURƏSİ (سورة الفلق):**

Quranın 113-cü surəsi. 5 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surənin adı ilk ayədəki “fələq” (sübhçağı) sözündən götürülüb. Surədə yaradılanların şərindən, gecənin şərindən, düyünə üfürənlərin şərindən və həsədçilərin şərindən Allaha sığınmaq haqqında bəhs edilir. 114-cü surə olan “Nas” ilə birlikdə “Fələq” surəsinə iki qoruyucu mənasında “müəvvizəteyn” adı da verilmişdir.

**FƏLSƏFEYİ-ULA (الفلسفة الاولى):**

Metafizika. Nəzəri fəlsəfənin varlığı varlıq olması etibarilə araşdıran, Tanrı və başqa fövqəltəbii varlıqlarla yanaşı, təbiət elmlərinin əsaslarını tədqiq edən bölümünə verilən addır. Fəlsəfə tarixində bu sahəyə “ilk fəlsəfə”, “metafizika”, “ma bədət-təbiə”, “ma vəraət-təbiə”, “əl-ilm əl-ilahi”, “əl-ilm əl-əla” kimi adlar da verilmişdir.

**FƏNA (الفناء):**

Yox olmaq, heçlik, müvəqqəti yoxluq. Bəndənin pis və arzuolunmaz hal, hərəkət və davranışlarını tərk edərək, onların əvəzində ideal sufi məziyyətlər qazanması və bu vəsflərlə həmhal olmasıdır. Cüneyd Bağdadiyə görə, fəna “Allahın səni səndə öldürüb, səni özündə diriltməsi”dir.

**FƏNA FİL-EŞQ (فناء في العشق):**

Eşqin əsiri olduqdan sonra ona qərq olma halı. Eşq, aşiq və məşuqun vəhdət halı. Aşiqin məşuqda fəna olma halı. **Bax: FƏNA.**

**FƏNA FİLLAH (فناء في الله):**

Allahda fani olmaq. Bəndənin bəşəri xüsusiyyətlərindən və pis arzulardan uzaqlaşıb, ilahi vəsflərə qərq olması halı. “Məndə olan aşikar sənsən / Mən xod yoxam ol ki, var sənsən (Füzuli)” .

**FƏR (الفرع):**

Fiqh üsulunda qiyasın ünsürlərindən biri olan fər “əslə qiyas edilən və haqqında hökm olmayan ikinci məsələ” mənasındadır. Cəm forması olan “füru” isə fiqhin üsul xaricində qalan mövzularına deyilir. “Fər” sözünün üçüncü mənası isə miras məsələləri ilə bağlı olub, “insanın övladları və nəvələri” mənasında işlədilir.

**FƏRAİZ (الفرائض):**

“Fərizə” sözünün cəmi olub, “miras payı” mənasındadır. Ümumi olaraq “miras hüququ” mənasında işlədilir. Buna görə də miras haqqında yazılan kitablar və ya mirasla bağlı fəsillər “fəraiz” adlandırılır.

**FƏRİ MƏD (ألمدّ الفرعيّ):**

Əsli, yaxud təbii məddin miqdarını artıracaq başqa bir səbəbin mövcud olduğu məddə “fəri”, yaxud “məzid məd” deyilir. Fəri məddin iki səbəbi var: həmzə və sükun.

**FƏRSƏX (فرسخ):**

Klassik İslam ədəbiyyatında məsafə ölçü vahidi üçün istifadə olunan termin. Farsca “fərsəng” sözündən ərəb dilinə keçmiş “fərsəx” həm müsəlman ölkələrində, həm də digər dövlətlərdə

fərqli ölçü vahidi kimi istifadə olunmuşdur. Bir fərsəx İranda atın adi qaydada bir saata getdiyi məsafə – 6,23 km, ərəb ölkələrində isə 5,985 km hesablanırdı.

**FƏRZ (الفرض):**

Dinin insanlardan qəti olaraq tələb etdiyi əmələ "fərz" deyilir. Digər məzhəblər "fərz" terminini vaciblə eyni mənada işlətdiyi halda, hənəfilər fərzi vacibdən fərqləndirərək daha qəti şəkildə tələb olunan feillərə "fərz" adını vermişlər.

**FƏRZİYYƏ (فرضية):**

Fərzetmə, hipotez. Bir problemə mümkün həll yolu olaraq irəli sürülən, sonradan ağıl, empirik təcrübə və müşahidə yolu ilə doğru olub-olmadığının araşdırılması nəzərdə tutulan düşüncədir. Doğruluğu isbatlanmamış olmasına baxmayaraq, təsdiqini tapması üçün ortaya atılmış bütün mülahizələr "fərziyyə" adlanır.

**FƏSAD (الفساد):**

İbadət və ya hüquqi bir işin rüknlərinin tam olub şərtlərinin naqis olmasına "fəsad" deyilir. Rüknün naqis olmasına isə "batil" deyilir. Fəqihlərin çoxuna görə fasidlə-batil arasında fərq yoxdur. Hənəfilər isə fasidi batildən fərqləndirərək, hüquqi işin şərtlərindəki çatışmazlığı "fasid" adlandırmış və bu nöqsanın aradan qaldırılması ilə hüquqi işin səhih olacağını qəbul etmişlər.

**FƏSAHƏT (الفصاحة):**

"Sözün qüsursuz və açıq olması" mənasında bəlağət termini. Təfsirdə "Quranın sözlərinin ən uyğun şəkildə, qüsursuz ifadə edilməsi" mənasında işlədilir. Burada sözlərin düzgün seçilməsi, ifadə şəklinin açıq olması, fikrin ən qısa şəkildə dolğun ifadəsi əhəmiyyət kəsb edir.

**FƏSX (الفسخ):**

"Bir müqavilənin ləğv olması" deməkdir. Təktərəfli müqavilələrdə bir tərəfin, ikitərəflilərdə isə hər iki tərəfin razılığı ilə müqavilənin hökmünün aradan qaldırılması mümkündür.

**FƏTANƏT (الفطانة):**

Peyğəmbərlərin sifətlərindən biri olub "iti zəka qabiliyyətinə sahib olma" mənasında işlənən termin. **Bax: NÜBÜVVƏT.**

**"FƏTH" SURƏSİ (سورة الفتح):**

Quranın 48-ci surəsi. 29 ayədən ibarətdir. Mədinə dövründə nazil olmuşdur. Surənin adı ilk ayədəki "fəth" sözündən alınmışdır. Mənası "açmaq", "hökm vermək", "zəfər qazanmaq" deməkdir. Surədə Həzrət Peyğəmbərə böyük zəfər veriləcəyinə dair müjdə yer alır. Bununla yanaşı, möminlərin qəlbinə rahatlıq gəlsin deyə, onlara inam aşılanmış, qarışıqlıq yaratmaq istəyən münafiqlər isə xəbərdar edilmişlər. Hüdeybiyyə sülhünün vacibliyi, möminlərə Allahın dəstəyinin veriləcəyi, Məkkənin fəthinin müjdələnməsi də surənin məzmununda yer alır.

**FƏTHNAMƏ (فتحنامه):**

İslam dövlətlərində fəth olunan bölgələr və qazanılan zəfərlərdən xəbər verən məktub və fərmanlar, həmçinin bu fəthləri təsvir edən tarix əsərləri üçün istifadə olunan termin. Abbasilərin II əsrindən etibarən hökmdarların qazandıqları zəfərdən sonra ölkə daxilində və xaricində güclərini nümayiş etdirmək məqsədilə dost və düşmən dövlətlərə elçi heyəti ilə birlikdə göndərdikləri bu məktublar, göndərilən dövlətlə münasibətə əsasən "zəfərnamə" və yaxud "təhdidnamə" də adlandırılmışdır. Döyüşdən dərhal sonra yazıldığı və döyüş haqqında məlumatları da ehtiva etdiyi üçün fəthnamələr aid olduqları dövrün tarix əsərləri sayılsalar da, bəzən tarixi obyektivlikdən uzaq məlumatlar əks etdirdikləri görə, müstəqil mənbə kimi istifadə olunmur.

**FƏTTAH (الفتّاح):**

Allahın adlarından (əsmai-hüsna) biri. Lüğəvi baxımdan "bir şeyi açmaq, iki tərəf arasında hökm vermək, birinə kömək edib qələbə qazandırmaq" mənasını verən "fəttah" termin olaraq "xeyir qapılarını açan, bütün anlaşılmazlıqların son hökmünü verərək mütləq ədaləti bərqərar edən, haqq ilə batili ayıran, məzlumlara kömək edib mömin bəndələrə zəfər nəsib edən" deməkdir. Quranda "fəth" kəlməsi feil, yaxud isim olaraq otuz iki yerdə keçir. Kəlam alimləri kəlmənin lüğəvi mənasını və Allaha aid edilən bir ad olaraq Qurandakı mənasını nəzərə alaraq, "fəttah" adının "hakim" mənasına uyğun gəldiyini qəbul ediblər. Fəttah "anlaşılmazlıqları həll edən, haqq ilə batili ayıran" mənasına görə zati sifətlərdən, "zəfər, ruzi verən, qəlb gözünü açıb hidayət bəxş edən" mənasında isə feili sifətlərdən hesab edilir.

**FƏVATİHÜSSÜVƏR (فواتح السّور):**

Surələrin başlanğıc cümlələri mənasını ifadə edən təfsir termini. Hər surənin ilk ayəsini, xüsusilə müqəttəə hərflərini, hansı şəkildə başlayıb necə davam etməsini və hansı mənaya gəlməsini tədqiq edir. Quran surələri tərif, heca hərfləri, müraciət, xəbər vermək, and içmə, qınama, səbəb bildirmə, sual, şərt və əmr kimi müxtəlif üslublarla başlayır.

**FƏYƏZAN.** ***Bax:*** **SÜDUR.**

**FƏZAİLİ-QURAN (فضائل القرآن):**

Quranın fəzilətləri. Quranda yer alan surələr və bir qisim ayələrin fəzilət və üstünlükləri ilə əlaqəli rəvayətlər toplusu. Bu rəvayətlərin, əsasən Həzrət Peyğəmbərdən gəldiyi qeyd edilir. Eyni zamanda bu barədə yazılan əsərlərə verilən addır.

**FƏZİLƏT (الفضيلة):**

İki ifrat dərəcə (ifrat və təfrit) arasındakı orta yol, dəyər, qiymət, məziyyət, insanda ağıl, kamal, elm-mərifət, mərdlik, yüksək mənəviyyat, alicənablıq kimi sifətlərin ümumi adı. Müdriklik, kamillik.

**FISIX:**

İsrailoğullarının Misirdən çıxışının xatirəsinə qeyd olunan yaz bayramı. 15-22 aprel arasında qeyd olunan bu bayramda mayalanmış qidadan istifadə qadağandır.

**FİCAR MÜHARİBƏLƏRİ (ايام الفجار):**

Cahiliyyət dövründə "haram aylar" adlandırılan zilqədə, zilhəccə, məhərrəm və rəcəb aylarında bəzi ərəb qəbilələri arasında baş verən döyüşləri ifadə edən termin. Mənbələrdə Məhəmməd peyğəmbərin əmisi Zübeyrin başçılığı ilə Haşimoğullarının tərkibində IV Ficar müharibəsində iştirak etdiyi qeyd olunur.

**FİDEİZM (fideism):**

"Dinin müdafiəsi üçün elmi biliklərdən istifadə etməyin doğru olmadığını iddia edən təlim. Fideizm latınca "fides" – inam sözündən götürülmüşdür. Dini inancları və qanunları ağlın qiymətləndirmə və yoxlamasını özünün predmet hissəsi kimi qəbul etmir. Danimarkalı mütəfəkkir Sören Kyerkeqor dini həqiqətləri arqumentlər və sübutlar əsasında axtaranları tənqid edərək deyirdi: "Risksiz iman iman deyildir. Dəqiq desək, iman fərdin ruhunun sonsuz həyəcanı ilə obyektiv yəqini yoxluq arasında ziddiyyətdir. Əgər mən Tanrını obyektiv şəkildə başa düşə bilsəm, deməli, imanım yoxdur. Sırf bu işə qadir olmadığıma görə, Ona iman gətirməliyəm. Əgər özümüzü iman vadisində təhlükəsiz saxlamaq istəyiriksə, obyektiv yəqinsizliklə həmişə əlbəyaxa olmalıyıq". Fideistlərə görə, elm yalnız hadisələr, faktlar haqqında, ikinci törəmə səbəblər haqqında bilik verir, lakin ilkin səbəbləri aşkara çıxarmağa, varlığın daha dərin mənbələrini izah etməyə qadir deyil. Fideistlərin fikrincə, yalnız din kainatın mövcudluğu və qayəsi prinsiplərinə həqiqi izah verir, insan həyatına məna və məzmun gətirir. Elm isə bunun həyata keçirilməsi üçün yalnız müəyyən vasitələr verir.

**FİDYƏ (الفدية):**

Əsirlikdən xilas olmaq və ya bəzi ibadətlər yerinə yetirilərkən meydana gələn müəyyən qüsurlar üçün ödənən mal. Yaşlılıq və ya xəstəlik ucbatından oruc tuta bilməyən insanlar daha sonra qəza etmələri də mümkün olmadığı təqdirdə, bunun əvəzinə fidyə verməlidir. Həcc və ümrə ibadətləri əsnasında qadağan olunan hərəkətlərdən biri işlənildiyi zaman da kəffarə ödəmək lazımdır. Bu da "fidyə" adlandırılır.

**FİQHÜLHƏDİS (فقه الحديث):**

"Fiqh" kəlməsi lüğəvi baxımdan "sözün məna və məqsədini qavramaq", hədis isə "söz" mənasında işlədilir. Buna görə də "fiqhül-hədis" hər hansı bir sözdən onu söyləyənin nə demək istədiyini anlamaq və qavramaq deməkdir. Qurani-Kərimdə bu mənada işlədilmişdir ("ən-Nisa", 4/78). "Fiqhül-hədis" hədislərə

əsaslanaraq peyğəmbərin qayəsini anlamaq mənasını verir.

**FİL HADİSƏSİ:**

Cahiliyyət dövründə Kəbəni məhv etmək və Xristianlığı yaymaq məqsədilə Məkkəyə gələn həbəş ordusunun məğlub olması hadisəsi. Tarixi, səbəbi və nəticəsi haqqında mənbələrdəki rəvayətlər fərqli olan Fil hadisəsindən və həbəş ordusunun qeyri-adi şəkildə məğlub olmasından Qurani-Kərimin eyniadlı – 105-ci surəsində bəhs olunur. Fil hadisəsi əhəmiyyətinə görə, VI əsrdə müəyyən bir müddət bəzi ərəblər tərəfindən tarix başlanğıcı kimi istifadə olunmuşdur.

**"FİL" SURƏSİ (سورة الفيل):**

Quranın 105-ci surəsi. 5 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Adını ilk ayədə keçən "fil" sözündən almışdır. Surədə Həzrət Peyğəmbərin dünyaya gəlməsindən əvvəl baş vermiş "fil hadisəsi və Allahın Kəbəni qorumasından bəhs olunur.

**FİRDÖVS (الفردوس):**

Bütünlükdə cənnət, yaxud cənnətin bir hissəsi üçün istifadə edilən adlardan biri. Lüğətdə "içində hər cür ağacın, xüsusən üzüm bağlarının olduğu böyük bağça" mənasını verən firdövs (cəmi fəradis) ədəbiyyatda üzüm və tənəklərin sıx olduğu, sıx ağaclarla örtülü yamyaşıl bağçaları ifadə etmək üçün istifadə edilmişdir. İslam mənbələrində "firdövs" kəlməsinin mənşəyi haqqında müxtəlif fikirlər söylənmişdir. Ərəbmənşəli olduğunu söyləyənlərlə yanaşı, yunanca, yaxud farscadan gəldiyi də deyilir. "Firdövs" Quranda biri "cənnət əl-firdövs" ("Kəhf" 18/107), digəri yalnız "firdövs" ("Muminun", 23/11) şəklində olmaqla iki yerdə keçir. Kəlmə Həzrət Peyğəmbərə nisbət edilən və cənnətdən bəhs olunan müxtəlif hədislərdə keçir. İslam alimlərinin dini mətnlərdə qeyd edilən məlumatlara əsaslanaraq, firdövs haqqındakı izahlarını iki nöqtədə xülasə etmək mümkündür: 1. Firdövs, ümumilikdə, cənnəti ifadə edən bir addır. 2. Firdövs cənnətin ortasını, ən uca və ən qiymətli yerinin adı olub, burada peyğəmbərlərlə vəlilər (Allah dostları) qalacaqlar.

**FİRQEYİ-NACİYƏ (الفرقة الناجية):**

Lüğəvi mənası "nicat tapan, qurtulan firqə" olan "firqeyi-naciyə" termini Məhəmməd peyğəmbərə aid edilən bir hədisdən götürülmüşdür. Bəzi hədis mənbələrində keçən və hər məzhəbin öz dünyagörüşünə uyğun şəkildə nəql etdiyi bu hədisə görə, Peyğəmbər "Yəhudilər 71, xristianlar 72, mənim ümmətim isə 73 firqəyə bölünəcək. Bunlardan 72-si cəhənnəmlik, biri isə cənnətlik olub nicat tapan firqədir", – demişdir. Hədisin son cümləsinin sünni versiyasında qurtulan firqənin Məhəmməd peyğəmbər və səhabələrinin, şiə-imamiyyə versiyasında isə Əhli-beytin yolu ilə gedənlər olduğu bildirilir. Bəzi alimlər adıçəkilən hədisi sənəd

baxımından səhih qəbul etmiş, bəziləri isə qəbul etməmişlər. Orta əsrlərdə müxtəlif məzhəblərə mənsub din alimləri nicat tapan firqənin məhz onların məzhəbdaşları olduğunu iddia etmişlər. Məsələn: hənbəli din alimi İbn Bətta (v. 387/997) sələf əqidəsini müdafiə etmək üçün yazdığı “əl-İbanə ən şəriət əl-firəq ən-naciyə və mücanəbə əl-firəq əl-məzmumə” (Nicat tapan firqələrin dini görüşlərinin və doğru yolda olmayan firqələrdən uzaq durmağın aydınlaşdırılması barədə əsər) adlı kitabın adında “əl-firqə ən-naciyə” ifadəsindən istifadə edərək, nicat tapan firqənin məhz onun məzhəbinə mənsub insanlardan ibarət olduğuna eyham vurmuşdur. Müasir dövrdə hədisin Məhəmməd peyğəmbərə aid olduğuna şübhə ilə baxanlarla yanaşı, hədisdəki “nicat tapan firqə”nin müəyyən bir məzhəbi deyil, İslamın əsas əqidələrini qəbul edən bütün məzhəbləri əhatə etdiyini irəli sürən din alimləri vardır.

**FİRQƏ (الفرقة):**

Lüğəvi mənası “bölünmək, ayrılmaq” mənasına gələn “firqə” (cəmdə “firəq”) kəlməsi İslam məzhəbləri tarixində siyasi və əqidə məzhəbləri üçün istifadə olunan bir termindir. Növəxtinin “Firəq əş-şiə” (şiə firqələri), Əbu Xələf əl-Qumminin “əl-Məqalat vəl-firəq” (məzhəblər və firqələr), Əbdülqahir Bağdadinin “əl-Fərq beynəl-firəq” (firqələr arasındakı fərq) kimi İslam məzhəbləri tarixinə dair yazılmış mənbələrin adında bu termindən istifadə olunmuşdur.

**FİSQ (الفسق):**

Dinin əmr və qadağalarına zidd davranmaq mənasında fiqh və hədis termini. Lüğəvi baxımdan “təzə xurma qabığını yarıb-çıxmaq, müəyyən bir sərhədi aşmaq” mənasını verən və islamdanəvvəlki dövrdə daha çox bitki və heyvanlar haqqında istifadə edilən bu kəlmə İslam gəldikdən sonra “haqq yoldan ayrılma, Allahın əmrlərinə itaətsizlik etmə” kimi xüsusi məna kəsb etmiş, həm müsəlman olmayanlar, həm də dinin əmrlərinə zidd hərəkət edən müsəlmanlar haqqında istifadə edilmişdir. Qurani-Kərimin bəzi ayələrində imanın ziddi (“Bəqərə”, 2/99; “Ali-İmran”, 3/110; “Ənam”, 6/49; “Səcdə, 32/18), bəzi ayələrdə isə dinin əmrlərinə itaətin ziddi olaraq (“Bəqərə”, 2/197; “Nur”, 24/4; “Hucurat”, 49/7, 11) işlənir, hidayət və zəlalət terminləri ilə də əlaqəsi qurulur (“Bəqərə”, 2/26; “Tövbə”, 9/80; “Hədid”, 57/26). Quranda kəlmənin keçdiyi yeddi ayədə müxtəlif mənalarda işlənən “fisq” ictimai münasibətlərlə yanaşı, dinin əmr və qadağalarına zidd davranmağı da ehtiva edir. Kəlam və məzhəblər tarixində “fisq” termininin məna çalarları ilə əlaqəli geniş müzakirələr aparılmışdır.

**FİTƏN VƏ MƏLAHİM (الفتن والملاحم):**

Gələcəkdə meydana çıxacaq sosial xaos, daxili savaş kimi mühüm hadisələr və qiyamət əlamətlərinə dair

xəbərləri, bunlarla əlaqəli ədəbiyyatı ifadə edən termin. “Fitən” lüğəvi baxımdan “saf olub-olmadıqlarını öyrənmək üçün qiymətli daşları odda əritmək” mənasındakı “fətn” kökündən törəyən “fitnə” kəlməsinin cəmidir. “Məlahim” isə “bir işi layiqincə yerinə yetirmək” mənasındakı “ləhn” kökündən törəyən “məlhəmə” kəlməsinin cəmidir. “Fitnə” Quranda “insanın üsyan, yaxud səbrini ölçmək üçün olan hər cür ilahi imtahan”ın adıdır. Məlhəmə daha çox “ağır itki və dağıntı ilə nəticələnən savaş və fitnə anında çıxan xaos, yaxud bunların baş verdiyi yer”in adıdır. Hədis mənbələrində bu kəlmələrin “müsəlman cəmiyyətində müxtəlif dini və siyasi səbəblərdən meydana çıxan hər cür sosial xaos, savaş və ölümlə nəticələnən hadisə, qiyamətdən əvvəl zühur edəcəyi gözlənilən əlamətlər” mənasında işləndiyi diqqət çəkir.

**FİTNƏ (الفتنة):**

İslam tarixində dini, ictimai və siyasi qarışıqlığı ifadə etmək üçün istifadə olunan termin. Üçüncü xəlifə Osman ibn Əffanın öldürülməsi ilə başlayıb Cəməl, Siffin, Xaricilər hərəkatı, Əməvilər dövrü Hərrə hadisəsi və Məkkənin işğalı kimi hadisələr İslam cəmiyyətindəki ilk fitnə hadisələri sayılmışdır.

**FİTRƏT (الفطرة):**

İnsanın anadangəlmə sahib olduğu bütün xüsusiyyətlərini ifadə edən termin. “Yarmaq, ikiyə bölmək; yaratmaq” mənasındakı “fətr” sözündən törəmiş “fitrət” kəlməsi “yaradılış, qabiliyyət və bacarıq” deməkdir. İlk yaradılış, bir növ, mütləq yoxluğun yarılaraq içərisindən varlığın çıxması şəklində düşünüldüyü üçün “fitrət” kəlməsi ilə ifadə edilmişdir. Buna görə fitrət ilk yaradılış anında varlıq növlərinin əsas strukturuna, xarakterinə və hələ xarici təsirlərdən təsirlənməmiş hallarına deyilir. Quranda və hədislərdə “fitrət” və onunla əlaqəli kəlmələrə yer verilir.

**FİTVA (الفتوى):**

Fəqihin dini məsələlər haqqında soruşulan suala hökm bildirərək cavab verməsinə “fitva” deyilir. İctihaddan fərqli olaraq, fitva yeni bir hökm qoymaq deyil, mövcud olan hökmü açıqlamaqdır.

**FÖVZ (الفوز):**

Dünya və axirət həyatında təhlükələrdən xilas olub səadətə qovuşmaq mənasında işlənən termin. Fövz “qorxu, təhlükə, şər və əzab kimi hallardan xilas olub xeyir, səadət və asayişə qovuşma” mənasında işlənir. İnsanın dünyadakı davranışlarına görə bir tərəfdən, həlak olması, başqa tərəfdən, dünya yüklərindən xilas olub əbədi nemətlərə qovuşması ilə nəticələndiyi üçün ölüm hadisəsi, bundan başqa, həm xilas olma ümidi, həm də yoxolma qorxusu verdiyi üçün biyabanlıq və səhralığa da “fövz” deyilir. Fövz Quranda, əsasən, Allaha və rəsuluna itaət etmək şərtinə bağlanaraq, əsl

nicat və müvəffəqiyyətin cənnətə girmək və Haqqın rizasını qazanmaqdan ibarət olduğu vurğulanmışdır.

**FUNDAMENTALİZM (fundamentalism):**

İngilis dilində "əsaslar", "təməllər" mənalarını ifadə edən "fundamentals" sözündən əmələ gəlmişdir. Bir termin olaraq "fundamentalizm" – xristian yevangelistlərin Müqəddəs Kitabı hərfi mənada izah etməklə bağlı mövqelərini nəzərdə tutur. Fundamentalizm yevangelist protestantlığın beş inanc əsasının müdafiəsinə yönəlmişdir: 1) Müqəddəs Kitabın qüsursuzluğu və hərfi mənada (literal) doğru qəbul edilməsi. 2) İsanın bakirə Məryəmdən möcüzəvi şəkildə doğulması. 3) İsanın insanların günahlarını bağışlatmaq məqsədi ilə (kəffarə) özünü qurban etməsi. 4) İsanın öldükdən sonra həqiqi mənada dirilməsi. 5) Kitabi-Müqəddəsdə qeyd olunan bütün möcüzələrin həqiqi mənada gerçəkləşdiyi, yəni möcüzələrin tarixi fakt olması. Fundamentalizm başlanğıcda yevangelist teologiya ilə əlaqəli bir termin kimi başa düşüldüyü halda, daha sonra hər hansı bir dini cərəyanın hakimiyyəti ələ keçirmək, siyasi məqsədlərə çatmağa cəhd etmək, eləcə də müəyyən ideologiyaya və ya dinə doqmatik şəkildə bağlanmaq və israrlı şəkildə onu başqalarına qəbul etdirmək mənalarında da istifadə edilməyə başlanmışdır. Beləliklə, fundamentalist dini cərəyanların sırasına hər hansı bir dini doqmaya kor-koranə və fanatizm dərəcəsində inanan, öz dini və ya ideoloji əqidəsini israrlı yollarla yaymağa çalışan və ictimai həyatın doqmatik inanc əsaslarının hakimiyyəti altına girməsinə cəhd göstərən dini cərəyanlar daxil edilir. Bununla da fundamentalizm termini, sadəcə, xristian yevangelistlərə məxsus olmaqdan çıxaraq, yuxarıda sadalanan xüsusiyyətləri ehtiva edən digər dini cərəyanlara da şamil olunmuşdur.

**FUNKSİONALİZM (functionalism):**

Psixologiya və sosiologiyada əsas nəzəriyyələrdən biri. Funksionalizm fərdin və ya ictimai bir institutun fəaliyyətinin öyrənilməsi üçün onun sosial-mədəni sistemdə oynadığı funksiyaları – rollar və vəzifələri nəzərdən keçirən metodoloji yanaşmadır. "Funksiya" terminini sosiologiyaya Herbert Spenser daxil etmişdir. O, hesab edirdi ki, orqanizmdə hər bir orqanın yerinə yetirdiyi müəyyən funksiya olduğu kimi, cəmiyyətdə də hər bir ictimai institutun, məsələn, ailə, din, ənənələr və sairənin sosial sistemin işləməsinə töhfə verən vəzifə və rolları vardır. Psixologiyaya isə funksionalist yanaşma Uilyam Ceyms tərəfindən daxil edilmişdir. U.Ceyms insanın psixi fəaliyyətinin və bundan irəli gələn davranışlarının əsasını ətraf mühitə uyğunlaşma funksiyası ilə əlaqələndirmişdir.

**“FURQAN” SURƏSİ (سورة الفرقان):**

Quranın 25-ci surəsi. 77 ayədən ibarətdir. Əsasən, Məkkə dövründə nazil olduğu haqqında rəvayətlər üstünlük təşkil edir. Surənin adı ilk ayədə keçən “furqan” (haqqı batildən ayırd edən) sözündən alınmışdır. Mövzusu, əsasən, Həzrət Peyğəmbərə edilən etirazlar və bu etirazların cavablandırılmasından ibarətdir. Belə ki, surədə peyğəmbərliyin mahiyyəti, axirət həyatı, vəhyin gəlməsi haqqında bir çox suallara tutarlı cavablar verilmişdir.

**“FUSSİLƏT” SURƏSİ (سورة فصلت):**

Quranın 41-ci surəsi. 54 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surənin adı 3-cü ayədə keçən “fussilət” (xırdalıqları ilə açıqlandı) sözündən alınmışdır. Mövzusu Quranın Allah tərəfindən endirilməsi və həqiqəti əks etdirməsi haqqındakı etirazlar və onlara cavablardan ibarətdir. Eyni zamanda, Allahın varlığı, təkliyi, Ona itaət etmənin üstünlüyü mövzularına da toxunulmuşdur.

**FÜNUNİ-QURAN (فنون القرآن):**

Quranın müraciət etdiyi şəxslərə özünə uyğun şəkildə xitab etməsi. Bu xüsus “üslubul-Quran” da adlandırılır. Quranın sözlərinin səs ahənginə uyğun, mənasının üstün formada olması, cümlələrinin isə açıq-aydın şəkildə ifadə edilməsi Fünuni-Quranın daxilində tədqiq edilir.

**FÜTUHAT (الفتوحات):**

İslam coğrafiyasını genişləndirmək məqsədilə müsəlmanların iştirak etdikləri hərbi yürüşlər üçün istifadə olunan termin. Müsəlmanlara görə, fütuhatın əsas məqsədi Allahın sözünü Yer üzündə hakim mövqeyə gətirmək idi (ilayi-kəlimətullah). Fütuhat əsnasında yerli əhaliyə müsəlman olmaq və yaxud cizyə ödəmək müqabilində öz dinində qalmaq seçimi verilirdi.

**FÜTÜVVƏT ( الفتوة):**

Sözün kökü “fəta” olub, lüğəvi mənada “gənclik, mərdlik, igidlik, comərd və səxavətli” kimi işlənir. “Fütüvvət”, bir növ, “empatiya” mənasında bir şəxsin məhz insanlıq naminə başqalarının mənfəətini özününkündən irəli tutmasıdır. Başqa fərdin və ya cəmiyyətin nicat tapması və xoşbəxtliyi naminə fərdin özünü fəda etməsidir. Sufi ədəbiyyatında ilk dəfə Cəfəri-Sadiqin (ö. 148/765) termin kimi (təsəvvüf sahəsində) istifadə etdiyi qeyd edilir. İmam bu haqda belə demişdir: “Bizə görə fütüvvət ələ gələn bir şeyi öz ehtiyacı olduğu halda möhtaclara vermək, ələ gəlməyən bir şey üçün də şükür etməkdir”.

**FÜYUZAT. Bax: FEYZ.**

# G

**GANA:**

Sanskritcə “ordu”, “dəstə” mənasındakı “gana”, bir termin kimi “Ganadevata” şəklində Hinduizmdə Şivanın ardıcılları olan ilahi varlıqlara deyilir.

**GEMARA:**

Yəhudiliyin müqəddəs mətnlərindən Mişnanın ənənəvi şərhlərinə verilən ad. Bu şərhlər III-VI əsrlərdə ravinlərin Mişna hökmləri ilə əlaqəli və Mişnaya daxil olmayan apokrif mətnləri də əhatə edir. Mişnadan fərqli olaraq bu mətnlər sistemli deyil, bir-birinə zidd fikir və yanaşmaları, həm təcrübi və hüquqi, həm teoloji və fəlsəfi, həm də tarixi və əfsanəvi mövzuları əhatə edir. Gemara Mişna ilə birlikdə Talmud ədəbiyyatını meydana gətirir.

**GENTİLE:**

Kitabi-Müqəddəsdə yəhudi olmayanlar üçün istifadə edilən termin.

**GİROV (الرهن):**

Müəyyən haqq əvəzində bir malı təminat məqsədilə əldə tutmağa “girov” deyilir. “Girov” bir müqavilə növü olub, tərəflərin razılığı əsasında bağlanır. Müqavilə müddətində mal sahibinin və ya mirasçıların girovlu mal üzərində heç bir haqqı yoxdur. Malın girovdan azad edilməsi borcun ödənilməsi ilə mümkündür.

**GURPURB:**

Siqhizmə görə, quruların həyatı ilə əlaqəli hadisələrin illik qeyd olunduğu müqəddəs günlər.

# H

**HABİTUS (habitus):**

Sosioloji fikirdə ictimai struktur və fəaliyyəti bir-birinə bağlayan düşüncə və davranış nümunələrinin məcmusunu ifadə edən və ictimai siniflər arasındakı bərabərsizlikləri analiz edən termin. Fransız sosioloqu Pyer Burdye (1930-2002) tərəfindən işlədilən "habitus" məfhumu sosializasiya nəticəsində öyrənilərək mənimsənilən şüurlu və şüursuz vərdişləri və davranışları ehtiva edir. Bu fikrə görə, habitus sosial siniflərin özünəməxsus imtiyazları, səciyyəvi əlamətləri qoruyub saxlamanın əsas amillərdən biridir.

**HACİB (الحاجب):**

İslam dövlətlərində saray təşkilatında hökmdarın hüzuruna çıxanlardan məsul dövlət xadimi üçün istifadə olunan termin. İslam dünyasında ilk dəfə Əməvilər dövləti zamanı bir vəzifə sayılan haciblik səlahiyyətləri fərqli olmaqla, Abbasi, Samani, Qaraxanlı, Qəznəvi, Səlcuqlu və digər dövlətlərdə də mövcud olmuşdur.

**HADİ (الهادي):**

Allahın adlarından (əsmai-hüsna) biri. "Doğru yolu tapmaq; yol göstərmək, rəhbərlik etmək" mənasındakı hüda (hədy, hidayət) kəlməsindən yaranaraq, "yolgöstərən, xeyir və xoşbəxtlik verən bir hədəfə doğru yönləndirən" deməkdir. Quranda Allaha aid edilən hidayət məfhumunun işlənmə şəklini nəzərə alan alimlər "hadi" adının mənasını "insana həyatını davam etdirmək üçün lazım olan ağıl, mühakimə və zəruri məlumatları verən; "əbədi səadətini təmin edən mənəvi yolu ona göstərən" şəklində iki başlıqda toplayıblar. Hadinin Allaha nisbət edildiyi ayələrin birində Onun iman edənləri doğru yola yönəldəcəyi xəbər verilir ("Hacc", 22/54), digərində isə hidayət verən olaraq Allahın yetərli olacağı vurğulanır ("Furqan", 25/31; **Bax: HİDAYƏT).**

**HADİS (الحادث):**

"Hadis" sonradan yaradılmış deməkdir. **Bax: HÜDUS və HÜDUS DƏLİLİ.**

**HAKİM/QAZİ (الحاكم/القاضي):**

İslam hüququnda məhkəmədə ixtilafları həll edən və qəza məsələlərində hökm verən şəxs. Hakimin müctəhid vəsflərini daşıması lazımdır. İslamda ilk hakim Həzrət Peyğəmbərdir. O, insanlar arasında ixtilaflı məsələlər haqqında hökm vermiş və səhabələrinə də bunun yollarını öyrətmişdir.

**HAQQ (الحق):**

Allahın adlarından (əsmai-hüsna) biri. "Haqq" kəlməsi "həqiqət, doğru və

sabit olmaq, lazımlı və layiq olmaq, mümkünlük xüsusiyyətinə malik olmaq, hər zaman var olmaq, həqiqətəuyğun olmaq” deməkdir. “Haqq” məfhumu Quranda bir çox yerdə Allaha nisbət edilir. “Haqq” kəlməsi fərqli yerlərdə haqqın Allahdan olduğu, Allahın vədinin haqq olduğu, haqqın Allah dərgahında olduğu şəklində işlənmişdir. Quranda haqq Həzrət Peyğəmbərə, Qurana və dinə nisbət edilir.

**“HAQQA” SURƏSİ (سورة الحاقة):**

Quranın 69-cu surəsi. 52 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki “haqqa” sözündən alınmışdır. Mənası “haqq söz” və ya “qiyamət günü” olaraq bilinir. Surədə əvvəlki qövmlərin inkar etmələri səbəbindən, Allahın qəzəbinə uğramalarından və Quranın Allah kəlamı olmasından bəhs edilmişdir.

**HAL (الحال):**

Allahın sifətləri ilə varlıqlarla əlaqəli bəzi kəlam alimləri tərəfindən mənimsənilən nəzəriyyə.

**HALAL (الحلال):**

Sərbəst buraxılan, qadağan olunduğuna dair dəlil olmayan əməllər. Çox sayda tərifi verilən “halal” termininin ümumi mənası dinin icazə verdiyi hərəkət və davranışlardır. Bu sahəyə mübah, məndub, müstəhəb kimi hökmlər daxildir. Fiqh alimləri mübahlıq prinsipindən çıxış edərək, dinin qadağan buyurmadığı bütün sahələri halal sərhədlərində qəbul etmişlər.

**HALSA:**

Siqhizmdə sonuncu quru hesab olunan Quru Qobind Sinqin 1699-cu ildə qurduğu qardaşlıq təşkilatı. Siqhizmin hərbi cəhətini ön plana çıxaran Halsa Təşkilatına qoşulan kişilərin xarici görünüşlə əlaqəli “beş k” adlandırılan qaydaları tətbiq etməsi vacibdir.

**HARAM (الحرام):**

Dində qəti şəkildə qadağan olunan əməllərə “haram” deyilir. Fiqh alimləri haramın dəlilinin dəlalət və sübut baxımdan qəti olmasına əhəmiyyət vermişlər. Haram işləyən insan günah qazanar və hətta haramı inkar edən dindən çıxar. Buna görə də zənni dəlillə qadağan olunan əməllərə “haram” deyil, “məkruh” deməyi üstün tutmuşlar.

**HARUT VƏ MARUT (هاروت وماروت):**

Qurani-Kərimdə adları keçən və insanlara sehr öyrətdiyinə inanılan iki mələk. Onlarla əlaqəli məlumatlar “Bəqərə” surəsinin 102-ci ayəsində öz əksini tapmışdır.

**HAŞİMİLİK (الهاشميّة):**

Şiəliyin keysaniyyə qoluna mənsub bir qrupun adı. Haşimiliyə görə, imamət Əli ibn Əbu Talibdən oğlu Məhəmməd ibn əl-Hənəfiyyəyə, daha sonra isə onun oğlu Əbu Haşim Abdullah ibn Məhəmmədə (v. 98/716-17) keçmişdir. Haşimilik Əbu Haşimdən sonra imamətin Abbas ibn Əbdülmütəllibin (v. 32/653) nəslinə keçdiyini iddia etmişdir. Əbu Haşimin ölümündən son-

ra, haşimilik beş müxtəlif qola bölünmüşdür.

**HAŞİYƏ (الحاشية):**

Kitabların kənarındakı boş yerlərə yazılan qısa məlumat və izahlar üçün istifadə edilən termin.

**HEDONİZM (hedonism):**

Etik istəklərin və meyillərin əsaslandırılması prinsipi. Qədim dövrdə meydana gəlmişdir. Bu nöqteyi-nəzərə görə, xeyirxahlıq həzz gətirir və iztirablardan azad edir, şər isə iztiraba səbəb olur. Etikada nəzəri hedonizm naturalizmin çalarlarından hesab olunur. Əsasında belə təsəvvür durur ki, insanda təbiət tərəfindən onun bətninə qoyulmuş və bütün hərəkətlərini müəyyən edən hərəkətverici başlanğıc həzzdir. Qədim Yunanıstanda "Aristipp etikası" tərəfdarlarını "hedonist" adlandırmışlar. Epikür təlimində inkişaf etmiş formasına çatmışdır. Hedonizm ideyaları Millin və Bentamın utilitarizmində mərkəzi yer tutur.

**HERMENEVTİKA:**

"Açıqlama, yozumlama, şərh etmə". Ümumi və xüsusi mənada işlədilir. Ümumi mənada insanın davranış və sözlərinin açıqlanmasıdır. Xüsusi mənada isə Xristianlıqda Müqəddəs Kitabın mənəvi həqiqətini ortaya çıxarmaq üçün işlədilən termindir. Eyni şəkildə avropalı tədqiqatçılar tərəfindən Quranın şərh edilməsi üçün də istifadə edilmişdir. İslam ənənəsində bu termin "təvil" olaraq bilinir.

**HESAB (الحساب):**

İnsanların dünyadakı inanc və davranışlarından ötrü axirətdə sorğu-suala tutulacağını ifadə edən dini termin. Lüğəvi baxımdan "saymaq, hesablamaq" mənalarını verən "hesab" kəlməsi termin baxımından axirətdə hər bir insanın üzləşəcəyi mərhələlərdən birini ifadə edir.

**HETERODOKSİYA:**

Doğru din anlayışından kənarda olmaq.

**HEYVANİ NƏFS (النفس الحيواني):**

Hiss və iradəli hərəkətlərə malik olma gücü. İbn Sina (980-1037) heyvani nəfsi canlı cismin idrak və fəaliyyət yönündən ilk kamilliyi olaraq açıqlayır. Heyvani nəfs iradəli hərəkət edir və xüsusi nəsnələri qavrayır. Bu nəfs hərəkətetdirici (əl-qüvvə əl-mühərrikə) və qavrayıcı (əl-qüvvə əl-müdrikə) olmaqla iki gücə malikdir. Hərəkətetdirici güc bədəni aktiv hala gətirir. Hərəkətetdirici güc də özlüyündə həzz almaq üçün nəfsi meyil edilənə doğru hərəkət etdirən (əl-qüvvə əl-şəhəviyyə) və faydasız olan nəsnələrdən uzaqlaşdıran (əl-qüvvə əl-qəzəbiyyə) olmaqla iki gücə malikdir.

**HEYZ (الحيض):**

Yetkinlik yaşına çatmış qadının rəhmindən müəyyən vaxtlarda axan qan. Heyz dövründəki qadınlarla bağlı hökmləri üç qismə ayırmaq mümkündür. Bunlardan birincisi, heyzli qadının ibadəti haqqındadır. Bu haldakı qadın namaz qılmaz, oruc tutmaz

və Kəbəni təvaf edə bilməz. İkincisi, evliliklə bağlı olub, boşanan qadının evlənməzdən əvvəl gözləməli olduğu müddətin hesablanması ilə əlaqəlidir. Üçüncüsü isə heyzli qadının cinsi əlaqəyə girməsinin qadağan olunmasıdır. Heyzli qadının murdar olduğuna dair digər mədəniyyət və dinlərdə mövcud olan anlayış İslamda qəbul edilməmişdir. Yuxarıdakı hökmlər xaricində qadın normal həyatını yaşamağa davam edər.

**HƏCC (الحج):**

İslamın əsaslarından biri olan həcc gücü çatan müsəlmanın zilhiccə ayında Məkkə şəhərində və ətrafında yerləşən müəyyən müqəddəs yerləri ziyarət etməsi və bəzi ritualları yerinə yetirməsidir. Bir müsəlmanın ömründə bir dəfə həcc etməsi kifayətdir. Həcc həm ibadətin xüsusi çətinliyi, həm də mənəvi havası baxımından digər ibadətlərdən fərqlənir. Həcc ibadətini səmimi niyyətlə yerinə yetirənin günahları bağışlanar.

**"HƏCC" SURƏSİ (سورة الحج):**

Quranın 22-ci surəsi. 78 ayədən ibarətdir. Bir çox hissəsi Məkkə, 19-25-ci ayələri isə Mədinə dövründə nazil olub. Surənin adı 27-ci ayəsindəki "həcc" sözündən alınmışdır. Surədə Allaha və axirət gününə inam, həcc ibadətinə mane olanların aqibəti, Allahı israrla inkar edənlərin aqibəti və Allah yolunda əziyyət çəkənlərin, hicrət edənlərin mükafatlarının veriləcəyindən bəhs edilir.

**HƏCƏRÜLƏSVƏD (الحجر الأسود):**

Təvafın başlandığı yeri göstərmək məqsədilə Kəbənin cənub – şərq küncünə yerləşdirilmiş daş. Həcərüləsvədin İbrahim peyğəmbər dövründən etibarən Kəbənin təvaf edilməsinin mühüm bir parçası olduğuna inanılır.

**HƏCR (الحجر):**

İnsanın hüquqi davranışlarının etibarsız sayılmasına "həcr" deyilir. Bəzi fəqihlər həcri insanın hərəkətlərinə, bəziləri isə sözlərinə aid edirlər. İnsanın həcr altına alınmasının müxtəlif səbəbləri olmaqla yanaşı, bunlar, əsasən, cahillik, səfehlik və əqli qüsurdur. Bu halda olan insanın mal-mülkündən istifadə etməsinə icazə verilmir.

**HƏDD (الحد):**

Termin. Klassik məntiqdə mübtəda və xəbərdən ibarət olan tərif.

**HƏDD CƏZALARI (الحدّ):**

Quran və sünnədə müəyyənləşdirilmiş, heç bir müctəhidin dəyişdirməsi mümkün olmayan və tətbiqi məcburi cəzalar. Oğurluq, zina və üsyan kimi cinayətlərə verilən cəzalar hədd cəzalarıdır. Hədd cəzalarında Allah haqqı üstün olduğuna görə bağışlanma olmaz.

**HƏDDİ-BÜLUĞ (البلوغ):**

İnsan həyatı hüquqi səlahiyyət və məsuliyyət baxımından mərhələlərə bölünmüşdür. Bu mərhələlərin sonuncusu həddi-büluğ mərhələsidir.

Həddi-büluğ insanın bütün hüquqi haqq və borclara əhliyyətli olma yaşını ifadə edir. Coğrafi ərazi və cəmiyyətlərə görə fərqlilik göstərdiyi üçün bu yaşın təsbiti ixtilafa səbəb olmuşdur. Ümumiyyətlə isə insanın yaxşını-pisdən seçə bildiyi yetkinlik yaşını ifadə edir.

**HƏDDİ-ƏKBƏR (الحد الاكبر):**

Böyük termin. Sillogizmdə nəticə hökmündəki xəbərə verilən ad. Məsələn: "Bütün insanlar ölümlüdür" sillogizmində "həddi-əkbər" "ölümlüdür" sözüdür.

**HƏDDİ-ƏSĞƏR (الحد الاصغر):**

Kiçik termin. Sillogizmdə nəticənin subyekti olan termin. Məsələn: "Bütün insanlar ölümlüdür"; "Əli də insandır"; "Elə isə Əli də ölümlüdür" nümunəsində həddi-əsğər (kiçik termin) "Əli"dir.

**HƏDDİ-ÖVSƏT (الحد الاوسط):**

Orta termin. Bir sillogizmin nəticə hissəsində qeyd olunmayıb, sadəcə, birinci və ikinci propozisiyada müştərək olan terminə verilən ad. Məsələn: "Bütün canlılar ölümlüdür"; "İnsan da bir canlıdır"; "Elə isə insan da ölümlüdür." Bu sillogizmdə həddi-övsət (orta termin) "canlı" sözüdür ki, bu da ancaq birinci və ikinci müqəddimədə keçir.

**HƏDDİ-TAM (الحد التام):**

Tam tərif, kamil tərif. Bir şeyin yaxın cinsi ilə yaxın fəslindən ibarət tərif. Məsələn: "insan düşünən canlıdır". Burada "canlı" insanın yaxın cinsi, "düşünən" isə yaxın fəslidir.

**"HƏDİD" SURƏSİ (سورة الحديد):**

Quranın 57-ci surəsi. 29 ayədən ibarətdir. Mədinə dövründə nazil olub. Surənin adı 25-ci ayədəki "dəmir" mənasındakı "hədid" sözündən alınmışdır. Surədə Allahın bəzi sifətləri, iman etməyin vacibliyi, axirətdə möminlərlə-münafiqlərin qarşılaşdırılması, dünya həyatının mənası, Xristianlıqda rahiblik məsələsi haqqındakı mövzulardan bəhs edilir.

**HƏDİS ÜSULU (اصول الحديث):**

Hədisin lüğəvi mənası yenidir. "Hədis" kəlməsi Qurani-Kərimdə "söz" və "xəbər" mənasında işlədilmişdir. Məsələn: "Haydı onun kimi bir söz gətirsinlər" ayəsində söz "Musanın xəbəri sənə gəldimi?" ayəsində xəbər mənasında işlədilmişdir. Terminoloji mənada isə "hədis" "söz, feil, təqrir (təsdiq), vəsf" olaraq Həzrət Peyğəmbərə aid edilən hər sözün yazılı mətnlərinə deyilir. Hədisin cəm forması "əhadis"dir. "Üsul" isə "əsl" kəlməsinin cəm formasıdır. "Əsllər, köklər, mənbələr" mənasına gəlir. Termin olaraq "yol, nizam, qayda, düstur və metod" mənasında işlədilir. Hədis üsulu hədis elminin əsaslandığı qaydalar, əsaslar deməkdir. Bu elmə əvvəllər "müstələhül-hədis" də deyilmişdir. Sənəd və mətnin vəziyyətini anlamağı təmin edən bəlli qaydalar, düsturlar deməkdir. Mövzusu isə

qəbul etmə və rədd etmə nöqteyi-nəzərindən sənəd və mətndir.

**HƏDR (الحدر):**

Lüğəvi mənası "sürətli olmaq" deməkdir. Terminoloji baxımdan, Qurani-Kərimi təcvid qaydalarına tabe olmaq şərti ilə sürətli oxumaqdır. Bu oxunuş üsulunda məddi-münfəsillər, məddi-arizlər, məddi-linin sükuni-ariz ilə əmələ gələn növü və məddi-təbiilər bir əlifdən az uzadılmamalıdır. Təşdidli hərflər təşdidsiz oxunmamalı, qalın və incə, pəltək və kəskin hərflər qarışdırılmamalı, hərflər məxrəclərindən çıxarılmalıdır. Daha çox sürətli oxumaq üçün qeyd olunan ölçülərə riayət edilməsə, bu, hədr üsulu olmaz, belə bir qiraət caiz deyil. Bu üsuldan daha çox Qurani-Kərim xətm olunarkən və təravih namazı qılınarkən istifadə olunur.

**HƏDS (الحدس):**

Məntiq və fəlsəfədə zehnin intuitiv fəaliyyətini, buna əsasən əldə edilən bilik növünü ifadə edən termin. Lüğəvi baxımdan "bir şeyin və ya hadisənin nəticəsini təxmin etmə, ölçüb-biçmə, doğruluğundan əmin olmadığı açıqlamalar etmək, sürətli irəliləyiş, sürətli qavrama" kimi mənalara gəlir. "Zehnin prinsiplərdən (məbadi) nəticələrə (mətalib) vasitəsiz olaraq sürətlə varması" kimi tərif edilir.

**HƏDSİLİK (الحدثيّة):**

İslam məzhəbləri tarixində Fəzl əl-Hədəsinin (v. 257/870-71) tərəfdarlarına verilən ad. **Bax: XABİTİLİK.**

**HƏDSİYYAT (الحدسيات):**

İntuisiya. Ağlın intuisiya vasitəsilə əldə etdiyi və ümumiyyətlə, qəti doğruluq dəyəri daşıdığı düşünülən mühakimələr üçün istifadə edilən fəlsəfə və məntiq terminidir.

**HƏFƏZƏ (حفظة):**

İnsanların etdikləri yaxşılıq və pislikləri yazan və bu məqsədlə onlara nəzarət etməklə vəzifələndirilmiş mələklər.

**HƏFİZ (الحفيظ):**

Allahın adlarından (əsmai-hüsna) biri. "Həfiz" "qoruyan, bir şeyin yox olmaması və nəzərdən qaçmaması üçün lazımi tədbirləri görən" deməkdir. Allahın adlarından biri olaraq, "kainatda zərrə qədər də olsa, heç bir şey nəzarətindən uzaq olmayan və təbiəti tənzimləyərək tarazlıqda tutan" mənasını verir. "Hifz" kəlməsi Quranda 13-ü Allaha, 4-ü mələklərə, 6-sı peyğəmbərlərə, biri ilahi biliyə, yəni "lövhi-məhfuz" mənasındakı "kitab"a, qalanları insanlara aid olmaqla 40 yerdə keçir. Qurandakı işlənmə şəkli nəzərə alınaraq, kəlməyə verilən mənaları üç qrupda toplamaq mümkündür: a) Kainatın nizamını qoruyan; b) İnsanları müxtəlif təhlükələrdən qoruyan, onların niyyətini və bütün sirlərini bilən, davranışlarını mələklər vasitəsilə qeydə alan, dostlarını xəta və şərdən uzaq tutan; c) Qurani-Kərimi təhrif olunmaqdan qoruyan.

**HƏKƏM (الحكم):**

İslam əqidəsində Allahın adlarından (əsmai-hüsna) biri. Lüğəvi olaraq "düzəltmək, hökm etmək" mənalarına gəlir. Termin olaraq "biliyi və ədaləti ilə ən son hökmü verən" deməkdir. Bəzi alimlər "həkəm" kəlməsinin "yanılmaz, səhvetməz" mənasında olduğunu qəbul etdiklərinə görə, onun Allahdan başqasına aid edilə bilməyəcəyini bildirirlər. Quranın fərqli ayələrində Allaha nisbət edilən hakimlik növləri içərisində axirətdəki hakimliyin, əsasən, üstünlük təşkil etdiyi görünür. Mütləq ədalətin reallaşacağı məkan, haqq ilə batilin mübarizəsinin baş verdiyi imtahan dünyası deyil, hər cür əməllərin qarşılığının veriləcəyi və bütün sirlərin açılacağı əbədiyyət aləmidir.

**HƏKƏM HADİSƏSİ (قضية التحكيم):**

İslam tarixində Xəlifə Əli ibn Əbu Talib ilə Müaviyə ibn Əbu Süfyan arasında 657-ci ildə baş vermiş Siffin döyüşündə Suriya ordusunu məğlubiyyətdən qurtarmaq üçün Müaviyənin müşaviri Əmr ibn Asın təklifi ilə Qurani-Kərim səhifələrinin nizələrə keçirilərək, hər iki qoşunun Quranın hakimliyinə dəvət edilməsi ilə başlayan proses üçün istifadə olunan ad. Tərəflər arasında Qurandan bir hökm vermək üçün xəlifə ordusundan Əbu Musa əl-Əşərinin, Suriya ordusundan Əmr ibn Asın hakim seçilməsi ilə gözlənilən nəticə əldə olunmamış, əksinə, xəlifənin ordusunun parçalanmasına və Xaricilərin ortaya çıxmasına səbəb olmuşdur.

**HƏQİQƏT (الحقيقة):**

Doğruluq, gerçək. Var olduğu qəti və açıq olana verilən ad. Bir şeyi özü edən xüsus, mahiyyət. Həqiqət bir mahiyyətin xarici aləmdə qəti olaraq sabit olması, gerçəklik qazanmasıdır.

**HƏQQƏLYƏQİN (حق اليقين):**

Salikin təkcə elmi cəhətdən yox, həm də hal və müşahidə yönündən haqda fani olması və haqq ilə həmhal olmasıdır. İnsanın öləcəyini bilməsi "elməlyəqin"; ölüm döşəyində can verməsi və ölüm mələyini görməsi "eynəlyəqin"; ölümü dadması və ölüm hadisəsini yaşaması "həqqəlyəqin"dir.

**HƏLİM (الحليم):**

Allahın doxsan doqquz adından (əsmai-hüsna) biridir. Əsmai-hüsnadan olan "Həlim" "səbirli, təmkinli, tələsməyən və qəzəb ilə qarşılıq verməyən" deməkdir. İslam alimləri "Həlim" ismini qüdrəti və "gücü çatdığı halda cəzalandırmayan" və "bəndənin tövbə etməsini gözləyib cəzanı təxirə salan" şəklində şərh etmişlər.

**HƏMDANİLƏR (الهمدانيّون):**

1098-1174-cü illərdə Cənubi Ərəbistanda hakimiyyətdə olmuş kiçik sülalə dövləti. Qəbilənin adı ilə "Həmdanilər" və yaxud qurucu Hatim ibn Qaşimin adı ilə "Hatimilər" adlandı-

rılan bu dövlətin varlığına Əyyubilər son qoymuşdur.

**HƏMİD (الحميد):**

Allahın doxsan doqquz adından biri. "Tərifə və həmdə layiq olan, həmd edilən" mənalarını ifadə edən "Həmid" ismi Qurani-Kərimdə müxtəlif qəliblərdə altmış dəfə qeyd edilir. Həmid Allahın zati adlarından hesab edilir.

**HƏMS (الهمس):**

Lüğəvi baxımdan "pıçıldamaq" mənasını verir. Termin olaraq hərf hərəkəli olaraq tələffüz edildikdə nəfəsin hərflə birlikdə çıxmasına "həms" deyilir. Cəhr xüsusiyyətinin ziddidir. ت، ث، ح، خ، س، ش، ص، ف، ك، ه hərflərinin həms xüsusiyyəti var.

**HƏNBƏLİ MƏZHƏBİ (المذهب الحنابلة):**

Əhməd ibn Hənbəlinin fikirləri əsasında formalaşan sünni fiqh məzhəbi. Məzhəbin əsas xüsusiyyəti rəyə deyil, Quran ayələri, hədislər və sələfin fikirlərinə üstünlük verməsidir. Buna görə də digər məzhəblərin rəyə əsaslanaraq verdikləri hökmlərə qarşı çıxmış və bununla bağlı olaraq "bidət" məfhumundan geniş istifadə etmişdir. Bundan əlavə, təvilə qarşı olduqları üçün nəslərin zahirinə görə hökm verməyi üstün tutmuşlar. Hənbəli məzhəbi bu xüsusiyyətləri üçün radikal cərəyanların bir çoxunun istinad mənbəyi olmuşdur.

**HƏNƏFİ MƏZHƏBİ (المذهب الحنفي):**

Əbu Hənifənin fikirləri əsasında formalaşan sünni fiqh məzhəbi. Əbu Hənifə ilk dövr fəqihləri arasında rəyə üstünlük verməsi ilə seçilmişdir. Xüsusilə ağla və İslam hüququnun prinsiplərinə zidd olan ahad hədisləri qəbul etməməsi və ya fərqli şəkildə təvil etməsi ilə məşhur olmuşdur. Hənəfi məzhəbinin ən çox istifadə etdiyi üsul metodu qiyas olmuşdur. Digər fiqh məzhəblərindən daha çox ağıldan istifadə etdikləri üçün tənqidə məruz qalmışdır.

**HƏNİFLİK (الحنيف):**

İslamaqədərki dövrdə Xristianlıq, Yəhudilik və bütpərəstliyi qəbul etməyib, İbrahim Peyğəmbərin təbliğ etdiyi tövhid dininə sitayiş edən ərəblərlə əlaqəli İslam ədəbiyyatında istifadə olunan termin. İnanc və ibadətləri haqqında fərqli fikirlər olmaqla yanaşı, şirkə və qövmünün adət-ənənələrinə qarşı mübarizə aparmaq, cəmiyyətinin təzyiqindən qurtulmaq üçün inzivaya çəkilmək həniflərin ortaq xüsusiyyətləri kimi qeyd olunur.

**HƏRBİLİK (الحربية):**

Şiəliyin keysaniyyə qoluna mənsub olan Abdullah ibn Əmr ibn Hərb əl-Kindinin (v. II/VIII əsrin əvvəlləri) fikirlərini mənimsəyənlərə verilən ad. Onlar imamətin Əli ibn Əbu Talibdən oğlu Məhəmməd ibn əl-Hənəfiyyəyə, daha sonra isə onun oğlu Əbu Haşimə, Əbu Haşimdən isə Abdullah ibn Əmr

ibn Hərb əl-Kindiyə keçdiyini iddia edirdilər. Hərbilər Əbu Haşimin ruhunun Abdullaha keçdiyinə inanırdılar. Daha sonra Abdullahın yalançı olduğunu irəli sürən bir qrup onun imamətini rədd edərək, imamətin Əbu Haşimdən Abdullah ibn Müaviyəyə keçdiyini iddia etdi.

**HƏRƏKƏ (الحركة):**

Lüğəvi baxımdan "hərəkət etdirmək, tərpətmək" mənalarını verir. Hərflərin üzərində və ya altında yazılan, onların səslənməsini təmin edən işarəyə "hərəkə" deyilir. Üç hərəkə vardır: 1. Fəthə ـَ hərflərin üstündə kiçik düz xətt şəklində yazılan, qalın hərfdirsə, onu [a], incə hərfdirsə, onu [ə] deyə səsləndirən hərəkəyə "fəthə" deyilir; məsələn: تَ [tə], سَ [sə], زَ [zə], طَ [ta], صَ [sa], ضَ [da]. 2. Kəsrə ـِ hərflərin altında kiçik düz xətt şəklində yazılan, qalın hərfdirsə, onu [ı], incə hərfdirsə, onu [i] deyə səsləndirən hərəkəyə "kəsrə" deyilir; məsələn: بِ [bi], جِ [ci], دِ [di], خِ [xı], غِ [ğı],قِ [qı]. 3. Damme ـُ hərflərin üstündə kiçik vergül şəklində yazılan, qalın hərfdirsə, onu [u], incə hərfdirsə, onu [u] ilə [ü] arası bir səslə (yumşaq [u]) səsləndirən hərəkəyə "dammə" deyilir. Məsələn: لُ[lu], مُ [mu], نُ [nu], خُ [xu], طُ [tu], ظُ [zu].

**HƏRƏKƏT (الحركة):**

Cisimin yerdəyişməsi, kainatdakı müxtəlif dəyişiklikləri ifadə edən termin. Hərəkət fəlsəfi bir məsələ kimi peripatetik fəlsəfədə müzakirə edilən mühüm mövzulardan biridir. Bu məsələ İslam filosoflarını da yaxından maraqlandırmışdır. Belə ki, Kindi (796-866) fizika və metafizika elmlərinin tərifini ortaya qoyarkən fizika elmini "hərəkət edənin elmi", metafizikanı isə "hərəkət etməyənin elmi" olaraq adlandırmışdır. İslam filosofları hərəkəti zaman və məkan məfhumları ilə birlikdə müzakirə obyektinə çevirərək, açıqlamağa çalışmışlar. Kindi hərəkəti dəyişmə olaraq, İbn Sina (980-1037) "potensial haldan aktiv hala keçmə" olaraq tərif edir. Ona görə, hərəkət müəyyən bir zaman daxilində potensial haldan aktiv hala keçərək meydana gəlir. Hərəkətin meydana gəlməsi üçün mütləq bir hərəkətetdiriciyə və zamana ehtiyac var. Qəzali (1058-1111) isə hərəkəti tamamlanıncayadək tədrici olaraq baş verən keyfiyyət dəyişikliyi kimi izah edir. Qəzaliyə görə, keyfiyyət dəyişikliyi zəruri olaraq on kateqoriya (əl-məqulat əl-əşərə) daxilində baş verir. Ümumilikdə isə hərəkət məkan, kəmiyyət, keyfiyyət və mövqe etibarilə baş verir. Məkan etibarilə hərəkət bir cismin mərkəzinin, hissələrinin və ya bütünlükdə özünün yerdəyişməsidir. Bu hərəkətin başlanma və bitmə anı zaman etibarilə hərəkət kateqoriyası içində yer alır. Kəmiyyətdə hərəkət isə bir cisimin sayının artması, əskilməsi, böyüməsi və kiçilməsini ifadə edir. Keyfiyyət kateqoriyasındakı hərəkət cismin soyuma, isinmə, qalınlaşma və genişləmə kimi cəhətlərdən dəyişməsidir. Möv-

qedə hərəkət növünə gəlincə, bu, səma cisimlərinin, yaxud planetlərin (fələklərin) hərəkətləri ilə əlaqədardır.

**HƏRƏKƏTİ-CÖVHƏRİYYƏ (الحركة الجوهرية):**

Hərəkətin cisimlərin aksidensiyalarına (ərəzlərinə) deyil, substansiyalarına (cövhərlərinə) aid olduğunu irəli sürən nəzəriyyə. Məşhur İslam filosofu Sədrəddin Şirazinin (Molla Sədra) (v. 1640) sistemləşdirərək irəli sürdüyü bu nəzəriyyəyə görə, hərəkət varlığın özündə meydana gəlir və buna görə də izafi deyildir. Varlıqlar davamlı şəkildə bir haldan başqa bir mümkün hala keçdikləri üçün daim sönmə və doğum, varolma və yoxolma prosesi içindədirlər. Bu prosesin davamlı şəkildə cərəyan etməsini təmin edən isə mütləq iradədir. Dəyişmə və hərəkət varlığın görünüşündə deyil, özündə, aksidensiyada deyil, substansiyadadır. Bu mənada, varlıq aləmi hər an yox edilib, yenidən yaradılmaqdadır.

**HƏRURİLİK (الحرورية):**

Xariciliyin ilk adlarından biri. Əli ibn Əbu Talibin ordusu Siffin döyüşündən Kufəyə qayıtdıqda

**HƏSƏN HƏDİS (الحديث الحسن):**

Hafizəsi bir az zəif olan ravilərin kəsiksiz (müttəsil) sənəd ilə nəql etdikləri hədis. Həsən hədisin səhih hədisdən fərqi bir ravisinin hafizəsinin mükəmməl olmamasıdır. Həsən hədis də səhih hədis kimi iki qismə bölünür: a) həsən lizatihi; b) həsən liqeyrihi. Mütləq mənada "həsən hədis" deyildikdə "həsən lizatihi" başa düşülür. "Həsən lizatihi" özü kimi başqa bir sənədlə dəstəkləndiyi zaman "səhih liqeyrihi" dərəcəsinə qalxar. "Həsən liqeyrihi" isə yalançılıqla ittiham edilməmiş və çox xəta edəcək qədər qafil olmayan, ancaq əhilliyi tam bilinməyən (məstur) bir ravisi olan hədisin, ləfz və ya məna nöqteyi-nəzərindən başqa hədislərlə dəstəklənməsi ilə meydana çıxar. "Həsən liqeyrihi" "ədid" (başqa bir sənədlə eyni hədisin rəvayət edilməsi) ilə həsən mərtəbəsinə çıxan hədisdir. Həsən liqeyrihi zəif hədisə çox yaxındır. Fərqi isə onu dəstəkləyən bir, yaxud bir neçə hədisin mövcudluğudur. "Həsən liqeyrihi" ifadəsi, əsasən, başqa hədisləri dəstəkləmək üçün də işlədilir. "Həsən" terminini çox işlədən Tirmizi bununla nəyi nəzərdə tutduğunu belə izah etmişdir: sənədində yalançılıqla (kizb) ittiham edilmiş ravi olmamaqla yanaşı, şəz olmayan və özü kimi başqa sənədlərlə nəql edilən hədisdir. Bu tərif ilə Tirmizi "həsən liqeyrihi"ni nəzərdə tutmuşdur.

**HƏŞİŞİLİK (الحشيشيّة):**

Orta əsrlərdə ismaililiyin, xüsusən Suriyada fəaliyyət göstərən radikal qoluna verilən təhqiramiz ad. İsmailiyyə məzhəbinin nizariyyə qoluna mənsub olan bu qrup XI əsrdə İranda Həsən Səbbah tərəfindən qurulmuşdu. Daha sonrakı dövrdə bu qrup Suriya ərazisində də bir çox

qalanı zəbt etmiş və kiçik dövlətlər qurmağa müvəffəq olmuşdur. Mənbələrdə "əd-dəvət əl-cədidə" – "yeni dəvət" adı ilə qeyd olunan bu hərəkatın nümayəndələrinin bir çoxu narkotik maddə olan həşişdən istifadə etdikləri üçün xüsusən Suriyada müxalifləri onlara "həşişilər" və ya "həşşaşilər" deyirdilər. Öz əqidələrini bölüşməyənlərə qarşı barışmaz mövqedən çıxış etmələri, yeri gələrsə, hətta sui-qəsddən də istifadə etmələri həşşaşilərin başlıca xüsusiyyəti olmuşdur. Başda səlcuqilərin məşhur vəziri Nizamülmülk, Hims əmiri Cənabüddövlə, Mosul əmiri Mövdud, Səlcuqi sultanı Məhəmməd Taparın məşhur əmirlərindən Ağsunqur əl-Porsuqi, Atabəy Tuğtəkinin oğlu Böri, səlibçilərin Qüds kralı Konrad Monferrat (Conrad de Montferrat) olmaqla, bir çox məşhur şəxs həşşaşilərin sui-qəsdləri nəticəsində öldürülmüşdür. Səlahəddin Əyyubi belə, onların sui-qəsdindən çətinliklə xilas olmuşdu. Bir çox tarixçiyə görə, İslam dünyasında intiharçı sui-qəsdçiliyin tarixi həşşaşilərlə başlanır. "Həşşaşi" termini Orta əsrlərdə Avropada da "qəddar sui-qəsdçi" mənasında istifadə olunmuşdur. Bu gün ingilis dilində "sui-qəsdçi, qatil" mənalarında istifadə olunan "assassin" termini də məhz "həşşaşin" kəlməsindən götürülmüşdür.

**HƏŞR (الحشر):**

Qiyamət günü insanların təkrar dirildilib sorğu-suala çəkilmək üçün bir yerdə cəm edilməsi. "Həşr" termini İslam mənbələrində "bəs" kəlməsi vasitəsilə də ifadə edilir. İslam mənbələrinə görə, hər ümmət öz peyğəmbərinin rəhbərliyində həşr ediləcək. İslam ümməti də Məhəmməd peyğəmbərin öndərliyində həşr olunacağı üçün ona "Haşir" adı verilmişdir. Bəzi İslam alimləri "həşr" kəlməsini "bəs və məad" əvəzinə də istifadə edərək, onu bütün qiyamət mərhələlərini şamil etmişlər.

**"HƏŞR" SURƏSİ (سورة الحشر):**

Quranın 59-cu surəsi. 24 ayədən ibarətdir. Mədinə dövründə nazil olub. Surənin adı ikinci ayədəki "ilk sürgün" mənasındakı "li əvvəlil-həşr" ifadəsindən alınmışdır. Surədə "Bəni-Nadir" adlı yəhudi qəbiləsinin Mədinədən sürgün edilməsi, münafiq və yəhudilərin bir-biri ilə münasibətləri və axirət həyatının əhəmiyyətindən bəhs edilir.

**HƏŞVİLİK (الحشويّة):**

Lüğətdə "yastıq və ona bənzər əşyanın içini dolduran şey" və "lazımsız söz" mənalarına gələn "həşv" kəlməsindən yaranmış "həşviyyə" terminoloji mənada dini məsələlərdə əqli mühakiməni rədd edən, dini mətnlərin (nəss) zahiri ilə kifayətlənən, bunda ifrata vararaq hətta antropomorfist tanrı anlayışını müdafiə etməyə qədər gedib-çıxan qruplara verilən addır. Həşviyyə termini hicri II əsrdə istifadə olunmağa başlamışdır. Əvvəllər daha çox Quran və sünnəyə uyğun olmayan tanrı inancını mənimsəyənlərə aid edilən bu ad za-

manla "ilahi sifətlərə dair inanclarında ifratçılığa yol verənlər, bu mövzudakı dini mətnləri təşbih (Allahla-məxluqatı bir-birinə bənzətmə) və təcsimə (cismani xüsusiyyətləri Allaha aid etmə) uyğun şəkildə şərh edənlər" mənasında istifadə olunmağa başlanmışdır. İslam tarixi boyunca müxtəlif məzhəblərin nümayəndələri tənə məqsədilə də bir-birinə qarşı "həşviyyə" kəlməsindən istifadə etmişlər.

**HƏŞVİYYAT (الحشويات):**

Ehtiyac duyulmayan lazımsız sözlər. İki cür həşviyyat var: 1) Həşvi-müfsid: dilə gətirilmək istənilən mənanı pozan həşv; 2) Həşvi-qeyri müfsid: mənanı pozmayan həşv. Bəzi müfəssirlərin təfsirlərində istifadə etdikləri həşv bundan ibarətdir.

**HƏVALƏ (الحوالة):**

Borcun bir şəxsdən başqasına nəql edilməsi. Həvalə əsl borclunun borcunu başqa bir kimsənin adına yazması haqqında bağlanan müqavilə növüdür. Digər müqavilə növlərindən fərqli olaraq, çox mürəkkəb quruluşa sahib olan həvalə hüquqi nəticələri baxımından fəqihlər arasında ixtilaflara səbəb olmuşdur.

**HƏVARİ (الحواري):**

İsa Məsihin özünə köməkçi seçdiyi on iki nəfər üçün ərəb dilində istifadə olunan termin. Həvari Qərb dillərində "bir vəzifəni yerinə yetirmək üçün göndərilən" mənasında "apostle" termini ilə ifadə olunur. İncillərdə İsa Məsihin təbliğ prosesinə başlayarkən ona inanan on iki nəfəri seçdiyi və onlara "həvari" adı verdiyi qeyd olunur (Luka, 6/13). Həvarilər İncillərdə "şagird" də adlandırılırlar (Matta, 11/1; 14/26; 20/17).

**HƏVASSİ-BATİNƏ (الحواس الباطنة):**

Batini hisslər. Müştərək hiss (hissi-müştərək), hafizə, təxəyyül qüvvəsi və uzaqgörənlik kimi insanın sahib olduğu daxili hisslərin ümumi adıdır.

**HƏVASSİ-XƏMSƏ (الحواس الخمسة):**

Beş hiss (həvassi-zahirə): toxunma (ləms), dadma (zövq), qoxlama (şəmm), eşitmə (səm) və görmə (bəsər) şəklindəki beş hissə verilən ümumi ad.

**HƏVAYİCİ-ƏSLİYYƏ (الحوائج الأصليّة):**

"İnsanın zəruri ehtiyacları" mənasındakı "həvayici-əsliyyə" "zəkata tabe olmayan mal" mənasında işlədilir. Zəkat verməklə mükəlləf olan şəxsin zəruri ehtiyacı hesab olunan mallarından zəkat verilməz. Bunlara yaşadığı ev, zəruri miqdarda olan azuqə və geyim daxil edilmişdir. Dövr dəyişdikcə bu malların dəyişməsi də mümkündür.

**HƏVƏLANÜLHÖVL (حولان الحول):**

Zəkatla əlaqəli olan bu termin zəkata tabe olan mallardan zəkat verilməsi üçün o malın sahibinin əlində nisab miqdarına çatdıqdan sonra ən az bir il qalmasını ifadə edir. Əkin məhsulları isə bu hökmün xaricində tutulmuşdur.

**HƏYA (الحياء):**

Qınanma qorxusu səbəbi ilə nəfsin bir işi görməkdən peşman olması. Dini əmrlərin yerinə yetirilməməsi, yaxud qaydaların pozulması halında insanın vicdanını narahat edən, utandıran əxlaqi keyfiyyət. Buna bəzən "dini həya" da deyilir.

**HƏYULA (الهيولى ، الهيولا):**

İlk materiya. Kainatın ilk maddəsinə verilən ad. Kindiyə (796-866) görə "həyula" surətləri daşıyan, təsirlənən substantiv qüvvədir. Farabiyə (871-950) görə isə "həyula" surətləri (formaları) qəbul etmə qüvvəsidir. Cisim aktiv şəkildə mövcud olmaq üçün formaya (surət) möhtacdır. "Həyula" və "surət" (materiya və forma) bir yerdə olan ayrı-ayrı səbəblərdir. İxvani-Səfa (X əsr) da həyulanı "surətləri qəbul edən substansiya" olaraq açıqlamışdır. Zəkəriyyə ər-Raziyə (865-925) görə, həyula kainatın yaradılışını mümkün hala gətirən beş əzəli prinsipdən biridir. İbn Rüşd (1126-1198) də həyulanı varlığın meydana gəlməsini təmin edən əzəli prinsip (əsas) və eyni zamanda, meydana gəlmə və yox olmanın səbəbi kimi açıqlayır.

**HƏYULANİ AĞIL (العقل الهيولاني):**

Ruhda mövcud olmaqla əşyanın mahiyyətini maddəsindən mücərrəd şəkildə qəbul etməyə hazır olan qüvvə. Bu ağıl hər kəsdə eyni dərəcədə mövcuddur. Hər insan mücərrəd olaraq bilmə qabiliyyətinə malikdir. Məsələn: uşaq həyulani ağlı sayəsində qoyun və digər heyvanları bir-birindən ayırır. Bu ağla formasız olan ilk maddəyə bənzədildiyinə görə "maddi ağıl" da deyilir. İbn Sinaya (980-1037) görə, insanda nəzəri və praktiki olmaqla iki potensiya və ya qabiliyyət mövcuddur. Hər bir insan nəzəri, yəni bilmə gücünün sadə forması olan heyulani ağla malikdir. İbn Baccəyə (1077-1139) görə, həyulani ağlın mövzusu fiziki əşyalardır. Ruhun maddi aləmlə əlaqəsi məhz bu ağıl ilə başlayır. İbn Rüşd (1126-1198) isə həyulani ağla fərqli izah verərək, onu fəal ağıl ilə eyniləşdirir. İbn Rüşdə görə, bədən ilə əlaqə quran insan nəfsinin iki əsas funksiyası mövcuddur. Birincisi, varlığa aid olan formaları maddədən ayırmaq (mücərrədləşdirmək), ikincisi isə mücərrədləşərək məfhum halına gələn bilikləri qəbul etmək. Nəfsin mücərrədləşdirmə funksiyasına "fəal ağıl", bunları qəbul etmə funksiyasına isə "heyulani ağıl" deyilir.

**HƏYY (الحي):**

Allahın adlarından (əsmai-hüsna) biri. "Həyy" "hər zaman diri və canlı olan" deməkdir. Lüğəvi baxımdan "yaşamaq, diri və canlı olmaq" mənasını verən "həyat" kökündən formalaşan "həyy" kəlməsi "diri olan və yaşayan" deməkdir. Allaha aid edilən həyat sözü məhz "Həyy" adında öz əksini tapır və "Baqi", yəni ölümsüz mənasını daşıyır. Allahın "Həyy" ismi Qurani-Kərimdə

beş dəfə qeyd edilir və bunların üçü "Qəyyum" ismi ilə yanaşı ifadə edilir. "Bütün canlılara həyat bəxş edən və onları canlı tutan" mənasını verən "Qəyyum" ismi, İslam alimlərinə görə, "Həyy" isminə funksionallıq xüsusiyyəti qazandırır.

**HƏZƏRİ (حضري):**

"Oturaq həyat" və "mədəniyyət" mənasındakı "həzarə" kökündən törəyib, İslamın yayıldığı dövrdə kənd, qəsəbə və şəhərlərdə yaşayan ərəblər üçün istifadə olunan termin. Heyvandarlıq, ovçuluq, ticarət və qarətlə məişətlərini təmin edən, dəvə və keçi yunundan istehsal olunmuş çadırlarda köçəri həyat yaşayan bədəvilərdən (əhli-vəbər) fərqli olaraq kərpic evlərdə yaşayan həzərilər (əhli-mədər) əkinçilik, ticarət və sənətkarlıqla məşğul olurdular.

**HƏZF (الحذف):**

Sözün və ya hərfin götürülməsi, aradan qaldırılması. Qurani-Kərimdə cümləni uzatmamaq üçün bəzi söz və ya hərflərin mənanı dəyişməyəcək şəkildə istifadə edilməsidir.

**HİBƏ (الهبة):**

Bir malın qarşılıqsız olaraq başqa birisinə verilmə müqaviləsi. Hibə edilən mal məhkəmə qərarı və ya qarşı tərəfin razılığı olmadan geri alınmaz. Hibənin hüquqi bir müqavilə olduğuna diqqətçəkən fəqihlər bu müqavilə nəticəsində mülkün sahibinin hüquqi baxımdan da dəyişdiyini qeyd etmişlər. Bu müqavilə hökmləri baxımından vəqf, sədəqə və infaqdan fərqlidir.

**HİCAB (الحجاب):**

"Örtü, pərdə" deməkdir. Sufi düşüncəyə görə, maddi və mənəvi pisliklərdən təmizlənmiş qəlb qeyb aləminin bəzi sirlərinə vaqif ola bilər. Qəlbdəki bu pisliklər qeyb aləmini müşahidə etməyə əngəl olan pərdə və hicabdır. Buna görə də terminologiyada qəlbə yerləşən və həqiqətlərin qəlbdə təcəlli etməsinə mane olan maddi ünsürlər kimi tərif edilmişdir. Həmçinin aşiqlə-məşuq arasına, sufinin özü ilə muradı arasına girən əngəllərə də deyilir.

**"HİCR" SURƏSİ (سورة الحجر):**

Quranın 15-ci surəsidir. 99 ayədən ibarətdir. Məkkədə nazil olub. Surənin adı 80-ci ayədə keçən, Saleh Peyğəmbərin yaşadığı Hicr şəhərinə uyğun verilmişdir. Surədə Allahın təkliyi və peyğəmbərlik məsələlərinə aydınlıq gətirilmiş, Adəm və Saleh peyğəmbərlərin həyatlarından nümunələr verilmişdir. Eyni zamanda, peyğəmbərlərə qarşı gələnlərin aqibətindən bəhs edilir.

**HİCRƏT (الهجرة):**

Ümumilikdə dini məqsədlə bir yerdən başqa bir yerə köçü, xüsusilə Məhəmməd peyğəmbərin və məkkəli müsəlmanların Məkkədən Mədinəyə köçünü ifadə edən termin. Qüreyş qəbiləsinin göstərdiyi iqtisadi, sosi-

al və psixoloji təzyiqlər qarşısında müsəlmanların Mədinəyə hicrəti İslam tarixində dönüş nöqtəsi olmuşdur. Hicrət dini azadlığın təmin olunmasından başqa, siyasi və iqtisadi cəhətdən İslam cəmiyyətinin inkişafını sürətləndirmişdir.

**HİCRİ TƏQVİM:**

Məhəmməd peyğəmbərin 622-ci ildə Məkkədən Mədinəyə hicrəti əsas götürülməklə, həmin ilin məhərrəm ayının ilk günündən hesablanan təqvim. İslam dünyasının dini təqvimi sayılan hicri təqvimin ayları məhərrəm, səfər, rəbiüləvvəl, rəbiülaxir, cəmaziyələvvəl, cəmaziyəlaxir, rəcəb, şaban, ramazan, şəvval, zilqədə və zilhiccədir.

**HİDAYƏT (الهداية):**

"Dünya və axirət xoşbəxtliyini təmin edəcək yolu göstərmək" mənasını ifadə edən dini termin. "Hidayət" (hüda, hədy) "doğru yola yönəlmək", "doğru yolu göstərmək", "rəhbərlik etmək" mənalarını daşıyır. Qurani-Kərimdə "hidayət" kəlməsi deyil, onu ifadə edən "hüda" sözü səksən beş dəfə yer alır. Ümumiyyətlə, Quranda "hidayət" kəlməsinin mənasını daşıyan "hadi, hüda, mühtədi" sözləri 300 dəfədən çox qeyd edilir, bu kəlmələrin əksəriyyətində bilavasitə Allaha aid edilir. Yəni həqiqətdə insanlara hidayət yolunu göstərən məhz Allah-Taaladır.

**HİKMƏT (الحكمة):**

Fəzilət. Klassik lüğətlərdə "dəyərli varlıqları ən üstün biliklə bilmək" olaraq açıqlanır. İnsanın gücü yetdiyi ölçüdə əşyanın mahiyyət və həqiqətini bilməsidir. Qədim yunan dilində "philo-sophia" sözünün "hikmət sevgisi" mənasında olmasından çıxış edərək, İslam düşüncəsində fəlsəfə, riyaziyyat, tibb və digər elm sahələrinin "hikmət" olaraq adlandırılmışdır. Kindi (796-866) fəlsəfəni "hikmət sevgisi", filosofları "hükəma" adlandırır. İxvani-Səfa (X əsr) isə fəlsəfəni "hikməti araşdıran bir sahə" kimi görür. İslam filosofları Platonun (e.ə. 427-347) "Fəlsəfə Tanrıya bənzəməkdir" şəklindəki tərifindən təsirlənərək, filosofu (həkim) "hikmət yolunda olan" və "bəşəri qabiliyyət ölçüsündə ilahi məziyyətə malik olmağa həvəslənən kimsə" kimi tərif etmişlər. Farabi (871-950) isə Tanrının həm alim, həm də həkim olduğunu qeyd edərək, hikməti "ən üstün elm ilə müqəddəs olanları dərk etmək" şəklində izah etmişdir. İbn Sinaya (980-1037) görə, həqiqi mənada hikmət metafizikadır. Bu mənada, riyaziyyat, fizika, məntiq kimi elmlər mövzu və məzmun baxımından həqiqi mənada hikmət deyildir. Bu elm sahələri metafizikadan fərqli olaraq, yalnız xüsusi varlıqları tədqiq edir. İbn Sina hikməti "insani nəfsin bəşəri güc ölçüsündə məfhumları təsəvvür etməsi, nəzəri və praktiki doğruları təsdiq etməklə kamilləşməsi" şəklində tərif edir. İbn Miskəveyh (932-1030) hesab edir ki,

kainatın hər tərəfində Tanrıdan nəşət edən bir hikmət mövcuddur. Həm filosoflar, həm də peyğəmbərlər varlığa sirayət edən bu hikməti öyrətmişlər. Qəzali (1058-1111) hikməti elmin sinonimi olaraq tərif etmişdir. Aristotelin yolunu izləyən İbn Rüşd (1126-1198) isə hikməti "sənətlərin sənəti" kimi tərif edir. O, bütün elm sahələrini "hikmət" adı altında araşdırmışdır. Ona görə, bütün peyğəmbərlər hikmətli olmuşlar. O, bu çərçivədəki düşüncələrini "Hər nəbi bir həkimdir, amma hər hikmətli olan kəs nəbi deyildir" fikri ilə xülasə şəklində ifadə edir. İslam düşüncəsində İbn Ərəbi (1165-1240) "Füsusul-hikəm" adlı əsərində hikməti "xüsusi bilik" olaraq izah edir. İbn Ərəbiyə görə, həqiqi mənada həkim olan, hikmətin bilgisini əldə etməklə kifayətlənməyib, həmin bilgidən yararlanan, onu tətbiq edən və onunla hökm edən kimsədir. Ona görə, peyğəmbər və vəlilər hikmət əhlidir. İbn Ərəbinin yolunu izləyən Molla Sədra (v. 1640) irfani bir hikmət anlayışını ortaya qoymuşdur. Ona görə, hikmət fəlsəfədir və əşyaların ən mükəmməl şəkildə varlıqlarının səbəbi olduğu üçün qiymətlidir. Varlığı var olaraq bilmək nəticə etibarilə varlığın əsaslandığı hikməti bilməkdir.

**HİKMƏTİ-BƏHTƏ (الحكمة البحتة):**

Bürhani ağıl və mücərrəd fərziyyələrə əsaslanan düşüncə ilə formalaşdırılan fəlsəfə. Bu ad İşraqilər tərəfindən Aristotel (e.ə. 384-322) və onun İslam dünyasındakı davamçıları olan peripatetik filosoflara verilən ləqəbdir.

**HİKMƏTİ-MÜMƏVVİHƏ (الحكمة المموهة):**

Aldadıcı müdriklik.

**HİKMƏTİ-MÜTƏALİYƏ (الحكمة المتعالية):**

**Transendental hikmət.** Molla Sədra (v. 1640) tərəfindən sistemləşdirilmiş və müasir dövrdə də davamçıları olan fəlsəfi məktəbin adı.

**HİKMƏTİ-MÜVƏHHƏMƏ (الحكمة الموهمة):**

Aristotelin (e.ə. 384-322) məntiqlə əlaqədar altıncı kitabı olan "Sophistici Elenchi"yə Farabi (871-950) tərəfindən verilən addır.

**HİKMƏTİ-RİYAZİYYƏ (الحكمة الرياضية):**

Arifmetika, həndəsə, astronomiya və musiqi nəzəriyyəsini ehtiva edən dörd riyazi elmə verilən ümumi ad.

**HİKMƏTİ-ZÖVQİYYƏ (الحكمة الذوقية):**

Daxili təcrübə və mistik intuisiyalara əsasən formalaşdırılan İşraq fəlsəfəsinə verilən ad. "Hikməti-bəhtiyyənin" antonimidir. İslam fəlsəfəsində belə bir fəlsəfə təsnifatının müəllifləri işraqilərdir.

**HİLF (الحلف):**

"Müqavilə" və "and" mənasında Cahiliyyət dövrü ərəb qəbilələri və ya

fərdlər arasında qarşılıqlı yardımlaşma, əməkdaşlıq və himayə məqsədilə bağlanmış ittifaqlar üçün istifadə olunan termin. Hilf müqavilələri, əsasən, müdafiə və zülmə məruz qalmışların haqqını almaq məqsədilə həyata keçirilirdi.

**HİLFİ-FÜZUL (حلف الفضول):**

İslamaqədərki dövrdə Məkkədə haqsızlığa məruz qalanlara kömək etmək məqsədilə bağlanmış ittifaq. Mənbələrdə həm Məkkənin yerli əhalisinin, həm də Kəbəni ziyarət və ticarət məqsədilə gələn əcnəbilərin haqsızlığa və zülmə məruz qalmasının qarşısını almaq məqsədilə "hilfi-füzul" adlı iki anlaşma bağlandığı qeyd olunur. Birinci anlaşmanın Məkkədə yaşadığı dövrdə Cürhüm qəbiləsindən "Fəzl" adlı üç nəfər arasında (fəzllərin (ərəbcə "Füzul") anlaşması), ikincisinin isə İslamın gəlişinə yaxın bir dövrdə Qüreyş qəbiləsinin bəzi qolları arasında bağlandığı qeyd olunur. Mənbələrə görə, sonuncu anlaşmada Məhəmməd peyğəmbər də iştirak etmiş və İslam dövründə əhəmiyyətinə görə, həmin anlaşmanı yüksək qiymətləndirmişdir.

**HİLLƏ (الحلّة):**

İslamaqədərki dövrdə həcc və Kəbə ilə əlaqəli hər hansı imtiyazı olmayan qəbilələr üçün istifadə olunan termin. Hillə Cahiliyyət dövründə Məkkədə yaşayan və Kəbə ilə əlaqəli müəyyən dini və iqtisadi imtiyazları olan Qüreyş və onun müttəfiqi olan bəzi qəbilələrdən ibarət "hüms"dən kənarda qalan Təmim, Mazin və digər kiçik qəbilələrdən ibarət idi.

**HİLM (الحلم):**

Yumşaqlıq, xoşxasiyyətlilik. İnsanlarla münasibətdə mərhəmətli və lütfkar olmaq. Güc və qüvvət sahibi bir şəxsin əsəbi və qəzəbli olduğu vaxt müqabilini cəzalandırmaq əvəzinə, onunla rəhmli davranaraq əfv etməsi.

**HİLOMORFİZM (hylomorfism):**

Kainatda mövcud olan hər obyektin biri digərindən əsla ayrılmayan maddə və formadan meydan gəldiyini iddia edən metafizik təlim. Bu təlimin müəllifi Aristoteldir (e.ə. 384-322). Ona görə, materiyanın olduğu yerdə forma, formanın olduğu yerdə materiya vardır. Bunlar bir-birindən reallıqda deyil, ancaq mücərrədləşdirmə yolu ilə zehində ayrıla bilər. Hilomorfizmin irəli sürdüyü nəzəriyyəyə görə, materiya xüsusi varlıqlarda və fərdi ünsürlərdə dəyişən tərkib olaraq mövcudur; forma olmadan fərdi varlıqdan söz gedə bilməz; forma dəyişmə boyunca eyni qalan ünsür olub, mövcud olmada davamlılığı təmin edir.

**HİLOTEİZM (hyloteism):**

Materiya ilə Tanrını eyniləşdirən, Tanrı ilə materiyanın bir olduğunu irəli sürən panteizm anlayışına verilən ad.

**HİMARİLİK (الحماريّة):**

Orta əsrlərdə mövcud olmuş iki məzhəb. Ərəb dilində "uzunqulaq"

mənasına gələn "himar" sözündən törəyib. İslam məzhəbləri tarixində Orta əsrlərdə mövcud olmuş "himariyyə" adlı iki qrupdan bəhs olunur. Bunlardan birincisi şiəliyə mənsub olan qrupdur. Mənbələrə görə, imamiliyin 11-ci İmamı Həsən əl-Əskəri vəfat edəndə tərəfdarlarının bir hissəsi onun yenidən dirilib həyata qayıdacağını (ricət) irəli sürdü. Qardaşı Cəfərin (imamilər ona "Cəfəri-kəzzab", yəni "yalançı Cəfər" deyirlər) tərəfdarları isə əl-Əskərinin öldüyünü, imamətin ondan sonra Cəfərə keçdiyini iddia edərək birinci qrupa "himariyyə" adını verdilər. "Himariyyə" adı ilə tanınan ikinci qrup isə mötəzilə məzhəbinə mənsub olmuşdur. İranın Xuzistan əyalətinin Əskər Mükərrəm bölgəsində yaşamış bu qrup reinkarnasiyaya inanır, Allahın insanların bir qismini meymun və donuzlara çevirdiyini, daha sonra onların yenidən insan olduqlarını iddia edirdilər.

**HİNDUİZM:**

Bir inanc sistemi kimi sanskrit ədəbiyyatında "Arya Dharma" və yaxud "əbədi din" mənasında "Sanatana dharma" kimi keçən Hindistanın ənənəvi dini üçün istifadə olunan termin. Hazırkı Hinduizmin Brahmanizmin genişləndirilərək, Buddizm və Caynizm kimi yerli inanc sistemləri ilə sintezindən meydana gəldiyi hesab olunur. Hinduizmin inanc sistemi "vəhy" adlandırılan Şruti və ənənə hesab edilən Smriti ədəbiyyatında öz əksini tapmışdır. Vedalar, Brahmanalar və Upanişadlar Şruti ədəbiyyatını, Vedanqa, Dharma Sutra, Darma Şastra, Purana, Ramayana və Mahabharata dastanları və Tanrtralar Smriti ədəbiyyatını meydana gətirir. Hinduizmin inanc sisteminin mərkəzindəki tanrılar arasında Brahma, Vişnu və Şiva xüsusi yer tutur. Hinduizmin digər önəmli inanc əsası "maya", "lila", "samsara", "mokşa" və "avidya" inancları ətrafında formalaşmış qurtuluş doktrinasıdır. Hinduizmdə dini qaydalar kastalara görə dəyişsə də, bütün hinduların yerinə yetirməli olduğu ortaq ibadət və rituallar mövcuddur. Hazırda mənsublarının sayına görə, Xristianlıq və İslamdan sonra Hinduizm dünyanın üçüncü böyük dini hesab olunur.

**HİSBANİLİK (الحسبانية):**

Müsəlman skeptiklərinə (şübhəçilərinə) verilən ad. Hisbanilər mövcudatın real olaraq var olmadığını iddia edir, hər şeyin xəyaldan ibarət olduğunu müdafiə edirdilər. Mənbələrdə Abbasi xəlifəsi Məmunun hüzurunda məşhur mötəzilə teoloqu Süməmə ibn Əşrəsin (v. 213/828) onlarla diskussiya apardığı qeyd olunur.

**HİSS (الحس):**

Duyğu. Canlı varlıqlarda daxildən və xaricdən gələn xəbərdarlıqları qəbul etməyi mümkün edən güc. Aristotelə (e.ə. 384-322) görə, insan zehnində məlumat və biliklər, ancaq hisslər vasitəsilə meydana gəlir. Kindiyə (796-866) görə, hiss

nəfsin hissiyyat orqanlarından biri vasitəsilə əşyaların formalarını idrak etdiyi qüvvədir. İbn Sinaya (980-1037) görə, idrak gücü daxili və xarici olmaqla iki növdür. Bunların hər biri beş idrak qüvvəsindən ibarətdir. Xarici hissi idrak gücləri – görmə, eşitmə, dadma, qoxlama və toxunma; daxili idrak gücləri isə müştərək hiss, təsəvvür, təxəyyül, vəhm və xatırlama qüvvələrini ehtiva edir.

**HİSSİ-MÜŞTƏRƏK (الحس العام):**

Müxtəlif hissi təsəvvürləri çuğlaşdıran, fərqli duyğuların idrak etdiklərinə şərik olan ünsürləri dərk edən hissə verilən ad.

**HİŞAMİLİK (الهشاميّة):**

Şiə alimlərindən Hişam ibn Salim əl-Cəvaliqinin (v. Miladi VIII əsrin sonları) görüşlərini müdafiə edənlərə verilən ad. Bəzi məzhəblər tarixi mənbələrində Hişam əl-Cəvaliqinin Allahı insana bənzətdiyi, insan kimi orqanlara malik olduğunu irəli sürdüyünü iddia edir. İmamiyyə alimləri isə Cəfəri-Sadiqin və Museyi-Kazımın əshabından olan Hişamın sözügedən inancları qəbul etmədiyini irəli sürürlər. "Hişamiyyə" adı İslam məzhəbləri tarixi mənbələrində şiə alimi Hişam ibn əl-Həkəm (v. 179/795) və mötəzilə alimi Hişam ibn Əmrin (v. 218/833-dən əvvəl) tərəfdarlarına da verilmişdir.

**HİZB (حزب):**

Sözün lüğəvi mənası bölmə, qrup, camaat deməkdir. "Zikr və ya vird" mənasında təsəvvüf termini kimi, müəyyən vaxtlarda, müəyyənləşdirilmiş miqdarda gündəlik oxunan dualara deyilir.

**HÖKM (الحكم):**

Mükəlləflərin əməlləri haqqında şarininin xitabına "hökm" deyilir. Başqa sözlə, hökm hər hansı bir hərəkətin dini baxımdan tələb olunması, qadağan edilməsi və ya sərbəst buraxılmasını ifadə edir. Hökmün əsasən beş qismi olduğu qəbul edilir. Qəti şəkildə əmr olunan feillər (vacib/fərz), edilməsi savab qazandıran, tərk edilməsində günah olmayan feillər (məndub), qəti şəkildə qadağan olunan feillər (haram), edilməsi günah olmayan, lakin tərk edilməsi tövsiyə olunan feillər (məkruh), savabı və günahı olmayan sərbəst feillər (mübah).

**HU (هو):**

"O" mənasında üçüncü şəxs əvəzliyini bildirir. Sufi ədəbiyyatında "Hu" Allahı, müşahidəsi mümkün olmayan varlığı ifadə edir. Dərvişlər zikrlərində əksər hallarda bu sözdən istifadə edirlər.

**"HUD" SURƏSİ (سورة هود):**

Quranın 11-ci surəsi. 123 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. 50-60-cı ayələrdə Hud peyğəmbərdən bəhs edildiyi üçün bu adı almışdır. Surədə vəhy, peyğəmbərlik mövzularından bəhs edilmiş, nümunə olaraq Nuh, Hud, Saleh, İbrahim, Lut, Şüeyb və Musa peyğəmbərlərin həyatla-

rından qissələr rəvayət edilmişdir. Nəticə olaraq onların qövmlərinin aqibəti və cəzaları haqqında məlumatlar verilmişdir.

**HUMANİZM (humanism):**

İnsansevərlik, insanpərvərlik, insan ləyaqətinə hörmət kimi prinsiplərin məcmusu. Bəşəriyyətə, insanlığa yaraşan bir həyatı və təfəkkürü əldə etmək üçün cəhd etmək. Ən geniş mənada insanın dəyər və hörmətinə, insan olmağa və insanlığa olan əqli inam.

**HUŞ DƏR DƏM (هوش در دم):**

Hər nəfəsdə insanın ağıl və mənəvi dünyasının qəflətdən uzaq olması. İdrakın hər an açıq olması. Sufinin alıb-verdiyi hər nəfəsində şüurlu və nəfsinə hakim olması. Nəfəsinə hakim ola bilməyən nəfsinə də hakim ola bilməz.

**HÜCCƏT (الحجّة):**

Hüccət "bir hökmün doğru və ya yanlış olduğunu sübut etmək üçün gətirilən dəlil" deməkdir.

**"HÜCÜRAT" SURƏSİ (سورة الحجرات):**

Quranın 49-cu surəsi. 18 ayədən ibarətdir. Mədinə dövründə nazil olmuşdur. Surənin adı 4-cü ayədə "otaqlar" mənasına gələn "hücürat" sözündən alınmışdır. Surədə, əsasən, əxlaqi prinsiplərdən, Həzrət Peyğəmbərlə bağlı bəzi etik qaydalardan, habelə insanlararası münasibətlərdən bəhs edilmişdir. Həmçinin möminlərin qardaş olduğu da surənin 10-cu ayəsində bildirilmişdir.

**HÜDUS DƏLİLİ (دليل الحدوث):**

Lüğəvi baxımdan "sonradan meydana gəlmək" mənasında işlədilən "hüdus" dəlili kəlam və əqaid elmində Allahın varlığını isbat etmək üçün müraciət edilən dəlillərdən biridir. Hüdus dəlilinə görə, yoxluq bir varlığın, hadisənin, hətta bütün kainatın mövcudiyyətindən əvvəl gəlir. Beləliklə, sonradan meydana gələn və yaradılana "hadis", onun yaradıcısına "mühdis" deyilir.

**HÜLLƏ (الحلّة):**

Üç talaqla boşanan bir qadının həmin kişi ilə təkrar evlənə bilməsi üçün başqa bir kişi ilə evlənməsinə "hüllə" deyilir. Əslində, bu hökmü gətirən "Bəqərə" surəsinin 230-cu ayəsinin əsas məqsədi prosesin təbii şəkildə baş verməsini bildirməkdir. Yəni üçüncü dəfə boşanan qadın həmin kişi ilə təkrar evlənmə məqsədi ilə deyil, yeni bir ailə qurmaq məqsədi ilə evlənib, sonra boşanarsa, əvvəlki əri ilə təkrar evlənə bilər. Halbuki ənənəvi olaraq bu ikinci evlilik əvvəlki ərə qayıtmaq üçün saxta evlilik şəklində tətbiq olunmuşdur. İslamın gətirdiyi hökmün məqsədi isə ailəni qorumaq və boşamanın qarşısını almaqdır.

**HÜLUL (الحلول):**

İlahi zatın, yaxud sifətlərinin məxluqatın biri və ya hamısı ilə birləşməsi

mənasında dini termin. Bu inancın ilk nümunələrini totemizm və animizm kimi ibtidai dinlərdə müşahidə etmək mümkündür. Bu inanc sonrakı dövrlərdə, xüsusilə Hind dinlərində Tanrının insan və ya başqa bir varlıq surətində fiziki varlıq kimi təcəssüm etməsi şəklində öz əksini tapmışdır. İlahi ruhun İsada təcəssüm etməsi düşüncəsini mənimsəyən Xristian teologiyası da hülul düşüncəsini qismən qəbul edir. İslam alimləri hülul anlayışını batil sayaraq rədd etmişlər.

**HÜLULİLİK (الحلولية):**

Hülul əqidəsini qəbul edənlərə verilən ad. Ərəbcə "həll olmaq" mənasına gələn "hülul" termini Tanrının zatının və ya sifətlərinin məxluqatın birinə, yaxud hamısına keçdiyini və onlarla birləşdiyini ifadə edir. Hülulilər Allahın bəşər surətində təcəssüm etdiyini iddia edirdilər. İslam məzhəbləri tarixi mənbələrində "qülat" adlanan ifrat qrupların əksəriyyətində hülul əqidəsi mövcuddur.

**"HÜMƏZƏ" SURƏSİ (سورة الهمزة):**

Quranın 104-cü surəsi. 9 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surənin adı birinci ayədəki "hüməzə" sözündən alınmışdır. Mənası "bir-birinin arxasınca danışmaq, bir-birini məsxərəyə qoymaq"dır. Surədə bir-birinin arxasınca danışan insanların, var-dövlət toplamağa üstünlük verənlərin aqibəti, düşəcəkləri Hütəmə cəhənnəmi haqqında bəhs edilmişdir.

**HÜRUFİLİK (حروفلك ):**

Hərflər və sayların müqəddəsliyini qəbul edərək, onların müxtəlif simvolik mənalar daşıdığına və gizli sirlər ifadə etdiyinə inanan batini düşüncə. Tarixdəki müxtəlif fəlsəfi cərəyanlara təsir etmiş bu anlayış tərzi İslam düşüncə tarixində Fəzlullah Nəimi (v. 1397) ilə məşhurlaşaraq, sistemli bir təriqət formasında İran, Azərbaycan, İraq kimi geniş coğrafiyada uzun müddət ictimai təsiri qoruyan cərəyan olmuşdur. Hürufilik cərəyanının ən sadiq nümayəndələrindən biri İmadəddin Nəsimi (v. 1417) olmuşdur.

**HÜRUFİ-MÜQƏTTƏƏ (الحروف المقطّعة):**

Qurani-Kərimin 29 surəsinin əvvəlində olan müstəqil hərflərə "müqəttəə hərfləri" (kəsik hərflər) deyilir. Bu hərflər surələrin əvvəlində tək və yaxud ikisi, üçü, dördü və beşi bir yerdə olmaqla yazılmışdır. Cəmi 14 müxtəlif hərf olub, 13 ayrı tərkibdədir.

**HÜVİYYƏT (الهوية):**

Kimlik. Bir nəsnənin varlıq sferasında məxsusi olaraq görünməsini və olduğu vəziyyətlə başqa nəsnələrdən ayrılmasını ifadə edən fəlsəfi termin. İslam fəlsəfəsində nəsnələrin zehindəki universal məfhumlarına "mahiyyət", həmin məfhumların xarici aləmdə var olmalarına "həqiqət" və ya "inniyyət", mövcud olaraq gerçəklik əldə edənlərin malik olduğu xüsusiyyətlər nəticəsində ayrı-ayrı varlıqları göstərmələrinə "hüviy-

yət" deyilir. İlk dəfə mahiyyəti hüviyyətdən ayıran Farabi (871-950) mahiyyəti obyektiv terminoloji müstəvidə varlığı, hüviyyəti isə həmin mövcudiyyətin xarici aləmdəki varlığı üçün istifadə etmişdir. Bu mənada, filosoflar toxumun ağacı öz içində daşıması və Mütləq Həqiqətin Mütləq Qeybdə həqiqətləri özündə daşıması nümunəsini qeyd edirlər.

**HÜZEYLİLİK (الهذيليّة):**

Mötəzilə məzhəbinin Bəsrə məktəbinin qurucusu Əbülhüzeyl əl-Əllafın (v. 235/849-50 [?]) fikirlərini mənimsəyənlərə verilən ad. Əl-Əllafın fikirlərinin bəzisi belədir: mövcudat haqqındakı biliyin mənbəyi hisslər, ağıl və Allahın peyğəmbərlər vasitəsilə bildirdiyi doğru xəbərdir. Ona görə, bütün insanlarda Allahın varlığına dair anadangəlmə zəruri biliklər vardır. Bu səbəbdən, düzlə-səhvi ayırma yaşına çatan insanlar heç bir təhsil görməsə və dini məlumata malik olmasalar da, Allahın varlığına inanmaq məsuliyyətini daşıyırlar. Əbülhüzeyl yunan fəlsəfəsindən də xəbərdar olmuş, Demokritin atomizm ideyalarını əxz edərək onu kainatın yaradılışı ilə əlaqələndirmişdir. O, kainatın Allah tərəfindən yaradılmış bölünməyən hissəciklərdən (atomlardan) ibarət olduğunu müdafiə edirdi.

# X

**XABİTİLİK (الخابطيّة):** Əhməd ibn Xabitin (v. 232/846-47) görüşlərini mənimsəyənlərə verilən ad. İbn Xabit əvvəllər mötəzilə məzhəbinə mənsub olmuş, lakin daha sonralar İslama zidd görüşləri ilə bu məzhəbdən ayrılmışdır. O və onun görüşlərini bölüşən Fəzl əl-Hədəsi (v. 257/870-71) mötəzilənin böyük alimlərindən olan İbrahim ibn Səyyar ən-Nəzzamın tələbələri olmuş, daha sonra İslam əqidəsinə zidd fikirlər irəli sürərək müəllimlərinə etiraz etmişlər. Əhməd ibn Xabitin tərəfdarlarına "xabitilik" (xabitiyyə), əl-Hədəsinin tərəfdarlarına isə "hədsilik" deyilmişdir. Xabitilik və hədsilik mötəzilinən "qülat"ından (ifrat qollarından) hesab olunur. Xabitiliyə görə, iki tanrı vardır: birincisi, əzəli olan Allahdır, ikincisi isə Məryəm oğlu İsadır. Əzəli tanrıdan fərqli olaraq İsa yaradılmış tanrıdır. Kainatı yaradan və insanları axirətdə hesaba çəkən İsadır. Əhməd ibn Xabit Qurandakı bəzi ayələrdə ("Fəcr" surəsi 22, "Ənam" surəsi 158, "Bəqərə" surəsi 210) keçən "Rəbb" kəlməsi ilə İsanın nəzərdə tutulduğunu irəli sürmüşdür. O, həmçinin neoplatonizmin təsirində qalaraq, İsanın dünyaya gəlməzdən əvvəl "ağıl" olduğunu söyləmişdir. İbn Xabit reinkarnasiya (tənasüx) inancını qəbul etmiş, çox evləndiyi üçün Məhəmməd Peyğəmbəri qınamış və Əbu Zər əl-Qiffarinin ondan daha çox nəfsinə hakim olduğunu iddia etmişdir. Zamanla tarix səhnəsindən silinən xabitilik və hədsilik İslam, Xristianlıq və Hinduizmlə neoplatonizmin (yeni platonçuluq) sintezindən ibarət olmuşdur.

**XAFİZ (الخافض):**

"Alçaldan, dəyərdən salan" mənalarını ifadə edən "xafiz" kəlməsi hədis ədəbiyyatında Allaha aid edilən adlardan (əsmai-hüsna) biridir. Termin kimi "zalımları alçaldan və Allah dostlarını ucaldan" mənasını verir.

**XALİQ (الخالق):**

"Xələqə" kökündən meydana gələn "Xaliq" yaradan mənasını ifadə edir. İslam alimləri Allahın 99 adından (əsmai-hüsna) biri olan "Xaliq" adının mənasını "təqdirinə uyğun surətdə yaradan" kimi izah etmişlər. Həm feil, həm də isim kimi "xələqə" və "Xaliq" kəlmələri Qurani-Kərimdə 236 dəfə Allaha nisbət edilir. Habelə iki ayədə davamlı və mükəmməl surətdə "Yaradan" mənasını verən "Xəllaq" kəlməsi istifadə edilmişdir. Quranda "Xaliq" adı ilə yanaşı, eyni mənanı daşıyan "Bari", "Bədi" və "Müsəvvir" kimi Allahın digər adları da qeyd edilir.

**XALQ DİNİ (folk religion):**

Xalq arasında geniş yayılmış ənənəvi dindarlıq tipi olub, təşkilatlanmış dinin rəsmi və ya ortodoksal təlimlərindən fərqli dindarlıq formasını ifadə edir. Buna "xalq dindarlığı" və ya "populyar din" də deyilir. Kütləvi din fərqliliyə az imkan verən, sadə, ayin və mərasimlərə üstünlük verən, sehr və mifoloji inanışlar və praktikalar cəhətdən zəngin olmaqla səciyyələnir. Xalq dininin formalaşmasında iki mühüm amil xüsusi rol oynayır: dinin nəzəri əsaslarının, rəsmi doqmaların xalq nəzdində bəsit formada anlaşılması, digəri isə rəsmi dini təlimlərin qədim inanc formaları ilə birləşərək sinkretik bir formaya bürünməsi. Xalq dininin əsas mənbəsi şifahi ötürülən folklor və ənənələrdir. Buna görə də xalq dini dinin nəzəri əsaslarına söykənən "kitab dini" və ya "rəsmi din"dən fərqlənir və adətən, bu iki dindarlıq tipi arasında kəskin ziddiyyətlər meydana gəlir.

**XANƏGAH (خانگاه):**

Sufilərin dini-mənəvi təlimlər üçün toplaşdığı təkyə, zaviyə, asitanə kimi böyük və kiçikliyi ilə fərqlənən sufi məkanlarından ən böyük dərgah. Təriqət mərkəzi olmaqla yanaşı, karvansaraylar kimi xeyriyyə işlərinin həyata keçirildiyi, elmi və ədəbi məclislərin qurulduğu, hətta musiqi məclislərinin də təşkil edildiyi, əsasən, ictimai işlərə xidmət edən fəaliyyət ocağı olmuşdur. Xanəgahlar həm maddi, həm də mənəvi xidmət obyekti olduğu üçün adətən, aid olduğu təriqətin şeyxi tərəfindən idarə edilirdi.

**XARƏZMŞAHLAR:**

1097-1231-ci illərdə Xarəzm, İran və Azərbaycanda hökm sürmüş türk dövləti. Əsası Səlcuq sultanı Məlikşahın teştdarı Anuş Təkinin oğlu Qütbüddin Məhəmməd (1097-1128) tərəfindən qoyulan Xarəzmşahlar dövləti onun hakimiyyəti dövründə Səlcuq dövlətinə bağlı olaraq siyasi və iqtisadi cəhətdən gücləndi. XII əsrin sonlarına doğru nüfuzunu və siyasi gücünə artıran Xarəzmşahlar XIII əsrin əvvəllərində bölgədəki güclü rəqibi Qarxitaylara qalib gəldi, Qərbi Qaraxanlılar dövlətini süqut etdirdi, Atabəylər dövlətini özünə təslim edərək bölgənin ən güclü dövlətinə çevrildi. 1218-ci ildə baş vermiş Otrar hadisəsi nəticəsində Çingiz xanın hücumlarına məruz qalan Xarəzmşahların çöküşü başladı. Monqollarla mübarizədə zəifləmiş Xarəzmşahlar 1230-cu ildə Anadolu Səlcuqlu dövləti və Eyyubilərə qarşı apardığı Yastı Çəmən müharibəsindəki məğlubiyyətdən sonra süqut etdi.

**XARİQÜLADƏ (خارق العادة):**

Təbiətin qanunlarına zidd olan hadisələri ifadə edir. Quranda təbiətin qanunlarından bəhs edilərək, bu qanunların Allah tərəfindən qoyulduğu vurğulanır. Allah tərəfindən qoyulan və qorunan bu qanunların pozulması yalnız Onun öz qüdrəti daxilindədir.

Peyğəmbərlərin göstərdiyi möcüzələr məhz Allah tərəfindən təbiət qanunlarına edilən müdaxilələr vasitəsilə həyata keçirilmişdir. Bu möcüzələr "xariqüladə" termini ilə ifadə edilir.

**XARİZMA (charisma):**

Fövqəltəbii istedada, qeyri-adi qüvvəyə, başqalarında özünəinam yaratma keyfiyyətinə malik olmaq xüsusiyyətlərini ifadə edən termin. "Xarizma" İncilin yunanca tərcüməsindən alınmış və "ilahi vergi" mənasını ifadə edir. Bu termin sosiologiya elminə görkəmli alman sosioloqu Maks Veber (1864–1920) tərəfindən daxil edilmişdir. M.Veber bununla, əsasən böyük dinlərin və məzhəblərin (kilsə) qurucularında mövcud olan vəsfləri nəzərdə tuturdu. Xarizmanın çoxlu növü vardır, lakin dini xarizma bunlar arasında ən mühüm olanlardan biridir. Dinlərdə yeni cərəyanlar və məzhəblər məhz xarizmaya malik olan bir şəxsiyyətin rəhbərliyi altında meydana gəlir.

**XAS (الخاصّ):**

Məhdud bir məfhumu ifadə edən və müəyyən mənanı bildirmək üçün istifadə olunan sözə deyilir.

**XASSƏ.**

**Bax: BEŞ UNİVERSAL.**

**XATƏMÜLƏNBİYA (خاتم الانبياء)/ XATƏMÜNNƏBİYYİN (خاتم النبيين) /XƏTMİ-NÜBÜVVƏT (ختم النبوّة):**

Bu terminlər Həzrət Məhəmmədin peyğəmbərlərin sonuncusu olduğunu bildirir. "Xətm" kəlməsi "nəticələndirib sona çatdırmaq; möhürləmək" mənasını verir. Bu kəlmə peyğəmbər (ənbiya) və ya peyğəmbərlik (nübüvvət) kəlməsi ilə birləşib, İslam Peyğəmbərinin sonuncu peyğəmbər olduğunu ifadə edən bir termin kimi formalaşmışdır. Qurani-Kərimdə bu həqiqət belə ifadə edilir: "Məhəmməd aranızdakı kişilərdən heç birnin atası deyildir. O, Allahın elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir" ("əl-Əhzab", 33/40).

**XƏBƏR (الخبر):**

Hədisin sinonimi. Bəzi alimlər "hədis" məfhumunu, xüsusilə Həzrət Peyğəmbərin sözləri üçün işlətmişlər. Səhabə və tabiinin, hətta ondan sonrakı nəsillərin sözlərinə isə xəbər deyilmişdir. Buna görə hər hədis xəbərdir, ancaq hər xəbər hədis deyildir. Bəzi hədisçilər səhabəyə aid sözlərə "xəbər" demişlər.

**XƏBƏRİ-RƏSUL (خبر الرسول):**

"Peyğəmbərin verdiyi xəbər" mənasını ifadə edən "xəbəri-rəsul" doğru xəbər növlərindən biridir. Xəbəri-Rəsul peyğəmbərliyi möcüzə ilə təsdiqlənən peyğəmbərin gətirdiyi xəbərdir. Bu xəbər ağlın və təcrübənin köməyi ilə dəqiq bilik dərəcəsinə yüksəlir.

**XƏBİR (الخبير):**

"Xəbir"Allah-Taalanın 99 adından (əsmai-hüsna) biridir. Xəbir "hər şeyin həqiqi mahiyyətindən və insan-

ların axirətdəki hallarından xəbərdar olan" mənasını verir. Quranın 44 ayəsində "Xəbir" adı Allaha ais edilir.

**XƏLAS (خلاص):**

Axirətdəki qurtuluş və səadət. **Bax: FƏLAH.**

**XƏLƏF (الخلف):**

Sonrakı, ardından gələn, yaxud şəxs deməkdir. Bir şeyin, yaxud şəxsin arxasınca gələn. "Sələf"in ziddi.

**XƏLİFƏ (الخليفة):**

"Bir insanın davamçısı olan, yerinə keçən, onu təmsil edən" mənasında İslam dövlətində Məhəmməd peyğəmbərdən sonra dövlət başçılığını yerinə yetirən şəxsə verilən titul. İslam tarixində xəlifə titulu ilə yanaşı "imam" və "əmirül-möminin" titulları da istifadə olunmuşdur **(bax. XİLAFƏT).**

**XƏLQ (الخلق):**

Lüğəvi baxımdan "yaratmaq" deməkdir. Termin kimi "xəlq" "Allahın əzəldəki planlamasına (təqdir) uyğun olaraq yaratması" deməkdir. "Xəlq" kəlməsi ilə yanaşı, "təkvin" sözü də Allahın yaratmasını ifadə edir.

**XƏLQİ-CƏDİD (الخلق الجديد):**

"Xəlq" kəlməsi "yaratmaq", "cədid" kəlməsi ilə "yeni" deməkdir. Bu iki kəlmənin birləşməsindən meydana gələn "xəlqi-cədid" Allahın yenidən yaratmasını, ölümdən sonra yenidən həyat bəxş etməsini bildirir. Quranı-Kərimdə insanın ilk yaradılışı istidlal vasitəsilə nümunə gətirilərək,yenidən yaratmanın mümkün olduğu vurğulanır. Belə ki, "Məgər Biz ilk yaradılışdan acizmi qaldıq?! Onlar yenidən yaradılışa qarşı şəkk-şübhə içindədirlər!" ("Qaf", 50/15) ayəsi xəlqi-cədidin mümkün olduğunu qeyd edir.

**XƏLQİ-QURAN (خلق القرآن):**

Quranın yaradılmışlığı. Quranın Allahın əzəli kəlamı olmayıb, sonradan yaratdığı sözlərdən ibarət olduğunu ifadə edən termin. Hicri II əsrdə, xüsusilə əhli-sünnə və mötəzilə məzhəbləri arasında qızğın mübahisələrə səbəb olan kəlami bir məsələ. Xəlifə Məmunun dövründə (h. 198-218) rəsmi bir görüş olaraq qəbul edilmiş, siyasi cəhətdən təzyiq vasitəsinə çevrilmişdir.

**XƏLLAQ (الخلاق)**

**Bax: XALİQ.**

**XƏLVƏT DƏR ƏNCÜMƏN (خلوة در انجمن):**

Təkbaşına, xəlvətdə Allah ilə olmaq əvəzinə, xalq içərisində xəlvəti yaşamaq. Nəqşbəndilik təriqətinə aid bu məfhum "Nur" surəsinin 37-ci, "ticarət və alış-verişin Allahı xatırlamağa mane olmadığı kəslər" ayəsindən alınmış prinsipdir.

**XƏLVƏT (الخلوة):**

Tənhalıq, təklik, biri ilə təkqalma halına deyilir. Təsəvvüf termini kimi "günah"dan qorunmaq və daha yax-

şı ibadət etmək məqsədi ilə tənha bir yerdə qalmaq, yaxud yaşamaqdır. İbadət, təfəkkür və Allahı xatırlamaqla vaxt keçirmək, təkbaşına qaranlıq bir yerdə zikr etməyə "xəlvətə girmək" deyilir.

**XƏLVƏTİLİK (خلوتيه):**

XIV əsrdə Azərbaycanda qurulan və müsəlman aləminin böyük hissəsinə yayılan ən böyük sufi təriqətlərdən biri. Şirvanlı Əbu Abdullah Siracəddin Ömər ibn Əkmələddin Lahici (v. 1349) tərəfindən qurulmuşdur. Bu məktəbin silsiləsi Həzrət Əli vasitəsilə Həzrət Peyğəmbərə bağlanmışdır. Pir Ömər Xəlvətinin "ərbəin çıxarmaq" üçün böyük bir çinar ağacının içi boş qovuğunu seçdiyi qeyd edilir. Xəlvət və tənha yerlərdə ibadət və zikrlə məşğul olmaq təriqətin bu adla hallanmasına səbəb olub. Təriqətin özəyi Seyyid Yəhya Bakuvi vasitəsilə Şamaxıdan Bakıya keçmiş, Şirvanşahlar sarayında fəaliyyət göstərən təriqətin qısa zamanda 20 000 mənsubu olmuşdur. Təriqət prinsipləri bütün müsəlman aləminə sürətlə yayılaraq, ardıcılları gündən-günə çoxalmışdır. Xəlvətiliyin şəmsiyyə, bəxşiyyə, dəmirdaşiyyə, əssaliyyə və gülşəniyyə kimi qolları mövcuddur.

**XƏRAC (الخراج):**

Təbəənin mülkiyyətindən, xüsusilə torpaqdan alınan vergi üçün istifadə olunan termin. Raşidi xəlifələrin ikincisi Ömər ibn Xəttabın fəth edilən torpaqları qənimət kimi əsgərlər arasında bölüşdürməyib aqrar məhsulların vergisi müqabilində əvvəlki sakinlərinin istismarına verməsi İslam dünyasında xəracın sistemli bir vergiyə çevrilməsinin əsası hesab olunur.

**XƏSAİS (الخصائص):**

Həzrət Peyğəmbərə məxsus üstün vəsflər. Xüsusi vəsflər mənasına gələn "xassa" kəlməsinin cəm formasıdır. Əsasən "şəmail" kitablarının tərkibində yer alır.

**XƏŞƏBİLİK (الخشبيّة):**

Hüseyn ibn Əlinin intiqamını almaq üçün üsyan edən Muxtar əs-Səqəfinin ordusundakı məvalidən (qeyri-ərəb müsəlman) bir qrupuna verilən ad. "Xəşəbilik" kəlməsi ərəb dilində "odun, dəyənək" mənasına gələn "xəşəb" sözündən götürülmüşdür. Muxtar əs-Səqəfinin üsyanında iştirak edən və maddi imkanları zəif olan Kufə məvalilərinin çoxu qılınc yerinə dəyənəklərdən silah kimi istifadə etdiyi üçün müxalifləri tərəfindən "xəşəbiyyə" adlandırılmışdır. Daha sonra sözügedən qrup xəşəbiliyin əvəzinə "keysanilik", "muxtarilik" və "hüseynilik" adlandırılmışdır. "Xəşəbiyyə" termini "qülat"a mənsub bəzi qruplar üçün də istifadə olunmuşdur.

**XƏTABƏ (الخطابة):**

Məntiq elmində beş sənətdən biri. Zənniyyat və məqbulatdan ibarət olan sillogizmə verilən addır. Xətabə bir çox insan tərəfindən qəbul edilən mühakimələrə və sözlərinin doğru ol-

duğu hesab edilən alimlərin fikirlərinə əsaslanan proporziylardan ibarətdir. Xətabə daha çox zəruri bilikləri ifadə edən bürhan kimi əqli dəlilləri anlamaqda aciz olan insanları inandırmaq məqsədi ilə istifadə edilir.

**XƏTMİ-XACƏGAN (ختم خواجگان):**

Müəyyən surələrin və xüsusi zikrlərin oxunması ilə yerinə yetirilən nəqşbəndi təriqəti məclisi. Adətən, çətin və böhran vəziyyətdən xilas olmaq üçün təşkil edilirdi. Bir qrup mürid şeyxin hüzurunda halqa qurur, gözləriyumuq, rabitəli olaraq dizüstü vəziyyətdə oturur. Şeyx məclisi müşayiət edərək, "Ərvahi-əqdəsi-xacəqani-alişani-Nəqşbəndira və sirri-ənbiyara bər tariqi-niyaz əl-Fatihə", – deyir. Yeddi "Fatihə", yüz salavat, yetmiş doqquz "İnşirah", min bir ixlas və axırda təkrar yüz salavat və yeddi Fatihə oxunur. Müridləri vəcdə gətirmək üçün bəzən də ilahilər söylənilir. Bu məclislərdə bəzi əlavələr və qısaltmalara da rast gəlmək mümkündür.

**XƏTTABİLİK (الخطّابيّة):**

Şiəliyin ifrat qollarından (qülat) biri. Qurucusu "Əbülxəttab əl-Əsədi" adı ilə məşhurlaşan Məhəmməd ibn Əbu Zeynəb əl-Əsədidir (v. təqribən, 138/755). Əvvəllər imamiliyin 6-cı İmamı Cəfər əs-Sadiqin tərəfdarlarından olan Əbülxəttab, daha sonralar ifrat düşüncələri səbəbilə əs-Sadiq tərəfindən lənətlənmişdir. Əbülxəttab imamların, xüsusən də Cəfər əs-Sadiqin tanrı olduğunu, özünün də onun tərəfindən yer üzünə "Allahın elçisi" kimi göndərilən mələk olduğunu iddia edirdi. Bu iddialarını eşidən əs-Sadiq Əbülxəttabın yalançı olduğunu, özünün və ata-babalarının tanrı deyil, Allahın bəndələri olduğunu bildirdi. Daha sonra özünü tanrı elan edən əl-Əsədi İslamın əmr və qadağalarını ləğv etdiyini elan etdi. Abbasi xəlifəsi Mənsurun əmri ilə Əbülxəttab və tərəfdarlarının çoxu Fərat çayının yaxınlığındakı "Darürrizq" adlanan yerdə öldürülərək başları Bağdada göndərildi və cəsədləri yandırıldı.

**XƏVARİC (الخوارج):**

İslam dünyasında mövcud olan məzhəblərdən biri. Ərəb dilində "xaric olan, qarşı çıxan" mənasına gələn "xüruc" sözündən əmələ gələn "xarici" (خارجي) kəlməsinin cəmidir. Siffin müharibəsindən sonra Əli ibn Əbu Talibin ordusundan ayrılıb ona qarşı çıxanlara bu ad verilmişdir. Daha sonrakı dövrdə siyasi və etiqadi bir məzhəbə çevrilən xəvaric (xaricilik) öz içində müxtəlif qollara ayrılmışdır. Bunların arasında ən məşhurları mühəkkimeyi-ulə, əzariqə, nəcədat, süfrilik, əcaridə, səalibə, beyhəsilik və ibazilikdir. Zamanla, ibazilik istisna olmaqla, xəvaricin bütün qolları tarix səhnəsindən silinmişdir.

**XƏVAS (الخواص):**

Başqalarından üstün xüsusiyyətlərinə görə seçilənlər, yaxud özünə xas xüsusiyyətləri olan bir qrup. Digər

sıravi təbəqəyə isə "avam" deyilir. Təsəvvüfdə xəvas hamıda olmayan bəzi qabiliyyətlərə, elmə, ruh təmizliyinə və mənəvi hallara sahib olan övliyalara deyilir. Onların arasında da ən üstün olanlarına "xassül-xəvas" deyilir. Xəvas haram və məkruh kimi qadağalardan uzaq durmaq, nafilə ibadətlərə əhəmiyyət verməklə bəzi xüsusi hallara sahib olmaları baxımından avamdan fərqlənir,

**XƏVATİR (الخواطر):**

"Xəvatir" "xatırlamaq, qəlbə gəlmək, qeyri-ixtiyari düşünmək" mənalarını verir. Terminoloji mənada insanın iradəsi xaricində ağlına gələn yaxşı və pis düşüncələri ifadə edir. Mələyin yaxşılıq, şeytanın pislik təlqin etməsi məhz xəvatirdir. Kəlam elminə görə, xəvatir insan feillərini təyin edən niyyət, əzm və iradəni formalaşdıran ilk düşüncədir. İslam alimləri insanın iradəsi xaricində ağlına gələn düşüncələrdən ötrü məsuliyyət daşımadığını, lakin onları ixtiyari olaraq düşünüb israr etdikdə məsuliyyət daşıyacağını ifadə etmişdir.

**XƏYAL (الخيال):**

Müşrətək hisslərin bir yerə cəmləndiyi yer və insan nəfsinin idrak qüvvələrindən biri. Filosoflara görə, hisslər ilə qavranılmayan xəyal edilə bilməz və xəyal edilməyən haqqında düşünmək mümkün olmaz. Təxəyyül hiss etmək ilə düşünmə arasında mövcud olan idrak qüvvəsidir. İbn Sina xəyal gücü ilə mütəxəyyilə gücünü bir-birindən ayırır. Xəyal gücü müşahidə aləmindən idrak edilən görüntüləri mühafizə etmə (yaddaşda saxlama) funksiyasına malikdir. Mütəxəyyilə hissi isə "hissi surət" adı verilən həmin görüntüləri müxtəlif birləşdirmə və ayırma prosesi ilə yenidən formalaşdıraraq, sərbəst şəkildə xəyal edir, insan gözündə canlandırır. Bu fəaliyyət vəhm qüvvəsi üçün olarsa, "təxəyyül"; ağıl üçün olarsa, "təfəkkür" adını alır. Sührəvərdi (1155-1191), İbn Ərəbi (1165-1240) və Molla Sədra (v. 1640) kimi alimlərə görə, insan nəfsi xarici hissiyyat orqanlarının idrakı ilə hissiyyat aləmini, daxili hisslərin idrakı ilə xəyal aləmini, əqli idrak ilə əqli aləminin gerçəkliyini qavrayır.

**XİLAFƏT (الخلافة):**

Məhəmməd peyğəmbərin vəfatından sonra İslam dövlətinin idarəetmə sistemi üçün istifadə olunan termin. Peyğəmbərin risalət vəzifəsinin onun vəfatı ilə sona çatdığı, lakin dövlət başçılığı vəzifəsinin davam etdirilməsinin zəruri olduğu düşüncəsiylə ilk müsəlman cəmiyyətin formalaşdırdığı idarəetmə sistemi kimi xilafət, həmin dövrün ərəb cəmiyyətinin ənənəvi idarəetmə üsulundan, həm də qonşu dövlətlərdəki irsi hakimiyyət formasından fərqli əsaslar üzərində quruldu. Qüreyş qəbiləsinin müxtəlif qollarına mənsub ilk dörd xəlifə (Raşidi xəlifələr) hakimiyyətə fərqli üsullarla gəldi. Qüreyşin Ümeyyə oğullarına mənsub Müaviyə ibn Əbu Süfya-

nın rəhbərliyində qurulan Əməvilər (661-750), Haşimoğullarına mənsub Abbasilər ilə (750-1258) onların Məmlük dövlətindəki davamı olan Misir Abbasiləri (1261-1517) və Ali-Osman (1517-1923) xilafətin İslam dünyasındakı varisləri oldu. Abbasi xilafətinə paralel olaraq 909-cu ildə Fatimilər, 929-cu ildə Əndəlüs Əməviləri özlərini xilafət elan etdi.

**XİLƏT/XƏLƏT (الخلعة):**

Xəlifələrin və hökmdarların dövlət adamları başda olmaqla təltif etmək istədikləri şəxslərə geyindirdikləri geyim üçün istifadə olunan termin. Xilət, əsasən, Abbasilər dövründən etibarən İslam dünyasında fəaliyyət göstərən "tiraz" müəssisəsində hökmdar başda olmaqla saray əyanları üçün xüsusi qaydada hazırlanan parça və geyimlərdən verilirdi.

**XİLİAZM (chiliasm):**

Yunan dilində "chilias" – "min" deməkdir. Millenarist dini cərəyanları ifadə edən alternativ termin. **Bax: MİLENNİALİZM.**

**XİRQƏ (الخرقة).**
**Bax: BÜRDƏ.**

**XOCALAR (خوجا):**

Hindistanda ismaililiyin nizari qoluna mənsub olanlara verilən ad. **Bax: NİZARİLİK.**

**XURAFAT (الخرافة):**

Ağla və reallığa zidd olan aldadıcı söz, din adı ilə irəli sürülüb-mənimsənilən batil inanc və davranışlar "xurafat" adlanır. Tarixin bir çox dövründə din adı ilə insanlara təqdim edilən batil inanclar mövcud olmuşdur. İslam dininə mənsub olan cəmiyyətlərdə öncəki dinlərin inanc və ənənələrinin təsiri ilə, habelə cəhalət və müxtəlif məqsədlərlə uydurulan hədislər xurafatın meydana gəlməsi ilə nəticələnmişdir. İslam alimləri xurafatdan qurtulmaq üçün dini bilikləri öz mənbəyindən öyrənməyi tövsiyə etmişdir.

**XÜLƏFAYİ-RAŞİDİN (الخلفاء الراشدين):**

Ərəbcə "doğru yolda, haqqa bağlı olan" mənasında "raşid" kəlməsinin cəmi ilə "xəlifə" sözünün birləşməsindən yaranıb, Məhəmməd peyğəmbərin vəfatından sonra iqtidara gəlmiş ilk dörd xəlifənin hakimiyyət dövrü üçün istifadə edilən termin. Ümumilikdə Əbu Bəkir ibn Əbu Qühafə (632-634), Ömər ibn Xəttab (634-644), Osman ibn Əffan (644-656) və Əli ibn Əbu Talib (656-661) olmaqla dörd xəlifə Raşidi xəlifələr hesab olunur, bəzi tarixçilərə görə Həsən ibn Əli də bu siyahıya daxil edilir.

**XÜMS (الخمس):**

Beşdəbir. "Ənfal" surəsinin 41-ci ayəsində keçən "qənimət" kəlməsi əhli-sünnənin təfsirinə görə, müharibə şəraitində əldə edilənləri bildirir. "Xüms" dövlətin həmin qənimətlərdən aldığı beşdəbir hissə vergini ifadə edir. Cəfərilikdə "qənimət" hər cür gəliri ifadə edir. Buna görə bu

məzhəbdə müsəlmanın xüms verməsi lazım olan gəlirləri aşağıdakılardır: 1) Əməkhaqqı və eləcə də başqa yolla əldə edilən gəlir; 2) Haram mala qarışmış halal mal; 3) Mədən; 4) Xəzinə; 5) Dənizin dibindən çıxarılan cəvahirat; 6) Müharibə qəniməti; 7) Məşhur rəyə əsasən, zimmi-kafirin müsəlmandan satın aldığı torpaq sahəsi.

**XÜSUF NAMAZI (صلاة الخصوف):**

Aytutulması baş verdikdə müsəlmanların tək qıldığı sünnə namazdır. Bu hökm əhli-sünnə məzhəblərinə görədir. Cəfərilikdə Ay və Günəş tutulması, zəlzələ kimi bütün təbii hadisələr üçün qılınan namaza “ayat” (əlamətlər) namazı deyilir və vacibdir.

# İ

**İBADƏT (العبادة):**

İbadətin ümumi mənası "insanın Allaha qarşı olan ehtiramının nəticəsi olaraq, Onun qoyduğu qaydalara uyğun yaşaması"dır. Bir termin kimi, ibadət qaydaları və forması Allah və Peyğəmbər tərəfindən təyin olunmuş müəyyən hərəkətlərin yerinə yetirilməsidir. Namaz, oruc, həcc və zəkatla birlikdə qurban kəsmək, etikafa girmək, dua etmək də ibadətə misal göstərilə bilər. İslam dinində ibadətə böyük əhəmiyyət verilmiş və hətta yaradılışın məqsədinin ibadət olduğu bildirilmişdir.

**İBAHİLİK (الإباحيّة):**

İslam dininin əmrlərinin və əxlaqi qaydalarının vacibliyini qəbul etməyən, haramları halal hesab edən qruplara verilən ad. Termin "açıqlamaq, azad etmək, qanuni hesab etmək" mənasını verən "ibahə" sözündən götürülmüşdür. İslam məzhəbləri tarixi mənbələrində xəttabiyyə, bəşəriyyə (bişriyyə, məmturiyyə), əlbaiyyə, məzyariyyə və sair qruplar ibahilikdə ittiham edilmişdir.

**İBAZİLİK (الإباضية):**

Xariciliyin dövrümüzə qədər gəlib-çıxmış yeganə qolunun adı. Bu adla yanaşı, sözügedən məzhəbə "bəyaziyyə", "biyasiyyə", "əhl əl-iman vəl-istiqamə", "əhl əl-ədl vəl-istiqamə", "cəmaət əl-müslimin", "cəmaət əl-dəvət" kimi adlar da verilmişdir. İbazilik (ibaziyyə) məzhəbinin qurucusu Abdullah ibn İbazdır. Hazırda Oman sultanlığının hakim məzhəbi olan və xariciliyin ən mötədil qolu sayılan ibazilik digər xarici qrupların təkfir mövzusundakı sərt görüşünü müdafiə etmir. İbaziyyənin mənsubları çox vaxt özlərini xarici saymırlar. Xariciliyin ifrat qollarından fərqli olaraq, bu məzhəb küfrü "həqiqi küfr" və "nemət küfrü" şəklində ikiyə ayırır. Bu bölgüyə əsasən, böyük günah işləyən müsəlman həqiqi deyil, nemət küfrü ilə səciyyələndirilir və fasiq, yəni günahkar mömin hesab olunur. Onlara görə, böyük günah işləyən "mömin" vəsfi ilə olmasa da, "müvəhhid" (tövhid əhli) xüsusiyyəti ilə səciyyələndirilə bilər. Beləcə, ibaziyyə İslamın əsas prinsiplərini qəbul edən bütün insanları müsəlman hesab edir. İbazilər Omanla yanaşı, azlıq şəklində Tanzaniya (Zənzibar adası), Liviya, Tunis, Əlcəzair kimi ölkələrdə də yaşayır. Dünyada ibazilərin ümumi sayı təqribən 3 milyondur.

**"İBRAHİM" SURƏSİ (سورة إبراهيم):**

Quranın 14-cü surəsi. 52 ayədən ibarətdir. Məkkədə nazil olmuşdur. 35-41-

ci ayələrdə İbrahim Peyğəmbərin duası keçdiyinə görə belə adlandırılmışdır. Surədə Həzrət Məhəmmədin dəvətini rədd edən və ona qarşı düşmənliyini artıranlar sərt şəkildə tənqid edilib xəbərdar olunur. Surənin əsas mövzusu Allahın təkliyi, peyğəmbərlik və axirət anlayışından ibarətdir.

**İBRAHİMİ DİNLƏR:**

XX əsrin ortalarında bəzi tədqiqatçıların Yaxın Şərqdə yaranmış və İbrahim peyğəmbəri ortaq nöqtə kimi qəbul edən dinlər üçün istifadə etdikləri termin. Əsasən, Yəhudilik, Xristianlıq və İslam İbrahimi dinlər hesab olunmaqla yanaşı, bəzən onun əhatə dairəsi Dürzilik, Bəhailik, Yezidilik, Rastafari hərəkatı və digər din və cərəyanlarla genişləndirilir.

**İCARƏ (الإجارة):**

Müəyyən mənfəətin bir hissə məbləğ qarşılığında satılmasına “icarə” deyilir. İslam hüququnda icarə müqavilə daşınmaz və daşınan əmlakla yanaşı, insanın əməyini də əhatə edir. Fiqh kitablarında satış müqaviləsindən sonra ən geniş yer verilən müqavilədir. İcarə insan həyatının bir çox sahəsini əhatə edən müqavilə növü olub, fiqh kitablarında onun təfsilatı ilə bağlı geniş məlumat mövcuddur.

**İCAZƏT (الإجازة):**

Hüquqi bir işin nəticə meydana gətirməsi üçün haqq sahibinin təsdiq etməsinə “icazət” deyilir. İzin vermək bir iş görülməzdən əvvəl razılıq vermək olduğu halda, icazət görülmüş bir işin hüquqi statusunun haqq sahibi tərəfindən qəbul edilib təsdiqlənməsidir.

**İCAZİ-QURAN (إيجاز القرآن):**

Quranın kəlmə və cümlələrindəki dərin və incə mənaları az sözlə ifadə etməsi, çatdırması. Quranın üslub xüsusiyyətlərindən biri olan icaz məramın az sözlə ifadə edilməsi mənasına gəlir. Quranın bu xüsusiyyəti, əsasən, Məkkə dövründə nazil olan surələrdə nəzərə çarpır **(qeyd: Ecazi-Quran məfhumu ilə səhv salınmamalıdır. Bax: ECAZİ-QURAN**).

**İCMA (الإجماع):**

Hüquqi bir məsələnin dini hökmü üzərindən müsəlman alimlərin ittifaq etməsi. Sünni məzhəblərindəki anlayışa görə, icma ayə və ya hədis üzərində fikir birliyidir. Şiəliyə görə isə icmanın səhih olması üçün imamın sözü şərtdir. Hər iki məzhəbin icmaya yanaşması forma baxımından fərqli olsa da, mahiyyət etibarilə icma hökmün səhihliyini gücləndirməsi və dini hökmlərin təhrifdən qorunması məqsədini daşıyır. İslam alimləri icmaya böyük əhəmiyyət vermiş və icmaya qarşı olanın inkara düşəcəyini bildirmişlər. Müxtəlif cəhətlərdən təsnif edilən icmanın sərih, sükuti, qövli, feili, qəti və zənni kimi növləri mövcuddur.

**İCTİHAD (الاجتهاد):**

Müctəhidin hökmçıxarma metodlarından istifadə edərək, hökm əldə etməsi. Tərifdən də göründüyü kimi,

ictihad, ancaq xüsusi şərtlərə malik olan müctəhid tərəfindən edilə bilər. İctihad bir zərurət olub, yeni həyat şərtlərinə İslamın tətbiq edilməsinin yeganə yoludur. Buna görə də Həzrət Peyğəmbər yeni məsələlərlə qarşılaşan səhabələrə Peyğəmbərdən soruşma imkanları olmadığı təqdirdə, ictihad etmələrini həm öyrətmiş, həm də təşviq etmişdir. Peyğəmbərin vəfatından sonra ictihad daha da zəruri hala gəlmiş və metodları müxtəlif olmaqla yanaşı, bütün fiqh məzhəbləri ictihaddan istifadə etmişlər. İctihad nəticəsində əldə olunan hökm zənni bilik ifadə edir. Bu hökmün zərurət yarandıqda dəyişməsi və yeni ictihadla başqa bir hökm verilməsi mümkündür. Bir müctəhidin ictihad edərək verdiyi hökmün bütün müsəlmanlar tərəfindən qəbul edilməsi şərt deyil. Müctəhid səviyyəsində olmayan müsəlmanlar hər hansı bir müctəhidin verdiyi hökmə tabe olmadır.

**İCTİMAİ TƏFSİR (التفسير الاجتماعي):**

XIX əsrin sonunda Quranı sosial cəhətdən araşdırıb açıqlayan təfsir cərəyanı. Əsas xüsusiyyəti dövrün sosial problemlərini ayələrin işığında dəyərləndirərək, həmçinin doğru yola yönəltmə cəhətinə üstünlük verərək Quranın açıqlanmasından ibarətdir. Bu təfsir cərəyanının ən məşhur təmsilçisi Misirli Məhəmməd Əbdüh hesab edilir.

**İDDƏT (العدّة):**

Boşanmış qadının yenidən evlənə bilməsi üçün gözləməli olduğu müddət. İddətin müddəti qadının dulqalma halına görə üç formada olur: hamilə qadının iddət müddəti doğanadək, hamilə olmayan qadının iddət müddəti üç heyz və ya başqa bir anlayışa görə tuhr, əri ölən qadının iddət müddəti isə (hamilə olmadığı təqdirdə) 4 ay 10 gündür. İddətin əsas məqsədi qadının hamilə olub-olmadığının anlaşılması və nəsəbin səhihliyinin qorunmasıdır. Bununla yanaşı, rici talaqda iddət müddətində nikahsız geri qayıtma fürsəti olduğuna görə, tərəflərə təkrar düşünmək üçün fürsət yaranır. İddət müddətində qadının bütün nəfəqəsi boşandığı kişi tərəfindən ödənir.

**İDĞAM (الإدغام):**

Lüğəvi baxımdan "idxal etmək, qatmaq" mənalarını verir. Termin olaraq "idğam" sükunlu bir hərfin hərəkəli bir hərfə qatılaraq oxunmasına deyilir. Başqa bir tərifə görə, iki mütəmasil (məxrəcləri və xüsusiyyətləri eyni olan) və ya iki mütəcanis (məxrəcləri eyni, xüsusiyyətləri ayrı olan), yaxud iki mütəqarib (məxrəcləri və ya xüsusiyyətləri bir-birinə yaxın olan) hərfdən birincisinin ikincisinə qatılaraq oxunmasına "idğam" deyilir. İdğamın iki tərəfi vardır: mudğam və mudğamun fih. Mudğam (أَلْمُدْغَمُ) idxal edilən, özündən sonrakı hərfin cinsinə çevrilən sükunlu hərfdir. Mudğamun fih (أَلْمُدْغَمُ فِيهِ) özündən əvvəlki hərfi öz cinsinə çevirən hərəkəli hərfdir. Yan-yana gələn iki hərfdən sükunlu olan birincisini hərəkəli olan ikincisinə idğam etmək üçün üç səbəb var: 1. Bu

iki hərfin məxrəcləri və xüsusiyyətləri eyni olmalıdır. Buna "təmasül (misliyyət) əlaqəsi" və ya "səbəbi" deyilir. 2. Bu iki hərfin məxrəcləri eyni, xüsusiyyətləri isə fərqli olmalıdır. Buna "təcanüs əlaqəsi" və ya "səbəbi" deyilir. 3. Bu iki hərf məxrəcləri və ya xüsusiyyətləri baxımından bir-birinə yaxın olmalıdır. Buna da "təqarüb əlaqəsi" və ya "səbəbi" deyilir.

**İDĞAMİ-MİSLEYN (إدغام المثلين):**

Məxrəcləri və xüsusiyyətləri eyni olan iki hərfdən birincisi, sakin, ikincisi, hərəkəli olaraq yan-yana gələrsə, idğami-misleyn meydana gəlir. Məsələn: sakin "tə"nin hərəkəli "tə"yə, sakin "ləm"in hərəkəli "ləm"ə, sakin "mim"in hərəkəli "mim"ə, sakin "nun"un hərəkəli "nun"a və s. idğamı kimi. Bu idğam zamanı mudğam ilə mudğamun fih həm eyni kəlmədə, həm də ayrı-ayrı kəlmələrdə ola bilər. İdğami-misleyn qünnəli və qünnəsiz olaraq iki yerə ayrılır.

**İDĞAMİ-MÜTƏCANİSEYN (إدغام المتجانسين):**

Məxrəcləri eyni xüsusiyyətləri isə fərqli olan hərflərə "mütəcanis hərflər" deyilir. Mütəcanis hərflərdən birincisi, sakin, ikincisi hərəkəli olaraq yan-yana gələrsə, idğami-mütəcaniseyn meydana gəlir. Asim qiraətində idğami-mütəcaniseyn 3 məxrəcdə qruplaşan 8 hərf arasında baş verir: 1-ci məxrəcdə بْ "bə" hərfinin م "mim" hərfinə idğamı baş verir. 2-ci məxrəcdə ث "sə", ذ "zəl" ظ, "za" hərfləri arasında idğam baş verir. Bu hərflər arasında iki halda idğam meydana gəlir. 3-cü məxrəcdə ت "tə", د "dəl", ط "ta" hərfləri arasında idğam baş verir. Bu hərflər arasında da idğam iki halda meydana gəlir. Qeyd etmək lazımdır ki, bu məxrəcdə toplanmış hərflər digər məxrəcdəki hərflərdən fərqli olaraq, bir-birinə qarşı həm mudğam, həm də mudğamun fih ola bilir.

**İDĞAMİ-MÜTƏQARİBEYN (إدغام المتقاربين):**

Məxrəcləri və ya xüsusiyyətləri baxımından bir-birinə yaxın olan iki hərfdən birincisi sükunlu, ikincisi hərəkəli olaraq yan-yana gələrsə, idğami-mütəqaribeyn meydana gəlir. Asim qiraətində idğami-mütəqaribeyni 4 qrupda incələmək mümkündür: 1. ل "ləm" hərfinin ر "ra" hərfinə idğamı. 2. ق "qaf" hərfinin ك "kəf" hərfinə idğamı. 3. Sakin "nun" və ya tənvinin يَرْمِلُونَ kəlməsində toplanmış hərflərə idğamı. 4. ال birləşməsindəki ل "ləm" hərfinin şəmsi hərflərə (ل "ləm" hərfi xaric) idğamı.

**İDĞAMİ-ŞƏMSİYYƏ (الإدغام الشمسيّة):**

Əlif-lam birləşməsindən sonra "şəmsi hərflər" adlandırılan 14 hərfdən ل "ləm" hərfi xaric (ل "ləm" hərfi gələrsə, idğami-misleyn yaranır); digər 13 hərf gələrsə, idğami-şəmsiyyə meydana gəlir. Əlif-lam birləşməsindən sonra bu 13 hərfdən "nun"

hərfi gəldiyi zaman yaranan idğam qünnəli olur və bu idğama "idğami-şəmsiyyə məəl-ğünnə", digər 12 hərf gəldiyi zaman isə qünnəsiz idğam meydana gəlir, bu idğama "idğami-şəmsi bila ğünnə" deyilir. İdğam əsnasında ləm hərfi ilə şəmsi hərflərin məxrəcləri bir-birinə yaxın olduqları üçün ل "ləm" hərfi həmin hərflərə idğam edilərək oxunur. İdğami-şəmsiyyə idğami-mütəqaribeynin bir növüdür.

**İDRAC (الادراج):**

"Ravinin nəql etdiyi hədisin mətninə və ya sənədinə əslindən olmayan sözlər əlavə etməsi" mənasında hədis termini. Lüğəvi cəhətdən "nəyisə nəyəsə qatmaq, əlavə etmək" deməkdir. Ravinin bilərəkdən və ya bilməyərəkdən hədisə əlavə etdiyi bu sözlər başqa ravilər tərəfindən də nəql edilir. Bu, hədisə edilmiş əlavədir. Belə hədislərə "müdrəc" adı verilir.

**İDRİSİLƏR (الأدارسة):**

Əli ibn Əbu Talibin oğlu Həsənin nəslindən İdris ibn Abdullah tərəfindən Mərakeşdə qurulan ilk İslam sülalə dövləti (789-985). I İdrisin oğlu II İdrisin hakimiyyəti dövründə sərhədləri genişləndirilən və siyasi-iqtisadi cəhətdən güclənən dövlət onun vəfatından sonra oğulları arasında bölüşdürülərək zəiflədi. Siyasi və mədəni cəhətdən ən qüdrətli dövrünü IV Yəhyanın (905-922) hakimiyyəti dövründə yaşayan İdrisilər Fatimilər və Əndəlüs Əməvilərinin Şimali Afrika uğrundakı mübarizəsində zəiflədi və 985-ci ildə süqut etdi.

**İFLAS (الإفلاس):**

Bir şəxsin borcunun mal-mülkündən çox olub, bu borcu ödəmə imkanının olmaması. Məhkəmənin "iflas" qərarı verməsi halında borclu həcr altına alınır və mülkü cəbri satışa çıxarılır.

**İXFA (الإخفاء):**

Lüğəvi baxımdan "gizlətmək, səsi alçaltmaq" mənasını verir. Təcviddə sakin "nun" və ya tənvinin xüsusi oxunuşunun adıdır, izhar ilə idğam arası bir haldır. Sakin "nun" və ya tənvindən sonra aşağıdakı 15 hərfdən biri gələrsə, ixfa yaranır. Bu zaman sakin "nun" və ya tənvin burunda gizlədilməyə çalışılır, 1 əlif miqdarı tutularaq (qünnə səsi ilə birlikdə) oxunur.

**İXFAİ-ŞƏFƏVİ (الإخفاء الشفوي):**

Sakin "mim"dən sonra ب "bə" hərfi gələrsə, ixfa yaranır və "ixfai-şəfəvi" (dodaq ixfası) adlanır. Bu zaman dodaqlar bir-birinə sıxılmadan م "mim" hərfi dodaqlar arasında gizlədilərək, qünnəsi bir az axıdılaraq və 1 əlif miqdarı tutularaq oxunur.

**"İXLAS" SURƏSİ (سورة الإخلاص):**

Quranın 112-ci surəsi. 4 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı "səmimiyyətlə bağlı olmaq" mənasına gəlir. Surədə, əsasən, tövhid inancının xüsusiyyətlərindən qısaca bəhs edilir.

**İXTİLAFİ-HƏDİS (اختلاف الحديث):**

Hədis elminin mühüm mövzularından biri. "İxtilafi-hədis"in lüğəvi mənası hədislərin bir-biri ilə zahirən ixtilafı deməkdir. Əsasən, xarici görünüş nöqteyi-nəzərindən bir-birinə zidd görünən və səhih olaraq rəvayət edilən hədislərə deyilir. Həzrət Peyğəmbərdən səhih sənədlə gələn xarici görünüşünə görə bir-birinə zidd hədislər mövcuddur. Məsələn: Həzrət Peyğəmbərin hədislərinin yazılmasına izin verən hədislərlə, hədislərin yazılmasını qadağan edən hədislər bir-birinə zahirən ziddir. Həzrət Peyğəmbərin bunu fərqli dövrlərdə dediyi təsbit edilərək, bu təzad ortadan qaldırılmışdır. Belə hədisləri araşdıran hədis alimləri uzlaşdırıla bilən və uzlaşdırıla bilməyən hədisləri bir-birindən ayırmışlar. Bu sahədə ilk əsər İmam Şafiiyə (v. 819), ikincisi isə məsləyi hədis olmayan İbn Qüteybəyə (v. 889) aiddir.

**İXTİLAFİ-MƏSAHİF (اختلاف المصاحف):**

Müshəflərdə hərəkə, nöqtə və ya sözlərin müxtəlifliyi. Xəlifə Osmanın dövründə bəzi səhabələrin müshəflərindəki qeydlərinə əsasən, Quran nüsxələri arasında fərqli cəhətlər ortaya çıxmışdır. Həmin fərqliliklər qiraətlərdə özünü göstərmişdir.

**İKRAH (الإكراه):**

İnsanı təhdid edərək razı olmadığı bir hərəkətə məcbur etmək. Buradakı təhdidin ölçüsü ixtilaflı olmaqla birlikdə, bir insanın azad iradəsi ilə etməyəcəyi hərəkəti məcburən etməsi əsas qəbul edilmişdir. Bir davranışın hüquqi nəticə meydana gətirməsi üçün niyyət və azad iradə şərt olduğuna görə, ikrahla edilən davranışların bağlayıcılığı olmaz. Bununla yanaşı, ikrahın müxtəlif cəhətlərdən hüquqi nəticələr meydana gətirdiyi də qəbul edilmişdir.

**İKTİBAS (الاقتباس)**

**Bax: KƏSB.**

**İQAMƏ (الإقامة):**

Vaxt namazlarının fərzinin qılınmağa başlandığını bildirmək üçün xüsusi sözləri yüksək səs və avazla oxuma. İqamənin hökmü bəzi alimlərə görə müstəhəb, bəzilərinə görə müəkkəd sünnə, bəzilərinə görə isə vacibdir.

**İQLAB (الإقلاب):**

Lüğəvi baxımdan "çevirmək" mənasını verir. Sakin "nun" və tənvindən sonra ب "bə" hərfi gələrsə, iqlab meydana gəlir. Bu zaman sakin "nun" və ya tənvin xalis م "mim" hərfinə çevrilərək və 1 əlif miqdarı tutularaq (qünnəsi bir az axıdılaraq) oxunur.

**İQRAR (الإقرار):**

Bir insanın öz əleyhinə başqasına aid olan haqqı bildirməsi. İqrar İslam hüququnda ən güclü dəlillərdən biri olub ixtilafsız şəkildə qəbul edilir. İqrar təktərəfli iradə ilə hasil olan bir müqavilədir və iqrar edən şəxs müqavilə üçün lazım olan bütün şərtləri daşımalıdır. İqrar ünsürləri,

şərtləri və hökmü fiqh kitablarında təfsilatlı şəkildə işlənmişdir.

**İQTA (الإقطاع):**

İslam dövlətlərində dövlət büdcəsinə aid ərazi və daşınmaz malların mülkiyyətinin, istismarının və gəlirindən istifadə edilməsinin müəyyən şəxslərin səlahiyyətinə verilməsini ifadə edən termin. Məhəmməd peyğəmbər dövründə tətbiq edilən iqtanın əsas məqsədi İslamın yayılmasını sürətləndirmək, işlənməmiş əraziləri canlandırmaq, məhsuldarlığı artırmaq olmuşdur. Yeni fəth olunmuş torpaqlarda qarşılaşılan problemləri həll etmək üçün Raşidi xəlifələr dövründə də bu yanaşma davam etmişdir. Əməvilər və Abbasilər kimi sülalə dövlətləri dövründə iqta hakim sülaləyə və onların yaxınlarına verilərək ilkin məqsədindən müəyyən qədər uzaqlaşdırılsa da, ərazilərin məskunlaşdırılması və məhsuldarlığın artırılması əsas məqsədlər arasında qalmışdır.

**İLA (الإيلاء):**

Kişinin evli olduğu qadınla cinsi əlaqəyə girməyəcəyinə and içməsi. Cahiliyyə dövründə qadını təzyiq altında saxlamaq üçün kişilər iladan sui-istifadə edirdilər. İla müddətində nikah davam etdiyi üçün qadın başqa kişi ilə evlənə bilmirdi. İslam bu hökmü dəyişdirmək üçün ilanı boşanma səbəbi kimi elan etmişdir.

**İLHAD (الإلحاد):**

Allahın varlığını və ya birliyini, habelə dinin əsas hökmlərini inkar etməyi; bunlarla əlaqədar şübhəyə düşməyi, yaxud şübhə oyandırmağı, dini hökmlərə istehza ilə yanaşmağı, dindən çıxmağa səbəb olacaq inanc və düşüncələri müdafiə etməyi, eyni zamanda, allahsızlığı bildirir. İlhada düşən kimsəyə "mülhid" deyilir. Bir kəlam termini kimi,"mülhid" İslamı inkar edib başqa dini və ya mədəniyyəti mənimsəyənə də deyilir.

**İLLƏT (العلّة):**

Hökmü göstərən, yaxud hökmün bağlandığı səbəb, vəziyyət, vəsf və məna. İllət qiyasın ünsürlərindən biri olub, əsl və fərdə müştərək olması lazımdır. İllətləri eyni olmayan hadisələr arasında qiyas olmaz. Buna görə də fiqh alimləri illətin doğru təyin edilməsinə böyük əhəmiyyət vermişlər. İlləti təyin etməyin tənqihul-mənat, təhqiqul-mənat və təxricul-mənat kimi çox sayda yolları var.

**İLLİYYƏT (العلّيّة):**

Hər hadisənin bir səbəbinin olduğunu ifadə edən fəlsəfə və kəlam termini. İslam alimlərinin illiyyət prinsipi ilə əlaqədar fikirlərini belə xülasə etmək olar: 1. Varlıq və hadisələrə təsir göstərən heç bir maddi səbəb yoxdur, kainatdakı bütün varlıq və hadisələrə təsir göstərən ilahi qüdrət və iradədir. 2. Varlıq və hadisələr arasındakı səbəb-nəticə münasibəti məcburi deyildir. 3. Varlıq və hadisələr arasındakı səbəb-nəticə münasibətinə təsir gücünü və təbiətini verən Allahdır. İslam düşüncə tarixində illiyyət prinsi-

pi ilə əlaqədar irəli sürülən bu üç əsas görüşün birincisi kəlam alimlərinin əksəriyyəti tərəfindən qəbul edilmişdir.

**İLLİYYUN (العلّيّون):**

Yaxşı insanların əməl dəftərlərinin saxlanıldığı yer mənasını verən Quran termini. Lüğəvi cəhətdən "yüksəlmək" mənasındakı "ülüvv" (əla) kökündən meydana gələn "illiyy" kəlməsi "yüksək məqam, yüksək dərəcə" deməkdir. Bəzi müfəssirlər pis və günahkar insanların əməllərinin yazıldığı kitaba "Siccin", möminlərin əməllərinin yazıldı kitaba isə "İlliyyun" deyildiyini qeyd etmişlər.

**İMALƏ (الإمالة):**

Lüğəvi baxımdan "meyil etdirmək, əymək" və "bükmək" mənalarını verir. Qiraət elmində isə fəthə hərəkəsini kəsrə hərəkəsinə doğru meyil etdirməyə deyilir. Bu qaydanın tətbiq səbəbi isə oxunuşu asanlaşdırmaqdır. Fəthəli hərfi tələffüz edərkən dil yuxarı qalxır, imalə ilə aşağı enir. Ona görə də dilin aşağı enməsi yuxarı qalxmasından daha asan olduğu üçün imalə vəchinə üstünlük verilmişdir. İmalə "imaləyi-kübra" və "imaləyi-suğra" olaraq iki yerə ayrılır.

**İMAM (الإمام):**

Fiqh kitablarında imamət "Camaat namazında namaz qıldıran şəxs" və "dövlət başçısı" olmaqla iki babda araşdırılır. Bunları fərqləndirmək üçün birincisinə, "imaməti-suğra", ikincisinə, "imaməti-kübra" deyilmişdir. "İmam" sözü mənasının zənginliyi üçün dini ədəbiyyatda başqa mənalarda da istifadə olunmuşdur. Bunlara böyük alimləri, düşüncə hərəkatı rəhbərlərini, məzhəb qurucusu fəqihləri misal göstərmək olar. Camaatla qılınan namazlarda camaatdan bir şəxs önə keçərək, digərlərinə rəhbərlik edir. Bu şəxsin dini biliyi, təqvası və qiraəti namazdakı digər insanlardan üstün olmalıdır. Namaz əsnasında camaatın imamı izləməsi şərtdir. İmamdan əvvəl hərəkət etmək və imamdan bir rükn qədər geri qalmaq olmaz. Hər hansı səbəbə görə imamın namazı pozularsa, camaatdan biri imamın yerinə keçərək namazı davam etdirə bilər. "Dövlət başçısı" mənasında isə imam müsəlmanları dini və dünyəvi işlərində rəhbəridir. Şiə məzhəbinə görə, imam Allah tərəfindən təyin olunur. Sünni məzhəbinə görə isə imam seçki, şura və təyin kimi üsullarla seçilir.

**İMAMƏT (الإمامة):**

Məhəmməd peyğəmbərin vəfatından sonra, İslam cəmiyyətinin dini və siyasi liderliyi vəzifəsi. Dini və siyasi mənada rəhbərlik "xilafət" termini ilə də ifadə edilir. İmamət, eyni zamanda, müsəlmanlara namazda öndərlik etmək mənasını verir. Şiə məzhəbinə görə, imamət inanc əsaslarından biridir. Əhli-sünnə isə imamət məsələsini etiqadi deyil, siyasi və sosial bir məsələ kimi qiymətləndirir.

**İMAMİLİK (الإماميّة):**

Şiəliyin ən böyük qolu. İran, İraq, Bəhreyn və Azərbaycan müsəlmanlarının yarıdan çoxu bu məzhəbə mənsubdur. İmamilik fiqhi məzhəb kimi "cəfərilik" adı ilə də tanınır. Bunun əsas səbəbi məzhəbin fiqhinin daha çox 6-cı İmam Cəfəri-Sadiq (v. 765) tərəfindən sistemləşdirilməsidir. İmamiliyin 5 əqidə əsası (üsuliddin) mövcuddur. Bunlar tövhid, nübüvvət, axirət, imamət və ədldir (ilahi ədalət). İmamət imamiliyi və ümumilikdə şiəliyi digər məzhəblərdən ayıran əsas prinsipdir. Bu prinsipin imamilikdə qəbul olunan şəklinə görə, Məhəmməd peyğəmbər vəfat etməzdən əvvəl ilahi əmrlə Əli ibn Əbu Talibi imam və xəlifə, yəni müsəlman ümmətinin başçısı və şəriətin qoruyucusu (hafizüşşər`) təyin etmişdir. Əlidən sonra oğlanları Həsən, Hüseyn, ondan sonra da sıra ilə Əli ibn Hüseyn (Zeynalabidin), Məhəmməd ibn Əli (Məhəmməd Baqir), Cəfər ibn Əli (Cəfəri-Sadiq), Musa ibn Cəfər (Museyi-Kazım), Əli ibn Musa (Əli ər-Rza), Məhəmməd ibn Əli (Məhəmməd ət-Təqi), Əli ibn Məhəmməd (Əli ən-Nəqi), Həsən ibn Əli (Həsən əl-Əskəri) və Məhəmməd ibn Həsən (Mehdi əl-Müntəzər) Allah tərəfindən müsəlmanlara imam və xəlifə təyin olunmuşdur. Buna görə də müsəlmanlar Məhəmməd peyğəmbərlə yanaşı, onların da söz və davranışlarını dini həyatlarında nümunə götürməlidirlər. İmamilik 12-ci İmamın "Mehdi", yəni qiyamətdən əvvəl zühur edib Yer üzündə ədaləti bərqərar edəcək xilaskar olduğunu irəli sürür. Bu inanca görə, o, atası Həsən əl-Əskərinin vəfatından sonra 1 yanvar 874-cü ildə qeybə çəkilmiş, 941-ci ilədək öz tərəfdarları ilə dörd təmsilçisi (naib, səfir) vasitəsilə əlaqə saxlamışdır. Bu dövr imamilikdə "qeybəti-süğra", yəni "kiçik qeybə çəkilmə dövrü" kimi bilinir. Sonuncu təmsilçinin vəfat tarixi olan 941-ci ildən sonra isə onun öz tərəfdarları ilə əlaqəsi kəsilmişdir. Bu günədək davam edən bu dövrə "qeybəti-kübra", yəni "böyük qeyb dövrü" deyilir. İmamilər qiyamətdən əvvəl "Mehdi" olan 12-ci imamın zühur edəcəyinə inanırlar. Mehdi inancını sünnilərin də əksəriyyəti qəbul edir, lakin onlara görə, Məhəmməd peyğəmbərin soyundan olan Mehdinin şəxsiyyəti məlum deyil və o, qiyamətdən əvvəl doğulacaqdır. Sünnilər 12 imama hörmətlə yanaşmaqla birlikdə, onların Allah tərəfindən müsəlman ümmətinə xəlifə təyin olunduqlarını qəbul etmirlər. Son dövrlərdə imamiliyə mənsub olan din alimlərinin bir çoxu imamətin və ədlin dinin deyil, şiə məzhəbinin əsası (üsuli-məzhəb) olduğunu irəli sürmüş, beləliklə, dinin etiqad əsaslarında digər məzhəblərlə olan fərqi minimuma endirməyə çalışmışlar. Sünniliyin də mələklərə, ilahi kitablara və qəzavü-qədərə inama dair prinsiplərinin, əslində, peyğəmbərliyə (nübüvvət) inamın bir hissəsi kimi qəbul edildiyini nəzərə alsaq, şiə və sünnilərin İslamın üç

əsas prinsipində (tövhid, nübüvvət, axirət) birləşdiyini irəli sürə bilərik. İmamilikdə "füruiddin" (hərfən dinin budaqları) adlanan on əməli (fiqhi) əsas da mövcuddur. Bunlar namaz, oruc, həcc, cihad, zəkat, xüms, əmr bil-məruf (insanlara yaxşılığı tövsiyə etmək), nəhy ənil-münkər (insanları pislikdən uzaqlaşdırmaq), təvəlla (Allahı sevənlərlə dostluq qurmaq) və təbərradır (Allahı sevməyənlərdən uzaq durmaq).

**İMAMZADƏ (إمامزاده):**

Şiə məzhəbində imamların övladlarının və nəvələrinin türbələri üçün istifadə edilən termin.

**İMAN (الإيمان):**

"Peyğəmbərlərin din olaraq təbliğ etdiyi məsələlərdə onları təsdiq etmək" deməkdir. Lüğəvi baxımdan "əmin olmaq, inanmaq" mənasını verən "iman", İslam dininə görə, insanın nicatını təmin edən başlıca ünsürdür. Peyğəmbərlərin təbliğ etdiyi inanc əsaslarını mənimsəyib iman gətirən kimsəyə "mömin" deyilir. Qurani-Kərimdə "iman" termini 800 dəfədən çox qeyd edilir. İman kəlam elminin əsas mövzularından biridir.

**İMARƏT (العمارة):**

Kəbədə və Məscidi-Haramda abadlıq işlərini yerinə yetirmə və əmin-amanlığı təmin etmə vəzifəsi. Cahiliyyət dövründə Kəbə ilə əlaqəli vəzifələrdən biri olan imarətin səlahiyyət dairəsi Məscidi-Haramda zülmün və nalayiq söz danışılmasının qarşısını almaq idi və qismən "sidanə" vəzifəsi ilə üst-üstə düşürdü. Mənbələrə görə, cahiliyyət dövründə bu vəzifəni Məhəmməd peyğəmbərin əmisi Abbas ibn Əbdülmüttəlib yerinə yetirirdi.

**İMKAN DƏLİLİ (دليل الإمكان):**

Allahın varlığını isbat etməyə çalışan kosmoloji dəlilin bir növü. Bu dəlilə görə, kainatdakı varlıqların mövcud olmaları kimi yoxa çıxmaları da mümkündür. Onlar daim mövcud olmur, var olub, sonra məhv olur. Bu yanaşmaya görə, mümkün varlıq ya özü-özünün səbəbidir, ya da onu yaradan başqa bir səbəbə möhtacdır. İmkan dəlilinə görə, mümkün varlığın səbəbi olan varlığın özü ya mümkün varlıq, ya da vacib (zəruri) varlıq olmalıdır. Əgər əsl səbəb olan varlığın özünün də mümkün varlıq olduğunu düşünsək, o zaman onun da var olmaq üçün başqa bir mümkün varlığa ehtiyacı olacaqdır. Bu zəncirvari əlaqə sonsuz şəkildə davam edə bilməz. Buna görə də ilk səbəb vacib bir səbəb olmalıdır ki, bu da Tanrıdır. Bu dəlil İslam fəlsəfəsində ilk dəfə varlığı mümkün və vacib varlıq olaraq təsnif edən Farabi (871-950) tərəfindən irəli sürülmüş, daha sonra İbn Sina (980-1037) tərəfindən inkişaf etdirilmişdir.

**İMMANENT:**

Bu və ya digər predmetə, hadisə və ya prosesin daxili mahiyyətinə aid

olan xassə (qanunauyğunluq); transsendentalın əksi. “Kənarda deyil, daxildə olan” mənasına gələn “immanent” termini mənşəyini Aristoteldən götürmüşdür. Bu termin özünün hərfi mənasında ilk dəfə Orta əsr sxolastikasında tətbiq edilməyə başlanmışdır. Terminin müasir anlayışını Kant vermişdir. Transsedent olandan fərqli olaraq immanentlik hər hansı şeyin öz-özündə mövcudluğunu ifadə edir. İmmanentliyə əsasən, yalnız haqqında fikir yürüdülən nəsnələr mövcuddur. Varlıq şüura immanentdir. Obyekt subyektə qırılmaz şəkildə bağlıdır. Din fəlsəfəsində Tanrının kainatın daxilində mövcud olduğu iddiası “immanentlik” termini ilə izah olunur. Məsələn: panteizmə görə, Tanrı transsendental (təbiətdənkənar) deyil, immanentdir, yəni təbiətin daxilindədir.

**İMTİNA (الإمتناع):**

Bir şeyin imkansızlığı mənasını verən əqli (rasional) hökmlərdən biri.

**İNABƏ (الانابة).**

**Bax: BEYƏT.**

**İNDULGENSİYA (indulgence):**

Latın dilində lüğəvi mənası “təkid etmək” deməkdir. Katolisizmdə insanın günahları ucbatından çəkəcəyi cəzanın müəyyən şərtlər müqabilində bağışlanması kimi başa düşülür. Katolik kilsəsində XI və XII əsrlərdə geniş yayılan bu ənənə XIII əsrdə kilsə ruhanilərinin təsdiqi ilə rəsmi status qazanmışdır. Daha sonra digər xristian kilsələrində də tətbiq edilərək fərqli formalara malik olmuşdur. Məsələn: Səlib yürüşlərində iştirak edən bütün səlibçilərə ümumi indulgensiya vəd edilmişdir. Orta əsrlərdə müxtəlif kilsələrdə indulgensiya ənənəsi istismar edilərək, rüşvətxorluğa səbəb olmuş və ruhanilər arasında var-dövlət toplamağın vasitəsinə çevrilmişdir. 1967-ci ildə Roma Papası VI Pavel tərəfindən əsas prinsipləri müəyyənləşdirilərək sistemləşdirilmişdir.

**İNFİTAH (الإنفتاح):**

Lüğəvi baxımdan “açılmaq, ayrılmaq” mənalarını verir. Termin olaraq isə hərf tələffüz olunarkən dil ilə üst damağın bir-birindən ayrılmasına “infitah” deyilir. İnfitah xüsusiyyəti olan hərflər itbaq xüsusiyyəti olan hərflərin xaricində qalan digər 24 hərfdir: ا، ب، ت، ث، ج، ح، خ، د، ذ، ر، ز، س، ش، ع، غ، ف، ق، ك، ل، م، ن، و، ه، ي.

**“İNFİTAR” SURƏSİ (سورة الانفطار):**

Quranın 82-ci surəsi. 19 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surənin adı birinci ayədəki “infitar” (göyün yarılması) sözündən alınmışdır. Surədə yer və səma ilə əlaqəli qiyamət səhnələri, inanmayanların inancsızlıqlarının nəticəsi haqqındakı mövzulardan bəhs edilmiş və onlar şiddətlə qınanmışlar.

**İNHİRAF (الإنحراف):**

Lüğəvi baxımdan “əyilmək, meyil etmək” mənalarını verir. Termin

olaraq hərf tələffüz edilərkən dilin yuxarıya və ya arxaya doğru meyil etməsinə "inhiraf" deyilir. İnhiraf xüsusiyyəti olan iki hərf var: ل və ر.

**İNKAR (الانكار)**

**Bax: KÜFR.**

**İNKARNASİYA:**

Müxtəlif dinlərdə ilahi varlıqların maddi varlıqlar kimi cismləşməsini ifadə edən termin. Xristianlıqda tanrının İsa Məsihdə, Hinduizmdə Vişnunun müxtəlif avatarlarda təzahür etməsi inancı inkarnasiya sayılır.

**İNKLÜZİVİZM (inclusivism):**

Dinlərarası münasibətlərin müəyyənləşdirilməsində əsas fəlsəfi yanaşmalardan biri. İnklüzivizm yalnız bir dinin həqiqət, digər dinlərin isə qismən həqiqət olduğunu, yaxud həqiqət olmasalar belə, onların ardıcıllarının əbədi qurtuluşa nail olmasının mümkünlüyünü iddia edən yanaşmadır. İnklüzivistlərə görə, yalnız bir haqq din var. Dinlərin son qayə haqqında müddəaları doğru və yalan ola bilər, ziddiyyətli müddəaların bütünlüklə doğru olması qeyri-mümkündür. Deməli, bəziləri doğru, bəziləri isə yanlışdır. Mütləq haqq yalnız biridir və təkcə bir din mütləq haqqın daşıyıcısı ola bilər. Həqiqi nicat yolu da həmin haqq dindir. Buna baxmayaraq, digər dinlərin ardıcılları da müəyyən miqdarda ilahi qurtuluşa nail ola bilər. Əsas yol birdir, digər yollar isə əsas yola yaxınlaşdıqca həqiqətdən yararlanırlar, həmin yolların doğru ardıcılları da qurtuluş əhlidir.

**İNQİTA (الانقطاع):**

"İsnad silsiləsini təşkil edən ravilərdən birinin və yaxud bir neçəsinin düşməsi ilə meydana gələn qopuqluq" mənasında hədis üsulu termini. Lüğəvi mənada "kəsilmə", "qopma" mənalarına gəlir. İsnad silsiləsində ravinin düşməsi başda ola bildiyi kimi, ortada və sonda da ola bilər. Ən çox isnadın ortasında və sonunda müşahidə olunur. Bir və yaxud bir neçə yerdə ravi düşə bilər. Açıq olan inqitaya "zahiri", gizli olana isə "xəfi inqita" deyilir. Zahiri inqita ravinin müasiri olmayan, yaxud görüşmədiyi hədisçidən hədis nəql etməsidir. Xəfi inqita isə ravinin adının mübhəm (bilinməyən adla) söylənməsi ilə meydana gəlir. İsnadında qopuqluq olan hədislərə "münqəti hədislər" deyilir. Əgər inqita arxa-arxaya iki ravinin düşməsi ilə meydana gəlirsə, buna "mudəl hədis" deyilir.

**İNNEİZM (inneism):**

Fitrətçilik. Sonradan qazanılmışın ziddi olaraq, doğuşdan ona aid olan. İnsanda xarakterik xüsusiyyətlərin onunla bərabər doğulmasına, nəsli xüsusiyyətlərin qabardılmasına istiqamətlənmiş fikirlər, iddialar inneizmin əsas mahiyyətini təşkil edir. Bəzi teoloqlar bu fikirdən çıxış edərək, insanda doğuşdan Allahı axtarıb-tapmaq təmayülünün mövcud olduğunu iddia etmişlər. Bu fikrə görə, insanda Alla-

hı axtarıb-tapmaq, Ona itaət və ibadət etmək meyli anadangəlmədir.

**"İNSAN" SURƏSİ (سورة الإنسان):**

Quranın 76-cı surəsi. 31 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surənin adı ilk ayədə keçən "insan" sözündən alınmışdır. Bununla yanaşı, surə "dəhr" (zaman), "əbrar" (yaxşılar), ilk ayənin başlığı olan "həl əta" (gəldimi) adları ilə də bilinir. Mövzusu insanın yaradılışı, kafirlərin gedəcəyi cəhənnəmin və yaxşıların gedəcəyi cənnətin xüsusi təsvirindən ibarətdir.

**İNSİCAMİ-QURAN (انسجام القرآن):**

Qurandakı sözlər arasında məna baxımından uyğunluq. Quranın ayə və surələri arasındakı məntiq və məna uyğunluğunu tədqiq edən elm. **Bax: MÜNASİBƏTİ-QURAN.**

**"İNŞİQAQ" SURƏSİ (سورة الانشقاق):**

Quranın 84-cü surəsi. 25 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surənin adı ilk ayədə keçən "inşiqaq" (səmanın yarılması) sözündən alınmışdır. Surədə, əsasən, qiyamət səhnələrindən bəhs edilmişdir. Bununla yanaşı, həm də inanmayanların psixologiyasına qısaca toxunulmuşdur.

**"İNŞİRAH" SURƏSİ (سورة الإنشراح /الشرح):**

Quranın 94-cü surəsi. 8 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədə keçən "ələm nəşrah" (genişlətmədikmi, rahatlatmadıqmı) cümləsindəki sözün məsdəri (inşirah) formasından alınmışdır. Surə bəzən "Şərh" adı ilə də tanınır. Surədə Həzrət Peyğəmbərin yükünün qaldırıldığından, ağırlıqlarının azaldıldığından və hər çətinliyin asanlıqla əvəz ediləcəyindən bəhs olunmuşdur.

**İNTİHAR (suicide):**

İnsanın öz iradəsi ilə həyatına son qoyması. Emil Dürkheym sosioloji aspektdə intiharın üç növünü fərqləndirir: eqoistik, altruist və anomik intihar. Eqoistik intihar fərdin cəmiyyətdən ayrılması və ya cəmiyyətlə əlaqəsinin zəifləməsi nəticəsində baş verir. Altruist intihar fərdi mənfəətlərin ictimai mənafelər tərəfindən udulması və fərdin özünü ictimai mənafelər naminə fəda etməsindən irəli gələn intihar növüdür (məs.: gəmi kapitanının batan gəmini tərk etməməsi). Anomik intihar növü isə cəmiyyətdə böyük sarsıntıların, iqtisadi böhranların yaşandığı mühitdə fərdin cəmiyyətə inteqrasiya edə bilməməsi və sosial dəyişikliklərə uyğunlaşma iqtidarında olmadığı hallarda müşahidə edilir. Dürkheym "anomiya" halını cəmiyyətdə ictimai funksiyaların uyğunsuzluğu və ya böyük sarsıntılar zəminində fərdi tələbat və ehtirasların normativ tənzimlənməsi sisteminin pozulması ilə müşayiət olunan əxlaqi böhran kimi nəzərdən keçirir.

**İNZAL (الانزال):**

Endirmə, nazil etmə. Quranın Allahdan Peyğəmbərə nazil edilməsi

mənasında işlədilir. **Bax: NÜZUL, NAZİL.**

**İRFAN (عرفان):**

"Mərifət" və "ilham" deməkdir. Sufi ədəbiyyatında mənəvi və ruhi təcrübə ilə qazanılan təsəvvürlər, bilik və təcrübə.

**İRSAL (الارسال):**

Tabiindən olan birinin isnadında səhabəni qeyd etmədən rəvayət etdiyi hədis. Lüğəvi baxımdan "göndərmək, xəbər yollamaq, birini qızışdıraraq başqasının üstünə göndərmək, özbaşına buraxmaq" mənalarına gəlir. Belə olduğu təqdirdə, tabiindən olan ravi birbaşa "Həzrət Peyğəmbər buyurdu ki", yaxud "Həzrət Peyğəmbər bunu etdi" və buna bənzər ifadələrlə hədisi nəql edər. Yəni tabiin Həzrət Peyğəmbəri görmədiyi halda, birbaşa hədisi ona istinad edər isnadda irsal edən raviyə "mürsil" deyilir.

**İRŞAD (الارشاد):**

Rəhbərlik etmək. Mənəvi dəyərləri təbliğ edərək maarifləndirmək, münkər kimi pis işlərdən çəkindirib qəflətdən oyadaraq insanları haqqın yoluna dəvət etmək. İrşad edənə "mürşid" deyilir.

**İRTİCA (الارتجاع):**

Hərfi mənası "geri qayıtmaq, qaytarmaq və tələb etmək" olan "irtica" XX əsrin əvvəllərində bir termin kimi geriyə dönməyi, mövcud quruluşun dini əsaslara görə dəyişdirilməsini tələb edən fikir və davranışları ifadə edir.

**İRTİDAD (الإرتداد):**

Hərfi mənası "üz çevirmək, qaytarmaq və qəbul etməmək" olan "rədd" kökündən yaranmış "riddə" və yaxud "irtidad", müsəlmanın İslam dinindən çıxmasını ifadə edən termindir. Məhəmməd peyğəmbərin vəfatından sonra Ərəbistan yarımadasının müxtəlif yerlərində qəbilələrin peyğəmbərlik iddia edən şəxslər ətrafında birləşərək İslamdan çıxması və birinci xəlifə Əbu Bəkrin onlara qarşı göndərdiyi ordular arasındakı döyüşlər İslam tarixində "İrtidad savaşları" adlandırılmışdır.

**İSHAQİLİK (الإسحاقيّة):**

Bu adla İslam məzhəbləri tarixində iki qrup mövcud olmuşdur. Bunlardan birincisi, kərramiyyə məzhəbinin Xorasan qoluna mənsub olan İshaq ibn Məhməşaza (v. 383/993) tabe olanlardır. İshaq Qəznəvi sultanları Səbuk Təkin (977-997) və Mahmudla (998-1030) yaxşı əlaqə qurmuş və bu əlaqə sayəsində Nişapurdakı kərramilərin sayı 20 minə çatmışdır. İshaqın oğlu Əbubəkr də Sultan Mahmud Qəznəvi ilə əvvəlcə yaxın əlaqəyə malik olmuş, lakin Əbubəkrin təcsim (cismani xüsusiyyətləri Allaha aid etmə) görüşünü müdafiə etdiyi iddia edildikdən sonra, sultan hicri 402-ci (1011-12) ildə ona kömək göstərməyi dayandırmışdır. Bundan sonra kərramilik Xorasanda zəifləmişdir.

**İSLAMOFOBİYA (islamophobia):**

"İslam qorxusu" mənasında işlədilən termin. "İslamofobiya" dedikdə, həm İslam qorxusu, həm də İslama və ümumilikdə bütün müsəlmanlara qarşı nifrət hissi nəzərdə tutulur. İslamofobiyanın kökləri daha qədimlərə gedib çıxsa da, bu tendensiya, xüsusilə 2001-ci il 11 sentyabrda ABŞ-ın Nyu-York şəhərində "Əkiz qüllələr"ə edilən terror hücumundan sonra yeni mərhələyə keçmişdir. Həmin tarixdən sonra Qərb ölkələrində islamofobiya təmayülləri əhəmiyyətli dərəcədə artmışdır. Qeyd edilməlidir ki, bu təmayülün yayılmasının əsas səbəblərindən biri bəzi islamçı təşkilatların ekstremist fəaliyyəti, digəri isə ümumilikdə İslam dini haqqında yanlış təsəvvürlərdən irəli gəlir.

**İSMAİLİLİK (الإسماعيليّة):**

Şiəliyin ikinci böyük qoludur. İmamətin 6-cı İmamı Cəfəri-Sadiqdən sonra oğlu İsmayıla keçdiyinə inanan ismaililik İslam tarixində xüsusi rola malik olan məzhəblərdən biridir. Fatimi xilafətinin rəsmi məzhəbi olmuş ismaililik xəlifə Müstənsir Billahın (1036-1094) dövründə iki qola – nizariliyə və müstəliliyə bölünmüşdür. Hazırda ismaililərin əksəriyyəti nizaridir. Dinin zahiri deyil, batini hökmlərinin əhəmiyyətli olduğuna inanan nizarilər imamlığın (imamət) bu günədək davam etdiyinə inanır və öz imamlarına "Ağaxan" adını verirlər. Nizarilər namaz, oruc, zəkat və həcc kimi dini ibadətləri simvolik mənada izah edir və onları ənənəvi İslam anlayışında qəbul olunduğu formada icra etmirlər. İbadət evlərinə "camaatxana" adı verirlər. Başda Hindistan və Pakistan olmaqla, bir çox ölkədə azlıq şəklində yaşayan nizarilərin ümumi sayı, təqribən, 20 milyondur. Hindistan, Pakistan, Yəmən və Səudiyyə Ərəbistanı kimi ölkələrdə azlıqda yaşayan, nizarilərdən fərqli olaraq, dinin batini mənası ilə yanaşı, zahiri hökmlərinin də əhəmiyyətli olduğuna inanan və yuxarıda adları qeyd edilən ibadətlərin ənənəvi İslam anlayışında qəbul olunduğu formada yerinə yetirən müstəlilərin ümumi sayı isə 2 milyondan çoxdur.

**İSMAT (الإصمات ):**

Lüğəvi baxımdan "susmaq" mənasını verir. İsmat xüsusiyyəti olan hərflərin tələffüzündəki ağırlığın qarşısını almaq məqsədi ilə ərəb dilindəki kəlmələr izlaq xüsusiyyəti olan hərflərlə birlikdə işlədilir. İzlaq xüsusiyyəti olan hərflər xəfif, ismat xüsusiyyəti olan hərflər isə ağır tələffüz olunur. Belə olan halda, izlaq xüsusiyyəti olan hərflər ismat xüsusiyyəti olan hərflərdəki ağırlığı aradan qaldırır və çoxhərfli kəlmələrin tələffüzündə asanlığı təmin edir. İsmat xüsusiyyəti olan hərflər: ا ، ت ، ث ، ج ، ح ، ج ، د ، ذ ، ز ، س ، ش ، ص ، ض ، ط ، ظ ، ع ، غ ، ق ، ك ، و ، هـ ، ي

**İSNAD (الاسناد):**

Ravilərin bir-birindən rəvayət edərək hədisləri Həzrət Peyğəmbərə çatdır-

ması. Lüğəvi baxımdan “dağa çıxmaq və yaxud çıxarmaq, söykəmək və yaxud dəstəkləmək” mənalarında işlənir. Hədis termini olaraq qısaca bir hədisi və yaxud xəbəri söyləyənə aid etmək, çatdırmaq mənasına gəlir. Abdullah ibn Mübarək belə demişdir: “İsnad dindəndir. Əgər isnad olmasaydı, istəyən istədiyini söyləyərdi”.

**İSNƏƏŞƏRİLİK (الاثناعشريّة):**

Şiəliyin ən böyük qolu olan imamiliyin adlarından biri. İmamilikdə “12 İmam” əqidəsi olduğu üçün, bu məzhəbə bəzən ərəb dilində “12” mənasına gələn “isnə əşərə” kəlməsindən törəyən “isnəəşərilik” (isnəəşəriyyə) adı da verilir. **Bax: İMAMİLİK.**

**“İSRA” SURƏSİ (سورة الإسراء):**

Quranın 17-ci surəsi. 111 ayədən ibarətdir. Əsasən, Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədə keçən “gecə gəzintisi” mənasındakı “isra” sözündən alınmışdır. Surədə, əsasən, İsrailoğulları, ədəb qaydaları və yaxşılıq etmək, tövhid inancının əhəmiyyəti, axirət həyatı, Həzrət Adəmin qissəsi, Həzrət Musa və Fironun dialoqu haqqında bəhs edilmişdir.

**İSRAİLİYYAT (الإسرائيليّات):**

Yəhudi və Xristian mənbələrindən əldə edilib Quran təfsirinin açıqlanmasında istifadə olunan rəvayətlər. Çox vaxt doğruluğuna şübhə ilə yanaşılsa da, Qurandakı qissələrin açıqlanmasında istifadə edilmişdir. Bəzən Tövrat və İncildən alınan, bəzən də öncədən xristian və yəhudi olub, sonradan İslamı qəbul etmiş səhabələrdən gələn rəvayətlər bu qəbildəndir.

**İSTEHSAN (الاستحسان):**

Xüsusi səbəblərə əsasən qiyas və fiqhin ümumi prinsiplərindən fərqli bir hökm vermək. Bəzən qiyas və ümumi qaydalar əsasında verilən hökm məsələnin həlli üçün yetərli olmur və problem davam edir. Bu halda müctəhid başqa axtarışlara əsasən, yeni bir hökm əldə etməyə çalışır. Bu yeni hökmün isə ciddi əsasları olmalıdır. Bu əsaslar hər hansı bir ayə və ya hədis, yaxud ürf ola bilər. Bunlar eyni zamanda, istehsanın növlərini də meydana gətirir. İlk dövrlərdə istehsan metodu ağır tənqidlərə məruz qalsa da, sonralar müxtəlif adlarla olsa da, geniş şəkildə istifadə edilmişdir.

**İSTİARƏ (الاستعارة):**

Bir söz və ya tərkibin təşbeh, mübaliğə vasitəsilə həqiqi mənasında deyil, başqa bir mənada işlədilməsidir. Məsələn: O belə dedi: “Ey Rəbbim! Artıq sümüyüm sustalmış, başım alov işığı kimi ağappaq ağarmışdı” (“Məryəm 19/4) ayəsində alov işığının saçın ağarmasına bənzədilməsi kimi.

**İSTİAZƏ (الاستعاذة):**

Şərdən Allaha sığınmaq üçün “Əuzu billah” və ya “Əuzu billahi minəşşeytanir-racim” şəklində deyilən söz. Qurani-Kərimdəki bir çox ayədə şərdən Allaha sığınmaq əmr edilmişdir. Bəzi alimlərə görə istiazə müstəhəb, bəzilərinə görə isə vacibdir.

**İSTİBRA (الاستبراء):**

“Təmizlənmək” mənasına gələn “istibra” termininin iki mənası var. Bunlardan biri qadının boşandıqdan sonra hamilə olub-olmadığının müəyyənləşməsi üçün gözləməli olduğu müddət; digəri isə ayaqyolundan çıxdıqdan sonra dəstəmaz alanadək gözləmək lazım olan vaxtdır (birinci termin mənası üçün **bax: İDDƏT).** İkinci mənaya gəlincə, Həzrət Peyğəmbər istibra etmək məsələsinə çox ciddi yanaşmış, hətta bunu əsas götürən bəzi fəqihlər də istibranın hökmünün vacib olduğunu bildirmişlər. İstibranın məqsədi sidik kanalının təmizlənməsini gözləməkdir. Buna görə də bir çox fəqihə görə, dəstəmaz aldıqdan sonra, sidik kanalından axıntı gələrsə, dəstəmaz pozular. Digər anlayışa görə isə istibra məndubdur və dəstəmazı pozmur.

**İSTİDLAL/DƏLALƏT (الاستدلال / الدلالة):**

Bir nəticəyə gəlmək, nəticə çıxarmaq. Zehnin əvvəlcədən bilinən bir və ya bir neçə propozisiyaya əsaslanaraq bilinməyən bir propozisiya xüsusunda nəticə əldəetmə prosesi. Zehnin ümumidən-xüsusiyə, ya da xüsusidən-ümumiyə, yaxud iki xüsusinin birindən-digərinə varmasıdır.

**İSTİDRAK (الاستدراك):**

Hədis üsulunda iki mənada işlədilmişdir. Birincisi, xətalı və ya nöqsan olan hədislərin doğrusunu nəql edərək düzəltmək, digəri isə hədis aliminin şərtlərinə uyğun olduğu halda, kitabında qeyd etmədiyi hədisləri başqa bir kitabda cəm etməkdir. Bu kitablara “müstədrək” adı verilir. Ən məşhur nümunəsi Hakimin (v.405) Buxari və Müslimin “Səhih”ləri üzərinə yazdığı “Müstədrəku aləs-səhiheyn” adlı əsəridir.

**İSTİFALƏ (الاستفالة):**

Lüğəvi baxımdan “aşağı olmaq” mənasını verir. Termin olaraq hərfləri tələffüz edərkən dilin üst damağa doğru yüksəlməyib aşağıda qalmasına “istifalə” deyilir. İstifalə xüsusiyyəti olan hərflər: أ، ب، ت، ث، ج، ح، د، ذ، ر، ز، س، ش، ع، ف، ك، ل، م، ن، و، ه، ي

**İSTİĞASƏ (الاستغاثة):**

Mədəd ummaq, sığınmaq, kömək diləmək. Dara düşən bəndənin Allahdan, yaxud peyğəmbərin ruhaniyyətindən mədəd umması. **Bax: İSTİMDAD.**

**İSTİXARƏ (الاستخارة):**

Bir işin xeyirli olub-olmadığını bilmək, mənəvi bir işarəyə nail olmaq üçün qılınan iki rükət namaz. “Xeyirli olanı istəmək” deməkdir. Namazın sonunda istixarə duası oxunularaq yatılır. Görülən yuxu yozulur və çıxarılan mənaya görə hərəkət edilir.

**İSTİLA (الاستعلاء):**

Lüğəvi baxımdan “yüksəlmək” mənasını verir. Termin olaraq hərf tələffüz edildikdə, dilin kökünün üst damağa doğru yüksəlməsinə “istila” deyilir. Bu xüsusiyyət خ، ص، ض، غ، ط، ظ،

ق hərflərinə məxsusdur. Bu hərflərin daha asan yadda qalması üçün onları aşağıdakı kəlmələrdə toplamışlar: خُصَّ ضَغْطٍ قِظْ. İstila xüsusiyyəti olan hərflərin qalın tələffüz edilməsində bütün qiraət alimləri həmfikirdirlər.

**İSTİMDAD (الاستمداد):**

"Kömək və yardım tələb etmək, mədəd ummaq" deməkdir. Bəzi məzhəblərdə və sufi təriqətlərdə bəzən şeyxlərdən, yaxud ölmüş vəlilərin ruhaniyyətindən yardım istəmək. "Mədəd, ya qövs!"; "Mədəd, ya şeyx" kimi sözlərlə istimdad edilir. Həmçinin dara düşən dərvişin Allahdan, yaxud peyğəmbərinin ruhaniyyətindən mədəd umması da "istimdad" adlanır **(Bax: İSTİĞASƏ).**

**İSTİNCA (الاستنجاء):**

Ayaqyolundan sonra ədəb yerlərinin su ilə təmizlənməsi. İstincanın hökmü ixtilaflı olub bəzi fəqihlərə görə vacib, bəzilərinə görə isə məndubdur. İstibra su ilə edilməlidir, kağız və başqa əşyalarla təmizlənmək, sadəcə, zərurət halında mümkündür.

**İSTİNSAX (الاستنساخ):**

"Yazılı bir mətnin nüsxəsini çıxarmaq, olduğu kimi üzünü köçürmək" mənasında "istinsax" bir termin kimi İslam tarixində ilk dəfə Quran nüsxələrinin yazılması üçün istifadə olunmuşdur. Xəlifə Əbu Bəkr dövründə Quran ayələrinin bir nüsxədə toplanılması ilə yaradılmış ilk "müshəf" xəlifə Osman ibn Əffanın dövründə istinsax edilərək Məkkə, Kufə, Bəsrə, Şam, Yəmən və Bəhreynə göndərilmişdir.

**İSTİSHAB (الاستصحاب):**

Əksinə, bir dəlil olmadığı müddətdə sərbəst olduğuna və ya əvvəlcədən məlum olan bir vəziyyətin davam etməsinə qərarvermə metoduna "istishab" deyilir. Buna görə də istishab yeni hökmvermə deyil, daha çox vəziyyəti açıqlama yoludur; məsələn: cinayət işlədiyi sübut olunmayan şəxsin günahsız olduğuna hökm vermək istihsabdır. İstishab ilk dövr Fiqh kitablarında yer alan xeyli ixtilaflı bir dəlildir. Bununla birlikdə, bütün məzhəblər müxtəlif formalarda istishabdan istifadə etmişlər.

**İSTİSQA (الاستسقاء):** Yağış yağması üçün dua etmək. Duadan əvvəl və ya sonra iki rükət namazın qılınıb-qılınmaması ixtilaflıdır. Sadəcə, dua ediləcəyi halda istisqanın hər hansı bir vaxtı yoxdur. Namaz qılınacaqsa, məkruh vaxtlar xaricində olmasına diqqət yetirilməlidir.

**İSTİŞARƏ (الاستشارة):** Hər hansı bir mövzuda insanlar arasında fikir mübadiləsi mənasında "istişarə", İslam mənbələrində bir termin kimi dövlət başçısı başda olmaqla idarəçilərin öz vəzifələrini yerinə yetirərkən müvafiq şəxslərlə məsləhətləşməsi ənənəsi üçün istifadə edilmişdir. Müsəlman dövlətlərində hökmdarların istişarəsi üçün təsis edilən qurumlar, əsasən, cəmiyyətin

nüfuzlu insanlarını, hərbi və elmi sahədə qabaqcıl şəxsləri əhatə etmişdir.

**İSTİŞHAD (الاستشهاد):**

Hər hansı bir ayədə keçən sözün mənasını açıqlamaq üçün başqa ayə, hədis, şeir və ya atalar sözlərindən istifadə edilməsi.

**İSTİTAƏT (الاستطاعة):**

Lüğəvi baxımdan "gücü çatmaq, iqtidar sahibi olmaq". Termin olaraq "istitaət" "bəndənin ixtiyari feillərini təmin edən güc" mənasını verir. Bu termin "qüdrət, qüvvət, taqət və vüs" sözləri ilə də ifadə edilir. İstitaət bəndənin məhdud gücə sahib olduğunu ifadə edir. İstitaətin ziddi "əcz", yəni acizlikdir. Kəlam elminə görə, istitaət insanın məsuliyyətini əsaslandırmada önəmli rol oynayır. Kəlam məzhəblərindən cəbriyyə bütün güc və qüdrətin Allaha aid olduğunu, insanın isə hər hansı bir istitaət gücünə malik olmadığını iddia etmişdir. Digər məzhəblər isə insanın iradi feillərdə güc və qüdrətə sahib olduğunu irəli sürür.

**İSTİTALƏ (الإِستطالة):**

Lüğəvi baxımdan "uzatmaq" mənasını verir. Termin olaraq hərf tələffüz edilərkən dilin kənarının üst azı dişlərə doğru uzanmasına "istitalə" deyilir. Bu xüsusiyyət ض hərfinə məxsusdur.

**İSTİVA (الاستواء):**

"Qərar tutma, yüksəlmə, üstün olma" mənasında işlədilən termin. "Əraf" surəsinin 54-cü ayəsində qeyd edilmişdir. Əsasən, Allahın kainat üzərindəki hakimiyyət və nəzarəti mənasında işlədilən məcazi bir sözdür.

**İŞARİ TƏFSİR (التفسير الإشاري):**

Təsəvvüf əhlinin əldə etdiyi bəzi gizli mənalar və işarələr yolu ilə Quranı təfsir etməsi. Burada, əsasən, sufinin hansısa mənbəyə əsaslanaraq deyil, ilham yolu ilə Quranı açıqlaması nəzərdə tutulur. Batini təfsiri də bu mənada işari təfsir kimi qəbul edənlər vardır. Batinilik məzhəbi şeyxlərinin Quranın gizli mənalarını bildirməsi anlayışı işari təfsirlə bənzərliyi ortaya çıxarır.

**İŞIQ ADƏMİLƏRİ:**

Manixeizmin qnostik dualizmində "Həyat ruhu" adlandırılan qurtarıcı varlığın beş oğlu və yaxud qurtarıcı silahını ifadə edən termin.

**İŞMAM (الإشمام):**

Lüğəvi baxımdan "qoxunu hiss etdirmək" mənasını verir. Qiraət termini olaraq sükundan sonra səssiz bir şəkildə dodaqlarla damma hərəkəsinə işarə etməyə "işmam" deyilir.

**İŞRAQİLİK (الإشراقيّة):**

İslam fəlsəfəsində məşşailikdən sonra meydana gələn bir düşüncə cərəyanı olaraq, işraqilik gerçək biliyi əldəetmədə empirik və rasionalist metoda deyil, mistik və intuitiv metodu zəruri hesab edən teosofik düşüncə sisteminin adıdır. Bu düşüncə cərə-

yanının sistemləşdirilərək, fəlsəfi bir məktəb olaraq meydana gəlməsi Azərbaycan filosofu Şihabəddin Sührəvərdinin adı ilə bağlıdır. Bu məktəbə mənsub olan mütəfəkkirlər “işraqiyyun” (işraqilər) olaraq adlandırılır. İşraqilik İslam düşüncəsinin terminlərinə əsaslanaraq, intiusiya və aydınlanma prinsiplərinə üstünlük verən bir nur metafizikası olub, İslam fəlsəfəsinin yeni istiqamətini təşkil edir. Digər tərəfdən, bu fəlsəfə “sonsuz hikmət” (hikməti xalidə / prennial philosophy) deyə məlum olan və kökləri çox qədim dövrə gedib-çıxan fəlsəfi düşüncənin yeni ifadə formasıdır. Bu mənada, Sührəvərdinin bu ənənəyə mənsub olan mütəfəkkirlərin qədim Yunanıstan və İranda olduğunu söyləməsi və özünü də bu düşüncə ənənəsinin bir nümayəndəsi olaraq görməsi təsadüfi deyildir. Mahiyyət etibarilə eklektik bir xarakterə malik olan bu təlimin əsas mənbələrini başda qədim İran, Misir və hind düşüncəsi olmaqla, Platon, neoplatonizm, sabiilik, İbn Sina və Qəzali düşüncəsi təşkil edir. Bu xüsusu nəzərə alan tədqiqatçılar qeyd edirlər ki, işraqiliyin mahiyyəti, ancaq onun xalidi hikmət ənənəsi ilə olan əlaqəsi çərçivəsində dərk edilə bilər. İşraqiliyin İslam fəlsəfəsində bir düşüncə cərəyanı və ya bir məktəb kimi ortaya çıxması Sührəverdinin adı ilə bağlı olsa da, bu düşüncənin ilk izlərini İbn Sinanın fəlsəfi düşüncələrində görmək mümkündür. Belə ki, İbn Sina “Məntiq əl-məşriqiyyin” adlı əsərində Şərqə aid hikmətdən söhbət açır. Buradakı fikirləri ilə İbn Sina peripatetik fəlsəfə ilə yanaşı, Şərq fəlsəfəsini meydana gətirməyə çalışır və bu fəlsəfənin peripatetizmdən daha üstün olduğunu qeyd edir. Elə Sührəvərdinin özü də İbn Sinanın Şərq hikmətini (əl-hikmət əl-məşriqiyyə) ortaya çıxarmaq istədiyini, lakin bu yolda əsas mənbələrə qovuşmadığını qeyd edir. İbn Sinanın “Həyy ibn Yəqzan”, “Risalət ət-teyr” və “Salaman və Absal” adlı əsərlərində Qərb dünyasının qaranlığın, Şərq dünyasının isə işığın yurdu olaraq göstərilməsi, beləliklə, Şərqin müqəddəs bir coğrafiya olduğu istiqamətindəki yanaşma Sührəvərdi tərəfindən də mənimsənilmiş və hətta İbn Sinanın bu məzmundakı düşüncələrini ehtiva edən qısaməzmunlu əsərləri onun tərəfindən fars dilinə tərcümə edilmişdir. Sührəvərdinin “Hikmət əl-işraq” adlı əsərindəki bəzi hissələr İbn Sinanın “Aristotel teologiyası” adlı əsərə yazdığı şərhi ilə bənzərlik təşkil edir.

**İTABİ-NƏBİ (QINAMA AYƏLƏRİ) (عتاب النبي):**

Quranda Allahın Peyğəmbərin ünvanına yönəltdiyi qınamaları ifadə edən bir termin. Bunun ən məşhur nümunəsi “Əbəsə” surəsinin ilk ayələridir.

**İTBAQ (الاطباق):**

Lüğəvi baxımdan “yapışdırmaq, qaplamaq” mənalarını verir. Termin olaraq dilin kökünün və ortasının üst damağa doğru yüksəldilməsinə və

yapışdırılmasına “itbaq” deyilir. İtbaq xüsusiyyəti olan hərflər: ص، ض، ط، ظ

**İTNAB (الإطناب):**

Bir düşüncənin və ya mənanın qədərindən daha çox sözlə ifadə edilməsi. Məsələn: “Məryəm” surəsinin 4-cü ayəsindəki “Ya Rəbb, sümüklərim zəiflədi, başımdakı saçlar ağappaq oldu” cümləsi qısaca “Yaşlandım” sözü ilə ifadə edilə bilər. Məani elmində bu mövzuya “itnab” kimi baxılır.

**İTTİHAM BİL-KİZB ( الاتهام بالكذب):**

Hədis rəvayət edənin (ravi) yalançılıqda təqsirkar bilinməsi. Ravinin hədis rəvayətində yanlışı təsbit edilməmiş olsa belə, gündəlik həyatında yalan söylədiyi bilinirsə, hədis rəvayətində də yalan söyləyə biləcəyi düşünülür. Bu ravinin hədislərinə etibar olunmaz. Rəvayətləri isə “mətruk”, “mətruh” adlanır. Ravinin özü isə “müttəhəmün bil-kizb”, “mətruk”, “mətrukul-hədis”, “müttəfəqun alə tərkihi” kimi ifadələrlə tənqid edilir.

**İTTİSAL (الاتصال):**

“Sənədin qopuq olmaması mənasında” hədis üsulu termini. “Vəsələ” feilinin kökündən meydana gəlmişdir. “Bağlılıq” mənasına gəlir. Həzrət Peyğəmbərə, səhabəyə və yaxud tabiinə qədər sənəddəki ravilərin bir-bir qeyd edilməsi, başqa bir ifadə ilə ravilər arasında “inqita” deyilən qopuqluq halının olmamasıdır.

**İZAFİ (الاضافي):**

Keçici, dəyişən.

**İZHAR (الإظهار):**

Lüğəvi baxımdan “göstərmək, bəyan etmək” mənasını verir. Təcviddə sakin “nun” və tənvinin təbii bir şəkildə oxunmasına “izhar” deyilir. Sakin “nun” və ya tənvindən sonra boğaz hərfləri adlandırılan (məxrəci boğaz olan) altı hərfdən biri gələrsə, izhar yaranır. Bu zaman sakin “nun” və ya tənvin tutulmadan, təbii bir şəkildə izhar edilərək oxunur.

**İZHARİ-QƏMƏRİYYƏ (الإظهار القمرية):**

Əlif-lam birləşməsindən sonra “qəməri hərflər” adlandırılan 14 hərfdən biri gələrsə, izhari-qəməriyyə yaranır. Bu zaman əlif-lam birləşməsinin ل “ləm”i izhar edilərək təbii şəkildə oxunur.

**İZLAQ (الإذلاق):**

Lüğəvi baxımdan “dilin sürətli və nitqin axıcı olması” mənasını verir. Termin olaraq hərf tələffüz edilərkən dilin sürətli və nitqin axıcı olmasına “izlaq” deyilir. İzlaq xüsusiyyəti olan hərflər: ب، ر، ف، ل، م، ن

**İZTİRAB (الاضطراب):**

Hədis termini olaraq fərqlilikdən meydana çıxan zəiflik səbəbi. “Zərəbə” feilinin kökündən meydana gəlmişdir. Lüğəvi baxımdan “dalğalanmaq, çalxalanmaq” mənalarına gəlir. Dəniz dalğalanmasına, dalğaların bir-biri ilə toqquşmasına “iztirab” deyilir. Bir şəxsin həyatının alt-üst

olması, sıxıntıya düşmək, acı çəkmək mənalarına da gəlir. Belə ki, ravi bir dəfə rəvayət etdiyi hədisi ikinci dəfə başqa cür rəvayət edir. Ondan eşidən ravilər də hədisi müxtəlif formalarda rəvayət edər və yaxud bir mövzuda ədalət və zəbt dərəcələri eyni olan ravilərin eyni mövzuda fərqli-fərqli hədis rəvayət etmələridir. Belə olduqda, ravilərin eyni gücdə olması üçün rəvayətləri arasında tərcih mümkünsüz hala gəlir. Bu hala mühəddislər "iztirab" demişlər. "İztirab" ən çox sənəddə və bəzən də mətndə olur.

# J

**JİVA:**

Caynizmdə “pudgala” adlandırılan maddə ilə birlikdə fiziki dünyanı meydana gətirən ruh atomları üçün istifadə olunan termin. Caynizmə görə, “jiva” yalnız insan, heyvan və bitki kimi canlı növlərində deyil, daş, qaya, çay və digər təbiət ünsürlərində də mövcuddur.

**JİVANMUK:**

Hind mənşəli dinlərdə əşyanın həqiqətini dərk edərək aydınlanma təcrübəsi yaşayan insanlara verilən ad.

# K

**KABALİZM:**

Yəhudi mistisizmini ifadə edən termin. “Ənənə” mənasına “kabala” sözü ilə ifadə olunan yəhudi mistisizminin mənşəyi İkinci Məbəd dövrünə qədər aparılmaqla birlikdə, bir sistem kimi Kabalizmin XII-XIII əsrlərdə İspaniyada qurulduğu, əsas təlimlərini ehtiva edən dini mətni Zoharın həmin dövrdə yazıldığı qəbul edilir. Yəhudi mistisizminin son mərhələsi hesab olunan hasidiliyin XVIII əsrdən Şərqi Avropa yəhudiləri arasında yayılması ilə kabalizmin əhatə dairəsi genişlənmişdir. Əsas məqsədi Tanrı ilə yaradılış arasındakı münasibətin sirlərini dərk etmək olan kabalizmdə yaradılış və qurtuluş əsas mövzuları meydana gətirir. Kabalizmin müasir dövrdəki təmsilçisi hasidilikdir.

**KAFİ (الكافي):**

Allahın doxsan doqquz adından (əsmai-hüsna) biri. “Kafi” “kifayət edən, bəndənin ehtiyaclarını həll edən, onu istəyinə çatdıran” mənasını verir. “Kifayət” termini Qurani-Kərimdə feil və isim halında Allaha nisbət edilir.

**“KAFİRUN” SURƏSİ (سورة الكافرون):**

Quranın 109-cu surəsi. 6 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədə xitab edilən “kafirlər” sözündən alınmışdır. Surənin məzmunu Həzrət Peyğəmbərin inancsızlara heç vaxt tabe olmayacağını vurğulamaqdan ibarətdir.

**KALVİNİZM (calvinism):**

XVI əsrdə yaşamış reformist ilahiyyatçı Jan Kalvinin (1509-1564) dini ideyaları əsasında yaranmış protestantlıq cərəyanı. J.Kalvinin təliminə görə, bütün insanların ilahi qurtuluşa nail olub-olmadığı öncədən təyin edilmişdir və onlar heç bir şəkildə öz talelərindən qaça bilməzlər. Buna baxmayaraq, iqtisadi həyatda uğur qazanmaq ilahi qurtuluşun əlaməti ola bilər. Bu səbəbdən, kalvinistlər çox çalışaraq maddi zənginliklərini artırır, beləliklə, ilahi qurtuluşun əlamətlərinə nail olmağa çalışırdılar. Digər tərəfdən, kalvinistlər asketik dini əqidənin təsiri altında təmtəraqlı həyat sürməkdən imtina edir və əldə etdikləri qazancları sərmayəyə çevirirdilər. Maks Veber hesab edir ki, kalvinistlərin dini əqidəsi və iqtisadi həyatdakı əzmli çalışmaları modern kapitalizmin meydana gəlməsinin əsas amillərindən biri olmuşdur.

**KAMA:**

Hinduizmə görə, “kama” ideal bir hindunun əxlaqlı olmasının üç yolun-

dan biri – şəhvət arzusunun qanuni yolla təmin edilməsidir.

**KANQA:**

Siqhizmdə Qardaşlıq Cəmiyyətinə daxil olan kişilərin 5 müqəddəs əşyasından biri hesab olunan daraq.

**KARQO KULTU (manzren):**

Melaneziya adalarında geniş yayılmış millenarist dini hərəkatı. Karqo kultunda dünyanın sonunda gözlənilən xilaskarın (manzren) gəmi ilə gələcəyinə və yerli xalqa zənginlik, rifah və bolluq gətirəcəyinə, yadları bu ərazilərdən qovacağına inanılır. Xilaskarın məhz gəmi ilə gəlməsinə görə, bu inanc "karqo kultu" adlandırılmışdır. Karqo kultu melaneziyalı yerli xalqların avropalı insanlara qibtə ilə baxmaları, onların gəmi, təyyarə, qatar kimi müasir nəqliyyat vasitələrindən istifadəsinə və bunların daşıdıqları "karqo" və yüklərə heyranlıqla baxmalarının təsiri ilə yaranmışdır.

**KARMA:**

Hind mənşəli dinlərdə reinkarnasiya inancı ilə əlaqəli termin. İş və davranışları idarə edən, mövcud və gələcək həyata təsir edən qanun hesab edilən karma insan davranışı və onun nəticəsini ifadə edir. Hinduizmə görə, insanın bu həyatda etdiklərinə bağlı olaraq bu dünyada yenidən yaradılması (reinkarnasiyası) karmanın nəticəsidir.

**KAST:**

Hinduizmdə sosial təbəqələşməni ifadə edən termin.

**KATHENOTEİZM:**

Politeist dinlərdə hər bir tanrınının müxtəlif zaman və şəraitdə Uca Tanrı hesab olunmasını ifadə edən termin.

**KATİB (الكاتب):**

Müsəlman dövlətlərinin rəsmi qurumlarında yazı ilə əlaqəli müxtəlif işləri yerinə yetirən məmurlar üçün istifadə olunan termin. Quranın nazil olma prosesinə paralel surətdə başlayan katiblik, vəhyin yazılmasından başqa müxtəlif qəbilə və dövlətlərə göndərilən məktublar, əhdnamələr və digər sənədlərin yazılması üçün Məhəmməd peyğəmbər dövründən etibarən fəaliyyət göstərmişdir. Raşidi xəlifələr dövründə Divan təşkilatının təsis olunmasından etibarən, bütün müsəlman dövlətlərində mövcud olmuş "Divaniinşa"nın rəhbərliyinə geniş dünyagörüşlü, yüksəksəviyyəli dil bilikləri və yazı qabiliyyəti ilə seçilən, dövrünün ən məşhur katibi olan "münşi" təyin olunmuşdur. Katiblik yalnız yazma bacarığı ilə məhdud olmayan mühüm dövlət məmurluğuna çevrilmişdir.

**KATOLİKLİK:**

Mənsublarının sayına görə Xristianlığın ən böyük məzhəbi. Adını "ümumbəşəri" və yaxud "ümumi" mənasında "katolik" terminindən alan katoliklik Roma və yaxud Latın Kilsəsi də adlandırılır. Müqəddəs Ruhun mənşəyi ilə əlaqəli fikir ayrılığına görə, 1054-cü ildə Şərq və Qərb kilsələri bir-birini aforoz edərək ayrılmış, bu hadisədən sonra Bizans

Xristianlığı pravoslav (ortodoks), Roma Xristianlığı isə Latın katolik adını almışdır. Katolikliyə görə, İsa Məsihin on iki həvarisindən biri olan Müqəddəs həvari Petrus kilsənin qurucusu və ilk Roma Papası hesab olunur. Həm qurucusuna, həm də 325-ci ildə həyata keçirilən Birinci Nikeya Kilsə Məclisində üstünlüyünün qəbul edilməsinə görə, Katolik Kilsəsi özünü Xristianlığın əsası hesab edir. Katolik Kilsəsinin rəhbəri olan Roma Papasının yanılmazlığı, Müqəddəs Ruhun Ata və Oğul tanrıdan yarandığı, rahib sinfinin evlənməməsi kimi inanclar Katolik Kilsəsini digər xristian məzhəblərdən ayıran əsas xüsusiyyətlərdir. Vəftiz, konfirmasiya, evharistiya, günahın etiraf olunması, xəstəni son yağlama, nikah və rahib seçilən şəxsin təqdis olunması kimi yeddi sakrament katolik Xristianlığın əsas ibadətləri hesab olunur.

**KEYFİYYƏTİ-NÜZUL (كيفية النزول):**

Peyğəmbərliyinin başlanğıcından vəfatınadək Məhəmməd peyğəmbərə göndərilən Quran surə və ayələrinin nazil olduğu şərait.

**KEYSANİLİK (الكيسانيّة):**

Şiəliyin Əli ibn Əbu Talibin oğlu Məhəmməd ibn əl-Hənəfiyyənin imam və “Mehdi” olduğunu irəli sürən qolu. Məzhəbin adı Əli ibn Əbu Talibin Siffin döyüşündə ölən “Keysan” adlı qulundan, yaxud Əli tərəfindən Muxtar əs-Səqəfiyə verilən “Keysan” ləqəbindən götürülmüşdür. İslam məzhəbləri tarixi mənbələrində keysaniliyin (keysaniyyənin) ifrat fikirlərə malik olduğu qeyd olunur. Keysaniliyin formalaşmasında Muxtar əs-Səqəfinin (622-687) xüsusi rolu olmuşdur. Mənbələrdə Muxtarın Həsən ibn Əli və Hüseyn ibn Əlidən sonra Məhəmməd ibn əl-Hənəfiyyənin imam olduğunu irəli sürdüyü iddia olunur. Keysaniliyin muxtarilik, haşimilik, kərbilik və rizamilik kimi müxtəlif qolları olmuşdur. Sözügedən məzhəbin müxtəlif qollarında mehdilik, qeybət, tənasüx (reinkarnasiya) və hülul (inkarnasiya) inancları mövcud olmuşdur. Keysanilik hicri II əsrin (miladi VIII əsr) ortalarından etibarən tarix səhnəsindən silinməyə başlamış, hicri III əsrin (miladi IX əsr) əvvəllərində tamamilə yox olmuşdur.

**KƏBİRƏ (الكبيرة):**

“Böyük günah” mənasını ifadə edir. İslam dininin qadağan etdiyinə dair dəlil mövcud olan və bu xüsusda dünya və axirət cəzası təsbit edilən davranışlar, “kəbirə”, yəni “büyük günah” adlanır. Kəbirə xaricindəki kiçik günahlar “səğirə” adlanır. Qurani-Kərimdə böyük və kiçik günahlar “zənb, ism, fisq və üsyan” kəlmələri ilə ifadə edilir. Əməl dəftəri böyük və kiçik olmasından asılı olmayaraq, bütün günahları əhatə edir (“əl-Kəhf”, 18/49), ancaq böyük günah işlənmədiyi müddətdə, kiçik günahların Allah tərəfindən bağış-

lanacağını Qurani-Kərim ifadə edir ("ən-Nisa", 4/31). Hədislərdə böyük günahlar "mubiqat", yəni "həlakedici davranışlar" kimi qeyd edilir. Belə ki, müxtəlif hədislərdə Allaha şərik qoşmaq, adam öldürmək, ata-anaya üsyan etmək, yetim malı yemək, faiz yemək, namuslu qadınlara böhtan atmaq, falçılıqla məşğul olmaq, müharibədən qaçmaq, yalançı şahid olmaq, ödənilə bilməyəcək miqdarda borclu ikən ölmək böyük günahlardan hesab edilmişdir.

**KƏFƏN (كفن):**

Ölünün yuyulub-qurulandıqdan sonra, bədənini sarımaq üçün kişilərə görə üç, qadınlara görə isə beş hissədən ibarət bez parçası. Kişilərin kəfəni qəmis (köynək), izar (fitə) və lifafə (sərtasər) olmaqla üç hissə, qadınların isə bunlara əlavə olaraq yaylıq və sinə üçün örtükdən ibarət beş hissədir. "Köynək" mənasını verən qəmis başdan keçirtmək şərti ilə çiyindən-ayaqlara qədər, izar və ya fitə başdan-ayağa qədər (cəfərilikdə göbəkdən dizlərə qədər), lifafə (sərtasər) isə ölünü həm baş, həm də ayaq hissəsindən bağlayacaq qədər uzunluqda olmalıdır. İzar və lifafənin eni meyiti bükdükdə bir tərəfi o biri tərəfin üstünə gələcək qədər olmalıdır. Ehtiyac halında kişilər üçün izar və lifafə olmaqla iki hissə, qadınlar üçün buna əlavə olaraq, yaylıqdan ibarət üç hissə kəfənə "kəfəni-kifayə" deyilir. Kişi və qadın arasında fərqin olmadığı, bütövlükdə bədəni örtən bez parçasına isə "kəfəni-zərurət" deyilir.

**KƏFFARƏ (كفارة):**

Qüsur, yaxud günahı örtmək. Fiqh terminologiyasında insanların işlədikləri xəta və ya günahlara görə, müəyyən ibadətlərin yerinə yetirilməsini ifadə edir. Orucun və andın qəsdən pozulması (qadını alçaldaraq ona qarşı) zihar davranışı etmək, bir müsəlman və ya zimminin xəta ilə öldürülməsi və heyz halında məhrəm yaxınlaşma halında tətbiq edilən cəza üsullarıdır. Orucun qəsdən pozulması ilə zihar kəffarəsi eyni, digərləri isə fərqli kəffarə növləridir. Oruc xaricində digər bütün kəffarələr ayələrlə müəyyənləşdirilmişdir. Orucun kəffarəsi isə sünnə ilə göstərilmişdir.

**KƏHANƏT (الكهانة):**

"Gələcəkdə baş verəcək hadisələri bilmək və qeybdən xəbər vermək" mənasını verən termin. Qeybdən məlumat aldığını iddia edən şəxsə "kahin", aldığı ödənişə "hülvani-kahin" deyilir. Kəhanət vəhydən, falçılıqdan fərqli bir məna kəsb edir. Qurani-Kərimdə "kəhanət" kəlməsi iki şəkildə qeyd edilir ("ət-Tur", 52/29; "əl-Haqqa", 69/42). Bunların birincisində İslam Peyğəmbərinin hər hansı bir kahin və cinlərin təsiri altında qalmadığı, digərində Quranın kahin sözü olmadığı vurğulanır. Kəhanət İslam dini tərəfindən qadağan edilmiş, qeybin yalnız Allah tərəfindən bilinəcəyi təkidlə qeyd edilmişdir.

**"KƏHF" SURƏSİ (سورة الكهف):**

Quranın 18-ci surəsi. 110 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surədə mağara əhlinin hekayəsindən bəhs edildiyi üçün "Kəhf" (mağara) adı verilmişdir. Surədə "mağara əhli", Həzrət Adəm, Həzrət Musa, Zülqərneynin qissələri haqqında məlumat verilir. Eyni zamanda, Qurana inanan və inanmayanların aqibəti haqqında bəhs edilir.

**KƏLALƏ AYƏSİ (آية الكلالة):**

Hərfi mənada "yorğun olmaq", terminologiyada isə ata-anasız və uşaqsız ölən və ya uşağı olmayan şəxs üçün işlədilən termin. "Nisa" surəsinin 176-cı ayəsində həmin şəxsin mirasının necə bölüşdürülməsi haqqında qeyd mövcuddur.

**KƏLAM (الكلام):**

Lüğəvi baxımdan "danışmaq, söz söyləmək" mənasını verir. Dini termin olaraq "kəlam" Allaha nisbət edilən sübuti sifətlərdən biri olub, Onun danışmaq və söz söyləmək qabiliyyətinə və ixtiyarına malik olan bir varlıq olduğunu ifadə edir. Quranda Allahın mələklər, iblis və peyğəmbərlərlə danışdığı və onun tükənməz kəlmələrinin olduğu ifadə edilir. Quran ayətlərində "söylədi, dedi, danışdı, nida etdi" kimi söz və ifadələrlə Allahın öz yaratdıqları ilə danışdığı qeyd edilir. Həzrət Musa nümunəsində olduğu kimi, Allah öz elçiləri ilə pərdə arxasından danışdığı kimi, vəhy vasitəsilə digər peyğəmbərlərlə danışmışdır. Elə buna görə də vəhyin digər adı "kəlamullah", yəni Allah kəlamıdır.

**KƏLAM ELMİ (علم الكلام):**

Hicri II əsrddən etibarən təşəkkül etməyə başlayan, İslam dininin inanc əsaslarından sistemli şəkildə bəhs edən İslam elmlərindən biri. Mövzusuna görə Allahın zatından və sifətlərindən (atribut), nübüvvət məsələlərindən, kainatdan bəhs edir. Kəlam elminin əsas qayəsi İslam inanc əsaslarını əqli və nəqli (dini) dəlillərlə əsaslandırmaq və onu kənar təsirlərdən qorumaqdır.

**KƏLİMULLAH (كلام الله):**

"Allahın danışdığı şəxs" mənasını verir və bu ifadə ilə Həzrət Musa nəzərdə tututlur. Allah-Taala Musa peyğəmbərlə bilavasitə danışmışdır. Həzrət Musa Bəni-İsrailə (İsrail oğulları) göndərilmiş və ona ilahi kitab olaraq Tövrat nazil olmuşdur. Həzrət Musa Yəhudilik, Xristianlıq və İslama görə "ülül-əzm", yəni böyük peyğəmbərlərdən biridir. Qurani-Kərimə görə o, həm rəsul, həm də nəbidir. İslam Peyğəmbəri öz hədislərində Həzrət Musadan çox bəhs etmişdir.

**KƏLMEYİ-ŞƏHADƏT (كلمة الشهادة):**

"Şahid olmaq, şahidlik etmək" deməkdir. Dini termin olaraq, "Əşhədü ən la ilahə illallah və əşhədü ənnə Muhəmmədən əbduhu və rəsuluhu",

yəni "Allahdan başqa məbud olmadığına və Həzrət Məhəmmədin Onun qulu və elçisi olduğuna ürəkdən inanmaq" deməkdir. Kəlmeyi-tayyibə, qövlüs-sabit, əl-ürvətül-vüsqa tərkibləri kəlmeyi-şəhadət yerində işlədilir. İslam dininin ümumi mənada mənimsənilməsi (icmali-iman) mənasına gələn kəlmeyi-şəhadət İslamı qəbul etməyin ilk mərhələsini təşkil edir. Bunu qəbul edən şəxs İslam ümmətindən sayılar və müsəlmanlara aid bütün haqq və hüquqları əldə edər, bəzi mükəlləfiyyətlərdən də məsul olar. Əksər alimlər Cibril hədisindəki sıralamanı dəlil göstərərək, kəlmeyi-şəhadət gətirilmədən heç bir əməlin məqbul olmayacağını söyləmişlər.

**KƏLMEYİ-TÖVHİD (كلمة التوحيد):**

"Allahdan başqa məbudun olmadığını" ifadə edən cümləyə deyilir. Tövhid inancı İslam dininin əsasını təşkil edir. İslam dininə daxil olmaq istəyən kəs, ilk növbədə, kəlmeyi-tövhidi ürəkdən qəbul etməlidir. Kəlmeyi-tövhidin əsli "La ilahə illallah Muhəmmədun rəsulullah" cümlələrindən ibarət olub, "Allahdan başqa məbud yoxdur, Məhəmməd Allahın elçisidir" kimi tərcümə edilir. Kəlmeyi-tövhid inanc və dinin əsasını meydana gətirən iki təməl üzərinə qurulmuşdur. Birincisi, Allahın ucalığına və birliyinə, ikincisi isə Onun insanlarla əlaqəsini təmin edən peyğəmbərliyə iman gətirməkdir.

**KƏRAHƏT/MƏKRUH (الكراهة/المكروه):**

Tərk edilməsi daha yaxşı hesab edilən və haqqında qəti bir qadağa olmayan əməl. Allah və Rəsulunun işlənməməsini qəti olmayan bir tərzdə istədikləridir. Bunlar edilməsi xoş olmayan əməlin savabını azaldan işlərdir. Məkruh iki qisimdir: a) təhrimən məkruh: harama yaxın olub işlənməsi istənilməyən işlərdir. İşləndiyi təqdirdə axirətdə əzabı vardır; b) tənzihən məkruh: işlənməsi xoş olmamaqla yanaşı, işləyənə əzab gətirməyən əməldir. Halala yaxın olub, tərk edənə savabı olan işdir. Tənzihən məkruh müstəhəbin ziddidir. Soğan, yaxud sarımsaq yeyərək məscidə getmək, burnu sağ əllə fınxırmaq kimi əməllər buna misaldır.

**KƏRAMƏT (الكرامة):**

Lüğəvi mənası "yaxşı, əxlaqlı və səxavətli olmaq"dır. Termin olaraq kəramət Allahın saleh, təqvalı və vəli bəndələrindən zühur edən fövqəladə davranışlardır. Kəraməti də möcüzə kimi təbiət qanunları ilə izah etmək mümkün deyil. Möcüzə peyğəmbərlərdən, kəramət isə vəli bəndələrdən zühur edir. Şübhəsiz, həm möcüzə, həm də kəramət Allahın qüdrət, iradə və icazəsi ilə meydana gəlir. "Kəramət" kəlməsinin İslam mənbələrinə IX əsrdən sonra daxil olduğu təxmin edilir.

**KƏRRAMİLİK (الكرّاميّة):**

Hicri III əsrin (miladi IX əsr) sonlarından etibarən, Xorasan və Mavə-

raənnəhrdə (Orta Asiyanın böyük hissəsi) yaranmış etiqadi məzhəb. Məzhəbin adı qurucusu Məhəmməd ibn Kərramın (v. 255/869) adından götürülmüşdür. Bu məzhəb Qəznəvilər dövründə, xüsusilə Səbuk Təkin və Sultan Mahmud Qəznəvi dövründə dövlət tərəfindən himayə edilmişdir. Kərramilik sünnilər və şiələr tərəfindən tənqidə məruz qalan bəzi fikirlərə malik olmuşdur. Bunlardan biri Allahın cisim olmasına dair fikirləridir. Bu məzhəbə görə, Allah digər cisimlərə bənzəməyən bir cisimdir. Həmçinin Kərramilər imanın ancaq dil ilə söyləməkdən (iqrar) ibarət olduğunu, qəlblə təsdiqin imanla əlaqəsinin olmadığını iddia edirdilər. Bu nöqteyi-nəzərə görə, Allahın varlığını və dinin doğruluğunu qəlblə təsdiq etməyən, lakin dillə qəbul etdiyini söyləyən şəxs mömin sayılır. Küfr isə Allahı dil ilə inkar etməkdir.

**KƏSB (الكسب):**

İxtiyari hərəkətlərin meydana gəlməsinə insanın təsirini ifadə edən termin. Qurani-Kərimdə “kəsb” termini müxtəlif ifadələrlə insana aid edilir və hər bir insanın davranışının müqabilini görəcəyi və kimsəyə zülm edilməyəcəyi ifadə edilir. Kəsb mövzusu kəlam elmində, insanların iradi hərəkətləri kontekstində təhlil edilir. Cəbriyyə kəsbi rədd edərək, bəndənin heç bir iradi gücünün olmadığını iddia etmişdir. Mötəzilə və şiə isə niyyət və seçim edənin də, onu icra edənin də məhz insan olduğunu müdafiə etmişdir. Sünni kəlam məzhəbləri isə niyyət və seçim edənin insan, feilləri yaradanın isə Allah olduğunu ifadə etmişdir.

**KİLAZİLİK (الكلازية):**

Nüseyrilik məzhəbinin Məhəmməd ibn Yunis əl-Kilaziyə (v. 1011/1602) aid edilən qolu. Nüseyrilik XV əsrdə Hüseyn ibn Həmdan əl-Xəsibinin yazdığı və məzhəb mənsublarının müqəddəs kitab hesab etdiyi “Kitab əl-Məcmu”da Məhəmməd peyğəmbər və Əli ibn Əbu Talibdən bəhs edən bəzi ifadələrin izahındakı fərqlilik səbəbindən ikiyə bölündü. Məzhəb mənsublarının əksəriyyəti heydəriliyin (şəmsilik), az hissəsi isə kilaziliyin (qəmərilik) fikirlərini mənimsədi. Kilazilərə görə, Allahın bəşəri təzahürü olan Əli ibn Əbu Talibin nasuti (insani) bədəndən çıxdıqdan sonrakı məkanı Aydır; Günəş Məhəmməd peyğəmbər, göy isə Salman Farisidir. Heydəriliyə görə isə Əli göydədir və Məhəmmədi təmsil edən Günəşdə oturur.

**KİPA:**

Yəhudi kişilərin, xüsusilə dua zamanı sinaqoqda və gündəlik həyatda istifadə etdikləri, “kippa” adlandırılan qalpaq.

**KİRAMƏN KATİBİN (كرامًا كاتبين).**

**Bax: HƏFƏZƏ.**

**KİRAYƏ/İCARƏ (الاجارة):**

Mülkü kirayə vermək, icarəyə götürmək. İslam hüququ terminologiyasın-

da mənfəətin məvacib müqabilində mülkiyyətə keçməsini təmin edən ticarət əqdinə deyilir. Mənfəət daşınan və daşınmaz əmlakın icarəsi ilə hasil olduğu kimi, insan xidmətinin icarəsi ilə də mümkündür.

**KİRPAN:**

Siqhizmin mənsublarının müqəddəs hesab etdikləri beş əşyadan biri olan xəncər.

**KİSRA (كسرى):**

Sasani hökmdarlarından Xosrovun süryanicə tələffüzü olan "Kəsro"nun tədricən Sasani hökmdarı mənasında titul kimi istifadə olunması ilə yaranan və ərəblərin Sasani dövlətinin hökmdarı üçün istifadə etdikləri termin.

**KİTAB (الكتاب):**

Lüğəvi mənada "yazılmış" deməkdir, ancaq termin kimi hər sahənin özünəməxsus tərifi və istifadə şəkli vardır. Fiqh üsul elmində Cəbrail vasitəsilə son Peyğəmbər Həzrət Məhəmmədə Allah tərəfindən endirilən, həm mənası, həm də nəzmi ilə möcüzə olan, bizə qədər təvatür yolu ilə gəlmiş və iki qapaq arasına (müshəf) yazılmış Quran ayələrinin hamısına "kitab" deyilir. İslam fiqh əsərlərində fiqhi məsələlərə aid müəyyən fəsilləri, babları ehtiva edən başlıqlara da kitab adı verilir.

**KİTABƏ (كتابه):**

Dini, mülki və yaxud hərbitəyinatlı binaların daxili və xarici divarlarında mərmər, daş, taxta, çini və metal lövhələr üzərində oyma və yaxud qabartma üsulu ilə işlənən yazı. Bir dekor kimi binanın estetik cəhətinə aid olmaqla yanaşı, kitabə verdiyi məlumatlara görə də memarlıq əsəri üçün mühüm rol oynayır. Əksəriyyətlə giriş qapısının üstünə yerləşdirilən, əsərin memarı və inşa tarixi haqqında məlumat ehtiva edən kitabələr tarix kitabəsi, əsərin təmirinə dair məlumat olan kitabələr təmir kitabəsi adlandırılır. Kitabələr dilçilik, tarix və incəsənət sahələrində mühüm mənbə və sənəd hesab olunur.

**KİTAB DİNİ (official religion):**

Dinin əsaslarının nəzəri müstəvidə başa düşülməsi, dinin rəsmi doqmalarını əsas götürən dindarlıq forması. Kitab və ya rəsmi dini, adətən təşkilatlanmış dinlər və ya yüksəktəhsilli ruhanilər təmsil edir. Aralarındakı mahiyyət fərqi səbəbindən, adətən kitab dini və xalq dini arasında ziddiyyətli münasibətlər meydana gəlir. **Bax: XALQ DİNİ.**

**KİZB (الكذب):**

"Yalan danışmaq" deməkdir. Hədis üsulunda kizbur-ravi olaraq keçir. Peyğəmbərin adından yalan söyləməkdir.

**KİZBİ-RAVİ (كذب الراوي):**

Ravinin hədis rəvayətində yalançılığı, yəni Həzrət Peyğəmbərin söyləmədiyini söyləmiş, etmədiyini etmiş kimi rəvayət etməsidir. Belə bir qüsur aşkar edildiyi zaman raviyə əsla

etibar olunmaz. “Kəzzab”, “vəzza”, “əkzəbun-nas”, “rüknül-kizb”, “iley-hi müntəha fil-vəz» kimi vəziyyəti bildirilən ravinin rəvayəti uydurma (mövzu, müxtələq) sayılır.

**KLERİKALİZM (clericalism):**

İctimai, siyasi və mədəni həyatda kilsənin (dinin) təsirini gücləndirməyə və ya onu hakim vəziyyətə çıxarmağa çalışan siyasi cərəyan. Əsasən, Xristianlıqda meydana gələn bu cərəyan ruhanilərin mövqelərini möhkəmləndirmək, cəmiyyəti idarə etmək və ya hakim olmağı nəzərdə tutur. Klerikalizm meyilləri, sadəcə, Xristianlıqla məhdud deyildir, digər dinlərdə də ruhanilər cəmiyyətdə hakim mövqeyə nail ola bilər.

**KONFESSİYA (confession). Bax: DİNİ QRUP.**

**KONFUSİZM:**

Konfutsi “Ustad Kong” (Kong Fou-Tseu) tərəfindən e.ə. VI əsrdə qurulmuş fəlsəfi, dini, əxlaqi və sosial sistem. Konfusizmin əsas təlimləri Beş Klassik (Vou Kinq) və Dörd Kitabda (Se Chou) öz əksini tapmışdır. Konfusizmin müqəddəs mətnləri hesab olunan bu kitablar metafizik mövzulardan daha çox Konfutsinin və tələbələrinin Çin filosoflarının idarəetmə, sosial həyat, əxlaq və fəzilətlərə dair fikirlərini topladıqları əsərlərdir. Təlimlərini hər hansı bir tanrı təsəvvürü üzərinə qurmamaqla birlikdə, konfutsi Çinin ənənəvi inanclarına müdaxilə etməmiş və öz dövrünün Tao fəlsəfəsini qəbul etmişdir.

**KONTEKST. Bax: SİYAQ-SİBAQ.**

**KOSMOPOLİTİZM (kosmopolitism):**

Milli xüsusiyyətləri və ənənələri inkar edib, özünü heç bir millətə mənsub hesab etməyən, bütün dünyanı özünə vətən sayan “dünya vətəndaşlığı” ideyası. Kosmopolitizmin bəzi ifrat formalarında, hətta milli müstəqillik ideyası belə inkar edilir. Buna görə də milli kimliyə və müstəqilliyə əhəmiyyət verən millət-dövlət siyasi rejimlərində kosmopolitizm ideyaları rəğbətlə qarşılanmır.

**KÖVN (كون):**

Meydana gəlmə, yaranma.

**KÖVN AYƏLƏRİ (الآيات الكونية):**

Quranda kainatın yaradılışı, forması və xüsusiyyətlərindən bəhs edən ayələr. Həmin ayələri açıqlayan təfsirə “elmi təfsir” adı verilmişdir.

**“KÖVSƏR” SURƏSİ (سورة الكوثر):**

Quranın 108-ci surəsi. Ən qısa surədir. 3 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. “Kövsər” sözü çox nemət mənasına gəlir və cənnətdə Həzrət Peyğəmbərə verilən bulağın adı olaraq bilinir. Surədə Peyğəmbərə Kövsər hovuzunun verilməsi, ona “soysuz” deyənlərin özlərinin soysuz olduğu vurğulanır. Namaz qılmaq və qurban kəsmək əmr edilir.

**KŞATRİALAR:**

Hinduizmin kasta sistemində zadəganların və hərbiçilərin təmsil olunduğu ikinci təbəqə.

**KUFƏ TƏFSİR MƏKTƏBİ (مدرسة الكوفة في تفسير القرآن):**

Səhabə Abdullah ibn Məsud (v. 32/652) tərəfindən Kufədə əsası qoyulan, dirayətə əsaslanan təfsir məktəbi. Vəhy katiblərindən biri olan Abdullah ibn Məsudu Ömər ibn Xəttab Kufəyə Quranı təbliğ və açıqlama məqsədi ilə göndərmişdir. O, burada yeni bir təfsir məktəbinin yaranmasına təkan vermiş və ayələri İslam ənənəsinə uyğun şəkildə daha çox əqli nəticələrlə açıqlaması ilə tanınmışdır.

**KULT** (**cult**):

Heterodoks, qeyri-ənənəvi dini qrup. Cəmiyyətin çoxluğunun dini ənənəsinə uyğun gəlməyən, çoxluq tərəfindən yadırğanan və mənfi münasibət bəslənən dini qruplar. **Bax**: **DİNİ QRUP.**

**KUŞTA:**

Sabiilikdə "doğru yol" və "həqiqət" mənasında istifadə edilən, həmçinin dini mərasimin bir hissəsi olan əllə görüşməni ifadə edən termin.

**KÜBRƏVİLİK (الكبروية):**

Nəcməddin Kübranın (v. 1221) qurduğu təsəvvüf təriqəti. "Kamil bir mürşidə bağlı olmaq", "Cüneyd Bağdadinin səkkiz nəsihətinə sadiq qalmaq", "az yemək" təriqətin üç əsas prinsipidir. Kübrəvilər sufizmdəki "vəlayət" düşüncəsindən çıxış edərək, şiəliyin mənsubları ilə ünsiyyət quraraq, hər iki məzhəbin vəhdətinə nail olmağa çalışırdılar. Nəcməddin Kübranın ən məşhur müridlərindən Əlaüddövlə Səmnani (v. 1336) isə şeyxindən daha geniş miqyasda hər iki məzhəbin ortaq dəyərlərini qabardaraq, bu vəhdəti daha da gücləndirmişdir.

**KÜFR (الكفر):**

Lüğəvi mənası "örtmək, gizləmək" deməkdir. Terminoloji mənası "Allah tərəfindən göndərilib, peyğəmbər tərəfindən təbliğ edilən prinsipləri qəbul etməmək"dir. Küfrü mənimsəyənlər "fitri qabiliyyətlərinin üstünü örtən" mənasında "kafir" adlandırılır. "Qəbul etməmək, rədd etmək" mənasında "nəkərə" kökündən olan inkar da küfr mənasında işlənir.

**KÜLLABİLİK (الكلاّبيّة):**

Sünni teologiyasının (kəlam) yaranmasına zəmin hazırlayan alimlərdən biri olan Abdullah ibn Səid ibn Küllab əl-Bəsrinin (v. təqribən, 240/854) fikirlərini mənimsəyənlərə verilən ad. İbn Küllab mötəzilənin rasional dəlilləri qarşısında zəifləyən sünni sələf əqidəsini əqli dəlillərlə gücləndirməyə çalışmış, beləcə sünni kəlam elminin yaranmasının pionerlərindən olmuşdur. O, mötəziləni tənqid etmiş, lakin sözügedən məzhəbin kəlam elmində isti-

fadə etdiyi “hərəkət və sükundan (hərəkətsizlik) xali olmayan cisimlər hadisdir (əzəli deyildir)”, “əzəli olmayan varlıqlar (hadis) geriyə doğru sonsuz şəkildə davam edə bilməz” kimi bəzi prinsipləri mənimsəmiş, bunlardan ilahi sifətlərin isbatında istifadə etmişdir. Mənbələrdə İbn Küllab əl-Bəsrinin kəlam elminə dair “Kitab əs-sifat”, “Xəlq əl-əfal” və “ər-Rədd əlal-mötəzilə” adlı əsərlər qələmə aldığı qeyd olunur. Əşəriliyin formalaşıb İslam dünyasında yayılmasınadək İraq və İranda sünni kəlamının əsas təmsilçisi küllabilik olmuşdur.

**KÜLLİ (الكلي):**

Bu aləmə şamil olan, ümumi, universal olan. Bu məfhum xarici aləmdəki münasibətləri əks etdirir. Bütün fərdlərdə mövcud olan xüsusiyyət universaldır. Konseptualizm universalların, əslində, məfhum kimi zehində, varlıq kimi zehnin xaricində mövcud olduqlarını irəli sürür. Sokrat, Platon və Aristotel tərəfindən inkişaf etdirilmiş universallar konsepsiyası Orta əsrlərdə də mübahisə doğuran mühüm məsələlərdən biri olmuşdur.

**KÜSUF NAMAZI (صلاة الكسوف):**

Günəş tutulması əsnasında imamla, yaxud təkbaşına qılınan namaz. Gecə və gündüzün nurani ayəsinin (günəşin) pərdələnməsi ilə Allahın böyüklüyünün elan edildiyi namazdır. Əhli-sünnəyə görə, təkcə Günəş tutulmasını ifadə edir. Cəfərilikdə isə digər təbiət hadisələrini də ehtiva edən “ayat namazı”na deyilir. Namazdan əvvəl qüsl almaq, Cümə və Bayram namazları kimi məsciddə qılmaq, rüku, qiraət və səcdələri daha uzun tutmaq sünnə əməllərdəndir. Allahı zikr etmək, istiğfar etmək, təkbir gətirmək və sədəqə vermək bu namazdan sonra yerinə yetiriləcək işlər olaraq Peyğəmbərin tövsiyələridir.

**KÜTTAB (كتاب):**

Bəzi müsəlman ölkələrində ibtidai səviyyədə din təhsili verən məktəblər üçün istifadə olunan termin. İslam dünyasında ilk dəfə nə zaman meydana çıxdığı dəqiq olmasa da, küttab Əməvi və Abbasi dövlətində ən geniş yayılmış ibtidai din tədrisi qurumu idi. Quruluşunun ilk dövrlərində İslamın yayılması məqsədi daşıyan bu qurumlar daha sonrakı dövrlərdə mövcud dini mühitin qorunmasında mühüm rol oynamışdır.

**KÜTÜBİ-ƏRBƏƏ (الكتب الاربعة):**

Şiə (imamiyyə) məzhəbinin dörd əsas hədis mənbəyi. Kütübi-Ərbəə Küleyninin “əl-Kafi”, Şeyx Saduqun “Mən lə yəhzürülül-fəqih” və Əbu Cəfər ət-Tusinin “Təhzibul-əhkam” ilə “əl-İstibsar” adlı hədis əsərlərindən meydana gələn dörd kitaba verilən addır. Kütübi-Ərbəə şiə (imamiyyə) məktəbinin dörd əsas hədis mənbəyi hesab olunur. Hədisləri Həzrət Peyğəmbər ilə on iki imamın söz, feil və təqrirləri olaraq tərif edən şiə alimləri İslamın ilk əsrindən etibarən bunların yazılıb-

toplandığını qeyd ediblər. Həzrət Əli dövründən başlayaraq, hədisləri yazıb-toplama fəaliyyəti İmam Zeynülabidin, İmam Məhəmməd Baqir və xüsusilə Cəfər əs-Sadiqin zamanında davam etmiş, bir çox alim önəmli bir bölməsi imamların sözlərindən meydana gələn hədis cüzləri yazmışdır. Kütübi-Ərbəə müəllifləri də bunları öz əsərlərində cəm etmişdir.

**KÜTÜBİ-SİTTƏ (الكتب الستة):**

Sünniliyin altı əsas hədis mənbəyi. Altı kitab mənasına gəlir. Əhli-sünnət hədis mənbələri arasında şöhrət qazanmış altı əsərə deyilir. Eyni zamanda, "sihahi-sittə" də deyilir. Bu kitablar Buxari və Müslimin "əl-Camus-səhihi", Tirmizi, Əbu Davud, Nəsai, İbn Macənin "sünən"lərindən ibarətdir. Bəziləri İbn Macənin sünəni yerinə əd-Dariminin "Sünən"ni, bəziləri isə İmam Malikin "əl-Müvəttə" adlı əsərini kütübi-sittəyə daxil etmişlər. Kütübi-sittədəki hər bir kitabın özünəməxsus xüsusiyyəti vardır. Tahir əl-Məqdisiyə (v. 507) qədər üsuli-xəmsə olaraq məşhurkən onun İbn Macənin "Sünən"ini də əlavə etməsi ilə kütübi-sittə olmuşdur.

**KÜTÜBİ-TİSƏ (الكتب التسعة):**

Sünniliyin doqquz əsas hədis mənbəsi. "Doqquz hədis" kitabı deməkdir. Kütübi-sittəyə Malikin "Müvəttə"sini, Dariminin "Sünən"i və Əhməd ibn Hənbəlin "Müsnəd"ini əlavə etməklə kütübi-tisə meydana gəlmişdir.

# Q

**QACARLAR (سلسله قاجاريه):**

1796-1925-ci illərdə İranda hakimiyyətdə olmuş Türk mənşəli dövlət.

**QADİR (القادر):**

Lüğəvi baxımdan "gücü çatmaq, bir şeyin miqdarını təyin etmək, qiymətini bilmək" mənasını verən "qədr" sözündən meydana gəlib, "gücü çatan" deməkdir. Allahın 99 adından (əsmai-hüsna) biri olan bu ad "hər şeyə gücü çatan" mənasını ifadə edir.

**QADİRİLİK (القادرية):**

Şeyx Əbdülqadir Geylani (v. 561/ 1165) tərəfindən qurulan və nəqşbəndilikdən sonra dünyada ən geniş yayılmış sufi təriqəti.

**"QAF" SURƏSİ (سورة ق):**

Quranın 50-ci surəsi. 45 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. "Qaf" hərfi ilə başladığı üçün belə adlandırılmışdır. Surədə ölümdən sonra yenidəndiriliş, bunu inkar edənlərin xəbərdar olunması, iman edənlərin müjdələnməsi, peyğəmbərlərini yalançı sayan qövmlərdən bəzi nümunələr verilərək, bunların xatırlanması, qövmünün Həzrət Peyğəmbəri inkar etməsi və sərt davranışlarına qarşı ona təlqin edilən təsəlli, inkar edənlərin axirətdəki cəzaları və inananlara veriləcək mükafatlardan bəhs edilir.

**QAFQAZ ALBAN KİLSƏSİ:**

Qafqaz Albaniyasında IV əsrdə Xristianlığın dövlət dini elan edilməsi ilə yaranan Xristian Kilsəsi. Eranın birinci əsrindən etibarən Müqəddəs Faddey, Müqəddəs Varfolomey və Müqəddəs Yelisey kimi həvarilər və onların şagirdlərinin fəaliyyəti nəticəsində Qafqaz Albaniyasında yayılan Xristianlıq Albaniya hökmdarı Urnayr tərəfindən 313-cü ildə dövlət dini elan edilmişdir. Çar I Nikolayın Fərmanı ilə 1836-cı ildə erməni-qriqorian kilsəsinin idarəçiliyinə daxil edilərək müstəqil fəaliyyəti dayandırılan Alban Kilsəsi Alban Udi Xristian İcması kimi 2003-cü ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin qeydiyyatından keçmişdir.

**QALÜ BƏLA (قالوا بلى):**

Ərəb dilində "Bəli – dedilər" mənasını ifadə edir. Bu, bəşəriyyətin ilk yaradılışı əsnasında Allahın "Mən sizin Rəbbiniz deyiləmmi?" xitabına ruhların verdiyi cavabdır ("Əraf", 7/172). "Bəzmi-ələst" kimi də məşhur olan bu xüsus "ruhların Allahın sualına cavab verdiyi məclis" mənasını verir. Dini ədəbiyyatda bu dialoq və ya əhd "misaq", "bəla əhdi", "bəzmi-əzəl" kimi terminlərlə də ifadə edilir.

**“QARİƏ” SURƏSİ (سورة القارعة):**

Quranın 101-ci surəsi. 11 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədə keçən “qariə” (ürəkləri dəhşətə salan qiyamət) sözündən alınmışdır. Surədə qiyamət günü və cəhənnəm haqqında qısaca bəhs edilir.

**QASR (القصر):**

Lüğəvi baxımdan “qısaltmaq” mənasını verir. Termin olaraq kəlmənin hər hansı bir hərfinin uzadılmadan oxunmasına “qasr” deyilir. Təcviddə “qasr” termini iki mənada işlədilir: a) Hərfin heç uzadılmadan hərəkəsinə görə oxunması. b) Hərfin 1 əlif miqdarı uzadılaraq oxunması. Belə olduğu təqdirdə, təbii məddə də qasr demək mümkündür.

**“QAŞİYƏ” SURƏSİ (سورة الغاشية):**

Quranın 88-ci surəsi. 26 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki “ğaşiyə” (dəhşəti hər yeri əhatə edən qiyamət günü) sözündən alınmışdır. Surədə cənnət və cəhənnəm səhnələrinə qısaca yer verilir.

**QAYATRİ (Qayatri-Mantra):**

Rig-Vedada keçən Hinduizmin ayinlərində oxunan ən məşhur ilahilərindən biri.

**QAZIƏSGƏRLİK:**

İslam tarixində hərbi məsələlərlə əlaqəli hökmvermə səlahiyyəti olan ordu qazısının fəaliyyət göstərdiyi qurum. Qazıəsgərlik bir qurum kimi ilk dəfə xəlifə Ömər ibn Xəttab dövründə təsis edilmiş, Əbüd-Dərda “qazilcünd” (ordu qazısı) təyin olunmuşdur. Qazıəsgərlik qurumu digər İslam və Türk İslam dövlətlərində də mövcud olmuşdur.

**QEYBƏT/MEHDİ (الغيبة):**

İmamilikdə mövcud olan “Mehdi” əqidəsi ilə bağlı bir inanc. Ərəb dilində “gizlənmə, gözdən itmə” mənasına gələn “qeybət” kəlməsi terminoloji mənada imamiliyin 12-ci imamı Məhəmməd ibn Həsənin qeybə çəkildiyini və Qiyamətdən əvvəl yer üzünə dönüb ədaləti bərpa edəcəyini bildirir. İmamiliyə görə, 12-ci imam “Mehdi”dir. O, hicri 260-cı (miladi 874) ildə qeybə çəkilmiş, təyin etdiyi səfirləri vasitəsilə öz tərəfdarları ilə əlaqə qurmuşdur. Bu hal 329-cu ilin 15 şaban tarixinədək (miladi 15 may 941) davam etmişdir. Bu dövrə imamilikdə “qeybəti-süğra”, yəni “kiçik qeybət” dövrü deyilir. Sonuncu səfir Əli ibn Məhəmməd əs-Səmərrinin 941-ci ildə vəfatı ilə yanaşı, artıq 12-ci imamın öz tərəfdarları ilə əlaqəsi kəsilmişdir. Mehdinin zühurunadək davam edəcək bu dövrə “qeybəti-kübra” (böyük qeybət) deyilir. İmamiliyə görə, 12-ci İmam qiyamətdən əvvəl ilahi əmrlə zühur edərək, zülmlə dolmuş dünyada ədaləti bərqərar edəcəkdir. Qeybət düşüncəsi fərqli şəkillərdə şiəliyin müxtəlif qollarında mövcud olmuşdur.

**QEYLANİLİK (الغيلانيّة):**

Qədəriyyə məzhəbinin yaranmasına zəmin hazırlayan alimlərdən biri olan Qeylan əd-Diməşqinin (v. təqribən, 120/738) fikirlərini mənimsəyənlərə verilən ad. Mənbələrdə qədəriyyənin Məbəd əl-Cühənidən (v. 83/702 [?]) sonra ikinci önəmli nümayəndəsi hesab olunan əd-Diməşqi fatalizmi rədd etmiş, qədərin, şər və ya xeyir olmasından asılı olmayaraq, insanın öz azad iradəsi ilə etdiyi hərəkətlərdən ibarət olduğunu müdafiə etmişdir. Əməvilərə qarşı müxalif fikirləri olan Qeylan əd-Diməşqi xəlifə Hişam ibn Əbdülməlikin dövründə (miladi 724-743) edam olunmuşdur.

**QEYNÜQƏOĞULLARI (بنو قينقاع):**

Məhəmməd peyğəmbərin hicrəti əsnasında Mədinədə yaşayan üç yəhudi qəbiləsindən biri. Mədinə Müqaviləsinin tərəf-müqabillərindən biri olan Qeynüqəoğulları Bədir döyüşündən sonra müsəlmanlara qarşı nalayiq davranışları ilə müqaviləni pozdu və 624-cü ildə müsəlmanların onbeşgünlük mühasirəsindən sonra təslim oldu. Qeynüqəoğulları ilə müttəfiq olan Xəzrəc qəbiləsinin rəisi Abdullah ibn Übeyin vasitəçiliyi nəticəsində onların Mədinədən sürgün edilməsi qərarı verildi. Bir müddət Vadilqürada qalan Qeynüqəoğulları Suriya yaxınlığındakı Əzriatda məskunlaşdı.

**QEYSƏR (قيصر):**

Yunanmənşəli "kaisar" sözünün ərəblər tərəfindən bir titul kimi Roma və Bizans imperatorları üçün istifadə olunması.

**QƏBN (الغبن):**

İkitərəfli müqavilələrdə satılan malla əvəz arasında dəyər baxımından fərq yaranması. Burada tərəflərdən birinin aldatma və ya yanıltmağa təşəbbüs etməsi, malın və ya əvəzin qüsur və nöqsanlarını gizləməyə çalışması əsasdır. Aldatma və aldanmanın qarşısını almaq üçün müqavilələrdə tərəflərə müxəyyərlik, yəni müqaviləni ləğvetmə imkanı verilmişdir. Müəyyən müddətə məhdud olan müxəyyərlik müqavilə əsnasında bildirilməyən və ya gizlədilən qüsurun sonradan məlum olması ilə müqaviləni ləğvetmə haqqıdır. İslam hüququnda qəbn hökmü baxımdan iki qismə ayrılır. Birincisi, "qəbni-fahiş" olub, "böyük qəbn" mənasındadır. Bu, tərəflərin razı olmayacağı və müqaviləni ləğvetmə haqqı verən qəbndir. İkincisi, "qəbni-yəsir", yəni kiçik qəbndir. Bu isə cəmiyyətdə təbii qarşılanan və qaçılmaz qəbn olub, müqavilənin səhihliyinə təsir etməz.

**QƏDƏRİLİK (القدريّة):**

İnsanın məsuliyyət yaradan hərəkətlərini, ancaq öz azad iradəsi ilə etdiyini və burada heç bir ilahi müdaxilənin olmadığını irəli sürən məzhəb. Sünni mənbələrində tənə ifadəsi kimi mötəzilə məzhəbinə də bəzən "qədərilik" (qədəriyyə) deyilmişdir.

**QƏDİRXUM (غديرخم):**

Məkkə ilə Mədinə arasında yerləşən Cühfə məntəqəsindən 4 km uzaqlıqda bataqlıq bir ərazi. Şiələrə görə, Məhəmməd peyğəmbər hicrətin 10-cu ilinin zilhiccə ayının 18-də (miladi 17 mart 632) Vida həccindən geri qayıdarkən karvanın Qədirxumda dayanmasını əmr etmiş və orada Əli ibn Əbu Talibin ilahi əmrlə xəlifə təyin olunduğunu insanlara bildirmişdir. Şiəliyin müxtəlif qollarında bu gün bayram kimi qeyd olunur.

**"QƏDR" SURƏSİ (سورة القَدر):**

Quranın 97-ci surəsi. 5 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surə Quranın ilk nazil olduğu Qədr gecəsindən bəhs edildiyi üçün belə adlandırılmışdır.

**QƏFFAR (الغفار)/QƏFUR (الغفور):**

Allahın adlarındandır. Bu kəlmələr ərəb dilində "ğəfərə" feilindən meydana gəlib, "örtmək, gizləmək, bir şeyin kirlənməsinin qarşısını almaq üçün üstünü örtmək" mənalarına gəlir. Qurani-Kərimdə 230 yerdə "ğəfərə" kökünün müxtəlif formaları Allaha aid edilir. Hər iki kəlmə termin olaraq "çox bağışlayan, günahları tez-tez örtən" mənasını ifadə edir. İslam alimlərinin bəziləri "Qəffar"ın "günahları dünyada örtən", "Qəfur"un isə "bəndələrini axirətdə bağışlayan" mənasına gəldiyini ifadə etmişlər.

**QƏHHAR (القهّار):**

"Allahın adlarından (əsmai-hüsnadan) biri. Bu kəlmə lüğəvi baxımdan "qalib gəlmək, gücündən istifadə edərək istədiyini həyata keçirmək" mənalarına gəlir. Qurani-Kərimdə "Qəhhar", Allahın "Vahid" ismi ilə birlikdə qeyd edilir. "Qəhhar" mənasını ifadə edən "Qahir" kəlməsi də əsmai-hüsnadan hesab edilir.

**QƏLB (القلب):**

"Çevrilmə", "dəyişmə", "könül", "vicdan" və s. lüğəvi mənaları mövcuddur. Sufi ədəbiyyatında insanın mahiyyətini təmsil edən, ilahi sifətlərin təcəlligahı və maddə ilə mənanın birləşdiyi yerdir.

**"QƏLƏM" SURƏSİ (سورة القَلم):**

Quranın 68-ci surəsi. 52 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki "qələm" sözündən alınmışdır. Surədə Həzrət Peyğəmbərin doğru yolda olması, həmçinin mükəmməl əxlaqa sahib olması, ona qarşı çıxanların söz aparıb-gətirməsi, yaxşılığa qarşı çıxması, qeyri-əxlaqi yolda olmasından bəhs edilir.

**QƏLİLİ-HƏDİS (قليل الحديث):**

İslam Peyğəmbərindən az hədis nəql edən ravilərə verilən ad. Lüğəvi mənası "az hədisi olan"dır. Bu, ravilərin az hədis bildiyi mənasına deyil, say baxımından az hədis rəvayət etdiyi mənasını verir. Məsələn: Əbu Bəkr

ibn Əbu Qühafə “qəlili-hədis” hesab edilir. O, uzun illər Həzrət Peyğəmbərin yanında olduğu halda, ondan yalnız 142 hədis nəql etmişdir.

**QƏLQƏLƏ (القلقلة):**

Lüğəvi baxımdan “hərəkət etmək, titrətmək, silkələmək” mənalarını verir. Termin olaraq güclü bir səs eşidilənədək məxrəcin titrədilməsinə “qəlqələ” deyilir. Qəlqələ xüsusiyyəti olan hərflərin sayı beşdir: ب، ج، د، ط، ق. Bu hərflərin daha asan yadda qalması üçün onları aşağıdakı kəlmələrdə toplamışlar: قُطْبُ جَدٍ . Bu hərflər yalnız sükunlu olduqları zaman qəlqələ xüsusiyyəti üzə çıxır. ب “bə” hərfi dodaqlar vasitəsilə tələffüz edildiyi üçün sükunlu halda tələffüz edilərkən dodaqlar bir-birinə şiddətli şəkildə çırpılır. ج “cim”, د “dəl”, ط “ta”, ق “qaf” hərfləri isə dil vasitəsilə tələffüz edildiyinə görə, sükunlu halda tələffüz edilərkən dil həmin hərflərin məxrəcinə şiddətli şəkildə çırpılır. Hər iki halda yaranan səs qəlqələ səsidir.

**“QƏMƏR” SURƏSİ (سورة القَمر):**

Quranın 54-cü surəsi. 55 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədə keçən ay mənasındakı “qəmər” (ay) sözündən alınmışdır. Surədə, əsasən, qiyamət səhnələrindən bəhs edilir, müşriklərin aqibəti haqqında xəbər verilir.

**QƏRAİBİ-TƏFSİR (غرائب التفسير):**

Quran ayələrinin nə ləfz, nə də məna baxımından əlaqələndirilməsi mümkün olmayan uzaq bir mənaya yozulması.

**QƏRANİQ (الغرانيق):**

Ərəbcədə “qu quşu” və ya “durna”, həmçinin “gənc və gözəl qız” kimi mənaları ifadə edən “ğurnuq” sözünün cəmidir. Cahiliyyət dövrü ərəbləri tərəfindən “büt” mənasında istifadə olunurdu. Yaqut əl-Həməvinin bildirdiyinə görə, Qüreyş qəbiləsi bütlərin Allahın qızları olduğuna inanır və Kəbəni təvaf edərkən, “Lat, Üzza və digər üçüncüsü Mənat hörmətinə... Bu üçü ulu qu quşlarıdır və şübhəsiz, onlar şəfaəti umulan varlıqlardır”, – söyləyərək onları yüksəkdə uçan quşlara bənzədirdilər. “Qəraniq” termini İslam ədəbiyyatına Həzrət Peyğəmbərin müşriklərin könlünü İslama isindirmək üçün söhbət əsnasında şeytanın təlqini ilə vəhylərə Allah kəlamı olmayan bəzi sözlər qarışdırdığı və daha sonra Cəbrailin xəbərdarlıq etməsi ilə bu sözlərdən vaz keçdiyini iddia edən rəvayətlər səbəbilə daxil olmuş və “Nəcm” surəsi ilə (53/19-20) “Həcc” surəsindəki (22/52-54) ayələrin nazil olmasına səbəb olan müzakirələrin əsas mövzusuna çevrilmişdir. İslam tarixində geniş müzakirələrə səbəb olan “Qəraniq hadisəsi” təfsir, siyər və İslam tarixi kitablarında araşdırılmış, bu mövzuda bəzi müstəqil əsərlər qələmə alınmışdır.

**QƏRİBİ-QURAN (غريب القرآن):**

Lüğəvi baxımdan “yurdundan uzaq qalan, mübhəm, qapalı olan, qərib”

kimi mənaları ifadə edir. Termin kimi ümumişlək olmaması səbəbilə mənası lüğətlərə müraciət edilmədən bilinməyən sözləri incələyən təfsir sahəsidir. Quranda ərəb ləhcələrindən və digər dillərdən alınmış və ərəbləşmiş kəlmələr də mövcuddur. Təfsir elmində bu cür kəlmələri incələyən araşdırma sahəsinə “Qəribul-Quran” deyilir. Bu cür kəlmələrin izahında, əsasən, qədim ərəb şeirlərindən istifadə edilmişdir.

**QƏRİNƏ (القرينة):**

Mühakimə prosesində bir iddianı sübut etmək üçün iki hadisə arasında əlaqə quraraq əldə edilən dəlil. Burada iki hadisənin yaxın əlaqədə olub, birinin digərini işıqlandırması şərtdir. Qərinə qəti dəlil sinfinə daxil olan mühüm sübut vasitəsidir. Qərinənin şəri əsasını sübut etməyə çalışan fəqihlər Qurani-Kərimdəki Həzrət Yusifin hekayəsində onun köynəyinin arxa tərəfdən cırılmasının bir qərinə olaraq təqdim olunmasını misal gətirir.

**QƏRMƏTİLİK və ya QƏRAMİTƏ (القرامطة):**

İsmaililiyin ifrat qollarından biri. “Qərməti” adı Kufədə fəaliyyət göstərən ismaili dəvətçilərindən (dai) biri olan Həmdan ibn Əşəs Qərmətin (v. 293/906) ləqəbi olan və arami dilinin məhəlli ləhcələrinin birində “hiyləgərlik” mənasına gələn “qərmət” sözündən götürülmüşdür. İlk dəfə hicri 255-ci ildə (miladi 869) Abbasilərə qarşı təşkil edilmiş “zənc” (zəncilər) üsyanında meydana çıxan qərmətilər daha sonrakı dövrlərdə bir çox üsyan təşkil etmiş, hətta Əbu Səid əl-Cənnabinin (v. 311/923) başçılığı altında Bəhreyndə dövlət qurmağı, İraq, İran, Yəmən və Şimali Afrikada silah gücü ilə və təbliğatla xeyli insanı öz tərəflərinə çəkməyi bacarmışlar. Bəzi məzhəblər tarixi mənbələrində qərmətilərin batini əqidəyə əsaslandıqlarını, kainat anlayışında neoplatonizmin təsirində qaldıqlarını, Əbu Səid əl-Cənnabinin dövründən etibarən namaz, oruc və digər ibadətləri yerinə yetirmədikləri, hətta məscidləri sökdüklərini, həcc ziyarətini Kəbənin əvəzinə Bəhreyndəki “Həcər” adlanan yerdə etdiklərini iddia edir. Əbu Səidin oğlu Əbu Tahir əl-Cənnabinin dövründə hicri 317-ci ildə (miladi 930) qərmətilər həcc mövsümündə Kəbəyə hücum edərək minlərlə hacını öldürmüş, “qara daşı” (həcərüləsvəd) özləri ilə apararaq Həcərə aparmış və iyirmi il orada saxlamışdılar.

**QƏSB (الغصب):**

Başqasına aid bir malı zorla almaq. Qəsb edilən mal sahibinə qaytarılar, əgər istehlak edilmiş və ya tələf olubsa, əvəzi ödənər. Qəsb edilən malın müəyyən bir dəyərə sahib olması şərtdir. Leş, qan və bənzəri dəyərsiz mallar qəsb hesab olunmaz.

**“QƏSƏS” SURƏSİ (سورة القَصص):**

Quranın 28-ci surəsi. 88 ayədən ibarətdir. Məkkə dövründə nazil olub.

Surədə Musa Peyğəmbərlə əlaqəli bir çox hadisələr yer aldığı üçün ona qissələr mənasında "Qəsəs" adı verilmişdir.

**QƏSƏSİ-QURAN (قصص القرآن):**

Lüğəvi baxımdan "danışılan, nəql olunan hekayə, keçmişlərə aid xəbər" kimi mənaları ifadə edən "qissə" sözünün cəmi olan "qəsəs" sözü ilə Quran sözlərinin birləşməsindən əmələ gələn bu termin Quranda Həzrət Peyğəmbərin zamanı da daxil olmaqla, keçmiş ümmətlərin və peyğəmbərlərin başına gələn hadisələrdən bəhs edən Quran bölmələrini (Quran qissələri) ifadə edir.

**QƏSSANİLƏR (الغسانيون):**

Suriyada 200-636-cı illərdə hakimiyyətdə olan xristian ərəb dövləti. Xristianlığı qəbul etdikdən sonra Bizansın vassalına çevrilən Qəssanilər II Haris ibn Cəbələnin (529-569) dövründən İslamın gəlişinədək Bizansın bir əyaləti kimi idarə olundu. Məhəmməd peyğəmbərin 629-cu ildə Qəssanilərin Büsra əmiri Şürəhbil ibn Əmrə göndərdiyi elçinin Mutədə öldürülməsi nəticəsində Qəssanilərə qarşı 630-cu ildə Təbük səfəri təşkil olunmuşdur.

**QƏTİ DƏLİL (bürhani-qəti).**

**Bax: BÜRHAN.**

**QƏZA (القضاء):**

Yerinə yetirilməyən bir ibadətin vaxtı ötdükdən sonra yerinə yetirilməsi. İbadətin qəsdən, yoxsa unudularaq tərk edilməsi halında qəza edilib-edilməməsi ixtilafa səbəb olmaqla yanaşı, alimlər tövbə edərək ibadətləri qəza etməyi tövsiyə etmişlər. Haqlı bir səbəbə görə ibadətin tərk edilməsi günah olmadığı halda, səbəbsiz yerə ibadətin tərk edilməsi günahdır. Fiqh kitablarında namazın qəza edilməsinə daha geniş yer verilmişdir. Şübhəsiz, bunun səbəbi namazların daha çox qəzaya qalmasıdır. Bununla birlikdə, oruc və həcc ibadətlərinin qəzasının da təfsilatlarına fiqh kitablarında yer verilmişdir.

**QƏZA VƏ QƏDƏR (القضاء و القدر):**

"Qədər" Allahın əzəli biliyi ilə bütün hadisələri bilib təqdir və təyin etməsi, "qəza" isə ilahi təqdirin zamanı gələndə həyata keçməsidir. Bəzi alimlər bu iki kəlməni bir-birinin əvəzinə istifadə etmişlər. "Qədər" kəlməsi fərqli mənalarla Qurani-Kərimdə 100 dəfədən çox qeyd edilir. Allahın elm, iradə və qüdrətini ifadə edən bu kəlmə İslamın inanc əsaslarından biridir. Əhli-sünnə alimləri bəndənin hər növ hərəkətini (əfali-ibad) qədərə aid edir, lakin mötəzilə alimləri bəndənin məsuliyyət tələb edən hərəkətlərini (əfali-ixtiyariyyə) bundan istisna edir.

**QƏZF (القذف):**

Namuslu bir insana zina isnad etmək. Orta əsr İslam hüququnda cinayət hesab olunan qəzfin cəzası səksən çubuqdur. Qəzf cinayətinin meyda-

na gəlməsi üçün üç ünsürün olması şərtdir. Bunlar: zina isnad edilməsi, iftira atılan şəxsin namuslu olması və iftiranın qəsdən atılmasıdır. Bu şərtlər meydana gəlmədiyi təqdirdə, hədd cəzası tətbiq olunmaz.

**QƏZNƏVİLƏR (الغزنويون):**

Adını dövlətin paytaxtı Qəznə şəhərindən alan və 963-1186-cı illərdə Xorasan, Əfqanıstan və Şimali Hindistanda hakimiyyətdə olmuş türk-müsəlman dövləti. Samani dövlətinin Xorasan ordularının komandiri Alp Təkin tərəfindən əsası qoyulan Qəznəvilər ən qüdrətli dövrünü Səbuk Təkinin oğlu Sultan Mahmud dövründə yaşamışdır. 1025-1026-cı illərdəki Somnat səfəri başda olmaqla Sultan Mahmudun Hindistana təşkil etdiyi on yeddi hərbi yürüş İslamın bölgədə yayılmasında mühüm rol oynamışdır. 1030-cu ildə Sultan Mahmudun vəfatından sonra taxt uğrunda mübarizədə öz qüdrətini itirən Qəznəvilər dövləti 1186-cı ildə Qurilər tərəfindən süqut etdirildi.

**QƏZVƏ (الغزوة):**

İslam tarixində Məhəmməd peyğəmbərin ordu komandiri kimi iştirak etdiyi hərbi yürüşlər və döyüşlər üçün istifadə olunan termin. Ordudakı əsgər sayı, yürüşün məqsəd və nəticəsindən asılı olmayaraq, Məhəmməd peyğəmbərin 26-27 qəzvədə iştirak etdiyi mənbələrdə qeyd olunur. Bədir, Qeynüqə, Uhud, Bəni Nəzir, Xəndək, Qüreyzə, Xeybər, Hüneyn, Taif və Təbük məşhur qəzvələrdəndir.

**QİBTİ (قبطي):**

Misirin yerli xristian xalqı üçün istifadə olunan termin.

**QİRAƏT (القراءة):**

“əl-Qiraətu” (القِرَاءَةُ) kəlməsi “oxumaq” mənasını ifadə edən “qaraə” (قَرَأَ) felinin məsdəridir. Cəm forması “əl-qiraatu” (القِرَاءَاتُ) şəklində işlənir. “Qiraət” Quran kəlmələrinin necə oxunması və ravilərin rəvayətləri əsasında bu kəlmələrin fərqli oxunuş qaydalarına deyilir. Başqa bir tərifə görə “qiraət” məd, qasr, hərəkə, sükun, nöqtə və erab kimi eyni kəlmə üzərində meydana gələn dəyişikliyə deyilir. Qiraətlər həm səhihliyi, həm də sənədləri baxımından müxtəlif növlərə ayrılır. Səhihliyi baxımından qiraətlər iki yerə ayrılır: səhih və səhih olmayan qiraətlər. Səhih qiraətlər səhih və müttəsil bir sənədlə Məhəmməd peyğəmbərə qədər gedib-çatan, ərəb dili qrammatikasına və kitabət baxımından Osman müshəflərinə uyğun olan qiraətlərə deyilir. Səhih olmayan qiraətlər isə səhih qiraətlərin hər hansı bir şərtinə uyğun olmayan qiraətlərə deyilir.

**QİRAƏTİ-ƏŞƏRƏ (القراءات العشرة):**

“Qiraəti-səbəyə daha üçü əlavə edilməklə meydana gələn qiraət “qiraətiəşərə” (on qiraət) adlanır. Əlavə edilənlər Yaqub əl-Həzrəmi, Xələf ibn Hişam ibn Sələb və Əbu Cəfər ibn əl-Qəqənin qiraətləridir.

**QİRAƏTİ-SƏBƏ (القراءات السبعة):**

Yeddi məşhur qiraət imamına aid edilən mütəvatir qiraətlərə "qiraəti-səbə" deyilir. Məkkədə Abdullah ibn Kəsirin, Mədinədə Nafinin, Şamda İbn Amirin, Bəsrədə Əbu Əmr və Yaqubun, Kufədə isə Həmzə və Asimin qiraətləri məşhur olmuşdur. Hicri III əsrdə Əbu Bəkr ibn Mücahid (v. 935) bu qiraətləri bir yerə toplamış, onları "Yeddi qiraət" olaraq təsis etmiş, Yaqub əl-Həzrəminin yerinə yeddinci qiraət imamı olaraq Kisaini seçmişdir.

**QİRAN HƏCCİ (حج القران):**

Həm həcc, həm də ümrə etmək üçün niyyət edərək həcc ayları daxilində bir ehramla hər iki ibadəti yerinə yetirmək. Qiran Həccinə niyyət edən şəxsin afaqi olması şərtdir və miqat sərhədlərində yaşayanların Qiran həcci etməsi caiz deyildir. Qiran həccinin başqa bir şərti isə ümrə və həccin eyni il içərisində olmasıdır.

**QİSAS (القصاص):**

Adam öldürmə və yaralama cinayətlərinə verilən cəza. Qisasın cəzasında cinayətin eynisi cinayətkara tətbiq olunur. Qisas cəzasının əsas şərti cinayətin qəsdən törədilməsidir. Fəqihlər qəsdin müəyyənləşdirilməsi üçün ölçülər təyin etmişlər. Bu halda zərərçəkənin tələbinə əsasən, qisas cəzası tətbiq edilə və diyə ilə əvəz oluna bilər. Qəsdin aşılması halında isə qisas cəzası tətbiq olunmaz, diyə tələb edilər. Hər iki halda zərərçəkən və vəlisi cinayəti bağışlama haqqına sahibdir.

**QİSSƏ (القصة).**

**Bax: QƏSƏSİ-QURAN.**

**QİYADƏ (القيادة):**

Cahiliyyət dövründə Məkkədə ordu komandirliyi və karvan başçılığı üçün istifadə olunan termin. Kəbəyə xidmətlə əlaqəli Qüsey ibn Kilab dövründən yaradılmış vəzifələrdən biri olan qiyadə varislik yolu ilə Əbdüddar, Əbdülmənaf və Əbdüşəms oğullarına keçmiş, Məkkə fəthinədək bu ailədən Ümeyyə, Hərb və Əbu Süfyan tərəfindən yerinə yetirilmişdir. Məkkənin fəthindən sonra Kəbə ilə əlaqəli "siqayə" və "hicabə" xaric, digər vəzifələrlə birlikdə "qiyadə" də ləğv olunmuşdur.

**QİYAMƏT (القيامة):**

Dirilib məzardan qalxmaq və Allahın hüzurunda durmaq, həmçinin bu hadisənin başlanğıcını təşkil edən "kosmik dəyişikliklərin həyata keçməsi" mənasını verir. Qurani-Kərimdə qiyamət həm dünyanın sonunu, həm də axirəti ifadə edir. "Saat", "üqba", "məad", "hafidə", "sahha" kimi kəlmələr Qiyamətin sinonimi kimi ayə və hədislərdə qeyd edilir.

**"QİYAMƏT" SURƏSİ (سورة القيامة):**

Quranın 75-ci surəsi. 40 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki "qiyamət" sözündən alınmışdır. Surədə, əsasən,

qiyamətin başlanğıcı və bəzi səhnələri təsvir olunur.

**QİYAS (القياس):**

Haqqında açıq hökm olan bir məsələnin hökmünü aralarındakı müştərək illət səbəbindən haqqında açıq hökm olmayan məsələyə vermək. Qiyas əsli dəlillərdən biri olub, forması müxtəlif olmaqla, fəqihlərin əksəriyyəti tərəfindən qəbul edilmişdir. Qiyası qəbul etməyənlər, əsasən, ağlın dinin hökmlərinə qarışmasını təhlükəli görürlər. Qiyası qəbul edənlər isə öz fikirlərini ayə, hədis və ilk dövr alimlərinin tətbiqlərindən dəlillərlə dəstəkləyirlər. Qiyas yeni ortaya çıxan məsələlərə hökm əldə etmə metodudur. Burada illətin təyin edilməsi ağlın ən çox istifadə olunduğu məqamdır. İllətin doğru təyin edilməsi əsl ilə fər arasındakı müştərəkliyi müəyyənləşdirir. İslamın ümumbəşəri olmasının əsas şərtlərindən biri də onun hər dövrdə aktual məsələlərə hökmlər gətirməsidir. Bu isə qiyas və bənzəri ictihad metodlarıdır.

**QİYASÜLQAİB ƏLƏŞŞAHİD (قياس الغائب على الشاهد):**

Kəlam elmində mütəqəddimun dövründəki alimlərin müraciət etdiyi "qiyasülqaib ələşşahid", istidlal (dəlil əldə etmək) metodlarından biridir. Məna baxımından, "görünənə əsaslanaraq görünməyəni təyin etmək" deməkdir. Burada "qaib" hiss orqanlarının təsbit edə bilmədiyi varlıq sahəsini ifadə edir. "Şahid" isə hiss orqanlarının əhatəsindəki sahəni təmsil edir. Bu metoda əsasən, şahiddə mövcud olan hər hansı bir dəlil və ya xüsusiyyət (illət) qaibdəki araşdırılan mövzuya tətbiq edilir.

**QLOBALLAŞMA (globalization):**

Dünyanın iqtisadi, siyasi, mədəni və dini baxımdan inteqrasiyası, ahəngləşməsi prosesi. Amerikalı sosioloq Roland Robertsonun (1938-) geniş qəbul olunan tərifinə görə, qloballaşma iqtisadi, siyasi, mədəni və digər beynəlxalq əhəmiyyətli amillərin ayrı-ayrı ölkələrdə sosial gerçəkliyə artan təsirini ifadə edir. Qloballaşma prosesi inkişaf etdikcə beynəlxalq müstəvidə ölkələrin qarşılıqlı asılılığı getdikcə artır. Modernləşmə, sekulyarizasiya, qlobal inteqrasiya ilə bağlı bir termin kimi qeyd edilən qloballaşma bir tərəfdən homogenlik, digər tərəfdən müxtəliflik və heterogenliklə səciyyələndirilir. Dialektik proses olan qloballaşmaya qarşı həm Avropada, həm də İslam dünyasında müxtəlif etirazlar səsləndirilir. Bu, ilk növbədə, milli özünəməxsusluqların və milli kimliyin qorunub saxlanması ilə bağlıdır. Qloballaşma prosesində din mühüm rol oynayır: din bu prosesdə həm qloballaşdırıcı bir amil kimi çıxış edir, eyni zamanda, qloballaşmadan təsirlənərək ictimai əhəmiyyətini nisbətən itirir.

**QNOSTİSİZM (gnosticisme):**

Yunanca "gnostikos"dan "biliyi dərk etmə" mənasında "qnostisizm"

Mahixeizmin, Ellin dövrü İudaizminin, erkən dövr Yəhudi-Xristian ənənəsinə aid müxtəlif dini-fəlsəfi təlimlərin ümumiləşdirilmiş adı. Tanrı, dünya, insan və onlar arasındakı münasibətləri müqəddəs gizli bilik doktrinası əsasında izah edən qnostik ənənələrdə xeyir-şər, işıq-zülmət, maddə-ruh dualizmi, qurtuluş üçün ezoterizm, dünyəvilikdən uzaqlaşmaq kimi inanclar mühüm yer tutur. Sabiilik, Manixeizm, Hermetizm kimi qnostik dinlərin bir çoxuna görə, maddi dünyanın yaradılışı mənfi xüsusiyyət daşıdığı üçün ondan yalnız mənəvi bilik (qnosis) sayəsində qurtulmaq mümkündür.

**QRANTHİ:**

Siqhizmin dini mərasimlərində müqəddəs kitab Adi Qranthı oxumaqla vəzifələndirilmiş şəxs üçün istifadə olunan termin. Siqhizmə görə, hər hansı bir sıravi siqhə qranthi olaraq mərasimdə dini mətni oxuma səlahiyyəti verlə bilər.

**QURAN (القرآن):**

Həzrət Məhəmmədə vəhy vasitəsilə nazil olan, müshəflərə yazılan, təvatürlə nəql olunan, “Fatihə” surəsi ilə başlayıb, “Nas” surəsi ilə bitən, oxunuşu ilə ibadət edilən möcüzəvi kəlam. İslam etiqadının, mədəniyyətinin və şəriətinin ən mühüm yazılı mənbəyi.

**QURAN SEMANTİKASI:**

“Semantika” sözlər və onların ifadə etdiyi mənalar arasındakı əlaqəni araşdıran elmin adıdır. Semantika dilin ən kiçik ünsürü olan sözün etimoloji mənasından başlayaraq, onun dildə digər kəlmələrlə yaratdığı məna əlaqəsini və zaman içərisində keçirdiyi məna dəyişikliklərini araşdıran elm sahəsidir. Quran semantikası termini ilə bu metodun Quran ayələrinə və sözlərinə tətbiq olunması nəzərdə tutulur.

**QURANİYYUN (القرآنيون).**

**Bax: ƏHLİ-QURAN MƏKTƏBİ.**

**QURBAN (الأضحيّة):**

Müəyyən vaxtda bəzi heyvanların Allah rizası üçün kəsilməsi. Qurbanın vacib olmasının ilkin şərti nisab miqdarıdır. Müəyyən zənginlik həddində olan şəxsin qurban kəsməsi bəzi fəqihlərə görə vacib, bəzilərinə görə isə müəkkəd sünnədir. Qurban deyildikdə, əvvəla, Qurban bayramında qurban kəsmək anlaşılmaqla birlikdə, qurbanın başqa növləri də mövcuddur. Nəzir qurbanı, uşağın dünyaya gəlməsi münasibətilə şükür etmə nişanəsi kimi əqiqə qurbanı, həcc və ümrədə kəffarə qurbanı, təməttü və qiran Həccində şükür qurbanı bunlardan əsaslarıdır. Qurbanlıq heyvanlar - qoyun, keçi, inək, camış və dəvədir. Bu heyvanlardan qoyun və keçi bir, digərləri isə yeddi nəfər üçün kəsilə bilər.

**QURDVARA:**

Siqhizmin məbədi üçün istifadə olunan termin. Amritsardakı Qızıl

Məbəd Siqhizmdə mərkəzi qurdvara hesab olunur.

**QURİLƏR (الغوريون):**

1000-1215-ci illərdə Xorasan, Əfqanıstan və Şimali Hindistanda hakimiyyətdə olmuş İslam dövləti. Mərkəzi Əfqanıstandakı Qur bölgəsində məskunlaşmış Şənsəbani qəbiləsinin bölgədə siyasi nüfuzunu gücləndirməsi ilə qurulan Qurilər XII əsrdə Əfqanısan və Hindistanın bir hissəsini ələ keçirərək bölgənin ən güclü dövlətinə çevrilmişdir. İslamın ən gec yayıldığı bölgələrdən olan Qurda İslam mədəniyyətinin yaranmasında Qurilərin böyük rolu olmuşdur. Qurilərin sonuncu qüdrətli hökmdarı Sultan Müizziddinin İsmaili məzhəbinə mənsub bir fədai tərəfindən öldürülməsindən sonra Şənsəbani ailəsindəki parçalanma nəticəsində dövlət zəiflədi və torpaqları Xarəzmşahlar və Dehli Sultanlığı tərəfindən ələ keçirildi.

**QURU:**

Hinduizmə görə, tələbələrə doğru yolu göstərən, dini-əxlaqi kitabları öyrədərək onların ibadətlərinə rəhbərlik edən "müəllim, ustad"; siqhizmə görə, dinin təlimlərini insanlara çatdıran mənəvi rəhbərlər üçün istifadə olunan termin. Siqhizmdə dinin qurucusu və ilk quru Nanakdan etibarən, 10 əsas quru qəbul edilir. 10-cu quru Qobind Sinqhdən sonra quru gəlməyəcəyi qəbul edilir və müqəddəs kitab Quru Qranth Sahib yaşayan quru hesab edilir.

**QUT:**

Qədim türklərdə Tanrının hökmdara bəxş etdiyi qüdrəti ifadə edən termin. Qutun eyni ailə üzvləri tərəfindən davam etdirildiyinə və siyasi-iqtisadi böhranlarla üzləşən hökmdarlardan Tanrının verdiyi qutu geri aldığına inanılırdı.

**QÜDSİ HƏDİS (الحديث القدسي):**

İslam Peyğəmbərinin Allaha istinad etdiyi hədis. Lüğəvi baxımdan "müqəddəs varlığa istinad edilən" mənasını verir. Qüdsi hədisin mənası Allaha, sözləri isə Həzrət Peyğəmbərə aiddir. Qüdsi hədisə "rəbbani" və "ilahi hədis" də deyilir. Qüdsi-hədislərin ayələrdən əsas fərqi ondan ibarətdir ki, ayələr həm kəlmə, həm də məna baxımından Allaha aiddir. Qüdsi hədislərin mənası Allaha aiddir, sözlərini isə Həzrət Peyğəmbər formalaşdırı. Məsələn: Həzrət Məhəmməd Allah-Taalanın belə buyurduğunu nəql etmişdir: "Bəndəm mənə onun üçün fərz (vacib) əməllərdən daha sevimlisi ilə yaxınlaşa bilməz. Bəndəm fərzlərdən əlavə nafilə ibadətlər vasitəsilə mənə yaxınlaşdığı müddətcə onu sevərəm. Mən onu sevdikdə isə onun eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram..." (Buxari, Riqaq 38).

**QÜLAT (الغلاة) və ya QALİYYƏ (الغالية):**

İslam məzhəbləri tarixində ənənəvi İslam əqidəsində mövcud olmayan fikirlərə malik qruplara verilən müştərək ad. Ərəb dilində "həddi

aşmaq" anlamına gələn "qülüvv" sözündən törəyən "qülat" kəlməsi "həddi aşanlar, mötədillikdən uzaqlaşanlar" mənasını verir. İslam tarixi boyunca "qülat"a aid edilən qruplar hülul (inkarnasiya), tənasüx (renikarnasiya), peyğəmbərliyin Həzrət Məhəmmədlə sona çatmaması, təşbih (Allahla məxluqatı bir-birinə bənzətmə) və təcsim (cismani xüsusiyyətləri Allaha aid etmə) kimi inanclara malik olmuşlar. Belə qrupların əksəriyyətində namaz, oruc, zəkat, həcc və digər ibadətlər simvolik şəkildə izah edilir və ənənəvi forması ilə icra olunmur. Orta əsrlərdə özlərini müxtəlif İslam məzhəblərinə aid edən qülat firqələr mövcud olmuşdur. Bunların arasında şiəliyə aid edilən səbəilik, keysanilik, xəttabilik, müğirilik, əlbailik, müfəvvizə, hişamilik və başqa firqələri, xariciliyin yezidilik və meymunilik qollarını, mötəzilədən ayrılmış xabitiliyi, sünniliyin əhl-hədis qolundan ayrılaraq təcsim və təşbih görüşünə meyl edən qrupları nümunə göstərmək mümkündür. Bu qrupların əksəriyyəti zamanla tarix səhnəsindən silinmiş, az bir qismi dövrümüzə qədər gəlib-çıxmışdır.

**QÜNNƏ (الغنّة):**

Lüğəvi baxımdan "burundan gələn səs" mənasını verir. Termin olaraq isə hərf tələffüz edilərkən burun boşluğundan çıxan səs "qünnə" adlanır. م və ن hərfləri bu xüsusiyyəti daşıyır.

**QÜRABİLİK (الغرابية):**

Özünü şiəliyə aid edən ifrat qruplardan biri. "Qürabilik" (qürabiyyə) adı ərəb dilində "qarğa" mənasına gələn "qürab" (غراب) kəlməsindən törəmişdir. Xəttabiliyin alt qollarından sayılan qürabiyyənin iddiasına görə, necə ki iki qarğa bir-birinə çox bənzəyir, eləcə də Məhəmməd peyğəmbərlə Əli ibn Əbu Talib simaca bir-birlərinə çox oxşayırdılar. Buna görə də Mələk Cəbrayıl onları səhv salmış, ilahi vəhyi Əli ibn Əbu Talibin əvəzinə, Məhəmməd peyğəmbərə çatdırmışdır. Qürabilər Əli ibn Əbu Talibi və övladlarını peyğəmbər hesab edir, vəhyi səhvən Məhəmməd peyğəmbərə çatdırdığı üçün Cəbrayılı ittiham edərək övladlarına "Qanad sahibinə (Cəbrayıla) lənət oxuyun", – deyirdilər.

**QÜREYŞ (بنو قريش):**

Ədnanilərin Müzar qolundan Məhəmməd peyğəmbərin də mənsub olduğu qəbilənin adı. Mənşəyi ilə əlaqəli müxtəlif fikirlər olan Qüreyş sözü əsasən Fihr ibn Malik ilə əlaqələndirilir. Uzun müddət Məkkənin ətrafında çadırlarda yarıköçəri tərzdə yaşayan Qüreyş V əsrin əvvəllərində Fihr ibn Malikin nəslindən Qüsey ibn Kilabın başçılığında Məkkədə məskunlaşdı və oturaq həyata keçdi. Qonşu dövlətlər və ətrafdakı qəbilələrlə müqavilələr bağlayan Haşim ibn Əbdümənaf və qardaşlarının təşəbbüsü ilə əkinçiliyə əlverişli olmayan Məkkə beynəlxalq

ticarətə daxil oldu. İslamın yarandığı dövrdə Əbdümənafın nəslindən Haşim, Müttəlib, Növfəl və Əbdüşəms qəbilələri Qüreyşin əsas qolları idi. Qüreyşin İslam dövründə davam edən əsas iki qolu isə Haşimoğulları və Ümeyyəoğulları oldu. Digər dini-siyasi səbəblərlə yanaşı, Məhəmməd peyğəmbərin Qüreyşə mənsubiyyətinə görə 632-1517-ci illərdə xilafət həmin qəbilə mənsubları tərəfindən idarə olunmuşdur.

**“QÜREYŞ” SURƏSİ (سورة القريش):**

Quranın 106-cı surəsi. 4 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki Qüreyş sözündən alınmışdır. Surədə Qüreyş qəbiləsinə verilən nemətlərdən bəhs edilir.

**QÜREYZƏOĞULLARI (بنو قريظة):**

Məhəmməd peyğəmbərin hicrəti əsnasında Mədinədə yaşayan üç yəhudi qəbiləsindən biri. Mədinə Müqaviləsi çərçivəsində Qüreyzəoğullarına da can, mal və din azadlığı təminatı verilmişdir. Həmin müqaviləyə əsasən, Qüreyzəoğulları Mədinənin təhlükəsizliyini təmin etmək, şəhəri müdafiə etmək və müsəlmanların düşmənləri ilə ittifaq qurmamaq şərtlərini qəbul etmişdilər. Qüzeyzəoğulları Xəndək qəzvəsi ərəfəsində məkkəlilərə və onların müttəfiqi olan Xeybərdəki Nəziroğullarına dəstək verməklə müqavilənin şərtlərini pozduqları üçün cəzalandırılmışlar. Sabiq müttəfiqləri Övs qəbiləsindən hakim təyin olunan Səd ibn Müazın Tövrata uyğun olaraq verdiyi (Təsiyə, 20/10-15) və Məhəmməd peyğəmbərin təsdiqlədiyi bu qərara görə, döyüş yaşındakı kişilər öldürülmüş, qadın və uşaqlar əsir edilmişdir.

**QÜSL (الغسل):**

Cünub, heyz və nifas kimi mənəvi kirlilik halında olanların su ilə bədənlərini təmizləməsi. Ehtiyacı olan mükəlləfin qüsl alması vacibdir. Qüslsüz namaz qılmaq, Kəbəni təvaf etmək, Qurana toxunmaq kimi bir çox ibadəti etmək olmaz. Qüsl almaq imkanı olmayan təyəmmüm etməlidir.

# L

**LA İLAHƏ İLLALLAH (لا اله الا الله):**

**Bax: KƏLMEYİ-TÖVHİD.**

**LAHİQ (لاحق):**

İmamla birgə namaza başlamasına baxmayaraq, hər hansı bir səbəbdən namazdan ayrılma məcburiyyətində olub namaza təkrar dönən şəxsdir. Namaz içində dəstəmazın pozulması, yuxu, yaxud digər səbəblərdən imamdan geri qalan şəxs qaldığı yerdən namaza davam edib Quran oxumaz və səhv səcdəsi də etmədən namazını tamamlayar.

**LAT (لات):**

Cahiliyyət dövründə ərəblər arasında ən məşhur bütlərdən biri. Ərəblərin Mənat və Üzza ilə birlikdə ən çox hörmət etdikləri bütlərdən biri kimi Lat Səqifə məxsus olub Taifdə yerləşsə də, ümumilikdə Ərəbistan yarımadasının bütpərəst əhalisi üçün böyük əhəmiyyət daşıyırdı. Taifdəki Lat məbədi üçün xüsusi örtüklü bina inşa olunmuş, məbədlə əlaqəli vəzifələr təsis edilmiş və ətrafında "haram" adlandırılan müqəddəs bölgə təyin olunmuşdur. Lat bütü Məhəmməd peyğəmbərin göndərdiyi Muğirə ibn Şubə tərəfindən ortadan qaldırılmışdır.

**"LEYL" SURƏSİ (سورة الليل):**

Quranın 92-ci surəsi. 21 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki "leyl" (gecə) sözündən alınmışdır. Surədə insanın iki xüsusiyyətindən – səxavət və xəsisliyindən bəhs edilir. Bu xüsusiyyətlər müvafiq olaraq iman və inancsızlıqla əlaqələndirilir.

**LEYYİNÜLHƏDİS (لين الحديث):**

"Yüngüldən-ağıra doğru edilən cərh ləfzləri dərəcəsinə görə birinci mərtəbədə olan ən yüngül və tədilə ən yaxın ləfzlərdən biri" mənasında hədis üsulu termini. "Lin" kəlməsindən meydana gələn "leyyin" kəlməsi lüğəvi baxımdan "yumşaq, asan" mənasına gəlir. Darəqutniyə görə, ravinin ədalət vəsfini ortadan qaldırmayacaq, rəvayətinin rəddinə səbəb olmayacaq qədər yüngül bir cərhi ifadə edir. Bununla yanaşı, "leyyinül-hadis", "fihi lin", "fi hədisihi lin" ləfzləri də eyni mənada işlədilir. Son ikisi daha yüngül cərhə işarət edir. Cərh və tədil elminin sistemində leyyin kimi ən yüngül cərh ifadələrinin olduğu birinci mərtəbədəki ləfzlərlə tənqid edilən ravilərin təkbaşına rəvayət etdikləri hədisləri dəlil dəyərinə malik deyil. Fəqət bu növdəki hədislər tərk edilmir. Mütabi (eyni səhabədən fərqli ravilərlə rəvayət edilən eyni hədis) və

şahid (başqa səhabədən rəvayət edilən eyni hədis) kimi fərqli sənədlərlə rəvayət edilən hədisləri dəstəkləmək üçün yazılıb araşdırılır.

**LƏBBEYK/TƏLBİYƏ ( لَبَّيْكَ/التلبية):**

Zəvvarın ehram geyindikdən sonra, “Əqəbə cəmrəsi”ni daşlayanadək dediyi “Ləbbeyk” sözü ilə başlayan zikr cümləsi. Təlbiyə namazdakı təkbir hökmündə həm Həcc, həm də ümrə ibadətinə aid zikrdir. Həzrət Peyğəmbərin (s.ə.s.) ehram geyinib iki rükət namaz qıldıqdan sonra təlbiyəni belə oxuduğu rəvayət edilir: “لَبَّيْكَ اللَّهُمَّ لَبَّيْكَ لَبَّيْكَ لَا شَرِيكَ لَكَ لَبَّيْكَ إِنَّ الْحَمْدَ وَالنِّعْمَةَ لَكَ وَالْمُلْكَ لَا شَرِيكَ لَك (Ləbbeyk, Allahummə ləbbeyk. Ləbbeykə lə şərikə ləkə ləbbeyk. İnnəl-hamdə vən-nimətə ləkə vəl-mülk, lə şərikə lək): “Rəbbim! dəvətinə sözüm və özümlə pənah gətirdim. Əmrinə boyun əydim. Rəbbim, dəvətinə gəlmək boynumun borcudur. Sənin şərikin və ortağın yoxdur. Rəbbim! Bütün varlığımla Sənə yönəldim. Həmd Sənin, nemət Sənin, mülk Sənindir. Sənin şərikin yoxdur”.

**LƏFZ (اللفظ):**

Hərfi olaraq “ağızdakı bir şeyi çölə çıxarma” mənasında işlədilən termin. Terminologiyada isə “insanın hər hansı bir mənanı ifadə etməsi üçün müəyyən səs və işarə olaraq hərflərlə ortaya çıxardığı söz” mənasını ifadə edir.

**LƏFZƏTULLAH (لفظة الله):**

“Allah” sözünü ifadə edən termindir. Daha çox qiraət elmində “Allah” sözünün oxunuşu üçün istifadə edilir.

**LƏFZİLİK (اللفظيّة):**

Quranın ləfzlərinin və onları oxumanın məxluq olduğunu irəli sürənlərə verilən ad. Mötəzilə, imamilik, zeydilik, ibazilik kimi məzhəblər Quranın əzəli ilahi kəlam olmadığını, məxluq olduğunu irəli sürmüşlər. Sünnilər isə Quranın məxluq olmadığını müdafiə etmiş, lakin bunun izahında öz aralarında müxtəlif fikirlərə malik olmuşlar. Bu məzhəbin daxilində Quranı tələffüz etmənin və ləfzlərini yazmanın məxluq olub-olmadığına dair müzakirələr aparılmışdır. Hənbəlilər bunların məxluq olduğunu irəli sürənlərə “ləfzilər” demişlər. Məqdisi kimi alimlər isə bunun əksini irəli sürərək, Quranın ləfzlərinin və onları oxumanın məxluq olmadığını irəli sürən Hüseyn əl-Kərabisinin görüşlərini mənimsəyənlərə “ləfziyyə” deyildiyini qeyd edir. Buradan belə bir nəticə çıxır ki, İslam məzhəbləri tarixində həm Quranın ləfzlərinin və onları oxumanın məxluq olduğunu irəli sürənlərə, həm də bunun əksini iddia edənlərə “ləfziyyə” adı verilmişdir.

**LƏHN (الّحن):**

Lüğəvi baxımdan bir çox mənası olsa da, qiraət termini kimi “xəta” mənasında işlənilir. Təcvid elmində Quran oxuyarkən hərflərin lazımi xüsusiyyətlərində, hərəkələrdə və təcvid qaydalarının tətbiqi zamanı meydana gələn xətalara “ləhn” deyilir. Qiraət alimləri ləhni iki yerə ayırmışlar: ləhni-cəli (اللَّحْنُ الْجَلِى) və ləhni-xəfi (اللَّحْنُ الْخَفِى). Ləhni-cəli “açıq-aşkar xəta” deməkdir. İstər Quran və qiraət

elmi sahəsində mütəxəssis olan şəxslərin, istərsə də Quran oxumağı bacaran, demək olar ki, hər kəsin fərqində olub anlaya biləcəyi xətalı oxunuşlar "ləhni-cəli" adlanır. Bu xətalar hərflərin məxrəclərində və xüsusiyyətlərində, hərəkələrdə və sükunlarda meydana gəlir. Ləhni-xəfi "gizli xəta" deməkdir. Hərflərin arizi xüsusiyyətlərində meydana gələn xətalara "ləhni-xəfi" deyilir. Quran oxuyarkən ləhni-xəfi meydana gələrsə məna pozulmaz. Bəzi qiraət alimləri ləhni-xəfini iki növə ayırmışlar: 1. Qiraət və təcvid elmi ilə əlaqəsi olan hər kəsin anlaya biləcəyi xətalar. Məsələn: ixfa, izhar, iqlab, idğam kimi təcvid qaydalarını düzgün şəkildə tətbiq etməmək, qünnəni tələffüz etməmək, incə hərfi qalın, qalın hərfi isə incə oxumaq, qasrla (qısa) oxunacaq hərfləri uzatmaq, uzadılaraq oxunacaq hərfləri qasrla oxumaq, hərəkə ilə vəqf etmək, şiddətli hərfi zəif, zəif hərfi isə şiddətli tələffüz etmək ləhni-xəfi sayılır. 2. Qiraət və təcvid elmində mahir mütəxəssis olan şəxslərin fərqində olub anlaya biləcəyi xətalar. Məsələn: ر hərfini tərqiq (incə) əvəzinə təfxim (qalın) ilə, təfximin yerinə isə tərqiq, ل hərfini təğliz (qalın) əvəzinə tərqiq ilə, tərqiqin yerinə isə təğliz ilə oxumaq, bir sözlə ر və ل hərflərinin hökmlərinə riayət etməmək bu növ xətalardandır.

**LƏQİT (اللقيط):**

"Tapmaq, tapılan şey" və ya "bir şeyi yerdən götürmək" mənasında işlədilən kəlmə. Fiqh elmində "tərk-edilmiş, ya da yolu azmış" olub "başqası tərəfindən tapılan, həmçinin valideynləri məlum olmayan uşaq" deməkdir. Eyni kökdən gələn lüqətə isə "sahibi məlum olmayan tapılmış əşya", yaxud mala deyilir. İtmiş uşağı, yaxud əşyanı tapana "mültəqit", tapma işinə də "iltiqat" deyilir.

**LİAN (اللعان):**

Lənətləşmə. Fiqhdə qadının onu zina etməklə ittiham edən ərinə qarşı Allahı şahid tutub and içməsi ilə yerinə yetirilir.

**LİFAFƏ (اللِّفافَةُ).**

**Bax: KƏFƏN.**

**LİQA (اللقاء):**

Hədis elmində tələbənin müəllimindən birbaşa, arada vasitəçi olmadan hədis eşidib rəvayət etməsi. Lüğəvi baxımdan "qarşılaşmaq, görüşmək, qovuşmaq" mənalarına gəlir. Eyni termin üçün "ləqiyy" və "mülaqat" kəlmələri də işlədilir.

**LİN (اللّين):**

Lüğətdə "yumşaq olmaq" mənasını verir. Termin olaraq dilə çətinlik yaratmamaq məqsədi ilə hərfin yumşaq və asan tələffüzünə "lin" deyilir. Lin hərfləri özləri sakin, özlərindən əvvəlki hərfin hərəkəsi fəthə olan و və ي hərfləridir.

**LİTURGİYA:**

Qərb dillərində ibadət mənasında "liturgy", "liturgie" şəklində keçən

liturgiya, yunanca "ictimaiyyətə aid fəaliyyət" mənasında "lietourgia" sözündəndir. Liturgiya Xristianlıqda kollektiv şəkildə yerinə yetirilən ibadətlər və rituallar üçün istifadə olunur. Pravoslav, Katolik, Lüteran, Anqlikan, Reformçu və Puritan kilsələrinin hər birinin özünəməxsus liturgiyası var.

**"LOĞMAN" SURƏSİ (سورة لقمان):**

Quranın 31-ci surəsidir. 34 ayədən ibarətdir. Məkkədə nazil olub. 12-19-cu ayələrdə Loğmandan bəhs edildiyi üçün belə adlandırılmışdır. Surədə Loğmanın şəxsiyyəti, övladına nəsihəti, Quranın rəhmət və hidayət mənbəyi olması, Allahın insanlara verdiyi nemətlər və qiyamət günündən bəhs edilir.

**LOQOS (LOGOS):**

Yunan dilində ağıl ilə qavrama mənasına gəlir. Hisslərlə qavrama mənasındakı "pathos" sözünün antonimidir. Qədim yunan dilində "qavrama" və "seçmə" mənalarını daşıyan "leg" sözündən törəyən "loqos" etimoloji mənası etibarilə "ağıl" və bu ağla əsaslanan "söz, qanun, nizam, bilik, elm" kimi mənaları da ehtiva edir. Xristian və İslam dünyasında "loqos" terminini "ilahi söz" mənasında istifadə etmişlər. Bu sözü bir termin kimi istifadə edən qədim dövrün yunan mütəfəkkiri Heraklit onu "təbiətin qanunu" adlandırmışdır. Heraklitə görə, kainatdakı nizam və qanunauyğunluq onun (loqos) sayəsindədir. Loqos, eyni zamanda, dəyişmə qanunudur. Heraklitin təsəvvüründə "loqos" kainatda universal dəyişilmənin, davamlı meydana gəlmə və formalaşmanın səbəbi və qanunauyğunluğudur. Bu yanaşmaya görə, Heraklit ilahi dəyişməzlik düşüncəsinə qarşı çıxır. Heraklitin loqosa verdiyi məna qədim yunan filosofu Anaksaqorun əsas terminlərindən biri olan "nous", yəni "zəka"dan fərqlidir. Belə ki, nous nizamlayıcı olaraq kainatdan əvvəl də mövcud idi və kainata xaricdən daxil olur. Loqos isə kainatla birlikdə və məhz kainatdakı yaranma, meydana gəlmə prosesinin içindədir.

**LÖVHİ-MƏHFUZ (اللوح المحفوظ):**

Lüğətdə "yazı yazmağa uyğun yastı müstəvi" mənasındakı lövhə ilə "qorunmuş" anlamındakı məhfuz kəlmələrindən meydana gələn lövhi-məhfuz üstündə yazı yazılan, silinməkdən və dəyişməkdən qorunmuş düzgün səth deməkdir. Lövhi-məhfuz tərkibi Quranda "çox şərəfli" və "dəyərli" mənasında ("əl-Buruc" 85/21-22) qeyd edilir. Bununla yanaşı, Quran "lövhi-məhfuz" mənasında "kitabi-mubin", "kitabi-məknun", "kitabi-məstur" və "ümmul kitab" tərkiblərini işlədir. Hədislərdə "lövhi-məhfuz" məfhumu mənasında "kitab" kəlməsi keçir. Bu növ hədislərdə aləm yaradılmazdan əvvəl təbiətlə, şüurlu və şüursuz canlılarla əlaqəli hər şeyin təqdir edilib planlandığı və bir kitabda yazıldığı ifadə olunmuşdur. Təfsir alimləri lövhi-məhfuzun

mahiyyəti ilə bağlı müxtəlif fikirlər səsləndirmişlər.

**LÜĞƏVİ TƏFSİR (التفسير اللغوي):**

Quranın qrammatik olaraq söz və ifadələrini təhlil edən, onların mənalarını açıqlayan təfsir cərəyanı. Bu təfsirə "filoloji təfsir" adı da verilmişdir. Quranın hərf, söz və ya cümlələrini filoloji cəhətdən tədqiq edən elmdir. Bu mövzuda yazılan əsərlərə verilən ad kimi qəbul edilir. Məsələn: Fərra, Əxfəş, Zəccac adlı alimlərin bu tip əsərləri mövcuddur.

**LÜQƏTƏ (اللقطة).**

**Bax: LƏQİT.**

# M

**MAGİYA (magic):**

Fövqəltəbii qüvvələr vasitəsilə insanlara, heyvanlara, təbiət hadisələrinə və ilahlara təsir etməyin mümkünlüyü inancına əsaslanan təlim və rituallar. Sehrbazlıq, cadugərlik, ovsunçuluq və s. magiyanın müxtəlif növlərini təşkil edir. Politeist dinlərdə və ibtidai inanc formalarında – animizm, totemizm, fetişizm və digərlərində magiya və dini inanclar bir-birinə qarışmış struktura malikdir. Monoteist dinlərdə magiya qadağan edilmişdir. Məsələn: Xristianlıqda cadugərliyin qəti qadağan edildiyi məlumdur. Eyni zamanda, İslamda Allahdan başqa təsir yarada bilən qüvvələrin varlığına inanmaq tövhid əqidəsinə zidd hesab edilmişdir.

**“MAİDƏ” SURƏSİ (سورة المائدة):**

Quranın 5-ci surəsi. 120 ayədən ibarətdir. Mədinə dövründə nazil olub. Surənin adı 112 və 114-cü ayələrdə keçən Həzrət İsa üçün göydən süfrə endirilməsi hadisəsi ilə əlaqələndirilərək, “maidə” (süfrə) sözündən alınmışdır. Surə inanc, ibadət, hüquq, halal və haram, xristianların təslis inancı, Həzrət Musa ilə yəhudilər arasındakı münasibət, Adəm və Həvvanın yaradılışı haqqındakı mövzuları ehtiva edir.

**MALİKİLİK (المذهب المالكي və ya المالكية):**

Malik ibn Əməs (v. 170/795) tərəfindən qurulmuş sünni fiqh məzhəblərindən biri. Əsasən, Şimali və Qərbi Afrikada, eləcə də Çad, Sudan və bəzi Körfəz ölkələrində yayılmışdır.

**MASİVA (ما سواء):**

“Masivallah” da deyilən bu söz sufi ədəbiyyatında geniş yayılmış terminlərdən biri olub, “ondan başqa hər şey” mənasında Allahdan başqa hər şeyi ehtiva edən sözdür.

**MATERİALİZM:**

Hər bir mövcudiyyətin materiya əsasında izah edilə biləcəyini iddia edən fəlsəfi təlim. Bu təlim fikrin təzahürlərini maddə və onun dəyişilməsi kontekstində izah etməyə cəhd göstərir. Yunan dövründən indiyədək bu düşüncə sisteminin əsas prinsipləri heç dəyişməmişdir. Materialistlər maddəni (materiya) əsas alıb, ruhu inkar etdiklərinə görə, Allahın varlığını da inkar edirlər, həm də təbiətçidirlər. **Bax: DƏHRİLİK.**

**MATURİDİLİK (الماتريديّة):**

Sünnilikdəki üç əqidə məzhəbindən biri. Maturidiliyin qurucusu Əbu Mənsur Məhəmməd ibn Məhəmməd əl-Maturididir (v. 333/944). Bu məz-

həb əşəriliklə birlikdə sünniliyin iki sistematik kəlam məktəbindən biri hesab olunur. Fiqhdə hənəfiliyi mənimsəyənlərin əksəriyyəti etiqadda maturidiliyə mənsubdurlar. Maturidilər və əşərilər sünniliyin 6 əsas əqidə prinsipinə sadiqdirlər, lakin aralarında bəzi təfərrüat fərqləri mövcuddur. Bu fərqlərdən biri qəzavü-qədər məsələsindədir. Əşərilər insanın bütün əməllərinin yaradıcısının Allah olduğunu müdafiə edir. Onlara görə, əməllərin yaradıcısı Allah, qazananı (kəsb) isə insandır. Əşərilikdə mütləq fatalizm qəbul olunmasa da, insan iradəsi məhdudlaşdırılır. Maturidilik isə əşəriliyə nisbətən insanın öz əməllərində daha azad olduğunu qəbul edir. Bu məzhəbə görə, külli iradəyə malik olan Allah insana cüzi iradə verib və məhz bu iradə ilə insan öz hərəkətlərini həyata keçirir. Sözügedən iki məzhəb arasındakı fərqliliklərdən biri də qadınların peyğəmbərliyi məsələsidir. Əşərilərə görə, qadınlar içərisindən də peyğəmbər göndərilib. Maturidilər bunu qəbul etmir. İki məzhəb arasında başqa təfərrüat fərqlilikləri də mövcuddur.

**“MAUN” SURƏSİ (سورة الماعون):**

Quranın 107-ci surəsi. 7 ayədən ibarətdir. Mədinə dövründə nazil olduğu təxmin edilir. Surənin adı son ayədəki “maun” (zəkat) sözündən alınmışdır. Surədə din mövzusunda səmimi olmayan, ikiüzlü insanların əxlaqi və ictimai problemləri haqqında bəhs edilir.

**MAVƏRAƏNNƏHR (ما وراء النهر):**

Orta Asiya istiqamətindəki İslam fəthləri zamanı Amudərya çayının şimal və şərqindəki ərazilər nəzərdə tutularaq “çayın o biri tərəfindəki bölgə” mənasında müsəlman tarixçi və coğrafiyaçıların istifadə etdikləri termin.

**MAZYARİLİK (المازياريّة):**

Hicri III əsrin (miladi IX əsr) əvvəllərində mühəmmirə məzhəbinin fikirlərini Cürcan bölgəsində yaymağa çalışan Mazyar ibn Qarinin tərəfdarlarına verilən ad. Bəzi tarixçilər mazyariliyi xürrəmiliyin (xürrəmdiniyyə) bir qolu hesab edir. Mazyariliyi ibahiliyin bir qolu hesab edən bəzi tarixçilər bu cərəyanın mənsublarının namaz, oruc və sair ibadətləri qəbul etmədiyini, qeyri-qanuni cinsi əlaqəni və içki içməyi caiz gördüyünü nəql edirlər. Qərnilər xanədanının hökmdarı da olmuş Mazyar ibn Qarinin (v. 225/840) sözügedən fikirləri mənimsəyib-mənimsəməməsi tarixşünaslıqda mübahisə obyektidir.

**MEHDİ (المهدي):**

Dini termin kimi “dünyanın sonuna doğru zühur edib, doğru inancı və ədaləti bərpa edəcəyinə inanılan xilaskar” mənasını verir. Lüğəvi baxımdan “doğru yolu tapmaq, yol göstərmək, rəhbərlik etmək” mənalarını daşıyan “mehdi” kəlməsi “hədy” və ya “hidayət” kökündən törəmişdir. Quranda “hidayət” kəlməsi müxtəlif

qəliblərlə ifadə edilir, lakin ayələrdə "mehdi" kəlməsi mövcud deyildir. Müəyyən hədis məcmuələrində "Mehdi" ilə əlaqədar xəbərlər mövcuddur. Mehdinin şəxsiyyəti ilə əlaqədər mənbələrdə müxtəlif məlumatlar yer alır. İmamiyyə mənbələrində Mehdinin məhz on ikinci İmam Məhəmməd ibn Həsən olduğu, onun vəfat etməyib 260-cı hicri ilində "kiçik qeybət"ə (qeybəti-süğra), 329-cu ildə isə "böyük qeybət"ə (qeybəti-kübra) çəkildiyi və qiyamətə yaxın zühur edərək, bütün müsəlmanları öz rəhbərliyi altında birləşdirəcəyi rəvayət edilir. Mehdi inancı fərqli şəkillərdə İslam məzhəblərinin bir çoxunda mövcuddur.

**MEHR (المهر):**

İslam hüququna görə, müsəlman kişinin evlənərkən qadına verməli olduğu maddi vəsait. İki tərəfin razılaşaraq müəyyənləşdirdiyi mehr miqdarına "mehri-müsəmma", nikah əqdində nağd verilməsi şərt olan mehrə "mehri-müaccəl", nikahdan sonra verilməsi əhd edilən mehrə "mehri-müəcal" deyilir. Mehr nikah əqdi əsnasında müəyyənləşdirilməyibsə, qadına onunla bənzər şərt və vəziyyətdə olan qadınların aldığı mehr verilir. Bu mehrə "mehri-misl" deyilir.

**MERAC (المعراج):**

Mənbələrdə "isra və merac" şəklində keçən və İslam inancına görə, Məhəmməd peyğəmbərin Məscidi-Həramdan Məscidi-Əqsaya, oradan səmaya yüksəlişi üçün istifadə olunan termin. Meracın nə zaman, harada, neçə dəfə, hansı şərtlərlə baş verdiyinə dair ilk dövr mənbələrindəki fərqli rəvayətlərdən başqa, Məhəmməd peyğəmbərin bu səyahəti ruhən yoxsa cismən yerinə yetirdiyinə dair də fərqli yanaşmalar mövcuddur.

**MESSİANİZM (messianism):**

Dünyanın sonunda gözlənilən bir xilaskarın gələcəyinə dair təlim – məsihçilik. Messianizm təliminə görə, dünyanın sonunda gələcək olan xilaskar cəmiyyətdə mövcud olan ədalətsizlikləri aradan qaldıracaq, dünyada minillik ədalət və əmin-amanlığın hökm sürəcəyi Tanrı səltənətini bərqərar edəcəkdir. **Bax: MİLLENARİZM.**

**METAFİZİKA (Methaphysique/ ما بعد الطبيعة ، الميتافيزيقا ):**

"İlk prinsiplərin elmi" deyə tərif olunur. Fəlsəfənin mahiyyət və səbəblərə aid bölümüdür. Başqa bir ifadə ilə varlığın və biliyin mahiyyətinə aid olan ilk prinsiplərin elmidir. **Bax: FƏLSƏFEYİ-ULA.**

**MEYMUNİLİK (الميمونيّة):**

Xariciliyin əcaridə qoluna mənsub olan Meymun ibn İmran və ya Meymun ibn Xalidin fikirlərini mənimsəyənlərə verilən ad. Qəzavü-qədər mövzusunda xaricilikdən ayrılaraq mötəzilə məzhəbinin fikirlərini mənimsəyən meymuniyyə insanın öz hərəkətlərini ilahi müdaxilə olmadan, azad şəkildə etdiyini müdafiə etmiş-

dir. Meymunilər, həmçinin “Yusif” surəsinin eşq hekayəsi olduğunu iddia edir və bu surəni Quranın bir hissəsi hesab etmirdilər.

**MƏAL (مآل):**

Quranın hərfi deyil, məna cəhətdən ümumi şəkildə açıqlanması. Tərcümədən daha geniş, təfsirdən daha dar mənada işlədilir.

**MƏANİ (المعاني):**

Bəlağətin sözün yerində işlədilməsi şərtlərini tədqiq edən hissəsi. Bəlağətin bəyan, bədi, məani olan üç bölməsindən biri kimi qəbul edilir və sözlərin yerini, şərtlərini, seçilməsini araşdırır.

**MƏANİ-QURAN (معاني القرآن):**

**bax: LÜĞƏVİ TƏFSİR.**

**“MƏARİC” SURƏSİ (سورة المعارج):**

Quranın 70-ci surəsi. 44 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı üçüncü ayədə keçən “məaric” sözündən alınmışdır. Mənası “yüksəlmə dərəcələri” deməkdir. Surədə kafirlərin vəd edilən əzab haqqında Həzrət Peyğəmbərə verdikləri suallara cavab, əsl möminlərin xüsusiyyətləri, kafirlərin etdiklərinin cəzasını alacağından bəhs edilir.

**MƏBADİ (مبادئ):**

“Məbadi” və ya “mabadiul-ülum” hər bir elmin əsas prinsiplərini meydana gətirən xüsusları ifadə edir.

**MƏBDƏ (المبدأ):**

Əsas, başlanğıc. İslam fəlsəfəsinin ontologiya, epistemologiya və metodoloji sahələrində istifadə olunan məbdə (cəmi məbadi) “əsas”, “ilk prinsip” mənalarına gəlib, yunan dilində “arkhe”, latın dilində isə “principium” sözünün ərəb dilindəki müqabilidir. Bu termin varlıq səbəbi, ağlın apriori əsasları, məntiq qanunları, əxlaq normaları, elmlərin əsas prinsipləri kimi müxtəlif məna çalarlarında istifadə edilmişdir. Xüsusən İslam fəlsəfəsində “məbdə” termininin “elmlərin əsasları” mənasında istifadə edildiyini görürük. Elmi əsaslar bir elmin hər hansı bir elmi problemi həlletmə prosesində dəlil təşkil edən propozisiyalardır. Hər bir elm sahəsinin özünəməxsus prinsip və əsasları olmaqla yanaşı, özünün fövqündəki başqa bir elmdən və ya metafizikadan aldığı prinsiplər də mövcuddur; məsələn: riyaziyyatda “5” ədədinin təklik olması həmin elmə məxsus prinsipdir. “Eyni ədədə bərabər olan bütün ədədlər bir-birinə bərabərdir” prinsipində riyaziyyat bəzi elmlərlə müştərəkdir. “Eyni ədədə bərabər olanlar bir-birinə bərabərdir.” prinsipində isə bütün elmlər müştərəkdir. Elm sahələri arasında prinsip alış-verişindən bəhs etmək olar. Məsələn: Farabi və İbn Sinanın da qeyd etdiyi kimi, metafizika universal elm sahəsidir və digər bütün xüsusi elm sahələrinə öz universal prinsiplərini verir. İbn Sina-

nın "Uyunul-hikmə" adlı əsərindəki fikirlərinə görə, ilahi vəhyə əsaslanan dinlər nəzəri və praktiki fəlsəfənin prinsiplərini ehtiva edir, fəlsəfənin vəzifəsi həmin prinsipləri əqli metodlarla kəşf edib, onların tətbiq sferasını genişləndirməkdir. Ontoloji mənada "məbdə" termini İslam fəlsəfəsində "səbəb" və "illət" termini ilə eyni mənada istifadə edilmişdir. Buna görə, varlıqların prinsipləri (səbəblər) onların mövcudluğunu təmin edən fiziki və metafizik səbəblərdir. Farabinin "Kitab əl-bürhan"da bu məzmunda qeyd etdiyi fikirlərə görə biliklərimizin prinsipləri (məbadi) ilə yanaşı, varlığın da prinsipləri (məbadi) mövcuddur. Bu prinsiplərə "səbəb" deyilir. Onun "əs-Siyasət əl-mədəniyyə" adlı əsərinin digər adı "Məbadi əl-mövcudat"dır. Farabinin fəlsəfəsində isə məbdələr (prinsiplər) 1) cisim olmayan və cisimdə olmayan; 2) cisim olmasa da, cisimdə mövcud olan prinsiplər olaraq iki növə ayrılır. Burada ilk səbəb (Tanrı) ilə ikinci səbəbin səmavi ağıllar, mələklər, cisim və cismanilik ilə heç bir əlaqəsi yoxdur. Digər prinsiplərdən olan nəfs mənəvi substansiya olmasına baxmayaraq, cisim (bədən) ilə birləşən, forma və ilk maddə (materiya) isə hiss edilən dünyada daim birlikdə olan və cismin daxili prinsiplərini təşkil edən səbəblərdir. Dörd ünsür və mineralların cansızlıq səviyyəsindən etibarən, canlı orqanizmlərə və nəfsə malik olan göylərədək bütün varlıq dərəcəsindəki hadisələr bu səbəb nizamı daxilində gerçəkləşir. İbn Sina "əş-Şifa" adlı əsərində Farabinin südur mərkəzli ontoloji iyerarxiyasını mənimsəməklə yanaşı, Tanrını ifadə edən "ilk səbəb" (əl-illət əl-ula) yerinə "ilk prinsip/məbdə" (əl-məbd əl-əvvəl) terminindən istifadə etməyə üstünlük verib.

**MƏBDƏİ-ƏVVƏL (المبدا الاول):**

İlk səbəb. Peripatetik fəlsəfədə ruhun bədən ilə birləşməzdən əvvəl ümumi vəhdət halını ifadə edir. Bədən ilə birləşməmiş ruhun vəhdət halını ifadə edən və onun fərdi varlığa malik olmadığı haldır. Bu termin İslam fəlsəfəsində bütün varlıqların var olmalarının ilkin səbəbi mənasında Allahı ifadə etmək üçün istifadə edilmişdir.

**MƏBDƏİ-TƏŞƏXXÜS (مبدا التشخص):**

Fərdilik prinsipi. Peripatetik fəlsəfədə ruhun bədən ilə birləşəndən sonrakı halını ifadə edir. Ruhun bədən ilə birləşmiş halı onun fərdiləşdiyi haldır.

**MƏBUD (المعبود):**

"Boyun əymək, itaət etmək, qulluq etmək" mənalarını ifadə edən "ibadət" və ya "übudiyyət" kökündən meydana gəlmişdir. Dini termin olaraq məbud "şərtsiz və şübhəsiz surətdə ibadət edilməyə layiq olan varlıq" deməkdir. Bir termin kimi, məbud Quran ayələrində deyil, hədislərdə yer alır. Allaha ibadət etməyin zəruriliyini ifadə edən "Fatihə" surəsindəki "iyyəkənəbüdü" (ancaq Sənə ibadət edirik) ifadəsi həqiqi məbudu ifadə edir.

**MƏCAZ (المجاز):**

Bir sözün hərfi mənasından fərqli olaraq bənzər mənada işlədilməsi. Quranda bəzi sözlərin və ya ayələrin hərfi mənada başa düşülməsi nəzərdə tutulan əsas mənadan uzaqlaşdırır. Buna görə də həm mənanı dolğun ifadə etmək, həm də məsələnin məğzini daha yaxşı çatdırmaq üçün məcazdan istifadə edilir.

**MƏCAZİ-QURAN (مجاز القرآن):**

Qurani-Kərimdə məcazi sözlərin açıqlamasını verən elm sahəsi və bu barədə yazılan əsərlərin müştərək adı.

**MƏCƏLLƏTU ƏHKAMİN ƏDLİYYƏ (مجلّة أحكام عدليّه):**

İslam dünyasında ilk dəfə olaraq Osmanlı dövlətində 1868-1876-cı illər arasında hüquqi, iqtisadi və siyasi səbəblərdən hazırlanmış Milli Qanunnamə. Mülki, eləcə də ailə ilə əlaqəli digər xüsusi hüquq sahəsinə aid qanunları əhatə edir. Əsas olaraq hənəfi məzhəbi qanunlarına istinad edilsə də, müəyyən məsələlərdə digər İslam məzhəbləri qanunlarına da geniş yer verilmişdir.

**MƏCHUL (المجهول):**

Hədis elmində heç bilinməyən və ya yetərincə tanınmayan raviyə verilən ad. Lüğəvi baxımdan "bilməmək, tanımamaq" mənasında "cəhl" (cəhalət) kəlməsindən yaranmış sözdür. "Məruf" (bilinən) termininin antonimidir. Məchul müxtəlif formalarda təzahür edir. Məsələn: bir ravi adı, künyəsi, ləqəbi, sənəti və nisbəsi kimi xüsusiyyətlərindən biri və ya bir neçəsi ilə bilinməsinə baxmayaraq, hər hansı bir məqsədlə onu bilinmədiyi vəsfi ilə elm aləminə tanıdılmağa səy göstərirlər. Beləliklə, fərqli biri olduğu şübhəsi yaradılır. Yaxud qısaltma üçün ravinin əsas bilinən adı deyil, vəsfi qeyd olunur. Həmçinin mühəddislər tək ravisi olanları da məchul saymışlar. Hədis elmində məchul ravilər iki yerə bölünür. 1. Məchulül-eyn. Bu ifadə "adı bilinməyən ravi" kimi anlaşılsa da, termin kimi "adı bəlli olduğu halda, hədis öyrənib və öyrətdiyi bilinməyən", "tək ravisi olan kimsə" mənasına gəlir. Belə bir raviyə "məchulü-zat" da deyilir. "Məchul" termini, ümumiyyətlə, "məchulül-eyn" mənasında işlədilir. 2. Məchulül-hal. Özündən iki və ya daha çox güvənilən ravi rəvayət etdiyi halda, hədisçilər arasında tanınmayan və haqqında hər hansı bir cərh tadil hökmü olmadığından halı bilinməyən ravidir.

**MƏD HƏRFLƏRİ (حروف المدّ):**

Lüğəvi baxımdan "uzatmaq" mənasını verən məd, termin olaraq isə hərflərin uzadılaraq oxunmasına deyilir. Özlərindən əvvəlki hərflərin uzadılaraq oxunmasını təmin edən hərflərə "məd hərfləri" deyilir. Üç məd hərfi vardır: ا ، و ، ى

**MƏDDİ-ARİZ (ألمدّ العارض):**

“Ariz” sözü lüğəvi baxımdan “nümayiş etdirən, ərz edən, müvəqqəti narahatlıq” mənalarını verir. Bir kəlmədə məd hərfindən dərhal sonra fərii məddin səbəblərindən biri olan sükuni-ariz gələrsə, “məddi-ariz” meydana gəlir. Məddi-ariz daha çox sözün sonunda dayandıqda meydana gəldiyi üçün bu məddə “vəqf məddi” də deyilir. Məddi-arizi 1 əlif ilə 4 əlif miqdarı arasında uzadaraq oxumaq mümkündür.

**MƏDDİ-LAZIM (ألمدّ اللازم):**

“Lazım” sözü lüğəvi baxımdan “lazımlı” mənasını verir. Bir kəlmədə məd hərfindən dərhal sonra fərii məddin səbəblərindən olan sükuni-lazım gələrsə, “məddi-lazım” meydana gəlir. Məddi-lazımı 4 əlif miqdarı uzadaraq oxumaq vacibdir. Bütün qiraət imamları məddi-lazımı təbii məddin üzərinə, ən azı, 3 əlif miqdarı əlavə edərək oxumuşlar.

**MƏDDİ-LİN (مدّ اللين):**

“Lin” sözü lüğəvi baxımdan “yumşaq” mənasını verir. Lin hərfləri üzərində meydana gələn məddə “məddi-lin” deyilir. Başqa bir tərifə görə, bir kəlmədə و “vav” və ي “yə” hərflərindən biri sakin olaraq gələrsə, onlardan əvvəlki hərfin hərəkəsi fəthə, onlardan sonrakı hərfin isə hərəkəsi sükuni-lazım və ya sükuni-ariz olarsa, məddi-lin meydana gəlir. Məddi-linə səbəb olan sükun sükuni-lazım olarsa, məddi-lini 2 və 4 əlif miqdarı uzatmaq mümkündür. Məddi-linə səbəb olan sükun sükuni-ariz olarsa, məddi-lini 1-2-4 əlif uzadaraq oxumaq mümkündür.

**MƏDDİ-MÜNFƏSİL (ألمدّ المنفصل):**

“Münfəsil” sözü lüğəvi baxımdan “bitişik olmayan, ayrı olan” mənasını verir. Bir kəlmə məd hərfi ilə bitərsə, onun ardınca gələn kəlmə fərii məddin səbəblərindən olan həmzə ء ilə başlayarsa, yəni məd hərfi ilə məd səbəbi ayrı-ayrı kəlmələrdə olarsa, “məddi-münfəsil” meydana gəlir. Məddi-münfəsili təbii məd kimi (1 əlif miqdarı) və ya təbii məddin üzərinə 1-2 əlif əlavə edərək uzatmaq mümkündür.

**MƏDDİ-MÜTTƏSİL (ألمدّ المتّصل):**

“Müttəsil” sözü lüğəvi baxımdan “bitişik” mənasını verir. Bir kəlmədə məd hərfindən dərhal sonra fərii məddin səbəblərindən olan həmzə ء gələrsə, “məddi-müttəsil” meydana gəlir. Məddi-müttəsili təbii məddin üzərinə ən az 1 əlif miqdarı əlavə edərək oxumaq vacibdir. Bu barədə bütün qiraət imamları həmfikirdirlər. Təbii məddin üzərinə edilən bu əlavənin ümumi miqdarı haqqında qiraət alimləri arasında ixtilaf mövcuddur.

**MƏDƏNİ (المدني):**

Həzrət Peyğəmbərin Mədinəyə hicrətindən sonra nazil olan Quran ayələri və surələr üçün işlədilən ter-

min. Bu ayə və surələrin müştərək xüsusiyyəti daha çox hüquqi məsələləri əhatə etməsi və fikri uzun cümlələrlə ifadə etməsidir.

**MƏDİNƏ TƏFSİR MƏKTƏBİ (مدرسة المدينة في تفسير القرآن):**

Səhabə Ubeyy ibn Kəb (30/650) tərəfindən qurulan təfsir məktəbi. Həmin məktəbin ən məşhur davamçılarından Əbül-Aliyəni (90/709) və Zeyd ibn Əsləmi (136/753) nümunə göstərmək olar.

**MƏDRƏSƏ (المدرسة):**

Hərfi mənası "dərs oxudulan yer" olan "mədrəsə" İslam dünyasında tədris qurumları üçün istifadə olunan ümumi addır. Məhəmməd peyğəmbər dövründə Mədinədəki "darülqürra" və yaxud Məscidi-Nəbəvi və ona bağlı olaraq "Süffə" adlandırılan tədris məkanları İslam dünyasında mədrəsələrin yaranması üçün əsas təşkil etmişdir. Tədris qurumunun xüsusi adı olaraq mədrəsənin nə zaman istifadə olunmağa başlandığına dair müxtəlif fikirlər mövcuddur. İlk dəfə X əsrin birinci yarısında Nişaburda qurulan darüssünnədən mədrəsə adı ilə bəhs olunmasına baxmayaraq, İslam dünyasında mədrəsələrin rəsmi tədris qurumları olaraq fəaliyyəti Səlcuq hökmdarı Alparslan və oğlu Məlikşah dövrlərinin məşhur vəziri Nizamülmülkün adı ilə bağlı Nizamiyyə mədrəsələri vasitəsilə olmuşdur.

**MƏDUM (المعدوم):**

"Var olmayan" mənasını verən fəlsəfə və kəlam termini. "Varlıq" məfhumunun ziddidir. "Varlığın ziddi, yoxluq və heçlik (adəm)" mənalarını daşıyan mədum "varlığın yaradılmasından əvvəlki hal" üçün istifadə edilən termindir. İlk İslam filosofu Kindi "adəm" yerinə "leys" ifadəsini işlətmişdir. O da kəlamçılar kimi, mədumu "la şey" (şey olmayan), – deyə tərif etmişdir. Kəlam elminə görə, mədum "Allaha nisbət edilməsi caiz olmayan xüsusiyyət" mənasını verir.

**MƏFHUM (المفهوم):**

Anlayış, termin, məna, konsepsiya.

**MƏFHUMİ-QURAN (مفهوم القرآن):**

Ayənin ləfzində birbaşa açıqlanmayan, lakin işarə edilən, yaxud həmin ayəyə istinad edilərək çıxarılan nəticə. Məsələn: "Bəqərə" surəsinin 187-ci ayəsində səhərə cünublu ikən çıxan insanın orucunun doğru olacağı bildirilməsə də, ayənin məğzindən başa düşülür.

**MƏĞAZİ (المغازي):**

"Döyüş yeri, döyüş və döyüş hekayələri" mənasındakı "məğzat" sözünün cəmi olan "məğazi" Məhəmməd peyğəmbərin siyasi və hərbi mübarizəsindən bəhs edən tarix əsərlərini ifadə edən termindir. Məhəmməd peyğəmbərin vəfatından sonra, onun həyatının yazılması "siyər", dövründəki hərbi fəaliyyətin yazılması isə

"məğazi" ədəbiyyatının təşəkkülünə səbəb olmuşdur. Hədislərin yazılması prosesində yaxından iştirak edən səhabələrdən, xüsusilə Ürvə ibn Zübeyrin metod baxımından məğazi ədəbiyyatının yazılmasında böyük rolu olmuş, məğazi ənənəsinin ilkin nümunələri Əban ibn Osman, Şürəhbil ibn Səd, Abdullah ibn Əbu Bəkr tərəfindən davam etdirilmişdir. Məğazi sahəsinin ən məşhur müəllifi "Kitabül-məğazi" adlı əsərin sahibi Vaqidi (v. 823) hesab olunur.

**MƏHƏMMƏD (əleyhissalam) (محمد):**

İslamı insanlara çatdıran sonuncu peyğəmbərin adı. Ümumi qəbul olunmuş fikrə görə, 571-ci ildə Məkkədə Qüreyşin Haşimoğullarına mənsub Abdullah ibn Əbdülmüttəlibin və Zöhrəoğullarından Aminə bint Vəhbin oğlu kimi dünyaya gəlmişdir. Dünyaya gəlməzdən əvvəl atasını, altı yaşında anasını itirən Məhəmməd (s.ə.s.) babası Əbdülmüttəlibin, sonra isə əmisi Əbu Talibin himayəsində böyümüşdür.

**"MƏHƏMMƏD" SURƏSİ (سورة محمد):**

Quranın 47-ci surəsi. 38 ayədən ibarətdir. Mədinə dövründə nazil olub. İkinci ayədə Məhəmməd peyğəmbərin adı keçdiyi üçün surə belə adlanır. Surə müharibə ilə bağlı ayələri əhatə etdiyi üçün "Qital" adı ilə də məşhurdur. Surədə müsəlmanların, lazım gələrsə, müşriklərlə müharibəyə girməsinin vacib olduğu, münafiqlərin daxili dünyasına aid təhlillər, möminlərin müsəlman cəmiyyətini qoruyub-ucaltmaq üçün canları və malları ilə çalışmaları haqqında mövzulardan bəhs edilir.

**MƏHŞƏR (المحشر):**

Qiyamət günü insanların dirildilərək hesab çəkilmək üçün bir məkanda cəm edilməsini ifadə edən dini termin. **Bax: HƏŞR.**

**MƏKKƏ TƏFSİR MƏKTƏBİ (مدرسة مكة في تفسير القرآن):**

Səhabə Abdullah ibn Abbas tərəfindən qurulan təfsir məktəbinin adı. Quran təfsirində daha çox müşkül ifadələrə diqqət çəkən, başa düşülməyən sözləri açıqlayan Abdullah ibn Abbas Xəlifə Ömər tərəfindən Məkkədə Quranı açıqlayan şəxs kimi təyin edilmişdir. Həmin məktəbin davamçıları olaraq İkrimə (107/725), Mücahid ibn Cəbr (103/721), Əta ibn Əbu Rəbah (114/732), Said ibn Cübeyr (95/714) nümunə kimi göstərilə bilər.

**MƏKKİ (المكي):**

Quranın Həzrət Peyğəmbərin Mədinəyə hicrətinədək nazil olan surə və ayələrinə verilən ad. Məkki ayə və surələr konkretliyi, qısa ayələri və iman mövzuları haqqındakı bəhsləri ilə seçilir.

**MƏLAMİLİK (الملامية):** Məlamilik təriqətinin adıdır. Eyni zamanda "Məlamətilik" də deyilir. "Qınama,

pisləmə" mənasına gələn məlamilik "qınayanların qınamasından çəkinməyərək doğru yolda yürümək"dir. Həmdun Qəssar (v. 271) tərəfindən yayılmış məlamilik xalqı haqqa dəvət etməsindən ötrü qınanmağı özünə peşə kimi qəbul edənlərin təriqətidir. "Mən məlamət köynəyini özüm geydim əynimə / Ar və namus şüşəsini daşa çaldım kimə nə" (Nəsimi). Məlamilik bəzi xüsusiyyətləri ilə sufilikdən fərqlənir.

**MƏMLÜK SULTANLIĞI (دولة المماليك):**

1250-ci ildən 1517-ciilədək Misir, Suriya və Hicazda hakimiyyətdə olmuş türk dövləti. Misirdə Əyyubilərin Türk mənşəli ordu əmirlərinin qurduğu Məmlük Sultanlığı Bəhri məmlükləri (1250-1382) və Burci məmlükləri (1382-1517) olmaqla iki dövrə ayrılır. 1260-cı ildə Əyn Cəllud döyüşündə monqolları məğlub edən Məmlüklər həm monqol yürüşlərini dayandırmış, həm də İslam dünyasının ən böyük dövlətinə çevrilmişdir. 1517-ci ildə Yavuz Sultan Səlimə qarşı aparılan Ridaniyə savaşındakı məğlubiyyətdən sonra Məmlük Sultanlığı tarix səhnəsindən silinmişdir.

**MƏMTURİLİK (الممطورة):**

Şiəliyin Orta əsrlərdə mövcud olmuş qollarından biri. "Məmturə" sözü ərəbcə "yağışa düşən" mənasına gəlir. Terminoloji mənada isə imamətin Museyi-Kazımda bitdiyini, onun ölmədiyini və qiyamətdən əvvəl "mehdi" olaraq dünyaya dönəcəyini qəbul edənlər üçün istifadə olunmuşdur. Bu qrupun əsl adı isə "vaqifə"dir. Sözügedən qrupun "məmturə" adlandırılmasının səbəbi mənbələrdə belə açıqlanır: İmamətin Museyi-Kazımdan sonra oğlu Əli ibn Musaya keçdiyini qəbul edən qətiyyə firqəsinə mənsub Əli ibn İsmayıl əl-Misəmi və ya Yunus ibn Əbdürrəhman vaqifəyə mənsub şəxslərlə mübahisə əsnasında onlara belə demişdir: "Siz mənim gözümdə yağışa düşmüş (məmturə) itlər kimisiniz".

**MƏNASİK/NÜSUK (المناسك/النسك):**

Həcc ibadətinə məxsus hökmlərin fərz, vacib və sünnə əməllərinin ayrı-ayrılıqda hər biri; həmçinin "ibadət" və "qurban" mənaları da vardır.

**MƏNDUB SÜNNƏ (السنن المندوبة):**

Həzrət Peyğəmbərin əksər hallarda yerinə yetirdiyi, ancaq bəzən tərk etdiyi sünnə. Qeyri-müəkkəd sünnələrə "müstəhəb" və "məndub" adları da verilmişdir. Hənəfilər xaricindəki üləmanın əksəriyyəti ümumi sünnə hökmünü bəzən "məndub" termini ilə ifadə etmişlər.

**MƏNİ (المني):**

Sperm, cinsiyyət orqanından şəhvətlə ifraz edilən, təzyiqlə çıxan və nisbətən qatı olan maye. Məzi və vədidən fərqli olaraq, bədəndən çıxması ilə həm dəstəmazı, həm də qüslü pozur.

**MƏNQİBƏ (المنقبة):**

Təriqət əhlinin hal və davranışları, nümunəvi əxlaqi cəhətləri, həmçinin təriqət böyüklərinin həyat tərzi, onların sözləri və nəsihətlərindən bəhs edən sufi hekayətnamə ədəbiyyatı. Bu kimi ədəbiyyata bəzən "mənaqibnamə" və "vəlayətnamə" də deyilir.

**MƏNSUX (المنسوخ).**

**Bax: NƏSX.**

**MƏNSURİLİK (المنصوريّة):**

Şiəliyin ifrat qollarından (qülat) birinin adı. Banisi Əbu Mənsur əl-İcli (v. 123/741) olmuşdur. Əbu Mənsur əvvəlcə imamiliyin 4-cü İmamı Məhəmməd Baqirin imaməti ona verdiyini iddia etmişdir. Mənbələrdə Məhəmməd Baqir və Cəfəri-Sadiqin onu bu görüşlərinə görə lənətlədiyi qeyd olunur. Bu iddiaları ilə kifayətlənməyən Əbu Mənsur daha sonra Allahın onu öz dərgahına çağırdığını, əli ilə başını sığalladığını və Yer üzünə qayıdıb aysor (süryani) dilində təbliğlə məşğul olmasını bildirdiyini irəli sürmüşdür.

**MƏRƏZİ-MÖVT (مرض الموت):**

Ölümcül xəstəlik. Kişi və qadının əmək fəaliyyətinə əngəl olacaq dərəcədə təsir edib, sağalma ehtimalı olmadan bir il müddətində ölümlə nəticələnən xəstəlik. Fiziki şəxslərin belə hallardakı hüquqi fəaliyyəti İslam hüququnda xüsusi norma və qanunlar çərçivəsində tənzimlənir. Onun verəcəyi qərarlar ölüm qorxusu mahiyyətində olması ehtimalı ilə varislərin hüquqları baxımından qeyri-qanuni sayıla bilər. Məsələn: mərəzi-mövtün talaqı (boşaması) qəbul olsa da, qadının vərəsəlik hüququ davam edə bilər. Malı haqqında vəsiyyəti üçdə-birini keçməməsi şərti ilə mümkündür.

**MƏRUF (المعروف):**

Yaxşılıq. İnsanlar tərəfindən bilinən, tanınan, ağlın, yaxud şəriətin gözəl bildiyi hər bir amil. Qurani-Kərim və Peyğəmbər sünnəsində yaxşılıq səbəbindən əmr edilməsi münasib bilinənə deyilir. Münkərin ziddidir. "Əmr bil-məruf, nəhy anil-münkər" məfhumu ilə yaxşılıqların əmr edilməsi, pis olanın qadağan edilməsi nəzərdə tutulur.

**MƏRVİ/MƏRVİYYAT (المروي ، المرويات):**

Hədis terminlərindən biri. "Rəva" feilindən meydana gəlmiş və "rəvayət edilən" mənasını ifadə edir. "Mərvi" kəlməsinin cəmi mərviyyatdır. Hədis üsuluna görə, mərviyyat İslam Peyğəmbərinə aid rəvayət edilmiş hər növ hədisi, xəbəri və məlumatı əhatə edir. Bu termin, həmçinin bir mühəddisin öz şeyxindən nəql etdiyi hədis və xəbərləri də ifadə edir.

**"MƏRYƏM" SURƏSİ (سورة مريم):**

Quranın 19-cu surəsi. 98 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surədə Həzrət Məryəm haqqın-

da geniş şəkildə bəhs edildiyi üçün onun adı ilə adlandırılmışdır. Surənin mövzusu, əsasən, peyğəmbərlər tarixindən və öyüd-nəsihətdən ibarətdir. Burada Zəkəriyyə, İsa, Yəhya və İbrahim peyğəmbərlərin həyatından nümunələr verilmişdir. Həmçinin müşriklərin axirətlə bağlı suallarına cavab, onların davranışlarının tənqidi surənin mövzuları arasında yer almışdır.

**MƏSALEHİ-MÜRSƏLƏ** (المصلحة المرسلة):

İslam hüquq normaları baxımından mötəbər olub-olmadığı məchul qalan, yaxud ləğvinə dair hər hansı bir dəlili olmayan, həmçinin haqqında sükut edilmiş məsələlərdir ki, belə məsələlər bəzi hallarda dəlil olaraq qəbul edilir. Quranın cəm edilməsi və çoxaldılması, Həzrət Əli dövründə ilk həbsxana tikilməsi, divanlar qurulması kimi məsələlər məsləhətimürsələ dəlilinə görə qərar verilmiş məsələlərdir.

**MƏSBUQ** (المسبوق):

İmama iki, üç və ya dördüncü rükətlərdə iqtida edən şəxsdir ki, imamla birgə hərəkət edərək imamın son oturuşunda "təşəhhüd" duasını oxuyaraq gözləyər, ancaq salam verməz. İmam sola da salam verdikdən sonra, qıla bilmədiyi rükətləri birinci rükətdən, yəni "Sübhanəkə" duasından etibarən tamamlayır. Sağa salam verən imam səhv səcdəsi etsə, məsbuqun onunla birgə hərəkət etməsi şərtdir. Məsbuq hər hansı bir rükətin rükusunda imama çatsa (rükusunu imamla qılsa), həmin rükəti qılmış hesab edilir. Axşam namazının üçüncü rükətində olduğu kimi, tək rükətdə imama çatıb iqtida edən məsbuq namazını tamamlayarkən, bir rükət daha qılaraq oturmalı, namazını tamamlamalıdır.

**MƏSCİD** (المسجد):

Ərəb dilində "səcdə etmək" kökündən "səcdə edilən yer" mənasında İslam dininin məbədi üçün istifadə edilən termin. İlk müsəlmanlar Məkkədə Darülərqamı, bəzi səhabələrin evlərini məscid kimi istifadə etmiş, hicrətdən əvvəl Mədinədə də məscid funksiyası yerinə yetirən yerlər müəyyənləşdirilmişdir. Məhəmməd peyğəmbərin hicrət səfəri əsnasında Mədinə yaxınlığındakı Qubada inşa etdirdiyi məscid peyğəmbər tərəfindən ibadət məqsədilə qalıcı olaraq inşa edilmiş ilk məscid hesab olunur. Hicrətlə birlikdə Mədinədə Cümə namazının qılındığı Məscid ən-Nəbəvidən başqa gündəlik namazların qılınması üçün müxtəlif məhəllə və qəbilələr arasında məscidlər inşa edilmişdir. İslamın Ərəbistan yarımadasında yayılması prosesinə paralel olaraq ərəb qəbilələrinin adları ilə adlandırılan məscidlər inşa edilmişdir. İslam fəthləri zamanı dini-sosial həyatın mühüm bir hissəsi kimi məhəllə məscidləri və mərkəzi camenin inşası böyük əhəmiyyət daşımışdır **(bax. Came).**

**MƏSH (المسح):**

Əli bir şeyin səthinə sürtmək, dəstəmaz alarkən yaş əllə başa (cəfərilikdə həmçinin ayaqlara) məsh etmək, cəbirə və sarğı üstünə yaş əlin çəkilməsi, duadan sonra əlləri üzə çəkmək də məsh adlanır.

**MƏST (الخفّ):**

Ayaqları topuqlarla birgə örtən, dəstəmaz əsnasında üstü məsh edilən dəridən hazırlanmış ayaq geyimi.

**MƏSTUR (المستور):**

Hədis rəvayətində tək qalmış məchul ravini (bax: Cəhalət) ifadə edən termin. Lüğəvi baxımdan üstüörtülü mənasını verir. Hədis elminə görə, "məstur" elə raviyə deyilir ki, ondan hədisi iki və ya daha çox ravi (hədisi rəvayət edən) nəql etdiyi halda, hədis elmi ilə çox məşğul olmadığı üçün sözügedən ravi və onun xüsusiyyətləri hədis mütəxəssisləri (mühəddis) tərəfindən bilinmir. Vəsfi bilinməyən məchul ravi "məstur" (örtülü) və ya "məchulül-hal" (halı bilinməyən) adlandırılmışdır. İslam alimlərindən Əbu Hənifə, Məhəmməd ibn İdris əş-Şafii, İbn Hibban, Səlim ər-Razi və başqaları məchulun rəvayətini məqbul hesab etmişlər. Onlara görə bir ravinin ədalətli və etibarlı hesab olunması üçün kimsə tərəfindən cərh (tənqid) edilməməsi kifayətdir. Elə buna görə də adıkeçən İslam alimləri məstur ravinin rəvayətlərini etibarlı hesab etmişlər.

**MƏŞHUR HƏDİS (الحديث المشهور):**

Hədis üsuluna görə, ikidən çox ravisi olan və mütəvatir dərəcəsinə çatmayan hədisə məşhur hədis deyilir. Məşhur hədis, ahad hədisin (bax: ahad xəbər) bir növüdür. Yəni, ən az üç isnadla rəvayət edilən, lakin mütəvatir dərəcəsinə çatmayan hədis "məşhur hədis" adlanır. Ömər ibn Xəttabdan rəvayət edilən "Əməllər niyyətlərə görədir" hədisi məşhur hədisə nümunədir. Bu hədisi ilk iki ravi fərd (tək) surətdə rəvayət etmişdir. Lakin hədisin isnadındakı üçüncü ravi Yəhya ibn Səid əl-Ənsaridən sonra onu yeddi yüz ravi rəvayət edərək məşhurlaşdırmışdır.

**MƏŞHUR QİRAƏT (المشهور):**

Sənədi səhih olub, ərəb dili qrammatikasına və Osman müshəflərinin yazısına uyğun gələn, ancaq mütəvatir dərəcəsinə çatmayan, bununla yanaşı qiraət imamları arasında məşhur olan qiraətlərdir. Əbu Cəfər, Yaqub və Xələfin qiraətlərinin məşhur qiraətlər olduğu qəbul edilir. İbnul-Cəzəri bu üç qiraəti də yeddi mütəvatir qiraətə əlavə edərək, qiraətlərin sayını "qiraəti-əşərə" yəni 10-a çatdırmışdır.

**MƏTN (المتن):**

Hədislər mətn və sənəddən (ravi silsiləsi) ibarətdir. "Hədisin Həzrət Peyğəmbərin sözünü, feilini (davranışlarını) və ya ona aid olan hər hansı bir məlumatı, yaxud hadisəni əhatə edən hissəsi"nə "mətn" deyilir. Hədisin mətni İslam Peyğəmbərinə aid olduq-

da, hədis "mərfu", səhabələrə aid olduqda "mövquf", tabii nəslinə aid olduqda isə "məqtu" adlanır.

**MƏTRUK HƏDİS (الحديث المتروك):**

Hədis üsuluna görə zəif hədisin növlərindən biri. Ərəb dilində "tərk edilmiş" mənasını ifadə edir. Belə ki, hədis rəvayətində yalan söyləməklə ittiham edilən və ya açıq surətdə günah iş görən, yaxud tez-tez yanılıb qəflətə düşən ravinin təkbaşına rəvayət etdiyi hədisə "mətruk hədis" deyilir. Mətruk hədisin ravisi "kəzzabun", "kəzzəbuhu", "ittihamun bil-kizb", "kəsrətülqələt", "qəflətun" kimi cərh və tədil terminlərindən biri ilə ifadə edilir.

**MƏVALİ (الموالي):**

İslam fəthləri nəticəsində öz istəkləri ilə İslamı qəbul edən qeyri-ərəb xalqlar üçün istifadə olunan termin.

**MƏZHƏB (المذهب):**

İslam dininin əqidə və ya əməli (fiqhi) hökmlərinin izahında özünəməxsus metodlara və yanaşmalara malik olan düşüncə məktəblərinə verilən ad. "Məzhəb" kəlməsi ərəbcə "gedilən yol" mənasına gəlir. Termin kimi məzhəb "dinin əqidə və ya əməli hökmlərinin əsaslandığı dəlilləri tapıb, onlardan hökm çıxarmağa və onları şərh etməyə səlahiyyəti çatan alimlərin fikirləri və ya müəyyənləşdirdikləri sistem" kimi də tərif olunur. İslam daxilində tarix boyunca çox sayda məzhəb yaranmış, onların bir hissəsi tarix səhnəsindən silinmiş, bəzisi isə dövrümüzə qədər gəlib çıxmışdır. Müasir dövrdə İslam məzhəbləri etiqadi və fiqhi olmaqla ikiyə bölünür.

**MƏZİ (المذي):**

Ər-arvadın cinsi münasibət xaricində bəzi məhrəm münasibətlərində (şəhvətsiz və təzyiqsiz) çıxan şəffaf mayedir. Mənidən fərqli olaraq, sadəcə, dəstəmazı batil edir.

**MİQAT (الميقات):**

Həcc məqsədi ilə Məkkə xaricindən gələn zəvvarlar (afaqilər) üçün ehrama girmələrinə məxsus olaraq müəyyənləşdirilmiş sərhədlərdir ki, bunlar Mədinə tərəfindən Həccə gələnlər üçün "Zülhüleyfə", iraqlılar üçün "Zati-İrq", Şam, Misir və Mərakeşdən gələnlər üçün "Cühfə", nəcdlilər üçün "Qərn" və Yəməndən gələnlər üçün "Yələmləm" deyilən yerlərdir.

**MİLLENARİANİZM (millenarianism):**

"Millenarianizm" və ya "millenarizm" latın dilində "millenarius" – "mindən ibarət" mənasına gələn və dünyanın sonundan (qiyamətdən) əvvəl min il davam edən sülh və əmin-amanlıq dövrünün yaşanacağına dair dini təlim. Xristianlıq və Yəhudilikdə esxatoloji məsələ olan bu təlim dünyanın sonuna yaxın müharibə və xaosun yaxınlaşdığından və nəhayət, gözlənilən xilaskar "Məsih"in ikinci dəfə gəlişindən xəbər verir. Bu təlimə görə, gözlənilən xilaskarın gəlməsi ilə

minillik dövr başlanır. Başqa dinlərdə də qiyamətdən əvvəl bir xilaskarın gəlməsi ilə min il davam edən bolluq, rifah və sülhün bərqərar olacağına dair inanclar mövcuddur. Belə inanclara sıx bağlı olan dini qruplara "millenarist hərəkatlar" deyilir.

**MİNARƏ (المنارة):**

"İşıq, od çıxan" yer mənasında ərəb dilində "mənarə"dən gələn minarə İslam dininin məbədlərində azan oxumaq üçün istifadə olunan yüksək yerə verilən addır. Məhəmməd peyğəmbər dövründə Məscidi-Nəbəvinin qiblə tərəfində Bilal Həbəşinin azan oxumaq üçün çıxdığı xüsusi yerin daha sonra məscid memarlığına əlavə edilən minarənin ilk nümunəsi olduğu qəbul edilir. Minarə ilk dəfə məscid memarlığına Əməvilər dövründə daxil edilmişdir.

**MİNBƏR (المنبر):**

"Yüksəyə çıxma" mənasında ərəbcə "nbr" kökündən "minbər" cümə və bayram namazlarında məsciddə xətibin üstünə çıxaraq xütbə oxuduğu memarlıq ünsürü üçün istifadə olunan termindir. Mədinə Məscidində ilk dövrlərdə xütbə oxuyarkən bir xurma kötüyünə yaslanan Məhəmməd peyğəmbər üçün daha sonra düzəldilən iki pilləli və oturma yeri olan minbər məscid memarlığına minbərin daxil olmasının əsasını təşkil etmişdir.

**MİRAS (الميراث):**

Ölənin mülkiyyətindən vərəsəlik hüququna görə onun yaxınlarına keçməsi lazım olan mal. Varisə keçən mala "məvrus", vərəsələrə malı keçən ölüyə "müvərris", ya da "muris" deyilir. Məvrus, eyni zamanda, miras olaraq alınana da deyilir.

**MİSAQ (الميثاق):**

Lüğəvi baxımdan "güvənmək, etibar etmək, bel bağlamaq" mənalarını ifadə edən "siqə (vüsuq)" kəlməsindən meydana gəlmişdir. Misaq "qarşılıqlı təəhhüdlər əsasında saziş və ya müqavilə" deməkdir. Dini mətnlərdə misaq Allah ilə peyğəmbər və bəndələr arasında bağlanan sazişi ifadə edir.

**MİSQAL (المثقال):**

"Ağır olmaq" mənasında ərəbcə "sql" kökündən hərfi mənası "ağırlıq" olan "misqal" bir termin kimi klassik ədəbiyyatda qızıl, gümüş, dərman və digər dəyərli əşyaların çəkilməsi zamanı istifadə olunan 4-5 qramlıq çəki vahidinə verilən addır. Ağırlıq vahidi olmaqla yanaşı 1 misqal ağırlığındakı qızıl pula da "misqal" deyilmişdir.

**MİUN (المئون):**

Quranda yüzdən çox ayəsi olan surələrə verilən ad. "Bəqərə", "Ali İmran", "Nisa", "Maidə" və s. surələr bu qəbildəndir.

**MİZAN (الميزان):**

"Bir əşyanın ağırlığını ölçmək və çəkisini təsbit etmək" mənasını ifadə edən "vəzn" kökündən meydana gəlmişdir. "Mizan" bir isim kimi

"tərəzi, çəki aləti və ədalət" mənalarını ifadə edir. Dini termin olaraq "mizan" axirətin müəyyən mərhələsində insanların sorğu-sual proseslərinin tamamlayıcı ünsürü kimi savab və günahlarının kəmiyyət baxımından qiymətləndirilməsini ifadə edir. Mizanın necə reallaşacağı mövzusunda alimlər fərqli fikirlər irəli sürmüşlər. Mötəziləyə görə, mizan həqiqi ölçü və tərəzini deyil, Allahın ədalətli surətdə qərar verəcəyini ifadə edir.

**MODERNİST TƏFSİR (التفسير العصري):**

Quranın yaşanılan dövrə görə açıqlanması. İlk dəfə Hindistanda yaranmışdır. Seyid Əhməd Xan (v. 1898) və Seyid Əmir Əli (v. 1897) ilk təmsilçiləridir. Misirdə isə Cəmaləddin Əfqani (v. 1897) və Məhəmməd Əbdüh (v. 1905) ilk modernist təfsirçilərdir. Bu tip təfsirlərdə mələk, cin kimi məfhumlar modern texnologiyaya, hüquqi ayələr isə dövrün hüquqi sisteminə uyğun şəkildə açıqlanmışdır.

**MODERNİZASİYA (modernization):**

Modernizasiya prosesi – ənənəvi aqrar cəmiyyətdən müasir sənaye cəmiyyətinə tarixi keçid dövrü, eləcə də ictimai sistemin yeniləşməsinə yönəlmiş texnoloji, iqtisadi, sosial, mədəni və siyasi dəyişikliklərin məcmusu kimi başa düşülür. Latın dilindən götürülmüş "modernus" termini ilk dəfə V əsrdə xristian əqidəsi ilə qədim politeist dinləri fərqləndirmək məqsədilə işlədilmişdir. Avropada inkişaf etmiş modernləşmə prosesinə isə yaxın tarixlərdə – təxminən XVI – XVIII əsrlərdən etibarən başlandığı qəbul edilmişdir. Maks Veber isə hesab edir ki, modernlik XVI əsrdə protestantlığın yayılması, bu dinin fərdiyyətçi və rasional etikasının təsiri ilə inkişaf etmişdir. Bəzi sosioloqlar isə modernliyi, sadəcə, ənənəyə qarşı tənqidi mövqe, rasionallıq, humanizm və azadlıq tələbləri ilə deyil, XVIII əsrdə meydana çıxan Maarifçilik hərəkatı və Böyük Fransa inqilabı (1789) ilə əlaqələndirirlər. Qlobal bir proses kimi modernizasiya iqtisadi müstəvidə sənayeləşmə, elmi-nəzəri müstəvidə rasionallaşma, ictimai müstəvidə şəhərləşmə, dini müstəvidə isə dünyəviləşmə proseslərində təzahür edir.

**MONOTEİZM (monotheism):**

Yunanca "monos" – tək, yeganə, "theos" – Tanrı. Bir tanrının varlığını qəbul edən din və fəlsəfi təlim. Təktanrılıqla bağlı dini dünyagörüş və nəzəriyyə. İslam, Xristianlıq və Yəhudilik ən məşhur monoteist dinlərdir.

**MÖCÜZƏ (المعجزة):**

Peyğəmbər olduğunu iddia edən şəxsin göstərdiyi və hər kəsin qarşısında aciz qaldığı fövqəladə hadisə. Qurani-Kərimdə "möcüzə" kəlməsi mövcud deyildir, ancaq eyni mənanı ifadə edən "ayət, bəyyinə, bürhan, sultan, haq və fürqan" sözləri ilə möcüzə nəzərdə tutulmuşdur. Kəlam alimlərinə görə, möcüzələr dərkedilmə baxımından üç

qrupa bölünür: 1. Duyğu yolu ilə qəbul edilən hissi möcüzələr. 2. Qeyb ilə əlaqədar xəbəri (dini mətnlərdə xəbər verilən) möcüzələr. 3. İnsanların ağlına xitab edən əqli-mənəvi möcüzələr. Quranda Həzrət İbrahim, Saleh, Musa və İsa kimi peyğəmbərlərə aid edilən möcüzələr hissi möcüzələrə nümunədir. Rəvayətlərdə Həzrət Peyğəmbərə hər üç növ möcüzə nisbət edilir. İslam alimlərinə görə, Məhəmməd peyğəmbərin ən böyük möcüzəsi Qurani-Kərimdir.

**MÖHKƏM AYƏLƏR (MÜHKƏMİ-QURAN) (الايات المحكمة):**

Ehtimal ediləcək başqa bir məna daşımayan açıqmənalı ayələr. İlk oxunuşda aydın olan və başqa hər hansı mənaya yozulmayan ayələrə verilən addır. Nümunə olaraq hüquqi ayələri göstərmək olar.

**MÖHKƏM HƏDİS (الحديث المحكم):**

Hədis üsulu terminlərindən biri. Lüğəvi mənada "sarsılmaz" və "sağlam" mənalarına gəlir. "Möhkəm hədis" səhihliyi haqqında şübhə və tərəddüd olmayan və hər hansı bir səhih hədislə təzad təşkil etməyən hədisə deyilir. Səhih və həsən hökmü verilən bu növ hədislər başqa hədislərə zahirən hər hansı bir ixtilaf etmirsə, onlar məqbul hesab edilir.

**MÖHTƏKİRLİK (محتكر):**

Buğda, arpa kimi zəruri ərzaq məhsullarını qıtlıq vaxtında daha baha qiymətə satmaq niyyəti ilə qiymətin bahalaşmasını gözləyərək, onları anbara yığıb bazara çıxarmamaq. Bunu edən şəxsə "möhtəkir" deyilir.

**"MÖMİN" SURƏSİ (سورة مؤمن / غافر):**

Quranın 40-cı surəsi. 85 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin 28-45-ci ayələrində Firon ailəsinə mənsub mömin bir şəxsin xüsusiyyətləri haqqında bəhs edildiyi üçün belə adlandırılmışdır. Üçüncü ayədə Allahın "Ğafir" adı keçdiyinə görə bu adla da tanınır. Surədə, əsasən, İslama qarşı çıxmayıb, ona səmimiyyətlə bağlanmaq və dəvət etmək, insanlara bəxş edilən imkan və nemətlər, axirətdə yaxşılarla-pislərin qarşılaşacağı həyat tərzi, imanla-küfr arasında mübarizədən bəhs edilmişdir.

**"MÖMİNUN" SURƏSİ (سورة المؤمنون):**

Quranın 23-cü surəsidir. 118 ayədən ibarətdir. Məkkədə nazil olub. Surənin adı ilk ayədəki "Möminlər nicat tapmışlar" cümləsindən alınmışdır. Surədə əsl mömininin xüsusiyyətləri sadalanmış, Nuh peyğəmbər dövründən başlayan haqq-batil mübarizəsindən bəhs edilmişdir.

**MÖTƏZİLƏ TƏFSİRİ (تفسير المعتزلة للقرآن الكريم):**

Mötəzilə məzhəbinin mənsubları tərəfindən yazılan və həmin məzhəbin görüşləri çərçivəsində formalaşan təfsir növü. Bu təfsirlər mötəzilə

məzhəbinin inanc əsaslarına uyğun şəkildə şərh edilmişdir. Ən məşhurlarından Zəməxşərinin "Kəşşaf" əsərini nümunə göstərmək olar.

**MÖTƏZİLİLİK və ya MÖTƏZİLƏ (المعتزلة):**

İslam daxilində mövcud olmuş, lakin zaman keçdikcə tarix səhnəsindən silinmiş bir məzhəb. "Mötəzilə" sözü ərəb dilində "ayrılanlar, "uzaqlaşanlar" mənasına gəlir. Mötəzilə məzhəbinin nümayəndələri əqli mühakiməyə önəm verir, İslam dininin əqidə əsaslarını rasional şəkildə izah etməyə çalışırdılar. Bu məzhəbə mənsub çox sayda böyük alim olmuşdur. Onların arasında Vasil ibn Ata, Əbülhüzeyl əl-Əllaf, Əbu Əli əl-Cübbbai, Əbu Haşim əl-Cübbai, İbrahim ibn Səyyar ən-Nəzzam, Carullah Zəməxşəri, Qazı Əbülcabbarın adlarını çəkmək mümkündür. Mötəziliiliyə mənsub alimlər fəlsəfəçilər və müxtəlif dinlərin nümayəndələri ilə elmi diskussiyalar apararaq, İslamın inanc əsaslarını ağıl və məntiqə uyğun şəkildə izah etmiş, rasional dəlillər əsasında dini müdafiə etməyə çalışmışlar. VIII-X əsrlərdə çiçəklənmə dövrünü yaşamış mötəzilə məzhəbi zaman keçdikcə, siyasi dəstəkdən məhrum qalmış, beləcə tarix səhnəsindən silinmişdir. Mötəzilə məzhəbinin 5 əsas əqidə prinsipi vardır. Bunlar aşağıdakılardır: 1. Tövhid. Bu prinsipə görə, Allah zatında, sifətlərində və feillərində (hərəkətlərində) vahiddir (təkdir). 2. Ədl. "Ədalət" mənasına gələn "ədl" mötəziləyə görə, Allahın bütün hərəkətlərinin yaxşı (həsən) olması, pis hərəkətlərin (qəbih) meydana gəlməsində isə təsirinin olmamasıdır. Mötəzilə insanın etdiyi pis hərəkətlərin Allah tərəfindən yaradılmadığını, bu hərəkətin yaradıcısının insanın özü olduğunu irəli sürmüşdür. 3. Vəd və vəid. Vəd Allahın iman edib əməlisaleh olanları axirətdə mükafatlandıracağına dair vədindən dönməyəcəyi, vəid isə Allahın günahkarları axirətdə cəzalandıracağına dair sözündən dönməyəcəyi mənasına gəlir. 4. əl-Mənzilə beynəl-mənziləteyn. Hərfən "iki yer arasında bir yer" mənasına gələn "əl-mənzilə beynəl-mənziləteyn" terminoloji mənada böyük günah işləyənin nə mömin, nə də kafir olduğunu, bunların arasında bir mövqedə olduğunu ifadə edir. Mötəziləyə görə, böyük günah işləyən kafir olmur, lakin günah işlədiyi üçün tövbə etmədikcə mömin də hesab olunmur, onun yeri imanla küfr arasındadır. 5. əl-Əmr bil-məruf vən-nəhy ənil-münkər. Əmr bil-məruf insanlara yaxşılığı tövsiyə etmək, nəhy ənil-münkər isə insanları pislikdən uzaqlaşdırmaqdır.

**MÖVHUMAT:**

Məntiqi və dini əsası olmayan, din adına irəli sürülən batil inanc və davranışları ifadə edir. Xurafatla eyni mənada işlənir. Lüğəvi baxımdan "ağlını itirmək" mənasını verən "*xərəf*" kökündən yaranmış və isim olaraq formalaşmış "*xurafat*" kəlməsi "ağla və həqiqətə zidd olan aldadı-

cı söz" deməkdir. Nağıl, əfsanə və ümumiyyətlə, həqiqət olmadığı halda insanların xoşuna gələn hekayə və rəvayətlər "xurafat" adlanır. İslamdanöncəki din, inanc və adət-ənənələrin təsirinin davam etməsi, cəhalət, habelə müxtəlif məqsədlərlə uydurulan hədislər mövhumatın yayılmasının əsas səbəbləri sırasındadır.

**MÖVQUF HƏDİS (الحديث الموقوف):**

Hədis üsulu termini kimi səhabələrdən rəvayət edilən söz, feil və təqrirlərə (təsdiq) verilən ad. Ərəb dilində "vəqəfə" (durmaq) feilindən meydana gəlmişdir. Səhabənin söz və feillərinin mövquf adlandırılmasının əsas səbəbi isnadın (ravi silsiləsi) Həzrət Peyğəmbərə deyil, səhabələrə istinad edilməsidir. Hədis tarixində Peyğəmbərimizin hədisləri ilə yanaşı səhabə və tabiun nəslinin hədisləri açıqlayıcı mahiyyətdəki sözləri də əhəmiyyət kəsb etmişdir. Elə buna görə də, mühəddislər onların sözlərini İslam Peyğəmbərinin hədislərindən ayırd etmək üçün "məvquf" adlandırmış və onlara dəyər vermişlər.

**MÖVLA (المولى):**

Həm "ağa", həm də "kölə" mənalarını ifadə edən termin. Biblioqrafiya əsərlərində "mövla" sözü "azad edilmiş kölə" mənasını verir. Mövlanın cəmi "məvali"dir. Məvalilər İslam mədəniyyəti tarixində böyük rol oynamışdır. Hədis əsərlərindən məşhur məvali bəzən azad edildikləri qəbilə, bəzən də azad edən kimsəyə aid edilmişdir. Nafi, Əta ibn Əbi Rəbah, Tavus ibn Keysan, Məkhul, Yəzid ibn Əbi Hübeyb, Meymun ibn Mihran, Zəhhak ibn Müzahim, əl-Həsən ibn Əbil-Həsən və s. kimi məvali hesab edilən məşhur simalar həm mühəddis, həm də fəqihdirlər.

**MÖVSUL HƏDİS (الحديث الموصول):**

Hədisin sənədi ilə əlaqədar terminlərdən biri. Ərəb dilində "vəsalə" feilindən meydana gəlib və "çatmaq" mənasını daşıyır. Hədisin sənədində mövcud olan ravilərin hər birinin, hədisi məhz öz şeyxindən eşitməsi və ya alması vasitəsilə nəql etdiyi hədisə "mövsul hədis" deyilir. Mövsul isnadda qopuqluğun olmaması şərtdir. İsnadı mövsul olan hədis mövsul hədis adlanır. İsnadın mövsul olması hədisin səhihlik şərtlərindən biridir. Hədis ədəbiyyatında mövsul isnada "müttəsil isnad" da deyilir.

**MÖVZU HƏDİS (الحديث الموضوع):**

"Müxtəlif məqsədlərlə uydurulub, İslam Peyğəmbərinə nisbət edilən hər hansı bir söz, feil və ya hal" mənasında hədis termini. Ərəb dilində "vəzəə" feilindən meydana gələn "mövzu" kəlməsinin mənalarından biri də yalan danışmaq və uydurmaqdır. Uydurulan sözlərə "hədis" deyilməsinin əsas məqsədi, bu sözlərin və ya feillərin Həzrət Peyğəmbər ilə əlaqədar olmasıdır. Əslində, bunlar hədis deyil-

dir. Məhəmməd peyğəmbərin “Kim mənim adımdan yalan danışarsa, cəhənnəmdəki yerinə hazırlansın”, – deyə ümmətini xəbərdar etməsi, hədis uydurmağın böyük günah olduğuna işarət edir. (Müslim, Zühd, 72)

**MÖVZU QİRAƏT (الموضوع):**

Heç bir əsası olmayan və əsilsiz olaraq bir kimsəyə aid edilən qiraətlərdir.

**MUXTARİLİK (المختاريّة):**

Şiəliyin keysanilik cərəyanının Muxtar ibn Əbu Übeyd əs-Səqəfiyə (622-687) aid edilən qolu. Məzhəblər tarixi mənbələrində Muxtarın Həsən ibn Əli və Hüseyn ibn Əlidən sonra Məhəmməd ibn əl-Hənəfiyyənin imam olduğunu irəli sürdüyü iddia olunur. Xüsusilə sünni mənbələrində Muxtarın Allahdan vəhy aldığını irəli sürərək gələcəkdəki hadisələr barədə məlumat verdiyi, Allahın iradə və biliyinin dəyişdiyinə (bəda) inandığı qeyd olunur. Şiə mənbələri isə əsasən, Muxtarın sözügedən əqidələrə malik olmadığını, doğru inanclı bir şəxs olduğunu müdafiə edir.

**MURİS/MÜVƏRRİS/MƏVRUS. (المورث ، المورِّث ، الموروث)**

**Bax: MİRAS.**

**MUSƏVİLİK (الموسويّة):**

İmamiliyin yeddinci İmamı Museyi-Kazımın ölmədiyini, “mehdi” olduğunu, yenidən həyata qayıdıb (ricət) dünyada ədaləti bərqərar edəcəyini irəli sürən bir cərəyan. Museyi-Kazımın vəfat etdiyini, İmamətin ondan sonra oğlu Əli ibn Musaya keçdiyini qəbul edənlərə isə “qətiyyə” adı verilmişdir.

**“MUTƏFFİFİN” SURƏSİ (سورة المطففين):**

Quranın 83-cü surəsi. 36 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədə yer alan “mutəffifin” (ölçü və tərəzidə dürüst olmayanlar) sözündən alınıb. Surədə, əsasən, iki mövzudan bəhs edilir. Birincisi, tərəzidə dürüst olmayan, inanmayan şəxslərin dünya və axirətdəki vəziyyəti, ikincisi isə inanan insanların mükafatları və cənnətlə müjdələnmələri haqqında mövzulardan ibarətdir.

**MÜARƏZATİ-QURAN (معارضة القرآن):**

Quranın doğruluğuna şübhə ilə yanaşıb etiraz edənlərə meydan oxuma. Burada Quran kimi bir kitabın ərsəyə gətirilməsi inanmayanlardan tələb edilmişdir. Quranın əvvəlkilərin rəvayəti və ya şeir olduğunu iddia edənlərə qarşı Quran kimi bir kitabın meydana gətirilməsi üçün inancsızlara meydan oxumaq mənasında işlədilir. Quranda həmin ayələr bunlardır: “Qəsəs” surəsi 28/49, “İsra” 17/88, “Hud” 11/13, “Yunus” 10/38. Bax: Ecazi-Quran.

**MÜBAH/HALAL: (المباح ، الحلال)**

(**Bax: CƏVAZ/CAİZ**).

**MÜBƏYYƏN (المبين):**

Ayələrdə başa düşülməyən, gizli qalan xüsusların başqa ayələrlə açıqlanması.

**MÜBHƏM HƏDİS (الحديث المبهم):**

Hədis elminə aid terminlərdən biri. Ərəb dilində "bir işin şübhəli görünməsi" mənasını verən "mübhəm" adı qeyd edilməyən raviyə deyilir. Bəzən ravilər hədis aldığı şeyxinin adını açıqlamayaraq, "əxbərəna şeyxun" (bizə bir şeyx rəvayət etdi) və ya "ənis-siqə" (etibarlı, siqə bir ravidən nəql edirəm) kimi ifadələrdən istifadə edir. Bəzən mübhəm ravinin adı, eyni hədisin başqa isnadından əldə edilə bilir. Mübhəm ravinin şəxsiyyəti və ədaləti müəyyənləşmədiyi müddətdə mübhəm hədis zəif sayılır və onun hökmü ilə əməl edilməz.

**MÜBHƏMATİ-QURAN (مبهمات القرآن):**

İnsan, mələk və cin kimi varlıqların Quranda açıq deyil, qeyri-müəyyən zaman zərfləri, cins adları, qeyri-müəyyən məkan zərfləri ilə ifadəsi. Quran hər zamana xitab etdiyi üçün bəzən fikir konkret ifadə edilməmiş və qeyri-müəyyən şəkildə qalmışdır.

**"MÜCADİLƏ" SURƏSİ (سورة المجادلة):**

Quranın 58-ci surəsi. 22 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayəyə nisbətlə, Həzrət Peyğəmbərlə bir qadının mübahisəsini ifadə edən "mücadilə" sözündən alınmışdır. Surədə zihar, yəhudilər və münafiqlərdən bəhs edilir.

**MÜCƏSSİMƏ (المجسّمة):**

Allahın cisim olduğunu iddia edən, yaxud Allaha cismani xüsusiyyətlər aid edənlərə verilən müştərək ad. İslam tarixində səbəiyyə, hişamiyyə, mənsuriyyə, xəttabiyyə, həşviyyə başda olmaqla bir çox qrup mücəssimədən hesab edilmişdir.

**MÜCMƏL (المجمل):**

Başa düşülməsi söyləyənin bir əlavə və bəyanı ilə mümkün olan, mənası qədər qəliz məsələ.

**MÜCTƏHİD (المجتهد):**

Şəri dəlillərdən əməli hökmləri çıxara bilmə səlahiyyətinə malik din alimi.

**"MÜDAYƏNƏ" AYƏSİ (آية المداينة):**

Borclar hüququ ilə bağlı hökmləri əhatə edən Quranın ən uzun ayəsi. "Bəqərə" surəsinin 282-ci ayəsidir. 610-cu ildə Hira mağarasında vəhy mələyi Cəbrail vasitəsilə Quranın ilk ayələrini alan Məhəmməd peyğəmbər 12 il ərzində Qüreyş qəbiləsinin təzyiq və təqiblərinə baxmayaraq, İslamı Məkkə və ətrafında təbliğ etmiş, risalət vəzifəsini daha yaxşı yerinə yetirə bilmək üçün 622-ci ildə Mədinəyə hicrət etmişdir. Ən böyük məqsədi olan Quranı təbliğ etmək və dini yaşayaraq öyrətmək vəzifəsini yerinə yetirən Məhəmməd peyğəmbər 632-ci ildə

Mədinədə vəfat edərkən İslamın Ərəbistanda yayılmasına nail olmuşdu.

**MÜDD (المدّ):**

İki ovuc həcmi olan qədim ölçü. Bir sayın dörddəbiri. İki ovucun aldığı buğda miqdarı, zamana və coğrafiyalara görə dəyişərək, fərqli ölçü vahidi məfhumuna çevrilmişdir. Məsələn: iraqlılara görə iki ritl, yəni 260 dirhəmlik bir qab, hicazlılara görə isə bir ritlin üçdəbiri qədərdir.

**"MÜDDƏSSİR" SURƏSİ (سورة المدثّر):**

Quranın 74-cü surəsi. 56 ayədən ibarətdir. Məkkə dövründə nazil olan ilk surələrdəndir. Surə adını ilk ayədəki "müddəssir" (örtüsünə bürünən) sözündən almışdır. Surədə Həzrət Peyğəmbərə verilən ilk yeddi əmr, inanmayanların aqibəti və axirət həyatı haqqında bəhs edilir.

**MÜDƏCCƏN (المدجّن):**

İspanca ədəbiyyata "mudejar" şəklində keçən, "bir yerdə yerləşib qalmaq, uyğunlaşmaq" mənasında ərəbcə "dcn" kökündən gələn "müdəccən" ispaniyalıların Rekonkista hərəkatı nəticəsində ələ keçirdikləri Əndəlüs şəhərlərində bir müddət yaşamağa davam edən müsəlmanlar üçün istifadə olunan termindir.

**MÜDƏLLƏS (المدلس):**

Hədis üsulu termini kimi, hər hansı bir ravinin həqiqətdə görüşmədiyi və ya görüşdüyü halda hədis almadığı şeyxdən görüşmüş təəssüratını yaradaraq nəql etdiyi rəvayət. Lüğəvi baxımdan "müştəridən malın eyibini gizləmək" mənasını ifadə edir. Ravinin eşitmədiyi hədisi eşitmiş kimi nəql etməsi "tədlis" adlanır. Bu üsulla rəvayət edilən hədis isə "müdəlləs" adlanır. Bu növ hədisi nəql edən raviyə də "müdəllis" deyilir. Müdəlləs, zəif hədis növüdür və hədis alimləri bu üsulla nəql olunan hədisləri və raviləri təsbit edərək ayrı əsərlər qələmə almışlar.

**MÜDRƏC (المدرج):**

Hədis üsulu termini. Hədisin sənədindəki ravilərindən biri sənədə və ya mətnə hər hansı bir məqsədlə bəzi əlavələr edərək onu nəql edərsə, bu əlavə ilə birlikdə rəvayət edilən hədisə "müdrəc" adı verilir. Hədisin sənədinə edilən əlavəyə görə, hədis "müdrəcul-isnad", mətnə edilən əlavəyə görə isə "müdrəcul-mətn" adlanır. Hədis mətninə edilən əlavə hədisdəki hər hansı bir kəlməni izah etmək məqsədi daşıyırsa, o zaman müdrəc caizdir. Hədis üsuluna görə ravi bu əlavəni açıqlamaq məcburiyyətindədir.

**MÜDRƏC QİRAƏT (المدرج):**

Təfsir məqsədi ilə ayələrə edilən əlavələrə "müdrəc qiraətlər" deyilir. Bu növ qiraətlər ayələri izah etmək və açıqlamaq üçün səhabələrin yazdığı qeydlərdir. Onlar yazdıqları qeydlərlə ayələri qarışdırmayacaqlarından əmin olduqları üçün bunu öz müshəflərinə

yazmaqdan çəkinməmişlər. Daha sonra bu əlavələr onları yazan səhabələrə məxsus qiraətlər hesab edilmişdir.

**MÜDRİK (المدرك):**

Namazın bütün rükətlərini imamla birgə qılan şəxs. Belə halda onun heç bir əskiyi yoxdur.

**MÜƏLLƏQ (المعلّق):**

Ravinin hədisin sənədinin əvvəlində bir və ya bir neçə nəfəri, yaxud da, hamısını ötürərək rəvayət etdiyi hədis. Lüğəvi baxımdan "asmaq" mənasını ifadə edən "müəlləq" hədis üsulu terminlərindən biridir. Müəlləqin bir neçə növü mövcuddur. Onun ən məşhur növü ravinin sənəddəki başqa ravilərin adını qeyd etmədən birbaşa "Həzrət Peyğəmbər belə buyurdu", – deməsidir. Müəlləq hədis zəif hədisin növlərindən biridir. Əgər müəlləq hədis başqa siqə (etibarlı) ravilərdən ibarət müttəsil sənədlə (bax: mövsul) dəstəklənərsə, onda onun hökmü dəyişər və həsən li-qeyrihi olar.

**MÜƏLLƏQAT (المعلّقات):**

Cahiliyyət dövründə seçilmiş şairlərin bəyənilən, qızıl suyu ilə yazılıb Kəbənin divarına və hər kəsin görə biləcəyi yerə asılaraq nümayiş etdirilən qəsidə toplusuna verilən ad. Sayları və adları haqqında müxtəlif fikirlər olan müəlləqat şairləri arasında İmriülqeys, Tərəfə, Haris, Əmr, Züheyr, Əntərə, Nabiğə, Əşa və digərlərinin adları qeyd olunur.

**MÜƏLLƏL (المعلّل):**

İlk baxışda səhihlik (doğruluq) şərtlərinə uyğun gələn və zahirən səhih görünən, ancaq həqiqətdə gizli bir qüsuru (illət) ehtiva edən hədis növü. Buxari, Tirmizi, Hakim ən-Nisaburi və Darəqütni kimi məşhur mühəddislər müəlləl hədisi "məlul" adlandırmışlar. "İllət" adlandırılan gizli qüsur bəzən hədisin sənədində, bəzən isə mətnində olur. Əli ibn əl-Mədini, Əhməd ibn Hənbəl, Əbu Hatim ər-Razi və Buxari hədisin tərkibindən mövcud olan illəti təsbit etməklə məşhur olan mühəddislərdəndir. Müəlləl hədis zəif hədis növlərindən biridir.

**MÜƏNƏN (المعنعن):**

Ravinin hədisi hansı metodla aldığını qeyd etmədən "ən fülanin", yəni "filnakəsdən" deyərək rəvayət etdiyi hədis. İsnadda "ən" bağlayıcısı istifadə edilən rəvayətə "ənənə", onu rəvayət edən raviyə isə "müənin" deyilir. Hədis üsuluna görə, ənənə vasitəsilə rəvayət edilən hədislər etibarlı hesab olunmur. Müənən rəvayətlərdə ravilərin görüşüb-görüşmədiyi mübahisəlidir.

**MÜƏRRƏB (المعرّب):**

Ərəbcə olmadığı halda, ərəb dilinə daxil olub ərəbləşmiş sözlərə verilən ad. Digər dillərdən ərəb dilinə daxil olub, qəliblərə uyğunlaşdırılan sözlər mövcud olmuş və sonradan tədqiq edilib təfsirçilər tərəfindən açıqlanmışdır.

**MÜƏTTİLƏ (المعطّلة):**

Allahın zati sifətlərini inkar edənlərə verilən ad. "Müəttilə" sözü ərəb dilində "boş olmaq, xali olmaq" mənasına gələn "ətl, ütul" sözündən törəmişdir. Termin dar mənada ilahi sifətləri inkar edənlər üçün, geniş mənada isə kainatın yaradıcısını və onun sifətlərini (atributlarını) inkar edən, həmçinin Allahın sifətlərini Quran və sünnədə keçən şəkildə qəbul etməyənlər üçün istifadə olunmuşdur. İslam tarixində Allahın zati sifətlərini ilk dəfə inkar etdiyi iddia olunan Cəd ibn Dirhəmin (v. 124/742 [?]) müəttilədən hesab olunduğu qeyd edilir. Orta əsrlərdə müxtəlif İslam məzhəblərinin mənsubları tənə etmək məqsədilə bir-birlərini müəttiləlikdə ittiham etmişlər.

**MÜƏVVİZƏTEYN (المعوذتين):**

Quranın sonundakı "Fələq", "Nas" surələrinə verilən ümumi ad. "Allaha sığınma" mənasına gəlir.

**MÜƏZZİN (المؤذّن):**

Azan oxuyaraq əhaliyə namaz vaxtını bildirən şəxs. Həmçinin fərz namazlarından əvvəl iqamə oxuyana deyilir.

**MÜFƏSSİR (المفسّر):**

Quranın mənasını açıqlayan, şərh və təfsir edən alim.

**MÜFƏVVİZƏ (المفوضة):**

"Müfəvvizə" sözü ərəb dilində "həvalə etmək" mənasına gələn "fəvvəzə" (فوض) feilindən törəmişdir. İslam məzhəbləri tarixində bu adla iki qrup mövcud olmuşdur. Birinci qrup qədəriliyin qollarından biri olub, Allahın bəndələrinin əməllərinə heç bir vəchlə qarışmadığını, insanların əməllərində tamamilə sərbəst olduğunu irəli sürmüşdür. İkinci firqə isə şiəliyin ifrat qollarından (qülat) biri hesab olunur. Bu qrupun iddiasına görə, Allah əvvəlcə Məhəmməd peyğəmbəri yaratmış və kainatın idarəsini ona tapşırmışdır. Məhəmməd peyğəmbər isə bu vəzifəni Əli ibn Əbu Talibə, o da digər imamlara həvalə etmişdir. Hər iki qrup zamanla tarix səhnəsindən silinmişdir.

**MÜFİD (المفيد):**

Hicri III əsrdə mühəddislərin (hədis alimləri) ləqəblərindən biri. Ərəb dilində "faydalı" mənasını ifadə edən "müfid" kəlməsi termin kimi "kamil mühəddisin bütün xüsusiyyətini daşıyan "hədis alimi" deməkdir. Hafiz dərəcəsinə çatmış bir mühəddisin öz tələbələrinə hədis elmini öyrətmək məqsədilə faydalı olması onun "müfid" (faydalı) ləqəbini alması ilə nəticələnirdi.

**MÜFRƏDATİ-QURAN (مفردات القرآن):**

Quranın hərf, ədat, söz və ifadələrini, lüğəvi olaraq sözlərin mənalarını açıqlayan elm sahəsi və bu barədə yazılan kitabların adı.

**MÜĞALƏTƏ (المغالطة):**

Məntiqi səhv, boş söz. Zahirdə doğru müqəddimələrə əsaslansa da, nəticə

etibarilə ziddiyyət və təzadlara yol açan və opponenti yanıltmaq məqsədi ilə müraciət edilən xətalı mühakimə.

**MÜĞİRİLİK (المغيريّة):**

Şiəliyin ifrat qollarından (qülat, qaliyyə) biridir. Banisi Müğirə ibn Səid əl-İclidir (v. 119/737). İmamiliyin 4-cü imamı Məhəmməd Baqirin dövründə yaşamış və onun tərəfindən lənətlənmiş əl-İcli Tanrıya cismani xüsusiyyətlər aid etmiş, Əli ibn Əbu Talibin ölüləri diriltdiyini iddia etmişdir. O, həmçinin Məhəmməd peyğəmbərin şəriətinin artıq sona çatdığını bəyan edərək, öz peyğəmbərliyini bildirmişdir. Mənbələrdə Müğirənin özünün tanrı olduğunu iddia etdiyi də qeyd olunur. Müğirə Əməvilərin Kufə valisi Xalid ibn Abdullah əl-Qəsri (v. 126/743) tərəfindən öldürülmüşdür.

**MÜHACİR (المهاجر):**

Ərəbcə “bir yerdən başqa bir yerə köçən, hicrət edən şəxs” mənasında “mühacir” termin kimi Məkkədən Mədinəyə hicrət edən müsəlmanlar üçün istifadə olunmuşdur. Mədinə cəmiyyətindəki ilk müsəlmanlar məkkəli mühacirlərdən və onlara “kömək edən” mənasında mədinəli “ənsar”-dan ibarət idi.

**MÜHAFİZƏKARLIQ (conservatizm):**

Mövcud ictimai, siyasi və mədəni struktura, o cümlədən ənənəvi dəyərlər və normalara sıx bağlı olub, bunların dəyişdirilməsinə qarşı çıxan cərəyan. Müasir Qərb düşüncəsində mühafizəkarlıq pozitiv düşüncə, rasionalizmin tərəqqisini ifadə edən maarifçiliyin qarşısında yer tutan və mövcud ənənəvi nizama tərəf çıxan anlayışdır. Bir çox hallarda hər cür yeniliyə düşmən olanları “mühafizəkar” adlandırırlar. Mühafizəkarlıq tendensiyası çox müxtəlif formalarda təzahür edir. Hazırda milli-mənəvi dəyərlərin qorunub saxlanması, dini mənsubiyyətin, ənənəvi dəyərlərin yüksək qiymətləndirilməsi və digər yanaşmalar mühafizəkarlığın bir növü kimi başa düşülə bilər.

**MÜHAL (المحال):**

Mümkünsüz, absurd, imkan daxilində olmayan. Meydana gəlməsi mümkün olmayan. “Yoxluğu zatının gərəyi olan” mənasına gəlir. Məntiq və metafizikada ziddiyyəti ifadə edir. Zehin xaricindəki dünyada qeyri-mümkün olana da “mühal” deyilir.

**MÜHƏDDİS (المحدّث):**

Mühəddis, hədisin müxtəlif xüsusiyyətlərini, qərib kəlmələrin mənalarını, hədisin isnadındakı ravilərin ədalət və zəbt sifətlərini bilən, habelə hədisdəki illətləri təsbit edən alimdir. İlk dövrlərdə mühəddisi “hədis rəvayət edən kimsə” deyə tərif etmişlər. Lakin bu tərif əskikdir, çünki hədisləri rəvayət edən kimsə ravidir. Belə ki, hər bir mühəddis ravidir, lakin hər ravi mühəddis deyildir.

**MÜHƏKKİMEYİ-ULƏ (المحكمة الاولى):**

Xariciliyin ilk qollarından biri. "Siffin" döyüşündən sonra xəlifə Əli ibn Əbu Talib və Şam valisi Müaviyə ibn Əbu Süfyan arasında anlaşılmazlığı aradan qaldırmaq üçün hər iki tərəfin razılığı ilə hakimlər təyin olunmuşdur. Əli ibn Əbu Talibin ordusundakı bir qrup insan daha sonra bu razılaşmanı qəbul etməmiş və hakim təyinatının şəriətə uyğun olmadığını iddia etmişlər. Xariciliyin (xəvaric) ilkin nüvəsi məhz "mühəkkimeyi-ulə" adlandıran bu qrup olmuşdur.

**MÜHƏMMİRƏ (المحمّرة):**

İslam tarixində mövcud olmuş ifrat məzhəblərdən (qülat) biridir. "Mühəmmirə" kəlməsi ərəb dilində "qırmızı" mənasına gələn "əhmər" sözündən götürülmüşdür. Sözügedən qrupun nümayəndələrinə dini simvol kimi qırmızı rəngli paltar geyindikləri üçün bu ad verilmişdir. Onlar "hülul" əqidəsinə inanır, Tanrının insan şəklində təzahür etdiyini iddia edirdilər. Mənbələrdə mühəmmirəyə İslam dünyasının müxtəlif yerlərində fərqli adlar verildiyi bildirilir. Onlara İsfahanda "xürrəmiyyə", Rey və Qəzvində "məzdəkiyyə" və "sünbaziyyə", Azərbaycanda isə "qövliyyə" deyildiyi qeyd olunur.

**MÜHƏRRİK (المحرك):**

Hərəkət etdirən, hərəkətə səbəb olan, hərəkətə gətirən səbəb. Aristotelə görə, aləmdə hər növ dəyişmənin, meydana gəlmənin səbəbi olan, lakin özü heç bir dəyişikliyə tabe olmayan sırf hərəkətdir.

**MÜHSƏN (المحصن):**

Həddi-büluğa çatmış, iffət və həya sahibi müsəlman kişi. Bu xüsusiyyətləri özündə cəmləşdirən qadına "mühsənə" deyilir. Bu kimi hallar iffətə iftira cəzasının tətbiqində zərərçəkən üçün lazım olan şərtlərdir.

**MÜXƏDRƏMUN (المخضرمون):**

Həm Cahiliyyət, həm də İslam dövründə yaşamış, Məhəmməd peyğəmbər dövründə və yaxud onun vəfatından sonra müsəlman olmuş, lakin bir müsəlman kimi onunla görüşməmiş şəxslər üçün istifadə edilən termin. Müxədrəmlər Məhəmməd peyğəmbər dövründə yaşamış olduqlarına görə, tabiin nəslindən, peyğəmbəri görmədən müsəlman olduqlarına görə isə səhabə nəslindən ayrı kateqoriya hesab olunur.

**MÜXƏMMİSƏ (المخمّسة):**

Əhli-beytin beş nümayəndəsinin (Məhəmməd peyğəmbər, Fatimə, Əli, Həsən və Hüseyn) tanrı olduğunu iddia etmiş məzhəb. "Müxəmmisə" kəlməsi ərəb dilində "beş" mənasına gələn "xəms" sözündən götürülmüşdür. Mənbələrdə müxəmmisənin ifrat məzhəblərdən sayılan xəttabiyyənin qurucusu Əbülxəttab əl-Əsədinin (v. 138/755 [?]) tərəfdarları olduğu qeyd olunur. Onlara görə, Tanrı ilk dəfə

Məhəmməd peyğəmbərin cismində, ondan sonra isə Fatimə, Əli, Həsən və Hüseynin surətində təzahür etmişdir.

**MÜXƏYYƏLAT (المخيلات):**

Məntiqdə yeddi propozisiya növündən biri olub, doğru və ya səhv, ağlabatan olub-olmamasından asılı olmayaraq, insanın sevincinə, yaxud nifrət və cansıxıntısına səbəb olan propozisiyalara verilən addır.

**MÜXTƏLİFİ-HƏDİS.**

**Bax: MÜŞKİLİ-HƏDİS**.

**MÜKSİRUN (المكثرون):**

Həzrət Peyğəmbərdən say etibarilə 1000-dən çox hədis rəvayət edən səhabə ravilərə verilən ad. "Müksirun" lüğəvi mənada "çoxaldanlar" mənasını ifadə edir. Peyğəmbərimizdən 1000-dən çox hədis rəvayət edən səhabə sayı yeddidir. Əbu Hüreyrə (5374 hədis), Abdullah ibn Ömər (2630 hədis), Ənəs ibn Malik (2286 hədis), Aişə bint Əbu Bəkr (2210 hədis), Abdullah ibn Abbas (1540 hədis), Cabir ibn Abdullah (1540 hədis), Əbu Səid əl-Xudri (1170 hədis) müksirun səhabələrdir.

Müqəttəə hərflərin mahiyyəti haqqında fərqli yanaşmalar mövcuddur. Bəzi İslam alimlərinə görə, bu hərflərin mənaları gizlidir və bu sirri yalnız Həzrət Peyğəmbər bilmişdir. Digər alimlərin fikirlərini isə aşağıdakı kimi sıralamaq olar: 1. Müqəttəə hərfləri Allahın bəzi adlarına işarə edir. 2. Allah-Təala bu hərflərlə and içərək sözə başlayır. 3. Əvvəlində gəldiyi surənin adıdır. 4. Qeyri-müsəlmanların diqqətini çəkmək üçün qoyulmuşdur.

Müqəttəə hərflərinin müstəqil bir ayə olub-olmadığı barədə iki fərqli nöqteyi-nəzər vardır. Bunlardan birinə görə, müqəttəə hərflərinin bəzisi müstəqil bir ayədir, bəzisi isə özündən sonra gələn ayələrin bir hissəsidir. İkinci nöqteyi-nəzərə görə, müqəttəə hərflərinin heç biri müstəqil bir ayə deyil.

**MÜQİLLUN (المقلّون):**

İslam Peyğəmbərindən mindən çox hədis rəvayət edən səhabələrə "müksirun", mindən az hədis rəvayət edən səhabələrə isə "müqillun" deyilir. Hədis üsuluna görə yeddi səhabə xaric, hədis rəvayət edən bütün səbabələr "müqillun" hesab edilir.

**MÜLHİD (الملحد):**

Hərfi mənası "həqiqətdən ayrılan", "şübhələnən", "münaqişə edən" olan "mülhid" İslamda bir termin kimi, Allahın varlığına və birliyinə, dinin əsas hökmlərinə qarşı çıxan, şübhə ilə yanaşan və şübhə yaradanlar üçün istifadə olunmuşdur. Məhəmməd peyğəmbər dövründə Müseylimətülkəzzab və digər peyğəmbərlik iddia edənlərin başçılığı ilə hərəkatlar istisna olmaqla, İslam tarixində ilhad hərəkatlarının əsasının Əməvilərin son dövründə qoyulduğu, Abbasilər dövründə daha sistemli hala gəldiyi qəbul edilir.

**"MÜLK" SURƏSİ (سورة الملك):**

Quranın 67-ci surəsi. 30 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki "mülk" sözündən alınmışdır. Əsas mövzusu Allahın varlığı və birliyi, kainatı yaratması, idarə etməsi, axirət həyatının varlığı, inanan və inanmayanların aqibəti haqqında məlumatlardan ibarətdir.

**MÜMKÜN-MÜMTƏNİ (الممكن الممتنع ):**

Məntiq və kəlam elmində var olmaq (vücud) ilə əlaqədar üç növ hökm verilir: vücub, imkan və imtina. "Dörd rəqəmi cütdür" cümləsi vacib (zəruri); "İnsan yazı yazır" cümləsi mümkün, "Dörd rəqəmi təkdir" cümləsi isə mümtənini (mühal/imkansız) ifadə edir. Hissələrdən meydana gələn bir varlıq vacib deyil, öz hissələrinə möhtac olduğu üçün mümkün statusunu qazanır. Allah xaricində bütün varlıqlar mümkün varlıq olaraq, mütləq surətdə müəyyən səbəbə möhtacdır. Yəni onların varlığı səbəblərdən asılıdır. Mümkün varlıqlar səbəbdən öncə və ya səbəblə birlikdə deyil, səbəbdən sonra meydana gəlir. Elə buna görə də onlar hadis (sonradan meydana gələn) hesab edilir. Mümtəni isə "mühal" kəlməsi ilə də ifadə edilir, varlığı mümkün olmayan əşya və ya hadisə deməkdir. Məsələn: Allahın yoxluğu və dörd rəqəminin tək olması mümtənidir, yəni imkansızdır. Mümtəninin əsas xüsusiyyəti onun heç bir surətdə mövcud olmamasıdır.

**"MÜMTƏHİNƏ" SURƏSİ (سورة الممتحنة):**

Quranın 60-cı surəsi. 13 ayədən ibarətdir. Mədinə dövründə nazil olub. Surədə Hüdeybiyyə sülhündən sonra, Məkkədən Mədinəyə qaçıb-gələn qadınların niyyətinin başa düşülməsi üçün onların imtahan edilməsi məsləhət görülmüşdür ki, bu da 10-cu ayədə öz əksini tapmışdır. Beləcə, surənin adı buradan alınaraq, "imtahan edilən qadın" mənasını verir. Surədə müsəlman olanların olmayanlarla dostluqda ehtiyatla davranmasından bəhs edilir. Eyni zamanda, Həzrət İbrahimin ona inanmayan atası ilə münasibəti də nümunə kimi göstərilir.

**MÜNAFİQ (المنافق):**

"İnanmadığı halda özünü mömin göstərən kimsə" mənasında dini termin. Qurani-Kərim mömin və kafirlərlə yanaşı, üçüncü bir inanc qrupundan da bəhs edir; bu qrup "münafiq"lərdir. Quranda "Münafiqun" (münafiqlər) adlı surə mövcuddur. Bu surədə münafiqlərin etiqadi durumları, psixologiyaları, qeyri-əxlaqi davranışları, ictimai həyatdakı mövqeləri, Həzrət Peyğəmbər və möminlərə qarşı davranışları, axirətdəki halları ilə əlaqədar məlumat verilir. Quran terminologiyasında münafiqlər iki hissəyə bölünür. Bunlardan birincisi, "əslində, inanmadıqları halda, "Allaha və axirət gününə iman etdik",– deyənlər" ("əl-Bəqərə", 2/8), ikincisi, "Psixoloji baxımdan böhran keçirən və iradə zəifliyi

nəticəsində iman və küfr arasında qalan kimsələr"dir ("ən-Nisa", 4/137).

**"MÜNAFİQUN" SURƏSİ (سورة المنافقون):**

Quranın 63-cü surəsi. 11 ayədən ibarətdir. Mədinə dövründə nazil olub. Surədə münafiqlərin xüsusiyyətləri və Həzrət Peyğəmbərlə dialoqlarından bəhs edildiyi üçün bu ad verilmişdir.

**MÜNASƏBATİ-QURAN (مناسبات القرآن):**

Quran ayələri və surələri arasında uyğunluğu göstərən elm. Bu barədə yazılan əsərlər "Münasəbətül-Quran" adlandırılmışdır.

**MÜNAVƏLƏ (المناولة):**

Hədisləri rəvayət etmə metodlarından biri. Lüğəvi baxımdan "bir əşyanı əl ilə vermək" mənasını ifadə edir. Münavələ metoduna görə, şeyx öz hədislərini və ya hədislərdən ibarət kitabını tələbəsinə birbaşa verərək, "irvi haza ənni", yəni "Bunu məndən rəvayət et", – deməklə rəvayət etməyə icazə verir. Münavələ icazəli və ya icazəsiz olaraq iki qismə bölünür. İslam alimləri münavələ metodu ilə hədislərin rəvayət edilməsini caiz hesab etmişlər.

**MÜNQƏTİ HƏDİS (الحديث المنقطع):**

Hədis üsulu terminlərindən biri. Hədisin sənədi müttəsil (bax: mövsul) deyilsə, o hədisə "münqəti" deyilir. Münqəti, hədisin sənədinin hər hansı bir hissəsindəki qopuqluğu göstərir. Sənəddə bir və ya bir neçə ravi əskik və ya mübhəm olduğu təqdirdə, hədis "münqəti" hesab edilir. Bəzi mühəddislərə görə, ətbai-tabiindən olan bir ravinin tabiini qeyd etmədən bilavasitə səhabədən rəvayət etdiyi hədisə də "münqəti" deyilir. Münqəti hədis zəif hədis növlərindən biridir. Hədis alimlərindən əl-İraqi və İbn Həcərə görə, münqəti hədis isnadında səhabəyə qədər hər hansı bir ravisinin əskik olduğu hədisdir.

**MÜRABİTLƏR (المرابطون):**

1056-1147-ci illərdə Şimali Afrika, Əndəlüs və Balear adalarında hakimiyyətdə olmuş bərbəri mənşəli İslam dövləti. Qurucu qəbilələrə nisbətlə "Ləmtuniyyə" də adlandırılan Mürabitlər dövləti ən qüdrətli dövrünü Yusuf ibn Taşfinin (1073-1106) hakimiyyəti dövründə yaşamışdır. Onun dövründə Şimali Afrikanın bir-biri ilə mübarizə edən kiçik əmirlikləri birləşdirilmiş və Tunisdən Atlantik okeanınadək, Nigeriyadan İspaniyayadək əraziləri ilə Mürabitlər dövrünün ən böyük İslam dövlətlərindən biri olmuşdur. Mürabitlər Əndəlüsdə süquta doğru gedən İslam hakimiyyətini yarım əsr davam etdirmişlər.

**MÜRCİİLİK və ya MÜRCİƏ (المرجئة):**

İlk hicri əsrlərdə mövcud olmuş etiqadi və siyasi İslam məzhəbi. "Mürciə" kəlməsi ərəb dilində "təxirə salmaq" mənasındakı "irca", yaxud "ümid etmək" mənasına gələn "rəca"

sözündən törəmişdir. Terminoloji mənada isə mürciə böyük günah işləyənlərin axirətdəki vəziyyətini Allaha həvalə edərək, onların mənəvi məsuliyyəti haqqında fikir bildirməyən qruplara verilən addır. Böyük günah işləyənlərin kafir olduğunu iddia edən xariciliyin "vəidiyyə" qolunun əksinə, mürciə əməli imanın bir hissəsi hesab etməyərək onların mömin olduğunu irəli sürmüşdür. Mürciiliyin dövrümüzə gəlib çatan ən qədim mənbəsi Həsən ibn Məhəmməd ibn əl-Hənəfiyyənin "Kitab əl-irca" adlı traktatıdır. Mürciilik öz daxilində yunusilik, übeydilik, qəssanilik, salehilik, sövbanilik, tumənilik, şəmrilik, mərisilik və sair qollara ayrılmışdır.

**MÜRSƏL HƏDİS (الحديث المرسل):**

Hədis üsulu termini kimi, tabiilərin səhabələrin adını qeyd etməyərək bilavasitə İslam Peyğəmbərindən rəvayət etdiyi hədis. Hədisləri Həzrət Peyğəmbərdən bilavasitə səhabələr eşitmişlər. Tabiin nəsli isə Həzrət Peyğəmbəri görməmişdir. Hədisin isnadında tabiin nəslinə səhabələrdən sonra yer verilir. Halbuki bəzən tabiin nəsli səhabələrin adlarını qeyd etmədən birbaşa "Peyğəmbər belə buyurdu", – deyə hədis rəvayət etmişlər. Məhz belə hədislər mürsəl sayılır və sənədində qopuqluq olduğu üçün zəif hesab edilir.

**"MÜRSƏLAT" SURƏSİ (سورة المرسلات):**

Quranın 77-ci surəsi. 50 ayədən ibarətdir. Məkkə dövründə nazil olunub. Surənin adı ilk ayədəki "göndərilənlər" mənasına gələn "mürsəlat" sözündən alınmışdır. Surədə ilk ayələrdə bəzi andlar yer almaqla yanaşı, axirət həyatı, inanmayanların cəzası olan cəhənnəmin təsviri və inananların mükafatı olan cənnət həyatından bəhs edilir.

**MÜRTƏD (المرتد):**

Hərfi mənası "geri qayıdan, qəbul etməyən" olan "mürtəd" bir termin kimi İslam tarixində öz arzusu ilə İslamdan çıxan şəxslər üçün istifadə olunmuşdur (**bax: İRTİDAD).**

**MÜRTƏZİQƏ (المرتزقة):**

Müsəlman dövlətlərində maaş alan daimi və nizamlı ordu mənsubları üçün istifadə olunan termin. Ordunun məcburi əsgərlik sisteminə keçirildiyi Əməvilər dövründə qəbilə əsasına görə tərtib olunan, aylıq və yaxud illik maaşları ödənilən "mürtəziqə" ordunun əsasını meydana gətirmiş, mürtəziqə xaricində öz arzuları ilə orduya qoşulan "mütətəvviə" adlandırılan könüllülər isə rəsmi maaş almadan qənimətdən pay almışlar.

**MÜSƏLLƏMAT (المسلّمات):**

Elmi mübahisədə opponentlərin doğruluğunu qəbul etdiyi hökmlər.

**MÜSƏLMAN (المسلم):**

İslam dininə mənsub olan, Allaha, onun birliyinə və Həzrət Məhəmmədin Allahın Peyğəmbəri olduğuna və onun təbliğ etdiklərinə tərəddüdsüz inanan və bunları qəbul edən kimsədir.

**MÜSƏLSƏL HƏDİS (الحديث المسلسل):**

Hədisin sənədində mövcud olan bütün ravilərin hədisin mətnindəki bir sözü və ya feili təkrar etməklə nəql etdikləri hədis. Məsələn: Cəbrailin Həzrət Peyğəmbərə dəstəmaz öyrətməsi ilə əlaqədar bir hədis mövcuddur. Bu hədisə əsasən İslam Peyğəmbəri Abdullah ibn Məsuda dəstəmaz öyrətdikdə "Qalx, su tök, sənə Cəbrailin necə dəstəmaz aldığını göstərim", – demişdir. Abdullah ibn Məsud da bunu rəvayət etdikdə, eyni cümləni tələbələrinə demiş və dəstəmaz üsulunu göstərmişdir. Bu hədisi Abdullah ibn Məsuddan rəvayət edən bütün ravilər eyni cümləni və feili təkrarlamışlar. Müsəlsəl hədis ravilərin, hədisin kəlmələrinə və onun nəticəsində formalaşan hərəkətə qarşı həssas davrandıqlarını göstərir.

**MÜSƏNNƏF (المصنّف):**

Müxtəlif mövzularda hədisləri müəyyən meyarlara görə təsnif edən əsərlər. Lüğəvi baxımdan "təsnif etmək", "qruplara ayırmaq" mənasına gəlir. Müsənnəf əsərlər iman, ehkam, ədəb, riqaq, təfsir, tarix, şəmail və mənaqib kimi səkkiz fərqli fəsili əhatə edir. Məmər ibn Raşidin "əl-Cami", Əbdürrəzzaq ibn Həmmamın "əl-Müsənnəf" və Malik ibn Ənəsin "əl-Müvəttə" adlı əsərləri ilk müsənnəf əsərlər hesab edilir. Həmçinin, mərfu hədislərdən meydana gələn əsərlərə mövquf və məqtu hədisləri əlavə etməklə yazılan kitablara də "müsənnəf" deyilir.

**MÜSHƏF (المصحف):**

Qurani-Kərim ayələrinin iki cild arasında toplanması ilə meydana gələn kitab. Birinci xəlifə **Əbu Bəkr** ibn Əbu Qühafənin iki cild arasında toplatdırdığı səhifələrə Abdullah ibn Məsudun təklifi ilə müshəf deyilmişdir. Daha sonraları üçüncü xəlifə Osman ibn Əffanın dövründə çoxaldılan, ayələri və surələri müəyyən bir qaydaya uyğun olaraq tərtib olunan Quran mətninə də müshəf deyilmişdir. Ümumi olaraq Həzrət Peyğəmbərə vəhy yolu ilə nazil olan və bir cild halında toplanan vəhy səhifələrinə "müshəf" deyilir.

**MÜSNƏD (المسند):**

Hədis termini kimi "müsnəd" kəlməsinin iki mənası mövcuddur. Birincisi, hədis növü ilə əlaqədardır. Belə ki, müsnəd hədis sənədi müttəsil, mətni isə mərfu (bax: mərfu hədis) olan hədisə deyilir. İkinci mənası isə hədis əsərlərinin bir növü ilə əlaqədardır. Müsnəd əsər səhabə adlarını əlifba sırasına əsasən təsnif edib, onların rəvayət etdikləri bütün hədisləri cəm edən kitabdır. Hicri II əsrin sonlarından etibarən, qələmə alınan müsnəd əsərlər hədislərin mühafizə edilib-qorunmasında böyük rol oynamışdır. Əbu Davud ət-Təyalisinin, Əsəd ibn Musa əl-Üməvinin, Nüeym ibn Həmmad əl-Xüzainin, İbn Əbi Şeybənin və Əhməd ibn Hənbəlin müsnədləri məşhur hədis əsərləridir.

**MÜSTƏDRƏK (المستدرك):**

Səhih hədisin meyarlarına uyğun olduğu halda, bir müəllifin öz kitabına almadığı hədisləri cəm edən əsərdir. Lüğəvi baxımdan "sonradan fərqinə varılan" deməkdir. Müstədrək əsərlərin ən məşhuru Hakim ən-Nisaburinin "*əl-Müstədrək ələs-səhiheyn*" adlı əsəridir. Hakim bu əsərində Buxari və Müslimin səhihlik meyarlarına tabe olan, lakin onların öz əsərlərində qeyd etmədikləri hədisləri cəm etmişdir.

**MÜSTƏXRƏC (المستخرج):**

Hər hansı bir müəllifin özündən öncə qələmə alınmış hədis kitabındakı hədisləri başqa və daha ali bir sənədlə cəm edib yeni əsər meydana gətirməsi "istixrac", yazdığı əsər isə "müstəxrəc" adlanır. Müstəxrəc hansı əsər üzərinə yazılmışsa onun müstəxrəci adlanır. Hədis ədəbiyyatında ən çox "müstəxrəc" əsər Buxari və Müslimin "əs-Səhiheyn" əsərləri ilə əlaqədardır. Onların əsərlərinə həm tək-tək, həm də birlikdə müstəxrəclər yazılmışdır. Məsələn: Beyhəqinin "əs-Sünən əl-kübra" və Bəğəvinin "Şərh əs-sünnə" əsərləri Səhiheyndəki hədisləri başqa sənədlə cəm edən müstəxrəc əsərlərdir.

**MÜSTƏLİLİK (المستعليّة):**

İsmaililiyin 1094-cü ildəki bölünmədən sonra yaranan iki qolundan biri. **Bax: İsmaililik.**

**MÜŞƏBBİHƏ (المشبّهة):**

İslam məzhəbləri tarixində tanrını məxluqata və ya məxluqatı Tanrıya oxşadan qruplara verilən müştərək ad. Ərəb dilində "oxşatma" mənasına gələn "təşbih" sözündən götürülmüş "müşəbbihə" kəlməsi hərfən "oxşadanlar" deməkdir. Müşəbbihə müəyyən bir məzhəb deyil, müxtəlif məzhəblərin daxilində mövcud olub Tanrı ilə məxluqatı bir-birinə bənzədən inancları (təşbih) bölüşən qrupların müştərək adıdır. İslam tarixində hişamilik, cəvaliqilik, müqatililik, əzafirə, cəvaribilik, ibrahimilik, bəyanilik, müğirilik, hübbilik, cəvminhalilik, mübəyyizə, zürarilik, yunisilik, şəlməğanilik və kərramilik kimi bu inancı bölüşən qruplar müşəbbihədən hesab olunmuşdur.

**MÜŞKİLİ-HƏDİS (مشكل الحديث):**

Hədis üsulu termini. "Müşkili-hədis və ya müxtəlifi-hədis" adlanır. Həzrət Peyğəmbərdən səhih surətdə rəvayət edilən bəzi hədislər arasında müəyyən səbəblərə görə ziddiyyət ola bilər. İslam Peyğəmbərinin eyni mövzuda ziddiyyətli hədislər söyləməsi mümkün deyil. O halda bu ziddiyyətin səbəbi ya nəsxdir, ya da rəvayət xətası. Əgər nəsx ehtimalı yoxdursa, o zaman bir-birinə zidd olan hədislərə "müşkili-hədis" və ya "müxtəlifi-hədis" adı verilir. Bu, hədis elminin ən önəmli və mütəxəssislik tələb edən sahələrindən biridir.

**MÜŞKİLİ-QURAN (مشكل القرآن):**

Ayələr arasında ilk baxışda var olduğu güman edilən ixtilafları tədqiq edən elm sahəsi və bu sahədə yazılan

əsərlərə verilən ad. İxtilaflı sayılan mövzular, əsasən, qiraət, həqiqət-məcaz, möhkəm-mütəşabih, hadisələrin fərqli yöndən təsviri, mövzu və yer fərqliliyi və başqa cəhətdən ola bilər.

**MÜŞRİK (المشرك):**

Yaradıcı və idarəedici ali varlığın ilahlığına şərik qoşan şəxs üçün istifadə edilən termin.

**MÜTƏ (المتعة):**

Lüğəvi baxımdan mənfəət, zövq alma, faydalanma mənasını ifadə edən "mütə" kəlməsinin termin kimi üç mənası vardır: a) mehr kəsilməmiş, xəlvət və zifaf olmayan boşanmalarda qadına verilməsi vacib olan mal və ya hədiyyəlik əşya ("Bəqərə", 2/236; "Əhzab", 33/49); b) əri tərəfindən boşanmış qadına mehr xaricində onu razı salmaq, könlünü xoş etmək məqsədilə verilməsi müstəhəb olan üç və ya beş hissədən ibarət geyim dəsti; c) siğə – müvəqqəti nikah: bir qadınla müəyyən məbləğ müqabilində hansısa müddətə nikahlanmaq. Sünni məzhəblərinə görə, mütə haram, cəfəri məzhəbinə görə isə halaldır. Cəfəri məzhəbinə görə, mütə nikahı bəzi hökmləri istisna olmaqla müvəqqəti olmayan evliliyin şərtlərini daşıyır. Nəfəqə və mirasla bağlı hökm isə tərəflərin razılaşmaları əsasında təşəkkül edir.

**MÜTƏAL (المتعالي):**

Allahın adlarından (əsmai-hüsna) biri. Lüğəvi baxımdan "şan-şöhrət sabihi olmaq, qüvvət və qüdrətə malik olmaq" mənasındakı "əla", yaxud "ülüvv" sözündən meydana gələn "mütəal" termini "izzət, şərəf və hökmdarlıq baxımından ən uca olan" deməkdir. Azərbaycan dilində mövcud olan və "Allah" kəlməsi ilə birlikdə istifadə edilən "Taala" sözü də məhz Allahın Mütəal isminə işarədir. Qurani-Kərimdə "əla" və "ülüvv" terminləri 27 dəfə Allaha aid edilmişdir. İslam alimləri "Mütəal" adını, ümumiyyətlə, "Taala" kəlməsinin yer aldığı ayələrin təfsirində şərh etmişlər.

**MÜTƏƏXXİRUN (المتأخّرون):**

Leksik baxımdan "sonrakılar" mənasını verən "mütəəxxirun" kəlməsi İslam düşüncə və elm tarixində önəmli hesab edilən müəyyən dövrdən sonra yaşamış alimləri əhatə edir. Məsələn: kəlam məzhəblərindən mötəzilə baxımından Əşarinin müəllimi Əbu Əli əl-Cübbainin (v. 303/916) yaşadığı əsrdən sonrakı dövr "mütəəxxirun dövrü" hesab edilir. Sünni kəlamında bu dövr Əbu Hamid Qəzali, imamilikdə isə Nəsirəddin Tusi ilə başlayır. Kəlam elmində "mütəəxxirun dövrü" daha çox kəlam və fəlsəfə mövzularının birlikdə müzakirə olunduğu "fəlsəfi kəlam" dövrü üçün istifadə olunur.

**MÜTƏQƏDDİMUN (المتقدّمون):**

Lüğəvi baxımdan əvvəlkilər mənasını verən "mütəqəddimun" termini İslamın başlanğıcından IV (X) əsrə qədər olan dövrü əhatə edir. Bu dövr

İslam mənbələrində "mütəqəddimun dövrü" adlandırılır. Məsələn: kəlam məzhəblərindən mötəzilə baxımından Əşarinin müəllimi Əbu Əli əl-Cübbainin (v. 303/916) yaşadığı əsrdən əvvəlki əsrlər "mütəqəddimun dövrü" hesab edilir. Sünni kəlamında bu dövr Əbu Hamid Qəzali, imamilikdə isə Nəsirəddin Tusidən əvvəlki dövrü əhatə edir. Ümumiyyətlə, əsas İslam elmlərinin yarandığı və meydana gəldiyi əsrlərdə yaşayan alimlər "mütəqəddimun", sonra yaşayanlar isə "mütəəxxirun" hesab edilmişlər.

**MÜTƏRADİF (المترادف).**
**Bax: NƏZAİR.**

**MÜTƏŞABİH(المتشابه):**

Mənaları tam bilinməyən və ya bir çox mənaya gələ bilmə ehtimalı olan ayələr. Bu mövzuda yazılan əsərlərə "Mütəşabih əl-Quran" adı verilmişdir. İki cür mütəşabih mövcuddur: mütləq və izafi. "Mütləq mütəşabih"ə məna və mahiyyətini, sadəcə, Allahın biləcəyi "hürufi-müqəttəə", sur, qiyamət kimi mövzular daxildir. İzafi mütəşabih isə mənası alimlər tərəfindən araşdırma nəticəsində ortaya çıxarıla bilən mövzulardır.

**MÜTƏŞƏDDİD (المتشدّد):**

Hədis ədəbiyyatında "mütəşəddid" termini iki mənada işlədilir. Birincisi, ravilərin ən kiçik səhvlərinə görə onları cərh (tənqid) edən cərh və tədil alimləri üçün, ikincisi isə hədis rəvayətində ravi və mətni təfərrüatlı surətdə araşdıran mühəddis üçün istifadə edilir.

**MÜTƏVATİR HƏDİS (الحديث المتواتر):**

İslam Peyğəmbərinə əqlən yalan istinad etməsi mümkün olmayan bir qrupun, eyni xüsusiyyəti daşıyan başqa bir qrupa nəql etdiyi hədis. Mütəvatir hədislər iki qismə ayrılır: ləfzən mütəvatir, mənən mütəvarir. Ləfzən mütəvatirə "Kim mənim adıma yalan istinad edərsə, cəhənnəmdəki yerinə hazırlansın" hədisini nümunə göstərmək olar. Mənən mütəvatirə isə "Allah Rəsulu dua edərkən əllərini səmaya qaldırardı" hədisini nümunə göstərmək mümkündür. Quran ayələri, namaz, oruc, həcc, zəkat və digər İslamın şərtləri mütəvatir yolla rəvayət edilmişdir.

**MÜTƏVATİR XƏBƏR (الخبر المتاواتر):**

"Mövzunun doğruluğunu məhz özü təsdiq edən xəbər" mənasını verən kəlam və fiqh üsulu termini. Belə bir xəbərin əsas şərti təvatür üsulu ilə nəql edilməsidir. Hər hansı bir hədisin mütəvatir olmasının mənası onun Məhəmməd peyğəmbər tərəfindən deyilməsi barədə şəkk və şübhənin olmaması, Quranın mütəvatir olmasının mənası isə onun Həzrət Peyğəmbərin nazil olduğu şəkildə dövrümüzə çatmasıdır. Təvatür xəbərin üç əsas şərti vardır: 1. Xəbərin yetərsaya çatması, yəni, xəbəri rəvayət edənlərin say baxımından qəsdən və ya təsadüfən

yalan söyləmək üçün birləşmələrinin təsəvvür edilməyəcək dərəcədə olması. 2. İstinad, yəni xəbəri nəql edənlərin xəbərin məzmununu zənni deyil, hiss orqanları ilə bilmələri. 3. İstiva (bərabərlik). Yuxarıda irəli sürülən iki şərtin mütəvatir xəbəri nəql edənin bütün təbəqələrə aid olması. Mütəvatir xəbərin elmi dəyər daşıdığına dair İslam alimləri arasında ixtilaf yoxdur.

**MÜTƏVATİR QİRƏT (المتواتر):**

Bütün fərdlərin yalan söyləməsi əqli cəhətdən mümkün olmayan bir cəmiyyətin, eyni xüsusiyyətlərə malik başqa bir cəmiyyətdən müttəsil bir sənədlə nəql etdiyi, bundan başqa səhih qiraətin digər iki şərtinə də uyğun olan qiraətlərdir. Yeddi qiraət imamının nəql etdiyi və "qiraəti-səbə" adlandırılan yeddi qiraət mütəvatir qiraətdir.

**MÜTQİN (المتقن):**

Hədis üsuluna görə, hədis rəvayətində həssas olan, ədalət və zəbt sifətlərini daşıyan, rəvayət şərtlərinə və meyarlarına həssaslıqla riayət edən ravi və ya mühəddis. Hədis elmində mütəxəssis olan mühəddislər "mütqin" adlandırılır. Mütqin, həmçinin üçüncü dərəcədən tədil terminidir. Əgər bir ravi haqqında "mütqin" ləqəbi istifadə edilibsə, bu, onun rəvayətlərinin etibarlı olduğu mənasını ifadə edir.

**MÜTLƏQ (المطلق):**

Hər hansı bir şərtə bağlı olmayan, məhdud olmayan, müstəqil. Varlığı özünə bağlı olan. Reallıqda olduğu kimi, düşüncədə də heç nəyə bağlı olmayıb, varlığının səbəbi özü olan, varlığını digər varlıqdan almayan varlıq mütləq varlıqdır. Bu, dinlərdə Tanrı, idealist fəlsəfədə Tanrı mahiyyətində yaradıcı gücdür.

**MÜTTƏFƏQ ƏLEYH (متّفق عليه):**

Buxari və Müslimin ittifaqla səhih qəbul etdikləri hədis. Buxari və Müslimin səhih hədislər üçün irəli sürdüyü şərtləri və xüsusiyyətləri daşıyan müştərək hədislər "müttəfəq əleyh" adlanır. Hədis alimlərinə görə, müttəfəq əleyh hədislər səhihlik xüsusiyyətlərini daşıyan bütün hədislərdən üstündür. Müttəfəq əleyh hədisləri Məhəmməd Fuad Əbdülbaqi "əl-Lülüü vəl-mərcan fi məttəfəqə aleyhiş-şeyxan" adlı əsərində cəm etmişdir.

**MÜTTƏHƏM (المتّهم):**

"İttiham edilmiş" mənasına gələn ikincidərəcəli cərh (tənqid) termini. Bir ravi ilə əlaqədar cərh və tədil alimləri "müttəhəm bil-kizb" (yalan danışmaqda ittiham olunmuş) və ya "müttəhəm bil-vəz" (hədis uydurmaqla ittiham olunmuş) kimi cərh terminləri istifadə edirlərsə, artıq o ravinin rəvayətləri etibarlı hesab edilmir.

**MÜTTƏSİL (المتّصل):**

Hədisin sənədində qopuqluğun olmaması. Hədisin sənədindəki ravilərin hər biri öz şeyxləri ilə görüşərək, hədisi məhz ondan alıb sənəddə

özündən sonrakı raviyə eyni surətdə nəql edirsə, bu sənəd müttəsil hesab edilir. Sənədin müttəsil olması hədisin səhihlik şərtlərindən biridir. Bəzi hədis alimləri müttəsil sənədə eyni kökdən gələn "mövsul" kəlməsini də istifadə edirlər.

**MÜVAFƏQATİ-ÖMƏR (موافقات عمر):**

Sünni mənbələrində Ömər ibn Xəttabın müxtəlif məsələlərə dair bildirdiyi fikirlərin vəhyə uyğun düşməsini və ya onun mövqeyinə uyğun vəhylərin nazil olmasını bildirən termin.

**MÜVƏHHİDLƏR (الموحّدون):**

1130-1269-cu illərdə Şimali Afrikada və Əndəlüsdə hakimiyyətdə olmuş bərbəri mənşəli İslam dövləti. Dövlət öz adını dini islah məqsədilə fəaliyyətə başlayan qurucusu İbn Tumərtin öz müridlərini adlandırdığı "müvəhhidlərdən" almışdır. Dövlətin həqiqi qurucusu sayılan Əbdülmümin əl-Quminin (1130-1163) dövründə dini-siyasi məqsədli bir hərəkatdan Şimali Afrika və Əndəlüsü əhatə edən böyük imperatorluğa çevrilən Müvəhhidlər, onun xələfləri Əbu Yaqub və Əbu Yusifin hakimiyyəti dövründə siyasi, iqtisadi və mədəni cəhətdən inkişaf etdi. Rekonkistanin ən mühüm müharibəsi sayılan 1212-ci il Uqab (Las Navas de Tolosa) döyüşündəki məğlubiyyətdən sonra süqutu başlayan Müvəhhidlər dövləti Şimali Afrikanın ən böyük iki bərbəri qəbiləsindən biri olan Zənatanın qollarından olan Mərinilər tərəfindən ortadan qaldırıldı.

**MÜZAƏF (المضاعف):**

Zəif ravilər üçün istifadə edilən termin. Lüğəvi baxımdan "zəif hesab etmək" mənasını ifadə edən "müzaəf" cərhin birinci mərtəbəsində yer alır. Hədis üsulunda "müzaəf" termininin ikinci mənası zəif hədislərlə əlaqədardır. Belə ki, zəif olduğu barəsində hədis alimlərinin ittifaq etmədikləri hədislərə "müzaəf" deyilir. Zəif olmasına baxmayaraq, müzaəf hədis, ittifaqla zəif olan hədislərdən üstündür.

**MÜZARİBƏ (المضاربة):**

Əmək və sərmayə ortaqlığına əsaslanan şirkət növü. Bir tərəf iş-gücünü, digər tərəf isə sərmayəsini qatmaqla əldə edilən qazancın ortaqlar arasında paylaşılması əsasında qurulan ortaqlıq müqaviləsi. Müzaribə əqdinə sərmayəni işlətmək üzrə ortaq olan kəsə "müzarib" deyilir.

**"MÜZZƏMMİL" SURƏSİ (سورة المزمل):**

Quranın 73-cü surəsi. 20 ayədən ibarətdir. Məkkə dövründə nazil olan ilk surələrdəndir. Surənin adı ilk ayədə keçən "örtünüb-bürünən" mənasındakı "müzzəmmil" sözündən alınıb. Surədə Həzrət Peyğəmbərə verilən əmrlər, inanmayan nüfuzlu insanların cəzası və gecələr Allaha ibadətin əhəmiyyəti barəsində bəhs edilir.

# N

**NAFİLƏ (النافلة):**

Vacib hökmündə olmayan ibadət. Nafilə bir ibadət yerinə yetirildikdə savab qazandırar, tərk edildiyi təqdirdə isə günaha səbəb olmaz. “Məndub” və “müstəhəb” kimi terminlərlə müqayisə edildikdə nafilənin məna sahəsi daha geniş olub, bu terminlərlə birlikdə sünnəni də əhatə edir. Nafilənin əhatə dairəsinə daxil olan bu kimi ibadətlər savab baxımından dərəcələrinə görə fərqləndirilmişdir. Nafilə ibadətlər hökm baxımından məcburiyyət ifadə etməsə də, Quran və sünnədə təriflənmiş, bütün nafilə ibadətlərin tərk edilməsi pislənmişdir.

**NAMAZ (الصلاة):**

Müəyyən söz və hərəkətlərlə yerinə yetirilən xüsusi ibadətdir. Namaz İslam dininin beş şərtindən biri olub, vacibliyi barəsində bütün məzhəblər həmrəydir. İslamın ilk illərindən etibarən, namaz ibadəti vacib buyurulmuş, Həzrət Peyğəmbər və səhabələr bu ibadətə çox ciddi yanaşmışlar, təhlükə və ya döyüş anında belə namazı tərk etməmişlər. Namazı tərk edənin mömin sayılıb-sayılmayacağı da alimlərin ixtilafına səbəb olmuşdur. Namaz gün ərzində beş vaxtda qılınır. Bunlar sübh, zöhr, əsr, şam və xiftən namazlarıdır. Bundan əlavə, namazın savab qazanmaq, şükür etmək, təhlükədən uzaq olmaq və müxtəlif təbiət hadisələri ilə əlaqəli olmaqla çox sayda növü var.

**NAMUSİ-ƏKBƏR (الناموس الاكبر):**

“Namus” ərəb dilində “nəms” kəlməsindən meydan gəlmişdir və “sirr saxlamaq”, “gizli söz söyləmək” mənasını verir. Rəvayətlərdə yer alan “namus” və ya “namusi-əkbər” ifadəsi “sirr ortağı və gizli məlumata sahib olan” mənasında Cəbrail üçün istifadə edilmişdir. Allah heç kimə bildirmədiyi vəhyi və qeybi məlumatları Cəbrailə bildirmişdir. İslam ədəbiyyatında “namus” kəlməsi Cəbrail ilə yanaşı, “ilahi qanun” mənasında da istifadə edilmişdir. Bu kəlmənin Musa peyğəmbərə göndərilən şəriət, yəni “Tövrat” mənası da vardır.

**“NAS” SURƏSİ (سورة الناس):**

Quranın 114-cü surəsi. 6 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki “insanlar” sözündən alınmışdır. Surədə insana zərər verən şeylərdən Allaha sığınmaqdan bəhs edilir.

**NASİBƏ (الناصبة) və ya NƏVASİB (النواصب):**

Ərəb dilində “kin və ədavət bəsləyənlər” mənasına gələn “nasibə” kəlməsi terminoloji mənada şiə məzhəbində

Əli ibn Əbu Talibə, onun övladlarına və tərəfdarlarına düşmən olan qruplara verilən addır.

**NASİX (الناسخ).**

**Bax: NƏSX.**

**NASİX HƏDİS (الحديث الناسخ):**

Nəsx şəri (dini) bir hökmün yerinə başqa bir şəri hökmün gətirilməsidir. Lüğəvi baxımdan "dəyişdirmək", "silib yox etmək", "aradan qaldırmaq", "nəql etmək" və "qeyd etmək" kimi mənaları ifadə edir. Ləğv edilən şəri hökmə "mənsux", ləğv edən şəri hökmə isə "nasix" deyilir. Hədis elminin nəsx və mənsux sahəsinə "nasixül-hədis və mənsuxuh" deyilir. Necə ki, Qurani-Kərimdə nasix və mənsux ayələr var, eləcə də hədislərdə nasix və mənsux rəvayətlər mövcuddur. Məsələn: İslam Peyğəmbərinin "Mən sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim, artıq onları ziyarət edə bilərsiniz" hədisinə görə qəbirləri ziyarət etmək qadağası ləğv edildiyi üçün mənsuxdur, ziyarət icazəsi isə yeni hökm kimi nasixdir.

**NATURİZM (naturism):**

Dinin meydana gəlməsinə dair nəzəriyyə. Naturizm və ya animatizm təbiət qüvvələrinin şəxsiləşdirilməsi, fiziki dünyada baş verən hadisələrin sakrallaşdırılması, başqa sözlə, təbiətə sitayiş etməkdir. Maks Müller (1823-1900) tərəfindən ortaya atılan naturizm nəzəriyyəsində bu fikir irəli sürülür ki, ictimai inkişafın erkən dövrlərində insanlar ildırım, fırtına, zəlzələ, vulkanlar, Günəş və Ay tutulması kimi təbiət hadisələri qarşısında qorxu və dəhşətə qapılmış, təbiət qarşısında aciz olduğunu başa düşmüş, bunun nəticəsində də təbiət hadisələrini tanrılaşdırmışlar. M.Müller naturizmi dinin ilkin forması hesab etmişdir. Emil Dürkheym naturizmi dinin meydana gəlməsini və onun mahiyyətini düzgün izah etmədiyini irəli sürərək tənqid etmişdir.

**NAVUSİLİK (النّاووسيّة):**

"Navus" adlı şəxsin tərəfdarlarına verilən ad. İmamiliyin altıncı imamı Cəfər əs-Sadiqin (v. 148/765) vəfatından sonra Bəsrə şəhərindən olan Navus onun ölmədiyini, yenidən zühur edib dünyanın hakimi olacağını iddia etmişdir. Navusun görüşünü mənimsəyənlər qrupuna "navusilik" (navusiyyə) adı verilmişdir.

**"NAZİAT" SURƏSİ (سورة النازعات):**

Quranın 79-cu surəsi. 46 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki "naziat" (söküb-çıxaranlar) sözündən alınmışdır. Surədə, əsasən, qiyamətin baş verməsi, yaxşı və pis insanların axirətdəki məqamları haqqında məlumat verilir.

**NER-HATAMİD:**

Sinaqoqlarda daimi yanan işıq üçün istifadə olunan termin. "Aron-Hakodeş" (müqəddəs dolab) və "Teva" (kürsü) ilə birlikdə "ner-hatamid" sinaqoqun üç zəruri ünsüründən biridir.

**“NƏBƏ” SURƏSİ (سورة النبا):**

Quranın 78-ci surəsi. 40 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki “nəbə” (xəbər) sözündən götürülmüşdür. Surədə, əsasən, öldükdən sonra dirilmə, axirət həyatının qısa təsvirindən bəhs edilir.

**NƏCASƏT (النجاسة):**

Bəzi maddələrin dini baxımdan murdar sayılması. Donuz əti, spirtli içki, axmış qan, sidik buna misaldır. Nəcis olan maddələrin yeyilib-içilməsinin haram olmasından başqa, nəcis maddələr fiqh kitablarının ibadət bəhsində ibadətə təsiri baxımından araşdırılır. İnsan həyatını çətinləşdirməsi istisna olmaqla, nəcasətdən təmizlənmək ibadətlər başda olmaqla həyatın hər sahəsində tələb olunur.

**NƏCCARİLİK (النجّاريّة):**

Hüseyn ibn Məhəmməd ən-Nəccarın (v. 230/845) qurduğu İslam kəlam məktəbi. Bu məktəb İslam məzhəbləri tarixində “hüseynilik” (hüseyniyyə) kimi də tanınmışdır. Nəccariliyin (nəccariyyə) hansı məzhəbin qolu olduğu mübahisə obyektidir. Məzhəb tarixçiləri arasında onu mötəzilənin, mürciənin, yaxud cəbriliyin qolu hesab edənlər olmuşdur. Quranın məxluq olduğunu, həmçinin Allahın sifətlərinin zatı ilə eyni olduğunu müdafiə edərək bu mövzularda mötəzilənin fikirlərini bölüşən nəccarilik qəzavü-qədər mövzusunda isə sünnilik və mürciə ilə oxşar fikirlərə malik olmuşdur. Əşərilərin insan əməllərinə dair irəli sürdüyü “kəsb” nəzəriyyəsi onlardan əvvəl ən-Nəccar tərəfindən müdafiə edilmişdir. Abbasi xəlifələri Məmun və Mötəsim zamanında daha çox İraqda fəaliyyət göstərən nəccarilik Mütəvəkkil Ələllahın hakimiyyəti dövründə (847-861) sıxışdırılmağa başlanmış və daha çox İranın bəzi bölgələrində yayılmışdır. Hicri IV əsrdə (miladi IX əsr) Rey, Təbəristan və Cürcan bölgələrinin böyük dini qruplarından biri də nəccarilik idi. Öz daxilində burğusilik, zəfəranilik və müstədrikə adlı qollara bölünmüş bu kəlam məktəbi zamanla tarix səhnəsindən silinmişdir.

**NƏCƏDAT (النجدات):**

Xariciliyin qollarından biri. Qurucusu Nəcdə ibn Amir əl-Hənəfiyyə (v. 72/691 [?]) olmuşdur. Hicri I əsrin (miladi VII əsr) sonlarında, xüsusilə Bəhreyn və Ərəbistan yarımadasının ortasında yerləşən Yəmamədə yayılan və zamanla tarix səhnəsindən silinən nəcədat (və ya nəcdiyyə) xariciliyin daha mötədil qollarından hesab edilmişdir. Əzrəqilərdən fərqli olaraq nəcədat özlərindən olmayanları mütləq şəkildə kafirliklə ittiham etməyin doğru olmadığını bildirmiş, məcburiyyət qarşısında təqiyyəyə müraciət etməyə icazə vermişdir. Nəcdə ibn Amir İslam dininin əsas prinsiplərinin Allaha inanmaq, peyğəmbərləri və səmavi kitabları tanımaq, bütün müsəlmanların canla-

rının və mal-mülklərinin toxunulmaz olduğunu qəbul etməkdən ibarət olduğunu irəli sürmüşdür. Nəcdə ibn Amirin sağlığında Ətiyyə ibn Əsvədin tərəfdarları ondan ayrılaraq İranın Kirman və Sicistan vilayətlərinə getmiş, "ətəvilik" (ətəviyyə) adı ilə tanınan qrupu yaratmışlar. Nəcdənin ölümündən sonra isə bir qrup onun qatili Əbu Füdeykə (v. 73/692) tabe olmuş və beləcə "füdeykilik" (füdeykiyyə) adı ilə tanınmışdır.

**"NƏCM" SURƏSİ (سورة النجم):**

Quranın 53-cü surəsi. 62 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki "nəcm" (ulduz) sözündən alınmışdır. Surədə, əsasən, 3 iman əsası – təktanrıçılıq, peyğəmbərlik və axirət həyatından bəhs edilir.

**NƏFS (النفس):**

Lüğəvi mənada "bir şeyin varlığı", insanın şəxsi, "özü", "zatı", "cövhər", "ruh", "ağıl" və s. mənalarında işlənir. Sufi termini kimi "nəfs" özündə iradə, duyğu və qüvvə olan, gözlə görülməyən nur və ziyadan ibarət lətif (şəffaf) varlıq, ruhani bir cövhər, yaxud bəzi alimlərə görə, lətif cisimdir. Ruh ilə eyni olduğunu irəli sürənlər olsa da, əksər alimlər onu ruhdan ayrı bir varlıq kimi qəbul edir. "Yamanlıq əmr edən" mənasına gəlməklə yanaşı, "Allahın insana üflədiyi ilahi ruh (ruhi-Rəhmani)" mənasında da işlənir. Qurani-Kərimdə onun müxtəlif növlərindən bəhs edilir.

**NƏFS (النفس):**

Ruh, ağıl, bədən, qəlb. Nəfsin bir neçə mənası mövcuddur. İslam fəlsəfəsində və kəlam elmində nəfs "iradəli hərəkətə səbəb olan", hiss və həyat vermə kimi qabiliyyətə malik olan lətif (şəffaf) bir cisim"dir. İslam təsəvvüfündə nəfs şər əməlləri əmr edən qüvvədir. Bütün bu mənalarla yanaşı, nəfs "Tanrı tərəfindən insana üfürülən (ruhi-Rəhmani) ilahi mən" kimi də qəbul olunur.

**NƏFSİ-ƏMMARƏ (النفس الامارة):**

Əmr edən nəfs deməkdir. Şəri və yamanlığı əmr edən, bundan həzz alan nəfsdir. Quran-Kərimdə nəfsin bu növü haqqında belə qeyd edilir: "Mən özümü təmizə çıxarmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs (insana) pis işlər görməyi (şəfvətə uymağı) əmr edər" ("Yusif", 12/53).

**NƏFSİ-KAMİLƏ (النفس الكاملة):**

Kamilləşmiş nəfs deməkdir. Hər cəhətdən yetişmiş və irşad fəaliyyəti üçün hazır hala gəlmiş nəfs.

**NƏFSİ-LƏVVAMƏ (النفس اللوامة):**

Özünü qınayan nəfs deməkdir. Qəlbin nurundan aldığı feyzlə oyaq qalan nəfs. Nəfsi-ləvvamə haqqında Quran-Kərimdə belə deyilir: "And içirəm (günah etdiyi üçün, yaxud yaxşı əməli azdır deyə) özünü qınayan nəfsə!" ("Qiyamə", 75/2). Dünyada ikən fürsət və imkanlara məhəl qoymadığı üçün axirətdə yamanlıqları üçün, özünü qınayan nəfs "ləvvamə" sifəti almışdır.

**NƏFSİ-MƏRZİYYƏ (النفس المرضية):**

Əhvalı xoş olan nəfs deməkdir. Bütün mənliyi ilə Haqqa təslim olduğu üçün Allahın rizasında olduğunu bilən nəfs. Belə bir xüsusiyyətə qovuşan nəfs şəfqət və mərhəməti, mülayim ünsiyyəti ilə insanlara qarşı həmişə bağışlayıcı olub, yalnız Allah rizası üçün onlara qarşı sevgi göstərir.

**NƏFSİ-MÜLHİMƏ (النفس الملهمة):**

İlham edilmiş nəfs deməkdir. Xeyri və şəri, yaxşı və pisi bir-birindən ayırdetmə qabiliyyəti verilmiş nəfs. Nəfsi-mülhimə haqqında Qurani-Kərimdə belə deyilir: "And olsun nəfsə və onu yaradana (ona biçim verənə)! Sonra da ona günahlarını və pis əməllərdən qaçınmasını (xeyir və şəri) öyrədənə" ("Şəms", 91/7-8).

**NƏFSİ-MÜTMƏİNNƏ (النفس المتمئنة):**

Aram tapmış nəfs deməkdir. Dinin əmr və qadağaları qarşısında Allaha bağlılığına görə şəkk və şübhəsiz boyun əyən və bu itaətin həzzini duyan nəfs. "Fəcr" surəsinin son ayəsində, "Cənnətimə gir!" müraciəti məhz belə nəfs sahibləri üçündür ("Fəcr", 89/27-30).

**NƏFSİ-NATİQƏ (الفس الناطقة):**

İnsani nəfs. Düşünən və düşündüyünü ifadə edən nəfsə verilən ad. Mahiyyət etibarilə maddədən ayrı, lakin fəaliyyət etibarilə maddə ilə birlikdə olan substansiya (cövhər).

**NƏFSİ-RAZİYƏ (النفس الراضية):**

Razı qalan nəfs deməkdir. Haqqa yönəlib hər bir halda ona üz tutan və ondan heç qafil olmayıb həmişə razı qalan nəfs. Bu mərhələdəki nəfs həmişə haqqın iradəsinə boyun əyən nəfsdir. "Allah ilə aran necədir?" – deyə soruşanda dərvişin "Elə yaxşıdır ki, həmişə onun dediyi olur", – söylədiyi məqamdır.

**"NƏHL" SURƏSİ (سورة النحل):**

Quranın 16-cı surəsi. 128 ayədən ibarətdir. Məkkədə nazil olub. Surənin adı 68-69-cu ayələrdə keçən "nəhl" (bal arısı) sözündən alınmışdır. Surədə şirkin tənqidi, tək tanrıya inanmağın üstünlüyü, qiyamətin xəbər verilməsi, Quranın həqiqəti əks etdirməsi haqqındakı mövzulara toxunulur.

**NƏMİRİLİK və ya NÜMEYRİLİK (النميرية):**

Nüseyriliyin başqa bir adı.

**Bax: NÜSEYRİLİK.**

**"NƏML" SURƏSİ (سورة النمل):**

Quranın 27-ci surəsi. 93 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin 18-ci ayəsində Süleyman peyğəmbərlə qarışqaların hekayəsindən danışıldığı üçün "nəml" (qarışqa) adlandırılmışdır. Surədə Musa, Süleyman, Lut və Saleh peyğəmbərlərin həyatından bir hissəyə müraciət edilmiş, həmçinin tək Allaha inanmayanların məntiqsizliyi vurğulanmışdır.

**NƏSƏB (النسب):**

Dar mənada insanın ata-anası ilə, geniş mənada isə üsulu ilə olan qohumluq əlaqəsi. İslam hökmlərinin qorumağı hədəf aldığı beş əsasdan biri də nəsəbdir. Nəsəbin qarışmamasına əhəmiyyət verən çox sayda hökm var. Bunlar evlənmə maneələri, miras, nəfəqə və vəlayət kimi məsələlərlə yaxından əlaqəlidir. Buna görə də fiqh kitablarında nəsəbin sübutuna dair təfsilatlı hökmlər mövcuddur.

**NƏSX (النسخ):**

Lüğətdə "aradan qaldırmaq, yox etmək, ləğv etmək, bir şeyi müəyyən bir yerdən başqa bir yerə daşımaq" kimi mənaları bildirir. Termin olaraq, şəri bir hökmün başqa bir şəri dəlillə aradan qaldırılmasını ifadə edir. Təfsir ədəbiyyatında isə bir ayənin hökmünün özündən sonra nazil olan başqa bir ayə ilə aradan qaldırılması, ləğv olunması mənasına gəlir. Əvvəl nazil olan hökmü qaldırılan ayəyə "mənsux", daha sonra nazil olan və əvvəlki ayənin hökmünü ləğv edən ayəyə isə "nasix" ayə deyilir. Qurani-Kərim ayələrində nəsxin mövcudluğu barəsində alimlər fərqli fikirlər səsləndirmişlər. Onlardan bəziləri Quran ayələrində nəsxin mövcudluğunu irəli sürmüş, digərləri isə Quran ayələri arasında nəsxin mümkün olmadığını iddia etmişlər. Nəsxin mövcudluğunu qəbul edənlər, əsasən, "Bəqərə" surəsinin 106-cı ayəsini dəlil kimi irəli sürmüşlər: "Biz hər hansı bir ayənin hökmünü ləğv edir və ya onu unutdururuqsa, mütləq ondan daha xeyirlisini və ya onun bənzərini gətiririk". Nəsxi qəbul etməyənlərə görə isə bu ayədə Quran ayələrinin hökmünün ləğv edilməsi deyil, Quranın daha əvvəlki kitabların hökmünü aradan qaldırması nəzərdə tutulur.

**NƏSİ (النسيئ):**

Hərfi mənası "təxirə salmaq, əlavə etmək, çoxaltmaq" olan nəsil termindən Cahiliyyət dövrünün ərəbləri qəməri təqvimi şəmsi təqvimə çevirmək üçün istifadə etmişlər. Cahiliyyət ərəbləri ümrə ziyarəti üçün rəcəb, həcc ibadəti üçün zilhiccə, ondan əvvəlki zilqədə və sonrakı məhərrəm aylarını haram aylar sayırdılar. Qəbilələrarası müharibələr, qan davaları, yarımadadakı yarmarkalar, həcci sabit bir vaxtda yerinə yetirmək və digər siyasi, iqtisadi, sosial və dini səbəblərdən tədricən haram ayların yerinə müdaxilə sayılan nəsi qaydasından istifadə etmişlər. Məhəmməd peyğəmbər vida həccində "Tövbə" surəsinin 36-37-ci ayələrinə əsasən, ayların sayının on iki olduğunu və nəsinin qadağan olunduğunu bildirmişdir.

**"NƏSR" SURƏSİ (سورة النصر):**

Quranın 110-cu surəsi. 3 ayədən ibarətdir. Mədinə dövründə nazil olub. Surənin adı ilk ayədəki "nəsr" (qələbə) sözündən alınmışdır. Surədə Allahın müsəlmanlara qələbə verməsinə, insanların İslama girməsinə, Allahı zikr etmənin əhəmiyyətinə qısaca işarə edilir.

**NƏSS (النص):**

Nəssin iki termin mənası var. Bunlardan birincisi, "Allah və Peyğəmbərin sözü" mənasındadır. Fiqh ədəbiyyatında "nəss" deyildikdə, geniş mənada bu termin başa düşülür. Şəri hökm axtarışında olan müctəhid əvvəlcə nəssə, yəni Quran və sünnəyə müraciət etməlidir. Burada hökmü olan bir məsələ haqqında ictihad etmək qəbul edilməmişdir. İkincisi isə fiqh üsulunda sözlərin açıqlıq baxımından təsnifində mənası açıq olan sözlərdir. "Nəss"in mənası açıq olmaqla birlikdə təvil, təxsis və nəsx mümkündür.

**NƏZAİR (النظائر):**

İslam hüququ ilk təşəkkül dövründə kazuistik bir metodla inkişaf etmişdir. Yəni fəri məsələlərə tək-tək həll yolu gətirmişdir. Bu metodda bir məsələ haqqında hökm verildikdən sonra, bənzər məsələlərdə də həmin yol izlənilir. Bu mənada, bənzər məsələlərə "nəzair" deyilir. Nəzair fiqh elmində mühüm yerə sahib olub, haqqında xeyli əsər yazılmışdır.

**NƏZƏR (النظر):**

Lüğəvi baxımdan "baxmaq, görmək; düşünmək; mütaliə etmək" mənalarına gələn "nəzər", termin kimi "bilinməyəni öyrənmək üçün bilinənlərdən məntiqi nəticə çıxarmaq" deməkdir. "İstidlal" mənasını verən nəzər bilik əldə etmə metodlarından biridir. İslam alimlərinin əksəriyyəti doğru bir metodla tətbiq edilən nəzərin insanı bilik ilə təmin edəcəyi qənaətindədir. Nəzəri əqaid və kəlam sahəsində tətbiq edən alimlərə "əhli-nəzər" deyilir.

**NƏZƏR BƏR QƏDƏM (نظر بر قدم):**

Başını aşağı salaraq ayaqlarına baxmaq mənasında işlədilən sufi terminologiyasına aid sözdür. Nəqşbəndilikdə qəlbin hüzurunu və mənəviyyatı qorumaq, seyr əhvalını pozmamaq üçün salikin faydasız nəzərlərdən uzaq durub ayaqlara baxması.

**NƏZİR (النذير):**

Bir insanın vacib hökmündə olmadığı halda, ibadəti edəcəyinə dair Allaha söz verməsinə "nəzir" deyilir. Nəzir demək mübah olduğu halda, nəziri yerinə yetirmək vacibdir. Nəzirin ibadət növündən olması şərtdir. İbadət olmayan bir şeyi, məsələn, dağa çıxmaq, müəyyən rəngdə paltar geyinmək nəzir deyilməz.

**NƏZİROĞULLARI (بنو النضير):**

Müsəlmanların hicrəti zamanı Mədinədə yaşayan üç yəhudi qəbiləsinin mənsublarının sayına görə ən böyüyü. Digər yəhudi qəbilələr kimi Mədinə müqaviləsinə daxil edilən Nəziroğulları Uhud döyüşü ərəfəsində düşmənlə gizli ittifaq quraraq, müqavilənin şərtlərini pozduqları və Məhəmməd peyğəmbəri öldürməyə təşəbbüs etdikləri üçün onlara Mədinədən çıxmaq üçün möhlət verildi. Təklifi qəbul etməyən Nəziroğulları müsəlmanlar tərəfindən

on beş gün mühasirə olundu, təslim olaraq şəhərdən çıxaraq Suriya, Əzriat və Xeybərdə məskunlaşdı. Xeybər fəthi zamanı Məhəmməd peyğəmbər bu qəbilənin rəislərindən birinin qızı olan Səfiyyə ilə evlənmişdir.

**NƏZZAMİLİK (النظّاميّة):**

Mötəzilə məzhəbinin böyük alimlərindən hesab olunan İbrahim ibn Səyyar ən-Nəzzamın (v. 231/845) teoloji görüşlərini mənimsəyənlərə verilən ad. Nəzzam atomların bölünməzliyi fikrinə qarşı çıxaraq cisimlərin potensial olaraq sonsuz şəkildə bölünməsinin mümkünlüyünü müdafiə etmiş, cisimlərin strukturuna və hərəkətinə dair özünəməxsus "kümun" və "təfrət" nəzəriyyələrini irəli sürmüşdür. Həmçinin o, insanların bəlağət baxımından Quranın bənzərini meydana gətirmə gücünə malik olduğunu, lakin Allah mane olduğu üçün bunu edə bilmədiklərini irəli sürən "sərfət" nəzəriyyəsinin banisi hesab olunur.

**NİCAT (نجاة)**

**Bax: FƏLAH.**

**NİGARİLİK(نگاريه):**

Azərbaycanda İsmayil Siracəddin Şirvani Kürdəmiri tərəfindən qurulan XIX əsr nəqşbəndilik təriqətinin bir qolu. Seyid Mir Həmzə Nigari tərəfindən davam etdirdiyi şirvaninəqşbəndi sufi yolu. Həmzə Nigari 1805-ci ildə Qarabağda Bərgüşad mahalının (indiki Laçın rayonunun) Cicimli kəndində doğulmuşdur, Əhli-beyt nəslindəndir. Allah eşqi, Peyğəmbər sevgisi, Əhli-beyt məhəbbəti ilə yaşayıb-yaratmış sufi şair nəqşbəndi prinsipləri ilə dini həyatın yayılmasına töhfələrini vermişdir. Onun qoyub-getdiyi irs eşqin fəlsəfəsinə xidmət etmişdir.

**NİKAH (النكاح):**

Dini baxımdan aralarında evlənmə maneəsi olmayan bir kişi ilə qadının evlilik müqaviləsi bağlaması. Nikah müqaviləsinin digər müqavilə növləri kimi, çox sayda şərtləri olmaqla yanaşı, rüknləri təklif və qəbuldan ibarətdir. Nikahın ən mühüm şərtlərindən biri elan olub, tərəflərin evli olduqlarının yaxın ətrafları tərəfindən bilinməsidir. Nikah müqaviləsi hər iki tərəfə müəyyən məsuliyyət gətirir.

**NİKEYA KREDOSU:**

325-ci ildə Nikeyada (İznik) həyata keçirilən Xristianlığın birinci "ökümenik" (universal) şurasında qəbul edilən iman əsasları üçün istifadə olunan termin. 381-ci ildə İstanbul şurasında təsdiqləndiyinə görə, Nikeya-İstanbul (Kadıköy) kredosu kimi də adlandırılır. Həvarilərin kredosu ilə birlikdə Nikeya kredosu Xristian liturgiyasında mühüm yer tutan iki kredodur.

**NİRANKARİ:**

Siqhizmin əsas qoluna görə heretik hesab edilən məzhəblərindən birinə verilən ad. Hərəkat XIX əsrdə Baba Dyalın başçılığı ilə ortaya çıxmışdır.

**NİRGRANTHALAR:**

Caynizmin Diqambara məzhəbinin rahiblərinə verilən ad. "Hər hansı bir bağı olmayan" mənasında nirgranthalar dünyəvi bağlardan tamamilə qurtulmuş hesab olunur və yalnız mərhəmətin simvolu kimi tük süpürgə, saflığın rəmzi kimi suqabı və biliyin rəmzi kimi dini mətnlərdən başqa hər hansı bir şəxsi əşyaya sahib olmurlar.

**NİRVANA (NİBBANA):**

Pali dilində "nibbana" – "sərinlənmiş" mənasında işlənir. Buddizmə görə, insanın dünyəvi arzulara bağlı təkrarlanan "karmadan" və onun əzab-əziyyətindən qurtuluşunu, sakitləşməsini ifadə edən termin. İnsanın hiss və arzularını oda bənzədən Budda bu odun sönməsini "Nirvana" adlandıraraq, Buddizmin ideal insan tipini formalaşdırmışdır.

**"NİSA" SURƏSİ (سورة النساء):**

Quranın 4-cü surəsi. 176 ayədən ibarətdir. Mədinə dövründə nazil olub. Surədə, əsasən, qadınların cəmiyyətdəki hüquqi, ictimai yeri, onlara olan münasibət, yetimlərin haqları, onların qorunması haqqındakı bəhslərə üstünlük verilmişdir. Buna görə də surə "nisa" (qadınlar) olaraq adlandırılmışdır.

**NİSAB (النصاب):**

Zəkat vermədə zənginlik ölçüsü kimi qəbul edilən və bir şəxsin müəyyən mal varlığına sahib olmasını ifadə edən termin. Bir insana zəkatın vacib olması üçün zəruri ehtiyaclarından əlavə, müəyyən miqdarda mala sahib olması lazımdır. Bunun miqdarı qızıl, gümüş, daşınmaz əmlak, mal-qara, əkin məhsulları kimi hər bir malın öz cinsindən hesablanması ilə təyin olunur. Nisab ölçüsü məzhəblər arasında ixtilaflı olmaqla yanaşı, bir-birinə yaxın miqdarda qəbul edilmişdir.

**NİSBƏ (النسبة):**

Bir şəxsin ailəsinə, qəbiləsinə, yaşadığı yerə, mənsub olduğu məzhəbə və yaxud peşəsinə görə adlandırılması üçün istifadə olunan termin.

**NİYYƏT (النية):**

Bir iş görmə iradəsi. Bəzi alimlər niyyəti Allahın razılığını qazanma istiqaməti ilə əlaqələndirsə də, fiqhi baxımdan həyatın hər sahəsində hüquqi nəticə meydana gətirən davranışlarda niyyətə böyük əhəmiyyət verilmişdir. Həzrət Peyğəmbərin "Əməllər niyyətlərə görədir..." hədisi bu anlayışın əsaslarından birini təşkil etmiş və "Bir işdən məqsəd nədirsə, hökm ona görədir" fiqhi qaydası bu anlayışı qanuniləşdirmişdir. İbadətlərdən-müqavilələrədək hüququn bütün sahələrində əsas götürülən niyyət, xüsusilə cəza hüququnda daha çox diqqətə alınaraq, cinayətin qəsdən, yoxsa səhvən olduğunun müəyyənləşdirilməsində böyük rol oynayır.

**NİZAM VƏ MƏQSƏD DƏLİLİ:**

İslam düşüncəsində kainatdakı nizamın Allahın varlığına dəlil təşkil

etdiyini ifadə edən fəlsəfi və teoloji dəlilin adı. Bu dəlil həm İslam kəlam elmində, həm də İslam fəlsəfəsində Tanrının varlığı ilə əlaqədar müraciət edilən əsas dəlillərdən biridir.

**NİZARİLİK (النزاريّة):**

İsmaililiyin ən böyük qolu.
**Bax: İSMAİLİLİK.**

**NOMİNALİZM (nominalism):**

Adla əlaqəli olan, ada aid. Ümumi fikirlərin (universallar) zehində və zehnin xaricində var olmadığını, özündən və ya təcrübənin məhsulu bir xəyal və addan ibarət olaraq, yəni yalnız əşyanın adları şəklində və bir termin kimi mövcud olduğunu qəbul edən görüş.

**NOUS:**

Qədim yunan fəlsəfəsində kainatı tənzim edən və maddi olmayan əsas prinsip.

**NÖQTƏVİLİK (النقطويّة):**

Hürufiliyin Mahmud Pəsixaniyə (v. 831/1428) aid edilən qolu. Nöqtəvilər nöqtəni varlığın yeganə əsası qəbul etdikləri üçün bu adla adlandırılmışlar. Pəsixani əvvəllər Fəzlullah Nəiminin müridi olmuş, lakin daha sonra təkəbbürlü davranışları üçün hürufilikdən uzaqlaşdırılmışdır. Buna görə də hürufilər arasında "Mahmudi-mərdud" (rədd edilən Mahmud) və "Mahmudi-mətrud" (qovulmuş Mahmud) adı ilə tanınmışdır. Mahmud Pəsixaninin özünü Araz çayına ataraq intihar etdiyi ehtimal olunur. Pəsixani özünü "mehdi" və ilahi təcəllinin daşıyıcısı elan etmiş, fikirlərini yaymaq üçün 16 əsər qələmə almışdır.

**NUH QANUNLARI:**

"Nuhun yeddi qanunu" adlandırılan və Yəhudiliyə görə Nuh peyğəmbərin öz qövmünə çatdırdığı qanunları ifadə edən termin. Talmuda görə, Nuh peyğəmbərə Tanrı tərəfindən verilən bu qanunlarda bütlərə ibadət, Tanrının adı ilə lənət, insan öldürülməsi, cinsi əxlaqsızlıq, oğurluq etmək qadağan olunmuş, adil məhkəmə sistemi qurulması əmr edilmiş və canlı heyvanın bir hissəsinin kəsilərək yeyilməsi qadağan olunmuşdur.

**"NUH" SURƏSİ (سورة نوح):**

Quranın 71-ci surəsi. 28 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surədə, əsasən, Nuh peyğəmbərin qəbiləsi ilə olan söhbəti əks olunduğu üçün onun adı ilə adlandırılmışdır.

**"NUR" SURƏSİ (سورة النور):**

Quranın 24-cü surəsi. 64 ayədən ibarətdir. Mədinə dövründə nazil olub. "Nur" ayəsi olaraq bilinən 35-ci ayəyə əsasən belə adlandırılmışdır. Surədə zina və onun cəzası, iman, küfr, nifaq mövzuları və evdəki bəzi ədəb qaydalarından bəhs edilir.

**NÜBÜVVƏT (النبوة):**

"Allah ilə bəndələri arasında dünya və axirət ilə əlaqədar məlumatın verilməsi məqsədilə icra edilən "elçilik vəzifəsi" kimi tərif edilir. Azərbaycan

dilində "nübüvvət" sözü yerinə "peyğəmbərlik" kəlməsi istifadə edilir. Nübüvvət Həzrət Adəm ilə başlayıb, Həzrət Məhəmməd ilə sona çatmışdır. İslama görə, Həzrət Məhəmməd son peyğəmbərdir. Nəbilər, yəni peyğəmbərlər Allahdan vəhy almaqla yanaşı, müəyyən xüsusiyyətlərə malik olmuşlar. "Xəvassi-nübüvvət" (Nübüvvətin xüsusiyyətləri) adlanan bu xüsusiyyətləri belə sıralamaq olar: sidq (doğruluq), əmanət, ismət (günahlardan uzaq olmaq), fətanət (iti zəkaya və yüksək qavrama qabiliyyətinə malik olmaq) və təbliğ (Allahın buyurduqlarını bəndələrə çatdırmaq).

**NÜSEYRİLİK (النصيريّة):**

Allahın Əli ibn Əbu Talibdə təzahür etdiyini irəli sürən məzhəb. Dövrümüzdə "ərəb ələviliyi" kimi də tanınan nüseyriliyin qurucusunun Məhəmməd ibn Nüseyr ən-Nəmiri (III/IX əsr) olduğu güman edilir. Məzhəbin fikirlərinin sistemləşdiricisi isə Hüseyn ibn Həmdan əl-Xəsibi (v. 346/957 və ya 358/969) olmuşdur. O, nüseyrilərin müqəddəs kitab hesab etdiyi "Kitab əl-məcmu"nu yazmış və bu kitabda nüseyriliyin əqidə əsaslarını müəyyən etmişdir. Nüseyrilikdə ərəb dilində üç hərfdən ibarət "AMS" – eyn, mim, sin (ع م س) – simvolikasının böyük əhəmiyyəti vardır. "Eyn" hərfi Əli ibn Əbu Talibi, "mim" Məhəmməd peyğəmbəri, "sin" isə Salman Farisini simvolizə edir. Əli "məna", Məhəmməd "ad" və ya "hicab", Salman isə "bab", yəni "qapı" adlandırılır. Nüseyriliyə görə, Tanrı tarixin müəyyən dövrlərində müxtəlif şəxslərdə təzahür etmişdir. Tanrının ən sonuncu və güclü təzahürü Əli ibn Əbu Talibdir. Bu baxımdan, Əli Tanrının hülul etdiyi şəxsdir. Namaz, oruc, zəkat və həcc kimi ibadətləri ənənəvi İslam anlayışından fərqli şəkildə şərh edən nüseyrilər, həmçinin insan ruhunun ölümdən sonra başqa bədəndə yenidən dünyaya gəldiyinə (reinkarnasiya) inanır. Müasir dövrdə nüseyrilər ən çox Suriya Ərəb Respublikasında yaşayırlar. Bu ölkədəki əhalinin, təqribən, 12-13%-i sözügedən məzhəbin mənsublarıdır. Bundan başqa, Türkiyənin Hatay və Adana vilayətlərində və Livanda da nüseyrilər vardır.

# O

**ON ƏMR:**

İbricə “ha dibberot” (on söz) şəklində Tövratda keçən (Çıxış, 34-28; Qanunun təkrarı, 4/13), latınca “decalogus”, yunanca “dekalogos” və digər qərb dillərində “decalogue” adlandırılan və Yəhudiliyə görə Tanrının Sinada Musa peyğəmbərə verdiyi daş lövhələrdə yazılmış əmrlər üçün istifadə olunan termin. On əmr Tanrının tək, şəriksiz və bütlərdən uzaq olduğu, adının boş yerə çəkilməməsi, şənbə gününün yalnız ona ibadətə həsr olunması, valideynlərə hörmət, insan öldürməmək, cinsi əxlaqsızlıq etməmək, qonşuya qarşı yalan şahidlik etməmək, qonşunun malına göz dikməmək kimi mövzuları əhatə edir. orduda olan narazı kütlənin bir hissəsi ayrılaraq, “Hərurə” adlanan yerə toplaşdı və onlara “həruriyyə” adı verildi. Xariciliyin ilk kütləsini məhz bu qrup təşkil edirdi. Əli ibn Əbu Talib Abdullah ibn Abbası onları geri dönməyə razı salmaq üçün göndərdi, sonra özü də hərurilərlə görüşüb onları geri qayıtmağa razı saldı. Daha sonra geri dönən qrupdan bir hissəsi yenidən ayrılaraq, “Nəhrəvan” adlı yerə toplaşdı. Əli ibn Əbu Talibin ordusu ilə onlar arasında Nəhrəvanda baş verən döyüşdə xaricilərin böyük əksəriyyəti öldürüldü.

**ORUC (الصيام):**

İslamın beş şərtindən biri olan ibadət. Oruc dan yerinin ağarmasından günəşin batmasınadək yeyib-içmək və cinsi əlaqədən uzaq durmaqdır. Nəfsin tərbiyəsi mahiyyətində olan oruc ibadətlər arasında xüsusi yerə sahib olub, savabını yalnız Allahın bildiyi mühüm ibadətdir. Ramazan ayında oruc tutmaq bütün müsəlmanlara vacibdir. Bunun xaricində həftənin müəyyən günlərində və ilin müxtəlif aylarında müstəhəb oruclar da var. Həzrət Peyğəmbər il ərzində müxtəlif vaxtlarda oruc tutar və ətrafındakılara da oruc tutmağı tövsiyə edərdi. Xüsusilə Ramazan ayından əvvəl gələn rəcəb və şaban aylarında oruc tutmaq müsəlmanlar arasında geniş yayılmışdı.

**OSMAN XƏTTİ (خط عثمان).**

**Bax: RƏSMİ-MÜSHƏF.**

**OSMANİLİK (العثمانيّة):**

Üçüncü xəlifə Osman ibn Əffanın (v. 35/656) tərəfdarlarına verilən ad. Əvvəllər daha çox Osmanın məzlumcasına öldürüldüyünü müdafiə edənlərə verilən ad olan osmanilik (osmaniyyə) zamanla sünniliyə verilən adlardan biri olmuşdur. Bəzi mənbələrdə osmanilərin Osman ibn

Əffanın bütün səhabələrdən üstün olduğunu iddia etdiyi qeyd olunsa da, əksər mənbələrə görə, onlar səhabələrin ən üstününün Əbubəkr, Ömər və daha sonra Osman olduğuna inanırdılar. Məşhur mötəzilə alimi Cahiz "Osmaniyyə" adlı əsər yazmış, burada şiələrin fikrini tənqid edərək Əbubəkrin səhabələrin ən üstünü olduğunu irəli sürmüşdür.

**ÖVCAİLİK (العوجائية):**

Əbdülkərim ibn Əbülövcanın (v. 155/ 772) tərəfdarlarına verilən ad. İbn Əbülövca Abbasilər dövründə Bəsrədə yaşamışdır. Əvvəllər məşhur alim Həsən əl-Bəsrinin tələbəsi olmuş, lakin daha sonralar reinkarnasiyanın doğruluğu və kainatın əbədiliyi fikrini mənimsəmiş, özündən hədislər uydurmuşdur. Kufə valisi Məhəmməd ibn Süleyman onu həbs etmiş və öldürülməsini əmr etmişdir. Öldürüləcəyini başa düşən İbn Əbülövcanın belə dediyi nəql olunur: "Məni öldürə bilməzsiniz, çünki mən halalı haram, halalı isə haram göstərən dörd min hədis uydurmuşam".

**ÖVFİLİK (العوفية) və ya ÖVNİLİK (العونية):**

Xariciliyin beyhəsilik firqəsinin qollarından biridir. Övfilər namazı tərk etmədiyi və namuslu qadına iftira atmadığı müddətdə içki içənlərin kafir olmadığını müdafiə edirdi. Övfilik öz daxilində iki qrupa bölünmüşdü: birinci qrup kafirlərin (xarici olmayanların) diyarından hicrət etməyənlərlə əlaqələrini kəsmiş, ikinci qrup isə hicrət etməməyin nöqsan olmadığını irəli sürmüşdür. Hər iki qrup dövlətin başında duran şəxsin kafir olduğu təqdirdə təbəəsinin də kafir olacağını iddia etmişdir.

**ÖVLADİ-ƏLİ (اولاد علي):**

Əli ibn Əbu Talibin övladları və nəsli üçün istifadə olunan termin. Əli ibn Əbu Talibin övladlarının sayı haqqında mənbələrdə müxtəlif rəvayətlər mövcud olmaqla birlikdə, ümumilikdə, on dörd oğlu və on yeddi qızı olduğu qəbul edilir. Həsən, Hüseyin, Mühsin, Zeynəb və Ümmü Gülsüm Məhəmməd peyğəmbərin qızı Fatimədən, bunların xaricindəki övladları isə onun vəfatından sonra evləndiyi digər həyat yoldaşlarından dünyaya gəlmişdir. İslam tarixində Övladi-Əlinin bir çox üzvü dini-siyasi səbəblər ucbatından faciəvi hadisələrlə qarşılaşmış, Həsən ibn Əli zəhərlənərək öldürülmüş, Hüseyn ibn Əli Kərbəlada faciəvi şəkildə qətl edilmiş, bir çoxu Əməvilər və Abbasilər dövründə təqibə və təzyiqlərə məruz qalmışdır. Abbasilər dövründən etibarən, Həsən ibn Əlinin övladlarının "şərif", Hüseyn ibn Əlinin övladlarının "seyyid" kimi rəsmi olaraq qeyd olunduğu "nəqibülənsab"lıq qurumunun əsasında "nəqibül-əşraflıq" qurumu təşəkkül etmiş və müxtəlif İslam dövlətlərində Övladi-Əlinin qeydiyyatı aparılmışdır. İslam tarixində Övladi-Əliyə mənsub olduqlarını iddia edən şəxslər

tərəfindən İdrisi, Rəssi, Zeydi, Fatimi və Həmmudi dövləti kimi dövlətlər qurulmuşdur.

**ÖVLİYA (الاولياء):**

Allahın dostu deməkdir. Allahın sevgisinə nail olub, Onu özünə dost bilən, Allahın da onu dost bildiyi, kəramət və ilham ehsan etdiyi kamil insan.

**ÖVZAİLİK (الأوزاعية):**

Tanınmış sünni alimlərindən biri olan Əbdürrəhman ibn Əmr əl-Övaziyə (v. 157/774) aid edilən fiqh məzhəbi. Hicri II (miladi VIII) əsrdə yaşamış əl-Övzai xüsusilə fiqh və hədis sahəsində çox sayda əsər qələmə almış, lakin onlardan ancaq biri Məhəmməd ibn İdris əş-Şafiinin "əl-Ümm" adlı əsərinin içərisində günümüzə qədər gəlib çatmışdır. "Kitab siyər əl-Övzai" adlı bu əsər Övzainin müharibə hüququ ilə bağlı Əbu Hənifəyə qarşı çıxdığı 35 məsələyə həsr olunmuşdur. Övzai hədis əhli (əhlülhədis) ilə rəy əhlinin (əhlürrəy) ortasında qərarlaşan bir fiqh metodunu inkişaf etdirmişdi. Hicri II və qismən III əsrdə İraq, Suriya, Hicaz, Misir, Məğrib və Əndəlüsdə mövcud olmuş övzailik (övzaiyyə) məzhəbi şafiilik və malikiliyin bu bölgələrdə güclənməsindən sonra zəifləməyə başlamış və zamanla tarix səhnəsindən silinmişdir.

# P

**PAQANİZM (paganism):**

Lüğəvi mənası "bütpərəstlik" deməkdir. "Paqanizm" təbii obyektlərə, rəsmlərə, bütlərə sitayiş etməyə deyilir. Əsasən, politeist (çoxtanrılı) dinlərdə ilahi varlıqlar maddi formalarda – rəsmlər, simvollar, heykəllərlə təsvir edildiyi və bu obyektlərə sitayiş edildiyi nəzərə çarpır. Fövqəltəbii qüvvələri təmsil edən bütlər daş, taxta, metaldan düzəldildiyi kimi, müəyyən bitki və heyvan da bütləşdirilə bilər. Paqanizmin yayıldığı cəmiyyətlərdə maddi bütlərə pərəstiş edilsə də, həmin bütlərdə mövcud olan və ya onda öz təcəssümünü tapan ilahi qüvvəyə sitayiş edildiyinə inanılır.

**PANENTEİZM (panentheism):**

Kainatın Tanrıdan yarandığını, lakin bununla yanaşı, Tanrının kainatın fövqündə olduğunu irəli sürən dini-fəlsəfi təlim. Panteizmdə hər şey Tanrıdır. Panenteizmdə isə hər şey Tanrıdandır, yəni Ondan yaranmışdır. Panenteizm teizmlə panteizmin sintezidir.

**PANİSLAMİZM (pan-islamism)**:

Bütün dünya müsəlmanlarının birliyi ideyasını təbliğ edən dini-siyasi ideologiya; İslam birliyi ideyası. XIX əsrin sonlarından etibarən əksər müsəlman ölkələrdə Qərb müstəmləkəçiliyinə qarşı azadlıq mübarizəsinin ideoloji bazası rolunu oynayan panislamizm, eyni zamanda, geniş islahatların həyata keçirilməsi vasitəsilə müsəlman cəmiyyətlərin modernləşdirilməsi ideyasını da ehtiva edirdi. Panislamizm ideologiyasının əsas təbliğatçılarından biri kimi çıxış edən Cəmaləddin Əfqani (1839-1897) siyasi və ictimai quruluşun İslam prinsiplərinə əsaslanması fikrini irəli sürür. Bununla yanaşı, elmi və texnoloji modernləşdirmənin də müsəlman ölkələrinin ətalət və geriliyinin aradan qaldırılmasının yeganə yolu hesab edirdi. Bu mənada, panislamizmin əsas hədəflərini müstəmləkəçiliyə qarşı mübarizə və müsəlman ölkələrinin dirçəlişinə nail olmaq təşkil edib.

**PANTEİZM (pantheism):**

Kainatı bütövlükdə Tanrı kimi qəbul edən fəlsəfi təlim. Yunanca "pan" – bütün, "teos" – "Tanrı" deməkdir. "Hər şey Tanrıdır" mənasında işlənir. Panteizmə görə, Tanrının kainatdan ayrı və müstəqil bir varlığı yoxdur, Tanrı təbiətdədir.

**PAPA:**

Yunanca "ata" mənasında "pappas"-dan Katolik Kilsənin ruhani lide-

ri və 1929-cu ildən Vatikan şəhər-dövlətinin başçısı üçün istifadə olunan dini-siyasi titul. Xristianlığın ilk əsrlərində Şərqi yepiskopların istifadə etdiyi bu titul IV əsrdən Roma yepiskopu tərəfindən də istifadə olunmuş, 998-ci ildə keçirilən Paviya Sinodundan sonra Roma yepiskopuna aid edilmişdir. Katolik Xristianlığa görə, ilk Roma yepiskopu hesab olunan müqəddəs həvari Petrus Papalıq qurumunun da təsisçisidir və ilk Papa onun davamçısıdır. Papa XI əsrdən etibarən kardinallar tərəfindən seçilir. Kardinalların üçdəikisindən çoxunun seçdiyi hər bir katolik kişi Papa seçilə bilər və Papa seçilən şəxs ömürlük olaraq bu vəzifədə qalar. Bununla birlikdə, katoliklik tarixində qeyri-ənənəvi üsulla otuz doqquz papa seçilmiş və istefa edən papalar da olmuşlar. 1870-ci ildə keçirilən I Vatikan Şurasında Katolik Kilsəsi Papanın "ökümenik" (universal) kilsədə ən ali mövqeyə sahib olduğunu qəbul etmişdir.

**PARYALAR:**

Hinduizmə görə kasta sisteminin xaricində qalan toxunulmazlar sinfi üçün istifadə olunan termin.

**PASXA:**

İbricə "pesax", yunanca "pesah" İsa Məsihin öldükdən sonra yenidən dirilməsi şərəfinə Xristianlıqda qeyd olunan bayram üçün istifadə olunan termin. "Milad bayramı" ilə birlikdə Xristianlığın iki ən böyük bayramından biri olan Pasxanın qeyd olunma tarixi 325-ci ildə keçirilən Nikea Şurasından etibarən dəyişdirilmiş və mart ayı ekinoksundan etibarən ayın bütövləşməsindən sonra ilk bazar günü qeyd olunmağa başlanmışdır. Pasxa süfrəsinin mühüm bir ünsürü olan yumurta İsa Məsihin öldükdən sonra yenidəndirilişinin simvoludur.

**PATRİARX:**

Hərfi mənası "bir ailənin atası, bir qəbilənin başçısı" olan "patriarx" Yəhudiliyə görə, Qədim Əhddə İbrahim, İshaq, Yaqub peyğəmbər və onun on iki oğlu üçün istifadə olunan termindir. Patriarx Xristianlıqda VI əsrdən etibarən Roma, İstanbul, Antakya, İskəndəriyyə və Qüds yepiskoplarını ifadə etmək üçün istifadə olunmuşdur.

**PENTAKOST BAZARİ:**

Yəhudiliyə görə, "passover" bayramından sonrakı əllinci gündə qeyd olunan "Həftələr bayramı"na verilən ad. Xristianlığa görə, Müqəddəs Ruhun həvarilərə nazil olması şərəfinə Pasxadan əlli gün sonra keçirilən bayramdır.

**PİR (پیر):**

Fars dilində "qoca" mənasındadır. Təsəvvüf və təriqətlər tarixində təriqətin qurucusu qəbul edilən sufi böyüklərinə verilən addır. Təriqət qurucuları «sahibi-təriqət», «təriqət banisi», "şeyxi-təriqət», «sər-çeşmə», «piri-təriqət» kimi ifadələrlə adlandırılmış və

təriqət ona nisbət edilmişdir. Məsələn: Abdulqadir Geylani qadiriyyənin, Əbül-Həsən Şazəli şazəliyyənin piridir.

**PİRİ-SANİ (پيرثانى):**

Təriqətin ikinci banisi deməkdir. Şeyx vəfat etdikdən sonra, təriqətin ədəb və ərkanı sistemli bir halda deyilsə, onu sistemli hala gətirən şəxsə piri-sani deyilir. Bu işi əksər hallarda şeyxin mənəvi mirasını təhvil almış bilikli, bacarıqlı, işin əhli və təcrübəli xəlifələrdən biri edirdi. Bu işi yerinə yetirən şeyxə «piri-sani» və ya «ikinci bani» deyilir. Ümumiliklə, təriqət «piri-sani» ilə son şəklinə qovuşduğu üçün təriqətin ikinci pirlərinə böyük önəm verilmişdir. Yəhya Şirvani (v. 862/1457) Xəlvətiyyənin, Əşrəfoğlu Rumi Qadiriyyənin piri-saniləridir. Mövləvilik, Mövlanədən sonra oğlu Sultan Vələdin, Bektaşiyyənin pirisanisi isə Balım Sultandır (v.1517).

**POLİQAMİYA (poligamy):**

Çoxevliliklə səciyyələnən ailə quruluşu. Ailə institutu təkevlilik, yaxud çoxevlilik strukturuna malik ola bilər. Bir nəfərlə evliliyə “monoqamiya”, birdən çox şəxslə evliliyə isə “poliqamiya” deyilir. Müxtəlif cəmiyyətlərdə poliqamiya nikah formasının iki şəkildə gerçəkləşdiyi müşahidə edilmişdir: bunlar kişinin birdən çox qadınla evliyi olan “poliginiya” və qadının bir çox kişi ilə evliliyindən ibarət olan “poliandriya”dır. Bu ailə tiplərindən bəzilərinə, xüsusilə də “poliandriya”ya bəzi ibtidai qəbilələrdə rast gəlinir. Qeyd edilməlidir ki, müasir dünyada daha çox təkevlilik modeli geniş yayılmış və demək olar ki, normativ bir hala gəlmişdir.

**POLİTEİZM (polytheism):**

İki və daha çox tanrıya inancın əsasında qurulmuş dünyagörüşünün ümumi adıdır. Politeizm monoteizmə və ateizmə zidd dünyagörüşüdür.

**POST (پوست):**

Qoyun dərisindən düzəldilən və təkkələrdə müəyyən titulları ifadə edən örtü mənasındadır. Şeyxlik məqamında təriqət liderinin, digər məqamlarda isə xanəgahda vəzifəsi olanların üstündə oturduğu örtü. Bektaşilikdə on iki post mövcud olmuşdur. Postlar təriqətdə fərqli statusdakı məqamları müxtəlif rənglərə boyanaraq ifadə edirdi. Məsələn: mövləvilikdə qırmızı post Sultan Vələdə, ağ post isə atəşbaz Vəliyə aid idi. Postları yerləşdirərək onları sahmana salan xidmətçi dərvişə “post nəqibi”, posta oturana isə “postnişin” deyilirdi.

**POSTNİŞİN (پوست نيشين):**

**Bax: POST**.

**POZİTİVİZM (positivism):**

Latınca “müsbət” mənasını verən “positivus” sözündən götürülmüş pozitivizm müasir fəlsəfi cərəyanlardan biri hesab olunur. Banisi Ogüst Kontdur (Auguste Comte). O, konkret (empirik) elmləri həqiqi, gerçək biliyin yeganə mənbəyi sayır və fəlsəfi

tədqiqatın idraki əhəmiyyətini inkar edir, nəzəri spekulyativliyi, bilik əldə etməyin vasitəsi kimi mücərrədliyi qəbul etmirdi. Mahiyyətinə görə, pozitivizm müəyyən münasibətlərdə ifrat məntiqi nəticələrə gətirib çıxarmış empirizmdir.

**PSİXOANALİZ (psychoanalysis):** Vyanalı psixoloq və həkim Ziqmund Freyd (1856-1939) tərəfindən yaradılan, şüuraltı nəzəriyyəyə əsaslanan psixoloji cərəyan. Z.Freyd hesab edirdi ki, insan davranışlarının çoxu şüuraltı proseslərdən irəli gəlir. Elə isə sadəcə, şüuru şərh etməyə istiqamətlənmiş psixoloji düşüncə insan davranışlarına istiqamət verən motivlərin idrakında yetərli ola bilməz. İnsan davranışları şüurun dərinliklərində var olan gizli qüvvələrin analizi vasitəsilə izah edilə bilər. Bu təlimə əsasən, "id", "eqo", "super-eqo" olmaqla, şüurun üç əsas hissəsi vardır. Şəxsiyyətin nüvəsini təşkil edən "id" bədənə aid bioloji məfhumdur. Təbii ehtiyac və motivlərdən ibarət olan bu xam təbiətdə həzz hissi hakimdir. "İd", eyni zamanda, bütün ruhi qüvvələrin enerji qaynağıdır. "Eqo" və "super-eqo" – şəxsiyyətin zamanla inkişaf edən tərəfləridir. "Super-eqo" insanın mənsub olduğu cəmiyyətin dəyər sistemini mənimsəməsi ilə formalaşır və şəxsiyyətin sosial tərəfini meydana gətirir. "Eqo" isə "id" və "super-eqo" arasında tarazlığı təmin etməyə çalışan idarəçi funksiyasıdır. Z.Freyd psixologiyaya yeni baxış və münasibət tərzi gətirmişdir. Bu cərəyan, eyni zamanda, ruhi həyatın bioloji təməllərinə də diqqət çəkmişdir. Freydin şəxsiyyət nəzəriyyəsi təşəkkül tapdıqda, onun bioloji bünövrəyə əsaslandığı məlum olmuşdur.

# R

**RABİTƏ (الرابطة):**

Lüğətdə "bağlılıq", "münasibət", "əlaqə qurmaq" deməkdir. Təriqət əhlinin tədris metodu. Sufi terminologiyasında "müridin zehin dünyası və təsəvvüründə mürşidi ilə birgəlik halında olması"nı ifadə edir. Rabitə, həmçinin müridin zikr ritualından əvvəl şeyxini düşünərək onun ibadətləri və əxlaqı kimi müsbət xüsusiyyətlərindən dərs alması və öz mənəvi kamilliyini formalaşdırdığı tədris vasitəsidir.

**RADİKALİZM (radicalism):**

Tədqiq etdiyi mövzunun son səbəblərinə, köklərinə enən düşüncə forması. İctimai-siyasi quruluşu, adət-ənənələri, dini-fəlsəfi ideyaları kəskin tənqid edib, bunları kökündən dəyişdirmək məqsədi güdən düşüncə və fikirlər.

**RAMA:**

Hinduizmə görə qəhrəman tanrı, tanrı Vişnunun avatarı və yaxud inkarnasiyasına verilən ad. Rama Brahmanizmin son dövründə yazılmış Smriti ədəbiyyatının mühüm bir hissəsi olan Ramayana dastanının baş qəhrəmanıdır.

**RASİONALİZM (rationalism):**

Latınca "rationalis" "ağıllı" idrak nəzəriyyəsində təlimdir. Rasionalizmə görə, səhih biliyin məntiqi əlamətləri olan ümumilik və zərurilik təcrübənin ümumiləşdirilməsindən əldə edilə bilməz; bunlar yalnız ağlın özündən, anadangəlmə olandan ağıla xas anlayışlardan (Dekartın anadangəlmə ideyalar nəzəriyyəsi) hasil edilə bilər.

**RASİONALLAŞMA (rationalization):**

Ağıl və məntiqin hakim olduğu düşüncə tərzi. Rasionallaşma prosesi modern cəmiyyətin səciyyəvi cəhətlərindən birini təşkil edir. Maariflənmə dövrünün rasional fəlsəfəsi ilə güclənən bu tendensiya fövqəltəbii və din ilə əlaqəli doqmatik düşüncənin əhəmiyyətini itirməsi, elmi metodların və praqmatik düşüncə tərzinin yayılması prosesini ifadə edir. Rasionallaşma və zəkanın üstünlüyünə duyulan qüvvətli inam maarifçilik ideyasının təməlini təşkil edirdi. Modernlik və rasionallıq arasındakı əlaqələri dərindən təhlil edən Maks Veber düşünür ki, rasionallaşma prosesi insan həyatının bütün sahələrində ənənəvi normalara və ya xarizmaya söykənən dəyərlərin tərk edilməsi, ictimai fəaliyyətdə hesablılıq və sistemli nəzarət şəklində təzahür edir. Bununla birlikdə, rasionallaşma prosesinin müasir dövrdə səbəb olduğu fəsadların nümunələri kimi, dəyərlərin aşınması, həyatın

mənasının itirilməsi və digər neqativ xüsusiyyətlər qeyd edilir.

**RAVƏNDİLİK (الراونديّة):**

Keysaniliyin ifrat qollarından biri. Qurucusu Abdullah ər-Ravəndidir (v. II/VIII əsrin birinci yarısı). Bəzi mənbələrdə ravəndiliyin (ravəndiyyə) imamətin Əli ibn Əbu Talibin oğlu Məhəmməd ibn əl-Hənəfiyyədən sonra onun oğlu Əbu Haşimə, ondan sonra isə Məhəmməd peyğəmbərin əmisi Abbas ibn Əbdülmüttəlibin nəslindən olan Məhəmməd ibn Əliyə keçdiyini iddia etdiyi qeyd olunur. Mənbələrin bir qismində isə ravəndiyyənin Həzrət Məhəmmədin vəfatından sonra İmamətin varislik yolu ilə əmisi Abbasa və onun nəslinə keçdiyini irəli sürdüyü bildirilir. Ravəndilər, həmçinin Abbasilərin ilk xəlifəsi olan Mənsurun tanrı olduğunu iddia edirdilər.

**RAVİ (الراوي):**

İslam Peyğəmbərinin hədislərini rəvayət edən şəxs. Hər hansı bir hədisin səhih sayılması onu rəvayət edən ravinin etibarlı olmasından asılıdır. Hədis üsulu elminə görə, ravinin etibarlı hesab edilməsi onun müsəlman və ədalətli olması, zəbt xüsusuyyətlərini daşıması və həddi-büluğa çatması kimi şərtlərdən asılıdır. Hədis elmində ravilər dövr etibarilə müəyyən təbəqələrə ayrılmışlar. Məsələn: səhabə nəsli ilk ravi təbəqəsidir. Onları tabiin nəsli təqib edir. Üçüncü nəsil isə "ətbaitabii" adlanır.

**REALİZM (realism):**

Latınca "realis" – gerçək, cismani mənasına gəlir. Varlığın insan zehnindən müstəqil mövcudluğunu qəbul edən fəlsəfi nəzəriyyə; obyektiv reallığın təsdiqi. İncəsənətin yeni bir istiqaməti kimi obyektiv, idraki və estetik təbiətin daha dolğun şəkildə təcəssüm edildiyi bədii üslubdur. Gerçəkliyə çoxcəhətli münasibətdə insan şəxsiyyətinin düzgün inikas etdirilməsi, fərdiləşdirilmiş təsvir vasitəsilə həyatda qanunauyğun, tipik olanın aşkara çıxarılması realizm üçün səciyyəvidir. Real aləmin ünsürləri və meyilləri incəsənət tarixinin ilk mərhələlərində aşkara çıxmışdır. Xüsusi bədii üslub kimi intibah dövründə təşəkkül tapmışdır.

**REKONKİSTA:**

VIII əsrin əvvəlində fəthi başlayan Əndəlüsün xristianlar tərəfindən yenidən geri qaytarılması hərəkatı üçün istifadə olunan termin. VIII əsrdə başlayan və səkkiz əsrə yaxın davam edən bu hərəkat nəticəsində, xüsusilə XI əsrdən etibarən bölgədəki İslam hakimiyyəti getdikcə zəiflədi və XV əsrdə yalnız Nəsrilər dövləti (1238-1492) ilə məhdudlaşdı. Səkkiz əsr boyunca rekonkista hərəkatının aparıcı qüvvəsi sayılan Kastiliya Krallığının 1469-cu ildə siyasi evlilik nəticəsində Araqon Krallığı ilə birləşdirilməsi rekonkista hərəkatında dönüş nöqtəsi oldu. 1492-ci ildə müsəlman hakimiyyətindəki ən son şəhər olan

Qranada ələ keçirilərək bölgədəki İslam hakimiyyətinə son verildi.

**RƏBBANİ ƏNƏNƏ:**

Yəhudiliyin Orta əsrlərdə yaranmış məzhəblərindən birinə verilən ad. İlk dövr yəhudi məzhəblərindən Ferisiliyin davamı olan Rəbbani Yəhudilik (Yahadut Rabbanit) II-VI əsrlərdə Babil və Qüds Talmudlarının yazılması prosesində yaranmışdır. Sonrakı dövrlərdə Talmuda dair şərh və sual-cavablar Rəbbani ədəbiyyatı meydana gətirmişdir. Müasir dövrdə Rəbbani ənənə Yəhudiliyin üç böyük məzhəbi vasitəsilə davam edir: Ortodoks, mühafizəkar və reformist.

**RƏCƏT (الرجعة):**

Şiəlikdə mövcud olan bir inanc. "Qayıtmaq, dönmək" mənasına gələn "rəcət" kəlməsi imamilikdə qiyamətdən əvvəl, "Mehdi"nin zühurundan sonra bəzi Əhli-beyt mənsublarının və onlara zülm edənlərin dirildilərək birincilərin intiqamının ikincilərdən alınması kimi qəbul edilmişdir. İmamiliyin içərisində az bir qrup isə rəcəti "dirildilmək" əvəzinə "hakimiyyətin və gücün yenidən Əhli-beytə qayıtması" kimi qəbul etmişdir. Şiəliyin bəzi digər qollarında da fərqli şəkillərdə rəcət inancı mövcud olmuşdur.

**RƏCM (الرجم):**

Zina cinayətinə müəyyən şərtlər daxilində verilən cəza. Rəcm cəzası evli olan müsəlmana verilən cəzadır. Evli olmayanların zina cəzası isə yüz çubuqdur. Rəcm cəzası daşlayaraq öldürməkdir. Müasir dövrdə İslam dünyasında rəcm cəzasına müxtəlif yanaşmalar mövcuddur.

**"RƏD" SURƏSİ (سورة الرعد):**

Quranın 13-cü surəsi. 43 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı 13-cü ayədəki rəd – göy gurultusu sözündən alınmışdır. Surədə, əsasən, Allahın varlığı, yaradıcı sifəti, peyğəmbərlik və möcüzə mövzularından bəhs edilir.

**"RƏHMAN" SURƏSİ (سورة الرحمن):**

Quranın 55-ci surəsi. 78 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədə keçən, Allahın adlarından biri olan "Rəhman" (mərhəmətli) sözündən alınmışdır. Surədə, əsasən, insanlara verilən nemətlərdən bəhs edilib, onlara Allahın qüdrəti xatırladılır.

**RƏSƏDXANA (رصدخانه):**

Ərəbcə "rəsəd" (müşahidə) və farsca "xanə" (ev) sözünün birləşməsindən yaranmış, müsəlmanların astronomiyaya dair müşahidələr apardıqları binalar üçün istifadə olunan termin. İslam dünyasında ilk dəfə astronomiyaya dair nizamlı müşahidələrin aparıldığı, müşahidə cihazlarının istifadə olunduğu, riyaziyyatçılarla astronomların birlikdə işlədikləri rəsədxanalar Abbasi xəlifəsi Məmunun (813-833) dövründən etibarən fəaliyyət göstərmiş, Bağdaddakı Şəmmasiyə və Dəməşqdəki Qasiyyun rəsədxanaları dövrün məşhur rəsədxanaları olmuşdur.

**RƏSM (الرسم):**

Subyekt və predikatdan ibarət olan aksidental tərif. Bu tərif iki növdür: 1) Rəsmi-tam; 2) Rəsmi-naqis.

**RƏSMİ-MÜSHƏF (رسم المصحف):**

Üçüncü xəlifə Osman ibn Əffan tərəfindən nüsxələnən müshəflərdə istifadə olunan özünəməxsus yazı forması və qaydaları. Bu yazı formasına "Rəsmi-Osmani", "Xətti-Osmani", "Xətti-İstilahi", "Rəsmi-məsahifil-Osmani", "Kitabətil-Quran" da deyilir. Osmanın nüsxələtdiyi müshəflərdə tətbiq olunan yazı forması və qaydaları Quran elmləri içərisində "müshəf yazısı" adı verilən xüsusi bir yazı formasının meydana çıxmasına səbəb olmuşdur. İlk zamanlardan etibarən yazılan müshəflərdə orijinallığın qorunması məqsədi ilə bu yazı növünün olduğu kimi qorunub-saxlanması barəsində ilk dövr İslam alimlərinin ortaq mövqe nümayiş etdirdikləri bildirilir.

**RƏSMİ-NAQİS (الرسم الناقص):**

Naqis aksidental tərif. Obyektin əlamətləri, yaxud uzaq cinsi ilə əlaqəsinə əsaslanaraq ortaya qoyulan tərif (tərif). Məsələn: "İnsan yatan bir varlıqdır" və ya "İnsan yatan bir cisimdir" şəklindəki propozisiya insan məfhumunun naqis tərifdir.

**RƏSMİ-TAM (الرسم التام):**

Tam aksidental tərif. Bir şeyin yaxın cinsi ilə xassəsindən ibarət olan tərif. Məsələn: "İnsan gülən canlıdır" şəklindəki tərif insanla əlaqədar tam tərifdir.

**RƏVAQ (رواق):**

Memarlıqda binaya bitişik, üstüörtülü, qarşısı açıq sahə ilə əlaqəli istifadə olunan termin.

**RƏVAYƏT (الرواية):**

Həzrət Peyğəmbərin hədislərini öz ravilərinə istinad edərək nəql etmək "rəvayət" adlanır. Rəvayət əsas etibarilə üç hissədən ibarətdir: 1. Rəvayət edilən hədis. 2. Hədisin istinad edildiyi ravi və ya şeyx. 3. Hədisi nəql edən ravi. Səhabələr Həzrət Peyğəmbərdən eşitdiklərini, gördüklərini və öyrəndiklərini ona istinad edərək, tabiin nəslinə rəvayət etmişlər. Tabiin nəsli də Peyğəmbər ilə əlaqədar səhabələrdən eşitdiklərini və öyrəndiklərini səhabələrə istinad etmək şərtiylə ətbai-tabiin nəslinin nümayəndələrinə rəvayət etmişlər.

**RƏVAYƏT TƏFSİRİ (التفسير بالرواية):**

Quran, Həzrət Peyğəmbərin sünnəsi, səhabə və tabiin nəslindən nəql edilən xəbərlər, ərəb dili və Cahiliyyət dövrü ərəb şeiri kimi nəqli dəlillərə əsaslanan təfsir növü.

**RƏY (الرأي):**

Müctəhidin Quran və sünnəyə əsasən əldə etdiyi qənaəti, düşüncəsi və fikrinə "rəy" deyilir. Fiqh üsulunda rəy çox ümumi mənə ifadə edib, vəhyin gətirdikləri xaricindəki şəri hökmləri ifadə edir. Fiqh üsulu metodlarına bağlı olmayan müstəqil düşüncə mənasında rəy qəbul

edilməmişdir. Müctəhidin rəyi deyildikdə, "müəyyən metodlar əsasında dini mənbələrdən hökm əldə etmə" başa düşülür. Bu prosesdə müctəhidin şəxsi bilik, təcrübə, düşüncə və qənaətləri rol oynayır. Bununla birlikdə, rəy klassik fiqh kitablarında müxtəlif mənalarda işlədilmişdir.

**RƏY TƏFSİRİ (التفسير بالرأي).**

**Bax: DİRAYƏT TƏFSİRİ.**

**RİCAL (الرجال):**

Hədis üsulunda hədisləri rəvayət edən ravilər üçün istifadə edilən termin. Ərəb dilində "insan və kişi" mənalarını verən "racülün" kəlməsinin cəmidir. Bu, hədis mənbələrində "ricalül-hədis", yəni hədisin raviləri surətində də mövcuddur. "Bu hədisin ricalı siqədir (etibarlı)" cümləsindəki "rical" kəlməsi ümumi məna deyil, hədis termini kimi xüsusi məna ifadə edir və onunla hədisin raviləri nəzərdə tutulur.

**RİCİ TALAQ (الطلاق الرجعي):**

Kişinin yeni nikaha ehtiyac olmadan iddət müddətində boşadığı qadına qayıtma haqqının olduğu boşama. Boşamanın rici talaq olması üçün birinci və ya ikinci boşama olması şərtdir. Üçüncü boşamadan sonra boşama bain talaq olur, yəni evliliyin davam etməsi üçün yeni nikah müqaviləsi bağlamaq tələb edilir. Rici talaqın ikinci şərti kişinin qadına iddət müddətində qayıtmasıdır. İddət müddəti tamamlandıqdan sonra rici talaq bain talaqa çevrilər.

**RİDDƏ MÜHARİBƏLƏRİ (حروب الردة):**

Məhəmməd peyğəmbərin həyatının sonuna yaxın Ərəbistan yarımadasında müxtəlif şəxslərin peyğəmbərlik iddiası ilə meydana çıxması və qəbilələrin bağladıqları müqaviləni pozaraq İslamdan çıxması hərəkatına qarşı aparılan hərbi yürüşlər üçün istifadə olunan termin. Əsvəd əl-Ənsi, Tüleyhə ibn Xüveylid, Müseylimətül-Kəzzab, Səcah və digər saxta peyğəmbərlərə qarşı Məhəmməd peyğəmbər və birinci xəlifə Əbu Bəkr dövründə aparılan müharibələr nəticəsində irtidad etmiş ərəb qəbilələri yenidən İslam hakimiyyətinə daxil olmuşdurlar.

**RİHLƏ (الرحلة):**

Hədis terminologiyasında mühəddislərin hədisləri öyrənmək məqsədilə uzaq diyarlara səfər etməsi. Bir məkandan başqa bir məkana köç etmək və səfərə çıxmaq mənasına gələn "rəhələ" feilinin məsdəridir. Bu termin hədis üsulu əsərlərində "ər-Rihlə fi tələb əl-hədis", – deyə ifadə edilir. Rihlə hədis ədəbiyyatının formalaşmasında böyük əhəmiyyət kəsb etmişdir. Belə ki, müxtəlif şəhərlərdə yaşayan mühəddislər eşitmədikləri və ya eşidib səhhətindən (doğruluğundan) əmin olmaq istədikləri hədisləri mənbəyindən öyrənmək məqsədilə başqa şəhərlərə elmi səfərlərə çıxırdılar. Məhz bu səfərlər "rihlə" adlanırdı. Məsələn: Cabir ibn Abdullahın bir hədisin səhihliyini araşdırmaq məqsədilə Abdullah ibn Üneysin ya-

nına getmək üçün bir aylıq məsafə qət etdiyi rəvayət edilir.

**RİXVƏT (الرّخوة):**

Lüğəvi baxımdan "zəif və yumşaq" mənalarını verir. Termin olaraq hərflər sükunlu oxunduqda səsin və nəfəsin birlikdə çıxmasına "rixvət" deyilir. Bu xüsusiyyəti daşıyan 16 hərf var: ا، ث، ح، خ، ذ، ز، س، ش، ص، ض، ظ، غ، ف، و، ه، ي

**RİKAZ/DƏFİNƏ (الدفينة/ركاز):**

Torpağın altında gizlədilmiş, sahibi bilinməyən pul və qiymətli əşyaya "rikaz" və ya "dəfinə" deyilir. Bəzi fəqihlər mədənləri də dəfinə statusuna daxil etmişlər. Üzərindəki işarə və ya yazılardan, yaxud başqa bir əlamətdən İslamdan əvvələ aid olduğu anlaşılan dəfinələrə "kənzi-cahili", İslamdan sonra olanlara isə "kənzi-islami" deyilir. Kənzi-islami hökmündə olan dəfinələr lüqətə, yəni itmiş mal hökmündə qəbul edildiyinə görə dəfinə hökmlərinə kənzi-cahili daxil edilmişdir. Dəfinənin beşdəbiri beytülmala, yəni dövlət büdcəsinə vergi olaraq verilər, qalan hissəsi dəfinə tapana aiddir. Dəfinənin tapıldığı torpağın mülkiyyəti kimi bir çox şərtlərə görə fərqli hökmlər haqqında ixtilaf var.

**RİSALƏT (الرسالة)**

**Bax: NÜBÜVVƏT.**

**RİTUAL (rite).**

**Bax: AYİN.**

**RİYAZƏT (الرياضة):**

Tərbiyə və islah etmə deməkdir. Sufilikdə nəfsin tərbiyəsi və onun metodlarını ifadə edir. Nəfsi ibadətə alışdırmaq və mənəvi zənginlik qazandırmaq üçün onu ac, susuz, yuxusuz qoymaq və sevdiyi şeylərdən məhrum etməklə tərbiyələndirməkdir. "Böyük cihad" adlanan nəfs tərbiyəsi sufinin həyatı boyu davam edir. Məhz bu səbəbdən, nəfslə mübarizəyə "sülhü olmayan müharibə" deyilmişdir.

**RİZA (الرضا):**

İnsanın gücü daxilində olub, varlıq və yoxluq ehtimalları olan bir məsələdə bu iki ehtimaldan birini seçməsinə "riza" deyilir. Rizanın səhih olması üçün mükəlləf əda əhliyyətinə sahib olması və ikrahın olmaması şərtdir. İslam hüququnda riza müqavilələrin əsası hesab edilir.

**ROŞ HAŞANA:**

Yəhudilikdə sentyabr-oktyabr aylarında yeni ilin qeyd olunduğu ikigünlük bayram. Yeni il günü Tanrının insanları mühakimə etdiyinə və növbəti ilin qədərini müəyyənləşdirdiyinə inanılır.

**RÖVŞƏNİLİK (روشنية):**

Xəlvətilik təriqətinin Dədə Ömər Rövşəni (v. 1487) tərəfindən qurulan qoludur.

**RÖYƏT (الرؤية):**

Görmək deməkdir. Qəlb gözü ilə ətraf aləmdə və hər yerdə Allahı görməkdir.

**RUH (الروح):**

Ərəb dilində “rəvəhə” kökündən meydana gələn “ruh” lüğəvi baxımdan “havanın küləkli olması; bir şeyin qoxusunu almaq; dinclik tapmaq” mənalarını ifadə edir. Terminoloji baxımdan isə “insan və heyvanların həyatını təmin edən ünsür” kimi tərif olunur. Ruhun “nəfs” mənası da mövcuddur. Ruh insan ana bətnində formalaşarkən mələk tərəfindən bədəninə üfürülən, ölüm anında isə çıxarılan, insanın məsuliyyət daşımasını təmin edən dərkedici həqiqət və həyat cövhəridir.

**“RUM” SURƏSİ (سورة الروم):**

Quranın 30-cu surəsi. 60 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. İlk ayədə bizanslıların (rum) məğlubiyyətindən və daha sonra qalib gələcəklərindən bəhs edildiyi üçün belə adlandırılmışdır. Surədə axirət həyatına inanmağın və Allahı xatırlamağın əhəmiyyətindən bəhs edilir.

**RÜBAİYYAT (الرباعيّات):**

Son ravi ilə İslam Peyğəmbəri arasında dörd ravinin yer aldığı hədislər. Ərəb dilindən “dördlük” mənasını verən “rübai” kəlməsinin cəmidir. Rübai hədislər ali isnad qrupuna daxildir. Mühəddislər “ər-Rübaiyyat” adlanan əsər növlərində rübaiyə isnadla rəvayət edilən hədisləri cəm etmişlər.

**RÜXSƏT (الرخصة):**

Şəriətin məqbul saydığı bir səbəbə əsasən, normal hallara aid olan əsli hökmü tərk edib müvəqqəti hökmə görə hərəkət etmək. Rüxsətin haram işləmə və vacibi tərk etmə olmaqla iki növü var. Susuzluqdan ölmə təhlükəsində olan insanın şərab içməsi haram işləmə, namazların qısaldılması isə vacibi tərk etmə rüxsətidir. Rüxsət dini hökmlərin tətbiq olunmasını asanlaşdırmaq məqsədi daşıyır. Rüxsətin səbəbi aradan qalxdıqdan sonra əsli hökm olan əzimətə geri qayıdılar.

**RÜKƏT (الركعة):**

Namazın müəyyən ünsürlərdən meydana gələn hər bir bölməsi. Bu ünsürlər qiyam, qiraət, rüku və səcdə kimi namazı meydana gətirən əsas hərəkətlərdir. Bir namazın tamamlanması üçün rükətlər tam yerinə yetirilməlidir. Rükət sayı az olan namazlar məqbul deyil. Rükətlər isə namazı batil etməz. Camaatla qılınan namazlarda camaata sonradan qoşulan kəs əskik rükəti qaldığı təqdirdə, camaat namazı qurtardıqdan sonra bunları qəza etməlidir.

**RÜKN (الركن):**

Bir ibadət və ya hüquqi işi meydana gətirən ünsürlərdən hər biri. Rükn şərtlə müqayisəli şəkildə izah edilir. Fəqihlər də bəzən bir ünsürün rükn, yoxsa şərt olduğuna daim ixtilaf etmişlər. Əsasən, rükn bir nəsnənin varlığından müəyyən parça olan ünsürə deyilir. Şərt isə bir nəsnənin varlığından kənardadır. Rüknü əskik olan bir ibadət və ya hüquqi iş batildir.

**RÜKU (الركوع):**

Namazın rüknlərindən biri olan "rüku" qiraətdən sonra əllər dizə çatacaq və bel ilə baş düz olacaq şəkildə əyilməkdir. Rükunun namazın vaciblərindən biri olması qəbul edilmişdir. Xəstəlik səbəbindən rükuya gedə bilməyənlərin qiyamda durduğu vəziyyətdən bir az əyilməsi yetərlidir. Rüku ilə bağlı digər bir hökm isə camaatla qılınan namazlarda rükətə rükuda çatan kimsə o rükəti qılmış hesab olunur.

**RÜQYƏ (الرقية):**

Lüğəvi baxımdan "yuxarı çıxmaq, ovsunlamaq, oxuyub-üfürmək məqsədilə müalicə etmək" mənalarını ifadə edir. Dini terminologiyaya görə, "rüqyə" "şəfa və qorunmaq məqsədilə Qurani-Kərimin bir surəsini, ilahi ad və sifətləri (atribut), yaxud hər hansı bir duanı oxuyub-üfürmək" deməkdir. İslam alimləri müsəlmanın şəfanı Allahdan gözləyərək dua oxuyub əhval-ruhiyyəsini yüksəltməsini məsləhət görmüşlər.

**RÜŞD (الرشد):**

Bir insanın mal-mülkünü dinindən və ağlın prinsiplərinə uyğun olaraq mühafizə edib xərcləməsinə imkan verən əqli kamilliyə sahib olması. Həddi-büluğ yaşı yaxınlaşan uşaqlar rüşd çağına çatıb-çatmadığını öyrənmək üçün sınanılır. Ona tapşırılan işi uğurla yerinə yetirərsə, rüşdə sahib olduğuna qərar verilir. Buna görə də rüşdün müəyyən bir yaşı yoxdur. Həddi-büluğ yaşını keçdiyi halda rüşdə sahib olmayan səfeh hökmündədir.

# S

**SABİİ (الصابئي):**

Orta əsrlərdə İraqın cənubunda yaşayan və işıq-zülmət dualizminə əsaslanan qnostik inanclara sahib dini camaatın mənsublarına verilən ad. Quranda üç yerdə ("Bəqərə", 2/62; "Maidə", 5/69; "Həcc", 22/17) adları qeyd olunan sabiilər özlərini mandayizmin mənsubları – "mandaylar" (bilənlər) adlandırırlar. Sabiiliyin müqəddəs kitabları arasında Ginza (xəzinə) müxtəlif teoloji və mifoloji mövzulardan bəhs edir, Draşya-d-Yahya Yəhyanın təlimlərini, Kolasta isə ibadətləri əhatə edir. Metafizik aləmlə mövcud aləm arasındakı dualizm inancı üzərində qurulmuş Sabiiliyin təlimlərində qnostisizmin bir çox ünsürü öz əksini tapmışdır. **Bax: QNOSTİSİZM.**

**"SAD" SURƏSİ (سورة ص):**

Quranın 38-ci surəsi. 88 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki "sad" hərfindən alınmışdır. Surədə, əsasən, təktanrıçılıq, peyğəmbərlik və axirət haqqındakı mövzulardan bəhs edilmiş, inanmayanlar doğru yola dəvət edilmişlər. Eyni zamanda, Süleyman, Əyyub, İbrahim, İshaq, Yaqub, İsmayıl və Zülkifl peyğəmbərlərdən nümunələr gətirilib.

**"SAFFAT" SURƏSİ (سورة الصافات):**

Quranın 37-ci surəsi. 182 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki "səf-səf duran mələklər" ifadəsindən alınmışdır. Surədə təktanrıçılıq və axirət anlayışı haqqında bəhs edilmiş, kainatın yaradılışı haqqında məlumat verilmiş, Nuh, İbrahim, Musa, Harun, İlyas, Lut və Yunus peyğəmbərlərdən nümunələr gətirilmişdir.

**SAHİBÜZZƏNC (صاحب الزنج):**

IX əsrdə Bəsrə və ətrafında üsyan edən zənci qulların lideri Əli ibn Məhəmməd əz-Zəncinin ləqəbi. Məhəmməd peyğəmbərin nəslindən gəldiyini iddia edən Əli ibn Məhəmməd Bəsrə şəhərində və ətrafında ağır şərtlərdə işlədilən çox sayda zənci qulu ətrafında toplamış və 869-cu ildə üsyan etmişdir. Übüllə, Əhvaz, Bəsrə, Vasit şəhərlərini ələ keçirən Sahibüzzənc 883-cü ildə Abbasi xəlifəsi Mötəmidin göndərdiyi ordu tərəfindən məğlub edilərək edam edildi.

**SAHUR/İMSAK/OBAŞDANLIQ (السحور):**

Oruca hazırlıq niyyəti ilə imsak vaxtından əvvəl yeyib-içmək. Sahurun vaxtı gecənin yarısı və ya son üçdəbiri ilə başlayıb, dan yerinin ağarması ilə

sona çatar. Sahura qalxmağın hökmü sünnətdir, Həzrət Peyğəmbər sahura qalxmağı təşviq etmişdir.

**SAKRAMENT:**

Latınca "and içmək", "təqdis etmək" mənasında "sacro"dan gələn və Xristianlıqda böyük əhəmiyyət daşıyan ayinlərə verilən ad. Vəftiz, evharistiya, gücləndirmə, nikah, rahiblik sirri, günah etirafı/tövbə və xəstə yağlamaq katolik Xristianlığa görə yeddi əsas sakrament sayılır. Pravoslav Xristianlıq yeddi sakramenti qəbul etməklə yanaşı, sakramentləri kilsənin digər ayinlərini əhatə edəcək qədər genişləndirir. Protestanlıqda isə yalnız vəftiz və evharistiya əsas sakramentlər sayılır. Reformçu, Lüteran, Anqlikan və Metodist kilsələri də sakramentlərə görə bir-birindən fərqlənir **(bax: LİTURGİYA).**

**SALİK (السالك):**

"Yolçu" mənasında salik "təsəvvüf yoluna girən "şəxs"dir. Allaha gedən yolu bəyənənə əhli-süluk, yaxud seyr əhli də deyilir. **Bax: SEYR.**

**SALİMİLİK (السالميّة):**

Qurucusu İbn Salim əl-Bəsri (v. 297/909) olan kəlam məzhəbi. Sufiliyə meyilli olan Məhəmməd ibn Əhməd ibn Salim əl-Bəsri məşhur sufi mütəfəkkir Səhl ibn Abdullah Tüstərinin (v. 283/896) tələbəsi olmuşdur. Onun Bəsrə şəhərində qurduğu salimilik (salimiyyə) məzhəbi hicri III (miladi IX) əsrdə sözügedən şəhərdə dindar insanlar arasında yayılmışdı. Salimilik məzhəbinin nümayəndələri həm kəlam elmini öyrənir, həm də təsəvvüfə meyl göstərirdilər. İbn Salim əl-Bəsri kəlam elminə dair əsərlər qələmə almış, lakin onlardan heç biri dövrümüzə gəlib çıxmamışdır. Onun kəlama dair fikirləri haqqında daha çox salimiyyəyə tənqidi yanaşan hənbəli məzhəbinin alimlərinin əsərlərində məlumat verilmişdir. Ümumilikdə, salimiliyin fikirləri kəlam elmi ilə sufiliyin sintezindən ibarətdir. Sözügedən məzhəbin hicri III-V (miladi IX-XI) əsrlər arasında İraq və Suriya başda olmaqla, İslam dünyasının müxtəlif bölgələrində tərəfdarları olmuş, lakin bu məzhəb zamanla tarix səhnəsindən silinmişdir.

**SALMANİLİK (السلمانيّة):**

Məhəmməd peyğəmbərin iranəsilli səhabəsi Salman Farisinin (v. 36/656 [?]) yüksək ilahi məqama malik olduğunu iddia edən qruplara verilən ad. Həmçinin "Salman" sözünün birinci hərfi olan "sin" hərfindən çıxış edərək "siniyyə" də adlandırılan bu qruplar Salman Farisinin "ilahi həqiqətin giriş qapısı (bab)" olduğunu irəli sürmüşlər.

**SANATANA DHARMA:**

Sanskritcə "əzəli-əbədi din" mənasında Hinduizm üçün istifadə olunan termin. **Bax: HİNDUİZM.**

**SANGHA:**

Buddizmdə kişi rahiblər cəmiyyətinin adı. Dünyanın ən qədim tərki-dünya

rahib cəmiyyəti sayılan Sanghanın əsası Budda tərəfindən qoyulmuş və bu təşkilat onun vəfatından sonra Buddizmin təlimlərinin yayılmasında mühüm rol oynamışdır. Budda və "dhamma" (doktrina) ilə birlikdə sanghaya sığınmaq Buddizmin "triratna" (üç qiymətli daş) adlandırılan inanc əsasını təşkil edir. Həyatında rahiblik dövrü keçirməmiş heç bir buddistin Nirvanaya çata bilməyəcəyi inancına görə Sanghanın qurtuluş inancında mühüm yeri vardır.

**SEÇMƏ (sampling):**

Empirik sosioloji tədqiqatlarda geniş əhali arasında araşdırmaya cəlb edilməsi nəzərdə tutulan qrupun seçilməsi prosesi. **Bax: BAŞ MƏCMU.**

**SEFARAD (SEFARDİM):**

İspaniya, Portuqaliya, İberiya yarımadası və Şimali Afrikada yaşayan yəhudi camaatını ifadə edən termin. Fələstin yəhudiliyinin davamı olan aşkenazi yəhudilərindən fərqli olaraq Sefarad yəhudilər Babil ənənəsinin davamçıları sayılır. Sefarad yəhudiləri Aşkenaz yəhudilərdən inancdan daha çox ictimai struktur, adət-ənənə, dil və mədəniyyət cəhətdən fərqlənir. Babil və Qüds ənənəsindən başqa Orta əsrlərdə İslam mədəniyyətinin tərkibində yaşadıqları dövrdə Sefarad yəhudilər elm və mədəniyyət cəhətdən inkişaf edərkən, xristian kilsəsinin təzyiqi altında qalan Aşkenaz yəhudilər isə daha az inkişaf etmiş və bu fərqlilik XVII əsrə qədər davam etmişdir. Məşhur yəhudi teoloq və filosofu Maymonid (Moşe ben Maymon) başda olmaqla Orta əsrlərin çox sayda yəhudi alimi Sefarad yəhudiləri arasından çıxmışdır.

**SEHR (السحر):**

"Bir şeyi olduğundan fərqli göstərmək, aldatmaq; birinin diqqətini cəlb etmək" mənalarını ifadə edir. Terminoloji baxımdan isə sehri belə tərif etmək mümkündür: "Xüsusi qabiliyyətdən istifadə etmək və ya ruhani varlıqlardan kömək istəmək məqsədilə icra edilən fövqəladə iş". "Bəqərə" surəsinin 102-ci ayəsində sehr qadağan edilmiş və onun Allahın izni olmadan heç kəsə təsir edə bilməyəcəyi vurğulanmışdır.

**SEKTA (sect):**

Dini qrup. Sekta heterodoks, yəni ənənəvi olmayan dini qrupların növlərindən biri hesab olunur. **Bax: DİNİ QRUP.**

**SEKULYARİZASİYA (secularization):**

Sekulyarizasiya və ya dünyəviləşmə – institusional, ictimai və mədəni müstəvidə dinin əhəmiyyətini itirməsi və ya zəifləməsi prosesini ifadə edən sosioloji nəzəriyyədir. Sekulyarizasiya və dünyəviləşmə terminləri, əsasən, sinonim olaraq istifadə edilir. Sekulyarizasiya prosesi dini normalar və dəyərlərin getdikcə ictimai əhəmiyyətini itirməsi, digər tərəfdən, rasional, ağla və təcrübəyə istinad

edən, ümumi mənafeyi nəzərə alan dünyəvi dəyərlərin inkişaf etməsi kimi başa düşülür. Bu nəzəriyyəyə görə, cəmiyyətdə modernləşmə prosesi getdikcə dinin ictimai və mədəni rolu azalır. Nəticədə, dini qurumların fəaliyyət sahəsi məhdudlaşır, dindən nisbətən azad olunmuş cəmiyyət formalaşır. Qeyd olunmalıdır ki, modernləşmənin dünyəviləşdirmə effekti, əsasən, Qərbi Avropa ölkələrinin modernləşmə və dünyəviləşmə nümunəsinə söykənir. Müsəlman ölkələrində, eləcə də yüksək səviyyədə sənayeləşmə, modernləşmə prosesini keçmiş ABŞ-da din ictimai əhəmiyyətini və rolunu heç də itirməmişdir. Buna görə də sekulyarizasiya nəzəriyyəsini müdafiə edənlər ABŞ-ın və müsəlman ölkələrinin bir çoxunun istisna təşkil etdiyini vurğulayırlar.

**SEKULYARİZM (secularism).**

**Bax: DÜNYƏVİLİK.**

**SEYR (السير):**

Haqqa vasil olmaq üçün mənəvi yolu izləmək. Haqqa doğru yönəlmə və haqqı tanıma mərhələsi "seyr ilallah" adlanır. Haqqı tanımaqla bu mərhələ tamamlanmış olar. Haqqı tanıdıqdan sonra isə bu yolda olmaq və həyatı boyu bu yolun prinsiplərini rəhbər tutaraq həyat tərzini bu yola görə təyin etmək "seyr fillah"dır. Vüslət məqamı yolçularına "sair" və ya "səyyar" deyilir.

**SEYRÜ SÜLUK (السير والسلوك ):**

Bir mürşidin nəzarətindəki seyr halı. Haqqa vüslət yolunun bir rəhbərin müşayiəti və nəzarəti ilə yerinə yetirilməsi. Seyrü sülukun məqsədi salikin nəfsi arzu və istəklərindən xilas olub haqqın iradəsinə tam tabe olduqdan sonra başqalarına da bu mənəvi tərbiyədə rəhbərlik edə biləcək kamil insan məqamına vasil olmasıdır. "Seyr ilallah", "seyr fillah", "seyr məallah" və "seyr anillah" mərhələləri vardır.

**"SƏBƏ" SURƏSİ (سورة سبا):**

Quranın 34-cü surəsi. 54 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı 15-ci ayədə keçən, Yəməndə bir bölgə və ya qəbilənin adı olaraq bilinən "səbə" sözündən alınmışdır. Surədə Allahın birliyi, kainat sisteminin mükəmməlliyi, yenidəndiriliş mövzuları yer almışdır.

**SƏBƏBİ-NÜZUL (سبب النزول).**

**Bax: ƏSBABİ-NÜZUL.**

**SƏBİLİK (السبعيّة):**

İsmaililiyin adlarından biri. Yeddi imama inandıqları üçün bu məzhəbin mənsublarına ərəb dilində "yeddi" mənasına gələn "səb`" kəlməsindən törəmiş "səbilik" (səbiyyə) adı verilmişdir.

**SƏBİ-MƏSANİ (السبع المثاني):**

Lüğətdə "təkrarlanan yeddi" mənasına gələn bu məfhum namazlarda

daim təkrarlanaraq oxunduğu üçün "Fatihə" surəsinə verilmiş bir addır. Bu ifadə "Hicr" surəsinin 87-ci ayəsində səsləndirilir: "Biz sənə təkrarlanan yeddi ayəni və Uca Quranı verdik".

**SƏC (السجع):**

Düzgünlük, uyğunluq, bir-biri ilə oxşarlıq. Sözün bir vəznə görə bir-birinin ardınca gətirilməsi. Başqa bir ifadə ilə nəsrdə iki fasilənin (cümlə sonluğu) və ya fasilələrin son hərflərinin eyni və ya bir-birinə uyğun olması. Qurandakı ayələrin sonlarında (fasilə) səcin olub-olmaması barəsində müxtəlif fikirlər səsləndirilmişdir. Qurandakı ayə sonluqlarının səc üslubuna uyğunluğunu qəbul edənlər olduğu kimi, Quranda səc olmadığını iddia edənlər də də var.

**SƏCDƏ (السجدة):**

Namazda alın, burun, əllərin içi, dizlər və ayaqları zəminə dəydirərək yerə qapanmaq. Burnu yerə dəydirməyin hökmü fəqihlər arasında ixtilaflıdır. Səcdə namazın rüknlərindən biridir və onu tərk edənin ibadəti batil olar. Namazın rüknü olan səcdə xaricində şükür səcdəsi, tilavət səcdəsi və səhv səcdəsi də mövcuddur.

**"SƏCDƏ" SURƏSİ (سورة السجدة):**

Quranın 32-ci surəsi. 30 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı 15-ci ayədəki "səcdə edənlər" ifadəsindən alınmışdır. Surədə Allahın birliyi, ölümdənsonrakı həyat, keçmiş qövmlərin aqibəti haqqındakı mövzulardan bəhs edilir.

**SƏDDİ-ZƏRAYİ (سدّ الذرائع):**

Mübah olan bir şeyin şəri baxımdan caiz olmayan bir nəticəyə səbəb olacağı düşüncəsi ilə qadağan olunması. Məsələn: üzüm satmaq mübahdır, lakin şərab istehsalçısına üzüm satmaq harama vəsilə olduğu üçün caiz deyil. Səddi-zərayi dinin qorumağı hədəf götürdüyü dəyərlərə zidd olan davranışların qadağan edilməsi prinsipidir. Əgər bir davranış ağıl, din, nəsil kimi dəyərlərə zərər verirsə, normalda mübah olsa da, qadağa hökmü alar. Buna görə də səddi-zərayi müstəsna hallarda tətbiq olunan hökmləri əldə etmə metodu kimi qəbul olunmuşdu.

**SƏDƏQEYİ-CARİYƏ (الصدقة الجارية):**

"Davam edən və insanlara faydalı olan xeyirli və saleh əməl" mənasını verir. İslam insanları hər zaman faydalı və uzunmüddətli xeyir əməllərə təşviq edir. İslam Peyğəmbəri buyurur ki, insan vəfat etdikdən sonra onun üç əməli xaric bütün əməlləri sona çatır. Bunlar "sədəqeyi-cariyə" (uzunmüddətli xeyirli əməl), faydalı elm və öz valideyninə dua edən övladdır. İslamda sədəqeyi-cariyə hesab edilən xeyirli və faydalı əməllərə müsəlmanlar böyük əhəmiyyət vermiş və tarix boyunca müxtəlif vəqflər, xeyriyyə müəssisələri, yollar, körpülər və məktəblər inşa etmişlər.

**SƏDƏQƏ (الصدقة):**

Könüllü şəkildə və ya dini bir məsuliyyəti yerinə yetirmək üçün möhtac olana maddi yardım etmək. Könüllü yardıma "sədəqə" deyildiyi kimi, zəkat, fitrə, nəzir, kəffarə və fidyəyə də "sədəqə" deyilir. Bunlar fiqh kitablarında ayrı-ayrı başlıqlarda araşdırılır. "Könüllü şəkildə bağışlama" mənasındakı sədəqə isə digərlərindən fərqlənir. Körpü salmaq, yol çəkmək, bir insana işində kömək etmək, ehtiyac içində olana borc vermək və hətta insanları gülərüzlə qarşılamaq belə, sədəqə hesab olunur. Sədəqənin əsas şərti isə Allahın razılığını qazanmaq niyyətidir.

**SƏDUQİLİK:**

Yəhudiliyin İkinci Məbəd dövründə (e.ə. V – I əsrlər) yaranmış üç böyük məzhəbdən biri (digərləri hasidilik və ferisilikdir). Ümumi qəbul edilmiş fikrə görə, Davud və Süleyman peyğəmbərlər dövründə Qüdsdəki din xadimlərinin lideri sayılan Tsadoqun ailəsinin adı ilə bağlı olaraq "tsedukim" adlandırılan bu məzhəb Süleyman Məbədi ilə əlaqəli xüsusi səlahiyyətlərə sahib idi. Süleyman Məbədinin romalılar tərəfindən dağıdılmasından sonra Saduqilər siyasi nüfuzlarına paralel olaraq xalq üzərindəki təsirlərini də itirmiş, tədricən tarix səhnəsindən silinmişdirlər. Saduqiləri rəqibləri Ferisilərdən fərqləndirən xüsusiyyətlər qədər və axirət kimi Əhdi-Ətiqdə açıq şəkildə göstərilməyən inancları və şəriət təlimlərini inkar etmələri olmuşdur.

**SƏFA və MƏRVƏ (الصفا والمروة):**

Həcc və ümrə təvaflarından sonra aralarında "səy" ibadətinin yerinə yetirildiyi iki təpənin adı. Kəbənin ziyarət edilməsinin bir hissəsi kimi, Səfa və Mərvə təpələri arasında gedib-gəlməyin İbrahim peyğəmbər dövründən etibarən davam etdirildiyinə inanılır.

**SƏFEH (السفيه):**

Həddi-büluğ çağına gəlmiş və təmyiz qabiliyyəti olmaqla birlikdə xərcləmələrindəki tutarsızlıq ucbatından mal-mülkü üzərindəki hüquqları məhdudlaşdırılan. Səfehin mal-mülkü üzərindəki səlahiyyətləri dayandırılır və vəlisinə verilir. Buna isə "həcr" deyilir. Səfehin həcr altına alınmasının səbəbi onun malının qorunmasıdır. Səfehlik halı aradan qalxdıqdan sonra həcr də qaldırılar.

**SƏFƏR (السفر):**

Lüğətdə "məsafə qət etmək, yol getmək" deməkdir. Təsəvvüf termini kimi, "səfər" "Allaha meyil edən qəlbin" mənəvi səfərini zikrlə "seyr etməsi"nə deyilmişdir. Bəzən seyrlə eyni mənada istifadə edilmişdir. Sufilər "səfər" deyəndə həcci, elm məclislərinə iştirakı, cihadı, silairəhim etməyi, haqsızlığın qarşısını almaq üçün zalımın qarşısına çıxmağı, süluk hallarının inkişafını təmin etməyi, müqəddəs yerləri ziyarət etməyi, şeyxlərlə görüşməyi və başqa məqsədləri nəzərdə tuturdu. Başqalarının zəruri halda etdiklərini dərvişlər

istəyərək edirdi. Buna görə süfilərə “səyyahun” (gəzən dərvişlər) da deyilmişdir.

**SƏFƏRİLİK/SƏFƏR (السفر):**

Bəzi dini hökmlərin dəyişməsinə səbəb olan və xüsusi şərtlərə sahib olan səyahətə “səfərilik” və ya “səfər” deyilir. Səfərilik, əsasən, ramazan orucu, namaz, qüsl, dəstəmaz, məstlər üzərinə məsh və borcla bağlı hökmlərlə əlaqəli olub, bu məsələlərin hökmündə müvəqqəti dəyişikliyə səbəb olar. Səfəriliyin müddəti və səfər məsafəsi ixtilaflı olub, sünni məzhəblərə görə 15 gün və 80-100 km, cəfəri məzhəbinə görə isə 10 gün və 22 km-dir.

**SƏFƏVİLİK (الصفوية):**

Sührəverdiliyin Ərdəbil qolu. Şeyx Səfiyyuddin Ərdəbili (v. 735/1334) tərəfindən qurulmuş Təsəvvüf məktəbi; “Ərdəbiliyyə” də adlandırılmışdır. Səfəviyyə təriqəti, Azərbaycan başda olmaqla, Dəşti-Qıpçaq, Krım, Gilan, Gürcüstan, Təbəristan (Mazandaran), Xorasan, Buxara, Türkmənistan, Türküstan, Qarahıtay, Çin Türküstanı, Hindistan, Sərəndib (Saylan), İran, İraq, Suriya, Livan, Hicaz, Anadolu və Rumeli kimi bölgələrdə yayılmışdır. Təriqətin silsiləsi Cüneyd Bağdadi və Həsən Bəsri vasitəsilə Həzrət Əliyə gedib çatır. Səfiyyuddin Ərdəbilidən sonra təriqət Sədrəddin Ərdəbili, ondan sonra Ələddin Ərdəbili ilə davam edərək bayramiyyə, cəlvətiyyə və heydəriyyə qollarına ayrıldı.

**“SƏFF” SURƏSİ (سورة الصف):**

Quranın 61-ci surəsi. 14 ayədən ibarətdir. Mədinə dövründə nazil olub. Surənin adı 4-cü ayədəki “səff tutaraq döyüşən möminlər” ifadəsindən alınmışdır. Surədə möminlərin Allah yolunda döyüşməyə yönləndirilməsi və Həzrət İsanın həvariləri kimi Allahın sözünü təbliğ etmələri və Allahın köməkçiləri olmalarından bəhs edilir.

**SƏFİR (الصّفير):**

Lüğəvi baxımdan “fit səsi” mənasını verir. Termin olaraq isə hərf tələffüz edilərkən fit və quş səsinə bənzər güclü və kəskin bir səsin çıxmasına “səfir” deyilir. Bu xüsusiyyət ز، س، ص hərflərinə məxsusudur.

**SƏHABƏ (الصحابة):**

İslam Peyğəmbərini həyatda ikən görüb mömin olan və inanclı olaraq vəfat edən şəxs. Ərəb dilində “səhibə” feilindən yaranıb, “bir yerdə olmaq”, “söhbət etmək” və “dost olmaq” mənalarını verir. “Səhabə” kəlməsinin cəmi əshabdır. Bu tərifə əsasən, Həzrət Peyğəmbəri peyğəmbərlikdən öncə görən, lakin peyğəmbərlik müddətində görməyən mömin şəxslərə “səhabə” deyilmir. Eyni zamanda, peyğəmbərlik müddətində mömin olan, ancaq Həzrət Peyğəmbəri görməyən müsəlmanlar da səhabə hesab edilmir. Onlar “mühəzrəm” sayılır. Səhabələr İslamın sonrakı nəsillərə çatmasında müstəsna rol oynamışlar. Belə ki, Qurani-Kərimdə onlar haqqında belə buyurulur: “Siz insanlar üçün ortaya çıxarılmış ən

yaxşı ümmətsiniz. Onlara yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız" (Ali-İmran, 3/110).

**SƏHƏR/SÜBH NAMAZI (صلاة الصبح):**

"Fəcri-sadiq" (həqiqi fəcr) ilə başlayan və günəşin doğmasına qədər qılınan, həmçinin eyni gün günəş doğduqdan "zəval vaxtı"na qədər sünnəsi ilə birgə qəzası da mümkün olan dörd rükət (iki rükət sünnə, iki rükət fərz) namaz. Dan yerinin ağarması şərq üfüqündə yerə paralel bir aydınlığın yayılması ilə başlayır. Buna "birinci fəcr" və ya "fəcri-sadiq" deyilir. Bu prosesdən 20 dəqiqə əvvəl yerə şaquli istiqamətdə görünən aydınlıq isə bir müddət sonra gözdən itir. Buna "fəcri-kazib", yəni "yalançı fəcr" deyilir. Ondan sonra üfüqdə görünən aydınlq həqiqi fəcrdir və sübh namazının başlandığı andır. Cəfəri alimləri buna "birinci fəcr" və "ikinci fəcr" demişlər. Sübh namazının giriş vaxtı, həmçinin oruc ibadətinin də başlandığı imsak vaxtıdır.

**SƏHİFƏ (الصحيفة):**

Hədis üsulu termini kimi Həzrət Peyğəmbər həyatda ikən və onun vəfatından sonrakı dövrdə bəzi səhabələr tərəfindən yazılan kiçik hədis əsəri. Səhifələr hədislərin tədvin və təsnifindən öncə qələmə alınmış və hədis əsərlərinin mənbəyi rolunu oynamışdır. Bu səhifələrdən ən məşhurları Abdullah ibn Əmr ibn əl-Asın "əs-Səhifə əs-sadiqə"si və Həmmam ibn Münəbbihin "əs-Səhifə əs-səhihə"sidir.

**SƏHİH HƏDİS (الحديث الصحيح):**

Ədalət və zəbt (hafizəsi güclü) xüsusiyyətlərinə malik olan siqə (etibarlı) ravilərin müttəsil (qopuq olmayan) sənədlə rəvayət etdiyi, şazz və illətli olmayan hədis. Lüğəvi baxımdan "səhhətli" və "sağlam" mənasını ifadə edir. Bu tərifə əsasən, səhih hədisin beş şərti vardır. Birincisi, hədisi rəvayət edən ravilərin ədalətli olmasıdır. İkincisi, ravilərin zəbt sifətinə sahib olmasıdır. Üçüncüsü, hədisin sənədinin qopuq olmaması, yəni ravilərin bir-birini görüb hədisləri öyrənməsidir. Dördüncüsü, hədislərin şazz olmaması, yəni siqə bir ravinin hədis rəvayəti məsələsində özü kimi siqə bir raviyə müxalifət etməməsidir. Beşincisi, hədisin illətli olmaması, yəni zahirən səhih görünən hədislərin bilinməyən bir qüsurunun olmamasıdır.

**SƏHİHEYN (الصحيحين):**

Məhəmməd ibn İsmail əl-Buxarinin "əl-Cami əs-Səhih" və ya "Səhihi-Buxari" əsəri, Müslim ibn Həccac əl-Quşeyrinin "əl-Cami əs-Səhih", yaxud "Səhihi-Müslim" adlı əsərləri. "Səhiheyn" və ya "səhihan" lüğəvi baxımdan "iki səhih" əsər deməkdir. Buxari və Müslim səhih hədisləri cəm edən ilk müəlliflər kimi məşhurdurlar. İslam alimlərinin əksəriyyətinə görə, bu iki əsərin məşhur olmasının ən önəmli səbəbi Buxari və Müslimin

hədis səhihləri cəm etmək üçün irəli sürdüyü meyarlardır.

**SƏKTƏ (ألسّكت):**

Lüğəvi baxımdan "susmaq, sükut etmək" mənalarını verir. Təcviddə isə vəqf işarəsi olmadığı halda, müəyyən kəlmələr üzərində, nəfəs almadan 1-2 saniyə səsi kəsməyə "səktə" deyilir. İmam Asim qiraətinin Həfs rəvayətinə görə, Qurani-Kərimin 4 surəsində səktə edilən kəlmələr var: "əl-Kəhf" 1, "Yasin" 52, "əl-Qiyamət" 27, "Mutaffifin" 14.

**SƏQƏLEYN (الثقلين):**

"Mal", "ağırlıq" və "qiymətli" mənasına gələn "səqəl" kəlməsi Qurani-Kərimdə insanlar və cinlər haqqında istifadə edilir. "Ər-Rəhman" surəsinin 31-ci ayəsində "Ey ağır yük altında (məsuliyyət) olanlar (insanlar və cinlər) sizinlə də layiqincə məşğul olacağıq" ayəsində "səqəleyn" ifadəsi yer alır. Həzrət Peyğəmbər iki zümrənin, yəni insanların və cinlərin peyğəmbəri hesab edildiyi üçün ona "Rəsulüs-səqəleyn" deyilmişdir. Habelə, "səqəleyn" kəlməsini Həzrət Peyğəmbər Qurani-Kərim və Əhlibeyti üçün də istifadə etmişdir.

**SƏLƏF (السلف):**

Sünni kəlamında sələf "əqidə mövzusunda səhabələrin, tabiinin və onları izləyənlərin ardınca gedənlər" mənasını ifadə edir. Terminoloji mənada isə elm və fəzilət baxımından müsəlmanların öndərləri hesab edilən səhabə və tabiin nəsli üçün istifadə edilir. Sələfin üstünlüyünə Məhəmməd peyğəmbərin "Ümmətimin ən xeyirlisi mənim dövrümdə yaşayanlar, sonra isə onları izləyənlərdir" hədisi dəlil gətirilir.

**SƏLƏFİLİK (السلفيّة):**

Sünniliyin etiqadı qollarından biri. Ərəb dilində "əvvəl gəlmək, gəlib-keçmək" mənalarındakı "sələf" sözündən düzəldilmiş "sələfilik" kəlməsi İslam məzhəbləri tarixi mənbələrində sünniliyin ilk dövrdəki alimlərinin əqidə məktəbinə verilən addır. Sələfiliyin ən bariz xüsusiyyəti etiqadi mövzularda Quran və Sünnənin zahiri mənası ilə kifayətlənərək, onları təvil etməkdən (yozmaqda) və ağıla uyğun şəkildə izah etməkdən uzaq durmaqdır. Zamanla sünni alimləri sələfiyyənin metodunun yetərsizliyini nəzərə alaraq, kəlam elmi ilə maraqlanmış və beləcə, sələfilik zəifləyərək, öz yerini əşərilik və maturidilik kimi sistematik kəlam məktəblərinə vermişdir. Buna baxmayaraq, az sayda olsa da, daha sonrakı dövrlərdə sələfi əqidəni müdafiə edən alimlər olmuşdur. XVIII əsrdə yaranmış vəhhabilik cərəyanının nümayəndələri də özlərinə "sələfi" adını verirlər. Qeyd etmək lazımdır ki, ilk dövr sələfiliyi ilə vəhhabilik arasında oxşar cəhətlər olsa da, fərqli cəhətlər də mövcuddur. Ona görə də maturidilik və əşəriliyə mənsub olan sünni alimlərinin çoxu sözügedən cərəyana "sələfilik" adının verilməsinə qarşı çıxır.

**SƏLƏM (السلم):**

Nağd ödəniş qarşılığında nisyə mal satın almağa "sələm müqaviləsi" deyilir. Sələm müqaviləsində satış mövzusu olan malın növü təyin edilər, əsli isə təyin edilməz. Sələm müqaviləsi malın nisyə olması xaricində digər bütün müqavilə şərtlərini daşıyır. Sələm müqaviləsi hələ mövcud olmayan malların əldə edilməsi və ya yetişdirilməsi üçün vəsait tələb olunması zərurətindən yaranmışdır.

**SƏMA (السماع):**

Hədis üsulunda hədisləri rəvayət etmə metodlarından biri və ən önəmlisi. "Səma" lüğəvi baxımdan ərəb dilində "səmia" feilinin məsdəridir, "eşitmək" və "qulaq asmaq" mənalarını verir. "Səma" metoduna görə, ravi hədisi başqa üsullarla deyil, məhz öz şeyxindən eşidərək rəvayət edir. Şeyx hafizəsindən və ya yazdığı əsərindən hədisləri oxuyur, tələbə (ravi) isə onu bilavasitə eşidir. "Səmitu, həddəsəni, əxbərəni" kimi əda ifadələri hədisin səma yolu ilə rəvayətinə dəlalət edir.

**SƏMİ (السميع):**

Ərəb dilində "səm`" kökündən meydana gəlib, "eşitmək; eşitdirmək; başa düşmək; arzu və istəyi qəbul etmək" mənalarını ifadə edir. Allahın adlarından biri olan "Səmi" "hər şeyi eşidən" deməkdir. Allahın sübuti sifətlərindən olan "Səmi" sifəti və ya adı Onun hər şeyi eşitdiyini, eşitdirdiyini, dua, ibadət və yalvarışları eşidib qəbul etdiyini bildirir. Namaz əsnasında deyilən "Səmiallahu limən həmidəh" (Allah şükür edənləri eşidir) ifadəsi məhz bu ada dəlalət edir.

**SƏNƏD (السند):**

Hədis üsulunda hədisin mənbəyinə, yəni İslam Peyğəmbərinə qədər hədisləri rəvayət edən ravilər silsiləsinə verilən ad. Hədis elminə görə, sənədsiz hədis və rəvayətlər etibarlı hesab edilmir. Buna görə də ilk dövr alimləri "Sənəd dindəndir" demişlər. Hədisin sənədində yer alan ravilərin tanınması və onlar haqqında cərh və tədil alimlərinin görüşləri əhəmiyyət kəsb edir. Məhz sənəd sayəsində hədislər nəsillərdən-nəsillərə ötürülmüşdür. Hədisin sənədinə "təriq" və "vəch" də deyilir. Sənədin zəif olması hədisin də zəif olması ilə nəticələnir.

**SƏNUSİLİK (السنوسية):**

Seyyid Məhəmməd ibn Əli əs-Sənusi (v. 1859) tərəfindən məzhəb və təriqətlərin vəhdətini qurmaq məqsədi ilə XIX əsrin ortalarında meydana gələn və Mərakeşdən Yəmənə qədər yayılan təriqət.

**SƏRFƏ (الصرفة):**

Ərəb ədiblərinin bəlağət baxımından Quranın oxşarını meydana gətirmə qabiliyyətlərinin olduğunu, lakin bu gücü istifadə etməyin Allah tərəfindən əngəlləndiyini bildirən "İcazul-Quran" nəzəriyyəsidir. Alimlərin əksəriyyətinə görə, sərfə nəzəriyyəsini ilk dəfə irəli sürən şəxs məşhur mötəzilə alimi İbrahim ən-Nəzzamdır. Bu nəzəriyyə

mötəzilə və şiə alimləri ilə yanaşı, əhli-sünnə alimlərindən İbn Həzm, İmamül-hərameyn əl-Cüveyni və Fəxrəddin Razi tərəfindən mənimsənmişdir.

**SƏRİYYƏ (السريّة):**

Məhəmməd peyğəmbərin məqsəd və planını təyin edərək səhabələrdən birinin başçılığı ilə göndərdiyi hərbi yürüşlər üçün istifadə olunan termin. Məhəmməd peyğəmbərin özünün orduya rəhbərlik etdiyi "qəzvə"lərlə birlikdə səriyyələrin əsas məqsədi İslamın yayılmasının qarşısındakı maneələri ortadan qaldırmaq, müsəlmanları təzyiq və təqibdən xilas edərək, dinlərini azad şəkildə yaşamalarını təmin etmək idi. Əksər hallarda göndərilən yerin və yaxud komandirin adı ilə adlandırılan altmışa yaxın səriyyə adı mənbələrdə qeyd olunur.

**SƏTRİ-ÖVRƏT (ستر عورت):**

Namazda və namaz xaricində dini baxımdan bədənin örtülməsi lazım olan yerlərini örtmək. Kişilər namaz qılarkən göbəklə diz qapağı arasını, qadınlar isə əl, üz və ayaq xaricində bütün bədənlərini örtməlidirlər. Sətri-övrətə riayət edilmədən qılınan namaz batildir. Namaz xaricində isə örtünmənin ən az miqdarı namazdakı örtünmədir. Müsəlmanın bədənini mümkün qədər örtməsi müstəhəbdir.

**SƏVAD (سواد):**

İslam tarixi mənbələrində Tikritdən İran körfəzinə, Hülvandan Bağdadın şimalına qədər İraqın cənubunu əhatə edən bölgə üçün istifadə olunan termin. Əksəriyyəti səhralardan ibarət olan Ərəbistan yarımadasından çıxan ərəblərin bərəkətli qara torpaqlarını "qara" mənasında "səvad" adlandırdıqları Dəclə və Fərat sahillərinin müsəlmanlar tərəfindən fəthi 642-ci ildə Nəhavənd döyüşü ilə tamamlanmışdır.

**SƏVADİ-ƏZƏM (السواد الأعظم):**

Sünniliyin adlarından biri. Hərfən "böyük əksəriyyət" mənasına gələn bu kəlmə mənsublarının sayı baxımından ən böyük İslam məzhəbi olan əhli-sünnəyə (sünnilik) verilmiş adlardan biridir. Hənəfi alimlərindən olan Həkim Səmərqəndi (342/953) sünniliyi digər məzhəblərə qarşı müdafiə etmək üçün qələmə aldığı kitaba da "əs-Səvad əl-əzəm" adını vermişdir.

**SXOLASTİKA (scholasticism):**

Yunanca "scholasticos" – "məktəb", "məktəbə aid", Orta əsr xristian Avropasında "məktəb fəlsəfəsi"ni ifadə edən termin. Sxolastiklər Xristianlıq dini etiqadını rasionallıqla əsaslandırmağa və sistemləşdirməyə çalışmışlar. Bunun üçün onlar antik fəlsəfənin *(*Platonun və xüsusilə Aristotelin*)* ideyalarından istifadə etmişlər. Orta əsrlər sxolastikasında universallar haqqında müzakirələr mühüm yer tutmuşdur.

**SİDDUR:**

Yəhudilikdə ibadətdə istifadə olunan duaları ehtiva edən kitablara verilən ad. İbricə "ardıcıllıq" mənasına gələn

Siddur yəhudilərin günlük ibadətlərindəki ardıcıllığı əhatə etdiyinə görə geniş istifadə olunur. Günlük, həftəlik və illik ibadətlərə dair ritualları və duaları ehtiva etməsi baxımından müxtəlif məzmunlu siddur kitabları var.

**SİFATİLİK (الصفاتيّة):**

İslam məzhəbləri tarixi mənbələrində ilahi atributların Allaha aid edilməsi fikrini mənimsəyənlərə verilən ad. Ümumilikdə Allahın sifətlərinin (atributlarının) zatı ilə eyni olmadığını irəli sürərək, ilahi sifətlərin həqiqiliyini qəbul edən bütün məzhəblərə "sifatilik" (sifatiyyə) deyilmişdir. Sünnilik, kərramilik, hişamilik və müşəbbihə kimi məzhəblər sifatilikdən hesab edilmişdir.

**SİKKƏ (السكّة):**

Ərəbcə "qəlib" kökündən gələn və ağırlığı müəyyənləşdirilmiş, üstündə aid olduğu dövləti göstərən simvol və yazılar olan metal pul vahidi üçün istifadə olunan termin. İslam dünyasında Əməvilər dövründən etibarən dövlət müstəqilliyinin simvolu kimi kəsilən sikkələrdə ilk dövrlərdə hökmdarın adı, ünvanı, dua və digər dini ifadələr qeyd olunurdu. Türk-İslam dövlətlərinin bir çoxunda isə sikkələrdə təsvirlərdən də istifadə olunmuşdur.

**SİQHİZM:**

Pəncab dilində "siqh"dən (şagird) gələn və XV əsrin sonunda Hindistanda Quru Nanakın təlimləri əsasında yaranmış monoteist din. Hinduizmin politeist inancına, kasta sisteminə və rahib brahman sinfinin dini imtiyazlarına qarşı reaksiya hərəkatı kimi ortaya çıxan Siqhizm yerli hindu düşüncəsi ilə İslamın Allah inancının sintezi kimi meydana çıxmışdır. Siqhizmdə qurtuluş üçün həddən artıq ibadətə və tərki-dünya həyata üstünlük vermək əvəzinə, əxlaqi inkişaf, birləşdiricilik və bərabərlik prinsipləri ön plana çıxarılır. Dini təlimlərinin formalaşmasında mühüm rolu olan quruların sonuncusu Quru Qobind Singhin 1699-cu ildə qurduğu Kalsa təşkilatı vasitəsilə Siqhizmin sülh və savaş yanaşmasında ciddi dəyişiklik yarandı və din fərqli camaat və məzhəblərə bölündü. Siqhizmin müqəddəs kitabı onuncu qurunun son şəklini verdiyi Quru Qranth Sahibdir. Siqhizm tək və təsvirolunmaz tanrı inancına görə İslam ilə, "maya", "karma" və "reinkarnasiya" kimi inanclara görə digər hind mənşəli dinlərlə ortaq xüsusiyyətlər daşıyır. Siqhizmdə ibadət fərdi qaydada və yaxud "qurdvara" adlandırılan məbədlərdə camaatla yerinə yetirilir.

**SİLSİLƏ (السلسلة):**

Bir təriqətin, adətən, biri özündən sonrakına icazət verən şeyxlərinin sonuncudan Həzrət Peyğəmbərə qədər olanların adlarının ardıcıl yazıldığı siyahı. Bəzən müxtəlif təsvirlərlə bəzədilən bu siyahılara, həm də bununla bağlı yazılmış əsərlərə "silsilənamə" deyilir.

**SİNKRETİK DİNLƏR:**

İki və yaxud daha çox dinin təlimlərindən yaranmış dinlər üçün istifadə olunan termin. Tarixdə müxtəlif inanc sistemləri bir-birinə qarşılıqlı təsir etmişdir. Bu nöqteyi-nəzərdən qnostisizm erkən dövr Xristianlığın inanc sisteminə təsir edən sinkretizm forması hesab olunmuş, Yəhudiliyin Qədim Misir dini, Zərdüştilik və digər inanc sistemlərindən təsirlənərək, eskatologiya, mələk və şeytan anlayışlarını inkişaf etdirdiyi, hinduizm, Buddizm və Caynizmin əsrlər boyu bir-birinin müxtəlif ünsürlərindən təsirləndiyi qəbul edilmişdir. Mənsubları tərəfindən qəbul edilməməklə birlikdə bir sıra tədqiqatçılara görə, özündən əvvəlki İbrahimi və Asiya mənşəli dinlərin qurucularını qəbul edən Bəhailik, həmçinin Hinduizm və İslamın inanclarını özündə birləşdirən siqhizm ən geniş yayılmış sinkretik dinlər hesab edilir. Yamaykada Rastafari hərəkatı Afrika dinləri ilə Yəhudi-Xristian ənənəsinin, Vyetnamda kaodaizm (Caodaism) Buddizm, Katoliklik və Daoizmin, Nigeriyada Krislam Xristianlığın və İslamın dini təlimlərindən yaradılmış sinkretik dinlərdəndir.

**SİVİL DİN (civil religion):**

Dünyəvi cəmiyyətlərdə əsas inteqrasiyaedici vasitə kimi dövlət rəmzlərinin – Dövlət Bayrağı, Dövlət Gerbi, Dövlət Himni, habelə Vətən anlayışının, Milli qəhrəmanların və s. sekulyar dəyərlərin müqəddəsləşdirilməsi, dinəbənzər mahiyyətdə qiymətləndirilməsi. Sivil din termini elmi ədəbiyyata J.J.Russo tərəfindən daxil edilmişdir. Əsasən, Amerika dövləti ilə bağlı olduğu qeyd edilsə də, sivil din anlayışı bütün millət-dövlətlərdə mühüm yer tutur. Müasir dövlətlərdə milli tətil günləri, ümummilli matəm günlərinin qeyd edilməsi, milli qəhrəmanlar, şəhidlər, dövlətin qurucu liderlərinin və başqalarının xatirəsinin yad edilməsi, o cümlədən dövlət əhəmiyyətli abidə və məzarların ziyarət mərasimləri sivil dinin mühüm elementləri hesab olunur. Sivil din, eyni zamanda, vətəndaşların sədaqətlə dövlətə bağlılığını və xalqa xidmət etməyi ehtiva edən sekulyarlaşmış din kimi çıxış edir.

**SİYASİ İSLAM (political Islam)**:

İslam dininin siyasi ideologiya kimi təbliğ edilməsi, o cümlədən islamın cəmiyyətdə bütün fərdi, ictimai, iqtisadi və siyasi fəaliyyəti tənzimləyən hüquqi-normativ sistem kimi nəzərdən keçirilməsi; islamçılıq ideologiyası. İslam dünyasında dinin siyasi yönlərini ön plana çəkən siyasi İslam hərəkatları XX əsrin ortalarından etibarən yüksəlməyə başlamışdır. Müasir dövrdə İslam dünyasında sekulyar millətçiliyə qarşı alternativ dini ideologiya kimi islamçılığın yayılmasında Misirdə yaradılan "Müsəlman qardaşları" təşkilatı və Pakistanda yaradılan "Camaati-İslami" partiyasının mühüm rolu olmuşdur. Qeyd edilməlidir ki, siyasi İslam ideologiyası, ilk növbədə, müsəlman

ölkələrində müstəmləkəçiliyə qarşı mübarizə kontekstində təşəkkül tapmış və ideoloji mübarizə funksiyasını yerinə yetirmişdir. Sonrakı dövrlərdə siyasi islam hərəkatları cəmiyyətin və dövlətin islamlaşdırılması ideyalarını da qarşısına əsas məqsəd qoymuşdur.

**SKEPTİSİZM (scepticism):**

Şəksiz biliyin mümkün olmadığı haqqında fəlsəfi görüş. Hər hansı ümumi, zəruri, elmi, teoloji, etik və s. həqiqətlərin mütləq mənada doğruluğunu təsdiq etməyin mümkün olmadığını sübut etməyə çalışan fəlsəfi cərəyan.

**SMRİTİ:**

Hinduizmdəki iki müqəddəs kitab kolleksiyasından birinə verilən ad. Vəhy məhsulu hesab olunan "şruti" ədəbiyyatından fərqli olaraq, "smriti" ilham yolu ilə təşəkkül edən mətnlər toplusu hesab olunur. Smriti ədəbiyyatına Vedanqalar, Dharma Sutra, Puranalar, Mahabharata və Ramayana dastanları, Tantralar daxildir.

**SORĞUC:**

Türk və İslam tarixində bəzi kişi və qadın baş geyimlərinə taxılan, əksər hallarda quş tükü və qiymətli daşqaşdan hazırlanan zinət ünsürü üçün istifadə olunan termin. Səfəvilər, Babür, Osmanlı və digər Türk-İslam dövlətlərində hökmdar və şahzadələr başda olmaqla, saray əyanları xüsusi mərasimlərdə, səfərə çıxarkən və digər xüsusi zamanlarda sorğuc istifadə edirdilər.

**STRUKTURALİZM (structuralism):**

Alman psixoloqu Vilhem Vund (1832-1920) tərəfindən inkişaf etdirilən psixologiya cərəyanı. V.Vund psixologiyanın predmetinin şüur və şüuru meydana gətirən zehni hadisələr olduğunu irəli sürmüşdür. Şüur insanın özünün, zehindəki yaşanmış hadisələr və ətraf mühitin fərqində olma qabiliyyətidir. V.Vund və davamçıları şüur hadisəsinin struktur baxımından izah olunması ilə ruhi hadisələrin daha yaxşı anlaşılacağını iddia etmişlər. Onlar hesab edirdilər ki, şüur hadisələri daha sadə psixi hadisələrdən meydana gəlmişdir. Bu yanaşmaya görə, psixologiyanın məqsədi şüuru izah etmək, zehnin ən sadə elementlərini araşdırıb, onlar arasındakı münasibətləri tapıb, qanunlarla formalaşdırmaqdır. Bu cərəyanın digər görkəmli təmsilçisi Edvard.B.Titçenerə (1867-1917) görə, psixologiyanın məqsədi insan şüurunu təsvir etmək, xüsusilə şüur hallarının ən sadə elementlərini araşdırmaqdır.

**STUPA:**

Kral Aşoka dövründən (e.ə. III əsr) etibarən Buddanın və digər mühüm buddistlərə aid əmanətlərin saxlanıldığı və buddistlər tərəfindən ibadət edilən məbədlərə verilən ad.

**SUFİ (الصوفي):**

"Yun əba geyən" mənasında könlü saf və duru, zahirdə xalq ilə, batində haqq ilə olan, nəfsində ölüb haqq ilə dirilən, seyrü süluk yolunu başa vur-

muş təsəvvüf əhli. Həmçinin qəlbini Allah üçün saflaşdırarkən nəfsin istəklərindən üz çevirib, həmişə haqq və həqiqətlərlə həmhal olandır. Saf yun paltar geyinmələri, əhli-süffəyə oxşarlıqları, yaxud Allaha yaxınlıqda qabaqcıl olduqları üçün "ən ön səfdə olanlar" mənasında onlara "sufiyyə" deyilmişdir.

**SURƏ (السورة):**

Lüğətdə "yüksək mövqe, yüksək dərəcə, şan və şərəf, binanın mərtəbələri" kimi mənaları ifadə edir. Termin olaraq ayələrdən meydana gələn, əvvəli və sonu olan müstəqil Quran bölmələrini bildirir. Quranda 114 surə var. Bunların ən qısası üç ayədən ibarət "Kövsər" surəsi, ən böyüyü isə 286 ayədən ibarət "Bəqərə" surəsidir. Surələr nazil olduğu dövrlərə uyğun olaraq "Məkki" və "Mədəni" olaraq iki yerə ayrılır. Ehtiva etdiyi ayələrin sayına görə "tuval", "miun", "məsani" və "müfəssəl" olmaqla dörd yerə ayrılır.

**SÜDUR/EMANASİYA (الصدور):**

Feyz, törəmə. Müəyyən mövcudiyyətdən axıb-yayılmaq, hər nəsnənin "bir" olandan çıxması mənasına gələn südur, Plotin (203-270) və onun davamçıları olan neoplatonistlər tərəfindən irəli sürülən, varlığın meydana gəlmə hadisəsini ilahi varlığın yayılma və açılması olaraq izah edən nəzəriyyənin adıdır. Bu nəzəriyyəyə görə, qığılcımın və işığın alovdan çıxması kimi kainat da ilahi varlıqdan törəyib meydana gəlmişdir. Bu nəzəriyyə İslam filosoflarının dərin marağına səbəb olmuşdur. Nəzəriyyəni İslam fəlsəfəsində ilk dəfə sistemli şəkildə oraya qoyan filosof Farabi olmuşdur. Ona görə, varlıqlar yaradıcının və kamilliyin bolluğu nəticəsində Tanrıdan çıxmışdır (südur etmişdir). Kainat Onun məhdud olmayan comərdliyinin nəticəsidir. "İlk varlıq" adlandırılan Tanrıdan südur edən ilk varlıq ilk ağıldır. İlk ağlın ilk varlığı düşünməsi və dərki sayəsində ikinci ağıl, özünü dərk etməsi nəticəsində də ən uzaq səma (birinci səma) meydana gəlmişdir. Sonra ikinci ağlın ilk varlığı idrak etməsi nəticəsində üçüncü ağıl, özünü düşünməsi nəticəsində də sabit ulduzların mövcud olduğu səma meydana gəlmişdir. Belə bir südur prosesi onuncu ağla və onlara müvafiq (ayrı) fələklər olan Zühal, Mirrix, Günəş, Zöhrə, Üttarid və Ay kürələri meydana gələnədək davam edər. Onuncu ağıl ilə kosmik ağıllar silsiləsi və səmavi kürələrin (ayüstü kainat) meydana gəlməsi tamamlanar. Səmavi kürələrin altında (ayaltı kainat) Yer kürəsi dayanır. Burada bəsitdən-mükəmmələ doğru ilk maddə, dörd ünsür – minerallar, bitkilər, heyvanlar və insanlar meydana gəlmişdir. Maddə və formadan ibarət olan ayaltı aləmdəki varlıqlar bir-birinə zidd olan formalar sayəsində maddi aləmdə sonsuz şəkildə bir – birini əvəz edir. Belə bir vəziyyət isə kainatda kövn (meydana gəlmə) və fəsadın (ortadan qalxma) davam etməsinə səbəb olur.

**SÜHRƏVERDİLİK (السهرورديّة):**

Əbu Həfs Şəhabəddin Sührəverdi (v. 1234) və yaxud Əbun-Nəcib Sührəverdiyə (v. 1168) aid edilən təriqət qolu. Sührəverdiyyənin silsilənaməsi Cüneydi Bağdadi, Məruf Kərxi və Həsən Bəsri vasitəsilə Həzrət Əliyə bağlanır. "Əbhəriyyə" və "Kübrəviyyə" kimi iki böyük qola ayrılmışdır.

**SÜHÜF (الصحف):**

Səhifə sözünün cəmidir. Termin olaraq, a) Əbu Bəkr dövründə Quranın yazıldığı səhifələr; b) Dörd böyük peyğəmbərə verilən müqəddəs səhifələr. Həzrət Adəmə 10, Həzrət Şisə 50, Həzrət İdrisə 30, Həzrət İbrahimə isə 10 səhifə verildiyi rəvayət olunur.

**SÜKUN (السّكون):**

Lüğəvi baxımdan "sakitlik və səssizlik" mənalarını verir. Hərflərin üstündə kiçik sıfır şəklində yazılan, yan-yana gələn iki hərfdən birincisini ikincisinə bağlayaraq onların birlikdə oxunmasını təmin edən işarəyə "sükun" deyilir. Sükunun iki növü vardır: sükuni-lazım, sükuni-ariz. 1.Sükuni-lazım (السُّكُونُ اللَّازِمُ): Quran oxuyarkən hər hansı bir yerdə istər dayandıqda, istərsə də keçdikdə öz varlığını qoruyub, saxlayan sükuna "sükuni-lazım" deyilir. 2.Sükuni-ariz (السُّكُونُ العَارِضُ): Quran oxuyarkən hər hansı bir yerdə dayandıqda ortaya çıxan, keçdikdə isə ortadan qalxan, yox olan sükuna "sükuni-ariz" deyilir. Ayələrin sonundakı sükunların çoxu sükuni-arizdir.

**SÜLEYMANİLİK (السليمانيّة) və ya CƏRİRİLİK (الجريرية):**

Zeydiliyin Orta əsrlərdə mövcud olmuş qollarından biri. Qurucusu Süleyman ibn Cərir ər-Rəqqidir (v. 187/803-dən sonra). Suriyanın Rəqqa şəhərindən olan Süleyman ibn Cərir Abbasi xəlifəsi Harun ər-Rəşid dövründə (786-809) yaşamış, Harunun məşhur vəziri Yəhya ibn Xalid əl-Bərməkinin hüzurunda keçirilən kəlam elminə dair diskussiyalarda iştirak etmişdir. Zeydiliyin carudiyyə qolundan fərqli olaraq, onun qurucusu olduğu süleymanilik (cəririyyə) qoluna görə, Məhəmməd peyğəmbərdən sonra imamlar ilahi təyinlə deyil, müsəlmanların məşvərəti (şura) ilə seçilirlər. Süleymanilik imamətə və xəlifəliyə ən layiqli namizədin Əli ibn Əbu Talib olduğunu bildirməklə yanaşı, Əbubəkr ibn Əbu Qühafə və Ömər ibn Xəttabın xəlifəliyini də qəbul etmişlər. Süleymanilər Osman ibn Əffanın və Əli ibn Əbu Talibə qarşı çıxdıqları üçün Aişə bint Əbubəkr, Zübeyr ibn əl-Əvvam və Təlhə ibn Übeydullahın kafir olduqlarını iddia etmişlər.

**SÜNNƏ (السنة):**

Lüğəvi baxımdan "yol", "üsul", "adət-ənənə" mənalarını ifadə edir. Qurani-Kərimdə yer alan "sünnətullah" ifadəsi Allahın hökmü, əmr və qadağaları, kainatın idarəsi üçün qoyduğu qanunlar mənasını verir. Hədis elminə görə, sünnə İslam

Peyğəmbərinin söz, hərəkət, təqrir (təsdiq), əxlaqi xüsusiyyətləridir. Fiqh üsulu alimlərinə görə isə sünnə Həzrət Peyğəmbərin Qurani-Kərimlə yanaşı, gətirdiyi və şəri (dini) hökm xüsusiyyəti daşıyan söz, feil və təqrirləridir.

**SÜTRƏ (السترة ):**

"Örtü, yaxud pərdə arxasında" gizlənmiş. Namaz qılan bir kəsin qarşısından başqasının keçməsi ehtimalı varsa, səcdə yerinin bir az irəlisinə şaquli vəziyyətdə yerə sancılan ən az bir arşın uzunluqda olan çubuq, yaxud dəyənək kimi olan cisim. Cismin qeyd edilən yerə yanıüstə uzadılması, hətta namaz qılan şəxsin ətrafına yarımdairə şəklində xətt çəkilməsi və ya hər hansı bir əşyadan istifadə etmək də sütrə hökmündədir.

**SVETAMBARA:**

Caynizmin iki mühüm məzhəbindən birinin adı. Tərki-dünyalığın göstəricisi kimi geyimdən imtina edən Diqambara (havageyimlilər) rahiblərindən fərqli olaraq ağ geyimə üstünlük verdiklərinə görə, "svetambara" adlandırılmışlar.

# Ş

**ŞABAN AYI (شعبان):**

Hicri-qəməri təqvimin səkkizinci ayının adı. Ramazandan əvvəl gələn və ona hazırlıq mahiyyəti daşıyan Şaban ayı, İslam dininə görə, fəzilətli aylardan biridir. İslam Peyğəmbəri bu ayda çox oruc tutmuş və "İnsanların dəyərini bilmədikləri bu ayda əməllər Allaha ərz edilər. Mən əməllərimin oruclu ikən Allaha ərz edilməsini arzulayıram və bu ayda oruc tuturam", – buyurmuşdur. Həzrət Peyğəmbər, xüsusilə Şaban ayının on beşinci gecəsi olan Rəqaib gecəsinin önəmindən bəhs etmiş və bu gecənin ibadətlə keçirilməsini tövsiyə etmişdir.

**ŞABAT:**

Yəhudilikdə Əhdi-Ətiqə görə dünyanı altı gündə yaradan Yahvənin istirahət etdiyi yeddinci günün şərəfinə ibadət günü hesab olunan həftənin yeddinci günü. Yəhudilərin həftəlik bayramları hesab olunan şabatda dünyəvi işlərlə məşğul olmaq qadağandır. Musaya verilən On Əmrdə qeyd olunduğuna görə, şabat günü yalnız ibadətə həsr olunmalıdır.

**ŞAFİİLİK (المذهب الشافعي، الشافعية):**

İslamdakı fiqh məzhəblərindən biri. Qurucusu Məhəmməd ibn İdris əs-Şafiidir (v. 204/820).

**ŞAHİD (الشاهد):**

Hədis üsuluna görə, fərd (tək) olduğu zənn edilən bir hədisin eyni şeyxdən başqa bir sənədlə rəvayəti. Şahid rəvayət fərd qalmış hədisin səhhətinin güclənməsinə xidmət edir.

**ŞAHİDLİK/ŞƏHADƏT (الشهادة):**

Hadisə, yaxud əhvalatı müşahidə etdiyi üçün ondan xəbərdar olan şəxs. Gözlə görünən, insanlar tərəfindən idrak edilən obyekt. Hüquqi bir məsələdən xəbərdar olduğu üçün müşahidə etdiklərini hakimin qarşısında şəhadət vermək üçün məhkəməyə çağırılan şəxs. Şahidlik etmək dini baxımdan vacibdir. Ehtiyac olduğu halda, şahid olmaqdan boyun qaçırmaq, yaxud yalan yerə şahidlik etmək böyük günahdır.

**ŞAM NAMAZI/İŞA (صلاة العشاء):**

Gündəlik beş fərz namazın axırıncısına "işa" deyilir. Günəş batdıqdan sonra üfüqdə müşahidə edilən qırmızılığın da gözdən itib qaranlıq çökməsi ilə başlayan əksər alimlərə görə, fəcri-sadiqə (birinci fəcrə) qədər davam edən vaxtda qılınması lazım olan namaz. Cəfəri məzhəbi və bəzi əhli-sünnə alimlərinə görə, işa namazının vaxtı gecəyarısına kimidir. Müəyyən səbəblərə görə məğrib, yaxud işa namazını gecəyarısına kimi

qıla bilməyən (ehtiyat-vacibə görə) ikinci fəcrə qədər qıla bilər.

**ŞARİ (الشارع):**

Şəriətin sahibi Allah. Bir şeyin ilkin qaynağı. Quran və sünnə kimi Allahın iradəsinin dəlil və vasitələri əks etdirməsi baxımından mənşəyi, İslam hüququnun qaynağı. Bəzi ayələrə görə ("Tövbə", 9/29; "Əraf", 7/157) Həzrət Peyğəmbərin əmrləri də dinin qanun və qaydaları hesab edilir. Onun söylədikləri edilənlərdən olduğuna görə, sünnənin qadağa və əmrləri də məcazi mənada şari hesab edilir.

**ŞAZ QİRAƏT (الشاذّ):**

Sənədi səhih olmayan, mütəvatir qiraətin üç şərtinə və yaxud bu şərtlərdən hər hansı birinə uyğun olmayan qiraətlərdir.

**ŞAZZ (الشاذّ):**

Siqə (etibarlı) hədis ravisinin özündən hafizə və elm baxımından daha güclü ravilərə müxalifət edərək nəql etdiyi hədis. Səhhət baxımından üstün sayılan və tərcih edilən hədisə "məhfuz", ravinin təkbaşına rəvayət etdiyi hədisə isə "şazz" deyilir. Şazz hədis mərdud (qəbul edilməyən) olduğu üçün zəifdir və etibarlı hesab edilmir. Səhih hədisin beş şərtindən biri də onun şazz olmamasıdır.

**ŞEMA İSRAEL:**

"Dinlə, ey İsrail" – Yəhudilikdə səhər-axşam oxunan duaların ən məşhuru. Əhdi-Ətiqdə keçən bu dua (Qanunun təkrarı, 6/4-9) Yəhudilikdə monoteizmin əsas ünsürlərini ehtiva edir. Bu dua yazılı şəkildə ənənəvi yəhudi evlərinin qapısının kandarındakı "mezuzaya" yerləşdirilir. Tanrının qanununu xatırlamaq məqsədilə yəhudilər evə girərkən və çıxarkən mezuzaya toxunaraq əllərini öpürlər.

**ŞEYX (الشيخ):**

"Pir", "qoca", "qabaqcıl" və "qəbilə başçısı" mənalarını ifadə edən, qulu Allaha, Allahı qula sevdirən şəxs. Təsəvvüfdə "öz nəfsindən qurtulub haqq ilə həmhal olan övliya, Allah dostu, tələb edənlərə rəhbərlik etmə və onları irşad etmə ləyaqəti olan insani-kamil, arifi-billah, üstaz və mürşidə" "şeyx" deyilir.

**ŞEYXAN (الشيخان):**

Hədis elmində iki şeyx mənasına gələn "şeyxan" kəlməsi ilə məşhur hədis alimləri Buxari və Müslim nəzərdə tutulur. Bir hədisin rəvayətindən sonra "ravahu əş-şeyxan", yəni "onu iki şeyx rəvayət etdi" ifadəsi mövcuddursa, bu, məhz həmin hədisin Buxari və Müslim tərəfindən rəvayət edildiyini göstərir.

**ŞEYXİLİK (الشيخيّة):**

Şiəlik daxilində Əhməd əl-Əhsainin (v. 1241/1826) fikirləri ətrafında təşəkkül edən, daha sonralar "kəşfiyyə" də adlanan dini-mistik cərəyan. XIX əsrdə İraq və İranda özünə çox sayda tərəfdar toplayan bu cərəyan ənənəvi imamiliyin qəbul etmədiyi

bəzi görüşlərə malik olmuşdur. Bunlarda biri "kamil şiə" düşüncəsidir. Şeyxilərə görə, qeybə çəkilmiş 12-ci imamla insanlar arasında vasitəçi funksiyasını yerinə yetirən, imamın təlimatlarını insanlara çatdıran şəxslər mövcuddur. "Rükni-rabi" (dördüncü rükn) və "bab" da adlanan bu şəxslər imamın naibi hesab olunur. Şeyxilər Əhməd əl-Əhsainin və tələbəsi Kazım Rəştinin "kamil şiə" olduğunu iddia etmişlər. Hazırda İraq, İran və digər Yaxın Şərq ölkələrində ümumilikdə 500000-dən çox şeyxinin olduğu güman olunur. Şeyxilik öz fikirləri baxımından babilik və bəhailiyin yaranmasına zəmin hazırlamışdır.

**ŞEYXÜLİSLAM (شيخ الإسلام):**

"Yaşlı, bilikli, rəis" mənalarında "şeyx" ilə İslam sözünün birləşməsindən yaranan və "alimlərin ən böyüyü" mənasında İslam dünyasının məşhur alim və sufilərinə verilən bir titul. XI əsrdən etibarən İslam dünyasında məşhur alimlər üçün istifadə olunan "şeyxülislam" termini XIII əsrdə geniş yayılmış, şəhərlərdə fətva vermək səlahiyyətinə malik müftilərə verilmişdir. Səfəvi və Osmanlı dövlətində "şeyxülislam" rəsmi bir titul kimi dini məhkəmə sədrinə verilmişdir.

**ŞƏBƏK (الشبك):**

İraqın Mosul şəhəri və ətrafındakı bölgələrdə yaşayan dini qrup. "Şəbək" sözünün mənşəyi dəqiq bilinmir. Şəbəklər milliyyətcə kürd və bir versiyaya görə, kürdləşmiş türkmanlardır. Dini kitabları "Buyruq"un türkman ləhcəsində yazılması, eləcə də dini mahnılarında Şah İsmayıl Xətainin şeirlərinə müraciət etmələri ikinci versiyanı gücləndirir. Şəbək inancı sufiliklə ifrat şiəliyin (qülat) sintezindən ibarətdir. Bəzi tədqiqatçılar onları əhli-həqq (əliallahilik) məzhəbinin bir qolu hesab edir. Şəbəklərin sayının 200 minlə 500 min arasında olduğu güman edilir.

**ŞƏBİ-ƏRUS (شب عروس):**

Toy gecəsi, qovuşma vaxtı. Mövlanə Cəlaləddin Ruminin ilahi sevgiyə qovuşduğunu ifadə edən ölüm gecəsi. Bu gecənin hər ildönümü günündə keçirilən tədbirlərə də bu ad verilir.

**ŞƏMAİL (الشمائل):**

Hədis elminin əsas etibarilə İslam Peyğəmbərinin fizioloji xüsusiyyətləri, xarakteri və əxlaqı ilə əlaqədar hədisləri əhatə edən sahəsi. Lüğəvi baxımdan insanın təbiəti, xarakteri və əxlaqı mənalarını ifadə edir. Bu hədislər Peyğəmbərimizin boyundan, üz quruluşundan, saçlarından, habelə onun yerimə və yatma tərzindən və s. bəhs edir. Şəmail mövzusunda müxtəlif əsərlər qələmə alınmışdır. Bunlardan ən məşhur olanı Tirmizinin "əş-Şəmail ən-nəbəviyyə vəl-xəsais əl-Mustafaviyyə" adlı əsəridir. Bu əsərə İslam aləmində çoxlu şərh yazılmışdır.

**"ŞƏMS" SURƏSİ (سورة الشمس):**

Quranın 91-ci surəsi. 15 ayədən ibarətdir. Məkkə dövründə nazil olub.

Surənin adı ilk ayədəki “şəms” (günəş) sözündən götürülmüşdür. Surədə Allahın kainatı yaratmasına diqqət çəkilir və Saleh peyğəmbərdən nümunə gətirilərək, inanmayanların aqibəti haqqında bəhs edilir.

**ŞƏRİƏT (الشريعة):**

İslamla bağlı dini, əxlaqi, hüquqi hökmlər məcmuəsi. İlahi dinlərdə əməli hökmlər, əmr və qadağaları ehtiva edən şəriət peyğəmbərlər vasitəsilə göndərilmiş ictimai nizamın ortaq ünsürlərini təşkil edir. Qurani-Kərimdə bu haqda deyilir: “Sonra (ya Rəsulum!) səni də dində şəriət sahibi (bir şəriət üzrə qaim) etdik. Sən ona (o şəriətə) tabe ol və (haqqı) bilməyənlərin nəfslərindən gələn istəklərə uyma!” (“Casiyə”, 45/18); “Sizin hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi (eyni şəriətə tabe) vahid bir ümmət edərdi. Bu (müxtəliflik) Allahın verdikləri ilə sizi imtahan etməsi üçündür”. (“Maidə”, 5/48) Üləmaya görə, bu ayələr hər peyğəmbər dövründə o peyğəmbərə aid əməli hökmlərdən ibarət prinsiplərin “şəriət” adı ilə mövcud olduğunu göstərir.

**ŞƏRT (الشرط ):**

Yerinə yetirilməsi lazım olan şey. Fiqh elmində termin kimi, bir şeyin varlığı onun varlığına bağlı olan, ancaq onun tərkib hissəsindən olmayana, fiqh üsulunda isə hökmün istinad edildiyinə deyilir. Şərt yoxdursa, hökm də olmaz. Şərt mövcud olarsa, hökmün də mövcudluğu zəruri deyil. Məsələn: dəstəmaz namazın şərtidir. Dəstəmaz olmazsa, namaz olmaz. Hər dəstəmaz olan yerdə namaz zəruri olmaz.

**ŞƏTƏHAT (شطح/شطحية):**

“Tərpənmək”, “coşmaq” mənasındadır. Salikin ilahi eşqlə vəcdə gəldiyi məqamda məqsədin nə olduğu məlum olmayan və zahirən dinin ehkamına zidd söylədiyi sözlər. Vəcd halı keçdikdən sonra salik özünə gələndə bu sözlərə görə peşman olub tövbə edir.

**ŞİDDƏT (الشّدّة):**

Lüğəvi baxımdan “güc və qüvvət” mənalarını verir. Termin olaraq isə hərflər sükunlu olaraq oxunduğu zaman səsin və nəfəsin kəsilməsinə “şiddət” deyilir. Şiddət xüsusiyyəti olan hərflərin sayı 8-dir: أ، ب، ت، ج، د، ط، ق، ك

**ŞİƏ (الشيعة):**

Ərəb sözü olan “şiə” Azərbaycan dilinə tərcümədə “tərəfdar” mənasını verir. İslam tarixində isə xilafətin Əli ibn Əbu Talibə və ondan sonra övladlarına aid olduğunu irəli sürən məzhəblər və dini cərəyanlar “şiə” adlandırılmışdır. “Şiə” kəlməsinin ilkin variantda “şiətü Əli” (Əli tərəfdarları) şəklində istifadə olunduğu qəbul edilir. Dünya müsəlmanlarının, təqribən, 10-20%-nin bu məzhəbə mənsub olduğu təxmin edilir. Şiəlik tarixən öz içərisində müxtəlif alt məzhəblərə bölünmüş, bunların bəzisi tarix səhnəsindən silinmiş, bir qismi isə

dövrümüzə qədər gəlib çatmışdır. Müasir dövrdə şiəliyin üç əsas qolu mövcuddur: imamilik (imamiyyə), ismaililik və zeydilik. Suriya, Türkiyə və Livanda azlıq şəklində yaşayan ərəb ələviliyi (nüseyrilik), Türkiyədə və bəzi Balkan ölkələrində azlıq olan türk ələviliyi kimi inanc sistemləri də şiəliyin alt qruplarından sayılır.

**ŞİRKƏT (الشركة ):**

Lüğətdə "ortaq olmaq", "şəriklik" deməkdir. Termin kimi isə birdən çox insanın mal və ya hüquq predmeti olan sahədə ortaqlığıdır. Şirkət, ümumi mənada, əqd məfhumunu da ifadə edən sözdür. Məsələn: üç nəfərin pul ortaqlığı əsasında sərmayə qoyaraq bunu işlətmələri və ondan qazanc əldə etmələri bir şirkət müqaviləsidir. Ortaqlara "şərik", "müştərik", "müşarik", ortaqlığa isə "iştirak" deyilir.

**ŞİT/ŞİS (شيت):**

Həzrət Adəmin və Həvvanın beşinci övladıdır. Qurani-Kərimdə adı qeyd edilməyən peyğəmbərlərdən biridir. İbrani dilində Şit Peyğəmbərin adı "Şis" şəklində keçir. Bu adın mənası "hibbətullah"dır, yəni "Allahın vergisi"dir. İslam tarixi mənbələrinin verdiyi məlumata görə, Həzrət Adəm oğlu Qabil Habili öldürdükdən sonra çox kədərlənir. Allah ona Habilin yerinə Şiti bəxş edir. Həzrət Adəm buna çox sevinir və "Bu, Allahın hədiyyəsidir, vergisidir", – deyir. Qabilin övladlarından fərqli olaraq, Şitin övladları öz ataları kimi Allaha ibadət etmişlər.

**ŞİVA:**

Hinduizmin üç məşhur tanrısından biri, Şivaizmin əsas tanrısı. Hinduizmdə Brahma (yaradıcı) və Vişnu (qoruyucu) ilə birlikdə dağıdıcı gücü simvollaşdıran Şiva adına yaranmış Hindu məzhəbi Şivaizmdə yaradıcı, qoruyucu və dəyişdirici tanrı hesab olunur.

**ŞOFAR:**

Yəhudilikdə Roş Haşana və Yom Kipur bayramlarında qoç və yaxud keçi buynuzundan hazırlanmış çalğı aləti.

**ŞÖVT (الشوط ):**

Kəbəni təvaf edərkən məbədi sol tərəfdə tutaraq dövrə vurmaqla yerinə yetirilən hər bir dövr "şövt" adlanır. Yeddi şövt bir təvafdır.

**ŞRUTİ:**

Hinduizmin vəhy məhsulu hesab olunan müqəddəs mətnlər kolleksiyası. Şrutinin "rişi" adlandırılan rahiblərə vəhy yolu ilə Tanrı tərəfindən verildiyinə inanılır. Şruti ədəbiyyatının əsasını Vedalar, Brahmanalar, Upanişadlar meydana gətirir.

**ŞUDRALAR:**

Hinduizmdə "varna" adlandırılan dörd sosial təbəqədən (kasta) kəndliləri təmsil edənlərə verilən ad.

**ŞURA (الشوري ):**

Məşvərət. Bir məsələni həll etmək üçün yığışıb məşvərət etmə, müzakirə etmə, məsləhətləşmə.

**“ŞURA” SURƏSİ (سورة الشورى):**

Quranın 42-ci surəsi. 53 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı 3-cü ayəsindəki “şura” (müsəlmanların) işlərini məsləhətləşərək görməsi ifadəsindən alınmışdır. Surədə Allahın varlığı və birliyi, axirət həyatı haqqında müxtəlif nümunələrlə bəhs edilir.

**“ŞÜƏRA” SURƏSİ (سورة الشعراء):**

Quranın 26-cı surəsi. 227 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı 224-cü ayəsindəki “şairlər” sözündən alınmışdır. Surədə Musa, İbrahim, Nuh, Hud, Saleh, Lut və Şüeyb peyğəmbərlərin həyatından nümunələr gətirilərək, Allahın birliyi və axirət anlayışı, inancın əhəmiyyətindən bəhs edilir.

**ŞÜFƏ (الشفعة):**

“Cütləşdirmək”, “əlavə etmək” mənasındadır. Satılmış bir daşınmaz əmlakı müəyyən şərtlər daxilində müştəri və satıcının razılığına məhəl qoymadan satış qiyməti üzərindən üçüncü bir şəxsin (şəfinin) zorakı öz mülkiyyətinə keçirməsi. İki nəfərin ortaq olduğu bir mülkiyyət, yaxud eyni yol və ya eyni su kanalından istifadə edən, habelə bitişik qonşuluğu olan daşınmaz bir əmlak heç bir ortaq haqqı olmayan başqa birinə satılarsa, həmin satılmış mülkiyyətin ilk alma haqqı ortağın, yaxud yol, su və bitişik qonşuluq səbəbindən haqq sahibinin, yəni şəfinindir. Mülkiyyət satılmış olsa da, şəfi satış qiymətini verərək mülkiyyətə yiyələnər.

**ŞÜRAT (الشراة):**

Xəvaric məzhəbinin adlarından biri. Ərəb dilində “şürat” kəlməsi “satanlar” mənasına gəlir. Xaricilər özlərinə bu adı verirdilər. Onlar “Tövbə” surəsinin 111-ci ayəsində keçən “Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş Cənnət müqabilində satın almışdır” sözlərindən ilham alaraq özlərinə “Allah yolunda vuruşaraq mallarını və canlarını satan, Allahın da onların canlarını cənnət müqabilində satın aldığı şəxslər” mənasında “şürat” adını verirdilər.

**ŞÜUBİYYƏ (الشعوبيّة):**

İslamı qəbul edən fars, türk, bərbəri və digər millətlərin ərəblərdən üstün olduqlarını irəli sürdükləri siyasi, ədəbi və ideoloji hərəkat üçün istifadə edilən termin. İnsanların üstünlüyünün yalnız təqva ilə əlaqəli olduğunu bildirən (“əl-Hücurat”, 49/13) Quran mesajına uyğun olaraq təbliğ fəaliyyətini həyata keçirən Məhəmməd peyğəmbər Vida həccində də ərəblərlə qeyri-ərəblər arasında üstünlük cəhətdən heç bir fərq olmadığını xüsusilə vurğulamışdır. Buna baxmayaraq, İslam fəthlərinin geniş yayılması nəticəsində İslamı qəbul edən və “məvali” adlandırılan qeyri-ərəb xalqlarına qarşı, xüsusilə Əməvilər dövründə göstərilən ayrı-seçkilik tədricən həmin xalqların ərəblərə qarşı üstünlük iddiaları

ilə çıxış etməsinə səbəb olmuşdur. Qeyri-ərəb xalqlarının ərəblərdən üstün olduqlarına dair iddiaları, dövlət işlərində geniş səlahiyyətlərə sahib olduqları Abbasilər dövründə güclənmiş, xüsusilə Məmun və Mötəsimin hakimiyyətində siyasi, ideoloji və ədəbi bir hərəkata çevrilmişdir. Başlanğıc nöqtəsi İraq olmaqla, birlikdə şüubiyyə hərəkatı Suriya, Misir, Şimali Afrika və Əndəlüsdə də yayılmışdır.

**ŞÜURALTI (unconscious):**

Psixoanalitik cərəyanda şüurun görünməyən qismi mənasında istifadə edilən termin; təhtəlşüur. Psixoanalizin banisi Ziqmund Freyd insan şüurunun strukturunu aysberqə bənzədir. Belə ki, aysberqin suyun üstündə qalan kiçik hissəsi şüur sahəsinə, suyun altında qalan böyük hissəsi isə şüuraltı (təhtəlşüur) sahəyə bənzəyir. Bu geniş şüuraltı sahədə ödənilməmiş, ört-basdır edilmiş arzu və ehtiyaclar, duyğular, düşüncələr, impulslar, xüsusilə də cinsi istəklər yer alır və özlərini reallaşdırmaq üçün şüura davamlı olaraq təsir göstərirlər. Bəzən isə şəkil dəyişdirərək, sərhədləri aşıb, yuxu və xəyallar halında şüurda ortaya çıxır. **Bax: PSİXOANALİZ.**

# T

**TABU (taboo):**

Lüğəvi mənası "qadağan edilən" deməkdir. İbtidai mədəniyyətlərdə həm fövqəltəbii və müqəddəs qəbul edilən qüvvələri, həm də təhlükəli əşyalar, simvollar və qanun-qaydaları ehtiva edir. "Tabu" termini qadağan olunan və bunlara əməl etməyənlərin böyük uğursuzluqlara düçar olduğuna etiqad göstərilən qaydalar kimi başa düşülür. İbtidai cəmiyyətlərdə fövqəltəbii "mana" qüvvəsi daşıyan hər şey tabu hesab olunur. Totemizm təlimində totemlər tabu anlayışı ilə sıx bağlıdır, müqəddəs qəbul edilən totemlərin adları da tabuların bir növüdür. **Bax: TOTEM, TOTEMİZM.**

**TAC (التاج):**

Dərviş və şeyxlərin mənsub olduqları təriqətin xüsusiyyətlərini müəyyənləşdirən simvollarla bəzədilmiş, başlarına qoyduqları xüsusi geyim. Saliklər üçün tac geydikləri əba qədər əhəmiyyətli idi. "Dərvişlik olsaydı tac ilə hirqə / Biz dahi alardıq otuza, qırxa" şeiri tacın məğzindən bəhs edir. Təsəvvüf yolunu başa vuran və irşad səviyyəsinə çatan dərvişlərə şeyx tərəfindən tac geyindirilirdi. Təriqətlərdə taca müxtəlif adlar verirdilər. Mövləvilikdə ona "sikkə" deyilirdi. Taclar sufi ənənəsinə müvafiq olaraq yundan hazırlanırdı. Təriqətin tacı haqqında, onun formasını, şəklini, ifadə etdiyi simvolları ehtiva edən məlumatlar məcmuəsinə "Tacnamə" deyilirdi.

**TAC (التاج):**

Hökmdarlıq əlaməti sayılan baş geyimi. İslamaqədərki dövrdə Şimali və Cənubi Ərəbistan yarımadasındakı ərəb dövlətlərində qonşu imperatorluqların təsiri ilə hökmdarların tac geyindiyi mənbələrdə qeyd olunsa da, Fatimilər istisna edilməklə, ilk dövr ərəb-İslam dövlətlərində hökmdarların tac geyinməsi adəti geniş yayılmamışdır. Türklərin islamaqədərki dövründə təsadüf edilən hökmdarın tacqoyma adətinə türk-İslam dövlətlərində də rast gəlinir.

**"TAHA" SURƏSİ (سورة طه):**

Quranın 20-ci surəsi. 135 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Adı ilk ayədə keçən "ta" və "ha" hərflərindən alınmışdır. Surədə, əsasən, Həzrət Musa və Adəmin rəvayətləri qeyd edilmiş, inancın möhkəmlənməsi üçün nümunələr gətirilmişdir.

**"TALAQ" SURƏSİ (سورة الطلاق):**

Quranın 65-ci surəsi. 12 ayədən ibarətdir. Mədinə dövründə nazil olub. Boşanmadan bəhs edildiyi üçün "ta-

laq" adı verilmişdir. Surədə Allahdan qorxmaq və boşanarkən qadınlara əziyyət verməməkdən bəhs edilir.

**TALAQ/BOŞAMA (الطلاق):**

Müəyyən sözlərlə nikah əqdinə xitam vermək.

**TALLİT:**

Yəhudiliyin dini ayinlərində kişi fərdlərin istifadə etdiyi dini geyim.

**TALMUD:**

Yəhudilikdə şifahi ədəbiyyatı və Rəbbani ənənənin əsasını meydana gətirən dini mətn kolleksiyası. İbricə "talmid" (şagird) kökündən yaranan Talmud II-VI əsrdə "rəbbi" adlandırılan yəhudi din alimlərinin hüquqi, fəlsəfi, teoloji və tarixi mövzulara dair düşüncələrini ehtiva edən mətnlərin ümumi adıdır. "Mişna" və "Gemara" adlandırılan iki hissəyə ayrılan Talmud Tanak da adlandırılan Əhdi-Ətiqdən sonra yəhudiliyin ən müqəddəs mətni hesab olunur.

**TANAK:**

Yəhudiliyin birincidərəcəli müqəddəs kitabının adı. Adını Əhdi-Ətiqin ilk üç kitabı olan Tora (Tövrat), Neviim (Peyğəmbərlər) və Ketuvimin (Kitablar) baş hərflərindən alan Tanak yəhudilər tərəfindən içindəki ən mühüm hissəsinin adı ilə Tora da adlandırılır.

**TAO:**

Daoizmə görə yaradıcı prinsip üçün istifadə olunan termin. Aləmin yaradılışından əvvəl mövcud olduğuna inanılan taonun hər şeyin əsası olub bütün kainat və təbiətin onun vasitəsilə var olduğu qəbul edilir.

**"TARİQ" SURƏSİ (سورة الطارق):**

Quranın 86-cı surəsi. 17 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki "tariq" (parlaq) ulduz sözündən alınmışdır. Surədə insanın yaradılışı, yenidəndirilişi və məsuliyyət daşıması haqqında qısaca bəhs edilir.

**TAVUSİLİK (الطاووسيّة):**

Şiəliyə mənsub sufi təriqəti olan nemətullahiliyin qollarından biri. Qurucusu Məhəmməd Kazım İsfahanidir (v. 1293/1876). İsfahani dəbdəbəli geyinməyi sevdiyi üçün "Tavusulürəfa" (ariflərin tovuzu) ləqəbi ilə tanınmış və buna görə qurduğu təriqətə "tavusilik" (tavusiyyə) adı verilmişdir. İsfahanidən sonra təriqətin lideri Hacı Sultan Məhəmməd Qunabadi Sultan Əli Şah olmuş, buna görə də tavusiyyə "qunabadilik" (qunabadiyyə) adı ilə də tanınmışdır. Qunabadi vəhy aldığını bildirmiş, özünün yeganə mərcei-təqlid olduğunu iddia etmişdir. Bu fikirlərinə görə şiə üləmasının kəskin tənqidlərinə məruz qalmışdır. Tavusiliyin bugünkü mərkəzi İranın Məşhəd şəhəri yaxınlığındakı Qunabadın Biduxt bölgəsidir. İranda yaşayan, təqribən, 350 min nemətullahinin yarısının tavusiliyə mənsub olduğu güman edilir

**TEFİLİN:**

Yəhudilikdə başa və qola taxılan dini xarakterli aksessuar. İçində Şema İsrail duasının yazıldığı tefilinin qoruyucu xüsusiyyət daşıdığına inanılır.

**TEİZM (theism):**

Yunanca “theos” – tanrı – sözündən törəyib, zəkaya və iradəyə malik, bütün maddi və mənəvi proseslərə təsir göstərən fövqəltəbii varlığı qəbul edən dini-fəlsəfi təlim. Aləmdə baş verən hadisələri Allahın qayəsinin həyata keçməsi hesab edir. Təbii qanunauyğunluq Allahın qayəsindən asılı şəkildə götürülür. Deizmdən fərqli olaraq, Allahın bütün dünya hadisələrində bilavasitə iştirakını təsdiq edir, panteizmdən fərqli olaraq, Allahın transsendental (təbiətdən kənarda) mövcud olduğunu müdafiə edir.

**TELEOLOJİ DƏLİL (teleological argument):**

Yunanca “teleos” – məqsəd, “logos”– təlim, söz; aləmdə insan fövqündə duran obyektiv məqsədlərin və məqsədəuyğunluluğun mövcudluğu haqqında dini-fəlsəfi təlim. Tanrının varlığına dair teist filosofların irəli sürdüyü dəlillərdən biri. Teleoloji dəlil “dizayn dəlili” kimi də adlandırılır. Bu dəlilə görə, kainatdakı heyrətamiz nizam və ahəng onun təsadüfən yaranmasının mümkün olmadığına və mükəmməl xüsusiyyətlərə malik olan bir nizamlayıcı (Tanrı) tərəfindən yaradıldığına dəlalət edir.

**TEODİSEYA (theodicy):**

Yunanca “theos” (tanrı) və “dike” (hüquq, ədalət) sözlərinin birləşməsindən ibarət olmaqla, mütləq mənada mərhəmətli və ədalətli olan Allaha etiqadla dünyada şər və ədalətsizliyin mövcudluğu arasındakı ziddiyyəti izah etmə cəhdi. XVII-XVIII əsrlərdə teodiseya mövzusuna həsr olunmuş xeyli əsər qələmə alınmışdır. Bunların arasında Leybnitsin “Teodiseya” əsəri daha məşhur olmuşdur (1710). Leybnitsdən fərqli olaraq Volter “Kandid” satirik fəlsəfi romanında (1759) kainatda şərin deyil, xeyirin hökm sürdüyü ideyasına kinayə ilə yanaşmışdır.

**TEOKRATİYA (theocracy):**

Siyasi hakimiyyətin ruhanilərə – din xadimlərinə məxsus olduğu dövlət idarəçiliyi forması. Teokratik dövlət siyasi hakimiyyət ilə dini hakimiyyətin eyni şəxsdə və ya qrupda birləşdiyi dövlətlərə deyilir. Ali dini rəhbərin və ya hər hansı bir kilsə başçısının (papalıq), eyni zamanda, dövlətin də başçısı olduğu hallarda teokratik dövlət meydana gəlir. Teokratiya monarxiyanın bir növüdür. Bu baxımdan, Vatikan dövlətini və ya Səudiyyə Ərəbistanı Krallığını teokratik siyasi sistemlərə misal kimi göstərmək olar. Teokratik dövlətlərdə hakim təbəqənin dininə (əsasən, çoxluğun dini) rəsmi status verilir. Rəsmi status qazanmış din dövlət dini olmaqla, digər azsaylı dinlərə verilməyən bir çox imtiyazlara malik olur.

**TEOLOGİYA (theology):**

Yunanca “theos” (tanrı) və “logos” “təlim, söz” kəlmələrinin birləşməsindən ibarət olub, “Tanrı haqqında elm”, ilahiyyat mənasına gəlir. Böyük dünya dinlərinin hər birinin özünəməxsus ilahiyyatı vardır.

**TEOSENTRİSİZM (theocentricism):**

Tanrımərkəzli düşüncə. Allahı mərkəzi nöqtə olaraq qəbul edərək, hər şeyi ona görə izah etmək. “Allaha bağlı din” mənasında da işlədilir.

**TEYYÜLMƏKAN/TEYYÜLƏRZ (طي المكان):**

Yerin burula-burula getməsi. “Teyy” “burulmaq”, “təyyiməkan” isə “yerin burulması” deməkdir. Buna “teyyüzaman” da deyilir. Məsafənin qısalması ilə meydana gələn kəramət. Saleh əməl sahibləri və Allah dostlarının zaman və məkan məhdudiyyətlərini aşaraq bir göz qırpımında uzun məsafələr qət edə biləcəyi haqqında inamın sufi ədəbiyyatındakı ifadəsi. Əksər hallarda övliyalarla bağlı bioqrafik əsərlərdə qeyd edilən belə məlumatlar kəramət sayılır və Həzrət Peyğəmbərin “Merac”ına oxşar hadisələr kimi izah edilir.

**TEYYÜZZAMAN (طي الزمان):**

**Bax: TEYYÜLMƏKAN.**

**TƏARÜZ (التعارض):**

Ziddiyyət. Eyni məsələdə iki dəlildən birinin hökm baxımından digərinə zidd olması.

**“TƏBBƏT” SURƏSİ (سورة تبت):**

Quranın 111-ci surəsi. 5 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki “qurusun” mənasına gələn “təbbət” sözündən alınmışdır. Surədə Həzrət Peyğəmbərin əmisi Əbu Ləhəb və arvadının etdiyi zülmlərə görə axirətdə əzabla qarşılaşacağından bəhs edilir.

**TƏBƏƏ (التبعة):**

İslam dövlətinin vətəndaşlarını ifadə edən termin.

**TƏBƏQAT (الطبقات):**

İslam dünyasında öz sahəsinin məşhur şəxslərinin tərcümeyi-halından bəhs edən əsərlərin bir növü. Üslub ilə əlaqəli müəyyən fərqliliklərlə birlikdə “siyər”, “təracim”, “vəfəyat” əsərləri də məşhur şəxslərin tərcümeyi-halına həsr olunmuş əsərlərdəndir. Məhəmməd peyğəmbərin həyatını, səhabə, tabiin, təbəi-tabiin və daha sonrakı nəsilləri müxtəlif təsnifat əsasında verən İbn Sədin “Kitabüt-təbəqatil-kəbir” əsəri İslam dünyasında təbəqat növünün ən erkən və məşhur nümunələrindəndir. Müxtəlif insan cəmiyyətlərini irqinə, dilinə, dininə və mədəniyyətinə görə təsnif edən Səid əl-Əndəlüsinin “Təbəqatül-üməm”, müxtəlif dövrlərdə yaşamış məşhur filosof və alimlərin tərcümeyi-halına dair İbn Cülcülün “Təbəqatül-ətibba”, İslam dünyası ilə yanaşı, digər mədəniyyətlərin məşhur həkimlərinin həyat və yaradıcılığın-

dan bəhs edən İbn əbi Üseybiənin "Üyunül-ənba fi təbəqatil-ətibba" adlı əsəri məşhur təbəqat kitablarındandır.

**TƏDLİS (التدليس):**

"Qaranlığa gətirmək, hilə etmək, göz boyamaq" mənasına gələn "dələsə" kök feilindən alınan təfil ölçüsündə məsdərdir. "Alış-veriş əsnasında müştəridən malın eybini gizlətməyə" deyilir. Tədlis edən raviyə müdəllis sənəddən düşürülən raviyə "müdəlləsun anh", tədlis ilə rəvayət edilən hədisə də "müdəlləs" deyilir. Üç növü vardır. 1. İsnad tədlisi. Ravinin görüşmədiyi və ya görüşdüyü halda, hədis eşitmədiyi müasiri olduğu hədisçidən "qalə fülanun və ya an fülanin" – deyərək rəvayət etməsidir. Müasirindən etdiyi rəvayətə "mürsəli-xafi" də deyilir. 2. Şuyux tədlisi. Rafinin hədis öyrəndiyi müəllimini bilinməyən bir adla anaraq hədis rəvayət etməsidir. 3. Təsviyə tədlisi. Güvənilən (siqa) ravilər arasından zəif bir ravini çıxararaq, yalnız güvənilən ravilərdən gəldiyi zənnini oyadaraq rəvayət edilən hədisdir.

**TƏDVİN (التدوين):**

Hafizələrdə və müxtəlif yazı materiallarında yazılmış hədis mətnlərini təsnif etmədən toplamaq. Lüğəvi baxımdan "yazmaq, toplamaq" mənasına gəlir. "Camiül-hədis" adı da verilən tədvini həyata keçirən şəxsə "müdəvvin", bu formada ortaya çıxan əsərlərə "müdəvvən" deyilir. Beləliklə, tədvin yazılmamış hədisləri yazmaq, müxtəlif cüzlərdə yazılan hədisləri bir yerə toplamaq deməkdir.

**TƏDVİR (التّدوير):**

Lüğəvi mənası "çevirmək" deməkdir. Terminoloji baxımdan tədvir tərtil və ya təhqiq ilə hədr arasında orta bir oxunuşdur. Bu oxunuş üsulunda məddi-müttəsil və məddi-münfəsil Asim qiraətinə görə iki, İbn Amir, əl-Kisai və Xələfin qiraətlərinə görə isə üç əlif miqdarı uzadılaraq oxunur. Sükuni-lazım ilə əmələ gələn məddi-lin yenə Asim qiraətinə görə iki, digərilərinə görə üç əlif, sükuni-ariz ilə əmələ gələn məddi-lin məddi-ariz kimi olduğu üçün neçə əlif uzadılacağı oxuyanın öz ixtiyarına buraxılır. Bu oxunuş üsulu tərtil və təhqiq qədər ağır, lakin hədr qədər sürətli deyil. Qünnələr də bu üsula uyğun olaraq tərtil və təhqiqə görə nisbətən az, hədrə görə isə nisbətən çox tutulur.

**TƏFƏŞŞİ (التّفشّي):**

Lüğəvi baxımdan "yayılmaq" mənasını verir. Termin olaraq hərf tələffüz edilərkən səsin dil ilə damaq arasında yayılmasına deyilir. Bu xüsusiyyət ش hərfinə məxsusdur.

**TƏFSİR (التفسير):**

Lüğətdə "bir şeyi açıqlamaq, ortaya çıxarmaq, örtülü bir şeyi açmaq" mənalarına gəlir. Terminoloji mənada, Qurani-Kərim ayələrinin izah edilməsini ifadə edir. Həm Quranın açıqlanması ilə bağlı nəzəri və əməli fəaliyyətlə əlaqəli elmin, həm

də bu sahədə qələmə alınmış əsərlərin ümumi adıdır.

**TƏFSİR MƏKTƏBLƏRİ:**

**Bax: MƏKKƏ TƏFSİR MƏKTƏBİ. MƏDİNƏ TƏFSİR MƏKTƏBİ. KUFƏ TƏFSİR MƏKTƏBİ.**

**TƏFSİR NÖVLƏRİ:**

**Bax: RƏVAYƏT TƏFSİRİ, DİRAYƏT TƏFSİRİ.**

**TƏFZİL (التفضيل):**

Ərəb dilində "fəzl" kökündən törəyib, leksik baxımdan "üstün hesab etmək, digərlərindən daha dəyərli olduğunu qəbul etmək" mənalarını daşıyır. Qurani-Kərimdə "lütfkarlıq" mənasını verən "fəzl" sözü Allaha nisbət edilmişdir. Müxtəlif rəvayətlərdə inancın, əməllərin və onları mənimsəyənlərin fərqli üstünlüklərinin olduğu qeyd edilmişdir. Kəlam elmində "təfzil" termini, əsasən, mələk və insanları, habelə peyğəmbərləri müqayisə üçün istifadə edilir.

**"TƏĞABUN" SURƏSİ (سورة التغابن):**

Quranın 64-cü surəsi. 18 ayədən ibarətdir. Mədinə dövründə nazil olub. Surənin adı 9-cu ayədə keçən "təğabun" (aldanma və aldatma) sözündən alınmışdır. Surədə Allahın varlığı və birliyi, axirət mövzularından bəhs edilir.

**TƏHARƏT (الطهارة):**

Təmizlik. Nəcis sayılan murdar maddələrdən, dəstəmazsızlıq və qüslsüzlük kimi hədəsdən təmizlənmə. İbadətləri yerinə yetirmək üçün sidik, qan, irin, qayta kimi nəcisdən təmizlənməyə "həqiqi təmizlik" deyilir. Dəstəmaz, qüsl və təyəmmüm almaq isə "hökmi-təmizlik" adlanır. Qəlbin təkəbbür, paxıllıq, həsəd, kin və qısqanclıq kimi pisliklərdən təmizlənərək onların yerinə gözəl əxlaq, iman, ixlas, təqva və digər müsbət cəhətlər qazanmasına isə "mənəvi təmizlik" deyilir.

**TƏHDİS (التحديث):**

Mötəbər bir yolla hədis nəql etmək. Lüğəvi baxımdan "bildirmək, xəbər vermək, anlatmaq, nəql etmək" mənasına gəlir. Xüsusilə də "şeyx" deyilən hədisçiyə hədis rəvayət etməsi üçün müraciət olunduğu zaman, tələbəyə bildiyi hədisləri rəvayət metodlarından biri ilə öyrətməsi deməkdir.

**TƏHƏCCÜD NAMAZI (صلاة التهجد):**

Həzrət Peyğəmbərə vacib olub, ümmət üçün sünnə sayılan, azı iki, çoxu isə səkkiz rükət olan və yuxudan duraraq qılınan gecə namazı. Qurani-Kərim bu haqda belə buyurur: "Onlar ibadət üçün yataqlarından qalxar (gecələr az yatar), qorxu və ümid içində (Allahın əzabından qorxaraq, mərhəmətinə ümid bəsləyərək) Rəbbinə dua edər və onlara verdiyimiz ruzilərdən (ehtiyacı olanlar) sərf edərlər" ("Səcdə", 32/16). Həzrət Peyğəmbərimiz belə buyurur: "Gecə namazına davam edin. Çünki o, sizdənəvvəlki saleh bəndələrin adətidir. Sizi Rəbbinizə

yaxınlaşdırmağa, günahlardan bağışlanmağa və nəfsi günahlardan (haramlardan) uzaq tutmağa səbəb olar".

**TƏHLİL/HÜLLƏ (التحليل):**

Evlilik əsnasında ər-arvad arasında meydana gələn haramlığı aradan qaldıran və yeni nikahla təkrar evliliklərinə imkan verən hal.

**TƏHRİF (التحريف):**

Lüğətdə "bir şeyi xarab etmək, dəyişdirmək, istiqamətindən yayındırmaq" kimi mənalara gəlir. Termin olaraq isə a) hər hansı bir yazını və ya bir sözü əsl mənasından uzaqlaşdıracaq şəkildə yozmaq; b) müqəddəs kitabları Allah tərəfindən göndərildiyi kimi saxlamayıb dəyişdirmək.

**"TƏHRİM" SURƏSİ (سورة التحريم):**

Quranın 66-cı surəsi. 12 ayədən ibarətdir. Mədinə dövründə nazil olub. Surənin adı ilk ayəsində keçən "təhrim" (haram edilmə) sözündən alınmışdır. Surədə Həzrət Peyğəmbərin ailə həyatı, qadının din və inanc yönü haqqında bəhs edilir.

**TƏXSİS (التخصيص):**

"Ümum ifadə edən bir ləfzin ehtiva etdiyi fərdlərdən bir qisminin müəyyən dəlillə aydınlaşdırılması mənasında" fiqh üsulu terminidir.

**"TƏKASÜR" SURƏSİ (سورة التكاثر):**

Quranın 102-ci surəsi. 88 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki "təkasür" (çoxluqla qürrələnmək) sözündən alınmışdır. Surədə insanların mal və ya qohum-əqrəba çoxluğu ilə qürrələnərək aldanması, axirətdə bunun boş bir şey olduğunu görəcəklərindən bəhs edilir.

**TƏKFİN (التكفين)**

Kəfənləmə. Vəfat edən müsəlmanın sarılıb qəbrə basdırıldığı parça. Kəfən kişilər üçün köynək (qəmis), "izar" və "lifafə"dən ibarətdir. **Qəmis/köynək** meyitin ayaqlarından-boynunadək iki misli uzunluqda, kəfənlik parçadan kəsilərək qatlanır və tam ortasından meyidin başı girəcək qədər kəsilərək hazırlanır. İzar/fitə qəmisin üstündən sarılan və təpədən-dırnağa qədər cəsədi tamamilə (bəzən də sinədən-ayağadək) örtən kəfən parçasıdır. **Lifafə/sərtasər** izarın üstündən sarılan, baş və ayaq uclarından bağlanacağı üçün izardan, təqribən, iki qarış uzun kəsilən kəfən parçasıdır.

**TƏKLİFİ-MALAYUTAQ (التكليف ما لا يطاق):**

"Birinə icrası çətin işi həvalə etmək, ondan bu işin icrasını tələb etmək" mənasını verən "təklifi-malayutaq" kəlam elminə aid bir termindir. İslam alimləri insanın güçünün çatmayacağı məsələlərdə Allah-Taalanın onu mükəlləf saymayacağı fikrini ittifaqla qəbul etmişdir. Bu, ilahi hikmət və ədalətin zəruri nəticəsidir.

**TƏKRİR (التّكرير):**

Lüğətdə "təkrar etmək" mənasını verir. Termin olaraq hərf tələffüz

edilərkən, dilin ucunun hərfin məxrəcində titrəməsinə "təkrir" deyilir. Bu xüsusiyyət ر hərfinə məxsusdur.

**TƏKVİN:**

Beş hissədən ibarət Toranın (Tövrat) birinci hissəsinə verilən ad. Təkvin yaradılışdan Yusif peyğəmbərin vəfatına qədərki hadisələrdən bəhs edir.

**"TƏKVİR" SURƏSİ (سورة التكوير):**

Quranın 81-ci surəsi. 29 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki "günəşin bükülməsi" mənasına gələn "kuvvirət" sözündən alınmışdır. Surədə qiyamətin qopması zamanı baş verəcək hadisələrdən bəhs edilir.

**TƏQİYYƏ (التقيّة):**

Bir mühitdəki təzyiq və təhlükə əsnasında həqiqi inancını gizləyərək, ətrafındakı insanlarla ortaq dünyagörüşü ətrafında yaşamaq. Təqiyyə xəvaric və zahiriyyə məzhəbləri tərəfindən qəbul edilməmişdir. Əhlisünnə alimləri "Möminlər möminləri qoyub kafirləri dost tutmasınlar! Bunu edən kimsə bilsin ki, onun Allah ilə heç bir əlaqəsi yoxdur. Onlardan (gələn təhlükədən) çəkinməklə ehtiyat etməyiniz istisnadır" ("Ali İmran", 3/28) ayəsinə istinad edərək, yalnız kafirlərdən qorunmaq məqsədilə təqiyyəni mübah hesab etmişlər. Şiə alimlərinə görə, yalnız ölüm təhlükəsi deyil, həm ağır təzyiq, həm də hər hansı təhlükə ilə qarşılaşdıqda, təqiyyə etmək mübahdır.

**TƏQLİD (التقليد):**

Bənzətmə, oxşatma. İstinadına, yaxud dəlilinə məhəl qoymayaraq bir məsələdə hansısa şəxsə görə davranmaq.

**TƏQYİD (التقييد):**

"Mütləq olan bir ləfzin zaman, məkan, şərt və vəsf baxımından məhdudlaşdırılması" mənasında fiqh üsulu termini.

**TƏLBİYƏ (التلبية)**

**Bax: LƏBBEYK.**

**TƏLFİQ (التلفيق):**

Hədis üsulunda birmənalı olaraq, ravinin hədisi bir neçə şeyxdən eşitməsi və rəvayətləri məna nöqteyi-nəzərindən birləşdirərək, hamısını bəlli ləfzlərlə və tək bir isnadla nəql etməsi. "Təlfiq ər-rivayət" ifadəsinin qısaltmasıdır. "Ləfəqə" feilinə təfil ölçüsündə məsdəri olan təlfiq iki şeyi bir-birinə qatmaq, birləşdirmək deməkdir.

**TƏLİMİLİK (التعليميّة):**

İsmaililik məzhəbinin adlarından biri. Dini hökmlərin və həqiqətlərin yalnız məsum imamın təlimi ilə bilinəcəyini iddia etdiyi üçün ismaililiyə bu ad verilmişdir.

**TƏNASÜX (التناسخ):**

Reinkarnasiya. Müxtəlif dinlərdə insan varlığının gözlə görülməyən bir ünsürünün ("ruh", "can", "nəfəs", "jiva", "atman" və s.) ölümdən sonra başqa bir bədənə keçməsini ifadə edən termin. Ölümsüzlük inancının

bir növü kimi tənasüx Misir, Yunan, Roma və digər qədim mədəniyyətlərlə yanaşı, müasir dövrdə də bəzi dinlərin inanc sistemində mövcuddur; məsələn: Hinduizm, Buddizm, Caynizm kimi hind mənşəli dinlərdə tənasüx inancı böyük əhəmiyyət daşıyır, həmçinin yerli Afrika dinləri, Kabala kimi Yəhudilikdən, Nüseyrilik, İsmailik, Dürzilik və Yezidilik kimi İslamdan yaranmış məzhəblərdə tənasüx inancına rastlaşılır.

**TƏNCİMİ-QURAN (تنجيم القرآن):**

Quran ayələrinin Həzrət Məhəmmədin iyirmiüçillik peyğəmbərlik müddəti ərzində hissə-hissə nazil olduğunu bildirən termin.

**TƏNFİZ (التنفيذ):**

Abbasilər dövründən etibarən, səlahiyyətləri xəlifənin verdiyi qərarları icra etməklə məhdud olan vəzirlərlə əlaqəli istifadə olunan termin. "Tənfiz vəzirlər"dən fərqli olaraq xilafət möhürünü daşıyan "təfviz vəzirlər" xəlifə adına dövlətin bütün işlərini yerinə yetirmə səlahiyyətinə sahib idilər.

**TƏRAVEH NAMAZI (صلاة التراويح):**

Ramazan ayına məxsus olub namazla mükəlləf olan hər kəsin qıla biləcəyi sünnə namazı. Əhli-sünnəyə görə, tək qılmaq mümkün olduğu kimi, camaatla birgə qılınması daha fəzilətlidir. Şam namazından sonra, vitr namazından əvvəl qılınır. Hökmü baxımdan "qeyri-müəkkəd" sünnədir.

**TƏRCÜMANİ-QURAN (ترجمان القرآن):**

"Quranla danışan", "Quranı açıqlayan", "Quran bilicisi" kimi mənalara gəlir. Səhabələr arasında Quran təfsiri ilə ən çox məşğul olan Abdullah ibn Abbasın ləqəbidir. Təfsir elmindəki yetkinliyi və üstün biliyinə görə ona bu ad verilmişdir.

**TƏRƏKƏ (التركة):**

**Bax: MİRAS.**

**TƏRİQƏT (الطريقة):**

Sufi dərvişlərin vüslət məqamına çatmaq üçün tutduqları yol. Şeyxin nəzarətində dərvişin mənəvi tərbiyəsini tamamlaması və Allaha vüslət yolunda Onu təfəkkür şüuru ilə yaşaya bilməsini təmin etmək məqsədi ilə tətbiq edilən metod və üsul. "Təriqət" termini təsəvvüf ədəbiyyatında bu müəssisələrin təşkilatlandığı dövr olan XII əsrdən etibarən geniş işlənmişdir. Təriqətə yeni girənlərə, onun üsul və metodlarını öyrədənlərə "sərtəriq", yaxud "dədə" deyilirdi.

**TƏRTİL (التّرتيل):**

Lüğəvi mənası "yerli-yerində, uyğun və gözəl bir şəkildə söyləmək"dir. Termin olaraq Qurani-Kərimi ağır-ağır, aramla, hər bir hərfi məxrəcindən tələffüz edərək, təcvid qaydalarına uyğun olaraq, anlaya-anlaya oxumaqdır. Bu üsulla Quran oxuyarkən məddi-müttəsil, məddi-münfəsil, məddi-lazım və məddi-lin Asim qiraətinə görə dörd, aid olduğu qiraətlərə əsasən

3-6 əlif miqdarı uzadılır. Qünnələr də 1-1,5 əlif miqdarı tutulur.

**TƏSBEH (التسبيح):**

“Allahın bütün məxluqatın xüsusiyyətlərindən, hər növ nöqsan və qüsurdan uzaq olduğuna inanmaq və bunu ifadə etmək” mənasında dini termin. Bu mənanı ifadə edən “sübhanə” sözünə “Allah” kəlməsi qoşularaq düzəlmiş “sübhənallah” ifadəsi şəriətin tövsiyə etdiyi bir zikrdir. İslam dininə görə, bu ifadə Allahdan başqa kimsə üçün istifadə edilməz.

**TƏSBEH NAMAZI ( صلاة التسبيح):**

Dörd rükət olub, ömürdə bir dəfə qılınması tövsiyə edilən namazdır. Həzrət Peyğəmbər əmisi Abbas ibn Abdulmüttəlibə bu namazı tövsiyə edərək, qılınma şəklini də öyrətmişdir. Xüsusiyyəti ondan ibarətdir ki, hər rükətdə 75 dəfə olmaqla, dörd rükətdə cəmi 300 dəfə “Sübhanəllahi vəlhamdu lillahi va lə ilahə illəllahu vallahu əkbər” təsbehi oxunur. “Sübhanəkə”dən sonra (“Fatihə”dən öncə) 15 dəfə, surədən sonra 10 dəfə, 10 dəfə rükuda, rükudan qalxarkən 10 dəfə, birinci səcdədə 10, iki səcdə arasındakı oturmada 10 və ikinci səcdədə 10 dəfə həmin təsbeh söylənilir.

**TƏSDİQ (التصديق):**

“Doğru danışmaq; verdiyi sözə əməl etmək” mənalarını ifadə edən “sidq” kökündən yaranmış, “bir şeyin və ya bir kimsənin doğruluğuna qənaət gətirmək” deməkdir. İnancın tamamlanması üçün ən önəmli ünsürdür. Belə ki, inanc əsaslarına qəlb ilə iman gətirən kimsə bu qənaətini dil ilə ifadə edərək təsdiqləməlidir.

**TƏSƏLSÜL (التسلسل):**

Lüğəvi baxımdan “tamın parçalarını silsiləvari şəkildə bir-birinə əlavə etmək, arası kəsilmədən ard-arda davam etmək” mənalarına gəlir. Kəlam alimlərinin Allahın varlığını sübut etmək məqsədilə irəli sürdüyü “hüdus” və ya İslam filosoflarının istinad etdikləri “imkan” dəlilinə görə, hadis (əzəli olmayan, sonradan olan) və mümkün varlıqların meydana gəlməsi üçün qədim (əzəli) və vacib (zəruri) bir illətin (səbəbin) mövcudluğunu qəbul etmək lazımdır. Əks təqdirdə, təsəlsülün, yəni sonsuz səbəb-nəticə münasibətini qəbul etmək zərurəti yaranır. Bunun mümkün olmadığını qəbul edən İslam alimləri təsəlsül düşüncəsini tənqid etmişlər.

**TƏSƏVVÜF (التصوف):**

Hərfən “yun paltar geyinmək” mənasında işlənən söz. İnsanın idrak yolu ilə Yaradana çata bilməsi və onunla vəhdət yaşaya bilməsinə imkan verən təlim. Sufi təmayüllü həyat təsəvvürü. Belə həyat tərzini mənimsəyən sufizm özünəxas prinsiplər yaradaraq, həm geniş mədəniyyət qurmuş, həm də ictimailəşərək başqa mədəniyyətlərə təsir edəcək səviyyələrə gəldiyi tarixi dövrlər yaşamışdır. Bəzən bir hərəkat kimi, təsəvvüf həm İslamın yayılmasına, həm də İslam

mədəniyyətinin inkişafına töhfələr vermişdir. İslam irfan ədəbiyyatının inkişafında xüsusi rola malik olan təsəffüv müridizm nümunəsində olduğu kimi, xalqların milli-azadlıq mübarizəsinin dinamikliyini təşkil edən ünsürə də çevrilmişdir.

**TƏSHİF (التصحيف):**

"Siqə (etibarlı) ravilərə müxalifətin bir növü olan "təshif" kəlməsinin yazılışı dəyişmədən nöqtə və hərəkələrin dəyişdirilməsi yolu ilə başqa bir kəlmənin ortaya çıxması" mənasında hədis üsulu termini. "Təfil ölçüsündə məsdər olan təshif lüğətdə "bir səhifədə yazılan hədislərdəki kəlmələri yanlışlıqla dəyişdirməyə" deyilir. Belə dəyişiklik, əsasən, mətndə bəzən də sənəddə olur. Kəlməsi nöqtə dəyişikliyinə məruz qalmış hədisə "musəhhəf" hədis deyilir.

**TƏSLİS (التثليث):**

Xristian inancının əsasını meydana gətirən üç üqnum üçün istifadə olunan ərəbcə termin. Yunanca "trias", latınca "trinitas" adlandırılan təslis Xristianlığın tanrı anlayışının əsasını meydana gətirən "Ata, Oğul və Müqəddəs ruhu" ifadə edir. Əhdi-Cədidin Matta İncilində (28/19) və Korinflilərə məktubda (13/13) keçən təslis anlayışının III-IV əsrlərdə bir doktrina kimi formalaşdırıldığı qəbul edilir.

**TƏVA (التوي):**

Həvalə əqdində borcu öhdəsinə alan şəxsin onu ödəmə imkanının olmaması.

**TƏVATÜR (التواتر):**

Yalan danışmaqda birləşmələri mümkün olmayan ravilər (hədisi rəvayət edənlər) qrupunun hər nəsildə özləri kimi ravilər qrupundan hədisləri eşidib nəql etmələri. "Bir-birinin ardınca gəlmək", "kəsilmədən davam etmək" mənasını verir. Bu hədislər ağıl yolu ilə bilinən deyil, görməyə və eşitməyə istinad edən xəbərlər cinsindən olmalıdır. Təvatürün iki növü var. 1. Ləfzən mütavatir. Bütün rəvayətlərdə ləfzləri eyni olan hədisə deyilir. 2. Mənən mütavatir. Aralarında ortaq bir nöqtə olan müxtəlif hökmlərin təvatür şərtlərini daşıyan ravilərin nəql etmələri ilə ortaya çıxan ortaq mənaya deyilir. Məsələn: 100-dən artıq hədisdə Həzrət Peyğəmbərin dua edərkən əllərini qaldırdığı bəyan edilmişdir. Burada "təvatür" olan məna dua edərkən əllərin qaldırılmasıdır.

**TƏVƏSSÜL (التوسّل):**

Bir şeyi vasitə etmə. Allaha yaxın olmaq üçün, yaxud ondan bir şeyi niyaz edəndə qulun öz saleh əməllərini və ya bəzi saleh insanları vasitə etməsi.

**TƏVİL (التاويل):**

Bir sözün ehtimal olunan mənalarından biri ilə aydınlaşdırılması, yaxud müəyyən bir dəlilə əsasən sözün zahir olmayan mənasını aşkar etmək.

**TƏVİL (التأويل):**

Lüğətdə "əslinə qaytarmaq, çevirmək" kimi mənalara gəlir. "Yuxu

yozmaq", "açıqlamaq", "bir işin sonluğu" kimi mənalarda da işlədilir. Quranda fərqli mənalarda 17 ayədə keçir. Termin olaraq isə bir səbəb və ya dəlildən ötrü ayənin zahiri mənasını özündən əvvəlki və sonrakı ayələrə də münasib olacaq şəkildə, Quran və sünnəyə zidd olmayacaq mənalardan birinə yozmaq. Təfsir məfhumu ilə ortaq və fərqli xüsusiyyətlərə malikdir. Təfsir, əsasən, nəqlə əsaslandığı halda, təvildə nəqllə yanaşı, əqli mühakiməyə də yer verilir.

**TİBBİ-NƏBƏVİ (الطب النبوي):**

Həzrət Peyğəmbərin tibb ilə əlaqəli söylədiyi hədislərdən meydana gələn elm sahəsi. Həzrəti Peyğəmbərin xəstəliklər və zamanının bilinən müalicə üsulları, sağlamlığı qoruma kimi mövzulardakı tövsiyə və təcrübələrini ehtiva edən əsərlər qələmə alınmış və hədis kitabları içində müstəqil bölmə meydana gətirilmişdir.

**TİEN:**

Qədim Çin inancında Uca Tanrını və göyü ifadə edən termin.

**TİEN TAO:**

Qədim Çində "göyün yolu" mənasında Daoizmə verilən ad.

**TİLAVƏT SƏCDƏSİ (التلاوة):**

Oxuma səcdəsi. Qurani-Kərimin içində səcdə ayəsi keçən surələri oxuyarkən oxuyan və qulaq asanlara yerinə yetirmək vacib sayılan səcdəyə "tilavət səcdəsi" deyilir. Bu tək səcdənin məqsədi Allahı ucaltmaq üçün üzü və alnı yerə qoymaqdır. Bu barədə Qurani-Kərimdə belə deyilir: "Onlara nə olub ki, iman gətirmirlər? Özlərinə Quran oxunduqda səcdə etmirlər?" ("İnşiqaq", 84/21-22).

**"TİN" SURƏSİ (سورة التين):**

Quranın 95-ci surəsi. 8 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki "əncir" mənasına gələn "tin" sözündən alınmışdır. Surədə insanın bədən, qəlb və zehin olaraq məsuliyyət daşımasından bəhs edilir.

**TİRTHANKARA:**

Caynizm inancına görə, əzəli hikməti tarixin müxtəlif dövrlərində insanlara çatdıran, reinkarnasiyadan və samsaradan qurtulmuş liderlər üçün istifadə olunan termin. Caynizmin kosmologiyasına görə, əzəli və əbədi olan aləm yüksəliş və çöküş dövrləri keçirir. Çöküş dövrlərində insanlara doğru yolu göstərmək üçün tirthankaralar gəlir. Caynizmin qurucusu Mahaviranın iyirmi dördüncü – sonuncu tirthankara olduğuna inanılır. Cinalarla (jina) birlikdə tirtankaralar caynist məbədlərinin iki mühüm ibadət obyektidir.

**TOTEM (totem):**

İbtidai qəbilə mənsublarının özlərinə qohum saydıqları və müqəddəs qəbul etdikləri heyvan, bitki və ya əşyalara verilən ad. Totemin kəlmə mənası "işarə", "iz" mənalarına gəlir. Klan

və ya qəbilənin ulu əcdadı sayılan totem, bir heyvan və ya bitki ola biləcəyi kimi, hər hansı bir heyvanın müəyyən orqanı və ya bir bitkinin müəyyən parçası da ola bilər. Totemin maddi varlığı altında gizli bir "mana" gücü olduğuna inanılır. Buna görə də qəbilə tərəfindən totem qəbul edilən bitkinin və ya heyvanın kəsilməsi və yeyilməsi qadağan hesab olunur. Bu qadağaya da "tabu" (toxunulmaz, müqəddəs) deyilir. Bu inanca görə eyni totemə bağlı olanlar öz aralarında evlənə bilməzlər.

**TOTEMİZM (totemism):**

İnsanlarla müqəddəs hesab edilən totem (bitki, heyvan, əşya və s.) arasında fövqəltəbii qohumluğa inanmağa əsaslanan ibtidai etiqadlar sistemi. İbtidai dinlər üzərində araşdırmalarla məşhur olan fransız sosioloqu Emil Dürkheymə görə, totemizm dinlərin mənşəyini təşkil edir və bütün dinlər totemizmdən təkamül edərək ortaya çıxmışdır. Bununla yanaşı, bəzi etnoloqlar totemizmin müxtəlif formalarının olduğunu qeyd edirlər. Qəbilə totemizmi, cinsiyyət totemizmi və fərdi totemizm bunlara misal verilmişdir. Totemizm həm dini, həm də ictimai bir sistem olaraq xarakterizə edilir. İnsanla totem arasındakı münasibətlər nəzərə alındıqda totemizm bir din kimi, qəbilə mənsubları arasında qarşılıqlı öhdəlikləri tənzimləməsi baxımından isə ictimai sistem kimi xarakterizə edilə bilər.

**TÖFVİZ (التفويض):**

Bir işin və ya məsələnin gerçəkləşməsi üçün əlindən gələni etdikdən sonra nəticəni Allaha təvəkkül etməsi "töfviz" adlanır. Həzrət Musanın təbliğ məsuliyyətini yerinə yetirdikdən sonra Fironu Allaha həvalə etməsi buna nümunədir.

**TÖVBƏ (التوبة):**

Lüğəvi baxımdan "geri dönmək" mənasını ifadə edən "tövbə" kəlməsi, terminoloji mənada "dini cəhətdən günah sayılan davranışdan bir daha etməmək niyyəti ilə imtina etmək" şəklində tərif edilir. İslam alimləri tövbənin Allah nəzdində məqbul sayılması üçün üç şərtin vacib olduğunu irəli sürürlər: 1. Günaha görə peşman olmaq. 2. Günahı tərk etmək. 3. Günahı bir daha etməməyə qəti qərar vermək. Qurani-Kərimdə ifadə edilən "tövbeyi-nəsuh" – yaxşı niyyət və səmimiyyətlə edilən tövbəni ifadə edir ("Təhrim", 66/8).

**"TÖVBƏ" SURƏSİ (سورة التوبة):**

Quranın 9-cu surəsi. 129 ayədən ibarətdir. Mədinə dövründə nazil olub. Surənin adı 104 və 117-118-ci ayələrdə bəhs edilən tövbə anlayışından alınmışdır. Surənin digər adı "bəraə" olaraq bilinir və ilk ayədəki "ultimatum" mənasındakı "bəraət" sözündən alınmışdır. Surədə müsəlman hakimiyyətinin elan edilməsi, münafiqlərin və səmimi möminlərin ayrılması üçün onların xüsusiyyətləri

haqqında bəhs edilir. Bununla yanaşı, müharibə ilə bağlı bəzi hüquqi məsələlərə toxunulmuşdur. "Tövbə" surəsi Qurani-Kərimin "Bismillahir-Rəhmanir-Rəhim" ifadəsi ilə başlamayan yeganə surəsidir.

**TÖVRAT:**

Yəhudiliyin Müqəddəs Kitabı üçün istifadə olunan termin. Yəhudiliyə görə "təlim, doktrina, rəhbər, hökm, qanun, din" mənasına gələn Tövrat həm xüsusi mənada Musa peyğəmbərə verilən kitabı, həm də ümumi mənada Əhdi-Ətiq, Mişna və Talmudu ifadə etsə də, əsasən, Əhdi-Ətiqin ilk beş kitabı üçün istifadə olunur: Təkvin (Bereşit), Çıxış (Şemot), Levililər (Vayikra), Saylar (Bemidbar) və Qanunun təkrarı (Divarim).

**TRADİSİONALİZM (traditionalism):**

Ənənəyə və ənənəvi adət-ənənələrə böyük əhəmiyyət verən, ənənəvi dəyərlərin və qanun-qaydaların qorunub saxlanmasına çalışan, ənənəvi olan hər şeyi modernlikdən üstün hesab edən baxışlar sistemi. Tradisionalizm ənənənin ilahi hikmətlərdən qaynaqlandığı fikrinə əsaslanır. Məhz buna görə ənənənin müasir və ağla söykənən ideyalara tərcih edilməsinin məqsədəuyğunluğu müdafiə edilir. Tradisionalizm cərəyanı mühafizəkar mövqeyinə görə tənqid edilir. Belə ki, tradisionalizm mövcud durumun legitimləşdirilməsi, "status-kvo"nun saxlanması, dəyişikliklər, yeniliklər və tərəqqiyə qarşı olma baxımından ciddi etirazlara məruz qalmışdır.

**TRANSSENDENTAL (transcendental):**

Latınca "üstündən adlayıb-keçmək" və "pozmaq" mənalarındadır. "İmmanent" termininin əksinə olaraq, şüurun və idrakın hüdudlarından kənarında olanı ifadə edir. Bu terminin Kant fəlsəfəsində böyük əhəmiyyəti var. Kant belə hesab edirdi ki, insanın idrakı transsendental aləmə daxil olmağa qadir deyil. Digər tərəfdən, Kant fəlsəfəsində insanın davranışı transsendental normalardan irəli gəlir. Fəlsəfə tarixində Tanrının transsendentallığı məsələsi də müzakirə obyektinə çevrilmişdir. Teistlər və deistlər Tanrının transsendentallığını (kainatdan kənarda olduğunu), panteistlər isə immanentliyini (kainatdan kənarda olmadığını) müdafiə etmişlər.

**TUĞRA:**

Türklərin dövlətçilik ənənəsində hökmdarlıq əlaməti olan möhür və yaxud yazını ifadə edən termin.

**"TUR" SURƏSİ (سورة الطور):**

Quranın 52-ci surəsi. 49 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədə keçən və Həzrət Musaya vəhy nazil olan Tur dağının adından alınmışdır. Surədə axirət həyatı və insanın məsuliyyəti haqqında bəhs edilir.

**TÜRBƏ:** Əməli-saleh birinin və ya pirin ziyarət edilən üstüörtülü qəbri. Belə bir yerdə yatanın insanlara mənən yardım edəcəyinə inanılır.

**TÜRÜQ (الطرق):** Hədis üsulunda sənədlə eyni mənanı ifadə edir. Lüğəvi baxımdan "yol" mənasına gələn "təriq" kəlməsinin cəm formasıdır.

# U

**UPANİŞADLAR:**

Hinduizmin vəhy məhsulu hesab olunan “şruti” ədəbiyyatına aid fəlsəfi-mistik müqəddəs kitablar. E.ə. VIII-VI əsrlərdə yaranan Upanişadlar ədəbi üslubda və dialoqlar tərzində yazılmışdır. Vedaların şərhi hesab olunsa da, məzmun cəhətdən fərqlidir. Vedalardakı politeist inancı Upanişadlarda monoteist tanrı inancı əvəz edir.

# Ü

**ÜÇ AYLAR:**

Rəcəb, şaban və ramazan aylarına verilən addır.

**ÜDUL (عدول):**

Hədis elmlərində ədalətli olduqları üçün rəvayətləri məqbul sayılan ravilər, xüsusilə də sünni hədis ədəbiyyatında səhabə üçün işlədilən termin. Kəlmə olaraq “ədalətli” mənasına gələn “adil” kəlməsinin cəm formasıdır. “Səhabə üdulldur” deyildiyi zaman Həzrət Peyğəmbərin ətrafında olan müsəlmanların ədalət vəsfinə sahib olduqları və hədisdə əsla məqsədli yalan söyləmədikləri nəzərdə tutulur.

**ÜLULƏMR (أولو الأمر):**

Müsəlman cəmiyyətində istimai təsiri olan şəxsiyyyətlər və yüksək inzibati vəzifə sahibi olan idarə heyətini ifadə edən termin. Dövlət başçısından başlayaraq, cəmiyyətin hər təbəqəsində ən üst səviyyədəki məsul şəxsləri ümumilikdə ifadə edən sözdür.

**ÜLUMİ-HƏDİS ( العلوم الحديث):**

**Bax: HƏDİS ÜSULU.**

**ÜLUMİ-QURAN (علوم القرآن):**

Quran elmləri. Nazil olması, tərtibi, toplanması, yazılması, oxunması, təfsiri, ecazı, nasixi, mənsuxu və barəsindəki şübhələrin aradan qaldırılması baxımından, Quranla əlaqəli olan elmlərin məcmusuna verilən ad. Başqa bir ifadə ilə “Ülumi-Quran” Quranı təfsir edərkən lazım olan biliklər mənasına gəlir. “Ülumi-Quran” termini “Ülumi-Təfsir” mənasını da ehtiva edir.

**ÜLÜVV (العلو):**

Leksik baxımdan “yuxarı çıxmaq, yüksəlmək, şan, şərəf və qüdrət sahibi olmaq” mənalarını ifadə edir. Quranın iyirmi yeddi ayəsində qeyd edilən “ülüvv” kəlməsi “əli”, “əla”, “mütəali” və “taala” kəlmələri ilə birlikdə Allaha aid edilir. Allahın hər bir məxluqdan yüksək olduğunu, habelə Onun şan, şərəf və qüdrət sahibi olduğunu ifadə edən “ülüvv” kəlməsi Allahın “əli” və “mütəali” adlarında öz əksini tapmışdır. Hədis üsulunda isnadda ravi sayının nisbətən az olduğu hədislər üçün də “ülüvv” terminindən istifadə olunur. Lüğəvi baxımdan “yüksəklik” mənasına gəlir. Həzrət Peyğəmbərə ən qısa yoldan çatan isnadlar məqbuldur. Son ravi ilə Həzrət Peyğəmbər arasında ravi sayı artdıqca, xəta ehtimalı da çoxalır. Bu həqiqəti nəzərdə tutan hədis alimləri bir hədisi qaynağına ən qısa yoldan çataraq əldə etməyi üstün saymışlar.

**ÜMMİ (الأمي):**

a) Anadan doğulduğu kimi qalan, oxumaq-yazmaq bilməyən; b) İlahi bir kitaba sahib olmayan.

**ÜMRƏ (العمرة):**

Həcc ayları xaricində Kəbəni ziyarət məqsədilə yerinə yetirilən ibadətə “ümrə” deyilir. Bunun hökmü sünnədir. Həcc və ümrə ayrı-ayrı olmaqla yanaşı, bəzən də eyni vaxtda, yəni Həcc günlərində birlikdə yerinə yetirilir. Həcc günlərində ümrə imkanından da faydalandıqda, belə bir ibadətə “təməttü” (faydalanma) həcci deyilir. Bəzi hallarda eyni ehramla, bəzən də ayrı-ayrı ehramla yerinə yetirilir.

**ÜRF/ADƏT (العرف):**

Müəyyən bir cəmiyyətdə fərdlər arasında ortaq tətbiq edilən və xalqın vərdiş edib alışqanlıq halına gətirdiyi, həm dinin qəbul etdiyi, həm də ağla müvafiq olan sosial davranış şəkillərinə deyilir. Ürf və adətlər sosial həyatı tənzimləyən qaydalar mənzuməsinin bir hissəsini təşkil edir.

**ÜRFAN/İRFAN (العرفان):**

İnkarın ziddi. Mənəvi və ruhi təcrübə ilə əldə edilən bilik. Allaha aid adlar, feillər, sifətlər və onun təcəllilələri haqqında mənəvi təcrübə yolu ilə bilavasitə əldə edilən biliklər. Elmin ziddi cahillik, irfanın ziddi inkardır. Mərifət sahibi, ancaq mövlasının təcəllilərini seyr edən şəxsdir.

**ÜSULİLİK (الأصوليّة):**

İmamiyyə məzhəbinin daxilində mövcud olan hakim fiqh məktəbi. Ərəbcə “əsl” kəlməsinin cəmi olan “üsul” sözündən düzəldilmiş “üsulilik” (üsuliyyə) terminoloji mənada “dini hökmlərin əqli dəlillər yolu ilə əldə oluna biləcəyini” irəli sürən imamilikdəki hakim fiqh məktəbinin adıdır. Fiqhi hökmlərin ancaq məsum imamlardan gələn hədislərlə əldə oluna biləcəyini müdafiə edən və ictihada qarşı çıxan əxbarilərin əksinə, üsulilər fiqhin dörd əsas mənbəyi (Quran, sünnə, icma və ağıl) olduğunu irəli sürür və ictihadı qəbul edir.

**ÜSULİ-SƏLASƏ (الأصول الثلاثة):**

İslam əqaidinin üç əsas əqidəsini ifadə edir. Bu əsas təməllər tövhid, nübüvvət və səmiyyatdan (məad) ibarətdir. “İlahiyyat” (tövhid) Allahın varlığı, sifətləri, feilləri, qəzavü-qədər və insanın ixtiyari hərəkətlərini əhatə edir. “Nübüvvət” peyğəmbərliyə edilən etirazların rəddini, möcüzə və kəramətləri Həzrət Məhəmmədin risalətini ehtiva edir. “Səmiyyat” (məad) isə qəbir həyatı və axirətin mərhələlərini əhatə edir.

**ÜSULİ-TƏFSİR (اصول التفسير):**

Təfsir metodologiyası. Quranın düzgün başa düşülməsi və təfsir edilməsi üçün lazım olan bir sıra qayda və prinsipləri irəli sürən, bunların necə tətbiq olunacağı ilə bağlı bilgilər verən elm sahəsi.

**ÜŞR (العشر):**

Ondabir alınan zəkat vergisi. Əkin və məhsulların becərilməsi yağış və s. suları ilə zəhmətsiz başa gəlirsə, əldə edilən məhsulun zəkatı ondabir hissədən verilir.

**ÜVEYSİLİK: (الأويسية)**

Veysəl Üveys Qərani metodu və yolu. Nəfs tərbiyəsi və irşadın bir şeyxə bağlanmadan birbaşa Həzrət Peyğəmbərdən, yaxud bir pirin mənəviyyatından ilham alaraq tamamlanması. Veysəl Qərani Həzrət Peyğəmbəri görə bilməsə də, onun mənəvi tərbiyəsindən ilham almış, ruhən kamilliyini sona qədər tamamlamışdır.

**ÜZLƏT (العزلة):**

Salikin xalqdan uzaqlaşaraq ayrı yaşaması. Seyrü sülukun başlanğıcı üçün üzlət şərtdir. Bu, Allah ilə tənha qalmağın ən əlverişli yoludur. Bu mənada, Cüneyd Bağdadi belə demişdir: "Ağıllı olan vəhdəti üzlətdə arayandır". Mahiyyəti baxımından üzlət salikin vüsləti üçün bir vasitədir. Ömür boyu üzlətdə qalan sufilər də olmuşdur ki, onların sayı azdır.

# V

**VACİB (الواجب):**

Hənəfilər istisna olmaqla, digər İslam mənsublarına görə, fərzlə eyni mənanı daşıyır. Hənəfi məzhəbinə görə isə Quran və sünnədə yerinə yetirilməsi dəlalət baxımından zənni olaraq tələb edilən işdir. Vitr və bayram namazı qılmaq, qurban kəsmək hökmü vacib olan işlərdir. 1-ci və 2-ci maddələrdə qeyd edilən hökmlər hənəfilər xaricindəkilərə görə, hamısı vacib hökmü daşıyır.

**VAİSNAVİZM:**

Vişnanı Uca Tanrı qəbul edən Hinduizmin məzhəbi. Hinduizmin üç böyük məzhəbindən biri olan Vaisnavizmin özü də 20-yə yaxın dini camaata bölünür.

**VAİSYALAR:**

Hinduizmin kasta sistemində tacir və sənətkarları təmsil edən sosial təbəqəyə verilən ad.

**"VAQİƏ" SURƏSİ (سورة الواقعة):**

Quranın 56-cı surəsi. 96 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surənin adı ilk ayədə keçən "vaqiə" (həqiqətən baş verəcək hadisə) sözündən alınmışdır. Surədə, əsasən, axirət həyatı geniş şəkildə təsvir edilir.

**VAQİFİLİK (الواقفة):**

Ərəb dilində "durmaq, dayanmaq" mənasına gələn "vəqf" sözündən törəmiş "vaqifilik" (vaqifə) terminoloji mənada imamətin 12-ci imamdan əvvəlki imamların hər hansı birində sona çatdığını bildirərək, ondan sonrakı imamları qəbul etməyən qruplara verilmiş addır. İmamiyyə mənbələrində bu adla imamətin ən çox Museyi-Kazımda bitdiyini, onun ölmədiyini və qiyamətdən əvvəl Mehdi olaraq dünyaya dönəcəyini iddia edərək Əli ibn Musanın imamətini qəbul etməyən musəvilik (musəviyyə) məzhəbi nəzərdə tutulur.

**VARDHAMANA:**

Caynizmin qurucusu. Caynizmə görə, e.ə. VI əsrdə Hindistanın Bihar əyalətində kşatriya sinfinə mənsub olaraq doğulan Vardhamana 30 yaşından etibarən, on üç il qatı asketik bir həyat yaşadıqdan sonra qurtuluşa çatmış və "Jina" (qalib) və yaxud "Mahavira" (böyük qəhrəman) adını almışdır. Ömrünün geri qalan hissəsini özündən əvvəlki "tirthankaraların" təlimini insanlara çatdıran Vardhamananın yetmiş yaşında ölüm orucu nəticəsində öldüyünə inanılır.

**VASİLİLİK (الواصليّة):**

İslam məzhəbləri tarixində mötəzilə məzhəbinin qurucusu Vasil ibn Ətanın (v. 131/748) etiqadi fikirlərini qəbul edənlərə verilən ad. Əvvəllər Həsən əl-Bəsrinin tələbəsi olmuş Vasil ibn Əta müəllimi ilə "mürtəkibi-kəbirə"nin (böyük günah işləyən) mömin, yoxsa kafir olduğu mövzusunda mübahisə edərək ondan ayrılmışdır. Vasililik (vasiliyyə) aşağıdakı dörd əsas üzərində qurulmuşdur: 1. Allahın "həyat", "elm", "qüdrət" və "iradə" kimi sifətləri Onun zatından ayrı deyildir. 2. Allah şər və zülm ehtiva edən hərəkətləri yaratmır. Buna görə də şərin yaradılmasını Allaha aid etmək doğru deyildir. 3. Böyük günah işləyən (mürtəkibi-kəbirə) nə mömin, nə də kafirdir; o, küfrlə-imanın arasında bir mövqedədir (əl-mənzilə beynəl-mənziləteyn). 4. Cəməl və Siffin döyüşlərində iştirak edən tərəflərdən biri mütləq xətalıdır, lakin hansının xətalı olduğu bilinmir. Ona görə də onlar haqqında qərarı Allaha həvalə etmək lazımdır.

**VƏD və VƏİD (الوعد و الوعيد):**

"Söz vermək, gələcəkdə baş verəcək bir hadisəni xəbər vermək" mənalarına gəlir. "Vəd" yaxşılıq, "vəid" isə pislik və cəza mənasını əhatə edir. Termin olaraq "vəd" gələcəkdə insana xeyirin bəxş edilməsini və ondan zərərin uzaqlaşdırılmasını, "vəid" isə gələcəkdə insanın zərərə məruz qalmasını və xeyirin ondan uzaqlaşdırılmasını ifadə edir. Mötəzilə kəlamçıları buna əsaslanıb böyük günah işləməyən möminin axirətdə kiçik günahlarının da bağışlanacağı düşüncəsini irəli sürmüşlər.

**VƏDİƏ (الوديعة):**

"Başqasına əmanət etmək" mənasında "tərk edilmiş mal" deməkdir. Bir şəxsin öz malını qoruması şərti ilə başqasına əmanət verdiyi əqddir. Əmanət edənə "mudi" və ya "müstəvdi", əmanət edilənə isə "muda" və ya "müstəvda" deyilir.

**VƏHDƏTİ-ŞÜHUD (وحدة الشهود):**

Görmənin birliyi. Salikin vəcd və istiğraq (mənən halala qərq olmaq) halında hər yerdə Allahın təcəllisini müşahidə etməsi. Bu eşq halı keçdikdən sonra, Xaliq ilə məxluqu ayırd edib, ayrı halda idrak edir. Günəşin doğması halında ulduzların gözdən itməsi bunun izahı üçün bir nümunədir. Vəhdəti-şühud fikri Əhməd Sirhindi (v. 1034/1624) ilə məşhur olmuşdur. O, bu fikri "vəhdəti-vücud" konsepsiyasına qarşı çıxaraq irəli sürmüşdür. İsmayıl Siracəddin Şirvani (v. 1948) bu fikrin Azərbaycandakı davamçılarındandır.

**VƏHDƏTİ-VÜCUD (وحدة الوجود):**

Varlığın birliyi. Allahdan başqa varlıq olmadığının idrak və şüuruna sahib olmaq. Aləmdə həqiqi varlığın təkcə Allah olduğunu qəbul edərək digər məxluqların nisbi olduğunu, buna görə də onların xəyal və kölgələrdən ibarət olduğunu qəbul etmək. Salik

həqiqi varlığın bir olduğunu, onun da Allah olduğunu bilir və qalan hər şeyin Allahın təcəllilləri olduğunu qəbul edir. Vəhdəti-vücud fikri Əhməd Sirhindi kimi ilk dəfə Bəyazid Bistami, Cüneyd Bağdadi və Həllac Mənsur söz açmış olsalar da, İmadəddin Nəsimi nəzəriyyəsində onun orijinal atributları böyük ustalıqla və şairanə üslubda tərənnüm edilir. "Əsli xod zat imiş hər əşyanın / İkilik nistər anda vəhdətdir" beyti buna ən gözəl nümunədir. Məhz bu səbəbdən, elmi dövriyyədə vəhdəti-vücud konsepsiyası Həllac Mənsur ilə doğdu, Mühyiddin ibn Ərəbi ilə sistemləşdirildi, İmadəddin Nəsimi ilə təfərrüata qovuşdu, yəni birmənalı olaraq, "vəhdətin tacı" Nəsimi ilə qoyulmuş oldu.

**VƏHHABİLİK (الوهابية):**

XVIII əsrdə Ərəbistan yarımadasında meydana gələn dini-siyasi hərəkat. Bugünkü Səudiyyə Ərəbistanının Nəcd vilayətində dünyaya gələn Məhəmməd ibn Əbdülvəhhabın (1703-1792) yaratdığı bu cərəyana müxalifləri "Əbdülvəhhab" adındakı "vəhhab" sözündən çıxış edərək, "vəhhabilik" adını verirlər. Əslində, bu adı verməklə cərəyanın müxalifləri vəhhabiliyin İslamın ilk dövrlərində deyil, məhz XVIII əsrdə İbn Əbdülvəhhab tərəfindən ortaya çıxarıldığını, beləcə əsl İslamı təmsil etmədiyini vurğulamaq istəyirlər. Cərəyanın öz mənsubları isə daha çox "sələfilik" (sələfiyyə) adından istifadə edirlər. Onlara görə, sələfin, yəni İslamı Məhəmməd peyğəmbərin təbliğ etdiyi şəkildə yaşamış ilk iki nəslin (səhabə və tabiin) yolundan getdiklərinə görə, bu ad onlar üçün daha münasibdir. Bununla da onlar əsl İslamı məhz özlərinin təmsil etdiyini, Məhəmməd ibn Əbdülvəhhabın isə yeni bir cərəyan yaratmadığını, əksinə, müsəlmanları Peyğəmbərin təbliğ etdiyi və ilk iki müsəlman nəslin yaşadığı əsl İslama dönməyə dəvət etdiyini vurğulamaq istəyirlər. Tədqiqatçılar öz daxilində müxtəlif qruplara ayrılan vəhhabiliyi "mülayim" və "radikal" olmaqla iki qismə ayırırlar. Mülayim vəhhabiliklə nəzərdə tutulan öz müxaliflərinə və dövlətə qarşı silahlı mübarizə metodlarına müraciət etməyən, dövlətə loyal yanaşan qruplardır. "Radikal vəhhabilik"lə isə yaşadıqları dövlətin siyasi strukturuna loyal münasibət göstərməyən, silahlı mübarizə metodlarına üstünlük verən qruplar nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, XX və XXI əsrlərdə yaranmış bir çox radikal dini qruplaşma radikal vəhhabiliyin zəminində yaranmışdır. Həmçinin "mülayim" vəhhabilər də zorakı metodlara müraciət etməməklə yanaşı, digər məzhəblərə qarşı ekskluzivist mövqedən çıxış edirlər. Ümumilikdə, vəhhabiliyin fikirlərinin "tövhid" və "bidət" məfhumlarının ətrafında cəmləndiyini söyləmək mümkündür. İbn Əbdülvəhhabın əsərlərində də əsas olaraq bu məfhumlardan bəhs edilir. O, İslamın tövhid əqidəsini if-

rat şəkildə yozmuş, müsəlmanların əksəriyyətinin övliyalara ehtiram göstərdikləri, sufı təriqətlərinə daxil olduqları və türbələrə təzim etdikləri üçün tövhidi tərk edərək şirkə düşdüklərini iddia etmişdir. Həmçinin o, dini mətnlərdə Allaha aid edilən "əl", "üz", "enmə" kimi xüsusiyyətlərin insani səciyyə daşımadığını bildirsə də, onları qeyri-cismani mənada yozmağı da qəbul etməmişdir. Digər müsəlman məzhəblərinin nümayəndələri isə sözügedən xüsusiyyətlərin, əslində, həqiqi mənada işlənmədiyini bildirərək, onlara qeyri-cismani mənalar vermiş, vəhhabiliyi antropomorfik (insani xüsusiyyətlər daşıyan) tanrı düşüncəsini mənimsəməkdə ittiham etmişlər. İbn Əbdülvəhhabın ideyalarına əsaslanan müxtəlif vəhhabi qrupları tarixən digər İslam məzhəblərinin nümayəndələrinə mənfi yanaşmış, onları kafirlik və bidətçilikdə ittiham etmiş, hətta öz ideyalarını yaymaq üçün silahlı mübarizəyə də təşəbbüs göstərmişlər; məsələn: 1801-ci ildə vəhhabilər Kərbəla şəhərinə hücum edərək şiələrin 3-cü imamı Hüseyn ibn Əlinin türbəsini dağıtmış, orada olan qiymətli əşyaları özləri ilə aparmışdılar. Bu hücum nəticəsində minlərlə insan öldürülmüşdür. Vəhhabiliyin əhəmiyyət verdiyi məsələlərdən biri də "bidət" anlayışıdır. Dini baxımdan bidət sonradan çıxan və heç bir dini dəlilə əsaslanmayan əqidə və ibadətlərə verilən addır. Vəhhabi din xadimləri bu məfhumu da digər müsəlman məzhəblərinə nisbətlə daha radikal şəkildə şərh edir, hətta bəzən mahiyyəti etibarilə dini deyil, dünyəvi hesab olunan məsələlərə də şamil edirlər. Məsələn: onlar bayrağın önündə dayanma və himn ifa olunanda ayağa qalxma adətini Məhəmməd peyğəmbərin dövründə olmadığı üçün bidət hesab edirlər. Sünni və şiə din alimləri isə belə adətləri dini məsələ olmadığı üçün bidət hesab etmirlər. Onlara görə, bidət ancaq dində olmayan bir əqidəni və ya ibadəti dini formada təqdim etməkdir.

**VƏHM (الوهم):**

Boş xəyal, zənn, güman, təxmin. "Ən zəif qənaət, gələcək ilə bağlı zənn, təxmin və xəyal" kimi mənalara gəlir. Məntiqdə iki proporizasiyadan doğruya yaxın olanına "zənn", uzaq olana isə "vəhm" deyilir. Eyni kökdən törəyən təvəhhüm isə "bir nəsnənin varlığı haqqında tərəddüd etmək", "şübhə etmək" mənalarına gəlir. "Vəhm" insana aid güc olub, əsas funksiyası xüsusi terminləri və məfhumları dərk etməkdir. "Vəhm" qüvvəsi sayəsində quzu canavardan qorxub qaçır. "Vəhm" sözünü İslam düşüncəsi tarixində ilk dəfə fəlsəfi termin kimi istifadə edən Yəqub ibn İshaq əl-Kindi olmuşdur. O, vəhmi "zehnin qəbul edib-etməməsi məsələsində qərarsız qalması" olaraq tərif etmişdir. Bu kontekstdə təvəhhüm terminini də açıqlamağa çalışan Kindi onu hissedilən bir formanın maddəsi ortadan qalxdı-

ğı halda, o formanı dərk edən psixi qüvvə kimi tərif edir. İxvani-Səfaya görə, "vəhm" heyvanın əşyanı təxəyyül etmə qüvvəsidir. Farabiyə görə, "vəhm" dizayn etmə ilə hafizə qüvvələri arasında olan, hissi təcrübə yaşamadan meydana gələn idrak qüvvəsidir. Müsəvvirə (təsvir etmə) və hafizədəki hissi müşahidələri ruh və ağlın dəstəyi ilə istifadə edən qüvvəyə "müfəkkirə", vəhmin yardımı ilə istifadə edilən potensiyaya isə "mütəxəyyilə" qüvvəsi deyilir. Hədis elmində isə ravinin (hədisi rəvayət edən) doğru olduğunu zənn edərək hədisin sənəd və mətnində, hətta cərh və tədildə bəzi xətalar etməsi. Belə hədislər "müəlləl" adlanır. Lüğəvi baxımdan şübhə olan bir nəsnənin tərcih edilən tərəfinə deyilir. Cəm forması "övham"dır.

**VƏHY (الوحى):**

Lüğətdə "pıçıldamaq, gizli və sürətli şəkildə bildirmək, ilham etmək, təlqin etmək, vəsvəsə vermək" mənalarına gəlir. Yaradıcının ümumi olaraq varlıqlara öz hərəkət tərzlərini, xüsusi olaraq insanlara çatdırmaq istədiyi ilahi əmr, qadağa və xəbərləri vasitəli və vasitəsiz bir tərzdə, gizli və sürətli bir yolla peyğəmbərlərinə çatdırması. Həzrət Peyğəmbərə vəhy yolu ilə nazil olduğu üçün Quran da "vəhy" adlandırılmışdır: "O, kefi istəyəni (havadan) danışmır. Bu, ancaq (Allah dərgahından) nazil olan bir vəhydir ("Nəcm" 53/3-4).

**VƏHY KATİBİ (كاتب الوحى):**

Cəbrail vasitəsilə Allah tərəfindən göndərilən ayələri yazmaq və bildirilən hissələrə yerləşdirmək üçün Həzrət Peyğəmbər tərəfindən seçilərək vəzifələndirilən səhabələrə verilən ad.

**VƏİDİLİK (الوعيديّة):**

Xaricilik və mötəzilə məzhəblərinə verilən ad. "Vəid" termini Allahın günahkarları axirətdə cəzalandıracağına dair sözündən dönməyəcəyi mənasına gəlir. Mötəziləyə və xariciliyin "vəidilik" (vəidiyyə) qoluna görə, günah işləyən (mürtəkibi-kəbirə) mömin tövbə etməsə, axirətdə ona şəfaət olunmayacaq və əbədi olaraq cəhənnəmdə qalacaq.

**VƏQF (الوقف):**

İslam mədəniyyətində VIII əsrdən etibarən ictimai, iqtisadi və mədəni sahədə böyük rol oynamış xeyriyyə qurumu. Vəqfin təşəkkülündə Allah yolunda maddi kömək göstərmək və xeyir işlərdə yarışmağı təşviq edən Qurani-Kərimin "sədəqə" və "xeyrat", həmçinin Məhəmməd peyğəmbərin hədislərindəki "sədəqeyi-cariyə" məfhumlarının böyük rolu olmuşdur. İslam dünyasında məscid, mədrəsə, kitabxana, müsafirxana, xəstəxana, hamam, karvansara və xeyriyyə məqsədli digər müəssisələrin əksəriyyəti vəqflərə bağlı fəaliyyət göstərmişdir. Həmçinin yol, körpü, suvarma kanalları, su yolları, kanalizasiya sistemlərinin çəkilməsində də vəqflərin böyük rolu olmuşdur.

**VƏQF (الوقف) / İBTİDA (الإبتداء):**

"Vəqf" sözü lüğəvi baxımdan "dayanmaq" mənasını verir. Təcviddə isə kəlmənin sonunda dayanaraq onu özündən əvvəl gələn kəlmədən ayırmağa "vəqf" deyilir. "İbtida" sözü lüğəvi baxımdan "başlamaq" mənasını verir. Termin olaraq Quran oxuyarkən vəqf etdikdən sonra qiraətə davam etmək üçün təkrar başlamaq və ya ilk qiraətə başlamaqdır. İbtida ixtiyari olsa da, mənanın müstəqilliyini qorumaqla məqsədəuyğun yerdə icra edilməlidir.

**VƏRASƏT (الوراثة):**

Müəyyən hüquqlar səbəbindən ölən şəxsin mirasına malik olmaq.

**VƏSİLƏ/TƏVƏSSÜL (وسيله/توسل):**

Vasitəçi, yaxınlıq səbəbi. Duanın qəbul olunması və ya bəladan xilas olmaq üçün Allaha əl açarkən saleh əməl sahibi pir, yaxud övliyaları və ya dua sahibinin özünün saleh əməllərini arada vasitə etməsi. Təvəssül etmək barəsində müxtəlif fikirlər mövcud olsa da, şəxsin özünün imanı və əməli ilə təvəssül etməsinin məqsədəuyğunluğu qəbul edilmişdir. "Ey iman gətirənlər! Allahdan qorxun, Ona (Onun rəhmətinə və lütfünə qovuşmaq üçün) vəsilə (yol) axtarın" ("Maidə", 5/35) ayəsinin dəlalət etdiyi məna məhz bu kontekstdə izah edilir.

**VƏSİYYƏT (الوصية):**

Ölümdən sonra qanuniləşməklə bir şəxsin öz ixtiyarı ilə malını bağışlayaraq, başqa şəxsin mülkiyyətinə keçirməsi, onun malı olacaq şəkildə ona verməsinə vəsiyyət deyilir.

**VƏSL (ألوصل):**

Lüğəvi baxımdan "çatmaq, birləşdirmək" mənasını verir. Təcviddə isə Quran oxuyarkən bir kəlməni özündən sonra gələn kəlmədən ayırmadan, aralarında dayanmadan, ikisini birləşdirərək birlikdə oxumağa "vəsl" deyilir.

**VİCADƏT (الوجادة):**

Hədis elmində bir şəxsin yazılma bir hədis risaləsini və ya kitabını ələ keçirməsi, tapmasına deyilir. Lüğəvi baxımdan "tapmaq" mənasına gələn "vəcədə" kəlməsinin məsdəridir. "Tapmaq", "ələ keçirmək" deməkdir.

**VİDA XÜTBƏSİ (خطبة الوداع):**

Məhəmməd peyğəmbərin 632-ci ildə yerinə yetirdiyi həcc əsnasında Ərəfat, Mina və Əqəbədə xalqa oxuduğu xütbələri əhatə edən mətn üçün istifadə olunan termin. Vida xütbəsində Məhəmməd peyğəmbərin vurğuladığı əsas mövzular arasında canın və malın toxunulmazlığı, "riba" və qan davaları kimi Cahiliyyət adətlərinin ləğvi, cəzanın fərdiliyi, ər-arvadın bir-biri üzərindəki hüquq və vəzifələri, müsəlman qardaşlığı, əmanətin sahibinə verilməsi kimi bəndə hüquqları mühüm yer tutur. Vida xütbəsində sonuncu peyğəmbər olduğunu söyləyən Məhəmməd peyğəmbərin ümmətinə doğru yolda davam etməsi üçün Allahın kitabından

və sünnəsindən (Əhli-beytindən) ayrılmamasını tövsiyə etdiyi də qeyd olunur.

**VİRD/ÖVRAD (ورد/اوراد):**

Günün müəyyən vaxtlarında mütəmadi yerinə yetirilən zikr və dualar. Vird, adətən, salikin və ya təriqət əhlinin şeyxin mənəvi tərbiyəsində riayət etdikləri üsul və metodların bir hissəsini ifadə edir. Hər təriqətin özünəməxsus vird forması mövcuddur. Xüsusilə də gecə ibadətlərindən sonra müəyyən sayda zikr və dualar oxunaraq, ilahinin hüzurunda feyz və ilham alaraq, Allaha yaxınlıq məqsədi daşıyan virdlər salikin mənəvi kamilləşməsinə paralel olaraq sadədən-mürəkkəbə doğru artırılır, ömür boyu davam edir.

**VİTR NAMAZI (صلاة الوتر):**

İşa namazından sonra gecənin son üçdəbirində qılınması lazım olan rükət sayı tək olan namazdır. Bu namazın gecənin müəyyən vaxtına təxir edilməsi bəzi hallarda qıla bilməmə ehtimalını doğuracağı üçün onun şam namazının ardınca qılına biləcəyi də rəvayət edilmişdir. Vitr namazı hənəfi məzhəbində vacib olub, üçrükətli bir namazdır və bir salamla qılınır. Cəfəri və şafiilikdə isə müstəhəb namazlardan olub bir rükət qılınır.

**VÜCUB (الوجوب):**

Kəlam elminə və İslam fəlsəfəsinə görə, "varlığı zəruri olan, var olmaq üçün başqasına möhtac olmayan" mənasını verən vücub əqli hökmlərdən biridir. "Vacib" termini ontoloji baxımdan yalnız Allahın varlığını, "vücub" isə onun varlığına aid hökmü ifadə edir. Fiqhdə isə Quran və sünnədə yerinə yetirilməsi dəlalət baxımından hənəfilərə görə zənni şəkildə qoyulan tələbə, digər bütün məzhəblərə görə isə qəti tərzdə qoyulan tələbə deyilir.

**VÜCUD (الوجود):**

Varlıq. Bu termin İslam fəlsəfəsinin ən mühüm metafizik məfhumlarından biridir. Fəlsəfi bir problem kimi, ilk dəfə Farabi tərəfindən müzakirə obyektinə çevrilmişdir. İslam peripatetiklərinin metafizik düşüncəsində əsas problem isə vücuddan çox mövcud məsələsi idi. Yəni mütləq mənada varlıqdan daha çox mövcud olan konkret varlıq daha çox müzakirə mövzusu idi. İslam düşüncəsində kəlamçılar Allahda varlıq ilə mahiyyəti bir-birindən ayırır və varlığın mahiyyətə əlavə olunduğunu irəli sürürdülər. Filosoflar isə Allahda varlıq ilə mahiyyəti ayırmayıb, varlıq-mahiyyət ayrılığının yalnız Allah xaricindəki varlıqlarda mümkün olduğunu qeyd edirdilər. Mahiyyətlə varlıq arasındakı münasibətə dair İslam düşüncəsində, ümumiyyətlə, üç yanaşma mövcuddur: 1) Əşərilərə görə, hər şeyin varlığı onun zatının, mahiyyətinin eynisidir. Bu məsələ Vacib Varlıqda (Allah) da belədir. 2) İbn Sina və Farabi kimi filosoflara görə, varlıq Vacib Varlıqda, mahiyyətin, zatın eynisidir. Mümkün

varlıqlarda varlıq ilə mahiyyət ayrıdır. Mümkün varlıqlarda varlıq mahiyyətə, zata əlavə olunmuş atributdur. 3) Bir çox kəlamçıya görə, varlıq həm Vacib Varlıqda, həm də mümkün varlıqda mahiyyətdən ayrıdır və zata əlavə edilmiş atributdur. Bu atribut Vacib Varlıq olan Allahda zatdan (mahiyyətdən) ayrılmadığı halda, mümkün varlıqlarda zatdan ayrılır.

**VÜCUDİ-XARİCİ (الوجود الخارجي ، الوجود العيني):**

Varlığı zehin xaricində olan.

**VÜCUDİ-MÜTLƏQ (الوجود المطلق ):**

Mütləq var olma.

**VÜCUDİ-ZEHNİ (الوجود الذهني):**

Varlığı zehində olan.

**VÜCUH VƏ NƏZAİR (الوجوه و النظائر):**

Qurandakı omonim və sinonim sözlər. Vücuh lüğətdə bir şeyin ön tərəfi, üz, yön, cəhət, məzhəb, yol və s. kimi mənalara gəlir. Termin olaraq isə Qurani-Kərimdə sözün bir neçə mənada istifadə olunmasına deyilir. Birdən çox sözün eyni mənada istifadə olunmasına isə "Nəzair" deyilir.

# Y

**YADLAŞMA (alienation):**

Fərdlərin öz həyatı üzərində nəzarətinin azalması, fərdin öz əməyindən, başqalarından və özündən uzaqlaşması, özgələşməsi prosesi. Yadlaşma termini alman fəlsəfi düşüncəsində geniş istifadə edilsə də, onu sosioloji mənada ilk dəfə Karl Marks (1818-1883) işlətmişdir. K.Marks hesab edirdi ki, kapitalist iqtisadiyyat insanı həm öz əməyinə, həm də bütövlükdə öz təbiətinə *yadlaşdırır.* Kütləvi istehsal prosesində işçilər istehsal etdikləri məhsulun qazanc dəyərindən (gəlirindən) məhrum edilir. Onlar, sadəcə, işlədikləri vaxt müqabilində əməkhaqqı alırlar. Beləliklə, işçi öncə istehsal etdiyi məhsul üzərindəki nəzarətini itirərək ona yadlaşır, çünki istehsal etdiyi məhsullar artıq ona məxsus deyildir. Digər tərəfdən, insan öz həmkarları ilə rəqabət mühitində çalışaraq getdikcə onlardan da uzaqlaşır. Müasir plüralist cəmiyyətdə, sadəcə, iqtisadi yadlaşmadan deyil, onun müxtəlif növlərindən. Məsələn: mədəniyyətə, cəmiyyətə, ailəyə yadlaşmadan bəhs etmək olar.

**YAĞIŞ DUASI/İSTİSQA (صلاة الاستسقاء):**

Yağış duası namazına deyilir. Quraq vaxtlarda Yaradandan yağış istəmək məqsədi ilə əvvəlcə kasıblara sədəqə verilir, istiğfar edilir və üç gün üst-üstə günün müəyyən vaxtlarında bayram namazı kimi əvvəlcə iki rükət səsli namaz qılınır və ardınca xütbə oxunur.

**“YASİN” SURƏSİ (سورة يس):**

Quranın 36-cı surəsi. 83 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədə keçən “yə” və “sin” hərflərindən alınmışdır. Surədə Allahın birliyi, peyğəmbərlik və axirət anlayışı haqqında geniş bəhs edilir.

**YEDDİ HƏRF:**

**Bax: ƏHRUFİ-SƏBƏ.**

**YEN:**

Konfutsiliyə görə əxlaq prinsiplərinə və fəzilətlərə verilən ad.

**YENİ ƏHD:**

Bibliyanın yalnız xristianlar tərəfindən müqəddəs kitab hesab olunan ikinci hissəsinin adı. Yeni Əhddən (Əhdi-Cədid) fərqli olaraq Bibliyanın birinci hissəsi Qədim Əhd (Əhdi-Ətiq) xristianlarla birlikdə yəhudilər tərəfindən də müqəddəs hesab edilir. Xristian inancına görə İsrailoğulları Tanrı ilə bağladıqları əhdi pozduqları üçün Tanrı İsa Məsih vasitəsilə yeni əhd bağlamış və Əhdi-Cədid yeni

əhdin yazılı forması hesab edilmişdir. Trento şurasında (1545-1563) qəbul olunan son şəklinə görə Yeni Əhd dörd İncil, Həvarilərin işləri, Pavelin 14 məktubu, 7 ümumi məktub və Yəhyanın vəhyi olmaqla ümumilikdə iyirmi yeddi kitabdan ibarətdir.

**YEVANGELİZM (evangelism):**

Xristianlıqda dinin əsaslarının, sadəcə, incillərə söykəndiyi və İncilin yayılmasını qarşısına məqsəd qoyan dini cərəyan. Yevangelizm cərəyanına mənsub olanları "yevangelist xristianlar" adlandırırlar. Yaxın mənada işlədilən yevangelikalizm isə protestantlıqda bir cərəyan olub, İncilin qüsursuzluğu, İncilin təbliğatının vacibliyi, İsa Məsihin insanların günahlarının kəffarəsi məqsədilə özünü qurban etməsinə inanmaqla qurtuluşa nail olmağın mümkünlüyünə etiqad göstərənləri ifadə edir. Yevangelist xristianlar İsanın dünyanın sonunda ikinci dəfə gələcəyinə inanır, lakin bunun üçün lazımi şəraitin yaradılması zəruridir. Bu məqsədlə yevangelistlər aktiv missioner fəaliyyəti həyata keçirir, dini təbliğatlarını bütün dünyada yaymağa çalışırlar. Təbliğatlarında müasir informasiya vasitələrindən – televiziya və radio proqramları, internet və sosial şəbəkələrdən geniş istifadə edirlər. Yevangelizm hal-hazırda dünyada ən çox yayılan dini cərəyanlardan biridir. Amerika Birləşmiş Ştatlarında 27 milyon yevangelist cərəyana mənsub xristian olduğu təxmin edilir.

**YEZİDİLİK (اليزيديّة):**

İslam məzhəbləri tarixində "yezidilik" adlı iki qrup mövcuddur. Bunlardan ilki xariciliyin qollarından biridir. Yezid ibn Üneysin qurucusu olduğu bu firqənin mənsubları Məhəmməd peyğəmbərin son peyğəmbər olmadığını, Allahın qeyri-ərəblərdən (əcəm) bir peyğəmbər göndərərək, Məhəmməd şəriətini ləğv edəcəyini iddia etmişdir. Bu qrup zamanla tarix səhnəsindən silinmişdir. "Yezidilik" adı ilə tanınan ikinci inanc sistemi isə İslam, Zərdüştilik, Maniçilik, Xristianlıq başda olmaqla, bir çox dinin və düşüncə cərəyanının sintezindən ibarət olub, hazırda müstəqil din hesab edilir. "Yezidilik" adının mənşəyi haqqında müxtəlif fikirlər mövcuddur. Əksər tədqiqatçıların qəbul etdiyinə görə, sözügedən ad Əməvi xəlifəsi Yezid ibn Müaviyənin adından götürülmüşdür. Belə ki, yezidiliyin mənsubları "Sultan Ezi" adlandırdıqları və mələk kimi qəbul etdikləri Yezid ibn Müaviyəyə ehtiram göstərirlər. Qeyd etmək lazımdır ki, yezidilikdə Yezid tarixi şəxsiyyətdən çox əfsanəvi xüsusiyyətlərə malik bir şəxs kimi qəbul olunur. Sözügedən dinin öz mənsubları isə dinlərinin adının daha çox İran dillərində "tanrı" mənasına gələn "ezda"dan törəndiyini müdafiə edirlər. Yezidilər özlərinə "yezidi" deyil, "ezidi" deyirlər. Əksəriyyəti kürd dilinin kurmanc dialektində danışan yezidilərin bu dildə yazılmış "Kitabi-cilvə" və "Müshəfi-rəş" adlı

müqəddəs kitabları mövcuddur. Tək Tanrıya inanan yezidilər şeytanın müsəlmanların qəbul etdiyi kimi pis bir varlıq olmadığını, mələk olduğunu iddia edir. Yezidi məbədlərində tovuzquşu şəklində təsvir olunan və "Mələk Tavus" (Tavuse-mələk) adlandırılan bu varlıq Tanrının baş mələyi və kainatı idarə edəndir. Onlara görə müsəlmanlar səhvən Mələk Tavusa pis bir ad olan "şeytan" adını vermişlər. Buna görə də yezidilikdə "şeytan" adının istifadə olunması qadağandır. Yezidilər Orta əsrlərdə yaşamış sufi şeyxi Ədi ibn Müsafiri (v. 557/1162) öz qurucuları hesab edirlər. "Şeyx Ədi" və ya "Şeyx Hadi" adını verdikləri bu şəxsin türbəsi İraqın şimalındakı "Cəbəli-Sincar" (Şenqal) bölgəsində yerləşir. Yezidilər bu türbəni həcc məkanı kimi qəbul edir və hər il ziyarətə gedirlər. Hazırda dünyada yarıdan çoxu İraqda olmaqla 700 mindən bir milyona qədər yezidinin yaşadığı təxmin edilir.

**YEZİDİLİK (اليزيديّة):**

Zərdüştilik, Manixeizm, Mitraizm, Yəhudilik, Xristianlıq və İslama aid dini təlimləri özündə birləşdirən sinkretik inanca sahib, Şimali İraq, Türkiyə, İran və Suriyada yaşayan dini-etnik camaat. Yezidilik adının mənşəyi ilə əlaqəli müxtəlif nəzəriyyələr var: İranın Yezd şəhərinin sakinləri; "ized" (mələk, tanrı), "yezata" (hörmətəlayiq), "yezdan" (tanrı), "izidi/ezidi" (tanrıya qulluq edənlər); Əməvi xəlifəsi I Yezidə ilahlıq nisbət edənlər. XI əsrdə Hakkaridə yaşamış Əməvi sülaləsinə mənsub Ədi ibn Müsafir (X-XI əsrlər) Yezidiliyin təşəkkülündə mühüm rol oynamışdır. Ədi vəfatından sonra oğlu Şeyx Həsən dövründə müqəddəsləşdirilmiş, həmin dövrdə Yezid ibn Müaviyəyə də ilahlıq istinad edilmişdir. Hakkarinin monqol işğalında ziyan görməsi nəticəsində Yezidilər İraq, Suriya, Şərqi Anadolu kimi bölgələrə yayılmışdırlar. Tanrı, yeddi mələk və baş mələk Tavus Yezidi inancında mühüm yer tutur. Əzazil, Dərdail, İsrafil, Mikail, Cəbrail, Samuel və Nurael adlı yeddi mələyin camaatın dini liderləri olan Şeyx Ədi, Şeyx Həsən, Şeyx Şəmsəddin, Şeyx Əbu Bəkr, Şeyx Sacəddin, Şeyx Sədrəddin və Şeyx Fəxrəddində cisimləşdiyinə inanılır.

**YƏMİN/AND (اليمين):**

And vermək – olmuş bir hadisə üçün, yaxud gələcəkdə bir işi görmək üçün Allahın müqəddəs adını anaraq and içmək deməkdir. "Yəmini-ğamus", "yəmini-münəqidə" və "yəmini-ləğv" kimi üç növü var.

**YƏS (اليأس):**

Məyus olmaq, ümidini itirmək deməkdir. "Allahın rəhmətindən kafirlərdən başqası ümidini kəsməz" ("Yusif", /87).

**YOM-KİPPUR:**

"Kəfarət günü" – Yəhudiliyin ən məşhur illik ibadətlərindən və bayramlarından biri.

**YOVMİ-ŞƏKK (يوم الشك):**

Şübhəli gün. Oruc ayının başlandığı ərəfədə şaban ayının otuzuncu günü, yoxsa ramazan ayının birinci günü olması haqqında edilən şübhə.

**YÖVMÜDDİN (اليوم الدين):**

Qiyamət. Hərfən "din günü". **Bax: AXİRƏT** (الآخرة). **ZAT (الذات):** Lüğəvi baxımdan "zat" "şəxs" mənasını verir. Termin olaraq "zat" "fərdin bütün xüsusiyyətlərinin ona nisbət edildiyi mahiyyət" kimi tərif edilir. Kəlam elminə görə, bütün ilahi sifətləri özündə cəm edən Uca Varlığı, Allahın özünü (zati-ilahiyyə) ifadə edir. Zati-ilahiyyə cövhər (substansiya) və ərəzlərdən (aksidensiya) meydana gəlmədiyi kimi, əvvəli və sonu da yoxdur.

**"YUNUS" SURƏSİ (سورة يونس):**

Quranın 10-cu surəsi. 109 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. 98-ci ayədə Yunus Peyğəmbərdən bəhs edildiyi üçün belə adlandırılmışdır. Surədə Allahın birliyi, peyğəmbərlik və axirət həyatı haqqında bəhs edilmiş, Nuh, Hud, Musa və Yunus peyğəmbərlərin həyatından nümunələr gətirilmişdir.

**"YUSUF" SURƏSİ (سورة يوسف):**

Quranın 12-ci surəsi. 111 ayədən ibarətdir. Məkkə dövründə nazil olmuşdur. Surədə başdan-sona Yusif peyğəmbərin həyatı haqqında məlumat verildiyi üçün belə adlandırılmışdır.

# Z

**ZABİT (ضابط):**

Bir çox müsəlman dövlətində, xüsusilə tənzimata qədər Osmanlıda idarəçi və müxtəlif rütbəli hərbçilər üçün istifadə olunmuş termin. Hərfi mənası "tutan, idarə edən" olan zabit hazırda ərəbdilli və türkdilli bəzi dövlətlərdə hərbi rütbə kimi istifadə olunur.

**ZAHİD (الزاهد):**

Haqqın xaricində hər şeyi tərk edən və dünyaya meyil etməyən mənasındadır. "Dini həyat tərzinə əhəmiyyət verib, dünyalıqlara meyil etməyən və hər şeyi axirət aləminə görə tənzimləyən" deməkdir. Pulu və malı qəlbində yox, cibində saxlamağı bacaran varlıların da zahid ola biləcəyini deyən Mövlana Cəlaləddin Rumiyə görə zöhd hər kəsə lazım olan bir zinətdir.

**ZAHİR (الظاهر):**

İfadə edilən məfhumun eşidildiyi vaxt dərhal başa düşülməsi, yəni danışanın məqsədinin düşünmə ehtiyacı olmadan aydın anlaşılması.

**ZAHİRİLİK (الظاهرية):**

Rəy, təvil və qiyası rədd edib mətnlərin zahirinə əsaslanan düşüncə. Davud ibn Əli əl-İsfahani (v. 884) tərəfindən qurulduğu qeyd edilir. Orta əsrlərdə zahirilik, xüsusilə Əndəlüsdə yayılmış və hicri V əsrədək davam etmişdir. Sonra mənsublarının sayı sürətlə azalaraq, VIII əsrdə tarixə qarışmışdır. Quran və hədislərin zahir mənalarına görə hökm verdikləri üçün nəzəriyyədə xalqla ayaqlaşa bilməmiş, bəzən də təkbaşına qalmışdı.

**"ZARİYAT" SURƏSİ (سورة الذاريات):**

Quranın 51-ci surəsi. 53 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki "küləklər" mənasına gələn "zariyat" sözündən alınmışdır. Surədə axirət həyatı, Allahın birliyi və peyğəmbərlik mövzuları haqqında bəhs edilir.

**ZEYDİLİK (الزيديّة):**

Şiəliyin üçüncü böyük qoludur. Dördüncü imam Əli ibn Hüseyn Zeynəlabidinin oğlu Zeyd ibn Əlini (v. 740) öz qurucusu qəbul edən zeydilik imamət məsələsində sünniliklə imamilik arasında bir mövqeyə malikdir. Bu məzhəbin əksər qollarına görə, Allah birbaşa heç kimi imam kimi təyin etməmişdir, lakin Əli ibn Əbu Talib imam olmağa digərlərindən daha layiqdir. Zeydilik, xüsusilə etiqadi məsələlərdə mötəziliyə, fiqhi mövzularda isə bəzi məsələlərdə imamiliyə, bəzilərində isə sünniliyə, xüsusən də hənəfiliyə yaxındır. Ha-

zırda zeydilər ən çox Yəməndə yaşayırlar. Yəmən əhalisinin, təqribən, 40-42%-i zeydiliyə mənsubdur. Səudiyyə Ərəbistanında da az sayda zeydi yaşayır. Dünyadakı zeydilərin ümumi sayı on milyondan çoxdur.

**ZƏBT (الضبط):**

Hədis üsulunda "ravinin (hədisi rəvayət edənin) eşitdiyi hədisləri uzun zaman keçməsinə baxmayaraq, dəyişdirmədən yadda saxlayıb rəvayət edə bilmə qabiliyyəti" mənasına gələn termin. "Yaxşı qavrayıb-əzbərləmək" mənasına gəlir.

**ZƏBUR (زبور):**

Qurani-Kərimdə Davud peyğəmbərə verildiyi bildirilən kitabın adı. Yəhudiliyə görə Tanakın "Ketuvim" hissəsinə daxil olan 150 dini nəğmə Davud peyğəmbərə vəhy edilmiş məzmurlar hesab edilir.

**ZƏHHAKİLİK (الضحاكية):**

İbaziliyin Orta əsrlərdə mövcud olmuş bir qolu. Qurucusunun Zəhhak ibn Qeys əş-Şari olduğu qəbul edilir. Zəhhakilər müsəlman cariyənin qeyri-müsəlmanlara satılmasının, eləcə də "təqiyyə bölgəsi"ndə müsəlman bir qadının öz qövmündən olan qeyri-müsəlman bir kişi ilə evlənməsinin dini baxımdan icazəli olduğunu irəli sürmüşdür.

**ZƏİF HƏDİS (الحديث الضعيف):**

Səhih və həsən hədis xaricindəki hədislər. Zəif hədisə "xəstəlik" mənasına gələn "səqim" də deyilir. Zəif hədis ilə əməl etmə mövzusunda üç görüş var. 1. Zəif hədislə əməl olunmaz. 2. Zəif hədislə hər mövzuda əməl olunar. 3. Əməllərin fəziləti mövzusunda xüsusi şərtlərə bağlı olaraq əməl edilir.

**ZƏKAT (الزكاة):**

Lüğətdə "təmizlik", "saflıq", "sədəqə" mənalarına gələn "zəkat", termin olaraq, "müsəlmanın artmaqda olan malından ildə bir dəfə dinin müəyyənləşdirdiyi miqdarını dinin təyin etdiyi şəxslərə verməsi"dir. Zəkat İslamın əsaslarından biri olub, hicrətin ikinci ilində fərz qılınmışdır. Müsəlmanların mallarından verməsi ilə yerinə yetirdikləri bu ibadət Qurani-Kərimdə belə ifadə edilir: "(Ya Rəsulum!) Onların mallarından sədəqə (zəkat) al. Bununla onları (günahlarından) təmizləmiş, pak etmiş (mallarına bərəkət vermiş, əməllərinin savabını artırmış) olarsan" ("Tövbə", 9/103). Əhli-sünnəyə görə, zəkat bütün mallara şamil ikən, cəfərilikdə (dəvə, inək, qoyun/keçi, qızıl, gümüş, buğda, arpa, quru üzüm və xurma kimi) təkcə doqquz maddəyə aiddir.

**ZƏLALƏT (الضلالة):**

Leksik baxımdan "itmək; tələf olmaq; təəccüblənmək; yanılmaq" mənalarını ifadə edir. Terminolji mənada isə "haqdan üz çevirib batilə yönəlmək, ilahi hökmlərin əksinə davranmaq" kimi tərif edilir. Qurani-Kərimdə 200 dəfədən çox qeyd edilən "zəlalət"

kəlməsi hidayətin ziddi mənasını verir, küfr və inkarı əhatə edir.

**ZƏLLƏ/SƏHVÜNNƏBİ (سهو النبي ، الزلّة):**

"Səhv etmək, yanılmaq, xəta etmək" mənalarını ifadə edən "zəllə" termin baxımından "mükəlləfin qeyri-ixtiyari etdiyi məşru olmayan davranışı" ifadə edir. Kəlam elmində peyğəmbərlərin qeyri-ixtiyari yanılması "zəllə" adlanır. Sünni kəlamçılar zəlləni qəbul etmiş, imamiyyə kəlamçıları isə, əsasən, rədd etmişlər.

**ZƏNGİLƏR (الزنكيون):**

1127-1233-cü illərdə mərkəzi Mosul və Hələb olub Mesopotamiya, Şərqi Anadolu və Suriyanı əhatə edən Türk-İslam dövləti. Səlcuqlu sultanı Alparslana xidmət edən Ağsunqurun oğlu İmadəddin Zənginin Mosul canişini təyin olunması nəticəsində qurulan dövlət onun və oğlu Nurəddin Zənginin dövründə Mesopotamiya və Suriyada geniş əraziləri ələ keçirdi. 1150-ci ildə Edessa (Urfa) Qraflığının varlığına son qoyan Zəngilər Əyyubi dövlətinin yüksəlişinədək bölgədə səlibçilərə qarşı ən güclü İslam dövləti kimi mübarizə apardılar. Zəngilərin müxtəlif qolları Əyyubi və Elxanlılar tərəfindən süquta uğradıldı.

**ZƏNN (الظن):**

Dəqiq bilik ifadə etməyən, ancaq doğruluğunun yarıdan çox olma ehtimalı olan məlumat və ya bilik. "Zənn" İslam elmlərinin müxtəlif sahələrində fərqli mənaları ifadə edir. Məsələn: "Bəndəm məni necə zənn edirsə, mən Oyam" (Buxari, Tövhid, 15, 35) hədisində keçən "zənn" kəlməsi "inanc"mənasını verir. Fəlsəfədə isə zehində təsdiq edilən, ancaq əksi də mümkün görülən hökmə zənn adı verilir.

**ZƏNNİ DƏLİL (الدليل الظني):**

Dəlalət baxımından zənni və ehtimal ehtiva edən tərzdə tələb edilən dəlillər "zənni dəlil" adlanır.

**ZƏRURİYYƏT (الضروريات):**

Zəruri əsaslar. Din, can, ağıl, nəsil və mal kimi bəşər övladının varlıq səbəbi olan zəruri ehtiyac əsaslarını qorumaq üçün lazım olan tədbirlər. Sadalanan beş əsasın varlığını əldə etdikdən sonra onların mövcudiyyətini təmin etmək əsas və ali məqsəddir.

**ZİC (الزيج):**

Farsca "ip, tel" mənasında "zic"dən gələn və İslam dünyasında astronomik müşahidələrin nəticələrinin qeyd olunduğu cədvəllər üçün istifadə edilən termin. İslam dünyasında VIII əsrdən ilk nümunələri yazılan "zic" əsərlərinin müəllifləri arasında Məhəmməd əl-Fəzari, Əhməd ən-Nihavəndi, Yəhya ibn Əbu Mənsur, Məhəmməd əl-Xarəzmi, Bəttani, Həbəş əl-Hasib, Büzcani, Biruni, xüsusilə "Zici-İlxani" əsəri ilə Nəsirəddin Tusi və "Zici-Uluqbəy" əsəri ilə Uluqbəy məşhurdur.

**ZİHAR (الظهار):**

Cahiliyyət dövründə qadınların təhqirə məruz qaldığı müxtəlif üsullardan biri. Ərin öz xanımına “Sən mənə anamın kürəyi kimisən”, – deyərək onu özünə haram etməsidir. “Zihar” həm qadını aşağılayan, həm onu özündən uzaqlaşdıran, həm də başqası ilə evlənməsini qadağan edən, bir sözlə, onu asılı vəziyyətdə qoyan bir hal hesab olunurdu. İslam belə bir adətin aradan qalxması üçün kişiləri bundan çəkindirən və qadını qoruyan tədbirlər gətirdi. Belə ki, “Mücadilə” surəsində də (1-4) qeyd edildiyi kimi, xanımına belə deyən kişi ancaq ayədə müəyyənləşdirilmiş kəffarə cəzasını ödəyərək xanımına dönə bilər. Əgər bunu yerinə yetirməsə, qazı dörd ay sonra nikaha xitam verərək onları ayrı elan edər.

**ZİKR (الذكر):**

“Xatırlamaq, anmaq” deməkdir. Terminologiyada isə “Allahı anmaq və unutmamaq üçün müəyyən sözləri qəlbən hiss edərək, həm də dil ilə səsli, yaxud gizli söyləmək”dir. Zikrlər, “bəsmələ”, “həmdələ”, “təhlil”, “təkbir”, “istiğfar”, “təsliyə”, “hövqələ” kimi fərqli olur. Səssiz və gizli olanlar “zikri-xəfi”, səsli və açıq zikirlər “zikri-ələni”, ayaqda zikir etmək isə “zikri-qiyami” adlanır. Sufi təriqətin xüsusiyyətinə görə, dəf, ney, saz kimi fərqli alətlərdən də zikr vasitəsi kimi istifadə edilmişdir. Dərvişlərin zikrlərini müşayiət edib onları istiqamətləndirənlərə “zakir” deyilir.

**“ZİLZAL” SURƏSİ (سورة الزلزال):**

Quranın 99-cu surəsi. 8 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədəki “zəlzələ” sözündən alınmışdır. Surədə qiyamətin qopması və insanların əməllərinin qarşılığını alacağı haqqında bəhs edilir.

**ZİMMİ (الذمّي):**

Ərəbcə “zəmanət verilən, qorunan şəxs” mənasında İslam ölkələrinin qeyri-müsəlman vətəndaşları üçün istifadə olunan termin. İslamın dində məcburiyyəti qadağan edən prinsipindən hərəkətlə, müsəlmanların digər din mənsubları ilə birlikdə yaşaması Məhəmməd peyğəmbərin Mədinəyə hicrətindən sonra bağlanan müqavilə ilə tətbiq olunmuşdur. “Mədinə vəsiqəsi” adlandırılan bu sənədə əsasən, müxtəlif din mənsublarına din azadlığı, can və mal təminatı verilirdi. 631-ci ildə nazil olan “Tövbə” surəsinin “cizyə ayəsi” adlandırılan 29-cu ayəsinə əsasən, qeyri-müsəlmanlar cizyə vergisini ödəyərək İslam dövlətinin zimmi vətəndaşı hesab olunmuşlar.

**ZİNA (الزنى):**

Kişi ilə qadının nikahsız cinsi münasibəti. Dinin qəti qadağalarından olub, böyük günahlardan sayılmışdır. Dinin zəruriyyətdən (**bax: ZƏRURİYYƏT**) olan “nəslin qorunması” məqsədi baxımından, insan növünü qorumaq və yeni nəsillərin yetişdirilməsi zəmanətini təmin edir. Bu da özlüyündə evlilik həyatının tənzimlənməsi, namusun

qorunması və təcavüzün qarşısının alınmasında xüsusi rol oynayır. Bu səbəbdən, zina qəti şəkildə qadağan edilmiş və ona ən ağır cəza tətbiq edilmişdir. Zina edən kişiyə “zani”, qadına “zaniyə” deyilir.

**ZİNDİQ/ZƏNADİQƏ (الزنديق):**

Pəhləvicə “zendik” kökündən “zindiq” III əsrdən Sasanilərin Manixeizm (Maniçilik) mənsubları üçün istifadə etdikləri terminin İslam ədəbiyyatında Allah, tövhid və axirət inancını inkar etdikləri halda inanmış kimi görünən müxtəlif dini qruplar üçün istifadə olunan şəklidir. Təzyiqə məruz qaldıqları zaman müsəlman görünən, sərbəst qalarkən əmr və qadağalarının sərtliyinə görə İslam cəmiyyətinə qarşı çıxan qruplar “zindiq” adlandırılmış və onlara qarşı mübarizə Abbasilər dövründə qurulmuş “Divanüz-zənadiqə” qurumu çərçivəsində mütəşəkkil forma almışdır. Bəzi İslam alimlərinə görə, göstərilən təzyiq onların sabiq din və mədəniyyətərinə daha dərindən bağlanmasına səbəb olmuşdur.

**ZİRARİLİK (الضرارية):**

Mötəzilə məzhəbinin alimlərindən olan Zirar ibn Əmrin (v. təqribən, 200/815) tərəfdarlarına verilən ad. Mötəzilədən olsa da, Zirar ibn Əmr bəzi məsələlərdə bu məzhəbin görüşlərinə qarşı çıxmışdır; məsələn: iradi hərəkətləri insanların özlərinin yaratdığını irəli sürən mötəzilənin əksinə, Zirar bu hərəkətlərin Allahın və insanın müştərək feilləri olduğunu müdafiə edirdi. Həmçinin Zirar ibn Əmr peyğəmbər gəlmədikcə insanların əqlən Allaha inanmaqda və başqa məsələlərdə məsuliyyət daşımadıqlarını bildirmişdir. O, Übeyy ibn Kəb və Abdullah ibn Məsudun Quran qiraətlərini vəhyə əsaslanmadıqları üçün rədd etmiş, onların tərtib etdikləri müshəflərə görə zəlalətə düşdüklərini iddia etmişdir.

**ZİYARƏT (الزيارة):**

“Dəyər verilən bir şəxsi və ya yeri görməyə getmək” deməkdir. Ziyarət ediləcək yerlərdən biri də qəbirlərdir. Cahiliyyət dövründə qəbir ziyarəti Allahı inkar xarakteri daşıyırdı, buna görə də İslamın ilk dövrlərində bu ziyarət Məhəmməd peyğəmbər tərəfindən qadağan edilmişdi. Müəyyən zamandan sonra, bu təhlükə ortadan qalxdıqda, qəbir ziyarətinə icazə verildi. Qəbir ziyarəti axirəti xatırlatdığı üçün Həzrət Məhəmməd bu ziyarəti tövsiyə etmişdir.

**ZÖHD (الزهد):**

“Rəğbət etməmək”, “üz çevirmək” mənasındadır. Sufi düşüncəyə görə, aza qane olmaq, dünya malına rəğbət etməmək əsas prinsiplərdəndir. Bu mənada, təsəvvüf termini kimi zöhd, qulun qisməti xaricində hər şeydən imtina etməsi, dünyaya qarşı istəksiz davranmasıdır. Dünyadan, xalqdan, haram və halallardan, həmçinin şübhələrdən üz çevirmək kimi zöhd növləri mövcuddur. Ədəbiyyatda

zöhdə aid olan mətnlərə "zöhdiyyat" deyilir.

**"ZUXRUF" SURƏSİ (سورة الزخرف):**

Quranın 43-cü surəsi. 89 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı 35-ci ayədəki "qızıl", "ləl-cəvahir" mənasındakı "zuxruf" sözündən alınmışdır. Surədə Allahın varlığı, axirət həyatı və peyğəmbərlikdən bəhs edilmişdir. Həzrət İbrahim başda olmaqla, bəzi peyğəmbərlərin həyatlarından nümunələr gətirilmişdir.

**ZÜHA NAMAZI (صلاة الضحى):**

Bir adı da "quşluq" olan bu namaz günəşin doğmasından 45 dəqiqə sonra, azı, iki, çoxu, on iki rükət arasında, zəval vaxtına qədər qılınan namazdır. Həzrət Peyğəmbərin bu namazın fəzilətlərindən və neçə rükət olduğundan bəhs edən çoxlu rəvayət mövcuddur.

**"ZÜHA" SURƏSİ (سورة الضحى):**

Quranın 93-cü surəsi. 11 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı ilk ayədə keçən "sübh-çağı" mənasını verən "züha" sözündən alınmışdır. Surədə Həzrət Peyğəmbərə verilən nemətlərdən bəhs edilmiş, ona nə etməli olduğu bildirilmişdir.

**"ZÜMƏR" SURƏSİ (سورة الزمر):**

Quranın 39-cu surəsi. 75 ayədən ibarətdir. Məkkə dövründə nazil olub. Surənin adı 71 və 73-cü ayələrdə keçən "kafir və möminlərin ortaya çıxardığı cəmiyyət" mənasındakı sözdən alınmışdır. Surədə Allahın varlığı, birliyi, peyğəmbərlik inancı və axirət həyatı haqqında bəhs edilmiş, cənnət və cəhənnəm təsvirləri qeyd edilmişdir.

ا "əlif" - özü sakin (sükunlu) özündən əvvəlki hərfin hərəkəsi fəthə olarsa, qalın hərfdirsə, onu [a], incə hərfdirsə, onu [ə] şəklində uzadır.

و "vav" - özü sakin (sükunlu) özündən əvvəlki hərfin hərəkəsi dammə olarsa, qalın hərfdirsə, onu [u], incə hərfdirsə, onu [u] ilə [ü] arası bir səslə uzadır.

ى "yə" - özü sakin (sükunlu) özündən əvvəlki hərfin hərəkəsi kəsrə olarsa, qalın hərfdirsə, onu [ı], incə hərfdirsə, onu [i] şəklində uzadır.

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Adamson. Peter-Taylor Richard C, İslâm Felsefesine Giriş, çev. Cüneyt Kaya, İstanbul: Küre Yayınları, 2007.
2. Akarsu Bedia. Ahlâk Öğretileri, İstanbul, Remzi Kitabevi Yay., 1982.
3. Akyol, Aygün. Uyanık, Mevlüt. Arslan, İclal. İslam felsefesi tanımlar sözlüğü. Ankara: Elis Yayınları. 2016.
4. Alper Ömer Mahir. İbn Sînâ, İstanbul, TDV İSAM Yay., 2008.
5. Altıkulaç Tayyar. Tecvidu`l-Kur`an. Ankara: Diyanet İşleri Başkanlığı Yayınları, 1994.
6. Altıntaş Hayrani. İbn Sina Metafiziği, Ankara, AÜİF. Yay., 1985.
7. Aristo. (1952). Metaphysics. (tr. W.D.Ross, The Works of Aristotle içində). Chicago-London.
8. Aristoteles. De Anima (Ruh Üzerine). çev. Zeki Özcan, Bursa, Alfa Yay., 2001
9. Aruçi Muhammed. "Süleyman b. Cerir". TDV İslam Ansiklopedisi. Ankara, 2010, c. 38, səh. 82.
10. Aydın Mehmet. Ansiklopedik Dinler Sözlüğü, Konya: Din Bilimleri Yayınları, 2005, 858 s.
11. Aydınlı Yaşar. Fârâbî, İstanbul. İSAM Yay., 2008.
12. Azərbaycan Sovet Ensiklopediyası, ACE, Cildlər: 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası, Bakı, 1976
13. Bağdadi Əbül-Bərəkat, Kitab əl-mö'təbər fil-hikmə, c. 2, şərh və təhqiq Yusuf Mahmud. Doha: Darül-Hikmə, 2012/1432.
14. Bayrakdar Mehmet. İslâm Felsefesine Giriş. Ankara, TDV Yay., 1997
15. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Çinar-Çap, 2009.
16. Bədəvi Əbdürrəhman. "Muxtasar min kitâb əl-əxlaq li Calinus" ( Dirasat və'n-nüsus fi'l-fəlsəfə vəl-ülum indəl-ərəb içində). Beyrut, əl-Müəssəsətül-Ərəbiyyə, 1981, s. 192.
17. Bədici Əhməd İbn Harun. Təbəqatul-əsma əl-müfrədə, Beyrut 1990.
18. Bettany George Thomas. (trc. Ahmet Aydoğan). İstanbul: Say yayınları, 2005, 1128 s.
19. Bəyat Əbdürrəsul və digərləri. Fərhənge vajeha. nəşre moassiseye əndişə və fərhənge dini, çape əvvəl, 1381
20. Beyazızade Ahmed Efendi. el-Usulü'l-munife li'l-İmam Ebu Hanife. İstanbul, 2000.
21. Bilmen Ömer Nasuhi. Büyük İslam İlmihali. İstanbul.
22. Bolay Süleyman Hayri. "Akıl". TDV. İslam Ansiklopedisi. C. 2. İstanbul: TDV Yayınları. 1989. səh. 238-242.
23. Çağrıcı Mustafa. "Fazîlet", TDV İslam Ansiklopedisi. İstanbul, 1995, c. 12, səh. 269.
24. Çakan İsmail Lütfi. Hadis Edebiyyatı. İFAV. II baskı. İstanbul, !989.
25. Çakan İsmail Lütfi. Hadis Usulü. İFAV. 39 Baskı. İstanbul, 2016
26. Çetin Abdurrahman. Kur`an-ı Kerim`in indirildiği yedi harf ve kıraatlar. İstanbul: Ensar neşriyat, 2005.
27. Cebecioğlu Ethem. Tasavvuf Ter. və Dey. Sözlüğü. Rehber, Ankara, 1997.
28. Cevizci Ahmet. Felsefe terimleri sözlüğü, İstanbul: Paradigma Yayınları, 2013, 1816 s.
29. Demirci Muhsin. Tefsir Terimleri Sözlüğü. İstanbul, 2015.

30. Deyləmi Məhəmməd ibn Həsən. Bəyanü məzhəbil-batiniyyə və bütlanih. nşr. R.Strothmann. İstanbul, 1938.
31. Dini Terminlər Sözlüyü. Heyet, MEB: Devlet Kitapları Müdürlüğü, Ankara 2009.
32. Doğan Mehmet. Büyük Türkçe Sözlük, Bəyan, İstanbul 1988.
33. Döndürən Hamdi. Delilleriyle İslam Hukuku, Mistaş, Konya, 1977.
34. Durusoy Ali. "Vücud". TDV. İslam Ansiklopedisi. İstanbul: TDV Yayınları, 2013, c. 43, səh. 137-139.
35. Eliade Mircea və digər. The Encyclopedia of Religion, Nyu-York: The Macmillian Co., 1987, c. 1-16.
36. Erdem Hüsameddin. "Felsefe". TDV. İslam Ansiklopedisi. İstanbul: TDV Yayınları, 1995, c. 12. səh. 332-333.
37. Eren Cüneyt, Erbaş Muammer. Kur`an İlimleri ve Tefsir Istılahları, İzmir, 2008.
38. Fahri Macit. İslâm Ahlâk Teorileri. çev. Muammer İskenderoğlu ve Atilla Arkan, İstanbul, Litera Yay., 2004.
39. Farabi Əbu Nəsr. Füsul əl-mədəni, trc. Hanifi Özcan, İzmir, İstiklâl Matbaası, 1987.
40. Farabi Əbu Nəsr. Kitab əs-Siyasə əl-mədəniyyə. thq. Fevzi Mitri Nəccar. 2-ci nəşr, Beyrut, Darül-Məşriq, 1993.
41. Farabi Əbu Nəsr. Kitabu əl-vahid və əl-vahdə, thq. Muhsin Mehdi. Kasablanka, Darül-Bəyza, 1989.
42. Farabi Əbu Nəsr. ət-Təliqat, thq. Cəfər Al-i Yasin, Beyrut, Darül-Mənahil, 1408/1988.
43. Farabi Əbu Nəsr. Risalə fi isbat əl-müfaraqat, Heydərabad, Dairətül-Maarifil-Osmaniyyə, 1926.
44. Fazlurrahman. Avicenna's De Anima, London. University of Durham, 1959.
45. Fəlsəfə ensiklopedik lüğəti. Baş redaktor: İsmail Vəliyev. Azərbaycan Ensiklopediyası nəşriyyat- poliqrafiya birliyi, Bakı, 1997
46. Fiğlalı Ethem Ruhi. "Abdullah ibn Muaviye". TDV İslam Ansiklopedisi. Ankara, 1994, c.10, səh. 118-119.
47. Firuzabadi. əl-Qamus əl-muhit. Beyrut, Müəssəsətür-Risalə, 1413/1993.
48. Gafarov Anar. "Râgıb el-İsfahânî'de İnsan Tasavvuru". MÜİF Dergisi, İstanbul, 2007, Sayı: 31, (2006/2), s. 200-201.
49. Giddens Anthony. Sociology. Cambridge: Polity Press, 2009.
50. Gölcük Şerafeddin. "Beyan b. Sem`an". TDV İslam Ansiklopedisi. Ankara, 1992, c. 6, səh. 28-29.
51. Güçlü Baki və digər. Felsefe sözlüğü. Ankara: Bilim ve Sanat Yayınları, 2002, 1728 s.
52. Günay Ünver. Din Sosyolojisi. İstanbul: İnsan Yayınları, 2005.
53. Gündüz Şinasi və digər. Yaşayan Dünya Dinleri. Ankara: Diyanet İşleri Başkanlığı, 2016, 605 s.
54. Hamilton B. Malcolm. The Sosiology of Religion: Theoretical and Comparative Perspective. Routledge, London and New York, 2001.
55. Hifni Əbdülmü`min. Mövsuətül-firaq vəl-cəmaat vəl-məzahil-islamiyyə. Qahirə: Darül-irşad, 1993.
56. Holm Nils G.. Din Psikolojisine Giriş. (tər. Abdulkerim Bahadır). İstanbul: İnsan Yayınları, 2007.

57. Hüquq Ensiklopedik Lüğəti. Azərbaycan Ensiklopediyasının baş redaksiyası. Bakı, 1991
58. İbn Faris Əhməd, Möcəm əl-məqayis əl-lüğə. thq. Əbdüssəlam Məhəmməd Harun, Qahirə, 1972.
59. İbn Həcər Şihabuddin Əhməd ibn Əli ibn Məhəmməd. "Nüzhətun-nəzər Şərhu Nüxbətil-fikər fi müstələhi əhlil-əsər". Qahirə 1990, 80 səh.
60. İbn Həyyan Cabir. Kitabü əl-hüdud (Muxtaru rəsaili Cabir b. Həyyan içində). Qahirə, Məktəbətül-Hanci, 1935, s. 100-110.
61. İbn Mənzur. Lisan əl-Ərəb. Beyrut, Darül-Kütübil-İlmiyyə, 1993/1413.
62. İbn Rüşd. Risalə ən-nəfs. haz. Ceyrar Cəhami, Rəfiq Əcəm. Beyrut, Darül-Fikril-Lübnani, 1994.
63. İbn Rüşd. Təlxisu kitab ən-nəfs [Psikoloji şerhi]. çev. Atilla Arkan. İstanbul, Litera Yay., 2001.
64. İbn Salah Təqiyuddin Osman ibn Səlahəddin Əbdürrəhman ibn Musa. Ulumül-hədis. Riyad, 2011.
65. İbn Sina Əbu Əli Hüseyn. Risalə fi mərifə ən-nəfs ən-natiqə və əhvaliha (Əhvalun-nəfs içində). thq. Əhməd Fuad əl-Əhvani. Qahirə, Darü ehyail-kütübil-ərəbiyyə, 1952.
66. İbn Sina Əbu Əli Hüseyn. əş-Şəfa, [İlahiyyat]. thq. G. Ganawati, S. Zâyid, Tehran, İntişarate NASİR Xosrov, 1924.
67. İbn Sina Əbu Əli Hüseyn. əş-Şifa [ət-Tabiiyyat; ən-Nəfs]. thq. George Ganawati, Saîd Zâyid. Qahirə, əl-Hey'ətül-Mısriyyetül-Ammə lil-Kitab, 1975.
68. İbn Sina Əbu Əli Hüseyn. Məntiq əl-məşrıqiyyin. 2-ci nəşr. Qum, Mətbəətül-vilayə, 1405 h.
69. İbn Sina Əbu Əli Hüseyn. əl-Məbdə vəl-məad. thq. Məhəmməd Nurani. Tehran, 1984.
70. İbn Sina Əbu Əli Hüseyn. Əqsam əl-ülum əl-əqliyyə, (Tisü rəsâil içində). İstanbul, Matbaatul-Cəvaib, 1298 h.
71. İbn Sina Əbu Əli Hüseyn. əş-Şəfa, [əl-məntiq, əl-mədxəl / Mantığa Giriş]. çev. Ömer Türker. İstanbul, Litera Yay., 2006.
72. İbnül-Əsir Nəcduddin Mübarək ibn Məhəmməd. Ən-Nihayə fi qəribil-hədis vəl-əsər. Dəməşq 2013, 1392 səh.
73. İlhan Avni. "Batıniyye". TDV İslam Ansiklopedisi. Ankara, 1992, c. 5, səh. 190-194.
74. İsfahani Rağib. əl-Müfrədat Əlfazil-Quran, Darul-Qələm, Beyrut 1992.
75. İsfahani Rağib. əl-Müfrədat. thq. Məhəmməd Xəlil Aytani. Livan, Darül-mərifə, 1426/2005.
76. İslam ensiklopedik lüğəti. hazırlayanlar: G.B.Baxşəliyeva, Ə.S.Abbasov. Elm nəşriyyatı. Bakı, 2013
77. İsrafilov Mahir. Məntiq terminlərinin izahlı lüğəti. Bakı, MBM nəşriyyatı, 2007
78. İtr Nureddin. Mənhəcün-Nəqd fi ülum əl-hədis. Darul-fikr, Şam, 1997.
79. Jones, Linsday və digər. The Encyclopedia of Religion, Nyu-York: Thomson Gale, 2005, c. 1-15.
80. Kandemir M. Yaşar. "Abdülkerîm b. Ebü'l-Avcâ".TDV İslam Ansiklopedisi. Ankara, 1988, c. 1, səh. 250-251.
81. Karaçam İsmail. Kur`an-ı Kerim`in faziletleri ve okunma kaideleri. İstanbul: M.Ü. İlahiyat Fakültesi Vakfı Yayınları, 2005, 501 s.
82. Karagöz İsmail və dig. Dini Kavramlar Sözlüğü. Ankara, Diyanet İşleri Başkanlığı, 2015, 744 s.

83. Karaman Hayrettin. Mukayeseli İslam Hukuku, İrfan, İstanbul 1982.
84. Karaman, Fikret ve digerleri. Dini Kavramlar Sözlüğü. Ankara, 2006.
85. Kaya Mahmut. "Felsefe". TDV. İslam Ansiklopedisi. İstanbul: TDV Yayınları, 1995, c. 12, səh. 311-319.
86. Kaya Mahmut. "Felsefe-i Ula". TDV İslam Ansiklopedisi. İstanbul: TDV Yayınları, 1995, c. 12, səh. 331-332.
87. Kindi Yəqub ibn İshaq. Rəsail. thq. Məhəmməd Abdülhadi Əbu Reydə. Qahirə, Darülfikril-ərəbi, 1369/1950.
88. Kirman M. Ali. Din Sosyolojisi Terimleri Sözlüğü. İstanbul: Rağbet Yayınları, 2004.
89. Koçyiğit Talat. Hadis Tarihi. TDV, Ankara, 1998.
90. Kutlu Sönmez. "Kerramiyye". TDV İslam Ansiklopedisi. Ankara, 2002, c.25, səh. 294-296.
91. Kutluer İlhan. "Hikmet". TDV İslam Ansiklopedisi. İstanbul: TDV Yayınları, 1998, c. 17, səh. 503-511.
92. Kutluer İlhan. (2002). İbn Sina ontolojisinde zorunlu varlık. İstanbul: İz Yayıncılık.
93. Kutluer İlhan. (2004). "Metafizik". TDV. İslam Ansiklopedisi. İstanbul: TDV Yayınları, c. 29. səh. 399-402.
94. Kutluer İlhan. "İttisal". DİA. İstanbul, 2001, c. 23, səh. 485
95. Lənkərani Məhəmməd Fazıl. Camiuül-Məsail əz-İstiftaat. Təbriz, 1996.
96. Lənkərani Məhəmməd Fazıl. Şəriət Hökmlərinin İzahı. Qum, 1998.
97. Mahmut Kaya. "Sudur". TDV İslam Ansiklopedisi. İstanbul: TDV Yayınları, 2009, c. 37. səh. 467-468.
98. Mahmut Kaya. "Vücud". TDV. İslam Ansiklopedisi. İstanbul: TDV Yayınları, 2013, C. 43, səh. 139-140.
99. Marshall Gordon. Sosyoloji Sözlüğü. (tər. Akınhay O., Kömürcü D.). Ankara: Bilim ve Sanat Yay., 2005.
100. Maturidi Əbu Mənsur. Kitabu't Tevhid Tercümesi. nşr. Bekir Topaloğlu-Muhammed Aruçu. Ankara: İSAM yayınları, 2003.
101. Maturidi Əbu Mənsur. Təvilat əl-Quran. İstanbul, 2005-2006.
102. Məlikov Ələddin. Əql və İman əz didgahe Murtəza Mütəhhəri və Alvin Plantinqa, Tehran, Nəşre Maarif, Ordibehişt 1388
103. Məlikov Ələddin. Nəzəriyyeye insane kamil əz didgahe irfan və fəlsəfə. Nəşre əlmustafa, 1395.
104. Meşkur Cavad. Mezhepler Tarihi Sözlüğü. Trc. M.Mahfuz Söylemez, Mehmet Ümit, Cemil Hakyemez. Ankara, 2011.
105. Musəvi Seyid Mahmud. Fərhənge estelahate irfane İslami. İngilisi- farsı. quruhi əz pəjuheşgəran. ba moqaddəme və islahate Seyid Hoseyn Nəsr, çap dovvom, 1388
106. Musəvi Seyid Mahmud. Fərhənge İstilahate Fəlsəfə. Kəlame İslami, İngilisi- farsı. Quruhi əz pəjuheşgəran. ba muqəddime və istilahate Seyid Huseyn Nəsr. İntişarate pəjuheş və nəşre Söhrəvərdi, çape əvvəl, 1386
107. Nəzərova Adilə. Fəlsəfə terminlərinin izahlı lüğəti. Elm və Təhsil nəşriyyatı, Bakı, 2014
108. Öz Mustafa. "Bekriyye". TDV İslam Ansiklopedisi. Ankara, 1992, c. 5, səh. 370-371.
109. Öz Mustafa. "Beyhesiyye". TDV İslam Ansiklopedisi. Ankara, 1992, c. 6, səh. 65.

110. Öz Mustafa. “İbn Küllab”. TDV İslam Ansiklopedisi. Ankara, 2006, c. 32, səh. 482-483.
111. Öz Mustafa. “Keysaniyye”. TDV İslam Ansiklopedisi. Ankara, 2002, c. 25, səh. 362-364.
112. Öz Mustafa. “Necedat”. TDV İslam Ansiklopedisi. Ankara, 2006, c. 32, səh. 485-486.
113. Özkavukçu Şaban. Siyer Terimleri ve Deyimleri Sözlüğü: Hz. Peygamber ve Cahiliye Devri Kütlürü. İstanbul: İz Yayıncılık, 2015.
114. Pakdil Ramazan. Ta`lim, Tecvid ve Kıraat. İstanbul: M.Ü. İlahiyat Fakültesi Vakfı Yayınları, 2016.
115. Pəhləvan Çengiz. Fərhəngşenasi. Qoftarhayi der zemineyi fərhəng və təməddon. Nəşre qətrə, Çape dovvom, 1382
116. Peker Hüseyin. Din Psikolojisi. İstanbul: Çamlıca Yayınları, 2008.
117. Qalen. Kitab əl-əxlaq (Məcəllətu Külliyətil-Adab bil-Camiətil-Misriyyə içində). nşr. Paul Kraus. Qahirə, [y.y], 1937, c. 5, səh. 25-26.
118. Гараджа В.И. Социология религии: Учебное, пособие, для студентов и аспирантов гуманитарных специальностей. Москва: «Наука», 1995.
119. Qənbərov A. Din sosiologiyası. Bakı: Tuna Printing, Publisihg, Packaging, 2018.
120. Qərədavi Yusuf. İslam Hukukunda Zekat. Kayıhan, İstanbul 1984.
121. Qəzali Əbu Hamid. ər-Risalə əl-ləduniyyə (Məcmuatür-rəsailil-Qəzali içində) Beyrut, Darül-kütübil-ilmiyyə, 1406/1986, c. 3, səh.102-107.
122. Qəzzali Əbu Hamid. İhyau ülumiddin. çev. Ahmed Serdaroğlu, İstanbul, Bedir Yay., 1974, c. 3.
123. Qəzali Əbu Hamid. Kimya əs-səadə (Məcmuatu rəsail içində). haz. Əhməd Şəmsuddin. Beyrut, Darül-Kütübil-İlmiyyə, 1409/1988, c. 5, səh. 124-125.
124. Qəzali Əbu Hamid. Məaric əl-üüds fi mədaric ən-nəfs. Beyrut, Darül-kütübil-ilmiyyə, 1409 h.
125. Qısa Estetika Lüğəti. Azərbaycan dövlət nəşriyyatı. Bakı, 1970
126. Qoldziher İgnaz. İslam Tefsir Ekolleri. trc.: Mustafa İslamoğlu, İstanbul, 1997.
127. Qolenkova Z.T., Akuliç M.M., Kuznetsov V.N. Ümumi Sosiologiya. (tər. İzzət Rüstəmov), Bakı: Diplomat Nəşriyyatı, 2007.
128. Razi Əbu Bəkr. ət-Tıbb ər-ruhani (Rəsail fəlsəfiyyə içində). thq. Paul Kraus, Qahirə, 1939, səh. 15-96;
129. Razi Fəxrəddin. Əl-Mühəssəl. Ankara, 2002.
130. Sabuni Nurəddin. əl-Bidayə fi üsuliddin. Ankara, 1998.
131. Sərəxsi Əbu Bəkr Məhəmməd İbn Əhməd. Üsulüs-Sərəxsi. Beyrut 1993.
132. Suyuti Cəlaləddin. əl-İtqan fi Ulumil-Qur`an. Qahirə, 1995.
133. Təhanəvi Muhamməd Əla ibn Əli. Kəşşafu istilahatil-fünun. İstanbul, 1984.
134. Temel Nihat. Kıraat ve Tecvid Istılahları. İstanbul, 1997.
135. Temel Nihat. Kur`an kıraatında vakf ve ibtida. İstanbul: Marmara Üniversitesi İlahiyyat Fakültesi Vakfı Yayınları, 2001.
136. Tetik Necati. Başlangıştan IX. hicri asra kadar Kıraat ilminin talimi. İstanbul: İşaret Yayınları, 1990.
137. Topaloğlu Bekir, Çelebi İlyas. Kelam terminler sözlüğü. İstanbul, 2010.
138. Türker Ömer. “Nefis”. TDV İslam Ansiklopedisi. İstanbul: TDV Yayınları, 2006, c. 32. səh. 529-531.

139. Tusi Nəsirəddin. Bəqa ən-nəfs bədə bəvar əl-bədən (Təlxis əl-mühəssəl içində). Beyrut, 1405/1985.
140. Tusi Nəsirəddin. Əqsam əl-hikmə (Təlxis əl-mühəssəl içində). Beyrut, 1405/1985.
141. Tusi Nəsirəddin. Əxlaqi-Nasiri. 4-cü nəşr. Tehran, 1369 h.; türkcə trc: Anar Gafarov ve Zaur Şükürov. İstanbul, Litera Yay., 2007.
142. Tusi Nəsirəddin. Övsaf əl-əşraf. thq. Seyyid Məhəmməd Rza Qiyasi Kirmani. Tehran: Müəssəsə-i Fərhəngi-İntişarati Huzur, 1379.
143. Uğur Mücteba. Ansiklopedik hadis terimleri sözlüğü. Ankara 1992.
144. Uludağ Süleyman. "Akıl". TDV İslam Ansiklopedisi. İstanbul: TDV Yayınları, 1989, . C. 2. səh. 246-247.
145. Uludağ Süleyman. "Nefis". TDV İslam Ansiklopedisi. İstanbul: TDV Yayınları, 2006, C. 32. səh. 526-529.
146. Uludağ Süleyman. Tasavvufi Terimlər Sözlüğü. İstanbul, 1995.
147. Ünlü Demirhan. Kur`an`ı-Kerim`in tecvidi. Ankara: Türkiye Diyanet Vakfı Yayınları, 2005, 170 s.
148. Üzüm İlyas. "Mezhep". TDV İslam Ansiklopedisi. Ankara, 2004, c. 29, səh. 537-542.
149. Vural, Mehmet. İslam felsefesi sözlüğü. 2. bs. Ankara: Elis Yayınları, 2011.
150. Xətib Muhamməd Accac. Üsul əl-hədis: ülumuhu və müstələhatuhu. Dar əl-fikr, Beyrut, 1989.
151. Yardım Ali, Hadis I-II, Damla Yayın evi, İstanbul, 2000.
152. Yavuz Yusuf Şevki. "İbn Küllab". TDV İslam Ansiklopedisi. Ankara, 1999, c .20, səh. 156-157.
153. Yavuz Yusuf Şevki. "Kesb". TDV İslam Ansiklopedisi. İstanbul, 2002, c. 25, səh. 304-306.
154. Yazır Muhammed Hamdi. Hak Dini Kuran Dili. İstanbul: Eser Neşriyat, 1979.
155. Yurdagür Metin. "Ebü'l-Hüzeyl el-Allâf". TDV İslam Ansiklopedisi. Ankara, 1994, c.10, səh. 330-332.
156. Zəhəbi Muhamməd Hüseyn. Ət-Təfsir vəl-müfəssirun. Beyrut, tarixsiz.
157. Zərkəşi Bədrəddin. əl-Burhan fi Ulumil-Qur`an. Misir, 1957.
158. Zərqani Muhamməd Əbdüləzim. Mənahil əl-irfan fi ülum əl-Quran. Qahirə, tarixsiz.

## Mündəricat

**A** ........ **4**
**B** ........ **23**
**C** ........ **45**
**D** ........ **62**
**C** ........ **77**
**Ə** ........ **79**
**F** ........ **90**
**G** ........ **104**
**H** ........ **105**
**X** ........ **127**
**İ** ........ **136**
**J** ........ **158**
**K** ........ **159**
**Q** ........ **171**
**L** ........ **185**
**M** ........ **190**
**N** ........ **226**
**O** ........ **237**
**P** ........ **240**
**R** ........ **244**
**S** ........ **252**
**Ş** ........ **269**
**T** ........ **276**
**U** ........ **291**
**Ü** ........ **292**
**V** ........ **295**
**Y** ........ **303**
**Z** ........ **307**

# İZAHLI DİNİ TERMİNLƏR LÜĞƏTİ

Texniki redaktor:
HÜSEYN KƏRİMOV

Dizayn və tərtibat:
SƏDAQƏT KƏRİMOVA

Çapa imzalanmışdır: 29.12.2020.
Ölçü:70x100 1/16. Çap vərəqi:16. Sifariş:133/20. Say:500 ədəd.

NURLAR
Nəşriyyat-Poliqrafiya
Mərkəzi

Bakı, Az1122, Zərdabi pr. 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az

9 789952 837094